# ELÇİN

***Seçilmiş***
***əsərləri***

**2**

Redaktor:
**Dilsuz**

**Elçin.**

E46 «Seçilmiş əsərləri» (10 clddə), 2-ci cild**.**
**«ÇINAR-ÇAP»** müəssisəsinin nəşriyyatı, Bakı, 2005, – 523 səh.

E $\frac{4702060200}{122}$

**© «ÇINAR-ÇAP» , 2005**

# POVESTLƏR



# BIR GÖRÜŞÜN TARIXÇƏSI

(*Gümüşü Furqon*)



*– Adamın gərək naxışı gətirə!.. Bir də görürsən ki, bir-birindən bixəbər iki nəfər – bir qız, bir oğlan çöl-biyabanda bir-birinə rast gəldi; birdən belə məlum elədi ki, elə bir-birilərindən ötrü gəliblər bu dünyaya...*

*(Qəssab Ağanəcəfin arvadı Balacaxanımın küçə qapısı ağzında dayanıb tum çırtlaya-çırtlaya cavan qızlara dediklərindən.)*

*– Mənim də istədiyim budu ki, Məmmədağa xoşbəxt olsun!..*

*(Bu sözləri bir axşam Əli, Səmədullaya demişdi, həmin axşam ki, Yadulla və Fatmanın toyu idi və Ələkbərin klarneti adamın sümüyünü yerindən oynadırdı.)*

*– Mənimki belə gətirdi, təki Məsməxanım xoşbəxt olsun!..*

*(Voronejə gedən qatarın pəncərəsindən ağaran qış gecəsinə baxa-baxa Güldəstə belə fikirləşmişdi.)*

# I HİSSƏ

*Bu hissə oxucunu Məmmədağa ilə, Məmmədağanın ay işığında gümüş kimi ağaran alüminium örtüklü furqonu ilə, milisioner Səfərlə, Məmmədağanın məhəllə uşağı Mirzoppa ilə və nəhayət, Məsməxanımla tanış edir, oxucu Məmmədağa ilə Məsməxanımın bir-birilərinə söylədiklərinin və söyləmədiklərinin şahidi olur.*

Həmin qəribə gecə idi. Aydın məsələdir ki, Abşeronda bu cür gecələr saysız olmuşdu və bundan sonra da olacaqdı, amma alüminium örtüklü furqonun arxasında birdən-birə bir topa qıpqırmızı bulud görünəndə Məmmədağa fikirləşdi ki, qəribə gecədi bu gecə; bu gecənin nə üçün qəribə olduğu ona məlum deyildi və o özü də öz fikrinə təəccüb edib gözlərini qıydı, bir müddət altdan-yuxarı qıpqırmızı buluda baxdı, sonra başını qaşıya-qaşıya dənizə baxdı, amma bu işdən bir şey anlaya bilmədi.

Həmin qəribə yay gecəsi təzəcə başlayırdı və bir azdan alüminium örtüklü furqonun arxasında bir parça buludu qıpqırmızı qızardan günəş tamam batacaqdı, ay çıxacaqdı, ulduzlar çıxacaqdı, qurbağalar quruldamağa başlayacaqdı, cırcıramaların səsi aləmi başına götürəcəkdi. Zuğulba qayalarının yuxarısındakı pansionatın, sanatoriyanın həyətində yanan işıqlardan başqa kəndin bütün işıqları sönəcəkdi, Bakıya gedib-gələn elektrik qatarının səsi bir müddət lap aydın eşidiləcəkdi, sonra bu səs də kəsiləcəkdi, bir sözlə, Zuğulbanın bu dəniz sahilini həmişəki yay gecəsi bürüyəcəkdi.

Indi bir tərəfdən də ay dənizdə üfüqü qıpqırmızı qızartmışdı və dənizin mavi-qırmızı suyu üfüqdən sahiləcən par-par parıldayırdı, amma Məmmədağa Abşeronda bu cür yay gecələrini çox görmüşdü və təkcə bir tərəfdən günün batması, bir tərəfdən də ayın çıxması bu gecəni onun üçün qəribə edə bilməzdi.

Həmin gün axşama kimi külək əsirdi və külək bir saatdan bir dəyişirdi, gah xəzri ağappaq köpüklənmiş dalğaları qayalara çırpırdı, gah da gilavar əsirdi, amma axşamçağı birdən-birə külək dayandı və ağcaqanad yenə yamanca baş qaldırdı; Zuğulbanın dənizindən, qumundan, qayalarından olmazdı, amma ağcaqanadı da yaman ağcaqanad idi. Ağcaqanad Məmmədağanın gözünün düşməni idi, amma bu dəfə küləyin belə naxələf çıxması onun qanını qaraltmadı, çünki qəribə gecə idi bu gecə.

Məmmədağa yenə gözlərini qıyıb qırmızı bulud parçasına baxdı. Qırmızı bulud parçası yavaş-yavaş solurdu və necə oldusa, bu solğunluq həmin qəribə yay gecəsinə bir nisgil gətirdi. Məmmədağa bu nisgilin də səbəbini başa düşmədi və axırda bu qərara gəldi ki, qəribəlik elə ona görə qəribəlikdi ki, səbəbi məlum deyil. Bu qərara gəlib sidq-ürəkdən gərnəşdi və başını qaşıya-qaşıya furqonun balaca taxta nərdivanını qalxıb içəri girdi.

Məmmədağanın üstündə alabəzək iri hərflərlə «PNEVMATIÇESKIY TIR» yazılmış furqonu sübh tezdən yolun başında görünəndə çayçı Qəzənfərin qanı qaralırdı, çünki müştərilərinin bir çoxu – kəndin cavanları, yeniyetmələr həmin gün səhərdən axşamacan furqonun yanından əl çəkmirdi, tüfənglə nişan alırdı, parça toplarla bankalardan düzəldilmiş piramidaları vurub dağıdırdı, rezin halqaları tullayıb qarmaqlara keçirirdi.

Yayda Zuğulbaya gələndə Məmmədağa həmişə furqonu kənddən aralıda, sahildəki qumluqda saxlayırdı. Məmmədağa belə fikirləşirdi: o yerdə ki, genişlik yoxdu, orada istirahət də yoxdu; o yerdə ki, baxanda üfüq görünmədi, yağış yağanda üstünə damcılamadı, gün çıxanda səni qaraltmadı, yəni o yerdə ki, dənizlə, qayalarla, ağaclarla təkbətək olmadın, orada əsl istirahət yoxdu. Təkbətək o mənada yox ki, ancaq sənlə dəniz – ikiniz olasınız, o mənada ki, sənlə dənizin arasını asfalt kəsməsin, dəmir yolu kəsməsin, tüstüdən, mazutdan, maşın səs-küyündən uzaq olasan.

Məmmədağa istəsəydi, Bakının ən yaxşı yerlərindən birindəki TIR-ə işə düzələrdi; idarələrində hamı onu tanıyırdı və ona hörmət edirdi, çünki o həftə olmurdu ki, planı doldurmasın və indiyə kimi heç bir əskik işi olmamışdı ki, başını aşağı diksin; amma bunu istəmirdi Məmmədağa, çünki öz furqonunun, öz yolçuluq sənətinin aşiqi idi. Həftədə bir dəfə Bakıya gedirdi, pulunu təhvil verirdi, bazar gününü öz evlərində qalırdı, sonra yenə də yola çıxırdı. Abşeronda onun gəzmədiyi kənd yox idi. Hər kənddə bir, uzaqbaşı iki gün qalırdı, istəyirdi ki, heç kim onun furqonundan bezməsin və furqon hər dəfə özü ilə bir bayram gətirsin.

Bu həftə Bakıdan Xırdalana getmişdi, oradan Dügaha, oradan Məhəmmədliyə, oradan Fatmeyiyə, oradan da bura gəlmişdi – bu qəribə gecəli Zuğulbaya. Sabah sübh tezdən Bakıya qayıtmalı idi.

Axşam saat səkkizdən, doqquzun yarısından sonra TIR-ə gələn olmurdu, çünki hər gecə kənddə kino göstərilirdi və hərdən Məmmədağa özü də furqonu bağlayıb kinoya gedirdi, amma çox zaman axşamlar, gecələr də öz furqonu ilə məşğul olurdu, silib - təmizləyirdi, içini səliqəyə salırdı, tüfəngləri yağlayırdı, maşının kapotunu qaldırıb hissələrini gözdən keçirirdi, sonra da dənizdə çimirdi.

Məmmədağa dənizdən sahildə dayanmış furqonuna baxmağı xoşlayırdı; hər dəfə furqonun təmiz alüminium örtüyünə, üstündəki rəngbərəng iri hərflərlə yazılmış şüarlara baxdıqca hiss edirdi ki, öyünür, lap lovğalanır və dənizin suyu da bu lovğalığı tamam təmizləyirdi, elə bil, ovcunda balıqqulağı yuyurdu, büllurlaşdırırdı, bir uşaq sevincinə çevirirdi; bu uşaq sevinci dənizin içində Məmmədağanın bütün bədəninə yayılırdı. Məmmədağa yaxşı başa düşürdü ki, bu dünyada furqonu olmaq və həmin furqonu bu cür bəzəmək elə böyük bir iş deyil. Bunu başa düşürdü, amma hər dəfə də alüminium örtüklü furqona baxdıqca, üstündəki yazıları oxuduqca belə məlum olurdu ki, yenə öyünür əməlli-başlı.

Alüminium furqonun hər iki tərəfində iki eyni şüar yazılmışdı.

Birincisi:

*Uçis iskusstvu metko strelyat!*

Ikincisi:

*Yunoşi i devuşki!*
*Ovladevayte texniçeskimi vidami sporta!*

Bir yazını isə Məmmədağa özü fikirləşmişdi və furqonun girəcəyində *«PNEVMATIÇESKIY TIR»* sözlərinin aşağısında özü rəngbərəng hərflərlə yazmışdı:

*BIR GÜLLƏ ILƏ IKI DOVŞAN VURMAQ OLARMI? OLAR!*

Bu, müştəri yığmaq üçün yalandan yazılmış sözlər deyildi və ümumiyyətlə, Məmmədağanın yalanla heç arası yox idi. Bu mexanizmi o özü fikirləşib tapmışdı, özü də düzəltmişdi: taxta dovşanın döşündə qırmızı bir nöqtə vardı və güllə bu nöqtəyə dəyəndə həmin dovşan bir ayağı üstə sağ tərəfə əyilirdi, arxasından çıxan ikinci dovşan isə bir ayağı üstə sol tərəfə əyilirdi.

Iş belə gətirdi ki, həmin qəribə yay gecəsi Məmmədağa dənizdə üzə-üzə həmişəki kimi sahildəki furqonuna baxıb öyünə bilmədi...

Məmmədağa rezin parçaların üzərinə yapışdırdığı kağız nişangahları, taxta dovşanı, tülkünü, ayını, şiri və naməlum bir heyvanı, bankalardan düzəltdiyi piramidanı bir-bir nəzərdən keçirib birdən-birə darıxdı; tirdə işlədiyi müddətdən bəri birinci dəfə idi ki, beləcə darıxırdı; birdən-birə bu furqonun içi ona darısqal, cansıxıcı gəldi. O heç cür başa düşə bilmədi ki, bu nədən oldu; dayandığın yerdə birdən-birə beləcə darıxasan, qəribə iş idi; tüfənglərdən birini doldurub təkəlli qaldırdı və bir gözünü qıyıb nişan aldı. Həmişəki kimi onluğu vurdu, sonra özü də təəccüb etdiyi bir biganəliklə (nə olmuşdu axı, ona?!) məhəccəri aşıb kəlbətini götürdü və saçaqlı dəmir gülləni rezindən dartıb çıxartdı: sonra yenə məhəccəri keçib furqonun qapısına yaxınlaşdı, kəndin işıqlarına baxdı və birdən-birə belə bir fikir onu sarsıtdı ki, hərgah, bu saat burada onun başına bir iş gəlsə, heç kimin bundan xəbəri olmaz, bir müddət keçər, bu furqonu başqa birisi sürüb bura gətirər, hamı yenə gəlib nişan atar, amma heç kim yadına salmaz ki, dünyada Məmmədağa adında bir oğlan vardı və o oğlan bu furqonu çox istəyirdi, bu qumluğu da, bu dənizi də. Məmmədağa kənddən gələn işıqlara baxdı, baxdı və ona elə gəldi ki, bütün günü səhərdən axşamacan adamlarla olsa da, əslində o bu taxta dovşanın, tülkünün, ayının, şirin və naməlum heyvanın yanında tək-tənhadı.

Məmmədağa ömründə belə şeylər fikirləşməzdi və bilməzdi ki, vaxt olar, onun başına belə fikirlər gələr...

Furqona tərəf addımlayan adamın boğuq öskürəyindən məlum oldu ki, gələn milisioner Səfərdir.

Milisioner Səfər içəri girib:

– Axşamın xeyir, qağa! – dedi və dəsmalını çıxarıb sümükləri qabarmış arıq sifətinin tərini sildi.

Məmmədağa bayaq ağlına gələn fikirlərin gözlənilməzliyindən başını qaşıya-qaşıya:

– Axşamın xeyir, Səfər! – dedi və yenə də məhəccəri aşıb üstünə balaca döşəkcə qoyduğu taxta kətildə oturdu. Üzü quramalı bu döşəkcəni Səkinə xala düzəltmişdi və bu döşəkcə furqonda Məmmədağa üçün doğma şeylərin doğması idi.

– Hə Səfər e, qağa? Adım Səfərdi, amma ömrümdə bircə dəfə səfərim olub, ode, o dağlardan, – milisioner Səfər əlini başının üstünə qaldırıb elə bil ki, o dağları göstərdi, – buraya, vəssalam!

Milisioner Səfər otuz il idi Laçının dağlarından ayrılmışdı və həmişə o yerlərdən ötrü burnunun ucu göynəyirdi, yatanda da, duranda da o yerləri yadına salırdı, hər il hazırlaşırdı ki, oralara getsin, amma hər il də bir iş çıxırdı ortaya.

Əlbəttə, əgər arvadı Zübeydənin ürəyindən olsaydı, indi çoxdan gedib gəzmişdi o yerləri.

Məmmədağagilin məhəlləsində də gəlmələr vardı. Bunlar o adamlar idi ki, rayonlardan köçüb Bakıya gəlmişdilər, kimisinə hökumət məhəllədə boşalan evlərdən vermişdi, kimisi də pulla xüsusi mülk almışdı. Gəlmələr, adətən, məhəllədə özünü qərib hiss edirdi, heç kimlə qaynayıb-qarışmırdı. Məhəllə gəlmələrdən əvvəl bu evlərdə yaşayanları yaddan çıxarmırdı; onların çoxu təzə tikilmiş binalarda mənzil alırdı, bir müddət məhəllə ilə əlaqə saxlayırdı, sonra yavaş-yavaş bu əlaqə kəsilirdi, amma məhəllə onları uzun müddət yaddan çıxarmırdı.

Ata-babadan bu məhəllədə yaşayan və əri Əbdül onu da, uşaqlarını da atıb qaçandan sonra Sarı hamamda kassir işləyən Ağabacı deyirdi:

– Bu qarabağlıları görürsüz, ağəz, vəzəri yemirlər, deyirlər ki, adam belə göyərti yeməz...

Zərgər Ələşrəfin arvadı Ziba deyirdi:

– Ağəz, sən də söz danışdun də, zər qədrini zərgər bilər!

Bərdədə ev-eşiyini satıb ailəsi ilə Bakıya köçmüş və indi tramvay sürücüləri kursunda oxuyan Allahverdi deyirdi:

– Ə, sən ölməyəsən, məhəttələm bu bakılıların işinə!.. Səhərdən axşama kimi hər gün küftə-bozbaş bişirirlər. Səhər ayılıb eşidirsən ki, ət taxtasında ət döyürlər tıqqatıq, gecə yerinə girirsən, yenə də görürsən ki, ət taxtasında ət döyürlər tıqqatıq...

Inqilabdan əvvəl Xarkovda universitet qurtarmış rus dili müəllimi Alxas bəy isə müsbət səkkiz şüşəli eynəyinin üstündən adama baxa-baxa deyirdi:

– Oğul, bu nə qarabağlı söhbətidi, bu nə bakılı söhbətidi, nə çuşkabazlıqdı, nə həmşəribazlıqdı, ayıb deyil? Niyə özünüz özünüzə bir ad qoyub bihörmət edirsiniz?..

... Əlbəttə, milisioner Səfərin bütün bunlardan xəbəri yox idi və o, üz-gözünün tərini silib yaş dəsmalını yelləyə-yelləyə:

– Qağa, – dedi, – birindən soruşublar ki, haralısan, deyib hələ evlənməmişəm. Bu, düzdü, amma o yerlərin dağları yaddan çıxmır də!.. Yaddan çıxmır ki, çıxmır... Bu saat oralarda olasan, qağa, başın haqqı, gərək yun cempir geyəsən, üstündən də pencək düyməләyəsən. Yoxsa ayazdan dişin dəyəcək dişinə. Gərək pürrəng, xoruzpipiyi bir çay da içəsən ki, canın qızışsın, özün də ləzzət aparasan. – Söhbət çayın üstünə gəlib çıxanda milisioner Səfər lap bikeflədi. – Buranın çayı çay deyil ha!.. Nə qədər rəng tökürsən tök, nə cürə deyirsən dəmlə, amma o yerlərin çayının ləzzətini vermir... – Bilirsən nədəndi, qağa! Suyundan! O buz kimi dağ suyu ki, daşın dibindən pıqqıldayıb çıxır, başqa şeydi, qağa!..

Milisioner Səfər papağını çıxarıb çoxdan tükü tökülmüş daz başının tərini sildi. Gün onun üz-gözünü qapqara qaraltmışdı, başının papaq altında qalan hissəsi isə ağappaq idi, elə bil, ağ kasanı çevirib qoymuşdular başına.

– Başın haqqı, qağa, bu saat o çaydan iyirmi stəkan içərəm, doydum demərəm. Samovar da ki, başında çaynik, dızıldaya bir tərəfdə...

Milisioner Səfər lap yanıb-yaxılırdı ki, indi dağ suyundan xoruzpipiyi çay içə bilmir, Məmmədağanı isə bu saat dünyada ən az maraqlandıran şey çay idi; o hələ də bayaqkı fikirlərinə mat-məəttəl qalmışdı və başa düşə bilmirdi ki, nədən idi bu fikirlər, nə olmuşdu ona; get-gedə yaşa dolur, bundandı bəlkə? Yəni doğrudan yaşdandı? O, gözlərini milisioner Səfərin ağappaq başından çəkib taxta dovşana,

tülküyə, ayıya, şirə və naməlum heyvana baxdı və iki ildən bəri Abşeron yollarında ürəyində gəzdirdiyi bir istək, arzu yenə baş qaldırdı.

Iki il bundan əvvəl Bakıdakı bulvarda böyük attraksion sərgisi açılmışdı və həmin sərgiyə baxan gündən bəri Məmmədağanın belə bir arzusu var idi ki, Abşeronun kəndlərini təkcə öz alüminium örtüklü furqonu ilə yox, bu cür bir attraksionla gəzib dolaşsın, bu səyyar attraksion sirk kimi bir şey olsun; Məmmədağa belə fikirləşirdi və indi də ona elə gəldi ki, belə bir attraksionu olsa, darıxmaq nədi, adamın heç başını da qaşımağa vaxtı olmaz.

Milisioner Səfər papağı başına qoyub:

– Belədir işlər, qağa, – dedi. Adım Səfərdi, amma həyatımda cəmi bircə səfərim olub...

Sonra milisioner Səfərin yadına düşdü ki, bu gün səhər həyətdə dayanıb diş tozu ilə formasının dəmir düymələrini sürtüb parıldadanda, nə oldusa, arvadı Zübeydə yenə hirsləndi və üzünü ona tutub dedi ki, sən Səfər yox, Səfehsən... Nə üstündə hirsləndi Zübeydə? Milisioner Səfər bunu yadına sala bilmədi və gülümsədi. O, Zübeydənin hirslənmələrinə öyrənmişdi və daha acığı tutmurdu buna. Sonra birdən-birə yadına düşdü ki, deyəsən, yenə Naçalnikin üstündə hirsi tutdu Zübeydənin...

Naçalnik yadına düşəndə yenə milisioner Səfərin qanı qaraldı, çiyninə qonmuş ağcaqanadı şappıltı ilə vurub öldürdü, sonra köynəyini təmizləyib dedi:

– Yaxşı deyiblər ki, niyyətin hara, mənzilin də ora. – Sonra da Məmmədağaya baxıb gülümsədi. – Sən cavan oğlansan, belə şeyləri bilməzsən...

Əlbəttə, Məmmədağa milisioner Səfərin nə fikirləşdiyini bilmirdi, amma burasını çox yaxşı bilirdi ki, bu arıq, uzun kişi bir də heç vaxt dağ suyundan xoruzpipiyi çay içməyəcək. Məmmədağa niyə belə fikirləşirdi, səbəbi məlum deyildi; bir də ki, milisioner Səfərin elə görkəmi belə deyirdi.

Məmmədağa bunu da bilmirdi ki, milisioner Səfərin iki naçalniki var idi, biri təbii ki, idarədə, o biri də evdə. Məsələ burasında idi ki, milisioner Səfərin altı qızı, bir oğlu var idi, oğlu sonbeşik idi və o, anadan olanda həyatlarında birinci dəfə milisioner Səfərlə Zübeydənin sözü bir oldu: uşağın adını Naçalnik qoydular.

Düzdür, indi uşaqlar Naçalnikin adını lağa qoyanda və o gəlib evdə ağlayanda ki, niyə mənə belə ad qoymusunuz, Zübeydə günahı yıxırdı milisioner Səfərin boynuna, amma o vaxt özü razılıq vermişdi və o vaxt milisioner Səfərin ürəyi lap dərində bir qubar bağlamışdı: o başa düşmüşdü ki, Zübeydə ona görə uşağa bu adı qoymağa razılıq verdi ki, bilirdi əri heç vaxt naçalnik olmayacaq.

Milisioner Səfər indi də uşağa belə ad qoymaqlarına peşman deyildi. Əvvəla, ona görə ki, ad adamı bəzəmirdi, adam adı bəzəyirdi. Ikincisi, pis bir söz deyildi bu, Naçalnik gərək yaxşı oxuyaydı, yaxşı çalışaydı, adını doğruldaydı. Onun qanını qaraldan və axşam vaxtı bu furqona gətirən də elə burası idi.

Milisioner Səfər yenə papağını qaldırıb yaş dəsmalla ağappaq başını sildi, bundan sonra uzün qara barmaqları ilə köhnə portsiqarından bir «Pamir» çıxarıb yandırdı, dərin bir qullab vurub dedi:

– Işığa gəlir e, qağa, bu köpək uşağı ağcaqanadlar, işığa gəlir. Bu saat mən gedirəm, sən də işığı söndür.

Məmmədağa furqonun ortasından sallanmış elektrik lampasına baxdı. Günaşırı şüşəsini silib təmizlədiyi bu iki yüz voltluq lampa furqonun içini elə gur işıqlandırırdı, elə bil, işıq bu darısqallığa sığışmırdı. Məmmədağa bu darısqallığı yenə hiss etdi, ürəyi qısıldı və lap qəti qərara gəldi ki, günü sabahdan attraksion məsələsini danışacaq idarədə, lazım olsa, gedəcək Nəcəfin yanına, axırı ki, bir iş edəcək.

Nəcəf qabaqlar Məmmədağagilin məhəlləsində yaşayırdı və ondan cəmi dörd yaş böyük idi, amma indi nazir müavini işləyirdi. Məhəllədən kim onun yanına xahişə getmişdisə, Nəcəf əlindən gələni əsirgəməmişdi.

Məmmədağa Nəcəfi yadına salıb bir balaca yüngülləşdi və milisioner Səfərin həmişə parıldayan qoburuna baxdı. Milisioner Səfər hər gün evdən çıxıb işə gedəndə qoburunu səliqə-sahmana salar, yaxşı-yaxşı silərdi. Məmmədağa tüfənglərdən birini məhəccərin üstü ilə ona tərəf sürüşdürüb:

– Atmaq istəyirsən, götür at! - dedi.

Milisioner Səfər bu dəfə boynuna qonmuş ağcaqanadı şappıltı ilə vurub öldürdü və yaş dəsmalı ilə boynunu silə-silə:

– Yox, qağa, çox sağ ol, – dedi. – Atmaqla, vurmaqla aram yoxdu. Mənimki odu ki, əmin-amanlıq ola, sakitlik ola... Bilirsən, qağa, sənin yanına niyə gəlmişəm? – Milisioner Səfər axır ki, ürək eləyib mətləbə keçdi. – Mənim oğlumu gərək qoymayasan buralara gələ, gələndə qovasan.

– Evdən xəlvət pul götürüb gəlib bura?

– Yox, ə, sən də söz danışdın də!.. – Mənim oğlum oğurluq edər? Tanımırsan onu?

– Yox.

– Ona görə də elə deyirsən də!.. Mətləb başqadı, qağa... Dünən yox srağagün soruşuram ondan ki, daha böyük oğlansan, keçmisən səkkizinci sinfə, gərək indidən məqsədin ola ki, kim olacaqsan böyüyəndə. Deyir məqsədim var. Deyirəm kim olacaqsan? Deyir furqonum olacaq, kəndlərə tir gətirəcəyəm...

Məmmədağa milisioner Səfərin uzun sifətinə, tərdən yaş olmuş köynəyinə, par-par parıldayan dəmir düymələrinə baxdı, sonra ayağa qalxıb məhəccərin üstündən atıldı və furqonun qapısına yaxınlaşıb kəndin işıqlarına baxdı. Ona qəribə gəldi ki, sübh tezdən buradan çıxıb gedəcək, bir də neçə vaxtdan sonra bura gələcək, amma kim isə tamam başqa adam, lap elə sabah dənizdə çiməndə, sahildə, günün altında parıldayan alüminium örtüklü bir furqonu gözünün qabağına gətirəcək, bu furqonu özünkü biləcək və ürəyində öyünəcək. Kəndin işıqları birdən-birə ona doğma gəldi, elə bil, içini isindirdi və Məmmədağa fikirləşdi ki, Abşeronun hər kəndində işıqlar sönəndən sonra gecənin yarısı yuxuya getməzdən əvvəl kiminsə gözlərinin qabağına alüminium örtüklü bir furqon gəlir və həmin furqon Məmmədağanın, bax, bu furqonudu. O, başını qaldırıb göyə baxdı.

Qırmızı bulud parçası yox olub getmişdi. Dənizdə üfüq də qızarmırdı daha. Ay çıxmışdı, ulduzlar çıxmışdı, lap xəfif xəzri başlamışdı və ay işığında sahilə gələn ləpələrin köpüyü süd kimi ağappaq ağarırdı; bu süd ağlığında elə bil ki, həmin qəribə yay gecəsinin təmizliyi vardı və Məmmədağa başa düşə bilmədi ki, cəmi on dəqiqə bundan əvvəl niyə birdən-birə o cür darıxdı? Bir halda ki, dünyada bu cür süd ağlığı vardı, adam niyə darıxırdı, niyə adamın ürəyi qısılırdı?

Milisioner Səfər heç vaxt heç kimin ürəyinə dəymək istəməzdi. Onun fikrincə, dünyada ən pis şey kiminsə ürəyini sındırmaq idi. İndi də arxadan bu cavan oğlanın qara saçlarına, enli kürəyinə, əzələləri sayılan qollarına baxa-baxa fikirləşdi ki, pis iş gördü deyəsən, könlünü sındırdı deyəsən bu oğlanın. Amma burası da var idi ki, cavan oğlan da gərək zəhmət çəkib onu başa düşəydi. Milisioner Səfər yaş dəsmalını səliqə ilə qatlayıb cibinə qoydu və uzun qara barmaqları ilə yenə də köhnə portsiqarından bir «Pamir» çıxarıb yandırdı, dərin bir qullab vurub dedi:

– Bilirsən, qağa, nahaq pərt olursan. Deyiblər ki, həmişə imam üçün ağlayanda, bir dəfə də yezid üçün ağla. Mən nə deyirəm? Pis söz demirəm ki... Mən də istəyirəm təkcə oğlum yaxşı oxusun, böyüsün, böyük adam olsun...

Məmmədağaya çox adam çox söz demişdi, amma uşaq vaxtı molla Süleymanın dediyi bir söz heç vaxt yadından çıxmırdı. Adamlara deyilən sözlər də qəribə idi. Bir də görürsən sənə elə söz deyirlər ki, şapalaq kimi tutur, amma bir aydan sonra yaddan çıxıb gedir və heç vaxt onu xatırlamırsan. Hərdən də elə söz deyirlər ki, heç fikir vermirsən, amma sonralar bütün ömrün boyu yadından çıxmır.

Molla Süleyman Məmmədağagilin məhəlləsində olurdu və onun haqqında danışmaq köhnə Sarı hamam, köhnə məscid, yan-yana iki adam güclə yeriyən Dar dalan haqqında danışmaq kimi bir şey idi. Molla Süleymanın gözündə qalın şüşəli çeşmək, başında adda-budda tükü tökülmüş qəhvəyi rəngli buxara papaq, əlində üstü gümüşlə işlənmiş köhnə əsa olardı. Əvvəlcə molla Süleymanın çəliyinin tıqqıltısı eşidilərdi, sonra özü hansı həyətdənsə çıxıb səki ilə addımlayardı.

Məhəllənin molla Süleymandan xoşu gəlməzdi. Molla Süleyman çağırılmayan qonaq idi və harda aşdı, orda başdı. Günlərin bir günündə məhərrəmlik vaxtı Məmmədağa ömründə birinci və axırıncı dəfə uşaqlarla Sarı hasara dırmaşıb məscidin həyətinə baxdı. Molla Süleyman balaca həyətin ortasında dayanıb mərsiyə deyirdi:

Necə qan ağlamasın daş bu gün,
Kəsilib yetmiş iki baş bu gün.
Kaş bu gün, bu dəmdə
Olaydım Kərbəlada.

O zaman Məmmədağa molla Süleymanın çeşməyinin qalın şüşələri altından bərələn gözlərinə baxıb fikirləşmişdi ki, əgər yetmiş iki baş kəsilən vaxt Kərbəlada olsaydı, adamları darda qoyub elə birinci qaçan molla Süleymanın özü olardı. Məmmədağa bunu axşam evdə də dedi və Səkinə xala əvvəlcə ona acıqlandı ki, bir də məscid tərəfə getməsin, sonra da özünü saxlaya bilməyib gülümsədi:

– Amma sən də az bilmirsən ha! – dedi.

Məmmədağagilin məhəlləsində binaların çoxu birmərtəbəli, ikimərtəbəli idi və hamısının da damına qır basılmışdı. Məmmədağagil dama çıxıb molla Süleymanı gözləyirdi, çəliyin tıqqıltısı gələn kimi, birmanatlığın ucunu deşib sapla bağlayırdılar. Molla Süleyman səkinin üstünə düşmüş manatlığın yanına çatanda dayanırdı, çeşməyini pula zilləyib diqqətlə baxırdı, sonra əyilib yerdən götürmək istəyirdi. Molla Süleyman səkinin üstünə əyilən kimi Məmmədağagil sapı dartırdı və kişi pulun dalınca bir neçə metr az qala iməkləyirdi. Sonra Məmmədağagil hay-küylə sapı yuxarı dartırdı və manatlıq molla Süleymanın yekə, çopur burnunun

qabağından dama qalxırdı. Molla Süleyman lənət yağdıra-yağdıra, qarğışlaya-qarğışlaya çəliyini tıqqıldadıb səkinin üstü ilə yoluna davam edirdi:

– Dayanın bir, köpək uşağı! Əlləzinəni əzbər oxudacağam sizə!..

Ən qəribəsi bu idi ki, üç-dörd gündən sonra molla Süleyman yenə də özünü saxlaya bilməyib, ucuna ip bağlanmış manatlığı götürmək üçün aşağı əyilirdi.

Bir gün Məmmədağa Dar dalanın qabağındakı tut ağacının altında oturub taxtadan şumaqədər yonurdu. Birdən kim isə onun boynunun ardından tutub qaldırdı. Məmmədağa heç vaxt bilməzdi ki, molla Süleymanın qolunda belə güc var. Onun gözlərini də bu cür yaxından görməmişdi. Dərinə düşmüş bu acıqlı gözlər qalın şüşənin arxasında böyümüşdü. Molla Süleyman Məmmədağanın sifətini lap gözlərinin tuşuna gətirib saralmış seyrək balta dişlərinin arasından tüpürcək damcıları sıçraya-sıçraya:

– Bircə, – dedi, – biləydim ki, böyüyəndə sən kim olacaqsan? Hambal olacaqsan, hambal! Hambal Dadaş deyəcəklər sənə!

Bu vaxt Məmmədağagilin dalan qonşusu Kitabulla hardansa gəlib çıxdı və onu molla Süleymanın əlindən aldı:

– Uşağın boynunu burax, a kişi! Burax deyirəm sənə!

Molla Süleyman acıqlı gözləri ilə Kitabullanın hündür boynunu, enli kürəklərini, güclü qollarını nəzərdən keçirib:

– Sən də Qoçu Nəcəfqulusan? – dedi.

– Yox, Qoçu Nəcəfqulu deyiləm, amma burax uşağın boynunu!

– Hə... Deməli, Həllac Mənsursan! – Molla Süleyman bu sözləri lap yanıb-yaxılıb dedi və Məmmədağanın boynunu buraxdı; Məmmədağa düz bir həftə molla Süleymanın qaxac barmaqlarını boynunun arxasında hiss etdi.

Indi o vaxtdan çox illər keçmişdi və o zaman dediyi bu sözlər yəqin molla Süleymanın özünün yadından çıxmışdı. Bakıda olanda Məmmədağa furqonun bir tərəfini səkiyə çıxarıb evlərinin qabağında saxlayırdı. Məhəllənin uşaqları furqonun başına yığılırdı və bu uşaqlardan heç kim ağlına gətirmirdi ki, bir vaxt Məmmədağanın özü məhəllədə dayanan maşınların qabağında bu cür atılıb - düşürdü. Düzdür, ondakı maşınlarla bu alüminium örtüklü furqon bir araya sığmırdı, yəni bu furqonun yaraşığının qabağında o «paluturka»lar, «villis»lər təzə nağaranın yanında köhnə dəf kimi bir şey idi.

Məmmədağa Sarı hamama gedib özünü kisəçi Cabbara yaxşıca kisələtdirirdi, buğxanaya girib yaxşıca buğlanırdı, hamamdan çıxıb Əsədullanın budkasında bir krujka sərin pivə içirdi, sonra evə gəlib təzə köynəklərindən birini, təzə kostyumunu geyirdi, qalstuk taxırdı, çölə çıxıb Dar dalanın qabağındakı tut ağacının yanına gəlirdi. Tay-tuşları, məhəllənin cavanları bir-bir gəlib onunla görüşürdü, hal-əhval tuturdular və Məmmədağa məhəllədəki bütün yeniliklərdən xəbərdar olurdu, bilirdi ki, kim nişanlanır, hansı qızın «hərisini» veriblər, kim işini dəyişib, kim qonşusuyla dalaşıb, kim kimlə barışıb və kim kimdən inciyib. Böyük yeniliklərdən isə əvvəlcədən evdə xəbər tuturdu. Toya çağrılanda onun dəvətnaməsini Səkinə xalaya verirdilər və o həmişə işini elə qurmağa çalışırdı ki, toylarda iştirak eləyə bilsin. Məhəllədə hansı toyasa gedə bilməyəndə, o saat dedi-qodu başlayırdı və Məmmədağanın belə dedi-qodudan zəhləsi gedirdi. Işdi, heç cürə mümkün eləyə bilməyəndə, əvvəlcədən hədiyyəsini aparıb toy yiyəsinə verirdi, təbrik edirdi. Hər bazar günü Bakıda qalanda mütləq yas yerlərinə dəyərdi, başsağlığı verərdi,

üzrxahlıq edərdi. Məhəllədə hamı onun xətrini istəyərdi və cavanlar onunla hesablaşardı. Məhəllənin fikri yekdil idi:

– Məmmədağa kişi oğlandır!

Bəzən molla Süleyman da çəliyini tıqqıldada-tıqqıldada günün altında par-par parıldayan alüminium örtüklü furqonun yanından keçirdi. Məmmədağagilin küçəyə baxan pəncərələrinin qabağında ayaq saxlayıb çəliyini qaldırırdı, ağacın ucu ilə şüşəni döyüb Məmmədağanın anasını çağırırdı, çeşməyinin arxasında irilənmiş zəhmli gözlərini düz arvadın gözlərinə zilləyib deyirdi:

– Səkinə bacı, maşallah! Maşallah! Yaxşı oğlun var! Allah-taala onu sənə çox görməsin! Xoşbəxt olsun!

Səkinə xala da ürəyindəki gizli təlaşla dil-ağız edirdi:

– Çox sağ ol, molla! Ömrün uzun olsun!

Səkinə xala qorxurdu ki, molla Süleymanın Məmmədağaya gözü dəyər; səhər mis qazanda ayrıca bozbaş asırdı, elə qazanla da göndərirdi molla Süleymangilə; bu da, bir növ, rüşvət kimi bir şey idi.

Molla Süleymanın iki oğlu var idi, ikisi də dustaq yatırdı. Biri müharibə vaxtı əsir düşüb faşistlərin tərəfinə keçmişdi, o birisi isə on beş yaşında bir qızı zorlamışdı.

Səkinə xala oğlundan çox razı idi. Məmmədağa keçən il bacısı Solmazı şah qızı kimi köçürmüşdü. Solmazın indi yaxşı ev-eşiyi vardı, özü də yaxşı adama rast gəlmişdi.

Səkinə xalanın dünyada bircə nigarançılığı vardı ki, o da Məmmədağa sarıdan idi. Həm işi elə iş idi ki, adamı nigaran qoyurdu, həm də evlənmirdi ki, evlənmirdi: Səkinə xala məhəllənin ən yaxşı qızlarının adını çəkirdi, amma Məmmədağa heç kimi yaxın qoymurdu və belə söhbətlərdən də xoşu gəlmirdi. Səkinə xala bilirdi ki, oğlu bircə dəfə «hə» desə, məhəllənin ən adlı-sanlı ailəsindən ən yaxşı qızı gəlin gətirər evinə. Hətta qonşuları upravdom Kərim özü bir-iki dəfə işarə vurmuşdu ki, Məmmədağa nahaq subay gəzir. Upravdom Kərimin bütün məhəllənin yaraşığı bir qızı vardı, gündüz kitabxanada işləyirdi, axşam institutda oxuyurdu...

... Həmin qəribə yay gecəsi məhəllələri, evləri, Dar dalanın qabağındakı tut ağacı Məmmədağanın yadına düşdü və nədənsə ona elə gəldi ki, buradan – Zuğulbanın bu qumlu dəniz sahilindən onların məhəlləsinə cəmi bir saatlıq, furqonla iki saatlıq yol deyil, gərək günlərlə gedəsən bu yolu; birdən-birə ona elə gəldi ki, məhəllələri də milisioner Səfərin başı qarlı dağları kimi, bu yerlərdən çox uzaqdı; üzünü furqonun məhəccərinə söykəyib, səhərdən bəri papağı ilə sifətini yelləyə-yelləyə özünü tənbehləyən milisioner Səfərə tutub:

– Deyirsən, yaxşı vaxtıdı o dağların? – dedi.

Milisioner Səfər məsələnin bu cür asan və yüngül həll olunmasına sidq-ürəkdən sevinib:

– Başın haqqı, qağa, – dedi, – bu saat orada bir büsat var ki, qiyamətdi!.. Sonra bir az susub əlavə etdi: – Deyəsən, müştərilərin gəlir.

Milisioner Səfər papağını başına qoyub furqonun qapısından çölə boylandı və bu dəfə lap açıq-aşkar qanı qaraldı:

– Qurumsaq oğlu qurumsaq, içib deyəsən yenə...

Bir-birinin ardınca iki nəfər içəri girəndə spirt iyi furqonu başına götürdü və Məmmədağa qabağındakı kök oğlanı o saat tanıdı.

Kök oğlan əvvəlcə milisioner Səfərə tərs bir nəzər saldı, sonra Məmmədağaya baxdı, sonra da taxta dovşana, tülküyə, ayıya, şirə və naməlum heyvana baxıb güldü:

– Alə, kefdi ki bu, – cibindən bir dənə beşlik çıxarıb məhəccərin üstünə çırpdı: – Əlli dənə güllə ver! Atacağıq səhərə kimi!

Onun yanındakı arıq oğlan da elə bil şüar deyirdi, əlini yuxarı qaldırdı:

– Atacağıq!

Məmmədağaya məlum oldu ki, Mirzoppa onu tanımadı, buna baxmayaraq, lap yüz güllə verərdi onlara, amma o yerdə ki, söhbət tüfəngdən-gülllədən gedirdi, qoy tirin saçaqlı gülləsi olsun, fərqi yox idi, qardaşı da içib gəlsəydi, atmağa qoymazdı.

Mirzoppa yağlı göz qapaqlarını qıyıb taxta dovşana baxdı və bu dəfə lap bərkdən güldü:

– Alə, doğrudan kefdi e, bu! Nöş indiyəcən bura gəlməmişik biz?

Mirzoppa arıq oğlana baxdı. Arıq oğlan əlini yuxarı qaldırıb:

– Atacağıq! – dedi.

– Tüfəngin yaxşısını ver a, xalaoğlu, fiktivni iş görmə bizimlə!.. – Bunu da Mirzoppa Məmmədağaya dedi.

Əlbəttə, başqa vaxt olsaydı, Məmmədağaya belə sözlər demək mümkün olan iş deyildi, yəni bu sözləri deyən, TIR-in saçaqlı gülləsi kimi, furqonun qapısından çölə atılardı, amma Məmmədağanın bir xasiyyəti vardı ki, lazım olanda acı sözü udmağı bacarırdı; bu dəfə də Mirzoppanın yağlı sifətinə baxıb təkcə bunu dedi:

– Qalsın sonraya. Bağlamışam tiri.

– Neynəmisən? – Mirzoppa arıq oğlana baxdı, yəni ki, bu nə səfeh sözdü eşidirik, sonra üzünü Məmmədağaya tutdu. – Tez elə, alə, tez elə!

Arıq oğlan yenə əlini qaldırıb:

– Atacağıq! – dedi.

– Atmayacaqsınız! – Bunu da milisioner Səfər dedi.

– Sən mumla! – Bunu da Mirzoppa milisioner Səfərə dedi, sonra da əlini boğazına apardı. – Yığmısan məni, bax, bura! Hara gedirəm düşürsən dalıma. Əl çək məndən, deyirəm sənə!

Milisioner Səfər papağını çıxarıb bu dəfə furqonun içinə dolmuş araq iyindən özünü yelləyə-yelləyə:

– Ə, Mirzoppa, adam olmadın də, sən! – dedi. – Ayaq üstə dura bilmirsən, harana yaraşır indi tüfəng atmaq?

Mirzoppa cibindən bir dənə də əzik beşlik çıxarıb məhəccərin üstünə çırpdı:

– Puluna minnət! Yüz güllə ver! – dedi.

Arıq oğlan yenə əlini yuxarı qaldırıb şüarını dedi:

– Atacağıq!

– Atmayacaqsınız! – Bunu təzədən milisioner Səfər dedi.

Mirzoppa köynəyinin açıq yaxasından tükləri pırtdayıb çıxmış kök sinəsini qaşıya-qaşıya:

– Sənə demirəm əl çək bizdən? – dedi. – Nə istəyirsən? Pulun yoxdu, pul verək?!

Əlbəttə, bu söz milisioner Səfər üçün dünyanın ən böyük təhqiri idi. Hirsindən səsi xırıldaya-xırıldaya dedi:

– Mənim indiyə qədər dilimə haram çörək dəyməyib! Indiyə qədər, gözümün ucuyla da olsa, kimsənin əlinə baxmamışam. Həmişə çesni olmuşam, düz dolanmışam. Həmişə də belə olacağam!

Mirzoppa milisioner Səfəri nifrətlə təpədən-dırnağa qədər süzüb:

– Elə ona görə bu günə qalmısan də!.. – dedi. Milisioner Səfər papağını başına qoyub Mirzoppanın lap qabağına yeridi:

– Nə günə qalmışam, ə, mən? Nə günə qalmışam?!

Mirzoppa bu dəfə milisioner Səfərə cavab vermədi, üzünü Məmmədağaya tərəf tutub:

– Tez elə! – dedi. – Adama bir tüfəng, yüz güllə!

Məmmədağa heç vaxt gözləməzdi ki, günlərin bir günündə, qəribə bir yay gecəsi Mirzoppa ilə beləcə rastlaşacaq. Əslində o, Mirzoppanı tamam yadından çıxarmışdı və bu gecə onu görməsəydi, bəlkə də heç vaxt yadına salmayacaqdı.

– Noldu, alə? – Mirzoppa gözünün birini yumub diqqətlə Məmmədağaya baxdı və onu tanıdı. – Məmmədağa döyülsən sən?

– Məmmədağayam...

...Mirzoppanın atası Əliabbas kişi qırçı idi və məhəllədə hamı onlara «Qırçılar» deyirdi. Iri bir qır tiyanı Mirzoppagilin küçə qapılarının qabağında dayanırdı və payızqabağı bu qır tiyanı məhəllədəki evlərin qapılarında gəzirdi. Əliabbas kişi binaların damına qır basırdı. Hərdən tiyan məhəllədən yox olurdu, bu o demək idi ki, Əliabbas kişi başqa məhəllədə iş götürüb. Həmin iri qır tiyanı görünməyəndə, elə bil, məhəllədə nəsə çatışmırdı, nəsə öz yerində deyildi.

Mirzoppa həmişə özündən dörd-beş yaş kiçik uşaqlarla durub-otururdu və bu uşaqların yanında sözü keçirdi. Heç kim bilmirdi ki, Mirzoppanın neçə yaşı var və Məmmədağagili evdə onunla qorxudurdular:

– Görürsüz Mirzoppanı, papiros çəkir, ona görə də boyu çıxmır. Kim papiros çəksə, Mirzoppa kimi pota olacaq, böyüməyəcək, bax, beləcə qartıb qalacaq.

Uşaqlardan heç kim Mirzoppaya oxşamaq istəmirdi, çünki Mirzoppanın özünü heç kim istəmirdi, ondan qorxan vardı, amma xətrin istəyən yoxdu. Uşaqların arasında papiros çəkən də o idi, birinci dəfə arvadlardan danışan da o olmuşdu.

Mirzoppagil məhəllənin aşağısında balaca yay kinoteatrının yanında olurdu. Bir yay həmin kinoteatrda üç ay hər gün «Tarzan»ı göstərdilər. Uşaqlar səhər yerlərindən qalxan kimi gedib bilet növbəsinə dururdu. Kinoteatrın qabağı bilet alverçiləri ilə dolu olurdu. Hərdən uşaqların pulu olmayanda, Mirzoppagilin damına çıxıb kinoya oradan baxırdılar və bunun üçün Mirzoppa səhəri gün onların hərəsindən abbası-abbası pul yığırdı.

Mirzoppa həmişə böyük-böyük danışırdı, başından böyük qələt eləyirdi, uşaqlara qulluq buyururdu, böyüklərə qulluq göstərirdi; Məmmədağadan xoşu gəlmirdi, ona görə ki, göndərmək istəyəndə nə papiros dalınca gedirdi, nə tiyanın altında yandırmaq üçün taxta-tuxta yığırdı. Bir-iki dəfə xəlvətə düşəndə Mirzoppa onunla vuruşmuşdu, heç biri heç birini əməlli-başlı əzişdirə bilməmişdi, amma Mirzoppa həmişə qalib kimi gəzirdi, qalib kimi durub-otururdu.

Bir gün hər şey dəyişdi.

Həmin gün Mirzoppa evlərinin qabağındakı səkidə oturub qara çörəklə duzlu balıq yeyə-yeyə pəsdən oxuyurdu özü üçün:

«Pobeda» - mobeda bilmərəm,
Tarzanı mindirmərəm,
Cenn ipi kəsibdir,
Mən onu dindirmərəm.

(Qəssab Ağanəcəfin arvadı Balacaxanım hərdən kefinə düşəndə məhəllədə uşaqların arasında bu məşhur mahnını başqa cür oxuyurdu:

«Pobeda» - mobeda bilmərəm,
«Moskviç»ə minmərəm,
«Zim» qapıya gəlməsə,
Mən heç hara getmərəm.

Bunu oxuyurdu və həmişəki kimi, başına toplaşmış cavan məhəllə qızlarına göz vurub bərkdən şaqqanaq çəkirdi. Tramvay kursunda oxuyan Allahverdinin anası Ayna arvad evlərinin pəncərəsindən Balacaxanıma baxıb öz-özünə danışırdı: «Ona bax, gör nə şaqqanaq çəkir!.. Qarğa, məndə qoz var deyir e, lap!..»)

Həmin gün Məmmədağa neft dükanından neft alıb evə aparırdı və Mirzoppanın yanından keçəndə özünü saxlaya bilməyib dayandı.

O illər Məmmədağagildə şəkərbura, paxlava, şəkərçörəyi tez-tez olardı; onda Səkinə xala şirniyyat fabrikində işləyirdi, iki gündən bir, üç gündən bir işdə onlara pay verirdilər; şəkərbura tez-tez olardı, amma başqa şey az-az olardı, duzlu balıq isə heç olmazdı – Səkinə xalanın duzlu balığın iyindən xoşu gəlməzdi.

Əlbəttə, Mirzoppa o saat başa düşdü ki, duzlu balıq üçün Məmmədağanın ağzı sulanıb, amma Mirzoppa da elə ona görə Mirzoppaydı ki, bu yerdə adamı yandırıb-yaxardı.

– Əntiqə silyotkadı! – Mirzoppa ağzını marçıldada-marçıldada duzlu balığın quyruğunu sümürdü. – Yeyirsən?

Məmmədağa bilirdi ki, Mirzoppa belə məqamda adama balıq verən deyil, amma özünü saxlaya bilməyib dedi ki, hə, yeyirəm.

– Pulun var yanında?

Bayaq neft alanda Məmmədağaya xırda pul qaytarmışdılar və həmin xırda pullar indi Məmmədağanın trikotaj köynəyinin döş cibində idi, amma o vaxtlar pul Məmmədağagilin evində çox mötəbər bir şey idi və o, ürək eləyib bu pulları Mirzoppaya verə bilməzdi.

– Hə, var pulun?

– Yox.

– Onda al! - Mirzoppa duzlu balığın yağına bulaşmış kök baş barmağını iki barmağının arasına soxub, Məmmədağaya göstərdi, sonra yenə duzlu balığın quyruğunu sümürüb ağzını marçıldatdı və birdən nəsə fikirləşib dedi: – Get evdən şəkərbura gətir, dəyişək. Ancaq yaxşısı olsun, üstündə də badam, özü də lap böyük.

O illər məhəllədə konfet, şokolad, şəkərbura, paxlava, şəkərçörəyi ən ləziz şeylərdən idi və aydın məsələ idi ki, hamı bunları alıb yeyə bilmirdi. Gücü çatan Novruz bayramı üçün şəkərbura ilə paxlava bişirirdi. Əlbəttə, həmin şəkərbura, paxlava fabrikdə bişəndən ləzzətli olurdu, amma o yerdə ki, söhbət olub-olmamaqdan gedirdi, onda evdə bişməyə, ya fabrikdə bişməyə fikir verən yox idi.

Məmmədağa evdən şəkərbura gətirəndə Mirzoppa Dar dalanın qabağında dayanıb onu gözləyirdi. Şəkərburanı əlinə alıb zərgər Ələşrəf qızıla baxan kimi, o tərəf-bu tərəfinə baxdı və Məmmədağa fikirləşdi ki, Mirzoppa indi də təzə bir hoqqa çıxaracaq, amma şəkərbura Mirzoppanı tutmuşdu və o təkcə bunu elədi ki, minnət qoydu:

– Yaxşı də, day sənsən... Ala.

Məmmədağa duzlu balıq parçası ilə qara çörəyi alıb elə oradaca yedi, Mirzoppa isə evlərinə getdi.

Iki gün keçdi və üçüncü gün axşam Mirzoppa özü Dar dalana gəldi, əlində tutduğu qara çörəklə duzlu balıq parçasını Məmmədağaya göstərib soruşdu:

– Şəkərbura gətirirsən?

– Yox, istəmirəm.

– Istəmirsən? Silyotka istəmirsən? – Az qaldı Mirzoppanın gözləri kəlləsinə çıxsın. – Belə oldu?

Həmin gecə Mirzoppa bütün məhəllə uşaqlarını tut ağacının altında başına yığıb deyirdi:

– Sən öləsən, əntiqə kef eləyirdim özümçün, hərifləmişdim bu maminkin sınoku. Əntiqə şəkərbura gətirirdi mənimçün, üstündə də badam. Mən də basırdım buna köhnə silyotkanı, qara çörəyi. Çörəyi gedib Yasamaldakı tövlədən gətirirdim. Hacıbalagilin qoyunlarının qabağından. Şəkərburanı da yeyirdim özümçün əntiqə!..

Mirzoppa yağlı-yağlı danışdıqca, uşaqlar gülürdü və Məmmədağa ömründə bu cür pərt olmamışdı; əlbəttə, burası məlum idi ki, Mirzoppa çörəyi gedib Yasamaldakı tövlədən gətirməmişdi və balıq da köhnə deyildi, bunların hamısını Mirzoppa özündən toqquşdururdu, amma bu yalanı Mirzoppa ləzzətlə danışırdı, çünki bu yalanlar Məmmədağanı xalis maymaq kimi qələmə verirdi.

Üç-dörd gün də keçdi.

Bir gün Məmmədağa məktəbdən qayıdanda Mirzoppa dayanmışdı Dar dalanın qabağında və nədənsə Məmmədağaya elə gəldi ki, Mirzoppa onu görməkdən ötrü səhərdən burdadı; Mirzoppanın ətli sifətində elə bir ifadə vardı ki, bu ifadə onun üzündə, ancaq özündən böyüklərin, özündən güclülərin yanında günahkar olanda əmələ gələrdi; Məmmədağanı görüb bir az çəkinə- çəkinə dedi:

– Hə, qaranoy, məktəbdən gəlirsən? – Sonra yavaş-yavaş ürəklənib yenə əvvəlki Mirzoppa kimi böyük-böyük danışmağa başladı: – Yaxşı də, padumayeş, nolub e? Zarafat eləyirdim də o gün... Lap zaysan a, sən zarafat-zad da day bilmirsən nədi! Yaxşı... – Bu yerdə Mirzoppa yenə çətinə düşdü və yenə də bir az çəkinə-çəkinə dedi: – Mənə bax, əntiqə silyotka var məndə, canımçun, alayı şeydi! Istəyirsən?

– Bude, ala! - Bu dəfə Məmmədağa mürəkkəbə bulaşmış baş barmağını iki barmağının arasından çıxarıb Mirzoppanın gözlərinin qabağına uzatdı.

Mirzoppa lap yanıb-töküldü:

– Sən öləsən, heyf atam evdədi, yoxsa qoyardım lopuva sənün! – dedi və çıxıb getdi.

Mirzoppa çıxıb getdi, amma Məmmədağa, nədənsə, bu intiqamından bir ləzzət anlamadı, Mirzoppanın bugünkü danışığında, duruşunda, yerişində nəsə elə bir şey vardı ki, Məmmədağanı sidq-ürəkdən ləzzət almağa qoymadı.

Günorta vaxtı idi və Səkinə xala işdən tənəffüsə gəlib yaş süpürgə ilə həyətlərini tərtəmiz süpürmüşdü; yaş süpürgə həmişəki kimi, həyətə bir sərinlik gətirmişdi və Məmmədağa da qapılarının ağzındakı kubik daşın üstündə oturub təzə düzəltdiyi çəlpələnyin qarqarasına onluq sap dolayırdı. Dalandan Mirzoppanın kişi səsi kimi yoğunlamış səsi gəldi:

– Məmmədağa!

Məmmədağa qarqaranı pamazı köynəyinin yaxasına atıb həyətin dalan qapısına çıxdı:

– Nə var? – bunu soruşdu və Mirzoppanın sifətində yenə də həmin ifadəni gördü – özündən böyüklərin, güclülərin yanında qələt eləyəndə əmələ gələn ifadəni.

– Gəl bura də, bir dəqiqəyə.

– Neynirsən məni?

– Işim var sənnən...

Mirzoppa onu dalandakı zibil yeşiklərinin yanında xəlvətə çəkdi və mətləbə keçməzdən əvvəl kefini xəbər aldı:

– Necəsən?

– Sənə nə var necəyəm? Nə deyirsən?

Və Mirzoppaya məlum oldu ki, Məmmədağa ilə aranı düzəltmək daha çətin məsələdi, üz-gözünü qırışdırıb bir az başını qaşıdı, domba gözlərini dalanın üstündən keçən elektrik məftillərinə qonmuş sərçələrdə gəzdirdi və Məmmədağa başa düşdü ki, Mirzoppa bilmir hardan başlasın; axırı Mirzoppa dedi:

– Mənə bax, Məmmədağa, öz canımçün, atam əntiqə kilkə gətirib, vışi şeydi, qabında yazıblar ki, ekstra, özü də Nizami muzeyinin qabağındakı prodmaqdan alıb...

Məmmədağa bilirdi ki, Mirzoppa sabah yenə uşaqları başına yığıb onu pərt eləyəcək, özündən yüz cürə yalan toqquşduracaq, amma həmin gün onun birdən-birə Mirzoppaya yazığı gəldi; həmin gün Mirzoppa yenə də Mirzoppa deyildi və elə bil özü də bunu hiss edib minnət qoymaq istədi:

– Mən sənə görə deyirəm e, əntiqə kilkədi... Badam-zad da lazım deyil, elə bir dənə şəkərbura gətir. Gözləyim səni burda?

Məmmədağa bir söz deməyib evə getdi və bir dənə şəkərbura götürüb Mirzoppagilin həyət qapısına gəldi. Mirzoppa ədəb- ərkanla bir fal qara çörək kəsib üstünə də iki dənə duzlu kilkə qoymuşdu. Məmmədağanın gətirdiyi şəkərburanı alıb yenə də zərgər Ələşrəf kimi, o tərəf-bu tərəfinə baxdı, sonra kilkəni ona uzatdı:

– Ala, sən öləsən, ancaq sən olmasaydın, heç kimlə dəyişməzdim bunu. Əntiqə şeydi!.. Qaranoyumsan da sən, neyniyim?..

Sonra da Mirzoppa güldü və kök sifətindəki məzlum ifadə gözgörəti çəkilib getdi. Mirzoppa bir dəqiqənin içində əvvəlki Mirzoppa oldu; həyətlərinə girib qapını bağladı və birdən-birə Məmmədağaya elə gəldi ki, şəkərburanı Mirzoppa özü yemir, başqasına verir.

Məmmədağa kilkələri elektrik şalbanının yanında dayanıb miyoldaya-miyoldaya ona baxan boz pişiyin qabağına tulladı, çörəyi Mirzoppagilin küçə pəncərəsinin dəmir şəbəkəsinə soxdu və şalbanla dırmaşa-dırmaşa birmərtəbəli binanın damına çıxdı, kərpic bacanın dalında gizlənib Mirzoppagilin həyətlərinə tərəf boylandı.

Dudu həyətdəki kranın yanında tərsinə çevrilmiş vedrənin üstündə oturmuşdu və Məmmədağa təəccüb etdi ki, vedrə bu qədər ağırlığa necə dözür. Mirzoppa Dudunun qabağında dayanıb əlindəki şəkərburanı onun ağzına uzadırdı. Dudu da şəkərburadan dişləyib yavaş-yavaş çeynəyə-çeynəyə udurdu.

Məhəllədəki uşaqlardan heç kim Dudunun əsl adını bilmirdi; hamı Duduya elə Dudu deyirdi. Dudu həddindən artıq kök idi, lap yekə də başı vardı. Ona həmişə balaqları çox enli sətin finka geyindirirdilər ki, baldırları yeyilib yara olmasın, həm də onun bədəninə gələn şalvar yox idi. Dudunun başı həmişə əsirdi, ağzından da həmişə su tökülürdü. Dudu danışa bilmirdi, bir söz demək istəyəndə cürbəcür səslər çıxarırdı. Dudu heç vaxt uşaqların yanına gəlməzdi, hərdən küçəyə çıxıb həyət qapısının ağzında dayanırdı, gülürdü, öz-özünə cürbəcür səslər çıxarırdı. Dudunun on üç yaşı vardı (Məmmədağadan yaş yarım kiçik idi), amma hələ məktəbdə oxumurdu.

Dudunun atası Mirzoppanın əmisi idi, müharibədə ölmüşdü, anası da pis işlər elədiyinə görə (deyirdilər ki, gecənin yarısı başqa məhəllələrdən bura kişilər gəlib tut ağacının altında onunla öpüşürmüş) Mirzoppanın atası Əliabbas kişi onu evdən qovmuşdu və Dudu təkcə qalmışdı Mirzoppagildə.

Mirzoppa şəkərburanı Dudunun ağzına uzada-uzada deyirdi:

– Hə, yeginən. Sabah yenə gətirəcəyəm sənə. Üstündə badam da olacaq sabah. Sabah sənə konfet də alacam. Sabah kino var əntiqə, uşaqlar gəlib damdan baxacaq, mən də pul yığıb səninçün konfet alacam əntiqə.

Dudu heç nə ifadə eləməyən gözlərini naməlum nöqtəyə zilləyib ağzındakı şəkərbura tikəsini yavaş-yavaş çeynəyirdi. Və birdən necə oldusa, Dudu gözlərini qaldırıb dama baxdı, bacanın dalında gizlənməyə çalışan Məmmədağanı gördü. Dudu cürbəcür səslər çıxardı, şəkərbura tikəsinin qırıqları ağzından Mirzoppanın üz-gözünə sıçradı.

Məmmədağa əvvəlcə qaçmaq istədi – ona görə yox ki, Mirzoppadan qorxurdu, ona görə ki, başa düşmüşdü: bu gördüklərini gərək görməyəydi; başa düşdü ki, Mirzoppanın ürəyinin gizli sirri açılıb və bu sirri belə xəlvətcə gəlib açmaq yaxşı iş deyil.

– Alə, əclaf oğlu əclaf, damımıza nöş çıxmısan? – Mirzoppa az qalırdı hirsindən partlasın, amma onun bu söyüşü Məmmədağanı özünə gətirdi, çünki Məmmədağa üçün dünyanın ən vicdansız işi ata söyüşüydü; çünki Məmmədağanın atası da müharibədən qayıtmamışdı və Məmmədağa onun heç sifətini xatırlamırdı; Məmmədağının atası Əli müharibənin birinci ili cəbhəyə getmişdi, elə birinci ili də Moskva yaxınlığında bir faşist gülləsinin qurbanı olmuşdu.

Mirzoppa divarın qabağına cumdu, elə bil, bu saat atılıb dama çıxacaqdı:

– Düş aşağı, əclaf oğlu, əclaf!

– Əclaf oğlu özünsən! - Məmmədağa Mirzoppanın cavabını qaytardı, amma onun bütün üz-gözü alışıb-yanırdı, elə bil ki, indi həyətdə cürbəcür səslər çıxaran Dudunun Mirzoppanın əlinə dikilmiş gözləri şəkərburanın qalanına yox, ona baxırdı və elə bil ki, Dudunun ağzından sıçrayan şəkərbura qırıqları Mirzoppanın yox, onun üz-gözünə düşmüşdü.

Sonra Məmmədağa şalbanla sürüşüb aşağı düşdü və Mirzoppa həyətdən küçəyə çıxanacan Dar dalana çatıb gözdən itdi; Məmmədağa Mirzoppa ilə dalaşmaqdan qorxmurdu, elə bil ki, utanırdı Mirzoppadan.

Məmmədağa bütün günü evdən çıxmadı, axşam isə, Dar dalandan Mirzoppanın kişi səsi kimi yoğun səsi gəldi.

– Məmmədağa!

(Çox vaxt anaları, böyük bacıları Mirzoppanın baxışlarını oxuyub uşaqları onunla oynamağa qoymurdular; deyirdilər: «–Yekə kişidi o, boyu çıxmır. Üz-gözündən həyasızlıq tökülür. Sizin tayınız deyil. Öz tay-tuşunuzla oynayın!».)

Məmmədağa həyət qapısından başını çıxarıb:

– Nə var? – dedi.

– Bir dəqiqəyə gəl bura, işim var sənnən.

Əlbəttə, Məmmədağa məlum səbəbə görə Mirzoppa ilə danışmaq istəmirdi, amma əvvəl-axır, onsuz da, üzbəüz gəlməliydilər; o, dalana çıxdı, Mirzoppa yenə də onu dalandakı zibil yeşiklərinin yanında xəlvətə çəkib domba gözlərini elektrik məftillərinə dikdi, sonra köynəyinin yaxasından qoynuna qoyduğu «Belomorkanal»ı çıxarıb dərdli adamlar kimi bir papiros yandırdı:

– Mənə bax, – dedi, – Məmmədağa, öz canımçün, olur də, qərdeşnən qərdeşin arasında yüz cür şey olur. Nolar? Sənnən day heç işim-zadım yoxdu, qərdeş canı. Sən də day uşaqlara deməginən ki, Mirzoppa şəkərburaları Duduya yedirdirdi, hə?

Məmmədağa bu barədə heç fikirləşməmişdi də, yəni günorta damın üstünə çıxıb gördükləri və eşitdikləri ona elə təsir eləmişdi ki, Məmmədağanın acığı özünə tutmuşdu, həm də yaman acığı tutmuşdu; burası da Məmmədağaya məlum olmuşdu ki, Mirzoppanın da ürəyi var və bu ürək də hərdən kövrəlir, hərdən lap açılır, lap təmiz olur, lap geniş olur, amma indi Mirzoppanı qorxu götürmüşdü ki, birdən ürəyinin bu təmizliyini, bu açıqlığını məhəllənin başqa uşaqları da bilər – Mirzoppa yenə həmişəki Mirzoppa olmuşdu və bu yerdə Məmmədağanın ona bərk acığı tutdu, birdən-birə ürəyində elə bir intiqam hissi baş qaldırdı ki, heç olmasa, yarım saat müddətinə Mirzoppanın əskik əməllərinin hayıfını almaq istədi. Mirzoppa bir də soruşdu:

– Hə?

– Deyəcəyəm.

Mirzoppa bir az çəpəki-çəpəki ona baxdı, sonra damağındakı papirosu dibinəcən sümürüb zibil yeşiyinə tulladı, ömründə yumadığı çirkli dişlərini qıcıyıb:

– Mənə bax, – dedi, – sənə ağız açıram, öz canımçun, heç kimə ağız açmamışam ömrümdə! Yaxşı döyül, hərənin öz hörməti var, hərə özüyçün bir cayıldı...

Məmmədağa bilirdi ki, Mirzoppa gözünün içinə kimi yalan deyir, indiyəcən çox adama ağız açıb, işi bərkə düşəndə özündən böyüklərə yalvarıb-yaxarıb, min dəfə «qələt eləmişəm» də deyib və bu dəfə onun yaralı yerini lap közərtdi:

– Bizdən yığdığın pullara da Duduyçun konfet alırsan?

Mirzoppa əlini Məmmədağanın gözlərinin qabağında oynatdı:

– Alə, adam kişi olar! Səni adam bilmişik, qapuva gəlmişik!.. Necə adamsan, alə, sən?

Mirzoppanın ən böyük pisliyi ondaydı ki, qorxurdu başqaları onun yaxşı cəhətlərini bilsin; yalan, adama sataşmaq onun üçün elə mötəbər idi ki, qorxurdu məhəllə uşaqları onun yaxşı bir işini eşidib üz döndərsinlər, bütün hörmətini itirsin; o, bir müddət çəpəki-çəpəki Məmmədağaya baxdı, elə bil fikirləşirdi ki, nə eləsin, bu işə ki, düşüb, necə çıxsın, bu saat bir-iki dənə ilişdirsin Məmmədağaya və

cavabını da alsın, yoxsa dil töksün yenə? Axır qərara gəlib üz-gözünü qırışdırdı, bir az boynunun ardını qaşıyıb dedi:

– Heç kimə deməsən, sənə bir hörmət eləyərəm, öz canımçun!

– Nə?

– Hörmət eliyərəm sənə. Əntiqə yerə apararam səni...

Təbii ki, Mirzoppanın heç bir sözünün Məmmədağanın yanında etibarı yox idi və Mirzoppa özü də bunu bildiyinə görə məsələni çox uzatmadı, ağzını onun qulağına dirəyib pıçıldadı:

– Əntiqə arvadlara baxmağa!..

Məmmədağa bilirdi ki, Mirzoppadan nə desən çıxar və o, dünyanın ən əbləh işlərini görər ki, başqasının heç ağlına gəlməz, amma bu dəfə də onun sözlərinə inanmadı. Mirzoppanın ətli-yağlı dodaqlarının qulağına yaxınlaşmasından əti ürpəşdi. Mirzoppa isə o tərəf-bu tərəfə baxıb yenə də ağzını onun qulağına dirədi:

– Hamamda çimən arvadlara. Lap lüt, öz canımçun!

Elə bil, Məmmədağanın ürəyi qırılıb ayaqlarının altına düşdü və o heç özü də bilmədi ki, necə soruşdu:

– Yalançının?

– Eh, malades sənə, zarafatım-zadım var bəyəm sənnən? Gəl dalımca.

Məmmədağagilin məhəlləsinin yuxarı başında Sarı hamam deyilən köhnə bir hamam vardı; ona görə belə deyirdilər ki, bu hamamın divarları lap əvvəldən, nədənsə, həmişə sarı rənglə əhənglənərdi. Hamamın üzü küçəyə baxırdı, arxası isə başqa ikimərtəbəli binanın arxasına söykənmişdi, amma arada bir az boş yer vardı və bu bir az yerdə quşbaz Ağamehdi özünə quşxana düzəltmişdi, göyərçinlərini bu quşxanada saxlayırdı və gecələr bura zülmət qaranlıq olurdu.

Mirzoppa onu quşxananın yanına gətirdi, əli ilə quşxananın üstünü göstərib:

– Ode, oradan baxanda hamısı görünür əntiqə, – dedi. – İndi qalxarıq, baxarsan.

Sarı hamamın arxa tərəfində, yuxarıda balaca bir pəncərə vardı və bu işıq gələn pəncərə Ağamehdinin quşxanasının üstündən bir adam boyu hündürdə idi; Mirzoppa iz axtaran it kimi gəlib bu balaca pəncərəni tapmışdı.

Məmmədağa, elə bil, yuxudaydı və bura necə gəldiyini heç özü də bilmirdi; o, başa düşürdü ki, Mirzoppaya qoşulub bura gəlməyi çox pis işdi və burasını da başa düşürdü ki, bir halda ki, Mirzoppa it kimi iyləyə-iyləyə gəlib bu balaca pəncərəni tapıb, deməli, dünyanın ən alçaq adamıdı və alçağa qoşulmaq da alçaqlıqdı; o qaçıb buradan getmək istədi; buranın nəm havası az qalırdı onun ürəyini bulandırsın, amma elə bil ki, nəsə maqnit kimi onu özünə çəkib burada saxlayırdı, həm də, daha gec idi, indi buradan qaçıb getsəydi, Mirzoppanın yanında, doğrudan da, maymaq olacaqdı, onun ürəyindən bir inilti keçdi ki, tezcə qurtaraydı bütün bu əhvalat.

– Hələ kişilər çimir.... - Mirzoppa qulaqlarını şəkləyib həmin balaca pəncərədən gələn tas-ləyən səsinə, su şappıltısına qulaq asırdı, çimənlərin kişi, ya arvad olduğunu bu səbəbdən bilirdi və Məmmədağaya məlum oldu ki, Mirzoppa bu quşxananın yanında az geçələr keçirməyib.

Göyərçinlər adam hiss eləyib quruldamağa başladı və bu qurultu Məmmədağanın ürəyini daha da artıq döyündürdü. Mirzoppa tərləmiş əli ilə Məmmədağanın biləyindən tutub:

– Qorxma, – dedi.

Məmmədağa biləyini Mirzoppanın əlindən çəkdi, ona elə gəldi ki, Mirzoppanın əli Dudunun ağzından axan suda islanıb; cınqırığını çəkmədən qulaqlarını şəkləmiş Mirzoppanın qaranlıqda güclə görünən ətli sifətinə baxdı – bu, əsl Mirzoppa idi, daha gizlincə Duduya şəkərbura yedizdirən, Duduya konfet alan Mirzoppa deyildi. Məmmədağa bütün şüuru ilə, ağlı ilə başa düşürdü ki, bu rüsvayçılıqdan qurtarmaq üçün buradan qaçıb getmək lazımdı və üstəlik Mirzoppanı da yaxşıca əzişdirmək lazımdı, amma ayaqları sözünə baxmırdı və ürəyi də elə hey səksəkə içində çırpınırdı.

Mirzoppa yenə də tərli əli ilə onun biləyini sıxdı, yəni ki, iş var. Balaca hamam pəncərəsindən daha səs gəlmirdi, yəqin çimənlər çimib nömrədən çıxmışdılar. Bir az sakitlik çökdü və bu sakitlik içində, ancaq quşbaz Ağamehdinin göyərçinləri quruldayırdı; sonra pəncərədən yenə səs gəldi və Mirzoppa pıçıldadı:

– Şərəbanıdı, təmizləyir nömrəni.

Şərəbanı Sarı hamamda süpürgəçi idi. Sarı hamamın ümumi kişi şöbəsindən və ümumi arvad şöbəsindən başqa üç ayrı-ayrı nömrəsi vardı və bu balaca pəncərə də həmin nömrələrdən birinin pəncərəsi idi.

Sonra yenə sakitlik çökdü və bir azdan yenə tas-ləyən, öskürək səsi gəldi, su şırıldadı və Mirzoppa da bu dəfə lap yavaşcadan pıçıldadı:

– Qalx.

Məmmədağa taxta nərdivanla yuxarı dırmaşdı və quşxananın damında pəncələri üstə qalxıb balaca pəncərəyə tərəf boylandı. Birdən-birə onun bütün bədəni uçundu, gözləri torlandı və bu tor pərdə arxasında elə şeylər gördü ki, elə bildi bu saat yer ayaqlarının altından qaçacaq və o, harasa düşəcək, özü də uçub düşəcək harasa; arvad bir ləyən suyu qızın başına tökdü və su qızın saçlarındakı, üzündəki, bədənindəki bütün sabunu yuyub aparanda Məmmədağa dəhşətə gəldi ki, hər gün yüz dəfə küçələrində gördüyü bu arıq, bu kifir qız bu qədər qeyri-adiymiş, bu qədər sehrliymiş, tilsimliymiş.

Mirzoppa aşağıdan Məmmədağanın şalvarının balağını dartdı, yəni ki, düş aşağı, bir az da mən baxım; Məmmədağa, ancaq indi yadına saldı ki, Mirzoppa aşağıdadı və dəhşətlə o biri ayağını qaldırıb onun əlini itələdi. Məmmədağanı dəhşət basmışdı və bu dəhşət içində o görürdü ki, bu dəfə arvad özu sabunlanır, qız da əyilib ona kömək edir, anasının kürəyini, belini sabunlayır və hər dəfə qız əyilib durduqca Məmmədağanın bütün bədəni uçunurdu və o vaxt o özü də bilmirdi ki, bu nə deməkdir.

Mirzoppa aşağıda daha dözə bilməyib nərdivana qalxdı, yuxarı dırmaşıb onu kənara sıxışdıraraq quşxananın üstündən balaca pəncərəyə sarı boylandı və Məmmədağa nəfəsini qısıb gözlədi ki, bu saat nə isə bir hadisə olacaq. Birdən-birə Mirzoppanın sinəsindən bir inilti qopdu və o, yekə başını hamamın köhnə divarına çırpdı. Məmmədağa daha özünə gəlib quşxananın damından birbaş yerə – hamamdan nəm çəkmiş torpağın üstünə atıldı. Quşxanadakı göyərçinlər daha da bərkdən quruldamağa başladı və Məmmədağa gözünü açanda Mirzoppa da özünü yerə atmışdı; bir müddət beləcə dayandılar – Mirzoppa ayaq üstə, Məmmədağa yerə sərilmiş, sonra Mirzoppa Məmmədağanın heç vaxt görmədiyi və təsəvvür etmədiyi bir hönkürtü ilə zır-zır ağlamağa başladı.

Hamamda çimən arvad Mirzoppanın anası idi, hamamda çimən qız da Mirzoppanın bacısı Ədilə idi.

Belə-belə işlər...

O gündən sonra Məmmədağa bir neçə ay özünə gələ bilmədi; ona görə yox ki, həyatında birinci dəfə lüt arvad, lüt qız görmüşdü, ona görə ki, bir kişi qeyrəti onu boğurdu, məhəllə uşaqlarının, cavanların gözünün içinə düz baxa bilmirdi; qeyrət onu boğurdu ki, hərdən həyətlərinə gəlib anası ilə söhbət edən arvada, hər gün məhəllədə gördüyü qıza oğru pişik kimi gizlicə hamam pəncərəsindən baxıb. Hərdən gecələr hövlnak yuxudan oyanırdı, o saat yadına düşürdü ki, çox pis bir iş tutub və yerində qovrula-qovrula tutduğu bu işin əzabını çəkirdi, özünü dünyanın ən pis adamı hesab edirdi.

Və Məmmədağa elə o günlərdən düzlüyün, mərdliyin, kişiliyin qədrini bildi; aylar, illər keçdi və zaman keçdikcə də bu hadisə yavaş-yavaş yaddan çıxdı, bir yeniyetməlik yuxusuna çevrildi ki, doğrudan da, yuxuda, ya həyatda olduğu unuduldu. O vaxtdan bəri Məmmədağa bütün ömründə elə bir iş görməmişdi ki, kiminsə yanında gözükölgəli olsun. Məhəllənin arvadları Məmmədağadan söz düşəndə deyirdi:

– Ömrü uzun olsun, torpaq sanı yaşasın, elə bil, sir-sifətdən Kitabulladı. Xasiyyəti də qızıldı. Çox kişi cayıldı.

Səkinə xalanın, aydın məsələdir ki, bu sözləri eşidəndə uçmağa qanadı olmurdu, amma özünü ağayana aparırdı, yəni ki, elə belə də olmalı idi, onun oğlu, Əlinin oğlu başqa cürə ola bilməzdi. Solmaz isə, o saat bu sözləri Məmmədağaya çatdırırdı və əvəzində də Məmmədağa ona acıqlanırdı.

– Bir də mənim yanımda belə sözlər danışma!

Əlbəttə, o vaxt məhəllə uşaqlarının heç nədən xəbəri olmadı, Məmmədağa heç kimə heç nə demədi, amma Mirzoppa daha məhəllədə lap az-az görünürdü, bir neçə vaxtdan sonra isə Qırçılar məhəllədən köçüb getdi. Əliabbas kişi məhəllənin ağsaqqallarına deyirdi:

– Altı-yeddi ildən sonra Bakıda qır basmağa dam qalmayacaq. Köhnələri sökürlər, hər yerdə təzə ev tikirlər, beşmərtəbə, yeddimərtəbə, bir azdan doqquz-onmərtəbə də tikəcəklər. Hamısının üstü taxtapuş. Yaxşısı budu elə indidən yığışıb köçüm kəndlərdən birinə. Abşeronda binaların hamısının damı qırdı, hansı kəndə getsəm, bekar qalmayacağam...

Həmin vaxtdan da iri qır tiyanı Məmmədağagilin məhəlləsində görünmədi və məhəllə də yavaş-yavaş buna alışdı, indi daha adama elə gəlmirdi ki, nəsə yerində deyil, nəsə çatışmır.

Indi on beş-on altı il keçmişdi o günlərdən.

Belə-belə işlər...

...Həmin qəribə yay gecəsi bütün bunları yadına salan Məmmədağa furqonun gur işığında Mirzoppanın daha da kökəlmiş sir-sifətinə baxa-baxa birdən-birə özünü onun yanında günahkar hiss etdi, amma bu günah hissində artıq bir uşaqlıq xatiratının ılıqlığı vardı; bu günah hissi çox həzin bir peşmançılıq idi və indi Məmmədağanın ürəyindəki bu həzinliklə Mirzoppanın ona baxıb harın-harın gülümsəməyi heç vəchlə bir araya sığmırdı.

Arıq oğlan yenə əlini yuxarı qaldırıb öz şüarını dedi:

– Atacağıq!

Milisioner Səfər bu arıq oğlana baxıb fikirləşdi ki, zalım balasının başında bir kəlmə «Atacağıq!» sözündən başqa bir şey yoxdu, amma tüfəng istəyir, güllə istəyir. Sonra da fikirləşdi ki, belələridi nahaq qan tökən, öz vücudları bir köpüyə dəyməz, amma uşaqları yetim qoyurlar, arvadları gözüyaşlı.

Mirzoppa eləcə harın-harın gülümsəyə-gülümsəyə Məmmədağanı təpədən dırnağa kimi süzüb:

– Pis döyülsən, – dedi. – Yaxşı, öz məhəllə uşağuva tüfəng vermirsən atmağa?

Mirzoppanın bu cür açıq-aşkar harın-harın gülümsəməyinə baxmayaraq, Məmmədağa sidq-ürəkdən təəssüf etdi ki, Mirzoppa bu axşam bu qədər içib. Içməmiş olsaydı, əlbəttə, lap səhərəcən icazə verərdi ona nişan atsın. Heç pulunu da almazdı ondan. Düzdür, Məmmədağa həmişə belə hesab edirdi ki, öz gücünə səxavətli olasan gərək, hökumətin tirinin hesabına yox, amma bu saat bu barədə fikirləşməyə dəyməzdi, çünki Mirzoppa ayaq üstə güclə dururdu, yanındakı oğlanın isə əlini yuxarı qaldırıb bir kəlmə deməkdən başqa bir şeyə qabiliyyəti çatmırdı. Məsələ burasında deyildi ki, Mirzoppanın gülləsi kiməsə dəyə bilərdi. Düzdür, tirlərdə hərdən belə hadisələr olurdu, amma Məmmədağa indi tüfəngi Mirzoppaya verib özü sərhesab ola bilərdi, amma yenə də məsələ burasında idi ki, təlimatda iri qara hərflərlə içmiş adamların tirdə tüfəng atması qadağan edilmişdi. Məmmədağa isə öz təlimatının qabağında gözükölgəli olmaq istəmirdi.

– Qalsın sonraya. – Bunu Məmmədağa dedi.

– Sən mənnən nöş düzəlmirsən?! – Bunu Mirzoppa dedi və onun yoğun səsində açıq-aşkar bir hədə-qorxu vardı.

– Atacağıq! – Bunu, aydın məsələdir ki, arıq oğlan dedi və əlini də yuxarı qaldırdı.

– Atmayacaqsız! – Bunu da yaş dəsmalını təzədən cibindən çıxarıb üz-gözünün tərini silən milisioner Səfər dedi.

– Sən hürmə! – Mirzoppa domba gözlərini milisioner Səfərə bərəltdi.

Milisioner Səfərin ürəyindən bir nalə qalxdı: a dağlar oğlu, gör nə günə qalmısan ki, düdüyün biri səninlə it dilində danışır. –Sonra yaş dəsmalını cibinə basıb Mirzoppanın qolundan yapışdı:

– Gedək otdeleniyə!

Mirzoppa qolunu dartdı:

– Əl çək məndən!

– Yox, gedəcəyik!

– Dedim sənə əl çək məndən!

– Gedəcəyik, vəssalam!

Birdən-birə milisioner Səfərin qulağının dibində bir şapalaq cingildədi və onun arıq qara sifətində Mirzoppanın ətli barmaqlarının yeri ağardı.

Bu çox gözlənilməz oldu və ən əvvəl arıq oğlan özünə gəldi, bir Mirzoppaya, bir də milisioner Səfərə baxıb, əlini «aerodrom» kepkasının üstünə basdı və bir göz qırpımında furqondan yerə atılıb əkildi.

Sonra özünə gələn milisioner Səfər oldu:

– Ə, dəyyus, hökumət nümayəndəsinə əl qaldırırsan?!

Elə bil, vurduğu şapalağın cingiltisi və kinomexanik Ağagülün (bayaqkı arıq oğlanın) tələsik sivişib aradan çıxması Mirzoppanın özünü də birdən-birə ayıltdı və o, qəzəbindən udqunan milisioner Səfərin qalxıb-enən iri hulqumuna baxa-baxa başa düşdü ki, işi xarabdı.

Milisioner Səfər bu dəfə Mirzoppanın yaxasından yapışdı:

– Düş qabağıma!

Və Mirzoppa da daha milisioner Səfərin əlindən dartınmadı, amma dilini də ağzında saxlamadı:

– Gedək də, gedək! Hara deyirsən gedək! Səndən qorxub eləyən yoxdu. Bir dəfə Nəcəfə zəng eləsəm, paqonlaruvu çıxartdıraram! Baxarsan!

– Az danış, düş qabağıma! – Milisioner Səfər bu sözləri elə zəhmlə dedi ki, Mirzoppaya məlum oldu: bir az da o yan-bu yan eləsə, səsini çıxartsa, bu kəndli oğlu onu ayı kimi süpürləyib basacaq altına, bunu hiss etdi və dinməz-söyləməz furqondan aşağı düşdü.

Məmmədağa da onlarla birlikdə furqondan aşağı düşdü. Milisioner Səfər ay işığında daha da qaralmış sifətini Məmmədağaya çevirib:

– Sən gəlmə, qağa, – dedi. – Səfər bunu əlindən buraxan deyil. Belələrini çox görüb Səfər!

Mirzoppa bərkdən boğazını arıtlayıb qumun üstünə tüpürdü və bir az ehtiyatla:

– Yaxşı, – dedi, otdelenedən Nəcəfə zəng elərəm, onda görərik!..

Məmmədağa, milisioner Səfərlə Mirzoppa ay işığında gözdən itənədək furqonun qabağında dayandı, sonra çəkməsinin burnu ilə Zuğulbanın narın sahil qumunu tozlandıra-tozlandıra dənizə tərəf getdi.

Bütün sahil bomboş idi və indi adama elə gəlirdi ki, bu yerlərdə ömründə heç kim olmayıb, dəniz həmişə bu cür tək-tənha olub və sahil də dənizlə həmişə bu cür bomboş təkbətəklikdə olub. Bu boşluq, dənizi daha böyük, intəhasız etmişdi və bu böyüklüyünə, intəhasızlığına baxmayaraq, dənizin də belə tənha görünməsi birdən-birə həmin yay gecəsinə bir qüssə gətirdi; dəniz həmişəki kimi boğuq bir səslə uğuldamırdı, şırıldayırdı dəniz, elə bil çay axırdı. Milisioner Səfərgilin dağlarından axan çaylar da yəqin belə şırıldayır və indi o çayların xəbəri yoxdu ki, ürəyini onlarda qoymuş milisioner Səfər bu gecə Abşeronda, Zuğulba deyilən bir kəndin kənarında, dənizin sahilində, Məmmədağa adlı bir oğlanın tirində nahaq, lap nahaq bir şillə yedi.

Məmmədağa başa düşürdü ki, əslində həmin şillənin namərdliyi idi bu gecəyə qüssə gətirən, bu dənizi beləcə tənha edən; o, sahilboyu qumluqdan sonra başlayan Zuğulba qayalıqlarına baxdı və bu sal qayalar ay işığında ona həmişəkindən daha təmkinli göründü. Məmmədağa fikirləşdi ki, bir vaxt gələcək, həmin şillə yaddan çıxacaq, cingiltisinin pis əks-sədası bu yerlərdən tamam çəkilib gedəcək və bir vaxt gələcək ki, dünyada nə Məmmədağa olacaq, nə milisioner Səfər, nə də Mirzoppa, amma bu qayalar isə hər dəfə ay işığında beləcə qaralacaq; Məmmədağa başa düşürdü bu fikirlər çox da dərin fikirlər deyil, bütün bunlar məlum məsələdir, dünyaya məmmədağalar gəlib, məmmədağalar gedib, həmişə də belə olacaq; təkcə burası var ki, hər adam gərək ömrünü kişi kimi vursun başa bu dünyada, yəni bir halda ki, dünyada bu cür sal qayalar var və onlar bu cür təmkinlidir, bu cür böyük dənizlər var, ay var, ulduz var, o həyat ki, sənə verilib, onu gərək düz yaşayasan, təmiz yaşayasan və gərək elə bir şey olmasın ki, gecə yerinə girib yatmaq istəyəndə

səni özündən utandırsın; hərgah, dünyada bir milisioner Səfər varsa, bu milisioner Səfərin oğlunun adı Naçalnikdirsə, özü də ömründə haram bir tikə yeməyibsə və ürəyi də qoyub gəldiyi dağların yanındadırsa, gərək o, bu dənizin sahilində, bu qayaların yanında, bu ayın işığında haqsız şillə yeməsin.

Uzaqdan Bakıya gedən elektrik qatarının səsi gəldi: dəmir təkərlər relslərin üstü ilə taqqatuqla gedirdi və həmin taqqatuq indi, elə bil, bu Zuğulba gecəsinin, bu tənha gecənin nəbzi idi, vururdu; bu gecə nəbzinə qulaq asan Məmmədağa fikirləşdi ki, adamın ömrü də qatar kimi bir şeydi, səni mənzil başına aparıb düşürür, əvəzinə bir başqasını götürüb geri qayıdır, onu da o biri başda düşürüb təzəsini götürür, gedir-gəlir, gedir-gəlir və bir halda ki, bu yolun əvvəli var, axırı var, gərək papağını qabağına qoyub fikirləşəsən, fikirləşəsən ki, qatar relsdən çıxmayacaq, cədvəlini də pozmayacaq, ona görə bu məsafədə adam ol, adam kimi yaşa, adam kimi də öl.

Yavaş-yavaş xəzri əsirdi və xəzri əsdikcə də həmin qəribə yay gecəsinə bir sərinlik gətirirdi, ağcaqanadlar yoxa çıxmışdı və Məmmədağa fikirləşdi ki, ağcaqanad da təbiətindi, külək də təbiətindi, amma külək ağcaqanadın qənimidi və ümumiyyətlə, bu dünya elə bir şeydi ki, hər pisliyin, hər namərdliyin öz qənimi var; əlbəttə, bu fikir də çox dərin bir fikir deyildi və Məmmədağa burasını da fikirləşdi ki, bu gecəni qəribə eləyən onun bəlkə birdən-birə filosofluq eləməyə başlamasıdı?

Bu dəfə başqa bir səs gəldi və Məmmədağa alüminium örtüyü ay işığında gümüş kimi ağaran furqonunun yanında kiminsə qaraltısını gördü. Kimsə furqonun dövrəsində o tərəf-bu tərəfə gedə-gedə qışqırırdı:

– E-ey!.. E-ey!..

Məmmədağa başa düşdü ki, bu səs arvad səsidi, amma bu arvadın gecənin bu vaxtında onun furqonunun yanında niyə gəzdiyini başa düşmədi.

– E-ey!.. E-ey!..

Məmmədağa furqonun yanına gələndə on səkkiz-on doqquz yaşlarında bir qız onu elə top-tüfəngə tutdu ki, əvvəlcə heç nə anlaya bilmədi.

– Hə, camaatı tutdurursan, özün də dəniz qırağında gəzirsən?.. Camaat nədi səninçün bəyəm, adam-zad deyil? Nə işin var camaatla? Yorta-yorta gəlmisən bura ki, adam tutdurasan?

Məmmədağa furqonun açıq qapısından düşən elektrik işığında bu ortaboylu qızın qarayanız girdə sifətinə, par-par parıldayan iri qara gözlərinə, sarı trikotaj köynəkli, göy yubkalı yaraşıqlı bədəninə baxa-baxa heç cürə ağlına sığışdıra bilmirdi ki, bu davakar qız ondan nə istəyir və burada da nə işi var?

– Bir dayan görək, ay bacı, nə olub, nə xəbərdi?

– Bacın nöş oluram sənin? Bacın-zadın deyiləm!.. Buna bir bax! Qardaş tapılıb mənimçün, heç xəbərimiz yoxdur!.. Camaatı tutduranda bacı olmuruq, indi bacı oluruq!.. Əcəbdi!

Həmin qəribə yay gecəsi bu qarabuğdayı qızın bu cür hay-küyü Məmmədağaya gülməli gəldi və o fikirləşdi ki, bir az da bu cür davam eləsə, bu qız onun üstünə cumub üz-gözünü cıracaq. Əlbəttə, Məmmədağa indi heç vaxt ağlına gətirə bilməzdi ki, əslində bu yay gecəsini belə qəribə edən bu qarabuğdayı qızın gecənin yarısı birdən-birə bura gəlməsi idi; indiyə qədərki qəribəlik isə bir ərəfə hissi idi – hərdən belə şeylər də olur dünyada; Məmmədağanın bundan xəbəri yox idi və o, doğrudan da, çaşbaş qalmışdı:

– Camaat kimdi, kimi tutdurmuşam?

– Camaat – mənim həyat yoldaşım!.. Bildin? Gedək bu saat, necə tutdurmusan onu, elə də buraxdır!

– Mirzoppanı deyirsən?

Mirzoppanın adı elə bil ki, bu qarabuğdayı davakar qızı bir balaca süstləşdirdi və o, gözlərini Məmmədağanın üzündən çəkməyib:

– Hə, – dedi. – Bəs kimi deyəcəm?

Məmmədağaya məlum oldu ki, bu qız Mirzoppanın arvadıdı və nədənsə, bu xəbər onunçun çox gözlənilməz oldu. Gecənin yarısı birdən-birə peyda olmuş bu qızın yanından keçib furqona qalxdı:

– Mənnik bir iş yoxdu, – dedi.

Əlbəttə, bu qız ki, belə qiyamətlə başlamışdı, beləcə asanca ondan əl çəkən deyildi; əllərini belinə qoyub, altdan-yuxarı sözləri yağdırmağa başladı:

– Necə yəni mənlik bir iş yoxdu? Əvvəlcə tutdurursan, sonra da deyirsən ki, mənlik bir iş yoxdu? Əcəb işdi! Bizi nə hesab eləyirsən sən? Çuşka-zadıq səninçün? Bu saat gedək, onu buraxdır! – Qız da yuxarı qalxıb furqonun içinə girdi.

Furqonun gur işığı, divar boyu yan-yana düzülmüş tüfənglər, uduş üçün qoyulmuş şampan butulkası, stolüstü güzgü, gəlin kuklası, fotoaparat, divardan asılmış taxta dovşan, tülkü, ayı, şir və naməlum heyvan, elə bil, qızı bir balaca çaşdırdı və o, bütün bunlara baxıb yenə də sualdolu qara gözlərini Məmmədağaya zillədi, yəni ki, gedirik, ya yox.

– Ərini mən tutdurmamışam, ay bacı. Yoldaşıyla içib gəlmişdi...

Qız onun sözünü kəsdi:

– Yoldaşının başı batsın! Elə yoldaşları deyil onu yoldan çıxaran? – dedi və elə bil özü də öz sözlərinin mötəbərliyinə inanmayıb tələsik əlavə etdi: – Hə, nolsun içmişdi? Içməyin üstündə adam tutdurarlar? Sovet hökumətində elə qanun yoxdu ki, içməyin üstündə adam tutasan!

Bu dəfə Məmmədağa doğrudan-doğruya hirsləndi:

– Içməyin üstündə adam tutmazlar, amma milisioner Səfərə şillə vurmağın üstündə adam tutarlar.

Amma bu qız da başqa qız idi, xoruz olub dimdikləşmək istəyirdi:

– Milisioner Səfər plan doldurur, ona görə tutub aparıb onu.

– Neyləyir? Plan doldurur? – Məmmədağanın daha bu qarabəniz qıza deməyə sözü qalmadı, yəni bu mənada ki, onun dilinə mat qaldı. – Ay bacı, mənim yanımda vurdu onu, özü də durduğu yerdə...

Qız bir az susub:

– Abrı-həyası yoxdu də... – dedi və Məmmədağaya məlum olmadı ki, bu sözlər kimə aiddir, Mirzoppaya, yoxsa ki, milisioner Səfərə.

Qız yenə gözucu bu taxta heyvanlara baxıb, yəqin fikirləşdi ki, əgər bu tir bu gün gəlib burada dayanmasaydı, Mirzoppa da bura gəlməzdi, milisioner Səfərlə rastlaşmazdı və bu əhvalat da baş verməzdi:

– Olmaz bu tirdən!..

Aydın məsələdir ki, Məmmədağanın bu qızın nə fikirləşdiyindən xəbəri yox idi və həmin qızın acığını indi də tirə tökməsi ona lap gülməli gəldi; ümumiyyətlə, bu qızın hay-küyündə, bu cür çığır-bağır salmasında xalis bir uşaqlıq vardı və onun bayaq özü dediyi kimi, kiminsə «həyat yoldaşı» olması da adama gülməlidən də gülməli gəlirdi.

Məmmədağa birinci dəfə görürmüş kimi, furqonunun dörd tərəfini də nəzərdən keçirib özü öz səliqəsindən razı halda gülümsədi:

– Xoşuna gəlmir mənim tirim?

Məmmədağanın bu cür açıq-aşkar özündən razı-razı gülümsəməyi qızı cin atına mindirdi:

– Sənin tirin? Sənin niyə olur, hökumətin tiridi! Bəlkə atan bağışlayıb sənə?

Məmmədağanın bir xasiyyəti vardı: ata haqqında artıq-əskik söhbətdən xoşu gəlmirdi və ən başlıcası isə belə söhbətlərə dözə bilmirdi – bu bir, ikincisi də o idi ki, Məmmədağa bu saat bu qarabəniz davakar qızdan lap ata söyüşünəcən hər şey gözləyirdi, odur ki, tez ciddiləşib:

– Atam bağışlamayıb, – dedi və bir daha ata söhbətinə qayıtmamaq üçün elə bil ki, ona xəbərdarlıq etdi, amma bu xəbərdarlığın özü də otuz yaşında kişinin xəbərdarlığından çox on beş yaşında oğlanın xəbərdarlığına oxşayırdı: – Atam müharibədə ölüb.

Qız ağzını açıb yenə nə isə qışqır-bağır salmaq istəyirdi, amma bu sözü eşidəndə birdən-birə susdu.

Məmmədağa tanımadığı adamla (hətta tanıdığı adamla belə) açıqlıq eləməyi xoşlamazdı və bu dəfə də üzünü birinci dəfə gördüyü bu qıza tərcümeyi-halını danışması onu acıqlandırdı, qızın birdən-birə susması isə onu lap pərt etdi.

– Adın nədi sənin?

– Neynirsən?

– Adam bir-biri ilə danışanda gərək bilsin ki, kim kimdi.

– Məsməxanım.

– Belə-belə işlər, Məsməxanım...

Əlbəttə, Məmmədağa bu saat Məsməxanımın ürəyindən keçənlərdən xəbərsiz idi və bilmirdi ki, Məsməxanımın ürəyində bu saat bir ağrı sızıl-sızıl sızıldayır.

Çox-çox illər bundan əvvəl, o vaxtlar ki, Məsməxanım balaca qız uşağı idi və həmin qız uşağının dünyada heç bir dərdi-səri yoxuydu, anası həmişə deyərdi ki, atan müharibədə ölüb. Anası səfərdə olanda Məsməxanım günlərlə evdə tək qalardı və o vaxtlar o həmişə atası ilə söhbət edərdi, sonralar bu söhbət internat məktəbində də davam edərdi, top guruldardı, bomba partlardı. Məsməxanım atasının yarasını sarıyardı, atası da iri kişi əlilə onun qara saçlarını sığallayıb gülümsəyərdi; bu iri kişi əllərinin istisi, mehribanlığı onun bütün bədəninə yayılardı və ürəyində belə bir məhəbbət əmələ gətirərdi ki, bu məhəbbətin qəhəri hərdən gözlərini doldurardı. Amma günlərin adi bir günündə birdən-birə Məsməxanıma məlum oldu ki, atası heç vaxt müharibədə ölə bilməzdi, çünki müharibə qurtarandan üç il sonra dünyaya gəlmişdi. Bu məlum olandan sonra Məsməxanım daha heç vaxt anasından atası barədə bir söz soruşmadı. Həmin söhbətlər yəqin anasının da yadından çıxıb getmişdi. Bəlkə heç yadından çıxmamışdı və Güldəstə də qızı kimi ürəyində çəkirdi?

Amma həmin iri kişi əllərinin istisi, mehribanlığı uzun müddət çəkilib getmədi və əslinə baxsan, elə indinin özündə də haradasa bir az qalıb o istidən, o mehribanlıqdan.

Məmmədağa qarşısında dayanmış bu gülməli qızın dolu sinəsinə, yaraşıqlı dizlərinə, yumru topuqlarına, səndəlli yalın ayaqlarına baxdı və ürəyindən qəribə bir nigarançılıq keçdi. Çoxdan idi onun ürəyindən belə bir nigarançılıq keçməmişdi və ona elə gəlirdi ki, belə bir nigarançılıq da yeniyetməlik illəri ilə birlikdə çıxıb gedib işinin dalınca. Indi həmin nigarançılıq hissinin birdən-birə qəflətən bu cür geri qayıtması elə bil ki, bu gülməli qızın, bu davakar, hay-küylü qızın gülməli olmağını da, davakarlığını da, hay-küyünü də yuyub apardı və Məmmədağa furqonun gur işığında dolu sinəli, yaraşıqlı bədənli, yumru topuqlu bu qızda bir məsumluq, bir təmizlik gördü.

Məmmədağa gecə-gündüz Abşeron yollarında maşın sürə-sürə bərkimiş, çox görüb, çox götürmüş bir kişi idi və indi onun bu cür yeniyetməlik dövrünə qayıtması da, görünür, Zuğulbadakı həmin qəribə yay gecəsinin bir hissəciyiydi; bu dəfə o, həmin naməlum qəribəliyi bütün varlığı ilə hiss etdi.

Gözlərini Məmmədağanın sarı köynəkdə, göy yubkada, yalın ayaqlarda gəzən baxışlarından çəkməyən Məsməxanım qabağında dayanmış bu hündürboylu, enlikürəkli oğlanın fikirlərini özü bildiyi kimi yozdu və ürəyindəki gizli bir ürkəkliklə furqonun açıq qapısından dalğalarının köpüyü ağaran dənizə baxdı, bu biyabanlığın kimsəsizliyini hiss etdi, sonra da Məmmədağanı xəbərdar etməkdən daha çox özünə toxtaqlıq vermək üçün:

– Mən sən deyənlərdən deyiləm a-a! – dedi.

– Mən deyənlər kimdi? – Məmmədağa məhəccərin üstündə oturub əlləri ilə dizini tutdu. – Hə?

– Bilmirəm kimdi... – Qız bu oğlanın göy gözlərinə baxa-baxa başa düşdü ki, onun baxışlarını düzgün oxumayıb və bu dəm həmin baxışlar, nədənsə, ona çox doğma gəldi, elə bil ki, bu baxışları çox-çox görmüşdü. Nə üçün ona belə gəldi, özü də məəttəl qaldı.

– Nə dedilər milisdə?

– Dedilər ki, bu dəfə işi xarabdı... On beş sutkayla qurtarmadı bəlkə bu dəfə...

– Bəs Nəcəfə zəng eləmədi?

Məsməxanım təəccüblə bu oğlana baxdı, yəni ki, sənin tanımadığın adam yoxmuş ki, dünyada... Sonra dedi:

– Nəcəf keçən il qovub onu kabinetindən...

Bu sözləri dedi və özü də öz sözlərinə heyrət elədi, elə bil, o yox, başqa bir adam dedi bu sözləri. Məsməxanım heç kimin yanında belə danışmazdı, neçə illər idi ki, heç kim onun nə çəkdiyini bilmirdi, neçə illər idi ki, evlərinin söhbəti evlərində qalırdı və Məsməxanımın fikrincə, həmişə də belə olacaqdı, həmişə – ölənə kimi. Öləndən sonra camaat deyəcəkdi ki, dünyada bir Məsməxanım vardı, bu Məsməxanımın da Mirzoppa adında bir əri vardı, bir yerdə yaşayardılar... Amma necə yaşayardılar – bunu, heç kim bilməyəcəkdi və Məsməxanım da necə Məsməxanımdı, ürəyindən nələr gəlib, nələr keçirdi – bunu da heç kim bilməyəcəkdi... Yaxşı, bütün bunlar ki, belə idi, bütün bunları ki, heç kim bilməyəcəkdi, bəs indi o burada nə edirdi, nə işi vardı bu furqonun içində, bu taxta dovşanın, tülkünün, ayının, şirin və naməlum heyvanın yanında, bu yad oğlanın qabağında? Niyə çıxıb getmirdi öz xarabasına? Qızışıb gəldin bura, indi də görürsən ki, bu oğlanın heç bir təqsiri yoxdu və ondan heç nə də asılı deyil, təqsirlərin hamısı sənin o başıbatmış ərindədi, bəs niyə çıxıb getmirsən, nə gözləyirsən?

Məsməxanım bunları fikirləşdi və evi yadına düşdü, çarpayısı yadına düşdü, yadına düşdü ki, yenə tək-tənha qalacaq həmin evdə, səhər durub işə gedəcək, pamidor, xiyar, üzüm – nə varsa, onu satacaq, axşam yenə tək-tənha otağında oturub pəncərədən evlərinin qabağındakı böyük əncir ağacına baxacaq və ürəyindən keçəcək ki, bu cür tək-tənha pəncərə qabağında oturmaqdansa, Mirzoppanın dava-dalaşı yaxşıdı, Mirzoppanın ayaqyolunda bərkdən öyüyə-öyüyə qusmağı, sonra da gəlib xoruldaya-xoruldaya, fısıldaya-fısıldaya yatmağı yaxşıdı.

Keçən il həmin gün də əvvəlcə otağa spirt iyi doldu, sonra Mirzoppa içəri girdi və elə bil ki, dünyanın ən müsibətli xəbərini gətirirmiş kimi, bərkdən ağlaya-ağlaya (içəndən sonra tez-tez beləcə ağlamağı vardı Mirzoppanın) dedi ki, Nəcəf onu kabinetindən qovub:

– Bir məhəllədə böyümüşük, bir yerdə aşıq-aşıq oynamışıq, şumaqədər yortmuşuq asfaltın üstünə, indi məni kabinetindən qovur!..

Bir qədər bu cür yanıb yaxıla-yaxıla ağladı, dünyanın vəfasızlığından şikayət elədi, sonra da həmişəki kimi, hirsini tökdü Məsməxanımın üstünə, bir bəhanə tapıb əlini, ayağını işə saldı. Məsməxanım da onun yağlı sir-sifətini cırmaqlayıb qanatdı. Amma bütün bunların heç kimə dəxli yox idi, məhəccərin üstündə oturub furqonun gur işığında ona baxan bu göygöz oğlana da dəxli yox idi və Məsməxanım buradan çıxıb əvvəlcə milis idarəsinə gedəcəkdi, yenə də çığır-bağır salacaqdı, amma yenə də bu çığır-bağırdan bir iş çıxmayacaqdı, axırda tək-tənha qayıdacaqdı evinə. Bəyəm az olmuşdu belə gecələr?

– Sənin neçə yaşın var? – Bunu Məmmədağa soruşdu.

– Iyirmi dörd. – Bunu da Məsməxanım dedi və yenə də özünə məəttəl qaldı ki, niyə bu yad oğlanın bu cür suallarına cavab verir.

– Iyirmi dörd? Sənə on doqquzdan artıq vermək olmaz.

– Hə, hamı belə deyir... - Məsməxanım gülümsədi və özü də gözləməyə-gözləməyə soruşdu:

– Sənin neçə yaşın var?

– Neçə olar səncə?

– Məncə?.. Otuz... iki!

– Hə, düz deyirsən... Amma iki yaş üstə gəldi...

– Otuz?

– Hə.

Elə bil, dünən idi ki, Məmmədağanın yaşı onla başlayırdı: on beş, on altı, on yeddi, on səkkiz... Və o zamanlar otuz yaş çox-çox uzaqlarda olan bir şey idi; o zaman ağlına sığışdıra bilmirdi ki, nə vaxtsa otuz yaşı olacaq və ona elə gəlirdi ki, belə bir vaxt gəlib çıxanda dünya başqa olacaq, yəni burası aydın idi ki, gün həmin gün olacaqdı, ay həmin ay, ulduzlar həmin ulduzlar olacaqdı, amma Məmmədağa hələ o vaxtlardan başa düşürdü ki, bir günün, bir ayın, eyni ulduzların altında hərənin öz dünyası var; bu barədə gecələr fikirləşirdi, ən çox da damda yatdığı yay gecələri; həmin yay gecələri Səkinə xala axşamdan dama palaz salırdı, palazın üstündən qalın yun döşəyini salırdı, iri balıncı, nazik mitili gətirib Məmmədağanın yerini rahatlayırdı və Məmmədağa da gecə yerinə girəndə göydəki aya, ulduzlara baxırdı. Səkinə xalanın yaş süpürgə ilə süpürüb təmizlədiyi damın sərinliyini hiss edə-edə gözlərini yumub Bakının küçələri ilə təptəzə taksi «Pobeda» sürürdü. Məmmədağanın ən böyük arzusu taksi şoferi olmaq idi və o, hər gecə yuxuya

getməzdən əvvəl taksi «Pobeda»sının çarxlarını nasosla doldururdu, motorunu yoxlayırdı, akkumulyatoruna baxırdı, sonra da benzinli şəlpə ilə əllərinin, qollarının mazutunu silib təmizləyirdi, sonra da taksisini sürürdü.

Indi həmin günlər, elə bil, dünən idi və çox-çox uzaq görünən o illər əslində bir göz qırpımında gəlib keçdi. Məmmədağa Bakının küçələri ilə doğruçu taksi sürdü, sonra isə tirə keçdi və damda yatdığı o yay gecələri ağlına gəlsəydi ki, bir vaxt belə bir furqon tiri olacaq, səhərə kimi yuxusu qaçardı, yata bilməzdi səbrsizliyindən. Ancaq illər keçmişdi və indi məlum olmuşdu ki, hər kəsin dünyası da özü kimi böyüyür, kökəlir, ya arıqlayır.

– Bəs adın nədi? – Bunu da Məsməxanım soruşdu və bu dəfə lap əli-ayağı yerdən üzüldü ki, nə suallardır belə, verir? Onun nəyinə gərəkdi ki, bu göygöz oğlanın adı nədir? Niyə biabır eləyir özünü?

– Məmmədağa. – Məmmədağa Məsməxanıma baxıb güldü. – Uşaq vaxtı məni cinnəndirməkçün deyirdilər:

Məmmədağa
Girdi bağa.
Bir quş tutdu,
Oldu tısbağa!..

– Hə, məni də cinnəndirirdilər uşaqlıqda. Dərsi bilməyəndə qorxurdum ki, indi çağıracaq məni müəllim, əlim, ayağım əsirdi. Uşaqlar da məni cinnəndirirdi:

Məsməxanım Məsmədi,
Əli-ayağı əsmədi...

Məsməxanım bərkdən güldü və lövhəyə çağrılmaqdan qorxan, dünyadan xəbərsiz o balaca qız uşağı gözlərinin qabağına gəldi, sonra birdən-birə öz gülüşü öz qulaqlarında cingildədi və bu dəfə Mirzoppanın yağlı sifəti gözlərinin qabağına gəldi, spirt iyi burnuna gəldi, yadına saldı ki, Mirzoppa indi milis idarəsində oturub, ən azı, on beş sutkasını gözləyir. Bunu yadına saldı və özü öz arsızlığına heyrət elədi, amma burasını da sövq-təbii hiss etdi ki, bu saat lap arsızlıq olmur, nə olur-olsun, bu gur işıqlı furqondan çıxıb getmək istəmir.

Məmmədağa dedi:

– Sən, axı, heç qorxana oxşamırsan...

– Indi beləyəm də...

– Hə, indi yamansan! - Bunu da Məmmədağa dedi və güldü.

Məsməxanım bu oğlanın göy gözlərinə baxıb fikirləşdi ki, doğrudan çox qəribə oğlandı bu oğlan, bu cür iri göy gözləri var, amma qaşları, kirpiyi qaradı, saçları da qaradı, özünün də cəmi otuz yaşı var, amma başı ağarmağa başlayıb.

Məmmədağa soruşdu:

– Nə fikirləşirsən?

Məsməxanım dedi:

– Heç nə. – Və hiss etdi ki, qızarır.

Məsməxanım çoxdan idi daha qızarmırdı, o vaxtdan ki, Mirzoppanın evinə gəlmişdi və indi qızardığını hiss eləyəndə ona elə gəldi ki, dünyada heç bir Mirzoppa yoxdu, heç vaxt ərə getməyib, bütün bunlar hamısı yalandı, yenə də hind kinolarına baxıb ağlayan əvvəlki Məsməxanımdı, bütün bu illərin acısı da bir yuxudu; cəmi bircə an ona belə gəldi, sonra qırx dəqiqə bundan əvvələ qədər üzünü görmədiyi bu oğlanın göy gözlərinə baxıb qəti qərara gəldi ki, buradan getmək lazımdı:

– Yaxşı, getdim mən...

Məmmədağa bir söz demədi və fikirləşdi ki, birdən-birə bu çöllü-biyabanda peyda olmuş bu qarabəniz qızın çıxıb getməsi çox təbii bir işdi; bunu fikirləşdi və fikirləşdikcə də ürəyindən bir nigarançılıq keçdi. Məmmədağa bu nigarançılığın səbəbini bilmirdi, amma burasını indi lap dəqiq bilirdi ki, bu qarabəniz qız çıxıb gedəndən sonra, bu gecənin bütün qəribəliyi öləcək və bayaqkı qayaların təmkini bütün gecə onun qulaqlarına həyatın mənasızlığını pıçıldayacaq.

Məsməxanım furqonun açıq qapısından qumun üstünə atılıb Zuğulbaya tərəf baxdı: kəndin işıqları hələ gəlirdi; Məsməxanım orada yaşayanların çoxunu tanıyırdı və indi tanıdığı bu adamların hamısı haqqında bir-bir fikirləşə bilərdi, amma onlardan heç biri bilmirdi ki, səhər saat səkkizdən axşam altıyacan tərəvəz köşkündə pamidor, xiyar, üzüm, yemiş satan Məsməxanım indi gecənin bu vaxtında dənizin kənarında dayanıb onların pəncərəsindən gələn işığa baxır; heç kim bilmirdi ki, bu saat bu pəncərə işıqlarına baxan Məsməxanımın ürəyində bir təklik nisgili var və heç kim bunu da bilmirdi ki, əri milis idarəsində oturub, ən azı, on beş sutkasını gözləyən Məsməxanım təkcə adını bildiyi bir oğlanın göy gözlərini də özü ilə buradan aparacaq; bunu heç kim bilmirdi və bilməyəcəkdi də; əslində bunu Məsməxanım özü də əməlli-başlı başa düşmürdü, təkcə bunu bilirdi ki, indi ay işığında gümüş kimi ağaran bu furqon haçansa burada olmayacaq və o zaman Məsməxanım bu göy gözləri yadına salacaq, bu göy gözlər barədə fikirləşəcək, axşamlar evdə oturub pəncərədən əncir ağacına baxanda həmin göy gözləri görəcək; nə üçün belə olacaq? Məsməxanım bunun səbəbini də bilmirdi, amma burası lap dəqiq idi ki, onun ürəyi birdən-birə bu göy gözlərin baxışı ilə evdə, internat məktəbdə başını sığallayan həmin iri kişi əllərinin istisi, mehribanlığı arasında bir yaxınlıq, bir doğmalıq duymuşdu. Məsməxanımın ürəyində çoxdan hiss etmədiyi bir ılıqlıq baş qaldırmışdı.

Məmmədağa furqondan düşüb qızın ardınca bir-iki addım atdı, sonra dənizə tərəf çevrilib:

– Külək dayanıb... – dedi.

Məsməxanım da ayaq saxladı, əlini havaya tutub:

– Hə, – dedi, – dayanıb... Axşam yaxşı gilavar əsirdi.

Məmmədağa dedi:

– Gilavar isti əsir... Külək gərək külək olsun, sərin...

Məsməxanım dedi:

– Mən xoşlayıram gilavarı... Gilavar dənizə əsir də... Gilavar əsəndə dənizlə danışmaq olur...

Məmmədağanın bütün vücudunu heyrət bürüdü:

– Nə deyirsən?

– Heç nə.

– Sən dəniz qırağına gəlib dənizlə danışırsan?
– Nöşün, evdə danışmaq olmur bəyəm? Gilavar sözləri aparır dənizə...
Məsməxanım bunları dedi və birdən-birə özünə əməlli-başlı hirsi tutdu: axı, bu oğlan kimdir ki, ürəyinin sirrini ona açır belə? Niyə? Məsməxanım öz-özünə bu sualı verdi və ayaq saxlayıb geri çevrildi.
Məmmədağa qarşısında dayanmış bu qızın gözlərinə baxdı. Ay işığında bu gözlər daha da qaralmışdı, daha da işıldayırdı. Dünyada Zuğulba deyilən bir kənddə gözəl bir qız var idi, bu qızın adı Məsməxanımdı və bu Məsməxanım ona görə gilavarı xoşlayırdı ki, gilavar əsəndə dənizlə danışmaq olur, söhbət etmək olur, külək adamın dediyi sözləri aparıb dənizə çatdırır. Bunu təkcə Məmmədağa yox, bütün yer üzündə heç kim bilmirdi ki, çığır-bağırla, hay-küylə dava-dalaş salan bu qız gilavar əsəndə dənizlə danışır...
Məsməxanım başa düşürdü ki, buradan tez çıxıb getmək lazımdır.
Məmmədağa qıza yaxınlaşıb bir müddət onunla üzbəüz dayandı, sonra soruşdu:
– Nə fikirləşirsən?
Məsməxanım bu göy gözlərin içinə baxa-baxa:
– Sənə nə var, – dedi, – nə fikirləşirəm. Sən kimsən? – Bunları dedi və burasını da fikirləşdi ki, bu göy gözlərin heç bir təqsiri yoxdu ki, o öz-özünə açır sandığı, tökür pambığı.
Məmmədağa dedi:
– Mən Məmmədağayam.
Məsməxanım dedi:

Məmmədağa,
Girdi bağa.
Bir quş tutdu,
Oldu tısbağa..

Məmmədağa dedi:

Məsməxanım Məsmədi,
Əli-ayağı əsmədi.

Məsməxanım güldü və həmin dünyadan bixəbər qız uşağı yenə gözlərinin qabağına gəldi:
– Hə, yaman cinləndirirdilər məni.
Məmmədağa güldü və Məmmədağa da məhəllədən ötən maşınların dalınca qaçan o balaca oğlan uşağını gözlərinin qabağına gətirdi:
– Məni də...
Elə bil ki, Məsməxanımın bütün hirsi soyudu və elə bil ki, bu ucaboylu, göygöz oğlan birdən-birə onun lap az qala doğma bir adamı oldu; elə bil ki, cəmi bir saat bundan əvvəl yox, lap qabaqlardan, lap uşaq vaxtlarından tanış idilər və o zaman hələ bu cür boylu-buxunlu olmayan bu göygöz oğlan boynuna qırmızı pioner qalstuku taxıb çantasını yelləyə-yelləyə məktəbə gedən, məktəbdən qayıdan, barmaqları mürəkkəbə bulaşmış Məsməxanımı çox görmüşdü.

Məmmədağa dənizə tərəf bir-iki addım atıb qayalıqlara baxdı. İndi xəzri dənizin ləpələrini qayalara çırpmırdı və bu sal qayalar bayaqkı ağırlığını tamam atıb yüngülləşmişdi, elə bil bu qayalar bu saat böyük qayıqlar olub dənizə girəcək, ehmallıca suyu yara-yara üzəcəkdilər.

Məsməxanım da əli ilə qayalığı göstərdi:

– Uşaq vaxtı axşamlar qorxardım bu qayalardan... Sözə baxmayanda anam deyərdi: «Bax, o qayalar var ha, gecələr gəlib sözə baxmayan uşaqları aparırlar!» Mənim də canıma üşütmə düşərdi... Heç soruşmazdım da ki, hara aparırlar? Qorxumdan büzüşüb yerimdə oturardım... Səni də qorxudurdular uşaqlıqda?

– Məni? Yox...

– Heç qorxmamısan uşaqlıqda sən?

– Bir dəfə qorxmuşam.

Məsməxanım gözlərini qayalıqdan çəkib Məmmədağaya baxdı, diqqətlə baxdı və Məmmədağaya elə gəldi ki, gilavar əsəndə dənizlə danışan bu qarabuğdayı qız bu saat onun başındakı fikirlərin də hamısını oxuyacaq, ürəyindən keçənlərin də hamısını biləcək, həmin ürəyindən keçənləri ki, Məmmədağa özü bu saat onlardan baş aça bilmirdi, təkcə bunu hiss edirdi ki, bir hərarət var ürəyində, elə bil, içində xəfif bir gilavar əsir. Çoxdan idi, lap çoxdan, evlərinin qır damında yatdığı o yay gecələrindən bəri Məmmədağanın ürəyində belə bir hərarət olmamışdı, yəni bu illər ərzində o çox sevinmişdi, çox şadlıq eləmişdi, amma, bax, bu cür bir hərarət olmamışdı ürəyində və indi o burasını da hiss etdi ki, bir belə illər ərzində ürəyi beləcə bir hərarətin həsrətində imiş.

Sonra Məsməxanım soruşdu:

– Nədən qorxmusan?

– Heç...

Məmmədağa Abşeron yollarında dolaşdığı axır vaxtlar bu köhnə əhvalatı, nədənsə, tez-tez yadına salardı və hərdən yenə də iyirmi il bundan əvvəlki kimi, Kitabullanı gülümsəyən görərdi; Kitabulla gülümsəyəndə dodaqlarının qırağından qızıl dişi parıldayardı; həmin qəribə yay gecəsi Zuğulbanın qumlu dəniz sahilində birdən-birə Kitabulla yenə də gülümsədi və onun qızıl dişi yenə də parıldadı.

Məsməxanım bir də soruşdu:

– Nədən qorxmusan uşaqlıqda?

Məmmədağa dedi:

– Heç... Küləyi görürsən, heç izi də qalmayıb.

Məsməxanım soruşdu:

– Nədən qorxmusan, de.

Məmmədağa dedi:

– Köhnə söhbətdi e, bu. Elə-belə ağzıma gəldi dedim sənə. İstəyirsən sənə başqa bir şey danışım, gülməli?

– Yox, istəmirəm, nədən qorxmusan uşaqlıqda?

...Kitabullagil üç qardaş idi: böyüyü Səmədulla, sonra Yadulla, sonra da Kitabulla. Səmədulla yaşlı kişi idi, dənizdə işləyirdi, eşmə bığı vardı, hər dəfə bayram olanda müharibədə aldığı medalları döşünə taxıb nümayişə gedirdi və məhəllənin bütün uşaqları bu medalların azarkeşi idi. Yadulla çəkməçi idi, bulvarın girəcəyində, indiki Kukla teatrının yanında bir köşkü vardı və məhəllə uşaqları tez-tez bu köşkə gedib-gələrdi: Yadulla həmişə məhəllədəki uşaqların çəkməsini pulsuz

yamayardı. Kitabullanın iyirmi beş yaşı vardı, şofer idi, «poluturka» sürürdi və hərdən bu «poluturka» Dar dalanın qabağında dayananda bütün məhəllə uşaqları bura yığışıb kuzova dırmaşardı. Məmmədağagilin arasında ən sayılanları bir-bir kabinkada oturardı və Kitabulla evdən çıxıb gülə-gülə kabinkada öz yerinə qalxardı, uşaqları beş-on məhəllə gəzdirib yenə Dar dalanın qabağına gətirərdi.

Kitabullanın kabinkası həmişə səliqəli olardı. Kitabulla içəridən maşının qabaq şüşəsini bəzəyərdi. Şüşənin kənarlarına «otkritka» keçirmişdi və məhəllə uşaqlarının hamısı bu «otkritka»dakı yazını əzbər bilirdi. Qırmızı ürək şəklinin içində bir qız başını bir oğlanın sinəsinə qoyub gülümsəyirdi, bir dəstə bənövşəyi, qırmızı, sarı gülü isə öz sinəsinə sıxmışdı. «Otkrıtka»nın yuxarısında dimdik-dimdiyə iki ağappaq göyərçin şəkli vardı, aşağıda isə yazılmışdı:

Pust naşa drujba budet veçnoy
Kak drujba etix qolubey.

Uşaqlar bilirdi ki, məhəllədəki qızların çoxu Kitabullanın dərdindən divanədi, aşiqdilər ona. (Məhəllədə uşaqların bilmədiyinə qurd düşərdi.) Əlbəttə, məhəllədə yaraşıqlı cavan oğlanlar çox idi, amma Kitabulla bu cavanların gözü idi. Qəssab Ağanəcəfin arvadı Balacaxanım dəmir şəbəkəli küçə pəncərələrinin qabağında balaca taxta kətilin üstündə oturub tum çırtlaya-çırtlaya Dar dalana tərəf göz eləyib yanında dayanmış məhəllə qızlarına deyirdi:

– Ciyəriyanmış sir-sifətdən elə bil Yusifdi... Adam barmağını soğan yerinə doğrayar, «uf» deməz!..

Məmmədağagilin belə söhbətlərdə səriştəsi var idi və başa düşürdülər ki, söhbət Kitabulladan gedir. Kitabullanın «poluturka»sı Dar dalanın qabağında dayanan kimi, məhəllə qızları pəncərələrdən oğrun-oğrun maşına tərəf baxır, bir iş bəhanə eləyib küçəyə çıxırdılar. Amma uşaqlar, məhəllədəkilərin hamısı kimi, burasını da bilirdilər ki, Kitabulla başqa bir qız istəyir və bu qız başqa yerdə olur; qız da Kitabullanı istəyirdi, amma hamı bilirdi ki, qızın ata-anası onu Kitabullaya vermir. Bu söhbət neçə müddət idi ki, məhəllədə gəzirdi və heç kimin ağlına sığışmırdı: necə ola bilər ki, Kitabulla kimi bir oğlana qız etibar etməyəsən?

Günlərin bir günü gecə vaxtı bütün məhəlləyə bir xəbər yayıldı: Kitabullanın istədiyi qız ona qoşulub qaçıb, indi Səmədullagildədi, sabah yox, birisi gün Kitabulla ilə həmin qızın toyu olacaq.

Kitabullagil Dar dalanın axırındakı həyətdə olurdu. Həyətlərində üç bina vardı. Məhəllədə bu binalar «Mənsur şüşəbəndi» adı ilə məşhur idi. Mənsur Kitabullagilin babası imiş və bu birmərtəbəli üç binanı öz əlləriylə tikibmiş. Hər binanın qabağı şüşənbənd idi və bu şüşəbəndlərin taxta şəbəkələrinin fotoşəkli muzeydən asılmışdı. Binalardan birində Səmədulla ailəsi ilə olurdu, o birində Yadulla ailəsi ilə olurdu, üçüncüdə də Kitabulla ailəsi ilə olacaqdı.

Və həmin gecə Məmmədağagil Dar dalanın qabağında tonqal qaladı, məhəllənin qızları isə ikibir, üçbir Dar dalanın qabağından keçib Kitabullagilin həyət qapısına tərəf boylanırdı.

Səhəri gün Səmədulla, bayram günləri nümayişə gedirmiş kimi, medallarının hamısını döşünə taxıb məhəllədəki qapıları bir-bir açdı. Məmmədağagilin də həyətlərinə gəldi, kiçik foto-dəvətnaməni Səkinə xalaya verdi:

– Səkinə bacı, – dedi, – Əli yoxdu indi, amma sən varsan. Əlinin yeri məlum, nöşün ki, bilirsən, mənim can-ciyərim idi. Ancaq olacağa çarə yoxdu. Sabah xahiş edirəm bizə buyur, Kitabullanın toyudu.

Məmmədağanın atası ilə Səmədulla uşaqlıqdan dost olmuşdular, müharibəyə də bir yerdə getmişdilər, Səmədulla qayıtmışdı, atası yox.

Səkinə xala dedi:

– Xoşbəxt olsunlar! Oğullu-qızlı olsunlar, qoşa qarısınlar. Çox sağ ol.

Səmədulla eşmə bığlarının altından gülümsəyib dedi:

– Sən də çox sağ ol! O gün olsun Məmmədağadan görəsən!

Fotodəvətnamədə bir göyərçin dimdiyində məktub tutmuşdu və məktubun üstündə yazılmışdı: «Sizi əzizimiz Kitabulla ilə əzizimiz Tamillanın xeyir işinə dəvət edirik. Məclis 1951-çi il sentyabr ayının 17-də bəyin böyük qardaşı Səmədullanın evində olacaq». Aşağıda isə iki misra vardı:

Mehrabı eşqdir uca göylərin,
Eşqsiz, ey dünya, nədir dəyərin?

Həmin gün məhəllədə paltarlar naftalindən çıxarıldı, kostyumlar ütüləndi, köynəklər yuyuldu. Hamı Kitabullanın Tamillanı istəməyindən, Tamillanın da Kitabullanı istəməyindən danışırdı. Indi daha hamı bilirdi ki, bir belə müddət ərzində Kitabullanı atəşində yandıran qız, yəni Tamilla institutda oxuyur və atası-anası onu bir tarix müəlliminə vermək istəyirmiş, amma Tamilla, ancaq Kitabullanı istəyirmiş və axırda da dünən gecə çamadanını götürüb evdən çıxıb. Bu xəbərlərin çoxunu Yadullanın arvadı Fatmadan öyrənirdilər. Fatma bir gecənin içində özü tikdiyi yaşıl ipək paltarını geyib dəqiqədəbir evə gəlirdi, qazan götürürdü, nimçə-boşqab, stəkan-nəlbəki götürürdü və elə hey danışırdı:

– Çox ağıllı qızdır! Ömrümdə belə qəşəng qız görməmişəm, qız deyil, ay parçasıdı! Kitabullaya layiq qızdı! Bir-birlərindən ötrü dəli-divanədirlər! Amma atası əzazilin biridi! Səhər Səmədulla qədeş getmişdi onlara barışıq eləsin, toya çağırsın, desin ki, nə qədər adamuvuz var, gözümuz üstə yerləri var, amma heç evə buraxmayıblar onu! Səmədulla qədeşi e!.. Səmədulla qədeşi evə buraxmayıblar!..

Məmmədağagil heyrətdən donub qalırdı ki, bir adamın sinəsində bir belə medal ola, onu necə evə buraxmamaq olar?

Fatma deyirdi:

– Böyük adamdı atası, hər gün səhər dalınca işdən maşın gəlir, «emaddin». Nə olar e?.. Deyirmiş ki, papağımı yerə soxub mənim! Bu adda qızım yoxdu daha! Ömrünün axırınacan görükməsin gözümə! Əşşi, minnətin olsun sənin!.. Ona deyən lazım ki, Kitabulladan artıq oğlanla qohum olacaqdın? Amma qız ayrı qızdı! Ağıl deyirsən, onda! Tərbiyə deyirsən, onda! Kitabullaya layiq qızdı! Ikisi də qızıl gülün ləçəyidi, gözə gəlməsinlər!

Hamı bilirdi ki, Fatma kiçik qaynı Kitabullanın xətrini dünyalar qədər istəyir, amma hamı da Fatmaya inanırdı ki, Tamilla ağıllı qızdı, gözəl qızdı, çünki bir qız ki, Kitabulla kimi bir oğlan dörd il istəyə-istəyə qala, bir qız ki, istəmədiyi üçün institut qurtarmış tarix müəlliminə getməyə, demək çox yaxşı qızdı o qız.

Məmmədağagilin məhəlləsinin aşağı başında yaşayan klarnetçalan Ələkbər gümüş dilli klarnetini təmizləyə-təmizləyə deyirdi:

– Çoxdandı məlɘdə toy-zad olmur... Özü də ki, Kitabullanın toyu! Sabah bir qan eləyəcəyəm ki, molla Süleymanın da oturduğu yerdə sümükləri oynasın! Əflatuna demişəm nağaranı gətirsin, Siyavuş da zurnanı püfləyəcək! Bir qiyamət eləyək ki, gərək, Kitabullanın adına layiq olsun! Hamı da bilsin ki, bacımız hansı məlɘyə gəlib!

Həmin gün Solmaz tez-tez soruşurdu:

– Mənə də verəcəksən konfet kağızı?

Məmmədağa deyirdi:

– Hə, verəcəm.

– Çoxlu-çoxlu?

– Hə.

Sabah toy vaxtı uşaqlara cürbəcür konfetlər şabaş eləyəcəkdilər və Məmmədağagil də bu konfetləri yeyib kağızlarını da hamarlayıb yığacaqdı.

Həmin gün Səkinə xala da çoxdan bəri açmadığı sandığı açıb, çoxdan bəri geymədiyi sarı ipək paltarını çıxartdı, naftalin iyi getsin deyə şüşəbənddə günə sərib dedi:

– Səmədulla qədeşin sözünü yerə sala bilmərəm. Kitabullanın toyuna getməsəm, Əlinin də ruhu şad olmaz. Çox istəyirdi Kitabullanı, indi istəməsin, deyirdi ki, yaxşı oğul olacaq Kitabulla.

Həmin gün Kitabullagilin həyət qapısının ağzında boyunlarına qırmızı lent bağlanmış iki qoyun mələyirdi və uşaqlar da Dar dalanın qabağındakı tut ağacına çıxıb yarpaq yığır, gətirib qırmızı lentli qoyunların qabağına tökürdülər. Tutun üstündə yarpaq qalmadı, qoyunun əti dadlı olacaqdı. Alxas bəyin bir sözü bütün məhəllədə məşhur idi: «– Əşşi, qoyun ətinin ləzzəti qaçıb!.. Qoyunda nə təqsir var?.. Bir qoyun ki, şəhərdə adamla oturub borş yeyə, radioya qulaq asa, asfaltın üstündə gəzə, onun ətinin nə dadı olacaq?». Amma bu qırmızı lentli qoyunlar ki, bu gecə bu qədər tut yarpağı yedi, sabah Alxas bəy onların ləzzətindən doymayacaqdı.

Və həmin gecə yerində uzanan Məmmədağa sabahkı toy dəsgahı barədə fikirləşirdi, gözlərinin qabağında Kitabulla gülümsəyirdi və gülümsədikcə də dodaqlarının qırağındakı qızıl dişi parıldayırdı; Məmmədağa sarı ipək paltarını geymiş anasını görürdü və sevinirdi ki, axır ki, anasını deyib-gülən gördü, axır ki, anası da başqaları kimi, arvadlar oturan otaqda, əl çala-çala qarmonçu Nisəyə dəm tuturdu, «–Ay can! Ay can!» – deyirdi; sonra Məmmədağa fotodəvətnamədə oxuduğu o iki misra haqqında fikirləşdi, bu sözlərin mənasını başa düşməyə çalışdı və nə qədər çalışdısa da bir şey başa düşə bilmədi, təkcə bunu çox dəqiq bilirdi, bir halda ki, eşqin nəticəsində qoyunların da boynuna qırmızı lent bağlanırdı, anası sarı ipək paltarını sandıqdan çıxarıb günə sərirdi, deməli, yer üzündə yaşayan adamlara lazımlı şeydir bu; bir gün gələcək, onun da belə bir fotodəvətnaməsi məhəllədə əldən-ələ gəzəcək və həmin fotodəvətnamədə də bu iki misra yazılacaq:

Mehrabı eşqdir uca göylərin,
Eşqsiz, ey dünya, nədir dəyərin?

Və Məmmədağa bütün bunları fikirləşə-fikirləşə təzəcə yuxuya gedirdi ki, Dar dalanda şivən qopdu. Məmmədağagilin məhəlləsində çox işlər olmuşdu, amma o, ömründə bu cür ağlaşma görməmişdi, bu cür səslər eşitməmişdi. Gecənin yarısı birdən-birə Dar dalandan gələn arvad qışqırtıları, ağlaşmalar, ağılar elə səslənirdi, elə bil, bütün dalan qəflətən dərd əlində ulamağa başlamışdı. Bircə dəqiqənin içində Məmmədağanın başındakı tüklər biz-biz durdu və hövlnak yerindən qalxıb həyətə çıxan Səkinə xalanın da çığırtısı gələndə Məmmədağanın bütün bədəni əsməyə başladı.

Bütün məhəllə ayağa qalxdı, uşaqdan böyüyə hamı küçəyə çıxdı və həmin gecə Dar dalanın qabağında o qədər adam vardı ki və bu adamlar elə şivən qoparırdı ki, günlər, aylar, hətta illər keçəndən sonra da bu gecə izdihamı, bu müsibət uşaqların gözünün qabağından getmədi, qulaqlarından çəkilmədi.

– Kitabulla avariyaya düşüb ölüb! – Bu xəbər həmin gecə uşaqdan böyüyəcən bütün məhəllənin belini sındırdı.

Axşam Kitabulla Lökbatandan yük gətirəndə Şıx çimərliyi tərəfdə boş bir avtobusla toqquşmuşdu. Sükan Kitabullanın sinəsini basıb qarnına girmişdi və o, elə o saat keçinmişdi. Avtobusun kefli sürücüsünə heç nə olmamışdı.

Kitabullanın meyitini maşından düşürüb Dar dalanla aparanda birdən axırıncı həyətin qapısı açıldı, başıaçıq, ayağıyalın bir qız, arvadların əlindən qopub tabuta tərəf cumdu, vəhşi kimi, qabağındakı kişiləri aralayıb iki əli ilə tabutun taxtasından yapışdı, var gücü ilə dartdı; tabutu çiyinlərində saxlayan kişilərin ayağı titrədi, bu qızın dəli baxışlarının qabağında irəliləyə bilmədilər; qız tabutun taxtasını bir də dartdı, az qaldı meyit tabutun içindən yerə düşsün və kişilər, ancaq onu eləyə bildilər ki, tabutu cəld çiyinlərindən düşürüb yerə qoydular; tabutu yerə qoymaqla qızın özünü meyitin üstünə atmağı bir oldu və onun sinəsindən qopan şivənlə bütün bu gecə izdihamının köksündən çıxan nalə də bir oldu.

Məhəllənin adamları Tamillanı birinci dəfə belə gördü.

Səhər üz-gözünü cırıq-cırıq eləmiş Fatma batmış səsilə güclə qışqırırdı, az qalırdı boğazının göy damarları şişib partlasın:

– Toyunçun gələn qoyunlar ehsanına kəsilir, ay Kitabulla, va-a-ay!..

Toyuna çağırılmış qonaqlar, bütün məhəllə Kitabullanı basdırmağa getdi. Məmmədağagilin məhəlləsindən qəbiristanlığa qədər on kilometrlik yolu mafə çiyinlərdə getdi, heç kim maşına minmədi.

Kitabullanın şofer dostları öz maşınları ilə gəlmişdilər. Maşınlar məhəlləyə sığışmırdı.

Qəbiristanlıqda Ələkbər üz-gözünün yaşını sildi, hıçqıra-hıçqıra klarnetini qabından çıxardıb yığdı və həmin sentyabr günü Kitabullanın mafəsinin başında bir «Segah» çaldı. Ələkbərin klarneti bütün məhəllənin adından Kitabulla ilə sağollaşdı. Həmin sentyabr günü Ələkbər klarneti elə çaldı ki, bu çalğı dünyanın bütün dərdli işlərindən söhbət açdı; klarnet Ələkbərin titrəyən barmaqları arasında yandım deyib su istədi.

Kitabullanın başı da əzildiyinə görə üzünü açmamışdılar və Məmmədağa heç cür ağlına sığışdıra bilmirdi ki, başdan-ayağa kəfənə bürünmüş bu uzun bağlama Kitabulladı. Məmmədağa bütün ömründə birinci dəfə idi qəbiristanlığa gedirdi və indi o, heç cürə ağlına sığışdıra bilmirdi ki, bu saat bu uzun ağ bağlamanın içindəki Kitabullanı mafədən götürüb təzə qazılmış qəbrin içinə qoyacaqlar, üstünə torpaq

töküb sulayacaqlar, sonra da hamı məhəlləyə qayıdacaq, bu qəbir isə burada beləcə qalacaq, yağış yağacaq, külək əsəcək, bu qəbir isə burada beləcə qalacaq. Məmmədağanı dəhşət basdı, az qala hədəqəsindən çıxacaq gözləri ilə mafədəki uzun ağ bağlamaya baxdı, ağzı, burnu kəfənlə sarınmış Kitabullanın yerinə nəfəsi tıncıxdı, gözünün qabağına ağappaq duman gəldi və birdən elə bil ki, Kitabulla gülümsədi, bu ağ dumanın içində qızıl dişi işıldadı; Məmmədağa bircə onu bildi ki, bərkdən qışqırdı, daha sonrasını bilmədi, bir də iki gündən sonra evlərindəki çarpayısında özünə gəldi.

Həmin ilin qışında Bakıya yaman qar yağdı, dərslər dayandı, maşınlar, tramvaylar işləmədi. Məhəllənin qocaları deyirdi ki, Bakıda belə qar-çovğun, belə qış görməyiblər.

Bir gün belə bir xəbər yayıldı ki, gecə yuxarı məhəllələrdən birinə canavar gəlib. Üç ayın içində beli bükülmüş Səmədulla bu xəbəri eşidəndə çənəsi əsə-əsə dedi:

– Bizim evə canavar sentyabrda gəlmişdi...

Alxas bəy isə deyirdi:

– Dədə Qorqudun bir sözü var, deyir:

Gəlimli, gedimli dünya,
Son ucu ölümlü dünya...

...Məsməxanım dənizin qırağı ilə yaş qumun üstündə addımlaya-addımlaya bir müddət heç nə demədi, sonra soruşdu:

– Bəs qız nə oldu?

– Tamilla?

– Hə.

– Fatmanın iki uşağı vardı, Kitabullanın qırxı çıxandan sonra, ikisini də götürüb getdi, atasıgilə, Yadulladan boşandı. Tamillanın da kəbinini kəsdirdi Yadullaya. Fatma deyirdi ki, Tamilla mənim bacımdı, Yadulla da day bundan sonra mənim qardaşımdı. Hamı bilirdi ki, Fatma Tamillaya görə belə elədi...

– Day atasıgilə qayıda bilməzdi Tamilla, hə?

– Nə bilim?.. Yəqin qayıda bilmirmiş də... Hamı bilirdi ki, Fatma Yadullanı məcbur eləyib, çünki Yadullayla Fatma da bir-birlərini çox istəyirdi...

Ay lap yuxarı qalxmışdı və indi saysız ulduzlu göy ilə dənizi birləşdirən üfüq uzaq qaranlıq içində görünməz olmuşdu; üfüqün əvəzinə qapqara bir boşluq vardı; sahil boyu xeyli aralıda Buzovna elektrik stansiyasının işıqları gəlirdi və bu işıqlar indi elə bil dənizin ulduzları idi; dənizin ulduzları ilə göyün ulduzları qarışmışdı bir-birinə; bir belə saysız ulduzun içində dan ulduzu tamam başqaydı, iri, işıqlı, tənha...

– Tamilla Yadullanı istəyirdi?

– Nə bilim... – Məmmədağa fikirləşdi ki, nə üçün bu sual indiyə kimi onun ağlına gəlməyib, nə üçün o indiyə kimi fikirləşməyib ki, Tamilla Yadullanı istəyirdi, ya yox?

Məmmədağa gözlərini dənizdən çəkməyən Məsməxanıma baxdı və birdən-birə ona elə gəldi ki, gecənin yarısı Zuğulbanın dəniz sahilində qəflətən peyda olmuş bu qarabəniz qız onun əziz və doğma bir adamıdı.

– Yazıq... – Bunu Məsməxanım dedi.

– Kitabulla yazıq?

– Kitabulla da yazıq, Tamilla da, Yadulla da yazıq, Fatma da, sən də...

– Mən niyə?

– Çünki on yaşında belə şey görmüsən... Indiyə kimi yadından çıxmayıb, çıxmayacaq da...

Əlbəttə, Məmmədağa bu saat bilmirdi ki, Məsməxanım da yuxusuz uzun gecələrdə həyat barədə, ölüm barədə çox fikirləşib. Həmin yuxusuz gecələrdə ki, Mirzoppanı güclə sürüyüb çarpayıya yıxırdı və Mirzoppa da ağzından, burnundan, qarnından cürbəcür səslər çıxara-çıxara dünyadan bixəbər olurdu. Həmin yuxusuz gecələrdə Məsməxanım ürəyi közərə-közərə həyat və ölüm barədə fikirləşirdi və nədənsə, bu fikirləşmələrin hamısı axırda bununla qurtarırdı ki, Məsməxanım sehrli bir nağıl aləminə gedirdi, sehrbazların içində gəzib-dolaşırdı və bu sehrbazların hamısı da onu istəyən, onu əzizləyən adamlardı. Birdən gecənin yarısı Mirzoppanın ürəyi bulanırdı və çox zaman da durub ayaqyoluna getməyə taqəti olmadığı üçün yorğan-döşəkdən boynunu uzadıb çarpayının yanında döşəmənin üstünə qaytarırdı. Əvvəllər Məsməxanım axşamdan çarpayının yanına tas qoyurdu və bu tası görəndə Mirzoppa özündən çıxırdı:

– Sən məni nə hesab eləyirsən? Pyaniskəyəm mən səninçün?

Və yenə dava-dalaş başlayırdı, yenə əl-ayaq işə düşürdü, yenə üz cırmaqlanırdı, söyüşlər söyülürdü; axırı ki, tasın məsələsi həll olundu, tas daha axşamdan Mirzoppanın çarpayısının yanında dayanıb onun əməllərini gözləmədi.

Mirzoppa öyüyə-öyüyə çarpayıdan döşəmənin üstünə qaytarırdı, amma Məsməxanım daha nə qoxu hiss edirdi, nə də Mirzoppanın böyürtüsünü eşidirdi; öz sehrli nağıl aləmində olurdu Məsməxanım, öz xeyirxah sehrbazlarının yanında və bu sehrbazlar nəinki, ancaq onun ürəyini oxşayırdı, bəzən həftələrlə, aylarla əl dəyməyən bədəni də bu nəvazişi hiss edirdi; Məsməxanım səhərə yaxın bu yumşaq oxşamalarla yuxuya gedirdi.

Həmin qəribə yay gecəsi birdən-birə Məsməxanıma elə gəldi ki, yenə də öz sehrli nağıl aləmindədi və indi başa düşdü ki, bayaq nə üçün furqondan çıxıb gedə bilmirdi, çünki divarlarından taxta dovşan, tülkü, ayı, şir və naməlum heyvan asılmış, bu çöl-biyabanda alüminium örtüyü ay işığında gümüş kimi ağaran bu furqon elə bil ki, onun yuxusuz gecələrindəki sehrli nağıl aləmindən çıxıb Zuğulbanın dəniz sahilinə gəlmişdi; bu hündürboylu, yaraşıqlı oğlanın iri göy gözləri də onun sehrbazlarının əməli idi.

– Sənin ulduzun var göydə? – Bunu da Məsməxanım soruşdu.

– Mənim ulduzum?.. – Məmmədağa göyə baxdı. – Yox, mənim ulduzum yoxdu göydə.

Abşeron yollarında Məmmədağanın çoxlu avtoinspektor tanışı vardı, amma Abşeron göyündə öz ulduzu yox idi. Məmmədağanın yadından da çıxmışdı ki, adam göydə özünə ulduz seçər və hara da getsə gecələr bu ulduzu saysız ulduzların arasından seçib tapar; Məmmədağa üçün bütün bunların hamısı uşaqlıqda qalmışdı.

– Amma mənim ulduzum var!.. – Məsməxanım Məmmədağaya baxdı və elə bil, xəbər verdi ki, dünyanın bütün sərvəti məndədi. – Ode, bax, o ulduzdu, gördün?– Əlini uzadıb barmağı ilə dan ulduzundan bir az aşağıda güclə sezilən ulduzu göstərdi.

– Onu hardan tapmısan elə? – Məmmədağa gözlərini güclə sezilən həmin ulduzdan çəkib gülümsəyə-gülümsəyə Məsməxanıma baxdı.

Və birdən Məsməxanım soruşdu:

– Sənin gülümsəməyin Kitabullanın gülümsəməyinə oxşayır?

Məsməxanım bu sualı verdi və birdən-birə ürəyindən gizli bir qorxu keçib getdi; Məsməxanım qorxdu ki, indi ay işığında ona baxıb gülümsəyən bu göygöz oğlan da, günlərin bir qara günündə bir içmişin maşınına rast gəlib uzun ağ bağlamaya dönə bilər; Məsməxanım qorxdu və işığı güclə gəlib Zuğulbanın dəniz sahilinə çıxan ulduzuna baxdı.

Məsməxanım bilə-bilə özünə bu cür uzaq bir ulduz seçmişdi, işığı güclə sezilən bir ulduz, çünki hərdən axşamlar pəncərələrinin qabağındakı böyük əncir ağacına baxa-baxa fikirləşirdi ki, göydə ulduzu olanların içində qisməti elə bu ulduzdu, çünki dünyada bəxti də elə bu cür uzaq işıqlıdı, amma sonralar, o vaxtlar ki, Məsməxanımın sehrli nağıl aləmi dünyaya gəldi, bu ulduzun da uzaqlığı əl çatmazlığından çıxıb həmin sehrli nağıl aləminə aparan bir məsafə oldu.

Məsməxanımın sualı Məmmədağa üçün də gözlənilməz oldu, o, yenə də Kitabullanın gülümsəyən sifətini, işıldayan qızıl dişini gördü və bu qızıl diş indi ay işığında işıldayırdı. Məmmədağa dedi:

– Bilmirəm..

Məsməxanım dedi:

– Bilirsən o ulduz mənə nə deyir?

Məmmədağa soruşdu:

– Nə deyir?

Məsməxanım dedi:

– O ulduz mənə deyir ki, Məsməxanım, sən heç vaxt ölməyəcəksən! Məsməxanım, sən həmişə yaşayacaqsan! Məsməxanım, qara torpaq səni görməyəcək!.. Yaxşı sözlər deyir?

Məmmədağa dedi:

– Yaxşı sözlər deyir.

Məsməxanım həmin qəribə yay gecəsi əllərini yelləyə-yelləyə öz ulduzunu bərkdən səsləmək istədi: «-E-he-he-hey!», amma özünü saxladı, çünki, onsuz da, içini bayır eləyib qoymuşdu ay işığının altına.

Məmmədağa soruşdu:

– Daha nə deyir sənə o ulduz?

Məsməxanım gözlərini öz uzaq ulduzundan çəkib Məmmədağanın gözlərinin içinə gülümsədi:

– Daha heç nə demir...

– Bəs demir ki, Məsməxanım, əslində sən Məsməxanım yox, Məsməbəbəsən?..

– A - a - a... Bəbə niyə oluram? - Məsməxanım bunu dedi, amma açıq-aşkar hiss olunurdu ki, bu sözdən xoşu gəldi; Məmmədağanın dilində «Məsməbəbə» sözü çox şirin səsləndi, doğma səsləndi və bu sözün ılıqlığı Məsməxanımın ürəyinə yayıldı; sonra üç-dörd ay bundan əvvəl milisioner Səfərlə dalaşması yadına düşdü.

Milisioner Səfər yenə də kefli Mirzoppanı tutub milis idarəsinə aparmışdı və bundan xəbər tutan Məsməxanım yenə də az qalırdı milisioner Səfərin gözünü çıxartsın yerindən. Milisioner Səfər yaş dəsmalı ilə üz-gözünün tərini silə-silə dedi:

– Qızım, uşaqsan sən hələ, lap uşaqsan! Hayıf səndən!

Onda bu söz yaman tutmuşdu Məsməxanımı və ona elə gəlmişdi ki, milisioner Səfər xırda gözləri ilə əslində çox şey görür, çox şey oxuyur. Milisioner Səfərin beləcə heyfsilənməsi onun əlini-qolunu qırıb yanına salmışdı və o zaman Məsməxanım fikirləşmişdi ki, nə üçün Mirzoppanın bəd əməllərinin üstündə gəlib bu yekə kişini bu cür bihörmət edir? Axı, bu kişi nə qədər olmasa da, Mirzoppadan bir on qat artıq adam idi. Məsməxanım yaxşı başa düşürdü və yaxşı bilirdi ki, adam öz əri haqqında belə sözlər deməz və belə şeylər fikirləşməz. Deməyinə, əlbəttə, Məsməxanım heç kimə heç nə demirdi, fikirləri isə hərdən qovub beyindən çıxarmaq olmurdu. Mirzoppa hər dəfə keflənib şuluq salanda, milis idarəsinə gətiriləndə Məsməxanım da onun ardınca gəlib davasını salırdı ki, ərimi buraxın; Mirzoppa onun əri idi və bu belə olmalı idi; amma fikirlər isə heç nəyə baxmırdı.

Sonra Məsməxanım hər şeyi yadından çıxarmaq istədi, həmin qəribə yay gecəsi dünyanın heç bir pis işi barədə fikirləşmək istəmədi; sonra da Məsməxanım pıçıltı ilə mühüm bir xəbər verdi:

– Bilirsən, mənim ulduzum zarafat xoşlamır...

– Doğrudan? – Məmmədağa da pıçıldadı.

– Hə. – Məsməxanım bu dəfə lap yavaşdan pıçıldadı, sonra da həmin pıçıltı ilə dedi: – Gəl sənə də bir ulduz seçək.

Məmmədağa pıçıldadı:

– Gəl seçək...

Məsməxanım pıçıldadı:

– Həmişəlik səninki olsun...

– Yaxşı...

– Hansını istəyirsən, seç...

– Ode, onu... – Məmmədağa qolunu uzadıb barmağı ilə Məsməxanımın ulduzunun yanında işığı lap güclə sezilən bir ulduz göstərdi.

Həmin qəribə yay gecəsi Məsməxanım birdən-birə başa düşdü ki, Zuğulbanın bu kimsəsiz dəniz sahilində bu ulduz oyununun axırı yaxşı qurtarmayacaq; əlbəttə, pis bir iş olmayacaq, amma acısı qalacaq bu ulduz oyununun; bu acı heç vaxt Məsməxanımın ürəyindən çıxıb getməyəcək, – Məsməxanım yaxşı bələd idi öz ürəyinə; alüminium örtüyü ay işığında gümüş kimi ağaran bu furqon Zuğulbanın bu dəniz sahilindən çıxıb gedəcək və o zaman Məsməxanımın ulduzunun yanındakı bu ulduz onun sehrli nağıl aləmini də bir heç edəcək.

– Yox, onu yox. – Məsməxanım bu dəfə pıçıldamadı.

– Bəs hansını? – Məmmədağa başa düşdü ki, Məsməxanımın ürəyindən nəsə bir nigarançılıq gəlib keçdi.

– Özün seç.

– Bir belə ulduz var, hansını seçim?

– Hansını istəyirsən, seç, amma mənə göstərmə.

– Niyə?

Məsməxanım bu saat özü də özünə bildirmək istəmirdi ki, niyə?.. Bəlkə özü də özündən gizlətmək istəyirdi ki, günlər, aylar, kim bilir, illər keçəcək və o zaman başını qaldırıb haçansa qəflətən rast gəldiyi bir göygöz oğlanın ulduzuna baxmaq, hər gecə bu ulduzu görmək onun üçün ağır olacaq? O zaman həmin göygöz oğlan bu ulduzu, bu ulduzu ki, gecələrin bir gecəsi Zuğulbanın səmasında özünə seçmişdi,

tamam yadından çıxaracaq və o zaman həmin ulduzun insan nisgilini Məsməxanım hiss edəcək...

– Adam öz ulduzunu başqasına göstərməsin gərək.

– Bəs sən niyə göstərdin?

Məsməxanım yenə öz ulduzuna baxdı və sarı trikotaj köynəyinin kip örtdüyü yumru çiyinlərini çəkdi.

Yenə xəzri başlamışdı və külək yavaş-yavaş bərkiyirdi; belə getsəydi, külək bu gecə bu yerlərdə əməlli-başlı fironluq edəcəkdi. Məmmədağa Abşeron havasına yaxşı bələd idi və bilirdi ki, Abşeron küləyinə etibar yoxdu – bircə saatın içində elə bir çovğun qopar ki, gəl görəsən. O, küləyi xoşlayırdı (Abşeron küləyindən zəhləsi gedən adam çox idi, xüsusən rayondan gələnlərin heç arası yox idi bu küləklə) və ağır maşını ilə küləyi yara-yara Abşeron yollarında çox yolçuluq etmişdi, amma həmin qəribə yay gecəsi Zuğulbanın bu dəniz sahilində gərək külək bərk əsməyəydi, qum adamın burnuna, qulağına dolmayaydı; gərək bu gecə burada külək elə əsəydi ki, bu qayalar yüngül qayıq olub dənizə çıxmaq istəyəydi.

Məmmədağa dedi:

– Xəzri bərkiyir deyəsən...

Məsməxanım da ona baxdı və dedi:

– Istəyirsən dayandırım bu küləyi?

Məmmədağa soruşdu:

– Sən cadugərsən?

Məsməxanım dedi:

– Hə, mən yaman cadugərəm...

Sonra o tərəf-bu tərəfə boylandı.

– Nə lazımdı?

– Gərək ağacla danışasan. Ağaca deyəsən ki, küləyi dayandırsın.

Məmmədağa çoxbilmiş Məsməxanıma güldü və soruşdu:

– Hansı ağaca?

Məsməxanım dedi:

– Hansı olur, olsun.

Məmmədağa bilirdi ki, Abşeron kəndlərində dəniz sahili qumsallıqda yaşıl ağac tapmaq çətin işdi; çürümüş qayıq skeleti tapmaq olar, müharibədən əvvəlki vaxtların içi qumla dolmuş araq, pivə şüşələrini tapmaq olar, mazuta bulaşmış avar, sahilə atılmış cürbəcür balıqlar, hətta suiti tapmaq olar, amma küləyi dayandırmaq üçün yaşıl bir ağac tapmaq çətin işdi.

Məsməxanım dedi:

– Ode, o təpənin üstü zeytunluqdu, gedək ora. – Sonra da Məmmədağanın cavabını gözləmədən əyilib səndəllərini ayağından çıxartdı və günortanın istisindən sonra yavaş-yavaş soyuyan qumun üstü ilə tez-tez addımlaya-addımlaya uzaqda bozaran təpəyə tərəf getdi.

Məmmədağa çəkmələrinin içinə narın qum dola-dola bu cadugər qızın ardınca addımlayırdı və o, səndəllərini əlində tutub iti-iti gedən bu ayaqyalın qızın ardınca lap dünyanın axırına kimi beləcə addımlayardı.

Məsməxanım ona tərəf çevrilib gülə-gülə:

– Tez gəl də! – dedi: – O saat bilinir ki, asfalt adamısan. Çıxart ayaqqabılarını. Içi dolacaq qumla...

Məmmədağa ayaqqabılarını, corablarını çıxardıb əlinə aldı və qaça-qaça ay işığında dayanıb onu gözləyən cadugər qıza çatdı.

– Sən inanmırsan ki, küləyi dayandıracağam?

– Inanıram.

– Hə, görürəm, yaman da inanırsan... Indi baxarsan!

Yavaş-yavaş sərinləyən narın qum Məmmədağanın ayaqlarına toxunduqca, barmaqlarının arasından süzülüb töküldükcə ona elə gəlirdi ki, yer üzündə yox, qəribə bir boşluqda addımlayır; bu boşluqda bir mülayimlik və həzinlik var idi; belə bir mülayimlik və həzinlik, ancaq gecələr ola bilərdi, gündüzlər isə yox olub gedirdi; gündüzlər qayğılar başlayırdı, hərəkət başlayırdı; gündüzlər gecəki adam elə bil ki, dəyişib başqa adam olurdu və həmin qəribə yay gecəsi birdən-birə Məmmədağanın ürəyinə bir səhər nigarançılığı çökdü.

Abşeron küləyi Zuğulbanın dəniz sahilində qumdan böyük bir təpə düzəltmişdi və onlar gəlib bu qum təpəsinin yanına çatan kimi, Məsməxanım irəli çıxıb üzüyuxarı qalxmağa başladı; qalxa-qalxa da aşağı baxıb güldü:

– Yavaş ol, a, yumbalanarsan birdən...

Məmmədağa hər dəfə addım atdıqca, az qala, dizə qədər quma bata-bata:

– Qorxma, – dedi, – gəlirəm dalınca!

Qumun içi əməlli-başlı isti idi və bu isti Məmmədağanın ayaqlarını, topuqlarını qızdırırdı. Məsməxanım yuxarıdan qışqırdı:

– Görürsən nə əntiqə istidi qum?

Qumun bu istiliyi, doğrudan da, əntiqə istilik idi, yayın bürküsündə, elə bil, adamın bütün bədəninə bir sərinlik gətirirdi.

Məsməxanım yuxarıdan qışqırdı:

– Bilirsən, day gələn ildən bura dırmaşmaq olmayacaq belə!

– Niyə?

– Sanatoriya tikəcəklər burda! Dünyanın hər tərəfindən adamlar gələcək bura! Dünyanın hər yerində məşhur olacaq Zuğulba! Dünyanın hər yerində biləcəklər ki, Abşeronda, Xəzərin sahilində Zuğulba adında bir yer var! Amma hayıf ki, onda day bu qum təpə olmayacaq... Onda mən gəlib bu sanatoriyaya baxacağam, yadıma düşəcək ki, bir vaxt bu yerlərdə qum təpəsi vardı... Bir vaxt bu yerlərin qumunda elə isti vardı ki, adamın ürəyinə sərinlik gətirirdi, elə bil, quyu suyu içirdin...

Qum təpənin üstündən Zuğulba pansionatına tərəf bir cığır ağarırdı və bu cığırın sağ tərəfi başdan-başa zeytunluq idi.

– Buralar ilanlıqdı ha, bastalama.

– Bu küləkdə ilan nə gəzir?..

– Bu saat küləyin işinə baxacağam!

Gecə vaxtı ilanlar çox zaman asfalta çıxırdı və Məmmədağa Abşeron yollarında yayda, demək olar ki, hər gecə asfaltın tən ortası ilə sürünən cürbəcür ilanlara rast gəlirdi. Bu ilanların çoxu gəlib-gedən maşınların altında qalırdı, amma gecələr elə hey asfalta çıxırdı. Asfalt günün istisini gecələr də özündə saxlayırdı və yəqin buna görə də Abşeron yolları gecələr ilanı özünə çəkirdi.

Xəzri isə yavaş-yavaş lap bərkiyirdi.

Məsməxanım cırcıramalar cırıldayan zeytunluqda xırda ağacların arasından sürətlə ötüb başqalarından daha qollu-budaqlı bir zeytunun qarşısında dayandı. Məmmədağa da tövşüyə-tövşüyə yaxınlaşıb ağacın yanında dayandı və ona elə gəldi ki, Məsməxanım bu qollu-budaqlı ağacı lap yaxşıca tanıyır. Məsməxanım bir əlində səndəllərini tutmuşdu, o biri əlini zeytunun xırda yarpaqlarına sürtdü, başını çevirib altdan-yuxarı Məmmədağanın gözlərinin içinə baxdı, gülümsədi, sonra yenə üzünü ağaca tutub budağını silkələyə-silkələyə dedi:

Mən anamın ilkiyəm,
Ağzı qala tülküyəm,
Xəzri, get,
Gilavar, gəl!..

Sonra Məsməxanım yenə üzünü Məmmədağaya tutdu:
– Sən ananın neçənci uşağısan?
– Birinci.
– Doğrudan? – Məsməxanım lap uşaq kimi sevindi. – Onda sən də de.
Və Məsməxanım təzədən zeytunun budağını silkələyə-silkələyə öz ovsununu yavaşdan aramla deməyə başladı, Məmmədağa da onun sözlərini beləcə yavaşdan aramla təkrar etdi:

Mən anamın ilkiyəm,
Ağzı qara tülküyəm,
Xəzri, get,
Gilavar, gəl!..

Sonra bir müddət səssizcə dayandılar. Zeytunluq qaranlıq idi, xırda, amma sıx yarpaqlar ay işığının qabağını kəsmişdi və qaranlıq içində Məmmədağa yanında dayanmış bu cadugər qızın nəfəsini hiss edirdi, ürəyinin döyüntüsünü eşidirdi, ona elə gəlirdi ki, bütün bunlar hamısı bir yuxudu, həmişəki kimi, Abşeron sahilində, kabinkasındakı meşin üzlü yumşaq oturacaqda uzanıb yatıb və qəribə bir yuxu görür; bu yuxuya narın qum səpirdilər, amma bu qum adamın üzünə-gözünə dolmurdu, bütün bədənini oxşayırdı; səhər isə oyanacaqdı və yuxu qurtaracaqdı...
Və birdən-birə həmin qəribə yay gecəsində dünyanın ən böyük möcüzəsi baş verdi: yavaş-yavaş bərkiyən xəzri birdən-birə dayandı və cırcıramalar da, elə bil, bunu hiss edib daha da bərkdən cırıldamağa başladı.
– Gördün? – Bunu qara gözləri qaranlıqda işım-işım işıldayan Məsməxanım dedi.
– Gördüm. – Bunu da heyrətindən yerində donub qalmış Məmmədağa dedi.
Məsməxanım gəldiyi kimi cəld də ağacların arasından keçib, qum təpənin üstünə çıxdı. Məmmədağa yalın ayaqlarını tikandan, çör-çöpdən gözləyə-gözləyə onun ardınca getdi.
Ayaqları quma batdıqca və qumun istisi onların yalın ayaqlarını qızdırdıqca, ikisi də fikirləşdi ki, yaxşı gecədi bu gecə. Əlbəttə, onlar bir-birinin nə fikirləşdiyini bilmirdi və ikisi də eyni bir şey barədə fikirləşə-fikirləşə bir-birinə baxdı; bu gecə ona görə yaxşı gecəydi ki, ulduzlarla, dənizlə, bu qum təpəylə birlikdə bu saat buradan baxanda dəniz qırağındakı qumluqda dayanmış furqonun alüminium örtüyü ay işığında gümüş kimi ağarırdı; bu gecə ona görə yaxşı gecəydi ki, ulduzlarla,

dənizlə, bu qum təpəylə birlikdə bu saat burada bir qız dayanmışdı ki, dənizlə danışa bilirdi və ağaclarla dostluq edirdi və burada bir oğlan da dayanmışdı ki, onun göy gözlərində Məsməxanımın vaxtilə hiss etdiyi iri kişi əllərinin mehribanlığı vardı.

Dənizin bayaq külək bərkidikcə artan uğultusu da indi küləklə birlikdə kəsmişdi və dənizin dalğaları da daha ağarmırdı; dənizin ay işığındakı tünd göylüyü də getdikcə qaralırdı; qum təpənin üstündən dəniz daha böyük, daha nəhəng görünürdü.

Məsməxanım dedi:

– Sabah isti olacaq.

Məmmədağa dedi:

– Hə, isti olacaq sabah...

Və onlar ikisi də birdən-birə hiss etdi ki, sabah haqqında fikirləşmək istəmirlər; bu gecə ki, vardı, bu gecədə ki, o təkcə furqon beləcə ağarırdı, zeytun ağagı küləyi dayandıra bilirdi, – ikisi də bunu fikirləşdi, amma ikisinin də ürəyindən gizli bir nigarançılıq keçdi.

Ulduzların arasında yaşıl, qırmızı ulduz göründü, sonra təyyarə səsi gəldi və bu qırmızı, yaşıl ulduzlar onların başı üstündən uçub Binədəki aerodroma tərəf getdi; işıqlar görünməz oldu, amma səs hələ bir müddət də eşidildi və Məsməxanım bu səsə qulaq asa-asa soruşdu:

– Sən hardan gəlmisən bura?

Məmmədağa:

– Fatmeyidən, – dedi.

Məsməxanım bərkdən güldü:

– A-a-a.. Mən elə bilirdim ki, göydən düşmüsən, amma deyirsən ki, Fatmeyidən... Doğrudan Fatmeyidən gəlmisən sən?

Məmmədağa da güldü:

– Hə, Fatmeyidən gəlmişəm, – dedi və təyyarənin səsi tamam kəsiləndən sonra fikirləşdi ki, dünən Fatmeyidə keçirtdiyi dünyanın ən adi gecəsi heç ağlına da gəlməzdi ki, sabahı gün Zuğulbada onu belə bir gecə gözləyir; Məmmədağa burasını da fikirləşdi ki, adam təkcə maşına minəndə, qatara, təyyarəyə, ya gəmiyə minəndə yolda olmur, adam elə yaranan gündən yolda olur, bu gündən sabaha aparan yolda və bu yolun adi yollardan bir fərqi var ki, bu gün minib sabah harada düşəcəyini bilmirsən; bilmirsən ki, səni nə gözləyir: bir şadlıqmı gözləyir, bir dərd-qəmmi gözləyir? Amma bir iş vardı ki, Məmmədağa qabaqlar belə şeylər barədə fikirləşməzdi və indi onun bu fikirlərə düşməsi də, görünür, həmin qəribə yay gecəsinin bir hissəciyiydi.

Sonra Məmmədağa dedi:

– Dünən gecə Fatmeyidə yağırdı... Bura yağmadı?

– Yox.

– Heç yağmadı?

Məsməxanım:

– Yox, – dedi və qıza qəribə gəldi ki, dünənki gecə onlardan biri yağışa düşüb, o biri yox.

– Sən Fatmeyidə olmusan?

– Yox, olmamışam.

– Yaxşı kənddi.

– Doğrudan? – Məsməxanım lap sidq-ürəkdən təəccüb etdi, elə bil ki, Ağadadaş yaşayan yer yaxşı ola bilməzdi; Ağadadaş Məsməxanımın yadına düşdü.

Məsələ burasında idi ki, Məsməxanımın fikrincə, Ağadadaş dünyanın ən alçaq adamlarındandı və hər dəfə bu adam onun gözlərinin qabağına gələndə qızın əti ürpəşirdi, elə bil ki, bədəninə qurbağa toxunurdu...

...Ağadadaş Məsməxanımgilin uzaq bir qohumuydu və Məsməxanımın anası Güldəstə tanış-bilişin yanında, qonşuların yanında, yeri düşdü-düşmədi, həmişə onun adını çəkərdi, ondan danışardı ki, qoy hamı bilsin necə qohumları var. Ağadadaş çamadan sexinin müdiri idi. Fatmeyidə ikimərtəbəli böyük mülkü vardı, ləqəbi də Qızıl idi, hamı onu «Qızıl Ağadadaş» kimi tanıyırdı. Ağadadaşın ağappaq bir «Volqa»sı vardı və günlərin bir günündə Güldəstəylə Məsməxanım bazardan evə qayıdanda bu ağappaq «Volqa» ilə rastlaşdılar. Ağadadaş maşını saxlayıb onları da götürdü və düz həyətlərinə sürdü.

Bu o zamanlar idi ki, Məsməxanım onuncu sinfə təzəcə keçmişdi və abbası-abbası yığdığı pulları fotoqraf Nikolayın satdığı «otkrıtkalara» verirdi. Bu «otkrıtkaların» hamısı da hind və ərəb filmlərindən kadrlar idi.

Məsməxanım Ağadadaşın adını çox eşitmişdi, amma üzünü görməmişdi və ağappaq «Volqa» onların həyətində dayananda qıza elə gəldi ki, onu evlərinə «Volqa» yox, sehrli xalça gətirdi. Qonşular da həyətdə dayanan bu ağ «Volqa»nı görüb pəncərələrdən boylandı, kimi gözünü bərəltdi, kimi də mənalı-mənalı başını yellədi. Güldəstə maşından düşüb həyətdəki pəncərələrə baxdı, sonra Məsməxanımın maşından düşməyini gözləməyib dedi:

– A-a-a... Çörək almaq yaddan çıxdı ki, ağəz...

Məsməxanım bilirdi ki, evdə çörəkləri var və bazara gedəndə anasının çörək almaq fikri yox idi; Güldəstə ona görə belə dedi ki, bəzi paxıl qonşular pəncərədən baxıb yanıb-yaxılsın.

Ağadadaş qabağındakı maşın güzgüsündə Məsməxanıma baxıb:

– Yaddan çıxıb? Nolar, bu saat gedib alıb gətirrik, – dedi.

Məsməxanım da güzgüdə Ağadadaşa baxıb gülümsədi.

Güldəstə gözucu həyətdəki pəncərələrə baxa-baxa dedi:

– Əziyyət veririk axı, sənə...

Ağadadaş da güzgüdə Məsməxanıma gülümsəyib:

– Xoşdu mənimçün, – dedi və ağ «Volqa» yerindən tərpəndi.

Güldəstə kartof, soğan alıb doldurduğu ağır həsir zənbili yerindən qaldırıb evlərinə tərəf gedə-gedə dedi:

– Xalamoğlu Ağadadaş budu də...

Güldəstə əvvəllər «yaxın qohumumuz Ağadadaş» deyərdi, amma ağ «Volqa»dakı bu gəzintidən sonra, elə vəcdə gəlmişdi ki, indi onu xalası oğlu elədi.

Qonşulardan kimisi bu xəbərə şübhə etdi, kimisi də ağ «Volqa»nın ardınca baxa-baxa fikirləşdi ki, sən demə, Gldəstə düz danışırmış, doğrudan da, bu cür mükəmməl qohumları varmış.

Həyətdən çıxandan bir az sonra Ağadadaş maşını saxladı və bu dəfə daha güzgüyə baxmayıb üzünü Məsməxanıma tərəf çevirdi:

– Gəl otur qabaqda, – dedi.

Məsməxanım Ağadadaşın bu hörmətindən lap riqqətə gəldi və utana-utana dedi:

– Çox sağ olun... Bura da yaxşıdı elə...

Ağadadaş əlini uzadıb Məsməxanımın qolundan yapışdı:

– Gəl, gəl qabağa. Kimnən əskiksən bəyəm?!

Əlbəttə, bir halda ki, Ağadadaş kimi bir qohumları istəyirdi Məsməxanım keçib qabaqda əyləşsin və özünü daha rahat hiss etsin, daha onun sözünü yerə salmaq olmazdı; Məsməxanım dinməz-söyləməz, maşından düşüb bu dəfə qabaqda, Ağadadaşın yanında oturdu.

Ağadadaş dedi:

– Xoşum gəldi sənnən, yaxşı qızsan! – Sonra da soruşdu: – Neçə yaşın var sənin?

Ağadadaşın tərifi qızın ürəyinə yağ kimi yayıldı və Məsməxanım qızara-qızara dedi:

– On altı tamam olub, keçmişəm on yeddiyə...

Ağadadaş sol əli ilə rulu tuta-tuta sağ əlini Məsməxanımın qara yubkasının altından çıxmış çılpaq dizinə vurdu:

– Əşşi, sən lap tabakasan ki!..

Məsməxanım ömründə restorana getməmişdi və bilmirdi ki, cücəni qurbağa kimi aralayıb qıpqırmızı qızardanda adına «tabaka» deyirlər və çox yeməli bir şey olur bu «tabaka»; Məsməxanım Ağadadaşın sözünü başa düşmədi və həmişə piyada gedib-gəldiyi bu yola baxa-baxa fikirləşdi ki, adamın Ağadadaş kimi bir qohumu olmağı çox yaxşı bir işdi; ancaq Məsməxanımı narahat edən, bu gözəl gəzintidən əməlli-başlı ləzzət almağa qoymayan və yavaş-yavaş ürəyini döyündürməyə başlayan bir səbəb vardı ki, bu da Ağadadaşın sağ əli idi; Ağadadaşın sağ əli elə-eləcə Məsməxanımın çılpaq dizinin üstündə idi.

Birdən Məsməxanımın ürəyi qırılıb ayağının altına düşdü – Məsməxanım hiss etdi ki, Ağadadaşın əli dizinin üstündən yavaş-yavaş yuxarı qalxır; bilmədi nə eləsin, özünü elə itirdi ki, cınqırığını da çıxarmadı. Amma, iş lap ağ olanda Məsməxanım daha özünü saxlaya bilməyib demək istədi ki, evlərində çörək var, heç bir çörək almaq lazım deyil, tez qayıtmaq istəyir evə...

– Ağadadaş əmi...

– Nə? Əmi? Heç gözləməzdim sənnən belə söz!..– Ağadadaş gözlərini yoldan çəkib məzəmmətlə Məsməxanıma baxdı. – Mənə elə Ağadadaş deginən, istəyirsən Ağa de, ya da Dadaş de, necə xətrün istəyir... Başqalarıyçın necə, səninçün də o cür! Əskik-zad deyilsən ki, başqalarından, necə istəyir xətrün, elə də çağır məni! Səni... səni yağ içində böyrək kimi saxlayacağam! Ayda bir dəst əntiqə paltar alacam səninçün, şuba da alacam, öz canımçun!

Məsməxanım Ağadadaşın dediklərindən heç nə başa düşmürdü, təkcə bunu hiss edirdi ki, əl daha da yuxarı qalxır. Qız heç özü də bilmədi ki, necə haray saldı:

– Saxla! Düşürəm! Ay mama!..

Ağadadaşın ilan vurmuş kimi əlini çəkməyiylə tormozu basmağı bir oldu – belə bir haray-həşiri heç gözləmirdi və Məsməxanım bir də onda özünə gəldi ki, küçə ilə evlərinə tərəf qaçır.

Məsməxanımgilin mənzili ikimərtəbəli böyük binanın ikinci mərtəbəsində idi və Güldəstə də indi eyvana çıxıb ağ «Volqa»nı gözləyirdi: həyətdəki pəncərələr də ağ «Volqa»nı gözləyirdi. Başı alovlu qaça-qaça həyətdən keçib binalarına gələn

Məsməxanımı görəndə qonşuların bəzisi başını buladı, bəzisi təəccüb etdi, bəzisi də fikirləşdi ki, belə-belə işlər, anası çıxan ağacı balası budaq-budaq gəzər...

Güldəstənin hövlnak qapını açmağı ilə soruşmağı bir oldu:

– Bu nə gündü belə? Nolub, ağəz? Ağadadaş hanı bəs?!

Güldəstənin fikri vardı ki, Ağadadaşı bir-iki saat getməyə qoymasın, çay dəmləsin, mürəbbə qoysun qabağına, ağ «Volqa» da dayansın həyətdə və qızını bu görkəmdə görəndə Güldəstənin ağlına gələn birinci bu oldu ki, bəlkə ağ «Volqa» qəzaya uğrayıb, ya adam basıb.

– Hanı bəs Ağadadaş?

Məsməxanım hönkürə-hönkürə özünü divanın üstünə atdı:

– Qaçdım mən, qaçdım! Qaçdım!

Güldəstənin belə işlərdə səriştəsi az deyildi, o saat ürəyinə pis fikir gəldi:

– Niyə? Niyə qaçdın? – soruşdu.

– Əl atırdı mənə!..

Güldəstə elə belə bir xəbər gözləyirdi, əlini əlinə vurub:

– Vay, köpək oğlu! – dedi. – Kül olsun belə kişinin başına! Kişi niyə olur e...

Məsməxanım həmişə anası belə sözlər deyəndə, söyüş söyəndə hirslənirdi, amma bu dəfə hönkürə-hönkürə təkcə bunu dedi:

– Sən də həmişə deyirdin ki, qohummuzdu... qohummuzdu... day nə bilim nə...

Güldəstənin başına, elə bil, təzədən bir qazan qaynar su ələdilər:

– Qohummuz? Allah vurmuşdu onu! Qohummuza bir bax! Körpüdən keçəndə dal-dala dəymişik, vəssalam!.. Qara yerə soxum onu, o boyda arvadını evdə qoyub gəlib uşağa sataşır! – Sonra elə bil ki, Ağadadaş yanındaymış kimi, barmaqlarının onunu da şax açıb əllərini onun başına basdı: – Ala e! Ala! Qara yerə girəsən elə!

Bundan sonra Ağadadaşın söhbəti Məsməxanımgilin evindən kəsildi, Güldəstə bir dəfə də olsun qızının yanında onun adını çəkmədi, amma hərdən Məsməxanım yanında olmayanda yenə də tanış-bilişin, qonşuların yanında öyünməkdən özünü saxlaya bilmirdi.

– Qızıl Ağadadaş bizim qohummuzdu...

...Məmmədağa Məsməxanıma baxdı, elə bil, həmin qəribə yay gecəsi bu qızın nə fikirləşdiyini, ürəyindən nələr keçdiyinin hamısını bilməli idi:

– Nə fikirləşirsən?

Məsməxanım yalın ayaqları ilə qayalıqdan aşağı düşə-düşə:

– Heç... – dedi. – Fikirləşirəm ki, dünyada pis adamlar var, bu pis adamların da bəd əməlləri var...

– Nədi ki?

– Biri var Fatmeyidə... Guya ki, qohummuzdu...

Fatmeyi balaca kənd idi və Məmmədağa orada yaşayanların çoxunu tanıyırdı.

– Adı nədi?

– Ağadadaş.

– Hansı Ağadadaş? Qızıl Ağadadaş?

– Hə, Qızıl Ağadadaş. – Məsməxanım qumluqda dayanıb ay işığında qayalıqdan aşağı düşən Məmmədağaya baxdı, elə baxdı, elə bil, bu saat ondan çox gözlənilməz bir söz eşidəcəkdi.

– Onu tutublar ki...

– Doğru deyirsən? – Bunu da o saat qara gözləri alışıb-yanan Məsməxanım dedi və Məmmədağa bu küləkdayandıran qızın gözlərindəki qığılcımdan başa düşdü ki, çox pis adammış Ağadadaş.

– Hə. Tutublar onu. Hökumətin çamadan sexini öz dükanına çeviribmiş... Yığdığı qızılların hamısı getdi işinin dalınca... Haramdı də!..

– Qurban olum hökumətə! – Məsməxanım bu sözləri elə ürəkdən dedi ki, elə bil, illərdən bəri yığılıb sinəsində qalmışdı və indi birdən-birə fürsət tapıb çıxdı.

Məmmədağa dedi:

– Indi, bələlərinin qanı gedib!

– Hə... Vəlvələ düşüb canlarına köpək uşağının... – Məsməxanım qızışıb lap sarı simə keçəcəkdi, amma özünü saxladı. – Belələrini gözümün qabağında da assalar «uf» demərəm!

– Pisliyi çox dəymişdi sənə?

– Ağadadaşın? Hə... Çoxdanın sözüdü... Fağır qız uşağıydım onda... – Məsməxanım gülümsədi və Məmmədağa qızın qalın dodaqlarındakı təbəssümdə bir acı duydu; ürəyindən belə bir hiss gəlib keçdi ki, gecələr gilavar əsəndə dənizlə danışan bu qarabuğdayı qız kimsəsizin biridi, güvənməyə adamı yoxdu, öyünməyə bir işi yoxdu.

Məlum məsələdir ki, Məsməxanım Məmmədağanın fikirlərindən xəbərsiz idi və indi birdən-birə onun ürəyinə keçmiş illərin, keçmiş Məsməxanımın nisgili gəldi. Indi əgər Ağadadaş Məsməxanıma sataşmaq istəsəydi, qız barmağıyla onun gözlərini deşərdi. O illər keçmişdə qalmışdı, o illər ki, Məsməxanım həyasızın birinin qabağında qorxusundan çaşıb qalmışdı; ona elə gəlirdi ki, indi tamam başqa adamdı, indi dünyanın hər üzünə bələddi və indi, kim olur-olsun, bir deyənə beş cavab verər, necə ki, Fazilovun abrını bükdü ətəyinə.

Məsməxanımın pamidor köşkü rayondakı böyük meyvə-tərəvəz dükanına baxırdı və həmin dükanın müdiri qırx il ticarət sistemində işləyən Fazilov idi.

Məsməxanım işləyən pamidor köşkünün arxa tərəfində böyük bir tut ağacı vardı və Fazilov lotereya ilə udduğu sarı «Moskviç»ində (hamı deyirdi ki, Fazilov bu «Moskviç»i lotereya ilə udmayıb, lotereya biletinin özünü kimdənsə böyük məbləğə alıb; Fazilov kələkbazın biri idi və istəmirdi ki, günlərin bir günündə ona belə bir sual versinlər: «–Ayda yüz iyirmi manat maaş alırsan, uşaqların var, ailən var, haradandı səndə bu qədər pul ki, maşın almısan?») tozanaq qaldıra-qaldıra tez-tez bura gəlib:

– Pəh!.. deyirdi, sonra həsir şlyapasını yağlı peysərinə qaldırıb tuta baxırdı. – Ürəyim yandı, ay qız, qalx bir az tut yığ yeyək!

Məsməxanım bu yaşlı kişinin sözünü yerə salmırdı, ağ çit pencəyini əynindən çıxarıb bir göz qırpımında ağaca dırmaşırdı, tutun dəymişlərindən bir-bir dərib boşqaba yığırdı; bu tut ağacını çırpmaq mümkün olmurdu, çünki hər tərəf qum idi; Məsməxanımın ağacda tutun yaxşılarından seçib bir-bir yığması on dəqiqə, iyirmi dəqiqə çəkirdi və günlərin bir günündə məlum oldu ki, Məsməxanım ağacda tut yığanda qoçaq Fazilov da köşkün pəncərəsindən altdan-yuxarı onun ayaqlarına baxır.

Məsməxanım tut yığdığı boşqabı, az qala, Fazilovun başına çırpıb öz kəşfindən əməlli-başlı qeyzə gəldi:

– Ay qoca kaftar! Məni ağaca dırmaşdırırsan, özün də altdan-yuxarı mənə baxırsan! Oğraş oğlu oğraş! Dayan bir!

Fazilov bayram yumurtası kimi qıpqırmızı qızarıb özünü itirdi:

– Ay qız, mən ağsaqqal kişiyəm...

– Tülküsən sən, Həccə gedirsən! Dayan bir düşüm aşağı!..

Məlum məsələdir ki, Fazilov Məsməxanımın ağacdan düşməsini gözləməyib sarı «Moskviç»inə tərəf götürüldü və Məsməxanım tutun axırıncı budağından aşağı atılanda maşın yerindən tərpəndi, tozanaq qaldıra-qaldıra gözdən itdi; Fazilov canını qurtardı həmin gün Məsməxanımın əlindən və bundan sonra həmişə çalışırdı ki, qızın gözünə görünməsin...

...Məsməxanım bunu yadına saldı və Zuğulbanın qumlu dəniz sahilindəki həmin yay gecəsi ürəyindən qəribə bir hiss gəlib- keçdi, bütün nisgili ilə başa düşdü ki, illər onun həmin süd kimi ağ «Volqa»dakı fağırlığını, məsumluğunu, ürəyinin qızlıq çırpıntılarını, uçuntularını qoparıb aparıb özü ilə və onlar bir də heç vaxt geri qayıtmayacaq; illər, elə bil, bataqlıq kimi bir şey idi, onun fağırlığını, məsumluğunu, ürək döyüntülərinin xısıntısını udmuşdu və həmin bataqlığın üzü indi yenə də əvvəlki tək bütöv idi, hamar idi, heç nəyin izi qalmamışdı, təkcə güclə hiss ediləcək bir əks-səda, güclə görünəcək bir kölgə qalıb ki, bunları duyanda adamın burnunun ucu göynəyir, ürəyi nisgillə dolur – bütün bunların hamısını Məsməxanım fikirləşirdi, ona belə gəlirdi. Məmmədağa isə qumsallıqda oturub çəkmələrinin bağını bağlaya-bağlaya fikirləşirdi ki, qabağında dayanmış bu qarabuğdayı qəşəng qız indi özünü dilli-ağızlı bilir, uşaq vaxtının fağırlığına gülür, həmin çağlara illərin uzaqlığında itib-batmış bir şey kimi baxır, amma əslində o, elə indi də fağır bir qız uşağıdır; bu fağır qız uşağının davakarlığı vardı, adamı sancan uzun dili vardı, üz-göz cırmaqlayan dırnaqları vardı, amma bütün bunların hamısıyla birlikdə o fağır bir qız uşağıydı, çünki əslində bütün bunların hamısı elə bu fağırlığı ört-basdır eləməkdən ötrü idi və burasını da dünyada heç kim bilmirdi ki, bu fağır qız uşağı dənizlə danışır, küləyi dayandırır – Məmmədağa da belə fikirləşirdi.

Dəniz isə tamam sakitləşmişdi və sal qayalar yenə də yüngül qayıq olub üzmək istəyirdi; dəniz yenə də çay kimi şırıldayırdı və Məsməxanım lap suyun kənarına gəlib yalın ayaqları ilə nəm qumun üstündə dayandı, uzaqlara baxdı, sonra yalın barmaqlarına toxunan ılıq suya baxdı, sonra əyilib bir ovuc su götürdü, sonra əlini açdı və su barmaqlarının arasından yenə də dənizə töküldü; Məsməxanım nəm qumun üstü ilə sahil boyu addımladı və fikirləşdi ki, bəzən gecələr evdə krandan su damcılayanda adam səhərə kimi yata bilmir, amma bir belə suyun bu qədər səsi adamı dəli eləmir, yüngülləşdirir adamı, adam da bu sal qayalar kimi, gəmi olub üzmək istəyir; Məsməxanım sahil boyu addımladıqca bilirdi ki, bu saat bir cüt göy göz ona baxır və burasını da başa düşürdü ki, bundan sonra bu göy gözləri çox görəcək, öz gözlərini yumacaq və bu göy gözləri görəcək, amma dünyada heç kimin bundan xəbəri olmayacaq, heç kimin, bunu təkcə bir adam biləcək – Məsməxanım – vəssalam.

– O vaxtlar sənə pislik ediblər? – Bunu Məmmədağa soruşdu.

– Hansı vaxtlar? – Bunu da Məsməxanım soruşdu.

– Demirsən ki, fağır qız uşağı idin... – Məmmədağa zarafata salıb soruşmaq istəyirdi, amma bu sözləri çətinliklə dedi.

– Hə... O vaxtı deyirsən... – Məsməxanım gülümsədi, – Yox. Bir-iki dəfə...

– Bəs sonralar necə? Sonralar da pislik görmüsən?

– Sonralar?

– Hə.

– Sən pislik nəyə deyirsən?

– Nəyə deyirəm? Bilmirəm... Pislik pislikdi də...

Əlbəttə, Məmmədağa papağını qabağına qoyub fikirləşsəydi, cavab verə bilərdi ki, pislik nədir, yəni cavab verərdi ki, pislik nankorluqdu, pislik xudbinlikdi, əliəyrilikdi, hörmətsizlikdi, kəmfürsətlikdi, simiclikdi və başqa belə şeylərdi, amma bu dəfə Məmmədağa başqa şey fikirləşdi, fikirləşdi ki, pisliyi, ancaq adam adama eləmir, adamın tək qalmağı da pislikdi, kimsəyə güvənməməyi, nəyəsə öyünməməyi də pislikdi və o, birdən-birə başa düşdü ki, gecələr gilavar əsəndə dənizlə danışmaq da əslində pislikdi, adamın özünün pisliyi deyil, amma nəyinsə pisliyidi.

– Adam döymək pislikdir?

– Pislikdi, əlbəttə...

– Bude, bax! – Məsməxanım birdən-birə sarı koftasının yaxasını kənara dartdı və qızın ətli, hamar çiynində bir qançır qaraldı; Məsməxanımın heç vaxt ağlına gəlməzdi ki, birdən-birə ay işığında çiynini açıb bu yad oğlana göstərəcək və həmin yad oğlan onun qabağında dayanıb çiynindəki qançıra beləcə baxacaq, sonra əlini qaldırıb onun çiynində gəzdirəcək, sonra əlini yaranın üstündə saxlayacaq və Məsməxanımın bütün bədəninə heç vaxt hiss etmədiyi həqiqi bir ılıqlıq gələcək, o, öz sehrli nağıl aləmindən çıxacaq, başa düşəcək ki, bu, nağıl aləmi deyil, həqiqətdi, elə biləcək ki, bu əl dünyada ən doğma adamın əlidi, ona elə gələcək ki, bu əl heç vaxt üzünü görmədiyi atasının əlidi...

# II HİSSƏ

*Bu hissədə məlum olur ki, Məmmədağa ilə Məsməxanımın həmin qəribə yay gecəsindəki gözlənilməz görüşü istər-istəməz onları öz həyat yollarına nəzər salmağa sövq edir; ən qəribəsi isə burasındadır ki, özlərinin bundan xəbəri olmur, yəni xəbərləri olmur ki, əslində o gecə onları düşündürən ən əsas məsələ dünyada kiminçün və nə üçün yaşamaqlarıdır.*

Güldəstə «Bakı-Voronej» qatarında bələdçi işləyirdi və üç gün evdə olurdu, beş gün səfərdə. Məsməxanım birinci sinifdən internat məktəbdə oxuyurdu və anasının bu səfərləri onun ürəyini sıxmırdı, həftədə bir dəfə, ya iki dəfə anası yanına gəlirdi və Məsməxanım da elə bilirdi ki, elə belə də olmalıdı, amma gün keçdi, ay dolandı, yeddinci sinfi qurtardı və Güldəstə bu qərara gəldi ki, daha qızı böyüyüb, özü özünə qulluq edə bilər, evdə tək qalmaqdan qorxmaz; Məsməxanım internat məktəbdən çıxıb evə gəldi, adi uşaqlar kimi dərslərini evdə hazırladı, adi uşaqlar kimi də gecələr evdə yatdı və bu zaman anasının səfərləri hərdənbir onun ürəyini sıxmağa başladı.

Güldəstə Məsməxanımı təkcə ona görə evə gətirməmişdi ki, qızını çox istəyirdi; əlbəttə, qızını çox istəyirdi və burasını da fikirləşirdi ki, daha gərək gözü onun üstündə olsun, çünki Məsməxanımın elə vaxtıydı ki, onu özbaşına buraxmaq olmazdı; Güldəstə həm də ona görə qızını evə gətirmişdi ki, istəyirdi səfərdən qayıdanda onu da evdə gözləyən olsun, onunçun da sevinən olsun və səfərə çıxanda onun da ardınca bir parç suatanı olsun.

Məsməxanım hər üç gündən bir beş günün anasızlığına, təkliyinə get-gedə elə öyrənmişdi ki, başqa arvadları gündə öz uşaqları ilə bir yerdə görəndə az qalırdı təəccüb etsin və onun ürəyinin sıxılmağı da yavaş-yavaş çıxıb gedirdi, əvəzində ikinci bir dünyası yaranırdı, böyüyürdü, gözəlləşirdi, adam da istəmirdi oradan çıxsın.

Məsməxanımın iki dünyası var idi: birincisində dərslərini hazırlayırdı, məktəbə gedirdi, özünə xörək bişirirdi, köhnə paltarlarını söküb təzədən tikirdi, anasının əyninə olmayanları öz əyninə düzəldirdi, axşamlar klubda kinoya baxırdı, anasının yolunu gözləyirdi, hərdən anası ilə birlikdə Bakıya gedib mağazaları gəzirdi və başqa bu kimi işlərlə məşğul olurdu, yəni o işlərlə ki, hamı bunlarla məşğul olur; Məsməxanımın ikinci dünyası isə təkcə onunku idi, yavaş-yavaş əmələ gəlmişdi və yavaş-yavaş da böyümüşdü, bu dünyada istədiyin vaxt yağış yağırdı, qar yağırdı, gün çıxırdı, istədiyin vaxt uşaq olurdun, istədiyin vaxt böyük olurdun, öz uşağın olurdu, bu uşağı əzizləyirdin, ona layla deyirdin və ürəyində dediyin bu layla ilə özün də yuxuya gedirdin.

Məsməxanımın iki dünyasından başqa bir də bir «nə isə»si var idi. O, bu «nə isə»nin nə olduğunu bilmirdi, amma bunu bilirdi ki, dünyada bir «nə isə» var və bu «nə isə»ni gözləyirdi; bilirdi ki, gün geçəcək, ay dolanacaq, «nə isə» olacaq.

Onda yaz idi və yaz gələndə Məsməxanımın ikinci dünyası da ağacların, güllərin, çiçəklərin rəngini alırdı, burada da günəş səbəbsiz sevinc yayırdı aləmə və beləcə yaz günlərindən birində evə gələn Məsməxanım otaqlarında tanımadığı bir kişi gördü; kişi ağ süfrə salınmış girdə mizin arxasında oturub anası ilə söhbət edirdi; bu ağ süfrə hərdən evə gələn qonağa xüsusi hörmət əlaməti olaraq mizin üstünə salınardı və indi də Məsməxanım başa düşdü ki, qonaqları hörmətli qonaqdı.

Məsməxanım ikinci dəfə idi evlərində yad kişi görürdü; birinci dəfə görəndə hələ internatdan evə təzəcə köçmüşdü; onda səkkizinci sinifdə oxuyurdu, küləkli bir payız günüydü, coğrafiya müəllimi Əzizov xəstələnib dərsə gəlməmişdi, Məsməxanım da məktəbdən tez çıxmışdı, öz açarı ilə qapını açıb evlərinə girəndə yad bir kişini otağın ortasında dayanan görmüşdü. Yad kişi tələm-tələsik şalvarını geyib əkilmişdi, Güldəstə isə bir müddət başını yorğanın altından çıxarmamışdı.

Budəfəki yad kişi çesuça kostyum geymişdi və Məsməxanımı görəndə nə anası, nə də bu kişi özünü itirdi, üz-üzə oturub çay içdilər: çayı nəlbəkiyə töküb hortuldada-hortuldada içdikcə bu yad kişinin kök sifətindən tər damcıları axırdı və o, xudahafizləşib gedəndə Güldəstə mənalı-mənalı:

– Yaxşı oğlandı... – dedi.

Bundan sonra Məsməxanım bu kök kişini evlərində tez-tez gördü və belə başa düşdü ki, anası bu kişiyə ərə gedir; Məsməxanım evə gələndə daha qapını öz açarı ilə açmırdı– zəngin düyməsini basırdı; Məsməxanımın ürəyində bir qorxu əmələ gəlmişdi, qorxurdu ki, birdən bu kök kişini də pis vəziyyətdə görər. Bu kişi birincidən xeyli cavan görünürdü, birinci kişi uzun, arıq idi, bir növ, milisioner Səfərə oxşayırdı, başı da onunku kimi daz idi; bu oğlan isə pota idi.

Məsməxanım anasının ərə gedəcəyi günü gözləyirdi və həmin gecələr onun ikinci dünyasında yetim bir qızın getməyə yeri olmurdu, çovğuna düşürdü, borana, qara düşürdü, soyuqdan dişləri dişlərinə dəyirdi və günlərin bir günündə nağıllardakı şahzadələrə oxşayan bir oğlan gəlib onu soyuğun əlindən qurtarırdı; bütün bu hadisələr gecələr baş verirdi, Məsməxanım yuxuya getməzdən əvvəl, gündüzlər isə kök kişi gəlib ağ süfrə salınmış mizin arxasında otururdu, çayı nəlbəkiyə töküb hortuldada-hortuldada içirdi, içdikcə də yağlı sifətindən tər damcıları yuvarlanıb axırdı.

Əlbəttə, Məsməxanım daha yekə qız idi və başa düşürdü ki, anasının sinəsi dərdlidi, bütün tanış-bilişin, qonşuların evində bir kişi xeylağı var, kiminin əri, kiminin atası, kiminin də qardaşı – Məsməxanım bütün bunları başa düşürdü, amma bircə başa düşə bilmirdi ki, anası bu kök kişidə nə görüb: nə yaraşığı bir yaraşıqdı, nə də danışığı bir danışıqdı.

Bir müddət beləcə keçdi və yenə də günlərin bir günündə dünyanın ən gözlənilməz hadisəsi baş verdi: Məsməxanıma məlum oldu ki, həmin kök kişi anası üçün yox, Məsməxanımın özü üçün onlara gəlib-gedirmiş.

– Ağəz, sən hələ ayılmamısan? Sənin tayların şeytana papış tikir!.. Səndən ötrü gəlir də, Mirzoppa, day kimdən ötrü gələcək?.. Pis oğlan döyül, əli də çatıb çörəyə, şəhərə avtobus sürür, evi də var özünün ayrıca. Adam gərək ayağını yorğanına görə uzada. Elə bizim babımızdı... – Bu sözləri Güldəstə gözlərini bərəldib ona baxan Məsməxanıma dedi və beləcə də xeyir-duasını verdi.

Mirzoppagil Bakıdan Zuğulbaya köçəndən sonra Əliabbas kişinin tiyanı bu yerlərdəki qır damlı evləri bir - bir gəzmişdi, amma bu tərəflərdə də həmin evlərin sayı yavaş - yavaş azalırdı. Buralarda da üçmərtəbəli, sonralar beşmərtəbəli üstü taxtapuşlu şəhər evləri kimi dövlət evləri tikilirdi. Köhnə binalar uçulur, sökülür, qır damlı təzə evlər isə tikilmirdi. Əliabbas kişi öz işinin ustası idi, bir dəfə üstünə qır basdığı ev bir də yeddi-səkkiz ildən sonra dammağa başlardı; müştərilər get-gedə azalırdı.

Bir dəfə Mirzoppa atasına dedi:

– Bu damlara qırı elə bas ki, gələn il səni bir də çağırsınlar də!..

Əliabbas kişinin öyüd-nəsihət ilə arası yox idi, oğluna baxdı, baxdı və başa düşdü ki, Mirzoppanın kündəsi başqa xəmirdən yoğrulub.

Zuğulbaya köçəndən on bir il sonra, Əliabbas kişi tiyanını qaynatdığı yerdə qəflətən vəfat etdi və günlərin bir günündə Mirzoppa atasının tiyanını avtobusuna qoşub metalloma apardı (daha tiyan müştərisi tapmaq mümkün deyildi) və onu on manat yetmiş qəpiyə satıb üç şüşə araq aldı, həmin gecə kinomexanik Ağagüllə birlikdə möhkəm vurdular.

Aydın məsələdir ki, bütün bunlardan nə Güldəstənin xəbəri vardı, nə də Məsməxanımın. Mirzoppa Məsməxanımı kinoda görmüşdü, bəyənmişdi. Məsməxanım kinoya tez-tez gəlirdi, Mirzoppa da tez-tez Ağagülün yanında olurdu. Ağagül Mirzoppanın divarın kino göstərən gözündən Məsməxanıma baxdığını görüb göz vurdu:

– Güldəstənin qızıdı... Yaxşı şeydi, anasından geri qalmaz!..

Mirzoppa Ağagülün söhbətini davam etdirmədi, günlərin bir günündə gəlib Güldəstənin qapısını açdı və özü özünün elçiliyini elədi; bundan sonra Mirzoppa tez-tez onlara gəlib-getməyə başladı.

Güldəstə üç səbəbə görə Mirzoppaya «yox» demək istəmirdi: birincisi ona görə ki, Güldəstənin fikrincə, Məsməxanım nə qədər tez ərə getsəydi, bir o qədər yaxşı idi, çünki başına gələn başmaqçı olar deyiblər, Güldəstə istəmirdi ki, qızı günlərlə evdə tək qalsın, pis yola düşməyindən qorxurdu; ikincisi ona görə ki, Mirzoppa Məsməxanımın atasının kim olub, kim olmadığı barədə maraqlanmırdı və ümumiyyətlə, bu barədə heç bir söhbət salmırdı; nəhayət, üçüncü gizli bir səbəb də vardı ki, Güldəstə həmişə bunu öz başından qovurdu: o, illərdən bəri tək yaşamağa, ürəyindən keçəni eləməyə o qədər öyrənmişdi ki, qızı internatdan çıxandan sonra, elə bil, Güldəstəni yavaş-yavaş qəfəsə salırdılar, qızı ilə gizlənpaç oynamağa məcbur olurdu, darıxırdı, sıxılırdı, günlərinin əvvəlki sərbəstliyi, azadlığı hərdən lap burnunun ucunu göynədirdi.

Təbii ki, Məsməxanım bütün bu səbəblərdən xəbərsiz idi və o, heç özü də bilmədi necə oldu ki, hortuldada-hortuldada, tərləyə-tərləyə nəlbəkidən çay içən bu kök oğlan gözlərində birdən-birə dəyişdi. Həmin gün Məsməxanım üçün kəşflər günü oldu. Məsməxanım qəribə-qəribə şeylər kəşf etdi. Məsməxanım kəşf etdi ki, bir belə müddət ərzində əslində bu evdə yad bir adam kimi yaşayıb, bu tənha otaqlar əslində həmişə onun üçün yad olub, soyuq olub. Düzdür, Məsməxanım anasını çox istəyirdi, amma həmin gün birdən-birə payızın qoxusu gəldi burnuna, xəzanın nisgili keçdi ürəyindən və fikirləşdi ki, bu evdə keçirtdiyi həyat payız səhəri kimi bombozdu. Bunu lap şair kimi fikirləşdi və burasını da birdən-birə kəşf etdi ki, şair olmaq üçün mütləq şer yazmaq vacib deyil, əslində elə adamların hamısı haradasa,

haçansa şair olur. Ən başlıcası isə, Məsməxanım bunu kəşf etdi ki, adamın gərək bir dünyası olsun, adam gərək elə yaşasın ki, bir dünya bəs eləsin ona. Məsməxanım bunu kəşf etdi və lap mat-məəttəl qaldı, ikinci dünyasındakı yetim qızın qara-borana düşməsinə, şahzadəyə oxşayan oğlanın bu qızı xilas etməsinə gülməyi tutdu.

Yetim qız da, şahzadə oğlan da çıxıb getdi işinin dalınca, gecələr Məsməxanım yuxuya getməzdən əvvəl avtobus uzun yoldan qayıtdı, Mirzoppa yorğun-yorğun evə gəldi, benzinə, mazuta bulaşmış əllərini yuyub Məsməxanımın onun üçün bişirdiyi küftə-bozbaşdan yedi; Məsməxanımın yuxusuna benzin qoxusu gəldi; onun sehrli nağıl aləmi göyün yeddinci qatından asfaltın üstünə endi və bu asfaltla Zuğulbadan Bakıya bir avtobus gedib-gəlməyə başladı...

Onda hələ məlum deyildi ki, Mirzoppa içəndi, lap, araq şüşəsinin içinə girəndi. Onda hələ məlum deyildi ki, evlənəndən cəmi ikicə ay sonra, Mirzoppa düt deyənəcən içib gecənin yarısı evdə dava salacaq, qıpqırmızı gözlərini bərəldib dəhşətli sözlər deyəcək:

– Camaat gedib zamministr qızı alır, mən də gedib bic alıb gətirmişəm!..

Onda hələ çox şey məlum deyildi və burası da məlum deyildi ki, az keçəcək, çox keçəcək, dərə, təpə düz keçəcək və yenə yavaş-yavaş Məsməxanımın sehrli nağıl aləmi yaranacaq...

...Məsməxanımın çiynindəki qançır, elə bil, Məmmədağanın ovcunun içini yandırırdı və bu, onun ürəyini göynədirdi; o, başa düşürdü ki, ən yaxın adamı öləndə, ən müsibətli dərdə düşəndə ürək belə göynəyər; başa düşürdü ki, çox illər keçəcək, amma yenə də hərdən ovcundakı bu alovu hiss edəcək.

Məsməxanım hiss etdi ki, bu saat ağlayacaq; əgər o, bu saat ağlasaydı, bunu ömründə özünə bağışlamazdı; Məmmədağanın gözlərinin içinə baxıb dedi:

– Vuranda həmişə bədənimə vurur ki, görünməsin.

Məmmədağa heç nə demədi.

Məsməxanım dedi:

– Əli də ağırdı yaman...

Məmmədağa heç nə demədi.

Məsməxanım dedi:

– Elə bil kərpicdi...

Və qız bu sözləri dedikcə, elə bil ki, bədəninə dəyən bu zərbələrin hayıfını indi Məmmədağadan alırdı; Məsməxanım hiss etdi ki, əlini hələ də onun çiynində saxlamış bu göygöz oğlanın ürəyi bu saat yanıb-yaxılır; birdən-birə Məsməxanıma elə gəldi ki, bu oğlanın ona yazığı gəlir; qızın gözləri parıldadı:

– Mən də ondan geri qalmıram,– dedi və üç gün bundan qabaq Mirzoppanın ağrıdan öküz kimi böyürdüyünü yadına salıb gülümsədi.

Məmmədağa qızın gülümsəyən qara gözlərinə baxdı və Məsməxanımın qalın dodaqlarındakı təbəssüm onun ürəyinin lap cızdağını çıxartdı. O, əlini yaranın üstündən çəkib, qızın boynunda, üzündə gəzdirdi, qara saçlarını sığalladı və Məsməxanım bütün varlığıyla hiss etdi ki, bu saat bu əlin sahibi onunla nə istəsə edə bilər; nə istəsə edər və o, mane olmaz, səsini çıxartmaz, çünki Məsməxanım yenə də öz sehrli nağıl aləmindəydi.

Məmmədağagilin məhəlləsində yazılmamış bir qanun vardı: tanış-bilişin arvadına tamah salmaq olmazdı; əgər biriylə oturub bir tikə çörək yemisənsə, onun arvadı sənin bacındı. Məmmədağa heç vaxt bu qanunu pozmazdı; məsələ təkcə

burasında deyildi ki, bu qanunu pozmaq olmazdı, məsələ burasında idi ki, bu yazılmamış qanun Məmmədağagilin damarında axırdı, qanına qatışmışdı.

Zuğulbanın dəniz sahilindəki həmin qəribə yay gecəsi Məmmədağanın tamam yadından çıxmışdı ki, dünyada Mirzoppa adında bir adam var və bu köməksiz Məsməxanım, dənizlə danışan bu qız həmin Mirzoppanın arvadıdı. O əlini qızın qara saçlarından çəkib dinməz dayanmışdı və heç cür ağlına sığışdıra bilmirdi ki, Məsməxanım nəinki Mirzoppanın, ümumiyyətlə, kiminsə arvadıdı. O fikirləşirdi ki, indicə ağlamaqdan özünü güclə saxlayan bu qızın çiynindəki qançır dünyanın ən əbləh işidi, indiyəcən dünyada rast gəldiyi ən böyük insafsızlıqdı və Mirzoppanın kişilikdə heç bir adı yoxdu.

– Harda işləyir Mirzoppa?

– Qabaq Bakıya avtobus sürürdü, sonra içməyinə görə çıxartdılar. Indi biletsatandı. Elə həmin avtobusda...

– Dudu sağdı?

– Dudu? Sən tanıyırsın onu? – Məsməxanım əyilib səndəllərini geydi. – Çoxdan ölüb... Mən heç görməmişəm onu. Deyirlər çox gözəl oğlanıymış, çox ağıllıymış, tərbiyəliymiş... – Məsməxanım bir müddət susub sonra dedi: – Deyirlər o öləndən sonra Mirzoppa içməyə başlayıb...

Məsməxanım «deyirlər» deyirdi, amma bu barədə Mirzoppadan başqa heç kim ona heç nə deməmişdi. Məsməxanım Mirzoppanın sözlərinə inanmırdı, amma onun Dudu haqqında danışdıqlarına inanmışdı; inanmışdı Dudunun gözəlliyinə, ağlına, kamalına. Mirzoppa içmiş vaxtlarında tez-tez Dudunu yadına salırdı və yana-yana elə ürəkdən danışırdı ki, cavan ölmüş bu oğlanın çox böyük qabiliyyətinə Məsməxanım şübhə etmirdi. Mirzoppa həmişəki kimi spirt iyi verə-verə çarpayıda oturub corablarını çıxarırdı, ayaq barmaqlarını qaşıya-qaşıya deyirdi:

– Dudu sağ olsaydı, indi mən bu günə qalardım? Indi məni şoferlikdən çıxarıb arvad kimi avtobusda biletsatan qoyardılar ki, nə var, nə var, dərd əlindən içki içir? Gül balaydı, gül!.. Bircə dənə idi, Allah onu bizə çox gördü!..

Hər dəfə də Mirzoppa Dudunu yadına salandan sonra kövrəlib ağlayırdı. Mirzoppanın bu ağlamaqları içki ağlamaqlarından deyildi, Məsməxanım bunu o saat hiss edirdi; Dudu yadına düşəndə Mirzoppanın gözlərinə, doğrudan da, bir dərd kölgəsi çökürdü və belə anlarda Məsməxanıma məlum olurdu ki, Mirzoppa da adamdı, Mirzoppanın da sinəsində ürək var; Məsməxanım fikirləşirdi ki, ağıllı, gözəl oğlanların beləcə cavan ölüb getməyi, Dudunun aqibəti dünyanın ən böyük müsibətidi; Məsməxanımın özünün də gözləri dolurdu. Mirzoppa deyirdi ki, vaxtilə Bakıdan qızların əlindən köçüb Zuğulbaya gəliblər. Qızlar Duduya görə onlara dinclik vermirmiş, ona məktublar yazırmışlar, onun dalınca düşürmüşlər və günlərin bir günündə məhəllələrində on yeddi yaşlı bir dünya gözəli Dudunun dərdindən divanə olub özünü öldürübmüş; onlar Zuğulbaya köçəndən sonra başqa bir dünya gözəli – on səkkiz yaşında qız üzünü kislota ilə yandırıbmış ki, Dududan başqa bir oğlana qismət olmasın.

Mirzoppa deyirdi:

– Alim idi, alim! Gündə üç dənə qalın kitab oxumasaydı yatmazdı! Institut dava eləyirdi onun üstündə ki, hansında oxusun. Qalsaydı əgər indi zamminstriydi Dudu! Onda bilərdilər ki, Mirzoppa kimdi!

Məsməxanım bütün bunlara inanmışdı və burasına da inanmışdı ki, əgər Dudu sağ olsaydı, bəlkə Mirzoppa da belə Mirzoppa olmazdı.

– Tanıyırdın, hə, Dudunu? – Məsməxanım bir də soruşdu. – Onun üstündə bir qız özünü öldürüb, sizin məhəllədən idi?

Əlbəttə, Məmmədağa yaxşı bilirdi ki, Dudu kimilər çox yaşamır, amma onun öldüyünü eşidəndə birdən-birə Dudunun sifəti gözlərinin qabağına gəldi, heç nə ifadə etməyən baxışlarını gördü və ürəyindən bir ağrı keçdi; Məmmədağa burasını da başa düşdü ki, Mirzoppa Dudunu sidq-ürəkdən istəyirmiş və indi, ola bilsin ki, Mirzoppa özü də Məsməxanıma dediklərinə inanmırdı.

– Yazıq Dudu... – Bunu Məmmədağa dedi.

– Əh, hamımız ölüb gedəcəyik də... – Bunu da qəribə bir biganəliklə Məsməxanım dedi.

Məmmədağa təəccüblə qıza baxdı:

– Bəs sənin ulduzun deyirdi ki, Məsməxanım heç vaxt ölməyəcək?..

– Ulduzun əlində olsaydı, ölməzdim heç vaxt.– Məsməxanım bunu dedi və başını qaldırıb öz ulduzuna baxdı. – Heç kimi də qoymazdım ki, ölsün...

Məmmədağa:

– Bilirəm, – dedi. – Qoymazdın.

– Hardan bilirsən?

– Bilirəm də.

– Axı, sən nədən belə bilirsən? Bəlkə heç belə döyül...

– Bilirəm ki, sən belə qızsan.

– Alnımda yazılıb?

– Hə.

– Sən ölməkdən qorxursan? Mən qorxuram yaman!..

– Belə şeylər barədə fikirləşməsən yüz il yaşayarsan.

– Nə olsun? Sonra yenə öləcəyəm də... – Məsməxanım güldü. – Yadıma bir dənə əntiqə əhvalat düşdü, danışım sənə?

– Danış.

Bu əhvalatı Məsməxanıma Bikəbacı danışmışdı. Onda Məsməxanım internat məktəbdən evlərinə təzəcə köçmüşdü. Bikəbacı onlarla qapıbir qonşu idi, əri müharibədə ölmüşdü, iki qızı var idi, ikisi də ərdə idi. Bikəbacı ikiotaqlı mənzilində tək yaşayırdı. Bikəbacının Güldəstədən xoşu gəlmirdi, amma bunu Məsməxanımdan gizlədirdi. (Güldəstənin də Bikəbacıdan xoşu gəlmirdi, deyirdi: «– Əh, qadam onun ürəyinə! Fors eləməyinə bir bax! Nəyi artıqdı məndən? Padumayiş, qızları yaxşı yerə ərə gediblər!.. Hələ bilmək olmaz ki, o yaxşı ər bunun qızından xəlvəti nə eliyir!». Güldəstə belə deyirdi, amma ürəyində özü də yaxşı bilirdi ki, Bikəbacı ondan artıq adamdı). Güldəstə səfərdə olanda Bikəbacı hərdən Məsməxanımın yanına gəlirdi, hərdən Məsməxanımı öz evinə çağırırdı, bir yerdə düşbərə büküb bişirirdilər, bir yerdə oturub yeyirdilər, Bikəbacı da elə hey söhbət edirdi. Bu əhvalatı da bir qış axşamı ikilikdə oturub loto oynayanda danışmışdı.

Yüz yaşında bir kişi vardı. Bir gün həmin kişi meşədən bir şələ odun gətirirdi evə. Şələ ağır idi, az qalırdı qocanın belini sındırsın. Şələ ona o qədər əzab-əziyyət verdi, belini o qədər incitdi ki, qoca odunu belindən yerə atıb Əzrayılı çağırmaq istədi; onsuz da, yüz il ömür sürmüşdü bu dünyada, bəsdi daha, qoy Əzrayıl gəlib canını alsın.

– Əzrayıl! Ay Əzrayıl!
Birdən, doğrudan da, Əzrayıl qocanın qabağında peyda olub soruşdu:
– Nədir, kişi, nə istəyirsən?
Yüz yaşlı ixtiyar Əzrayılı görən kimi, o saat ölümdən qorxub dedi:
– Səni çağırdım ki, gəlib kömək eləyəsən, bu şələni dalıma alım...
...Məsməxanım dənizin lap kənarı ilə addımlaya-addımlaya:
– Görürsən də, yüz yaşlı kişini, – dedi, – o saat qorxdu ölməkdən. Belədi də, can şirin şeydi...
– Elədi. – Məmmədağanın Məsməxanımın çoxbilmişliyinə gülməyi tutdu.
Məsməxanım yenə başını qaldırıb işığı güclə sezilən ulduzuna baxdı, sonra üzünü Məmmədağaya çevirib soruşdu:
– Sənin arzuların çoxdu?
– Nə bilim?.. – Məmmədağa yenə gülümsədi.
Məsməxanım isə bu saat ən ciddi hesab müəlliməsinə oxşayırdı.
– Necə nə bilim? Öz arzularını bilmirsən?
– Nə cür arzuları?
– Arzunun nə cürü yoxdu ki... Arzu elə arzudu də! Əgər sən istəyirsənsə ki, gecənin bir aləmi yağış yağıb pəncərənin şüşələrini taqqıldatsın, bu da arzudu. Əgər istəyirsən ki, dünyada heç kim heç kimə bir pislik eləməsin, bu da arzudu. Arzu arzudu, böyüyü-kiçiyi yoxdu!.. Bax, sən indi nə arzu edirsən?
– Mən?
– Hə, sən. Bax, bu saat sən nə istəyirsən?
– Bu saat mən yemək istəyirəm.
– Nə istəyirsən?
– Yemək.
– A - a - a!.. - Məsməxanım əvvəlcə ay işığında bu göy gözlərə baxdı, sonra bərkdən güldü. – Acmısan?
– Ölürəm acından... – Məmmədağaya elə gəldi ki, Məsməxanımın bu gülüşü yaz yağışı kimi, hər tərəfə bir təmizlik, bir sərinlik gətirdi; elə bil, qapqara bulud birdən-birə boşaldı və bircə dəqiqənin içində Zuğulbanın bu qumlu sahilini, dənizi, Abşeronun aylı-ulduzlu göyünü bağışladılar Məmmədağaya – o özü də bu işə lap mat-məəttəl qaldı; ona elə gəldi ki, dama çıxıb çərpələng uçurtduğu vaxtlara qayıdıb birdən-birə, ürəyi qayğısızdı və bütün yer üzündə indi təkcə bu aylı-ulduzlu Abşeron göyüdü, dənizdi, Zuğulbanın bu qumlu sahilidi, bir də onlar ikisidi, bütün yer üzündə ikicə nəfər adam var, birinin adı Məmmədağadı, o birinin də adı Məsməxanımdı.
– A-a-a... Mən də acmışam e!..
Səhər bura gələndə Məmmədağa yolda Bilgəhdən təndir çörəyi almışdı. Bilgəhin çörəyi yaxşı çörək olurdu. Əlbəttə, çörəyin pisi yox idi və Məmmədağa belə fikirləşirdi ki, çörəyə pis demək, onu bəyənməmək günahdır. Çörək bərəkətdir və bu bərəkəti dadlı bişirəndə adam da çörəyi çörəyə layiq ləzzətlə yeyir. Indi furqonda həmin çörəkdən bir az qalmışdı, bir az üzüm vardı, bir az da pendir. Məmmədağa yolda heç vaxt kolbasa, sosiska, konserv yemirdi, onunku yağ idi, pendir idi, göyərti, tərəvəz, meyvə idi – bunlar salamat şeylərdi. Milisioner Səfərgilin dağlarında hər addımbaşı bir bulaq vardı, Abşeron yollarında isə hər addımbaşı bir kababxana vardı və hərdən kefinə düşəndə Məmmədağa maşını bir

kababxananın yanında saxlayırdı, əl-üzünü yaxşıca yuyub yay vaxtı açıqlıqda, payız, qış vaxtı pəncərə qabağında otururdu, yaxşı təndir çörəyi ilə iki-üç şiş qabırğa kababı yeyirdi. Kababxanada işləyənlər onu tanıyırdı, təzə ət olmayanda məsləhət görmürdülər ki, otursun, bir də bunu yaxşıca bilirdilər ki, Məmmədağa heç bir stəkan pivə də içən deyil, «Borjom» olsa, başqa məsələ; Məmmədağa rul arxasında içki içmirdi, başqa vaxtlar isə baxırdı yerinə və əhvalına. Misal üçün, bazar günləri Sarı hamamdan çıxandan sonra məhəllənin yuxarı başında Əsədullanın pivə köşkünün qabağında dayanıb noxudla bir-iki krujka pivə içməyin ləzzəti var idi. (Amma bunun bir işi də vardı ki, Səkinə xala narahat olurdu: «– Isti yerdən çıxıb soyuq şey içməzlər, ay bala, angina olub başımıza iş açarsan də...». Məmmədağa: «– Qorxma, məmə, heç nə olmaz», – deyirdi və gələn dəfə Sarı hamamdan çıxanda Əsədullanın «qvardeyski» pivə krujkasını Səkinə xalanın pürrəng çayı əvəz edirdi.)

...Məmmədağa dedi:

– Üzümlə, pendir-çöréklə necəsən?

Məsməxanım dedi:

– Üzümlə, pendir-çörəklə aram sazdı! – Sonra ay işığında alüminium örtüyü gümüş kimi ağaran furqona baxdı; furqon uzaqdan bütün dünyada tək-tənha ağarırdı, amma bu tənhalıqda bu saat bir istiqanlılıq vardı, bir doğmalıq, əzizlik vardı; Məsməxanım başa düşürdü ki, gecə yarıdan keçir, evinə çıxıb getməlidi, evi-eşiyi var, əri var və gecənin yarısı burada heç bir işi yoxdu – bütün bunları başa düşürdü, amma bu saat bütün bunların heç birinin mənası yox idi, çünki bu saat yer üzündə ikicə adam var idi, bunlardan birinin adı Məsməxanım idi, o birinin adı Məmmədağa idi və bu Məmmədağanın yekə, isti əlləri var idi, göy gözləri var idi.

Aydın məsələdir ki, Məsməxanımla Məmmədağa bir-birinin nə fikirləşdiklərindən xəbərsiz idilər, amma ən maraqlısı da elə bu idi ki, həmin qəribə yay gecəsi onlar ikisi də tez-tez eyni şey barədə fikirləşirdi.

Məmmədağa ilə Məsməxanım furqonun içinə girəndə ikiyüzlük elektrik lampası gözlərini qamaşdırdı və Məsməxanıma elə gəldi ki, divardan asılmış bu taxta dovşan, bu taxta tülkü, ayı, şir və naməlum heyvan əməlli-başlı gülürlər. Nəyə gülürdü onlar? Məsməxanıma gülürdü? Məmmədağaya gülürdü? Bu gecəyə gülürdü? Bəlkə birdən-birə belə yaman acmaqlarına gülürdü və deyirdi ki, Məsməxanım, Məmmədağa, görürsüz də, siz yerin uşaqlarısız, adi bəndələr kimi acırsız, zəhmət çəkin göyün yeddinci qatından düşün aşağı.

Məmmədağa tirin məhəccərindən atılıb, küncdə üstünə «Araz» radioqəbuledicisi qoyduğu balaca dolabın qapısını açdı və qəzetə bükülmüş çörəyi, pendiri, üzümü çıxartdı.

Məsməxanım balaca dolabın qabağında əyilmiş Məmmədağaya baxa-baxa fikirləşdi ki, bu gecəni səhərə kimi oturub xəmir yayar, bu oğlan üçün düşbərə, qutab bişirər və bu oğlan onun düşbərə, qutabını ləzzətlə yeyəndə özünü dünyanın bəxtəvəri bilər; çoxdan idi, lap çoxdan idi ki, Məsməxanım kiminçünsə, nəsə bişirmək arzulamırdı, çoxdan idi heç özüyçün də fərqi yox idi nə yeyir, amma hərdən gecələr yuxuya getməzdən əvvəl onun sehrli nağıl aləmində Məsməxanım adında tamam başqa bir qız kiminçünsə qəssab Mirzənin təzə kəsdiyi əmlik quzu ətindən şabalıdlı, albuxaralı qovurmaplov bişirirdi, dəvə ətindən narlı qutab qızardırdı, küncüt halvası çalırdı...

Məmmədağa əlindəkiləri məhəccərin üstünə qoydu, üzü qurama döşəkcəli taxta kətili məhəccərdən o tərəfə keçirib:

– Otur, – dedi. – Kasıbın olanı... Bir misal da var...

– Hansı?

– Varın verən utanmaz.

– Hə, bir misal da var.

– Hansı?

– Vaxtsız qonaq öz kisəsindən yeyər.

– Sən qonaqsan? – Məmmədağa lap sidq-ürəkdən təəccübləndi; doğrudan da, bəyəm Məsməxanım bu furqonda qonaq idi?

Məmmədağa qəzeti açıb səliqə ilə məhəccərin üstünə sərdi, üzümü, pendiri yerbəyer etdi, çörəyi ortadan bölmək istədi və məlum oldu ki, nazik təndir çörəyi bütün günü dolabda qalıb quruyub.

– Çörək quruyub yaman...

– Eybi yox..

– Istəyirsən qızdıraq?

– Hə, qızdıraq, – Məsməxanımın qara gözləri o saat işıldadı. – Qoy iyi gəlsin çörəyin!..

Məmmədağa qabaqlar yola çıxanda özüylə balaca elektrik pilətəsi götürürdü, akkumulyatordan furqonun içinə elektrik xətti çəkmişdi, hərdən özünə çay dəmləyirdi, qayqanaq bişirirdi, amma sonralar daha bu pilətəni özü ilə götürmədi, çünki onun fikrincə tir mətbəx deyildi və gərək tirdən pilətə iyi, yağ iyi, çay iyi gəlməyəydi; düzdür, yaxşı dəmlənmiş çayın iyi hərdən ləzzət edirdi, xüsusən, Abşeron kəndlərində keçirtdiyi kimsəsiz gecələr bu iydə, elə bil, bir insan qayğısı, bir mehribanlıq vardı, amma nə etmək olardı, tir ev deyildi, tir tir idi.

– Sən dayan burda, bu saat çöldə balaca bir ocaq düzəldim, çörəyi qızdırım, gətirim.

– Hə, qala ocağı! Qoy həm çörək iyi gəlsin, həm də ocaq iyi gəlsin! Mən də baxacağam, burda niyə dayanım?..

— Yaxşı, burda dayanma. – Məmmədağa güldü.

– Ocaq çaqqıldaya-çaqqıldaya yanacaq, səs salacaq qumluğa... Biz də baxacağıq özümüzçün... Işığı düşəcək hər yana, bizim də kölgəmiz düşəcək onun işığında... Dənizə də düşəcək işığı... Dənizin suyunda bir parça qıpqırmızı od yanacaq... – Sonra Məsməxanım birdən-birə açıq-aşkar bikeflədi. – Amma ocağı söndürmək pis olur yaman... Közün ki, üstünə su tökürsən, külək aparıb pajar eləməsin, adamın ürəyi birtəhər olur...

– Hə, onu düz deyirsən. – Məmmədağa da lap əvvəldən, o vaxtdan ki, uşaq idilər və bayram axşamları məhəllədə – Dar dalanın qabağında ocaq qalayıb üstündən atılardılar, bu fikirdə idi ki, dünyada ocaqdan yaxşı şey yoxdu, amma bu şərtlə ki, sonra onun üstünə su töküb cızıldada-cızıldada söndürməyəsən.

Və həmin qəribə yay gecəsi Məsməxanımın gözləri yenə də birdən-birə işıldadı:

– Yanarqayanı tanıyırsan sən?

– Yanarqayanı? Yox...

– Heç eşitməmisən?

– Yox.

– Onda getdik! – Məsməxanım bir göz qırpımında məhəccərin üstündəki üzümü, pendiri, çörəyi tələsik qəzetə bükdü.

– Hara gedirik?

Məsməxanım qəzet bağlamasını qoltuğuna vurub:

– Gəl dalımca! – dedi.

Məmmədağa başa düşdü ki, bircə dəqiqənin içində küləyi dayandıran bu qız, bu dəfə də onu adi yerə aparmır, çünki bu özü də məlum məsələ idi ki, bu qız da adi adam deyildi, necə ki, bu gecə adi gecə deyildi və ümumiyyətlə, həmin gecə dünyanın bütün işləri adi işlər deyildi; Məmmədağa məhəccərin üstündən aşıb furqonun qapısından çıxan Məsməxanımın ardınca getdi; birdən qız qapının ağzında dayanıb geri çevrildi və taxta dovşana baxıb dedi:

– Onu vurmaq düzgün deyil.

– Niyə? – Məmmədağa da taxta dovşana baxdı.

– O cür qəşəng dovşandı, adam baxanda gülməyi tutur... Onu niyə gülləynən vurasan ki, gərək?..

Məmmədağa bir taxta dovşana baxdı, bir də Məsməxanıma baxdı:

– O ölmür ki, güllə dəyəndə. Əkizdi onlar, gülləni yaxşı atanda o birisi də o saat böyründən çıxır.

– Yox a? – Məsməxanım da bu dəfə gülə-gülə bir Məmmədağaya baxdı, bir taxta dovşana.

– Istəyirsən at özün, bax.

– Mən! A-a-a... Mən heç güllə atmamışam axı ömrümdə...

– Atmamısan, indi atarsan. Gəl bura.

Məsməxanım əlindəki bağlamanı taxta kətilin üstünə qoydu. Məmmədağa tüfənglərin hamısına bir gözdə baxırdı, təzəli-köhnəli hamısı cağbacağ idi və o, məhəccərin qabağındakı balaca dördkünc mizin üstünə yığdığı tüfənglərdən birini götürüb qanırdı, qalın saçaqlı dəmir gülləni lüləyə keçirtdi:

– Bax, o qırmızı nöqtəni görürsən, düz onu nişan al.

– Mən axı nişan ala bilmirəm...

– Bu saat elə yaxşıca atacaqsan ki...

Məsməxanım tüfəngi götürdü, gözünün birini qıyıb taxta dovşana baxdı və taxta dovşan onun gözünün qabağında o tərəf bu tərəfə qaçmağa başladı.

– Nişan ala bilmirəm e, mən...

Məmmədağa sol əli ilə tüfəngin qundağından yapışıb sağ əlini qızın çiynindən aşırdı, barmağını onun barmağının üstündən tətikdə saxladı, üzünü Məsməxanımın saçlarına yapışdırıb nişan aldı. Məsməxanımın qara saçlarından qəribə bir ətir gəlirdi və Məmmədağa qolları ilə, sinəsi ilə qızın kürəklərini, çiynini, boynunu hiss edirdi; bu hissdə bir doğmalıq, mehribanlıq vardı və Məmmədağa öz qolları ilə, sinəsilə, üzü ilə qızın çılpaq qollarını, çiynini, bütün bədənini örtmək istədi, bürümək istədi, elə bil, Məsməxanımı kimdənsə, nədənsə qorumaq lazım idi və elə bil, Məmmədağa indi bu qədər köməksiz, bu qədər zirehsiz görünən bu bədənə dəyə biləcək zərbələri öz üzərinə götürmək istəyirdi, çünki bu saat ona elə gəlirdi ki, güclü qolları arasındakı bu bədən, bu vücud uşaq bədəni, uşaq vücududu; onun sağ biləyi qızın döşünə toxundu. Məmmədağa bu döşün yumruluğunu, bərkliyini hiss etdi və Məsməxanımın barmağı ilə tüfəngin tətiyini çəkdi.

Taxta dovşanın bir ayağı üstə sağ tərəfə, arxadan çıxan ikinci dovşanın da bir ayağı üstə sol tərəfə əyilməyilə Məsməxanımın sevincək olub – ura - a! – qışqırmağı bir oldu və qız üzünü çevirib altdan-yuxarı bu göy gözlərə baxdı; o, bu gözləri, bu sifəti birinci dəfə idi bu qədər yaxından görürdü; oğlanın nəfəsi onun sifətini istilətdi və qız birdən-birə bu oğlanın üzündən öpmək istədi; istədi və öpdü – Məsməxanım belə Məsməxanım idi...

...Bikəbacı evdə tək qalıb darıxmamaqdan ötrü hərdən otağının birini kirayə verirdi. Kirayənişin çox vaxt Zuğulbaya işləməyə gəlmiş cavan qızlardan olurdu, bir-iki ay kirayədə qalırdı, sonra ya qaçıb Bakıya gedirdi, ya da hökumətdən təzə ev alırdı. Məsməxanım doqquzuncu sinifdə oxuyanda Gülzar adında cavan bir qız Bikəbacının evində qalırdı. Gülzar Bakıda kitabxanaçılıq texnikumunu qutarmışdı və təyinatını Zuğulbanın kitabxanasına almışdı.

Bir gün gecəyarısı Məsməxanım mətbəxdə qabları yuyub silirdi. Camaat çoxdan yatmışdı, təkcə Məsməxanımgilin pəncərəsi yanırdı. Həmin gün Məsməxanım ikiseriyalı ərəb filminə baxıb evə gec gəlmişdi. Film Məsməxanıma o qədər təsir etmişdi ki, evə qayıdandan sonra da bir xeyli özünə gələ bilmirdi. Film Əhməd adlı bir təyyarəçinin həyatından idi. Əhmədin Həbibə adlı gözəl bir sevgilisi vardı. Onların toyu olmalı idi. Bütün qonaqlar çağrılmışdı. Lakin Mahmud adlı bir həkim də Həbibəni istəyirdi və o, toy günü xəlvətcə Əhmədin təyyarəsinin cihazlarını xarab eləmişdi. Əhmədin təyyarəsi qəzaya uğrayır və onun üzünün bir tərəfi yanır. Əhməd xəstəxanaya düşür, amma Həbibəyə xəbər vermir. O, bu cür eybəcər sifətlə Həbibənin gözünə görünmək istəmir. Həbibə elə bilir ki, Əhməd vəfasız çıxıb, onu atıb gedib. Doktor Mahmud Həbibəni aldadıb zorlamaq istəyir. Həbibə qaçıb küçələrə düşür, az qalır dəli olsun. Oğrular, qumarbazlar onu içirib istifadə etmək istəyirlər. Birdən Həbibə ayılır. O, Əhmədin başına gələn qəza-qədərin təfsilatını öyrənir və uzaq bir kurortda hamıdan gizlənən Əhmədi tapır. Onlar uzun həsrətdən sonra bir-birini qucaqlayıb öpürlər. Doktor Mahmud öz əməlindən peşman olub acı-acı göz yaşları tökür. Sonra o, Əhmədin üzünü sağaldır və Əhməd yenə də əvvəlki kimi yaraşıqlı olur. Əhməd ilə Həbibə təzədən toy edib xoşbəxt olurlar. Filmin axırında doktor Mahmud sevincdən göz yaşları axıdır.

Məsməxanım boşqabları yuyub silə-silə Əhməd ilə Həbibə barədə fikirləşirdi və gözləri dolurdu; o fikirləşirdi ki, dünyadakı sevgililərin hamısı gərək bir-birini Əhməd ilə Həbibə kimi istəsin, onda doktor mahmudlar da həmişə öz əməllərindən peşman olarlar. Birdən Məsməxanıma elə gəldi ki, bayırdan nə isə qəribə səslər gəlir. Pəncərədən aşağı boylananda bir oğlanla bir qızın blokun qapısına söykənib bir-birini öpdüyünü gördü və Gülzarı o saat tanıdı.

Məsməxanım bütün ömründə birinci dəfə idi ki, doğrudan doğruya bir-birini öpən, bir-birini qucaqlayan oğlanla qız görürdü.

Bundan sonra Gülzar ilə həmin oğlan hər gün gecə blokun qapısına söykənib öpüşürdü və hər gecə də Məsməxanım mətbəx pəncərəsinin qabağında gizlənib onları gözləyirdi. Məsməxanım bu oğlanı tanımırdı, o da yəqin gəlmə idi. Bu oğlanın lap ürəkdən gələn yumşaq səsi vardı. Məsməxanım onun nə dediyini eşitmirdi, təkcə bunu görürdü ki, bu oğlan öz ürək sözlərini ahəstə-ahəstə Gülzara deyir və sonra da öpüşürlər. Gülzar oğlanı birinci öpürdü, heç gözləmirdi oğlan sözlərini deyib qurtarsın, sözlərini ağzında yarımçıq qoyurdu. Sonra da Gülzar axırıncı dəfə oğlanı bağrına basıb bərk-bərk öpürdü, pilləkənlərlə yuxarı qalxırdı.

Oğlan bir müddət həyətdə dayanıb Bikəbacının pəncərəsinə baxırdı, sonra çıxıb gedirdi.

Məsməxanım hər gecə oğrun-oğrun onlara baxırdı və yuxuya getməzdən əvvəl onun özünə də bir oğlan bu cür ürəkdən gələn yumşaq səslə cürbəcür sözlər deyirdi. Məsməxanım bu sözlərin mənasını başa düşmürdü, amma bu sözlər yağ olub, yuxuya getməzdən əvvəl onun bədəninə yayılırdı.

Bir gecə Məsməxanım mətbəx pəncərəsinin qabağında çox gözlədi, amma Gülzarla həmin oğlan gəlib blokun qapısına söykənmədi; ikinci gecə Məsməxanım təkcə həmin oğlanı gördü, həyətin yuxarı başında tək-tənha dayanıb Bikəbacının pəncərəsinə baxırdı; üçüncü gecə oğlan da daha gəlmədi; dördüncü gecə də blokun ağzı bomboş qaldı və Məsməxanım elə bildi ki, gecələr bu blokun ağzı daha həmişə bomboş olacaq, amma beşinci gecə yenə də bayırda tanış səslər eşitdi və gizlincə mətbəxin pəncərəsindən boylanıb aşağı baxdı, qaranlıqda Gülzarı o saat tanıdı və burasını da o saat başa düşdü ki, Gülzarın bu dəfə qucaqlaşıb öpüşdüyü oğlan başqa bir oğlandı.

Gülzar bu oğlanı da birinci oğlan kimi öpürdü və heç özü də bilmədi necə oldu ki, birdən-birə Məsməxanımın ürəyi kövrəldi, başını pəncərədən çəkib çarpayısının yanına gəldi, oturub gözlərini döşəməyə dikdi, dünyadakı vəfasızlıq onu yandırıb-yaxdı və bu zaman iki damla göz yaşı onun ayaqlarının yanına düşdü; Məsməxanım bir də heç vaxt pəncərənin qabağında dayanıb Gülzarın yolunu gözləmədi.

Gün keçdi, ay dolandı, bir qız bir oğlanındı deyiblər, iş belə gətirdi ki, Məsməxanımın da bəxtinə Mirzoppa çıxdı, yenə illər keçdi, amma Məsməxanım axırıncı dəfə Mirzoppanı nə vaxt öpdüyünü yadına gətirə bilmirdi və ona elə gəlirdi ki, heç ömründə öpməyib Mirzoppanı; Mirzoppanın da axırıncı dəfə onu nə vaxt öpdüyü Məsməxanımın yadına gəlmirdi. Mirzoppa araqdan zəifləmiş kişiliyini ört-basdır eləmək üçün:

– Qısırsan! Doğub-törəməzsən! – deyirdi və guya buna görə həftələrlə Məsməxanıma yaxın düşmürdü. Hərdənbir spirt iyi verə-verə gecələr Məsməxanımı qamarlayırdı, amma bu vaxt nə öpmək məsələsi olurdu, nə də əzizləmək.

Məsməxanımın uşağı olmurdu və bir dəfə o, hamının təriflədiyi həkim Mesropyanın yanına getdi. Mesropyan ona baxıb yoxladı və dedi ki, gərək ərinizi də müayinə edək. Axşam Məsməxanım Mirzoppaya dedi:

– Sabah get Mesropyanın yanına.

Mirzoppa əvvəlcə elə başa düşdü ki, Mesropyan yenə də milisdə işləyən kiminsə familidir və yenə də onu milis idarəsinə çağırırlar; araqdan qıpqırmızı qızarmış gözlərini bərəldib soruşdu:

– Mesropyan hansıdı?

– Doxtur Mesropyan də, tanımırsan?

– Doxturun yanında nə ölümüm var mənim?

– Get yanına, baxsın sənə, görsün niyə uşağım olmur də!..

Mirzoppa qulaqlarına inanmadı:

– Nə?! Gedib Mesropyanın qabağında soyunacağam ki, nə var – mənə bax?! Hə? Öz ayıbını mənim üstümə tökürsən?

Və həmin gün evlərində yenə də qiyamət qopdu. Qonşular da onların belə işlərinə öyrənmişdilər...

...Məsməxanım bağlamanı kətilin üstündən götürüb furqondan çıxdı:

– Getdik.

Məmmədağa hələ də Məsməxanımın sərin və quru, qalın dodaqlarını öz çənəsində hiss edə-edə qızın ardınca furqondan çıxdı.

Məsməxanım əlini qaldırıb qayalığı göstərdi:

– Ode, o tərəfə gedəcəyik, – dedi. – Qayalığın lap aşağı başına.

Həmin qəribə yay gecəsi Məsməxanım Məmmədağanı Zuğulba qayalarının üstünə çıxartdı və buradakı hər çuxuru, hər yarığı tanıyırmış kimi, bir dəfə də sürüşmədən, büdrəmədən tez-tez addımlamağa başladı; Məsməxanım tələsirdi, elə bil ki, səhərin açılacağından qorxurdu.

Abşeronda elə bir asfalt yol yox idi ki, Məmmədağa onu tanımasın, amma bir belə illər ərzində birinci dəfə idi ki, qayaların üstü ilə bu cür gedirdi; o, hara getdiklərini bilmirdi və özünü güclə saxlayırdı ki, bığ yeri tərləməmiş yeniyetmə kimi, əlini çənəsinə aparıb Məsməxanımın sərin və quru, qalın dodaqlarının yerini oxşamasın.

Məsməxanım arxaya çevrilib gülümsədi və:

– Az qalıb, – dedi. – Darıxma.

Qayaların çala-çuxuruna su dolmuşdu, üstünü də çox yerdə mamır basmışdı; çuxurlara dolmuş su ılıq idi.

Məsməxanım yenə arxaya çevrildi:

– Sürüşkəndir a, yavaş ol...

– Qorxma...

Sonra qayalıqdan qumluğa düşüb dənizdən xeyli aralandılar. Buralar tamam çılpaq idi, bütün ətraf ay işığında bomboz bozarırdı, nə bir ağac, nə bir kol vardı. Onlar balaca bir gölün yanından keçdilər, o qəribə yay gecəsi Abşeron göyünün ayı, bütün ulduzları həmin kiçik gölün üzündə idi.

Məsməxanım gölün yanında dayanıb bu yerlərin köhnə bələdçisi kimi dedi:

– Duzlu göldü bu.

– Adı Duzlu göldü?

– Hə. Müharibə vaxtı gəlib buradan duz aparırmışlar. Deyirlər, yaxşı duzu olur buranın.

Elə bil bura bu saat ay işığında gümüş kimi ağaran furqondan cəmi üç-dörd kilometr aralı yox, dünyanın tamam başqa bir yeriydi və bu yerlərin bircə bilicisi vardısa da Məsməxanım idi; birdən-birə yenə də Bakı, məhəllələri Məmmədağaya çox uzaq gəldi və indi o heç cürə ağlına sığışdıra bilmirdi ki, bir neçə saat keçəcək, hər şey yenə əvvəlki adiliyinə qayıdacaq, evdə oturub anasının çayını içəcək, Dar dalanın qabağına çıxıb məhəllənin cavanları ilə söhbət edəcək və bütün bu yerlər, ancaq xatirə olub qalacaq– bütün bu yerlər və bu yerlərdə ona bələdçilik edən Məsməxanım.

– Qurbağalara qulaq asırsan? - Bunu Məsməxanım soruşdu.

Burada dənizin səsi uzaq bir uğultu kimi gəlirdi, burada qurbağalar quruldayırdı və qurbağaların bu qurultusu, dəniz uğultusunun uzaqlığı birdən-birə Məmmədağanın ürəyinə bir tənhalıq gətirdi; o, qızın əlindən tutub:

– Məsmə... – dedi və özü öz səsinə təəccüb etdi; təəccüb etdi ki, bu Duzlu gölün sahilində qurbağa qurultusundan, uzaq dəniz uğultusundan başqa, insan səsi də eşitmək olarmış və ən təəccüblüsü də bu idi ki, həmin səs onun öz səsi idi.

Həmin qəribə yay gecəsində Məmmədağa dənizlə danışan, külək dayandıran qızın adını birincə dəfə beləcə çəkdi: Məsmə...

Məsməxanım əlini onun əlindən çəkib barmağını dodaqlarına apardı və:

– S-s-s!.. – dedi, sonra pıçıldadı: – Burada səs salmaq olmaz...

Əlbəttə, bu saat bu Duzlu gölün kənarında səs də salmaq olardı, oxumaq da olardı lap, amma bunu başa düşmək çox da çətin iş deyildi ki, Məsməxanım onun sözlərindən yayındı, onun deyəcəklərinə qulaq asmaq istəmədi. Əslində Məmmədağa özü də nə deyəcəyini bilmirdi, təkcə bunu bilirdi ki, nəsə deyəcəkdi və bu qurbağa qurultusu ilə, uzaq dəniz uğultusu ilə bərabər onun səsi də bir müddət bu Duzlu gölün kənarında eşidiləcəkdi; o, elə bil, özü öz səsini eşitdi və bir dəqiqənin içində ikinci dəfə təəccüb içində qaldı ki, bu yerlərdə bu səs haradan dolanır.

Və Məmmədağanın xəbəri olmadı ki, Məsməxanım bu saat qorxur, qorxur ki, Məmmədağanın Duzlu gölün kənarında deyəcəyi sözlər hər şeyi tamam həqiqətə çevirər və onun həmin qəribə yay gecəsindəki sehrli nağıl aləmi tamam-kamal çıxıb gedər işinin dalınca.

Bayaq bomboz qumluqla addımlayanda, Məsməxanım hiss etdi ki, səhərin açılmasına az qalır, bunu hiss etdi və başa düşdü ki, həmin qəribə yay gecəsi sona yetir, səhər yenə ağ çit pencəyini geyib pomidor köşkündə tərəzinin arxasında dayanacaq; yadına saldı ki, Mirzoppa bu saat milis idarəsində yatır və onu yenə də, ən azı, on beş sutka dustaq edəcəklər, bəlkə bu dəfə milisioner Səfərin tərsliyi tutacaq və iş lap çətinə düşəcək.

Bu vaxt çox gözlənilməz bir hadisə baş verdi: birdən-birə Məsməxanıma elə gəldi ki, Mirzoppa tamam uzaq bir aləmin adamıdı, ona heç bir dəxli yoxdu; o, inana bilmədi ki, doğrudan da, bir belə il Mirzoppa ilə bir yerdə yaşayıb, bir belə il ər-arvadlıq ediblər Mirzoppa ilə, bir yastığa baş qoyublar; Mirzoppanın içməyi də, davaları da, nakişi hərəkətləri də indi ona çox cılız, çox əhəmiyyətsiz, çox məzmunsuz göründü və Məsməxanım başa düşdü ki, həmin qəribə yay gecəsi nəsə elə bir hadisə baş verib ki, o daha əvvəlki Məsməxanım deyil; yəni burası məlum idi ki, onun adı yenə də Məsməxanım idi, əvvəlki sifəti, əvvəlki bədəni idi, amma məsələ burasında idi ki, bütün bunlarla bərabər, nəsə baş vermişdi və o, daha əvvəlki adam deyildi.

Məmmədağa onun əlindən tutub adını çəkəndə Məsməxanım bildi ki, bu saat elə sözlər eşidəcək ki, bu sözlər həmin «nə isə»dən xəbər verəcək, bu sözlər həmin qəribə yay gecəsinin büründüyü sehri çatladıb tamam sındıracaq və qız qorxdu, çünki yenə də hər şeyi yadından çıxartmaq istəyirdi – səhər ki, hələ açılmamışdı, hələ qalmışdı səhərin açılmasına.

Məsməxanım pıçıldadı:

– Yorulmusan?

Məmmədağa da pıçıltı ilə cavab verdi:

– Yox...

– Gəl, az qalıb...

Duzlu göldən sonra topuğacan quma bata-bata yoxuşu qalxıb yenə də sal qayaların üstünə çıxdılar. Birinci mərtəbə qayalar arxada, dəniz sahilində qalmışdı və indi o qayalar yəqin hələ də yüngül qayıq olub dənizdə üzmək istəyirdi; amma həmin qayalar heç vaxt əsl qayıq olub dənizdə üzə bilməyəcəkdi; o qayaların yeri əbədi idi, nə qədər ki, qaya idilər, nə qədər ki, külək, yağış onları toz eləməmişdi,

əritməmişdi. Bura isə ikinci mərtəbə qayalar idi və yəqin vaxtilə bu yerlər də dəniz olmuşdu və bu qayalar da kiminsə gözlərində yüngül qayıq olub dənizdə üzmək istəmişdi.

Məmmədağa bilirdi ki, Xəzərin suyu azalır; Alxas bəy məhəllədə taxta kətilin üstündə oturub eynəyinin qalın şüşəsindən qəzetlərə baxa-baxa deyirdi ki, alimlər bu saat bu məsələ ilə məşğuldurlar. Xəzərin suyu azalırdı, yəni bu o demək idi ki, məsələn, min ildən sonra aşağıdakı qayalar da dənizdən uzaqlaşacaqdı, daha heç kimin gözündə qayıq olub üzmək istəməyəcəkdi; amma bütün bunlar min ildən sonra olacaqdı, bu min ilin özündə isə, bir həmişəlik, bir əbədiyyət, daimilik vardı və bu daimiliyin müqabilində insan ömrü Məmmədağaya lap miskin göründü; o belə fikirləşdi və qorxdu ki, birdən Məsməxanım da bu miskinliyi hiss edər, qorxdu ki, Məsməxanımın kövrək ürəyi bu hissə tab gətirə bilməz.

Onun çəkmələrinin içi qumla dolmuşdu; qayaya söykənib çəkmələrini çıxartdı və bir-bir içindəki qumu boşaltdı. Məsməxanım Məmmadağaya baxıb güldü və:

– Bu saat görəcəksən, – dedi.

Bu yerdə qayalar bir-birindən aralı idi və Məsməxanım dağ keçisi kimi bir qayadan o biri qayaya atıla-atıla addımlarını daha da tezləşdirdi. Bir az da beləcə getdilər və birdən Məmmədağaya elə gəldi ki, qarşıdakı qum təpənin aşağısında gün çıxır; elə bil ki, bütün Abşeronda yox, təkcə bu qum təpənin aşağısında səhər açılırdı.

Məsməxanım dedi:

– Çatdıq.

Qum təpənin aşağısında iri sal qaya vardı və qayanın üstündə kərtənkələ yuvalarına oxşayan deşiklərdən göyümtül alov qalxırdı; elə bil, qayanın altına qaz trubaları çəkilmişdi və kibrit ilə bu trubaların hamısını yandırmışdı. Ətrafdan qəribə səslər gəlirdi və Məmmədağa da göyümtül alovla yanan bu iri sal qayaya baxa-baxa, qəribə səslərə qulaq asa-asa elə bildi ki, üstündə «Pnevmatiçeski tir» yazılmış furqondan cəmi dörd-beş kilometr aralıda yox, sehrli bir nağıl aləmindədi və bu sehrli nağıl aləminin sahibəsi də Yanarqayanın işığında qara gözlərini göyümtül alova zilləyib nəsə fikirləşən Məsməxanımdı.

Sonra birdən-birə Məmmədağanın yadına düşdü ki, bu saat bu sehrli nağıl aləminin sahibəsinin çiynində qapqara bir qançır var; onun ovcunun içi göynədi, elə bil bu qapqara qançır yenə də ovcunun içini yandırırdı, sonra o, yenə də sərin və quru, qalın dodaqları çənəsində hiss etdi və ona elə gəldi ki, təyyarədədi, təyyarə uça-uça enir-qalxır, onun da ürəyi uçunur, uçunur.

– Bu səsləri eşidirsən? – Bunu Məsməxanım soruşdu.

– Eşidirəm. – Bunu da təbii ki, Məmmədağa dedi.

– Bilirsən nəyin səsidi o?

– Yox... Bayquş səsinə oxşayır...

– Yarasadı. Işıqdan qorxur, çığır-bağır salır.

Bir müddət Yanarqayanın qarşısında beləcə dayandılar; Məsməxanım gözlərini alova zilləmişdi; Məmmədağa Məsməxanıma baxırdı.

– Bir belə vaxt öyrəşməyib bu işığa?

– Öyrəşməyib də... Yəqin öyrəşə bilmir işığa...

Yenə bir müddət beləcə dayandılar.

Məmmədağa soruşdu:

– Sən bura tez-tez gəlirsən?

Məsməxanım dedi:

– Hərdənbir... 

Məmmədağa soruşdu:

– Tək gəlirsən?

Məsməxanım ona baxdı və Məmmədağa bu baxışlarda bir təəccüb oxudu; Məmmədağa özü də bu əbləh sualına mat qaldı: əlbəttə, Məsməxanım tək gəlirdi bura, lap tək-tənha olanda gəlirdi bura; Məsməxanımın kimi vardı ki, onunla gəlsin?

– Gedək mənimlə Bakıya. – Bu sözlər öz-özünə gəldi, elə bil, bu sözləri Məmmədağa yox, bu Yanarqaya dedi, bütün bu ətraf dedi, dedi ki, Məsməxanım, bir halda ki, «Məsməxanım Məsmədi, əl-ayağı əsmədi», sənin gecənin yarısı tək-tənha burada işin yoxdu.

Məsməxanım lal-dinməz Məmmədağaya baxırdı.

– Eşitmirsən nə deyirəm? Gedək Bakıya mənimlə!

Bu dəfə Məmmədağanın səsi lap bərkdən çıxdı və bu bərk səs bu yerlərə heç yaraşmırdı. Məsməxanım gözlərini ondan çəkib yenə də Yanarqayaya baxdı və dedi:

– Məndən Tamilla olmaz...

Yarasalar, elə bil, qəflətən adam səsləri eşidib daha da bərkdən çığır-bağır saldı və Məmmədağa bir an təəccüblə hiss etdi ki, yarasa səsindən, lap uzaqdan gələn dəniz uğultusundan başqa, yenə də nə isə qəribə bir səs gəlir, sonra başa düşdü ki, bu onun ürəyinin döyüntüsüdü.

Bəzən elə olur ki, adam nə deyəcəyini, nə edəcəyini bilmir, adama elə gəlir ki, hər sözü, hər hərəkəti artıqdı; adama elə gəlir ki, ümumiyyətlə, yer üzündə artıq vücuddu, gərəksizdi, lazımsızdı, dərisi bir qəpiyə dəyməz; adamın özünün özündən zəhləsi gedir: həmin qəribə yay gecəsi Məmmədağa Yanarqayanın qarşısında dayanıb nə edəcəyini, nə deyəcəyini bilmirdi və ümumiyyətlə, bu dünyaya nə üçün gəldiyindən də xəbəri yox idi; ona elə gəldi ki, başdan-ayağa bir miskinlik içindədi; sonra başa düşdü ki, Məsməxanım səhərdən bəri ona baxır.

Məsməxanım birdən-birə güldü:

– Elə sən də bir az bəbəsən ha, deyəsən... – dedi.– Gəl bura. Otur, bax, bu daşın üstündə. Bu saat sənin üçün çörək qızdıracağam. Bilirsən nə əntiqə iyi gələcək çörəyin?.. Gəl bura.

Məsməxanım Yanarqayanın qabağındakı balaca qaya parçasının üstündə qəzet açıb pendiri, üzümü səliqə ilə yerbəyer elədi, çörəyi götürüb Yanarqayanın kənarına qoydu və həmin qəribə yay gecəsi Yanarqayanın hər tərəfinə odda bişən çörək iyi yayıldı. Ən qəribəsi isə bu oldu ki, hər tərəfə yayılmış bərəkət iyi Məmmədağanın əhvalını dəyişdi, o, Yanarqayanın yanında çöməlib qayanın üstündəki təndir çörəyini o tərəf-bu tərəfə çevirən Məsməxanıma baxdı, sonra Yanarqayanın odlu gözlərinə baxdı, sonra da Abşeronun həmin gecəki aylı-ulduzlu göyünə baxdı və fikirləşdi ki, bu dünya ki, bu qədər böyükdü, bu dünyada ki, bu cür yanarqayalar var, bu cür çörək iyi var, adam niyə gərək həmişə sevinməsin, həmişə kefi kök, damağı da çağ olmasın? Bir halda ki, dünyada Məsməxanım adlı bir qız var və həmin qızın sərin və quru, qalın dodaqları sənin çənənə toxunur, niyə gərək özünü dünyanın ən birinci xoşbəxti hesab eləməyəsən? Və bir halda ki, sən düz adamsan, heç kimə xainlik eləməmisən, qolunda güc var, yerin üstündə möhkəm dayanmısan, niyə sənin işin müşkülə düşməlidi, niyə nə istəyirsən o da olmamalıdı?

Və Məmmədağa ulduzların arasında Məsməxanımın işığı güclə sezilən ulduzuna baxdı. Məsməxanım da qayanın üstündən götürdüyü isti çörəyi əlindən əlinə atıb tuta-tuta öz ulduzuna baxdı və Məmmədağa qızdan soruşdu:

– Ulduzun day bir söz demir sənə?

– Deyir.

– Nə deyir?

Məsməxanım Məmmədağanın Yanarqayanın işığında daha da açılmış göy gözlərinə baxıb:

– Deyim nə deyir? – dedi.

– Hə, de nə deyir.

– Deyir ki, Məsməxanım, sənin başının üstündən Humay quşu uçub, kölgəsi bu gecə üstünə düşüb...

...Yanarqayanın dörd tərəfinə bu cür çörək iyi nə qədər yayılmışdı, Yanarqaya nə qədər bu cür gecələrin şahidi olmuşdu? Əlbəttə, bunu nə Məmmədağa bilərdi, nə də Məsməxanım. Yanarqayada nə qədər çörək bişiriblər? Bəlkə çox-çox illər bundan əvvəl, o vaxtlar ki, bu yerlərdə, ancaq dəniz idi, ancaq təbiət idi və insan da hələ təbiətin qənimi deyildi, ov əti qızardılardı bu qayada?..

...Dan yeri yavaş-yavaş sökülürdü. Buradan dəniz görünmürdü, amma bir azdan günəş dənizin üzərindən qalxacaqdı, qıpqırmızı şəfəqlər hər tərəfə işıq saçacaqdı və o zaman təkcə bu Yanarqayanın ətrafı yox, hər tərəf işıqlanacaqdı.

Məsməxanım qaya parçasının üstündə oturub üzümlə pendir-çörək yeyən Məmmədağanın Abşeron yollarında yanıb qaralmış üzünə baxırdı və elə bil ki, onun bütün cizgilərini, təbəssümünü, gözlərinin ifadəsini əzbərləmək istəyirdi. Məsməxanıma elə gəlirdi ki, Yanarqaya onun ocağıdı və həmin qəribə yay gecəsində bu ocağı Məmmədağa üçün qalayıb. Ona elə gəlirdi ki, bu çörəyi də özü yoğurub bişirib, üzümü də özü becərib dərib, pendiri də özü tutub və bütün bunların hamısını ona görə edib ki, günlərin bir günündə bu göygöz oğlan bu ocağın qırağında oturub bu üzümü, pendiri, çörəyi bu cür şirin-şirin yesin; günlərin həmin günündə ki, Humay quşu uçub kölgəsini Məsməxanımın üstünə salmışdı; amma bir məsələ vardı ki, kölgənin ömrü qısadı yaman – adam kölgəsinin də, ağac kölgəsinin də, Humay quşunun kölgəsinin də; yavaş-yavaş səhər açıldıqca bu kölgə də çəkilib gedəcəkdi. Bu saat Məsməxanımın da, Məmmədağanın da Yanarqayanın işığında qumluğun üstünə kölgələri düşmüşdü və bir azdan səhər açılanda Humay quşunun kölgəsi də bu kölgələr kimi yox olacaqdı. Bu hiss adamın ürəyinin ən dərin yerinə, o yerinə ki, Yanarqayanın üstündə qızdırılmış bu çörəyin iyi gedib ora çatmırdı, bax, ürəyin həmin yerinə nisgil gətirirdi; səhərin açılmasına lap az qalmışdı və gərək bu nisgilin üstü açılmayaydı; amma burası da vardı ki, Məsməxanım da bunu çox yaxşı bilirdi: bir nisgil ki, bu cür çörək iyinə bürünmüşdü, ona dözmək yaman olacaqdı.

Sonra Məsməxanım yadına saldı ki, bu saat Zuğulbanın dəniz sahilində alüminium örtüklü bir furqon hələ də alaqaranlıqda gümüş kimi ağarır və həmin furqon indi bütün sahildə tək-tənhadı, amma bu furqon canlı olsaydı, başa düşən olsaydı, onda bilərdi ki, bu dünyada Məsməxanım adında bir qız var, bu Məsməxanımın göydə bir ulduzu var və indi həmin ulduz göydən həmin furqona baxır və həmişə də baxacaq, fərqi yoxdu, istəyir gecə olsun, istəyir gündüz olsun, həmişə baxacaq.

Səhər açıldıqdan sonra həmin alüminium örtüklü furqon daha gümüş kimi ağarmayacaqdı...

Yanarqayanın istisindən Məmmədağanın alnına, burnuna xırda tər damcıları düzülmüşdü və Məsməxanım əlini uzadıb Məmmədağanın alnındakı tər damcılarını sildi.

Sonra Məsməxanım soruşdu:

– Istidi sənə?

Məmmədağa dedi:

– Hə, istidi bir az.

– Bu saat yağış yağsaydı yaxşı olardı, hə?

– Hə.

– Istəyirsən yağış yağdırım bu saat?

– Yox.

– Qorxdun ki, yağdıra bilmərəm, hə? – Məsməxanım güldü, amma bu gülüş başqa gülüş idi, bunu Məmmədağa yaxşı bilirdi, bu gülüş bu qara gözlərə bir gölgə salmışdı və kölgə, təbii ki, Humay quşunun kölgəsi deyildi – Qorxdun, hə?.. – Məsməxanım əlini Məmmədağanın əlinin üstünə qoydu...

...Çayçı Qəzənfər həmişəki kimi sübh tezdən çayxanaya girib yekə samovara od salmışdı, indi də taxta döşəməyə saldığı palazın üstündə bardaşqurma oturub çəkiclə qabağındakı tabaqçada kəllə qənd sındırırdı, hərdən də başını qaldırıb Bakıya gedən asfalt yola baxırdı və alüminium örtüyü gün işığında par-par parıldayan tir furqonunu Bakıya tərəf gedən görəndə kişinin ürəyi arxayın oldu ki, bu gün daha müştəriləri heç hara dağılmayacaq...

...Xanım qarının böyük oğlu Əbülfəz Binədə bağban işləyirdi, evi-eşiyi də orada idi. Xanım qarı hərdən Buzovnadakı həyətlərindən əncir, üzüm vaxtı əncir, üzüm; nar, heyva vaxtı nar, heyva dərib Binəyə aparırdı. (Əbülfəz deyirdi: « – Neynirsən, ay arvad, bunları özünə yük eləyib gətirirsən bura? Görmürsən nə qədər əncir, üzüm var burda?» Xanım qarı deyirdi: « – Bunların ağacını, meynəsini atan, baban əkib. Dadı gərək ayrı olsun səninçün bunların. Səninçün də, uşaqlarınçın da»).

Xanım qarı lap sübh tezdən gedirdi ki, oğlunu da evdə görsün. Buzovnada magistral yolun kənarında dayanıb Bakıya gedən avtobusa minirdi, yolüstü Binədə düşürdü. Abşeron yollarındakı sürücülərin qoca arvadlara hörmət etməsi məlum bir məsələ idi; sürücülər marşrut avtobuslarını yolun ortasında saxlayırdılar ki, Xanım qarı minsin.

Budəfəki yekə maşın onun yanında dayananda qarı baxıb gördü ki, bu maşın başqa maşındı, avtobus deyil.

– A-a-a... Bu neçə maşındı belə? Xaladelnikdi?

Bu maşın soyuducu maşın yox, Məmmədağanın alüminium örtüklü furqonu idi ki, üstündə alabəzək hərflərlə «Pnevmatiçeskiy tir» sözləri yazılmışdı.

Məmmədağa kabinkanın qapısını açıb:

– Xaladelnik döyül, ay xala, – dedi. – Hara gedirsən?

– Binəyə gedirəm, elə bildim avtobusdu bu, əl elədim...

– Gəl otur.

Xanım qarı əvvəlcə furqonu əməlli-başlı nəzərdən keçirdi, sonra yəqin bu qərara gəldi ki, bu boyda böyük maşında gedəndə adamın başına heç bir iş gəlməz və əlindəki əncirlə dolu iki tor zənbili yuxarı qaldırıb kabinkaya minmək istədi. Kabinka asfaltdan xeyli hündür idi və Xanım qarının cəhdləri boşa çıxırdı. Məmmədağa asfalta düşüb qarıya kömək elədi və furqon yerindən tərpənəndə Xanım qarı ovurdlarını çəkib qayırma dişlərini ağzında yerbəyer edə-edə dedi:

– Cavanlığım bu yerlərdə keçib mənim, qırğı kimi burdan vurub, ordan çıxırdım. Indi Allahın maşınına minə bilmirəm... Yaxşı deyiblər, vallah, lap mükəmməl deyiblər ki, hər şey vaxta baxsa da, vaxt heç nəyə baxmır...

Məmmədağa qabağındakı güzgüdə bu qarının rəngini itirmiş xırda gözlərinə, heyva kimi büzüşmüş qırışlı sifətinə, qara kəlağayısının altından çıxan və xınadan qızarmış ağ saçlarına baxdı və fikirləşdi ki, bəlkə bir vaxt bu qarı da dənizlə danışıb, bəlkə bir vaxt bu qarı da Yanarqayanın üstündə çörək qızdırıb? Məmmədağa bunu fikirləşdi və ürəyindən lap həzin bir ağrı gəlib-keçdi: illər quş olub ötüb-gedəcəkdi və Zuğulba sahilindəki həmin qəribə yay gecəsi də quru bir xatirə olub qalacaqdı...

Yəni doğrudan bu cür olacaqdı?

Səmədullanın oğlu Fazil universitetin fizika fakültəsində oxuyurdu. (Qabaqlar Məmmədağagilin məhəlləsindəki uşaqların çoxunun arzusu bu idi ki, böyüyüb şofer olsunlar və böyüyəndə də arzularına çatırdılar. Şoferlikdən başqa bir də diş texnikliyi ilə ayaqqabı tikmək dəbdə idi. Amma indi zaman dəyişmişdi, məhəllənin uşaqları məktəbləri qurtarıb institutlara girirdi, kimi həkim olurdu, kimi mühəndis olurdu, hətta benzinsatan Meyranqulunun oğlu Əliqulu şair olmuşdu və Mayakovski kimi misraları qırıq-qırıq şerlər yazırdı; Alxas bəy taxta kətili evlərinin qabağındakı səkiyə qoyub otururdu və qalın şüşəli çeşməyini taxıb qəzetlərdə Əliqulunun şerlərini oxuya-oxuya deyirdi: «– Əhsən! Bərəkallah!»).

Fazil bu yay üçüncü kursu bitirmişdi və hərdən elə qəribə şeylər danışırdı ki, Fazilin gələcəkdə böyük alim olacağına məhəllədə heç kimin şübhəsi qalmırdı. Belə qəribə bir şey də danışırdı Fazil: hamar bir yerdə bir dəmir parçasının qabağına cürbəcür maneələr düzürsən, bu maneələrin arasından sürüşüb keçmək çətin olur; yuxarı başda maqnit tuturlar, dəmir parçası maqnitə tərəf gedəndə maneələrə ilişib qalır, amma bir dəfə belə, iki dəfə belə, üç dəfə, dörd dəfə belə, beşinci dəfə dəmir parçası, elə bil, gözü varmış kimi, heç nəyə ilişməyib maneələrin arasından özünə yol tapır və gedib maqnitə yapışır.

Məmmədağa birdən-birə Fazilin danışdığı bu söhbəti yadına saldı və fikirləşdi ki, dəmir parçası dəmir parçasıdı, amma o da öz maqnitinə yol tapır. Bunu fikirləşdi və maşının qazını artırdı və burasını da arzuladı ki, kaş bu günlərdə axşamlar Zuğulbada həmişə gilavar əsəydi.

Xanım qarı isə illərin qarasına deyinə-deyinə yerindən dikəlib asfalt yola baxdı və fikirləşdi ki, bu maşın avtobusdan rahat gedir...

...Meyvə-tərəvəz köşkünə səhər-səhər təzə pomidor gəlmişdi və köşkün qabağına xeyli adam yığılmışdı. Ağ çitdən pencək geymiş satıcı qız pomidorları plastmas ləyənə yığıb tərəziyə qoyurdu və alıcıları bir-bir yola salırdı.

Milisioner Səfər asta addımlarla köşkə yaxınlaşıb bir-birinin üstünə yığılmış pomidor yeşiklərinə baxdı və fikirləşdi ki, bu il meyvə-tərəvəz yaxşıca boldur. Milisioner Səfər burasını da fikirləşdi ki, kim nə deyir-desin, amma dünyada Abşeron pomidoruna çatan pomidor olmaz.

Milisioner Səfər həmişəki kimi, formasının dəmir düymələrini diş tozu ilə silib təmizləmişdi və indi pencəyindəki, papağındakı düymələr yenə də çıraq kimi hər tərəfə işıq saçırdı.

Milisioner Səfər tərəzinin yanına gəldi və əlini uzadıb yeşikdən bir pomidor götürdu, orasına-burasına baxıb öz-özüylə danışırmış kimi yavaşdan:

– Sənə yazığım gəldi, – dedi. – Şikayəti şikayət kimi eləmədim... Ikicə ili vardı azı... On beş sutka yatacaq yenə...

Satıcı qız pomidorları plastmas qaba yığıb tərəzinin gözünə qoydu və işindən ayrılmayıb:

– Çox nahaq yerə! – dedi. – Mənə minnət qoyma.

Milisioner Səfər əlindəki pomidoru yenə o tərəf-bu tərəfə çevirib:

– Sənə minnət qoymuram, – dedi və bir az sıxıla-sıxıla əlavə etdi: – Nə qədər ki, cavansan, özünə bir gün ağla. Gec olacaq sonra... Adam deyil o... deyil...

«Itdir, it!» – bu sözləri isə milisioner Səfər ürəyində dedi.

Sonra yeşikdən götürdüyü pomidoru yerinə qoyub meyvə- tərəvəz köşkündən uzaqlaşdı.

Satıcı qız pomidorları plastmas ləyənə yığıb tərəzinin gözünə qoyurdu.

Alıcılar pomidorun yaxşısını istəyirdilər, pul verirdilər, xırdasını alırdılar, amma heç kim bilmirdi ki, bu gecə onlar şirin yuxuda olanda Zuğulbanın göyündə Humay quşu uçmuşdu və həmin Humay quşunun kölgəsi indi də, həmişəki kimi, pomidorsatan bu ağ pencəkli qızın üstünə düşmüşdü...

*2 avqust – 12 noyabr 1974.*
*Zuğulba – Bakı.*

# TOYUĞUN DIRI QALMASI

*(Əncir ağacı)*



# I

«–Aha!.. Ay bərəkallah! Ay maşallah! Odu he-e-e!.. Bəh-bəh-bəh... Aşiq-məşuq əhvalatıdı lap!.. Anası deyir qızım məktəbdədi, ay malades! Bunun da başı batmış məməsi deyir ki, oğlum uşaqdı hələ... Ay sən öləsən! Ona bax, əcəb uşaqdı! Ağəz, vay-vay-vay, qızın öpüş verməyinə bax... Aha, aha, bircə qol-boyun olmağuvuz çatmırdı, ay malades! Bəh-bəh-bəh!..»

Kənddən Bakıya gedən elektrik qatarının səsi, istər-istəməz, bir müddət Zübeydənin fikirlərini alt-üst elədi, dağıtdı bu fikirləri və həmin elektrik qatarının səsi altında Ağagül ömründə birinci dəfə qız öpdü və həmin elektrik qatarının səsi altında Nisə də portfelini qollu-budaqlı əncir ağacına söykəyib, ömründə birinci dəfə oğlanla qucaqlaşdı, oğlanla öpüşdü.

Bütün əhvalat da elə buradan başladı.

Elektrik qatarının səsi yavaş-yavaş uzaqlaşdıqca, nar ağaclarının dalında gizlənib xısın-xısın əncir ağacına tərəf boylana-boylana Ağagüllə Nisənin öpüşməyinə tamaşa eləyən Zübeydənin beynində «bəh-bəh»lər və «malades»lər də təzədən baş qaldırdı və bu dəm Nisə bütün ömründə oğlanla birinci dəfəki öpüşdən sonra gözlərini açanda lap qəfildən, birdən-birə ay işığında nar ağaclarının arasından boylanıb maraqla, bir az heyrətlə, bir az da həsədlə onlara baxan girdə, ətli sifəti, yaşına yaraşmayan bir parıltıyla parıldayan yekə qara gözləri gördü:

– Vaxsey! Zübeydə!

Bu ikicə söz pıçıltısındakı qorxu, ürkəklik, elə bil ki, bircə anlığa həmin yay gecəsinin bürküsündə mürgüləyən əncir, nar, heyva, badam, zeytun ağaclarını, vağzalın daş hasarı boyu qalxmış meynələri, yelsizlikdən bir yarpağı belə titrəməyən tutları da diksindirdi və Zübeydə də bu ikicə sözü pıçıldayan səsin xofundan qeyzə gəldi, nar ağaclarının budaqlarına ilişə-ilişə irəli yeridi.

– Nədi, balam? Nə xəbərdi? Cin-şeytan göründü gözlərüvə?! Nöşü-ü-ü-n?!

Zübeydə bu «nöşü-ü-ün»ü çox mənalı dedi və bu mənanın dalında nə gizləndiyini həmin yay axşamının istisində əli-ayağı buz kimi soyumuş, ürəyi uçunan Nisə də, çönüb Zübeydəyə baxa-baxa hələ də özünə gələ bilməyən Ağagül də yaxşı başa düşdü.

– Cin-şeytandan ki, belə qorxursan, yaxşı, balam, anam-bacım, nöşün camaatın getdiyi düz yolla, işıqlı yolla evivüzə getmirsən? Hə? Nöşü-ü-ün?..

Hirsindən və pərtliyindən uşaq kimi dodaqları qaçan Ağagül dedi:

– Düz adamsan, sənin burda nə işin var?

Bu dəfə Zübeydənin doğrudan matı-qutu qurudu və arvad sidq-ürəkdən heyrət elədi:

– A - a - a!.. Adə, qara məni basınca, mən qaranı basım, hə? Keçməz, atam balası, keçməz! Nolar, camaat durur, biz dururuq! Baxarıq, görərik mən düz adamam, ya siz düz adamsuz ki, vağzal bağında, əncir ağacının altında, gecənin xəlvətində... gecənin xəlvətində!.. – Əvvəlcə bütün bu dediklərinin dalınca bir söz tapa bilmədi, sonra dedi: – Gecənin xəlvətində Leyli-Məcnunluq eləyirsüz! – Sonra da, elə bil ki, tapıb dediyi bu söz özünün xoşuna gəlmədi, kəsərsiz oldu, dedi: – Əh, qələt eləyər Məcnun atabaatasıyla, Leyli də ondan beşbetər, vağzal bağına gəlməz!

Gözünün yaşı burnunun ucundan gilə-gilə süzülən Nisə içini çəkə-çəkə:

– Heç kimə demə... – dedi. – Heç kimə demə, qələt eləmişik, Zübeydə... Zübeydə xala...

Zübeydə əvvəlcə, elə bil, başa düşmədi, eşitmədi bu sözü, sonra qulağına inanmadı Zübeydə, amma Nisə bir də təkrar elədi ki, qələt eləmişik, Zübeydə xala, heç kimə demə kənddə, biabır olarıq biz, Zübeydə xala və sözləşmək, sözlə didişmək həvəsindən Zübeydənin tar simi kimi tarım çəkilmiş bədəni birdən-birə, bircə anın içində süstəldi, bütün hirsi-hikkəsi, kini-küdurəti çıxıb getdi işinin dalınca və arvad açıq-aşkar yumşaldı, ürəyində lap kövrəldi də.

Məsələ burasında idi ki, kənddə uşaqdan tutmuş böyüyəcən hamı Zübeydəyə elə-eləcə Zübeydə deyirdi və bu kənddə birinci dəfə idi ki, kimsə Zübeydəyə «Zübeydə xala» deyirdi.

– Yanındakını başa sal də... qızım... – dedi Zübeydə. – Başlayıb ki, düz adam belə gəldi, əyri adam belə getdi, day nə bilim nə...

Nisə daha bir söz demədi, əyilib əncir ağacının dibindən portfelini götürdü və içini çəkə-çəkə də Zübeydənin yanından ötüb-getdi. Ağagül də qızın dalınca addımlaya-addımlaya dünyanın ən iyrənc bir məxluquna baxırmış kimi, çimçəşib nifrətlə yuxarıdan-aşağı Zübeydəyə baxdı və bu baxışların altında Zübeydə yenə də mindi cin atına, həmişəki Zübeydə oldu, özünü saxlaya bilməyib Ağagülün arxasınca:

– Ay sən öləsən! – dedi. – Baxarsan!.. – Sonra Nisənin dediyi sözlər də yadından çıxdı. – Baxarsuz!

## II

Poçtalyon Nəcəfqulu deyirdi, guya, alimlər qəzetlərdə yazıblar ki, müharibədən sonra otuz ildi Abşeronda belə isti olmayıb. Əlbəttə, Zübeydə yaxşı bilirdi ki, hər deyilən sözə inanmayasan gərək, amma bu yerlərdə belə isti, doğrudan da, yadına gəlmirdi; heç müharibədən əvvəllər də belə isti yadına gəlmirdi. Bu, lap Aşqabadın o istisinə oxşayırdı, Aşqabadın o istisinə ki, Zübeydə gəmiyə minib, Xəzəri üzüb gedib düşmüşdü o istiyə; qaragül xəzi almağa getmişdi ki, gətirib Bakıda satsın (Papaqçı Əlihüseyn şirnikləndirmişdi onu o vaxt, indi gorbagor olub köpək oğlu!), amma bilməmişdi ki, bir qara daş da dalınca gedir: Bakıdan apardığı Nuxa krepdeşinini satdığı yerdə (yaxşı deyiblər ki, artıq tamah baş yarar!) tutmuşdular onu Aşqabad bazarında və amnistiya olmasaydı, bir il iki ay on dörd gün yox, şəhərlərarası alver üstə düz altıca il yatacaqdı türmədə. Həmin bir il iki ay on dörd günün elə günü olmadı ki, Zübeydə tövbə eləməsin və papaqçı Əlihüseynin də atasının goruna söyməsin ki, bir də belə iş tutmayacaq. Belə iş deyəndə ki, yəni, böyük iş, yəni, qaz vurub, qazan doldurmaq məsələsi. O vaxtdan da xırda-xuruş idi Zübeydəninki, amma xırda-xuruşun da üzü qara olsun, bude, bu gün günortadan bazarda idi, günortanın o cırhacırından axşamacan, satdığı da cəmi üç dənə süpürgə olmuşdu. Bu şoqəribə qalmış süpürgələri Abdulla kişi bekarçılıqdan düzəldirdi və Zübeydə də kişinin qılığına girib, süpürgələri ucuz qiymətə ondan alırdı və bazara aparıb satırdı. Dünən lap betər olmuşdu, cəmi iki süpürgə satmışdı və bu axşam da Zübeydə süpürgə dolu həsir zənbili nar ağacının budaqlarına ilişə-ilişə və ürəyində də Ağagülün qarasına deyinə-deyinə ağaclıqdan çıxıb vağzal bağının cığırına düşdü; buna bax də, bir, hələ «ding» eləyib yumurtadan çıxmamış, əncir ağacının altında

qızla öpüşür, amma adama da elə baxır, elə bil ki, gürzə ilana baxır, nədi, balam, nolub, sancacağam səni, sancmışam səni, nədi axı? Atan səhərdən axşamacan avtobus sürür buradan Bakıya, Bakıdan bura, yığıb gətirir evə, anan yeyib harınnıyır, özün də uşağın başını tovlayıb gətirirsən axşamın qaranlığında əncir ağacının altına, indi nolub, mənəm təqsirkar? Nöşün, lənətüllah, bu da bu tərəfdən çıxdı qabağıma...

Zübeydə uzaqdan ona tərəf gələn qaraltını, milisioner Səfəri o saat tanıdı, lənətüllahı da onunçun dedi və içi süpürgə dolu həsir zənbili görüb, milisioner Səfərin yenə qırsaqqız olmaması üçün, təzədən öyüd-nəsihət verməməsi üçün yolunu dəyişdi, vağzalın aşağı tərəfindən keçən cığıra döndü ki, Məsməxanımın indi bağlı olan tərəvəz köşkünün qabağından dövrə vurub evə getsin; yolu xeyli uzandı və bu da Zübeydəni lap dilxor elədi.

Zübeydə elə bildi ki, milisioner Səfər onu görmədi, amma milisioner Səfərin də gözləri sərraf gözləri idi, lap uzaqdan Zübeydəni tanıdı, əlindəki həsir zənbili də gördü, arvadın tez yolunu dəyişib başqa cığıra düşməsinin də səbəbini başa düşdü və axır vaxtlar, yəni bir xeyli müddət Zübeydəni faydalı əmək yoluna çağıra-çağıra daha zinhara gələndən sonra, bu tüfeyli arvad barədə sabitləşmiş fikri bir də gəlib beynindən keçdi: « – Əşşi, qoy cəhənnəm olsun getsin, qozbeli qəbir düzəldər».

Əlbəttə, Zübeydənin xəbəri yox idi ki, milisioner Səfər bu saat onu, ancaq qəbirdə düzələcək qozbel hesab elədi (xəbəri olsaydı, yenə bir şey bəhanə eləyib milisioner Səfərin arvadı Zübeydəylə – bu əfəl oğlu əfəlin də arvadının adı Zübeydə idi – kəndin ümumi hamamında bir dava-şava qoparacaqdı ki, arvadlar onları güclə aralayacaqdı!), amma elə-beləcə dilxor idi və dilxor-dilxor da getdi öz xarabasına.

Bayaq vağzal bağından keçib bazardan evə qayıdırdı, cığırın qırağındakı ağaclıqdan, ancaq onun eşidə biləcəyi bir pıçıltı eşitdi və əlbəttə, Zübeydə də Zübeydə olmazdı ki, tez, lap bircə göz qırpımında özünü ağaclığa verib pıçıldaşanların kim olduğunu pusmasın; baxıb gördü ki, bəli, məclis arəstədi, bağça müəlliməsi Firuzənin qızı Nisə ilə o zəhləsi getmiş Ağabacının oğlu Ağagül dayanıblar üzbəsurət və pıçıldaya-pıçıldaya eşq-məhəbbətdən dəm vururlar, sonra da qol-boyun olub öpüşdülər və sonra da qızın gözünə cin-şeytan göründü.

Belə-belə işlər.

Bu tərəfdən də bu milisioner Səfər böyürdən çıxıb, yolunu uzaq saldı; qaragün oğlu qaragün, altı yekə qızı var, altısı da evdə; bu qızların yükü altda az qalır boğazının damarları şişib partlaya, papağını da çıxaranda xalis keçəl bülbülə oxşayır, bircə dənə tük də yoxdu başında; əşşi, özü bilər, sənə nə, sən kimsən, ləçər arvadı var, qoy o da dərdini çəksin kişisinin...

Düzdü, bir dəfə, lap elə bu yazın sözüdü, milisioner Səfər bazar başında ona yaxınlaşıb bir söz dedi, həmin söz heç yadından çıxmır, beynində həkk olub qalıb o söz düz üç aydı, tez-tez yadına düşür və milisioner Səfərin, azı, otuz ildi ona dediyi sözlər bu bircə cümlənin yanında tamam heç zaddı.

Zübeydə Bakıdakı bir köhnə tanışından zəfəran, sarıkök, cirə, zəncəfil, yumurta boyamaq üçün rəngbərəng boyalar alıb gətirib kəndin bazarında satırdı, milisioner Səfəri görüb şey-şüyünü yığışdırdı, bazar başına getdi və on-on beş dəqiqədən sonra elə oradaca milisioner Səfər təzədən pırtlayıb çıxdı böyürdən, gəlib Zübeydəylə üzbəüz dayandı və Zübeydə elə bildi ki, milisioner Səfər yenə də bir neçə il bundan qabaqkı kimi, onu milis idarəsinə aparacaq, amma milisioner Səfər

onu milis idarəsinə aparmadı, arvadın qıpqırmızı xınalı saçlarına, cavanlıqda çox sinəsinə döyən cayılların ağlını başından eləmiş və indi yavaş-yavaş kiçilən, sulanan qara gözlərinin kənarındakı qırışlara, lırtlaşmış, buxağı sallanan sifətinə baxdı, baxdı, elə bil, Zübeydənin cavanlığı gəldi durdu gözlərinin qabağında (qəribəydi ki, milisioner Səfərin bu baxışlarının altında Zübeydə də birdən-birə öz cavanlığını yadına saldı, öz cavan sir-sifəti, cavan əndamı gəldi durdu gözlərinin qabağında) və dedi:

– Özünü o qazanın altında yandırdın ki, içindəki heç kimə lazım deyil...

Milisioner Səfər bu sözləri dedi və çıxıb getdi.

Həmin gün Zübeydə tamam hali-pərişan oldu.

Nə isə, gəldi çıxdı evinə.

Kənddə, ancaq işi düşənin – alanın, satanın, axtaranın, Bakıya ev dəyişənin, bağ kirayə verənin... – ayağı dəyən bu ev, bu həyət-baca kəndin aşağı başında, qumluqla qayalığın arasında idi və bu qayalıqdan dənizə yüz əlli-iki yüz metr məsafə vardı və yay-qış dənizin səsi Zübeydənin radiosuydu, konsertiydi; Bakıya, ya başqa bir yerə gedəndə, əlbəttə, bu qum üçün də darıxırdı, bu qayalıq üçün də, həyətdəki bu meynələr üçün, iydə, xartut, ərik, heyva, nar, əncir ağaclarıyçun da darıxırdı, amma hər şeydən çox, ən birinci, dənizin səsi üçün darıxırdı.

Zübeydənin ikiotaqlı daş evi, mətbəxi, mətbəxin yanında hamamı və hamamın da yanında içəri tərəfdən divarına yarıyacan çex kafeli düzülmüş tualeti vardı. Həyətində balaca çarhovuzu vardı və cəmi iyirmi sotluq bu həyətdəki sağlam ağaclar kəndin az-az həyətlərində vardı və ümumiyyətlə, Zübeydənin evindəki, həyət-bacasındakı səliqə-sahmanına kənddə onun Ağabacı kimi ən birinci düşmənlərinin belə, sözü yox idi.

Zübeydə həyətə girən kimi, əlindəki həsir zənbili hirslə darvazanın yanındakı alça ağacının dibinə atdı və guya, bütün təqsirlər yazıq Abdulla kişidəymiş kimi, onun qarasına bir-iki yağlı söz dedi, sonra iti addımlarla quyuya yaxınlaşıb bir vedrə su çəkib çıxardı, sərin sudan bir parç götürüb birnəfəsə başına çəkdi və bu bir parç sərin quyu suyundan sonra, elə bil, bir balaca sakitləşdi. Vedrənin qalan suyundan üç-dörd ovuc töküb üz-gözünə çırpdı, bir-iki parç da su doldurub artırmanın sement döşəməsinə atdı ki, bir az sərinlik olsun.

Quyunun həndəvərində ağcaqanad daha çox idi və Zübeydə vedrəni yerə qoyub yaş əliylə ətli qollarını, sinəsini şappıldada-şappıldada artırmaya qalxdı, hər tərəfi açıq artırmanın bir kənarında qurduğu miçətkənin içinə girib palazın üstündən sərdiyi nazik yay döşəyində uzandı, başını yumşaq mütəkkəyə qoyub, qollarını açdı və sinədolusu nəfəs alıb bir:

– Oxxay!.. – dedi.

Dənizdən lap yavaş bir uğultu gəlirdi, yel deyilən şey yox idi və dənizin xırda bir ləpəsi də tərpənmirdi. Artırmada yaş sement döşəmə çox tez qurudu və sərinliyi də çox tez keçib getdi, elə bil, həyətdə ocaq qalamışdın və hasar boyu əkilmiş küknar ağaclarının qozalarının səsi də, elə bil, ocaqda yanan odunun şaqqıltısıydı; küknar qozaları hərdənbir öz-özünə şaqqıldayıb çatlayırdı, sonra bir-bir tuppultuyla yerə düşürdü.

Zübeydə miçətkənin altından əlini uzadıb taxta kətilin üstündəki bir ləyən üzümdən bir gilə qoparıb ağzına qoydu, sonra əllərinin ikisini də başının altında çarpazladı. Üzüm giləsi isti idi və elə bil ki, bütün dadını-tamını itirmişdi.

Ümumiyyətlə, elə bil ki, meyvələr get-gedə dadsızlaşırdı və Zübeydə sidq-ürəkdən hayıfsılana-hayıfsılana fikirləşdi ki, hanı indi Hövsan soğanı, Corat qovunu, Zirənin ağ turpu, kökü, Buzovnanın kahısı, Nardarandakı Paçan bağlarının qara şanısı, Sarayın, Novxanının ağ şanısı, Qala tərəfdəki Hacıxuna bağlarının sarıgiləsi, Bilgəhin səhər-səbahi kəhrəba kimiənciri?..

Zübeydə bunları fikirləşdi, bu meyvələrin, tərəvəzin tamını ağzında hiss elədi və birdən-birə özü də özünə çox köhnə, qədim bir məxluq kimi göründü.

Zübeydə heç özü də yaxşı bilmirdi ki, neçə yaşı var, vaxtıyla o qədər o tərəf-bu tərəf eləmişdi yaşını ki, o qədər dolaşdırmışdı ki, axırda özü də çaşbaş qalmışdı; hər halda, əlli altı ilə əlli səkkiz arasında olardı, artıq olmazdı, amma əskik də olmazdı.

Burası da qəribə idi ki, Zübeydə birinci dəfəydi beləcə ciddi surətdə yaş barədə fikirləşirdi, yəni, yaşını nə üçünsə azaltmaq barədə yox, nə üçünsə çoxaltmaq barədə yox, elə-belə, səbəbsiz-zadsız, düzünəqulu öz yaşı barədə.

Nə isə, aşıq deyib ki, ya bir başqası, hər halda, kimsə deyib ki, gün keçdi, il keçdi, cavan olmaram bir də mən. Zübeydə bunu da fikirləşəndən sonra, Molla Nəsrəddinin bir əhvalatı yadına düşdü: deyirlər ki, bir gün molla ata minmək istəyirmiş, ayağını üzəngiyə basıb bir güc eləyib, iki güc eləyib, amma ata minə bilməyib, deyib ki, eh, hardasan, ey cavanlıq, sonra baxıb görüb ki, yan-yörəsində heç kim yoxdu, deyib: « – Heç cavanlıqda da bir zad deyildin!».

Əşşi, molla da getsin işinin dalınca, o birisi də, sən Allah, qoy uzanmışıq yerimizdə, qoy bir nəfəsimizi dərək, amma... amma bir məsələ vardı ki, Zübeydə, misal üçün, Aşqabadın o istisinə düşəndə, dünya-ərzdə Ağagülün heç izi-sorağı da yox idi, amma indi adama elə baxır ki, elə bil, əfi ilana baxır.

## III

Ağagül «aerodrom» papağını başından çıxarıb köhnə divanın üstünə çırpdı və ürəyində yer üzündəki bütün pis adamlarçun, o cümlədən də, təbii ki, Zübeydəyçün hansı söz lazımıydısa, o sözü də dedi.

Ağabacı yerdən palazın üstə oturub qabağındakı bir böyük məcməyi sirkəlik üzümü balonlara doldururdu və indicə salamsız-kəlamsız içəri girən oğlunun qaşqabağına təəccüb elədi. Axır günlər səhər-axşam Ağagülün üzü gülürdü, nə deyirdin onu eləyirdi, işə-gücə yarıyırdı və Ağabacı belə bir üzüyolalığı təkcə onunla yozurdu ki, bir azdan oğlu ikiillik əsgərliyə gedəcəkdi, özü də uzağa gedəcəkdi, Pribaltikaya, buna görə də ikiillik ayrılıqqabağı ipəkdən yumşaq olmuşdu.

Əlbəttə, Ağabacı bilmirdi ki, məsələ təkcə bunda deyil, ikinci əsas səbəb də var və bu ikinci əsas səbəb ondan ibarət idi ki, düz iki il dərdindən dəli-divanə olduğu, dalınca düşdüyü, yayın bürküsündə, qışın boranında, payızın küləyində, yazın yağışında xəlvətcə qapıları ağzında dayandığı Nisənin daş ürəyi axır ki, yumşalmışdı və Ağagülün axırıncı məktubuna cavab göndərmişdi və bu cavabdan sonra düz doqquz gün idi ki, hər gün xəlvətcə görüşürdülər. Nisə həyat və insanlar barədə, vəfasızlıq və ilqar barədə danışırdı, hərəsinə üç-dörd dəfə baxdığı hind kinolarını Ağagülə nağıl edirdi, Ağagül də papirosu papiros dalınca tüstülədə-

tüstülədə və çox da ciddi surətdə Nisənin yanınca addımlayırdı, çox zaman da danışmağa söz tapmırdı.

– Nolub, ədə, papağı nöş tullayırsan? – Bunu heyrətlə oğluna baxan Ağabacı soruşdu.

Ağagül də:

– Heç, – dedi və yenə də ürəyində yer üzündəki bütün pis adamları, o cümlədən də Zübeydəni söydü.

Ağabacı ona görə heyrətlə oğlunun halını xəbər aldı ki, başqa vaxt Ağagül «aerodrom» papağını, az qala, yatanda da başından çıxarmırdı, yayın cırhacırında da nazik köynəkdə, nazik şalvarda və bu «aerodrom» papaqda gəzirdi, bu papaq Ağagülün böyük qardaşı Baladadaşın papağı idi və il yarım bundan əvvəl Baladadaş əsgərliyə gedəndə bu papağı Ağagülə verdi ki, gəzdirsin başında, həmişə qeyrətini çəksin bu papağın; Baladadaş indi Amur vilayətində əsgər idi və beş-altı aydan sonra qayıdıb gələcəkdi və Ağagül Baladadaşın papağını kişi kimi gəzdirmişdi başında, amma indi içəri girən kimi, papağı başından çıxarıb vızıldatdı divanın üstünə, pis adamların əməli yandırıb-yaxmışdı onu, özü də ayrı cür yandırıb-yaxmışdı.

Ağabacı yerindən qalxıb əlini dəsmalla sildi və Ağagülün günorta suyunu içib, küftəsi ilə kartofunu axşama saxladığı kasanı gətirib qıraqları xırda qırmızı gül naxışlı, ağ süfrəli mizin arxasında oturmuş Ağagülün qabağına qoydu. Soğan, vəzəri, reyhan gətirdi, bir dənə sirkəyə qoyulmuş badımcan, çörək gətirdi və Ağagül də nə anasının üzünə baxdı, nə qabağındakı göy-göyərtiyə, küftəyə baxdı, elə kortəbii yeməyə başladı.

Ağagül orta məktəbi keçən il bitirmişdi və indi Bakıdakı şoferlər kursunda oxuyurdu, iki həftədən sonra qurtarırdı kursu və iki-üç həftədən sonra da gedirdi əsgərliyə, özü də bilirdi hara: vayenkom Mürsəlov demişdi ki, səni göndərəcəyəm Pribaltikaya, gözəl yerlərdi; yolları da əntiqə, gedib orada canla-başla xidmət eləyərsən Vətənə.

Nisə gecə məktəbində oxuyurdu, onuncu sinifdə, gündüzlər uşaq bağçasında işləyirdi, anasının yanında, uşaqlara nəğmə oxumaq öyrədirdi; yeddiillik musiqi məktəbini də qurtarmışdı Nisə, qarmon çalırdı.

Düz doqquz gün idi ki, Ağagül gecələr məktəbin dalında xəlvətcə Nisəni gözləyirdi və onlar adamsız yerlərdən keçib vağzal bağıyla evə gəlirdilər, yəni, Nisə gedirdi öz evlərinə, Ağagül də gəlirdi öz evlərinə. Ağagül istəyirdi Nisəni nişanlayıb getsin əsgərliyə, amma Nisə deyirdi ki, yox, qayıdıb gələrsən sonra; Nisə bilmək istəyirdi ki, Ağagülü, həqiqətən sevir, yoxsa yox, özünü bu iki ildə sınamaq istəyirdi.

Bu gecə Ağagül ömründə birinci dəfə Nisəni öpdü və Nisə də ömründə birinci dəfə icazə verdi ki, oğlan onu öpsün və Ağagül heç vaxt inana bilməzdi ki, haçansa bir gün gələcək, bugünkü gün kimi və o, Nisəni xəyal aləmində yox, gecə yuxuda yox, doğrudan-doğruya öpəcək və əlbəttə, Ağagül heç vəchlə ağlına gətirməzdi ki, belə bir məqamda Zübeydə kimi dinsizin-imansızın biri gəlib kəsdirəcək başlarının üstünü.

Nisə vağzal bağıyla gələ-gələ ağlayıb özünü öldürürdü ki, biabır olacağam bütün kənddə, Zübeydə biabır eləyəcək məni, sonra da dedi ki, Ağagül, qurban olum sənə, Ağagül, qoyma biabır eləsin məni Zübeydə, get ona yalvar-yaxar, Ağagül, nə

istəyir ver, Ağagül, qoyma məni biabır eləsin, Ağagül qardaşımın üzünə baxa bilmərəm, heç kimin gözünə görünə bilmərəm. Ağagül də dedi ki, qorxma, qoymaram, amma bunu deməyə nə var ki, demək asandı, amma Zübeydə kimi bir ifritənin ağzını yummaq asan iş deyil. Gördüyünün də üstünə yüzünü qoyub səhər sübhdən bütün kəndə yayacaq, biabır eləyəcək Nisəni bütün aləmdə və Nisə də dərd eləyəcək bunu ürəyində. Allah bilir neyləyəcək Nisə, nə desən eləyər Nisə, lap özünə əl də qaldırar, təki qardaşı Atabalanın yanında rüsvay olmasın, təki kəndin arvadlarının arasında anasının başı aşağı olmasın.

Zübeydə yalvar-yaxar başa düşən deyildi, bunun özünü də səhər bir söz eləyib yayacaqdı aləmə ki, Ağagül gəlib ağlayırdı yanımda ki, qələt eləmişəm.

Zübeydənin, gərək, milisioner Səfər demişkən, maddi marağı olsun.

## IV

Zübeydə miçətkənin altından çıxıb otağa girdi və tərdən tamam yaş olmuş pal-paltarını çıxarıb təzəsini geydi, özü də tez-tez, tələsik geydi ki, şifonerin qapısındakı yekə yumurtavarı güzgüyə gözü sataşdıqca, sallanmış döşlərini və yekə qarnını görməsin, sonra həyətə düşüb quyunun motorunu işə saldı, şlanqı əlinə alıb ağacların dibini, qızılgül kollarını (bu gülləri elə xoşlayırdı ki, dərib aparıb Bakı bazarında at qiymətinə satmırdı, güllər elə-eləcə kolun üstündə solub tökülürdü), evin arxasında əkdiyi pomidor, badımcan, bibər ləklərini, soğanı, vəzərini, kəvəri, şüyüdü sulamağa başladı. Ümumiyyətlə, bu bağ-bağçanı Zübeydə öz əllərilə salıb becərmişdi, təkcə o hasar boyu küknar ağaclarını yazıq Əbdül əkmişdi ki, küləyin qabağını kəssin.

Düzdü, kənddə deyirdilər ki, Zübeydə səkkiz dəfə ərə gedib, amma, əslində, Zübeydə bircə dəfə, yəni rəsmi surətdə bircə dəfə ərə getmişdi, onda da Əbdülə. Əbdül müharibədən əvvəl bu kənddə faytonçu idi, tək adam idi, hamamın yanında bir daxması vardı, orda yaşayırdı (sonralar, müharibədən sonra, Zübeydə bu daxmaya bir balaca əl gəzdirib onu dördqat artıq qiymətə satmışdı) və Əbdül bülbül gülə aşiq olan kimi, Zübeydəyə aşiq olmuşdu. Onun bu aşiqliyi kənd camaatının dilinin əzbəri idi və hamı ona Qeysəbdül deyirdi, ən başlıcası isə Əbdül özü belə bir ləqəbdən incimirdi, əksinə, xeyli feyziyab olurdu və Zübeydə ona məhəl qoymayıb (faytonçu Qeysəbdül hara, iri qara gözləri sürməli, boyu sərv, beli incə, durna yerişli Zübeydə xatın hara!) onu ələ saldığı vaxtlar, yəni müharibədən əvvəl və müharibənin ilk çağlarında o boyda kişi eşqin dərdindən bəzən uşaq kimi ağlayırdı da. Məhəbbətin gücü o yerə gəlib çatmışdı ki, Əbdül yeganə atını satıb Zübeydəyə hədiyyələr almaq istəyirdi, qabirkot «demasezonnı», qabardin yubka, yun jaket və ilaxır bu kimi şeylər, amma at çox qoca idi və gəlib baxanlar bu atdan imtina edirdi. Müştərilər Qeysəbdülün qoca atına o qədər baxmışdılar, dişlərini o qədər yoxlamışdılar ki, yazıq at kim yaxınlaşırdısa, o saat özü dinməz-söyləməz dodaqlarını qaldırıb dişlərini ağardırdı.

At da yazıq, elə Əbdülün özü də yazıq, indi o atın da sümükləri çürüyüb gedib, Əbdülün də; iyirmi ildən artıq idi Əbdülün öldüyü.

Zübeydə müharibənin axırıncı ili Əbdülə ərə getdi; ərə getdi deyəndə ki, Əbdülü gətirdi öz evinə, kəbinini də kəsdirdi, vəssalam. Əbdül də, bir növ, Zübeydənin ev əşyası, həyət-bacanın əmlakı kimi bir şey idi. Zübeydə çox vaxt

Bakıda rəfiqələrinin yanında qalardı, bəzən Tiflisə, Kislovodska, Soçiyə gəzməyə gedərdi, bəzən aylarla, bax, bu həyətə ayaq basmazdı və Qeysəbdül gözətçilik eləyərdi buralarda və Qeysəbdül burasını da çox yaxşı başa düşürdü ki, Zubeydə ona niyə ərə gedib; öz yerini bilən adam idi Qeysəbdül və buna görə də kənd camaatının onunla işi yox idi, dəyib-dolaşmırdılar ona, sataşıb ələ salmırdılar onu.

Əlbəttə, kənd camaatı əvvəlcə Qeysəbdülü məzəmmət elədi, «gör gedib kimi alıb» dedi, «o həyasız şəhərdə kefdə-damaqda, Araz aşığından, Kür topuğundan, bu da, bu başıbatmış da, burada, guya, ərlik eləyir, guya, evin kişisi olub» dedi, cavanların arasında «xoşqeyrət oğlu, xoşqeyrət!» deyib ürəyində onu söyənlər də oldu, amma yavaş-yavaş hamının ona yenə də yazığı gəlməyə başladı və bir müddətdən sonra, elə bil ki, Qeysəbdulün Zübeydəyə heç bir dəxli yoxmuş kimi, kişinin yanında da arvadının dalınca danışırdılar; kimin ağzına nə gəlirdi elə Qeysəbdülün yanındaca Zübeydənin qarasına deyirdi və Qeysəbdül heç cınqırını da çəkib bir kəlmə söz demirdi; ən qəribəsi bu idi ki, Qeysəbdül incimirdi də, elə bil ki, deyilən hədyanların hamısı ilə razı idi, amma di gəl ki, nə fayda, özündən asılı deyildi, bütün kürreyi-ərzi Zübeydənin bir dırnağına da dəyişməzdi. Kəndin arvadları bunu yaxşı bilirdi və belə bir aşiqliyə, belə bir sədaqətə ürəyində paxıllıq eləyənlər də çox idi; belə bir aşiqlik, sədaqət kənd arvadlarının yanında Qeysəbdülün hörmətini qaldırıb qoymuşdu dağ başına. Zübeydə kənddə olmayanda, arvadlar hərdənbir, guya ki, təsadüfən Qeysəbdülün həyətinə gəlirdi, hal-əhval tuturdu onunla, xörək gətirən, təndir çörəyi yollayan da olurdu və hətta iki-üç arvadın adını çəkirdilər ki, guya, bu arvadlar sonradan-sonraya Qeysəbdülə aşiq olublar.

Hə, öz yerini bilən adam idi rəhmətlik Əbdül. Bir dəfə nə üçünsə kənddən Bakıya, Zübeydənin o vaxtkı yaxın rəfiqəsi Rozagilə zəng eləyib Zübeydəni xəbər alırmış ki, hardadı, bir aydan artıqdı xəbər-ətər yoxdu ondan, Roza da soruşub ki, «a kto eyo spraşivayet?», Qeysəbdül də cavab verib ki, «Abdul», Roza bərkdən gülüb və deyib ki, «eşe ne izvestno, kto koqo abdul!».

Sonralar o məclis olmurdu ki, Roza bu telefon söhbətini danışmasın və əhli-məclis də şaqqanaq çəkib gülməsin. Zübeydənin kefi kök olanda özü də gülürdü, qanıqara olanda Rozanın abrını bükürdü ətəyinə, «paxıllığından yanıb-yaxılırsan ki, mənim ərim var, ağzı ətə çatmayan pişik kimi, az qalırsan öləsən, alan yoxdu axı, səni, qalmısan aralıqda!» deyirdi. Roza qızarırdı, bozarırdı, «zarafat eləyirəm də!»– deyirdi.

Əlbəttə, Roza düz deyirdi, Roza zarafat eləyirdi, daha belə zarafatlardan başqa ürəkaçan bir şey yox idi, günlər keçirdi, aylar, illər keçirdi və bu günlər, aylar, illər, elə bil, öz-özünə açırdı sandığı, tökürdü pambığı və bu sandığın içinə baxanda, ancaq belə-belə zarafatlar adamın köməyinə gəlirdi.

Əbdül özü zarafat-zad bilməzdi, rəhmətlik çox duzsuz kişi idi, təkcə bircə dəfə bir duzlu söz demişdi ki, Zübeydə onu heç yadından çıxarmırdı və hər dəfə də yadına salanda öz-özünə gülürdü: bir yol, əllinci illərin əvvəlləri idi, Bakıdan kəndə bir nevropatoloq gəlmişdi, hamamdan bir az aşağıda çörəkçi Fətullagilin evini kirayə edib bütün yayı burda dincəlirdi, Martirosyan idi famili və hamı deyirdi ki, çox yaxşı həkimdi bu Martirosyan. Bağban Ağasadığın dörd ildən bəri başına hava gəlmiş oğlu Ələkbəri iki həftənin içində düz-əməlli adam eləyib qoymuşdu camaatın gözünün qabağına; hə, bir yol Zübeydə də gedib özünü bu həkimə göstərmək istədi,

axır vaxtlar, tez-tez əsəbiləşirdi (elə bil, yavaş-yavaş başa düşmüşdü ki, axırı, bax, beləcədi, Abdulla kişinin bekarçılıqdan düzəltdiyi süpürgələri bazarda satmaqdı!) və Zübeydə evdən çıxanda Əbdülə dedi: «– Bakıdan nervi həkimi gəlib bura, gedirəm onun yanına». Əbdül soruşdu ki, neynirsən onu? Zübeydə dedi ki, necə yəni neynirsən onu? «Gedirəm, – dedi. – Nervimi düzəltsin». Qeysəbdül ağzını açıb: «Ba-a-a!.. – dedi.– Zübeydə, nervisiz sənin nə ləzzətin!»

Yazıq Əbdül, Allah rəhmət eləsin sənə... Zübeydə hərdən əsəbiləşəndə, doğrudan da, turp əkirdi onun başına.

– Zübeydə!..

Zübeydə əlindəki şlanqın ağzını yerə dirəyib bir də qulaq verdi və darvazanın dalından onu bir də səslədilər:

– Zübeydə!

– Kimdi? – Soruşdu Zübeydə. – Kimdi orda?

– Mənəm!

– Sən kimsən? Allahın bacısı oğlusan? Əstəğfürulla... Aduvu de də!..

– Mənəm, Ağagüldü!

Əslində, Zübeydə bu səsin sahibini o saat tanımışdı və elə bil, səhərdən bəri gözləyirdi də bu səsin sahibini, çünki əlində şlanq ağacları, gülləri, evin dalındakı ləkləri sulaya-sulaya arabir hardansa çox dərinlərdən bir hıçqırıq eşidirdi: bu, Nisənin bayaqkı hıçqırtısıydı və bu hıçqırtıda Zübeydənnn ətini ürpəşdirən bir xof, qorxu var idi, bir xoşagəlməzlik var idi.

– Nə var, nolub, balam, gecə vaxtı nöş yaduva düşmüşəm belə? Əsfələssafilin idim bayaq, indi əziz-xələf olmuşam səninçün?

Ağagül nə Zübeydənin bu sözlərinə, nə də ki, bu sözlərdəki eyhama cavab verdi, səsini çıxarmadı, susub dayandı darvazanın dalında və ürəyində də fikirləşdi ki, sözlər çıxır bu arvadın ağzından, heç xoruz səsi eşitməmiş sözlər...

Zübeydə tələsmədən əvvəlcə şlanqı quyunun yanına gətirdi, sonra motoru söndürdü, sonra çarhovuzun krantını açıb əllərini yaxaladı, üz-gözünə su vurub tərini aldı, sonra çarhovuzun yanındakı badam ağacından asılmış təmiz ağ dəsmalla qurulandı və bütün bunlardan sonra, nəhayət, darvazaya yaxınlaşıb Ağagülün nə istədiyini və niyə gəldiyini çox gözəl başa düşə-düşə:

– Nə istəyirsən? – soruşdu. – Nə sözün var mənə, bu gecə vaxtı? – soruşdu və darvazanın bala qapısını açdı.

Ağagül:

– Işim var sənnən, – dedi və bala qapıdan həyətə girdi.

– Nə işin, balam, sən kim, mən kim? Sənnən mənim nə işimiz?

Ağagül darvazanın üstündə yanan və bu saat bütün ətrafında ağcaqanadlar uçuşan iki yüz əllilik elektrik lampasının işığında yenə də bu arvadın buxağı sallanan ətli, girdə sifətinə, xınalı, qırmızı saçlarına, hələ də nəsə sürtdüyü qara gözlərinə baxıb daha burda çox dayanmamaq üçün və bu arvadı da çox görməmək üçün birbaş mətləbə keçdi:

– Mənə bax, Zübeydə, bayaq bizi görməyüvü deməginə heç kimə, mənimçün yox e, Baladadaş canı, mənə nə var, gedirəm, onsuz da, əsgərliyə, Nisəyçün deyirəm, deməginə heç kimə... Özü də... özü də elə-belə döyül mənnən Nisəninki, nöşün ki, evləniciyik biz, mən qeyidib gələnnən sonra, alaciyəm onu....

– Hə?.. – dedi Zübeydə. – Allah xeyir versin, alaceysən Firuzənin qızını, əcəb eliyəceksən, çox mübarək, övlənəcəksüz, oğullu-uşaqlı olasuz, çağırarsuz toyuvuza, gəlib Allah xeyir versin deyərik, çağırmazsuz, nolar, yenə Allah xeyir versin, atam balası, mənə nə? Hə? Mənə nöş atçot verirsən, milisioner Səfərəm ki, ya səninçün mən? Kim kimnən vağzal bağında, əncir ağacının dibində, gecə yarısı neyniyir, mənə nə? Xalxın işinə nöş burnumu soxuram? Söz gəzdirmək mənim sənətim döyül, atam balası, hamı bilir ki, söz gəzdirməklə mənim aram yoxdu... – Zübeydə Ağagülün gözlərinin içinə baxa-baxa bu sözləri dedi, heç gözünü də qırpmadı. – Yeri get yat, atam balası, gecdi, səhər dura bilməzsən.

Təbii ki, Zübeydənin dediyi sözlərin hamısını əksinə başa düşmək lazım idi və Ağagül də bunu başqa cür başa düşə bilməzdi: səhərin gözü açılmamış Zübeydə bütün kəndin arvadlarına ağzına gələni danışacaqdı.

Oğlanın döyüküb iki yüz əllilik lampa işığında ona beləcə yaxından baxması Zübeydəni bu dəfə doğrudan-doğruya hövsələdən çıxardı və Zübeydə əlini uzadıb darvazanın bala qapısından yapışdı ki, Ağagülün dalınca bağlasın:

– Yeri, yeri get yat, atam balası...

Bu vaxt həmin bürkülü Abşeron gecəsində birdən-birə bir toyuq qaqqıldadı və bu toyuq qaqqıltısı sısqa ağcaqanad vızıltısı, elə bil ki, çox-çox uzaqlardan gələn təmkinli dəniz uğultusu yeknəsəqliyində çox da gözlənilməz səsləndi; Zübeydə təəccüblə Ağagülün arxasınca boylandı və oğlanın arxada tutub saxladığı torbanı gördü.

– Bu nədi, adə, belə?

Ağagül:

– Toyuqdu, – dedi, – səninçün gətirmişəm. – Və torbanı Zübeydəyə uzatdı. – Ala.

Zübeydə:

– A-a-a... – dedi və dodağının qıraqlarındakı qızıl dişləri iki yüz əllilik elektrik lampasının işığında işıldadı: bu arvadın müftə mala xüsusi həvəsi vardı və müftə şey hansı əhvalda olursa-olsun, o saat maqnit kimi onu özünə çəkirdi; Zübeydə gözgörəsi dəyişib başqa adam oldu: – A-a-a... Ağagül, nə zəhmət çəkmisən?..

Ağagül əlində tutduğu torbadan canını tez qurtarmaq üçün bir də:

– Ala... götür... – dedi.

– Xəcalət verirsən də...

Zübeydə torbanı Ağagüldən aldı və əlini içəri salıb toyuğu çıxartdı; qırmızı çil toyuq işıq üzü görən kimi, bərkdən qaqqanaq çəkib qanadlarını şappıldada-şappıldada arvadın əlindən buraxılmaq istədi və Zübeydə də çil toyuğu təzədən torbaya basdı:

– Gör nə hay-həşir qoparır, – dedi və soruşdu: – Anovun xəbəri var?

Ağagül bu suala cavab vermədi və Zübeydə də ikinci dəfə bu sualı təkrar eləmədi.

Zübeydə:

– Gəl içəri də, burda nöş dayanmısan? – dedi.

Ağagül:

– Yox, çox sağ ol, – dedi və belə başa düşdü ki, işlər düzəlib daha, amma iki yüz əllilik elektrik lampasının işığında bu arvadın girdə ətli sifətinə, qara gözlərinə baxanda, ürəyində yenə də bir nigarançılıq baş qaldırdı. – Getdim mən...

– A-a-a... hara gedirsən? Dayan bir, işim var sənnən... – Zübeydə bir əlində qırmızı çil toyuq, o biri əlilə də Ağagülün qolundan tutub həyətə tərəf çəkdi və Ağagül də birdən-birə ürəyi döyünə-döyünə, ürkə-ürkə ki, görəsən, Zübeydənin ağlına nə girib, istər-istəməz, onun dalınca addımladı; bu arvaddan nə desəydin, gözləmək olardı və kəndin cavanları bir yerə yığışanda cavan oğlanlardan xoşu gələn qoca arvadlar haqqında o qədər atmaca danışırdılar ki... Amma, elə ki, gəlib quyunun yanına çatdılar, Zibeydə dedi:

– Ağagül, qadası, yorulmuşam yaman, sən də mənim qərdeşim, götür, bu şlanqı evin dalındakı ləkləri sula bir balaca, nolar, göy-göyərti istinin ucbatından yanıb gedir, hayıfdı, Ağagül, götür şlanqı, qadası, götür mən sulaya bilmədim yaxşı... Əşşi, mənim də day hay-hayım gedib, vay-vayım qalıb də...

Zübeydə əvvəllər özü haqda belə sözlər deməzdi.

Ağagül bu bürkülü yay gecəsi daha nə desən gözləyirdi, amma belə bir təklifi gözləmirdi; bir arvada baxdı, bir ilan kimi qıvrılıb yerə düşmüş bilək yoğunluğunda qara şlanqa baxdı, sonra «aerodrom» papağının dimdiyini gözünün üstündən yuxarı itələdi, ürəyində «Baladadaş, qərdeşüvün ölən günləridi!» – deyib şlanqı yerdən qaldırdı, evin dalına tərəf addımladı və Zübeydə də o saat quyunun motorunu işə saldı.

Əlbəttə, hər hansı başqa bir məqam olsaydı, Ağagül tüpürərdi bu həyətə də, bu şlanqa da, elə bu arvadın özünə də, amma indi Nisənin adı vardı ortada; Nisənin ağlamağı, qardaşından qorxmağı, kəndin camaatından xəcaləti Ağagülün ürəyində qubar bağlamışdı bu geçə.

– Yaxşı sula, Ağagül, qadası, ləkləri də tapdalama! – dedi Zübeydə, sonra artırmaya qalxan taxta pilləkənin altındakı və içinə mismardan tutmuş qoyun asmaq üçün qarmağa qədər əlinə keçəni doldurduğu zənbillərdən birindən bir ip dartıb çıxardı, həyətin aşağı başındakı heyva ağacının yanına gəlib qırmızı çil toyuğu torbadan götürdü və toyuğun bir ayağını iplə cavan heyva ağacının nazik gövdəsinə bağladı; qırmızı çil toyuq bu dəfə bərkdən qaqqanaq çəkib çırpınmadı, bir-ikicə dəfə qaqqıldadı, vəssalam, elə bil ki, kimin əlinə düşdüyünü bilirdi və öz acı taleyi ilə barışmışdı.

Ağagül evin dalındakı pomidor, badımcan ləklərini şlanqla sulaya-sulaya hirsindən bütün ləkləri tapdaq-tapdaq eləmək istəyirdi, bu soğan-vəzərini də, bu bibəri, xiyarı da yerlə-yeksan eləmək istəyirdi, amma burasını da yaxşıca başa düşürdü ki, bu gözəl tərəvəzin də, bu gözəl, tərtəmiz göy-göyərtinin də heç bir təqsiri yoxdur ki, dünyada Zübeydə kimi bir ifritə var və Ağagül sidq-ürəkdən qeyzə gəlmişdi ki, bir tərəfdən dünyada Nisə kimi pak, güləndam, ağıllı qızlar var, Nisənin anası Firuzə xala kimi mehriban bağca müəllimələri var ki, uşaqlara can deyib, can eşidir, o biri tərəfdən də dünyada Zübeydə kimi küpəgirən qarılar var, amma, bax, bu ay da, bu ulduzlar da, bu dəniz də lap elə bu göy-göyərti də, bu ağaclar da onlara təfavüt qoymur, həm onlar üçündür, həm də o birilər üçündür, eynidir yaxşılara da, pislərə də.

– Ağagül, qadası, naporu bərkdi suyun, şüyüdü, vəzərini yumşaq sula!..

Zübeydənin bostanı balaca idi, yəni bir ailəlik idi, dörd-beş nəfərdən ibarət bir ailənin süfrəsinə yarayardı və Zübeydə də bütün il boyu öz payını yeyərdi, qalanını da şoraba qoyub qışda Bakının kolxoz bazarına çıxarardı, ən uzağı dördcə günə satıb qurtarardı. Zübeydə çox gözəl şoraba qoyurdu, hətta kəndin arvadları da

bunu təsdiq edirdi, onun sirkə-badımcanlarının, həftəbecərlərinin, sirkə-sarımsaqlarının, sirkəyə qoyulmuş xiyar, pomidor, bibərlərinin, həqiqətən, heç bir əyər-əskiyi olmazdı; hərdən yadına düşəndə və bu işə həvəsi olanda, köhnə, müharibə illəri rəfiqələrinə üç-dörd banka pay göndərirdi, göndərirdi deyəndə ki, yəni, özü aparırdı – Şirinxanım üçün, Nazxanım üçün, Dürdanə üçün...

Bu rəfiqələrin hamısı indi qocalmışdı, kimi tək oğluyla yaşayırdı, kimisinin anası qalırdı hələ, onunla yaşayırdı, Dürdanənin əri varıydı, evlər müdiri işləyirdi və indi çox mehriban yaşayırdılar, adam baxanda ürəyi açılırdı; Roza harasa köçüb getmişdi və Zübeydənin çoxdan idi ondan xəbəri yox idi...

Bu rəfiqələrin kimisi öz qocalığı ilə barışmışdı, kimisi hələ də cavanlıq eşqindəydi və yalan-doğru deyirdilər ki, Şirinxanımın – yaşda Zübeydədən də böyük idi – hələ də Salamon adlı bir kamançaçalan sevgilisi var, babalı deyənlərin boynuna...

Əlbəttə, belə bir cavanlıq üç qəpiyə dəyməzdi, çox ağlamalı-gülməli idi və Zübeydə belə fikirləşirdi ki, getdi o vur-çatlasın, çal-oynasın günləri, getdi və bir də heç qayıtmaz geri; yaxşı olar qayıtmaz, pis olar qayıtmaz – bunu deyə bilməzdi, çünki hər halda, yaxşısı çox idi o günlərin, doyunca kef elədilər bu dünyada, beşgünlük dünyada, Isgəndərə qalmayan dünyada, çaldılar, oynadılar, güldülər, camaat bir tikə qara çörək tapmayanda, onlar Kislovodskdan vurub Soçidən çıxdılar, onları sevənlər var idi, onların dərdindən ölənlər var idi, onlardan ötrü gecənin-gündüzün hansı vaxtı desən, arvad-uşaqlarını həmişəlik atmağa hazır olanlar var idi, bir can alan baxışdan ötrü vəzifədən qovulmağa razı olanlar var idi, amma Zübeydəgil azadlığı, sərbəstliyi sevirdilər və doğrudan da, azad və sərbəst idilər: amma pisi də vardı o günlərin və bu pis, elə bil, siçan yuvası görmüş pişik kimi illərdən bəri pusquda durubmuş, yavaş-yavaş baş qaldırırdı, indi adama təsir eləyirdi, indi adamın ağlına gəlirdi, bəzən adamın lap atasını da yandırırdı... Nə isə...

– Ağagül!... Qurtarmadın oranı, qadası? Çox sucuq eləməginə! – Zübeydə quyunun motorunu söndürdü və sinəsini, qollarını şappıldadıb ağcaqanadları qova-qova:– Gəl day, ora bəsdi, – dedi. – Gəl, gəl, bir balaca o hasarın yanındakı ağacları da sulaginə, bəsdi day... Şlanq ağırdı, qadası, apara bilmirəm ora...

Ağagül heç bir söz demədi, yəni, bərkdən heç bir söz demədi, ürəyində nə deyirdi, özü bilirdi, şlanqı darta-darta hasar boyu Qeysəbdülün əkdiyi küknarların yanına getdi və Zübeydə təzədən motorun düyməsini basıb işə saldı.

Əbdül yaxşı kişiydi, yazıq kifiriydi, amma yaxşı adamıydı, kəndin uşağından tutmuş böyüyünəcən kim desəydi ona ki, ağzındakı dilin lazımdı mənə, çıxarıb verərdi. Gör bu küknarlar necə böyüyüb, gör necə ildi, Allah, ölüb Əbdül... O öləndə Ağabacının bu oğlu heç anadan olmamışdı yəqin, amma indi vağzal bağında qızla öpüşür, özü də vələdüznanın cövhəridi, görmürsən anasından xəlvət bu qırmızı çil toyuğu necə götürüb gətirib bura?

Əlində şlanq yavaş-yavaş hasar boyu addımlayan Ağagül isə indi onun hayındaydı ki, görəsən, bu küknar ağaclarının dibini sulayandan sonra nə etməlidi? Şlanqdan axan su iki yüz əllilik elektrik lampasının işığında küknarın dibində köpükləndikcə, Ağagül fikirləşirdi ki, birdən sabahdan Nisə daha onunla görüşməz, bu ifritə arvadın ucbatından əsgərlikqabağı ürəyi düşər partlamaya və bu dəm Zübeydə də bu göy şalvarlı, nazik sarı köynəkli, «aerodrom», bukle papaqlı oğlana baxıb, fikirləşirdi ki, Firuzənin, özü də ağıllı Firuzənin göyçək qızı Nisə bu

uzundraz, arıq, üzünə hələ əməlli-başlı tük çıxmamış, seyrək bığlı bu axmaqda nə görüb? Oğlan gərək yaraşıqlı olsun, oğlan gərək güclü olsun, oğlan gərək kişi olsun və kişinin də gərək cibi dolu olsun və həmin kişi də gərək qızı elə öpsün ki, bunü heç kim görməsin; amma birdən-birə Zübeydə burasını da fikirləşdi ki, əvvəla, pul əl çirkidi, ikincisi də heç kim heç nə görməz, amma Zübeydə görər.

Kəndin arvadları deyirdi ki, Zübeydə bilməyən şeyə qurd düşər. Yəqin belədi ki, belə deyirlər də... Amma niyə belədi? Bax, bax, bax, bu da birinci dəfəydi ki, Zübeydə kəndin arvadlarının onun haqqında dediyi sözləri top-tüfəngə tutmurdu, təsdiq eləyirdi, lap quzu kimi təsdiq eləyirdi və yanıb-yaxılırdı da ki, axı, niyə belədi?

Qocalıqdandı hamısı, vallah-billah qocalıqdandı. Cavanlığında heç vecinə də almırdı belə söz-söhbətləri, axı, o kimiydi cavanlığında, kəndin bu qarğa-qurğa arvadları kimiydi?

Hanı indi o gözəllik, o mərmər sinə, o incə bel ki, iynə deşiyindən keçərdi, o büllur budlar ki, hər biri bir mitəkkəyə oxşayırdı?

Onda, o zamanlar Zübeydə nə idi, camaatın işinə qarışdı nə idi? Plov yemirdi ki, qönçə dodaqları yağa batar...

Yavaş-yavaş getdi o günlər..

Yavaş-yavaş xırda bazar alverçisinə döndü.

Hərə bir tərəfə dağıldı, təkcə Şirinxanım fərli çıxdı, qırx yaşında instituta girdi, oxuyub həkim oldu.

– Qurtardı?

– Nə deyirsən?

– Deyirəm ki, qurtardı, yoxsa hələm genə lazımam? – Ağagül əlində şlanq axırıncı küknarın dibini sulayıb qurtarmışdı.

Zübeydə:

– Ay çox sağ ol, Ağagül, qadası! – dedi və quyunun motorunu söndürdü.

Ağagül şlanqı yığa-yığa gətirib quyunun yanında yerə atdı və əliylə üz-gözünün, alnının tərini silib birbaşa çıxıb getməyə ürək eləmədi, soruşdu:

– Gedim mən?

– Hə? – Zübeydə o tərəf-bu tərəfə baxdı, həyətin ortasındakı meynə talvarının üstündən sallanmış və ay işığında hamısı eyni rəngdə qaralan üzüm salxımlarını görüb: – Ancaq bu salxımlar qalıb, Ağagül, qadası, sovxa o qədər hündürdü ki, qorxuram yıxılım dərəndə... – Və bu vaxt dünyanın ən qəribə işlərindən biri baş verdi – Zübeydənin qabağında dayanıb üz-gözündən damcı-damcı tər süzülən bu cavan oğlana birdən-birə yazığı gəldi. – Yaxşı, lazım döyül, – dedi, – bala, get, get evinizə, xoş gəldin, yeri get...

Ən qəribəsi isə bu oldu ki, Ağagül hündür talvardan sallanan üzüm salxımlarına baxdı, qabağında dayanıb lırtlaşmış qolunda, qırışmış sinəsində şappıltıyla ağcaqanad öldürən və bütün bu həyətdə, bu ağacların arasında, bu ulduzların altında tamam tək-tənha olan bu arvada onun da birdən-birə yazığı gəldi və Ağagül özü də buna təəccüb elədi, təəccüb elədi ki, Zübeydə kimi bir zalıma, dinsizin-imansızın birinə yazığı gəlir.

– Əybi yox, nərdivanı ver, yığım səninçün...

– A-a-a... – Bu dəfə də Zübeydə təəccübləndi və nədənsə, Ağagülün bu həvəsi onun xoşuna gəlmədi. – Yeri get, atam balası, qorxma, heç kimə heç nə deməröm, xoş gəldün, lazım döyül.

Həmin bürkülü yay gecəsi dayanıb ay işığında bu uzun, arıq oğlana baxan Zübeydə birdən-birə, az qala, mehriban bir məxluqa döndü; Ağagülə elə gəldi ki, əslində dünyada iki Zübeydə var, biri küpəgirən qarıdı, o birisi yazığın biridi; bu yazıqlıq birdən-birə görünür, sonra yox olub gedir, elə bil ki, bir xeyli gözləyirsən, su durulur, dibindəki qumu görürsən, sonra yenə kimsə daş atır, su bulanır, dibi görünmür.

Əlbəttə, Zübeydənin bu dəm belə bir fəlsəfədən xəbəri yox idi və oğlanın da yenə döyüküb qalmasını nigarançılığa, qorxaqlığa yozdu.

– Demərəm də, – dedi. – Heç kimə demərəm. Yeri get. Xoş gəldün.

Ağagül evin yan divarına söykənmiş nərdivanın dalınca getdiyi üçün bu axırıncı sözləri əməlli-başlı eşitmədi, nərdivanı gətirib talvara söykədi və Zübeydə də daha bir söz deməyib artırmadakı böyük emallı ləyəni əlinə aldı və gəlib durdu talvarın altında, nərdivanın yanında.

Ağagül salxımları bir-bir dərib Zübeydənin yuxarı qaldırıb tutduğu ləyənə düzə-düzə:

– Sərçə dimdikləyib salxımları, – dedi.

– Nolar?.. – dedi Zübeydə. – Sərçə də Allahın heyvanıdı də...

Ağagül bu arvaddan sərçələrə qarşı belə bir səxavət və xeyirxahlıq gözləmirdi və talvardan sallanmış salxımlardan toz-torpaq düşmüş gözlərini əli ilə ovuşdura-ovuşdura yuxarıdan-aşağı Zübeydəyə baxdı, Zübeydə ləyəni qaldırıb başının üstündə tutmuşdu və bu dəm onun duruşu, görkəmi Bakının köhnə bağlarındakı çarhovuzların ortalarında dayanan, köhnəlib və əldən düşmüş, pasmandaya dönmüş əcaib heykəllərin duruşuna, görkəminə oxşayırdı. Ağagül fikirləşdi ki, onların kəndindəki bu Zübeydədən bir dənədi.

– Nə vaxt gedirsən əsgərliyə, Ağagül?

– Sentyabrda gedirəm.

– Baladadaş məktub yazır?

– Hə... Salam-duası var...

– Salam göndərən sağ olsun... Allah canını sağ eləsin, sağ-salamat qayıdıb gəlsin. Uzaqdadı yazıq. Sən Bakının özünə düşsən yaxşı olar, gedib-gələrsən kəndə.

– Pribaltikaya gedirəm.

– Yox a-a-a? Əntiqə yerdi oralar! Riqaya düşsən lap əntiqə olar. Oraları gəzəndə, Ağagül, yad eləyərsən məni... Abşeron kimi bir yerdi ora, dəniz qırağında, kurortdu özü də başdan-ayağa...

Ağagül fikirləşdi ki, pah atonnan, bu arvadın tanımadığı, gəzmədiyi yer yoxdu dünyada.

Iki il bundan əvvəl qışda, o tərəflərin qışının lap oğlan çağında pansionata getmişdi Zübeydə, Yurmalanın Mayori deyilən bir yerinə. Şirinxanım düzəltmişdi putyovkanı onunçun. Əvvəlcə başına girmişdi ki, sanatoriyaya getsin, amma heç harda işləmirdi və Şirinxanım da ha əlləşdi, bir şey çıxarda bilmədi, sanatoriya düzəlmədi, Şirinxanım «yanan» putyovkalardan birini əldə edib Zübeydəni pansionata göndərdi. Yurmalanın Mayori deyilən yerinə və kəndin arvadları mat-məəttəl qalmışdı ki, gör hara gedir Zübeydə, paxıllıqdan yanıb-yaxılanlar da var idi

(Quyuqazan Həsənqulunun arvadı kürən Anaxanım başını bulaya-bulaya deyinirdi: «Səhərdən axşamacan sovxozda işləyən mən, istirahətə gedən Zübeydə ciyəriyanmış!»), amma o tərəflərin qışı doğrudan-doğruya çox gözəl idi, pansionat da çox təmiz, səliqəli idi və ən başlıcası da bu idi ki, heç kim onu tanımırdı, bilmirdi, cavanlar üçün «tyotya Zubeyda» idi, yaşlılarla həmsöhbət idi, bir Izabella Xaymovna vardı orda, mehriban arvadıydı çox, yaşı yetmişi keçmişdi, amma pudra-boyasından qalmırdı heç, pansionatdan sonra üç-dörd dəfə məktub yazdı Zübeydəyə, amma Zübeydə cavab göndərmədi, bircə dəfə şəkərburayla paxlava bişirib yolladı onunçun Odessaya, amma Izabella Xaymovna elə indiyə kimi hər bayramda bir «otkrıtka» göndərirdi.

Zübeydə Mayoridə pansionatda qalanda Izabella Xaymovnaya demişdi ki, bura putyovkanı mənimçün oğlum alıb, yollayıb məni bura ki, bir az işdən-gücdən istirahət edim, nəvələrin səs-küyündən...

– Düş, ay Ağagül, bala, düş aşağı. Day yoruldum mən, gücüm çatmır, saxlaya bilmirəm ləyəni day...

Zübeydə içi üzüm dolu ləyəni yerə qoydu və Ağagül də nərdivandan düşüb əliylə meynənin toz-torpağına bulaşmış sir-sifətinin tərini sildi, nərdivanı aparıb yerinə qoydu, «aerodrom» papağını çıxarıb bir-iki dəfə çırpdı, təzədən başına qoydu və:

– Mən getdim, – dedi.

Zübeydə ləyəni aparıb artırmanın sement döşəməsinə qoydu, sol əlini belinə basdı və belini düzəldib:

– Çox sağ ol, qadası, – dedi. – Get, xoş gəldin, – dedi və birdən-birə istədi ki, həyətin aşağı başındakı cavan heyva ağacına bağlanmış qırmızı çil toyuğu da qaytarsın Ağagülə, amma tez də bu fikrindən vaz keçdi: bu fikir necə birdən-birə gəlmişdisə başına, elə-eləcə də birdən-birə yox olub, getdi. – Toyunda əvəzini çıxarıq, – dedi. – Allah qoysa... Ilahamin.

Ağagül istədi ki, Zübeydəyə bir də tapşırsın ki, vağzal bağında Nisəylə öpüşmələrini kəndin camaatına yaymasın, amma daha bir söz demədi, darvazadan çıxıb bala qapını da ardınca örtdü.

Yavaş-yavaş, lap yavaş-yavaş dənizdən meh əsməyə başlamışdı və külafirəngidə bu yel daha artıq hiss olunurdu, burada ağcaqanad da nisbətən az idi. Zübeydə üzümün doşablığını ayırdı, yeməliyini ayırdı, sirkəliyini ləyəndən arıtdayıb balonlara doldurdu, ləyəni quyunun suyunda yaxaladı və sudan bir parç da götürüb içdi, sonra gəlib külafirəngiyə qalxdı, yerdən saldığı palazın üstündə oturdu. Yemək istəmirdi, isti onun iştahını kəsmişdi, elə günorta yediyinin üstündə idi, televizora da baxmaq istəmirdi, həvəsi yox idi, elə-beləcə külafirəngidə oturub dənizə tamaşa etdi.

Ay dənizə payəndaz salmışdı və bu saat bu payəndaz lap xırdaca-xırdaca tərpənirdi, bu payəndazın üzündə şövq vuran ay işığı lap xırdaca-xırdaca titrəyirdi; dəniz belə sakit olanda axır vaxtlar Zübeydəyə pis təsir edirdi, belə bir səssizlik, sükunət axır vaxtlar bu arvadı sıxırdı, ürəyini qısırdı, əslində elə cavanlıqdan belə idi, intəhası cavanlıqda bunun fərqinə varmırdı, amma indi özündən asılı deyildi; Allah hərəni bir cür yaradıb, onu da belə yaratmışdı. Dənizin uğultusu gələndə, dalğalar özünü qayalara çırpanda, adama elə gəlirdi ki, tək deyil, elə bil ki, bütün bu ətraf da yaşayır, nəfəs alır sənlə birgə.

Indi dənizin üzü tərtəmiz idi, ay işığında bircə köpük də ağarmırdı və bu təmizlik, bu sakit, sükunətli təmizlik Zübeydənin ürəyində bu dəm hansı bir incə, kövrək simisə tərpədirdi, amma bunun nə olduğunu, hansı xatirə olduğunu Zübeydə yadına sala bilmirdi; bu, vur-çatlasın, çal-oynasın xatirələrindən deyildi, nəsə başqa bir şey idi.

Birdən, elə bil ki, quyunun dibindən gəlib çıxan dəniz uğultusunun, arabir Zübeydənin qulağının dibindən ötən ağcaqanad vızıltısının, külafirənginin qabağındakı xartut yarpaqlarının lap həlim-həlim, lap güclə eşidiləcək xışıltısının həmin yay gecəsindəki yeknəsəqliyini yenə toyuq qaqqıltısı pozdu, qırmızı çil toyuq, bir-iki dəfə qaqqıldadı, elə bil ki, bu böyük dünyada toyuqların payına düşən insafsızlığın qarasına deyindi və Zübeydə də ayağa qalxıb külafirəngidən düşdü, artırmadakı girdə mizin üstündəki mis qazanın qapağını qaldırdı, qurumasın deyə, hər gün xüsusi parçaya büküb saxladığı təndir çörəyindən iki fal qoparıb götürdü və heyva ağacının yanına gəlib çörəyi didə-didə qırmızı çil toyuğun qabağına səpdi.

Qırmızı çil toyuq dimdiyini torpağa dirəyib bir müddət çox müdrik bir biganəliklə qabağına düşən çörək qırıntılarına baxdı, sonra üzünü yana çevirdi və Zübeydə də:

– Ba-a-a... Qudurasan qurbağa!.. – dedi. – Yaxşı deyiblər ki, mal yiyəsinə oxşamasa, haramdı...

Məsələ burasında idi ki, Ağagülün anası Ağabacı, yəni, bu təkəbbürlü qırmızı çil toyuğun bu gecəyə qədərki sahibi kənddə Zübeydəni istəməyənlərdən ən birincilərindən idi. Nuh-Nəbidən bu günə kimi, Zübeydənin hər bir hərəkətini, hər bir söz-söhbətini, yerişini-duruşunu, tanışını-bilişini, geyimini-kecimini amansız tənqid atəşinə tutanların birincilərindən biri idi və Zübeydənin də bu arvaddan zəhləsi gedirdi, amma bir iş vardı ki, həmin acıdil, vecsiz, adamayovuşmaz Ağabacının, qara pıspısaya oxşayan Ağabacının indi Ağagül boyda bir oğlu vardı, özü də kiçiyiydi Ağagül hələ, ondan böyük bir oğlu əsgərlikdə idi. Ağagüldən kiçik bir oğlu da var idi – Nuhbala və altı da qızı var idi, nə isə...

Zübeydənin də indi qızları ərə gedə bilərdi və Zübeydənin də belə bir oğlu ola bilərdi, o oğlan da gedib vağzal bağında gözəl bir qızla öpüşə bilərdi, əsgərlikdən evə məktub göndərərdi, Zübeydə də elçi gedə bilərdi, gəlin gətirə bilərdi... Yaxşı, yaxşı, sən o uzundraz Ağagülün canı, başlama özündən hoqqa çıxarmağa, başlama fikir dəryasına düşüb dərd əlindən üzməyə, yeri get yat, Ağabacı indi dördüncü yuxusunu alır yəqin, heç fikirləşmir də ki, dünyada Zübeydə adında bir məxluq var... Elədir ki, var, düzdü, qocalıqdandı bu fikir-zikir hamısı, qocalıqdandı ki, var.

## V

Ağagül həyətin ortasındakı talvarın üstündə uzanıb ağcaqanadın əlindən soruğu başına çəkmişdi və bu gecəyarısı yuxuya gedə bilmirdi, soruğun altında gözlərini yumub fikirləşirdi ki, nahaq qırmızı çil toyuğu aparıb Zübeydəyə verdi, onsuz da, Zübeydə toyuğu yeyib üstündən də yaxşıca sərin su içəndən sonra, gördüyünün üstünə yüzünü də qoyub kəndin arvadlarına danışacaqdı; Zübeydə olmazdı o, kölgəsi olardı ki, söz saxlasın ürəyində; elə indinin özündə yatmayıbsa, quyunun yanında oturub «Isgəndərin buynuzu var, buynuzu!..» deyir... Özünü saxlaya bilməz bu arvad, ifritənin biridi.

Zübeydənin o bir anlıq yazıq görkəmi indi çıxıb getmişdi işinin dalınca və bu saat Ağagülün gözlərinin qabağına, doğrudan da, bir ifritənin surəti gəlirdi; bu ifritə, doğrudan da, Zübeydə idi, amma saçları pırpızaqlıydı, dodaqları sallanırdı, dırnaqları qırmızı çil toyuğun dırnağına oxşayırdı.

Hayıf o toyuqdan.

Məsələ, əlbəttə, təkcə toyuqda deyildi; toyuqları çox idi və bir qırmızı çil toyuğun azlığı ilə kasıb düşməyəcəkdilər; uzaqbaşı, Ağagül anasına deyəcəkdi ki, toyuğu Bakıdakı yoldaşlarından birigilə pay aparıb; məsələ onda da deyildi ki, Ağagül yalan danışacaqdı və yalan danışmaq yaxşı iş deyildi, kişiyə yaraşmazdı – bir yalan ki, Nisə kimi bir qızın təmiz adını təmiz də saxlamaq üçün idi, o yalanın eybi yox idi; məsələ onda idi ki, toyuq da gedəcəkdi, Nisə də bədnam olacaqdı kənd içində...

## VI

Zübeydə uzun gecə köynəyini geyib artırmadakı miçətkənin içində uzanmışdı və fikirləşirdi ki, bütün bu gözəl Abşeronun bircə ayıbı vardısa, o da ağcaqanad idi, özü də ağcaqanad burda, bu kənddə belə fironluq eləyirdi, amma bir az yuxarıda, Bilgəhdə, ya o tərəfdə, Nardaranda biri də yox idi.

Indi neynəyək, duraq köçək Bilgəhə, ya Nardarana? Yat, atalar deyib ki, hər gözəlin bir eybi var... Bəs, bir gözəlin yüz eybi olanda necə olsun? Əşşi, çor olsun, zəhrimar olsun, yat, vəssalam... Niyə yata bilmirdi, balam? Nə idi axı, bayaqdan yadına sala bilmədiyi, nə idi o? Bu, başqa bir xatirə idi, işıqlı idi, işığı lap zəif də olsa, o uzaq illərdən süzülüb gəlirdi, təmiz idi, özü də elə bil ki, bir az Ağagüllə Nisənin vağzal bağında öpüşməyinə oxşayırdı, nə idi o? Bu xatirədə şampan tıxacının partlaması yox idi, ətir iyi, pudra iyi yox idi, ləzzətli yeməklər, aşiq sağlıqları, vurğun baxışlar yox idi. Çox sadə idi, dama-dama məktəbli dəftərinə oxşayırdı...

Miçətkənin içinə, deyəsən, bir ağcaqanad girmişdi və Zübeydə yenə ağcaqanadların qarasına deyinə-deyinə qalxıb artırmanın işığını yandırmaq istədi, amma miçətkənin içinə girmiş ağcaqanadın vızıltısı həyətin aşağı başında indi yəqin mürgü döyən qırmızı çil toyuğu təzədən arvadın yadına saldı və Zübeydə birdən-birə fikirləşdi ki, Ağabacı səhər durub görəndə ki, qırmızı çil toyuq hində yoxdu, necə olacaq və səhər-səhər də biri gəlib bu qırmızı çil toyuğu onun həyətində görəndə nə olacaqdı?

O toyuğu elə indicə durub kəsib, yolub, təmizləyib, yaxşıca ütüb qoymaq lazımdı evə, onsuz da, nə olmuşdusa ona bu gecə, yata bilmirdi, elə bil bütün dünyanın dərdi-səri bu gecə Zübeydəyə qalmışdı.

Zübeydə ayağa qalxıb miçətkəndən çıxdı, otağa girib dolabdan iti bir bıçaq götürdü, elə gecə köynəyindəcə həyətə düşdü və yavaş-yavaş ürəyində baş qaldıran bir nigarançılıqla qırmızı çil toyuğa tərəf getdi.

Qırmızı çil toyuq hənirti eşidib gözlərini açdı, birdən-birə bu gecə vaxtı ağ köynəkdə peyda olan təzə sahibinə baxdı, bir balaca yerində qurcalanıb təzədən gözlərini yumdu.

Zübeydə ürəyindəki daha artıq bir narahatlıqla gah əlindəki bıçağa, bıçağın ay işığında işıldayan iti tiyəsinə baxdı, gah o biri dəqiqəsindən xəbəri olmayan qırmızı

çil toyuğa baxdı və fikirləşdi ki, yəni, doğrudan da, bu toyuğu özü kəsəcək? Başını Qibləyə tərəf uzadıb qanadlarını bir ayağının altına, ayaqlarını da o biri ayaqlarının altına alıb, dilini ağzından çıxarıb bıçaqla başını üzəcək? Arvad işidi bəyəm bu, a imansız? Arvad da toyuq kəsər? Camaat yatıb, bütün kənd şirin yuxudadı indi, bu nə gündü sən düşmüsən, bu nə qara gündü belə?

Əlbəttə, Zübeydə ömründə toyuq kəsməmişdi, kişi işiydi bu, lap əvvəldən, dədə-babadan belə olmuşdu. Indi bəs neyləsin, hansı kişi köpək oğluna gedib desin ki, Ağabacının oğlu Ağagül mənə pay gətirib, guya ki, pay gətirib, bunun zəhmətini çək, kəs mənimçün? Gərək gədəni bayaq qoymayaydım getsin, kəsdirəydim bu toyuğu, lap yoldurub ütdürəydim də ona. Yaman şeysən... Bunu Zübeydə özü özünə dedi: «Yaman şeysən...»

Kənd isə, doğrudan da, yatmışdı, təkcə küçə şalbanlarındakı elektrik lampaları yanırdı və bir də dənizdəki o tənha mayak yanıb-sönürdü. Həmin yay gecəsinin bürküsü, elə bil, bu mayakın da işığını soldurmuşdu, yanıb-sönməsini, canlılığını ölgünləşdirmişdi və bu saat, elə bil ki, bu mayak da ömrün tənhalığından, adamın təkliyindən söhbət açırdı və Zübeydə üçün lap beş barmağı kimi aydın oldu ki, bu qırmızı çil toyuğu kəsə bilməyəcək və ən başlıcası isə, birdən-birə yaman pərt oldu Zübeydə, təkcə gecə köynəyində, bu ayın, bu ulduzların altında, bu ağacların arasında, bu dənizin qabağında əlində bıçaq tutub qırmızı çil toyuqla üzbəsurət dayanmağına pərt oldu Zibeydə.

Toyuğun işi asan idi, toyuğu bir yeşiyə salıb evə qoya bilərdi, sabahda, birigündə onu kəsdirməyin çarəsini tapardı, bircə ölümə çarə yoxdu, amma məsələ burasındaydı ki, Zübeydənin gecəyarısı əlində bıçaq beləcə dayanması səhərdən bəri yadına salmaq istədiyi, amma yadına sala bilmədiyi o xatirənin əhvali-ruhiyyəsi ilə, o xatirənin ürəyindən keçən sorağı ilə heç cürə uyuşmurdu – burasını Zübeydə lap dəqiq bilirdi və bu zaman çox qəribə oldu, birdən-birə, bircə anın içində həmin xatirə Zübeydənin yadına düşdü, həmin cavan oğlanın sifəti də əvvəlcə tutqun, sonra tamam dumandan çıxıb lap aydınca gəldi durdu gözlərinin qabağında. Bu xatirə illərdən bəri kirəc bağlamışdı, illərdən bəri yada düşməmişdi.

Zübeydə əyilib əlindən yerə düşmüş bıçağı götürdü və süst addımlarla evə getdi, artırmanın işığını yandırdı, stolun üstündə oturub əllərini dizlərinin üstünə qoydu, elə bil, birdən-birə o uzaq illərin bütün hay-küyü, qayğısızlığı, sərbəstliyi arasındakı bir təmizlik, bir paklıq, bir şəffaflıq üzə çıxdı, bir cəsurluq, bir igidlik, kişilik üzə çıxdı, indiyə qədər hardasa ört-basdır olub, on illərlə xatırlanmayan bir təbəssümün, özü də sərt bir təbəssümün ılıqlığı indi gəlib Zübeydəyə yetişdi.

Hardaydı o məktublar? Harda saxlamışdı onları?

Iki dənə idi, iki dənə, ikisini də Bakıdakı mərkəzi poçtdan götürmüşdü, «Do vostrebovaniya» idi, iki dənə üçkünc əsgər məktubu, Zakirin məktubları... Və Zübeydənin yadına düşdü ki, o iki məktubdan birini, çox təsirlisini, çox ağıllısını elə müharibə vaxtı Dürdanə ondan götürmüşdü, yadigar saxladı özündə, «Belə məktubu da cavabsız qoyarlar, az?» – dedi. «– Dəyişmərəm, – dedi, – yüz Qızıldiş Adil kimilərini beləsinin bir dırnağına». Belə demişdi Dürdanə və Dürdanə elə o vaxtlar yavaş-yavaş ağıllanmağa başlamışdı. Belə demişdi Dürdanə və o ikinci məktubu, o gözəl sözlər yazılmış təsirli məktubu götürmüşdü özü üçün yadigar, görəsən saxlayır indi? Amma ikinci məktub dursun gərək.

Zübeydə ayağa qalxıb otağa girdi, işığı yandırıb, azı, əlli-altmış yaşlı, amma yaxşı qalmış, qoz ağacından düzəldilmiş və vaxtilə yəqin ki, evlər yaraşığı olmuş hündür, enli və ağır dolabın (bu dolabı hələ müharibə vaxtı Qızıldiş Adil hansı bir əsgər ailəsindənsə çox ucuz qiymətə Zübeydə üçün hədiyyə almışdı və Zübeydə də bu dolabı gətirib qoymuşdu kənddəki bu evinə) lap alt gözünün açarını ayağının altına kətil qoyub lap yuxarı gözdən tapdı, aşağı düşüb alt gözü açdı və yeşiyi irəli çəkib köhnə şəkillər, cürbəcür köhnə «otkrıtka»lar (ürəkşəkilli güzgünün içində bir qızla bir oğlan fotoobyektivə baxıb gülürdü; ürəyin hər tərəfinə güllər düzülmüşdü, güzgünün ətrafındakı güllər də, qızın paltarı və dodaqları da qırmızı boyayla boyanmışdı, aşağı tərəfdə bir bülbül dimdiyində çələng tutmuşdu və çələngdə bu sözlər yazılmışdı:

Lyublyu vas i vı poverte
Koqda mne serdse qovorit.
Lyubit budu do samoy smerti
Poka oqon v qrudi qorit.

Bu sözlərdən sonra yenə kiçik bir ürək və kamanda tarım dartılmış bir ox şəkli çəkilmişdi), kino artistlərinin, cavan Rəşid Behbudovun cürbəcür şəkilləri bükülmüş və uzun illərdən bəri açılmayan bağlamanı açdı.

Bu bağlamadan, sapsarı saralmış köhnə qəzetə bükülü bağlamadan bir çürüntü iyi gəlirdi və bütün qışı qarın altında qalıb yaza çıxmış, təzədən yarpaq açan, çiçəkləyən ağacların dibindəki xəzəl, nədənsə, Zübeydənin yadına düşdü və birdən-birə onun ağzına da bir cür təm gəldi, elə bil, çürük meyvə yeyirdi.

Bu çürüntü iyi, bu təm arvadı lap kövrəltdi və ümumiyyətlə, çox az-az kövrələn Zübeydənin gözləri doldu.

Üçkünc əsgər məktubu burada idi, bu bağlamanın içində, Zakirin məktubu.

Zübeydə məktubu götürüb açdı və illərdən bəri saralıb-solmuş, tələsik yazılmış o qısa məktubu oxumağa başladı; birnəfəsə oxudu, elə bil, illərin acı idi, çörək tapmışdı birdən-birə, təpişdirirdi gözünə.

«Zübeydə!

Bu məktubu sənə ön cəbhədən yazıram. Atışma kəsib indi, bir azdan yenə başlayacaq. Düzünü deyim ki, yazmaq istəmirdim sənə bu məktubu, amma yarım saat bundan qabaq güllə yağış kimi üstümüzə yağanda, bildim ki, gərək yazam sənə bu məktubu. Adam bu güllə yağışının altında olanda hər şeyi yaddan çıxarır, bütün pisliklər yaddan çıxır, ancaq yaxşısı yadda qalır. Sən məni istəyə də bilərsən, istəməyə də bilərsən, ancaq özünü istə. Mən müəllim deyiləm, sən də şagird deyilsən. Nəsihət eləməyəcəyəm sənə, ancaq o evə gedib-gəlmə. Işə gir. Özünü hayıf eləmə. Sən də bir kişinin qızısan. Həmin kişinin papağını yerə soxma. Yenə başladı atışma. Xudahafiz. Sağ qalsam, yenə yazaram sənə. Sən də bir söz yaz.

Zakir. 12 yanvar 1942-ci il.»

Zakir birini də yazmışdı məktubun, ikisini bir yerdə almışdı Zübeydə; cavab yazmadı Zakirə və bir də gedib mərkəzi poçta dəymədi ki, görsün təzə məktub var ona, yoxsa yox? Bəlkə çox məktub yazmışdı Zakir və bu məktublar da Zübeydəni gözləyib, gözləyib axırda qayıtmışdı Zakirin özünə? Bəlkə heç çatmamışdı Zakirə. Qırx üçdə ölüm xəbəri gəlmişdi Zakirin... Yox, deyəsən, qırx dörd idi... Nə isə...

Görəsən yenə məktub yazmışdı Zakir? Niyə yazaydı axı, niyə yazaydı, ona görə ki, həmin yaz günü aldatmışdı Zakiri ki, gələcəyəm görüşünə, getməmişdi? Ona görə ki, Zakir gecə-gündüz çəkmə fabrikində işləyib, bacılarıyçün çörəkpulu qazanırdı, Zübeydə də Qızıldiş Adil kimilərinin haram puluna qarnıtox, damağı da ki, çağ, kef eləyirdi? Ona görə ki, o uzaq yaz axşamı Zakir Zübeydə ilə Qızıldiş Adilin qabağına çıxıb ona hücum eləmək istəyən Qızıldişi bir yumruq ilə yerə uzadanda, Zübeydə «Ay aman!..» eləyib Qızıldişin üstünə cummuşdu. Qızıldişi yerdən qaldırmışdı. Qızıldişlə birgə getmişdi?

«Zübeydə! («Ay can!...»)

Bu məktubu sənə ön cəbhədən yazıram. («Yazan barmaqlarına qurban olum sənin!..») Atışma kəsib indi («O atışma gətirənin ciyəri yansın, necə ki, yandı da, qara yerə girəydi o, necə ki, girdi də...»), bir azdan yenə başlayacaq. Düzünü deyim ki, yazmaq istəmirdim sənə bu məktubu («Əcəb eləyirdin, lap əlinin içindən gəlirdi, yazmayaydın heç gərək... Niyə yazırdın mənim kimi ləçərə? Mən taydım sənə? Sən təmizin, gözəlin, kişinin biriydin, mən vələdüznanın cövhəri, özü də çirkab içində, xirtdəyə kimi... yazmayaydın gərək...»), amma yarım saat bundan qabaq güllə yağış kimi üstümüzə yağanda («O güllə gərək mənim başıma yağaydı...») bildim ki, gərək yazam sənə bu məktubu («Nahaq yerə, lap nahaq yerə...»). Adam bu güllə yağışının altında olanda («Can-can...») hər şeyi yaddan çıxarır, bütün pisliklər, yaddan çıxır («Çünki özün təmiz idin, yaxşı idin...»), ancaq yaxşısı yadda qalır. Sən məni istəyə də bilərsən, istəməyə də bilərsən (« Səni istəməyənin gözü çıxaydı, necə ki, işıqlı dünya qaranlıq zülmət olub onunçun...»), ancaq özünü istə («Nəyimi istəyim özümün, nəyimi?..»). Mən müəllim deyiləm («Müəllimdən də artıqsan...»), sən də şagird deyilsən («Şagird professoruydu mənim yanımda...»). Nəsihət eləməyəcəyəm sənə («Nə təsir eləyəcəkdi mənə nəsihət? Adamın gərək qanında olaydı, Zakir...»). Ancaq o evə gedib-gəlmə («O evin nə təqsiri, təqsir özündədi adamın, ev neyləsin?»). Işə gir («Ay işlədim mən, ha!..»). Özünü hayıf eləmə. («Elədim, ay Zakir, ay qadası, yaman hayıf elədim özümü, iki qəpikdi mənim qiymətim, kül olub mənim başıma, ay Zakir, ay qadası, ay canım, sənə qurban... zay elədim özümü. Zay oldum getdim, ay Zakir...»). Sən də bir kişinin qızısan, həmin kişinin papağını yerə soxma («Soxdum yerə o rəhmətliyin papağını, Zakir, lap quyunun dibinə soxdum. Doğrayardı məni sağ olsaydı, öz əliylə doğrayardı...»). Yenə başladı atışma («Muğayat ol ay bala!..»)».

Zübeydə daha məktubun ardını oxuya bilmədi, saralıb-solmuş hərflər gözlərinin qabağında yayıldı və elə bil ki, həmin bürkülü yay gecəsində bütün bu otaq basma kağıza düşmüş mürəkkəb damcısı kimi ətrafa yayıldı, qaranlıqlaşdı, havasızlaşdı; bütün bu otağa, bu otağın əşyalarına, divarlarına, döşəməsinə, tavanına, elə bil, tünd bir örpək salındı və bu örpəyin o biri üzündə bir dumanlıq arxasında on yeddi yaşlı cavan bir qız, gözəl bir qız kəndin camaatıyla bərabər atasının cəsədi qoyulmuş mafənin ardınca gedirdi; günəşli bir gün idi və günəşli ləpələr sahilə qaçışırdı, elə bil, dənizdə bir günəş sevinci var idi və on yeddi yaşlı qız, meyitinin dalınca getdiyi atasının ölümünə yanmaqdan daha çox, dənizin sevincinə sevinirdi; elə bil, bu saat bütün kənd camaatının dərdi-qəmi bu on yeddi yaşlı qız üçün tamam yad bir şey idi, çünki o on yeddi yaşlı qız nə ölümü dərk edirdi, nə də dərk etmək istəyirdi; o on yeddi yaşlı qız özü də bu günəşin bir parçasıydı, bu dənizin bir parçasıydı və illər keçdikdən sonra da o qız, bax, eləcə,

günəşsiz sevinə bilmirdi, şadlana bilmirdi, yaşaya bilmirdi; kasıbçılıqdan isə günəş boylanmırdı. Müharibə illərinin çörəksizliyində günəş doğmurdu; aclıq olsun, kef olsun, deyiblər, amma düz deməyiblər, lap ağ yalan deyiblər, aclıqla kef bir araya sığışan şey deyil, hər halda, Zübeydə, o gözəl qız, müharibə illərinin o xatın qızı belə bir əqidədəydi. Araz aşığından idi o qızın, Kür topuğundan, özünü kefi köklərin, damağı çağların odunda yandıran, yandırıb kül eləyən bu bəxti qaranın...

Zübeydə bağlamanı büküb dolabın alt gözünə qoydu, yeşiyi bağlayıb burnunu çəkə-çəkə, gecə köynəyinin yaxası ilə üz-gözünün yaşını silə-silə ayağa qalxdı, otaqdan çıxıb, külafirəngiyə tərəf gəldi, yuxarı qalxıb, palazın üstündə oturdu və dənizə baxdı.

Zübeydə yadına gələndən bu dənizin sahilində oynamışdı, anası onca günün içində sətəlcəmdən öləndən sonra, bütün bu tərəflərdə, Abşeronun bu hissəsində məşhur balıqçı olan atasının torunu Zübeydə yamamışdı, qayığını Zübeydə silib-süpürmüşdü, atası ölən həmin gecə bütün kənd camaatı onların evinə girib-çıxmışdı, amma heç kim də bunu bilməmişdi ki, Zübeydə səhərə kimi dənizin, bax, bu sahilində təkcə oturmuşdu.

Əslində, lap əslində, Zübeydə bu dənizin yanında da üzüqara idi, çünki nənəsilə tək qaldığı o uzaq illər, bax, bu dəniz Zübeydənin beynindəki bütün fitnə-fəsadların, kin-küdurətin, nəfs-tamahın şahidi olmuşdu; Zübeydə indi belə fikirləşirdi, indi o uzaq illərin firavanlıq, fironluq arzu-xəyallarını fitnə-fəsad hesab edirdi, indi, onda yox. Nənəsi yazıq o qədər qocalmışdı ki, ölməyinə yaxın (nənəsi öləndə müharibənin ikinci ili idi) Zübeydəni öz balıqçı oğlu hesab edirdi, yəni Zübeydəni, Zübeydənin atası bilirdi, əlbəttə, doxsandan idi bu və elə bu özü də doxsandan idi ki, Zübeydə bu dəm bütün bunların hamısını beləcə fikirləşirdi.

Yel yenə tamam-kamal dayanmışdı və hətta, külafirəngidə də ağcaqanadlar adamı oturmağa qoymurdu, elə bil ki, vızıldaya-vızıldaya hər şeyin keçib-getdiyindən, heç nəyin geri qayıtmayacağından dəm vurub uçuşurdu; xartutun yarpaqları səsini tamam kəsmişdi. Dənizin uğultusu, elə bil, başqa bir dünyadan gəlirdi, elə bil, o biri dünyanın səsi idi və elə bil ki, gecə ovuna çıxmış o iki yarasa da bürküdən karıxdığı üçün ağaclara dəyirdi, evin divarına toxunurdu, külafirənginin dirəklərinə çırpılırdı. Hərdənbir gələn cırcırama səsi də sabahın nəfəskəsən istisindən xəbər verirdi.

O ev isə, Şirinxanımın o köhnə evi, Içərişəhərin qoşa qala qapısı ağzındakı ikimərtəbəli binanın ikinci mərtəbəsində idi. O ev də, ondan beş-altı bina aralıdakı Zakirgilin evi də indi çoxdan sökülmüşdü, yerində meydan salınmışdı. Zübeydənin cavanlıq günlərinin çoxu, yəni, o günlərinin ki, ağrısı indi ağrıdırdı Zübeydəni, Şirinxanımın o evində keçmişdi.

Şirinxanım Zübeydəgilin – bu qayğısız və gözəl, nazlı-qəmzəli qızların içində hamısından ağıllısı, tədbirlisi, işəyarayanı və istiqanlısı idi. Şirinxanım anası ilə yaşayırdı, anası Sabunçu vağzalında peraşkisatan idi və səhər tezdən gecəyə kimi evdə olmurdu, olanda da rəfiqələrin əl-ayağına dolaşmırdı, «yaxşı eləyirsiz, kef eləyirsiz, əlivizin də içindən gəlir, beşgünlük dünyadı» deyirdi. Qızı ona bir şey bağışlayanda, ya bir kofta, ya bir yaylıq, ya da bir başqa şey alanda, Zübeydəgil ona bir hədiyyə verəndə arvadın uçmağa qanadı olmurdu və sidq-ürəkdən özünü də, qızını da xoşbəxt bilirdi, «əcəb eləyirsüz, işləmirsüz, qoy nə qədər hürürlər hürsünlər, paxıllıqdandı hamısı, səhər sübhdən gecəyə kimi ayaqüstə vağzal

qabağında peraşki satıram, nəyim var, bir həsirəm, bir də Məmməd Nəsirəm, «əcəb eləyirsüz, lap əlivizin də içindən gəlir» deyirdi.

Şirinxanım yaxşı arvad paltarı tikirdi (elə indi də, xəstəxanada baş həkim işləyirdi, amma öz paltarlarını özü tikirdi, başqasına etibar eləmirdi) və o zaman Bakının bir çox məşhur xanımları Içərişəhərin həmin qoşa qala qapısı ağzındakı ikimərtəbəli sarı binaya gəlib-gedirdi, Şirinxanıma paltar tikdirirdi. Zübeydəgil saatlarla bu evdə oturub bir-birləriylə dərdləşirdi, zarafatlaşırdı, küsüşürdü, barışırdı və Zübeydəgilin ən gözəl məclisləri, dalbadal ad günləri – hərəsinin bir ildə dörd-beş ad günü – bu evdə keçirdi. Çox şərablar içilmişdi, çox qədəhlər sındırılmışdı o evdə. Bir dəfə işıq sönəndə Qızıldiş Adil yüzlük yandırıb stolun üstünə işıq salmışdı və o vaxt bir ağızdan min ağıza hamı demişdi ki, bəxtəvərdi Zübeydə, yəni bəxtəvərdi Zübeydə ki, belə bir oynaşı var.

Beləydi, Zakir... Bax, beləcəydi, Zakir, işlər...

Şirinxanımgilə paltar tikdirməyə gəlib-gedən xanımlar özlərini dartırdılar, yuxarıdan aşağı baxırdılar Zübeydəgilə, bilirdilər ki, Zübeydəgil hansı yuvanın quşlarıdı, amma əslində ürəklərində həsəd aparırdılar Zübeydəgilə, həsəd aparırdılar gözəlliklərinə, kef çəkmələrinə, utanmazlıqlarına və Zübeydəgil də elə bilirdi ki, həmişə də belə olacaq, day demirdilər ki, ətdən olan divara etibar yoxdur...

Yavaş-yavaş hər şey dağıldı getdi, adamlar ayrıldı bir-birindən, Qızıldiş Adili tutdular getdi, beşbarmaq Əsədağanı çopur Nəcəfqulu bıçaqla vurub öldürdü, özü də tutuldu getdi. Kəriş ağıllı çıxdı, tulladı hər şeyi, gitara çalıb-oxumağını da tərkitdi (amma bunu nahaq elədi...), gedib öz gücünə instituta girib oxudu, indi deyirlər ki, hansı zavodunsa direktorudu, Dibirovu vəzifədən çıxartdılar, haradasa itdi-batdı və o günlər yavaş-yavaş uzaq-uzaq illərin xatirəsinə çevrildi və indi, bu bürkülü yay gecəsi, bu külafirəngidə o uzaq-uzaq illərin xatirəsini bir tar müşayiət edirdi, o tarı Zakir çalırdı və Zakirin güclü kişi barmaqları altında tarın simləri o xatirələrin boşluğundan, mənasızlığından, puçluğundan söhbət açırdı.

Zakir bu tarı hərdənbir çalırdı, özü də axşamlar çalırdı. Zübeydə hərdən Şirinxanımgilə gedəndə, hərdən Şirinxanımgildən qayıdanda bu tarın səsini eşidirdi və burasını da yaxşı bilirdi ki, bu tarı çalan oğlan onu istəyir; hələ Zakir öz sözünü Zübeydəyə deməmişdən əvvəl bilirdi bunu, Zakir Qızıldiş Adillə onun qabağını kəsdiyi o vaxtdan xeyli əvvəl bilirdi bunu, Zakirin baxışlarından, Zakirin evlərinin qabağına çıxıb küçədə onu gözləməyindən bilirdi bunu.

Bir dəfə Şirinxanımgildə Şirinxanım özü bir məclisdən sonra, stolun üstündə artıq qalmış bir fujer şampanı birnəfəsə başına çəkib demişdi ki, Zakirə görə bütün kürreyi-ərzdəki kişilərdən zəhləsi gedib, Zakirə görə həyatdan rəncidə-hal olub, Zakir Şirinxanımın məhəbbətinə cavab vermədiyi üçün və Şirinxanımın üzünə baxmadığı üçün belə olub. «Ölürəm o tarçalan oğlanın dərdindən! – demişdi Şirinxanım, sonra da üzünü Zübeydəyə tutub: – Görmürsən, – demişdi Şirinxanım – görmürsən, səni istəyir o, korsan sən, görmürsən, niyə özünə bir gün ağlamırsan? Elə bilirsən o ərlərini gözləyənlərin, o qardaşlarını, atalarını, nişanlılarını gözləyənlərin qarğışı tutmayacaq bizi? Bu saat bir tikə qara çörək tapıb yeyə bilməyənlərin ahı tutmayacaq bizi? Elə bilirsən bu məclislərin, bu tostların, bu yağlı sifətlərlə üzbəsurət oturmaqlarımızın peşmançılığını çəkməyəcəyik biz?».

Əlbəttə, Zübeydə təəccüb eləmişdi ki, bu nə sözlərdi belə, danışır Şirinxanım, çünki bu sözlər Şirinxanıma yaraşmırdı və heç kimin ağlına da gəlməzdi ki, Şirinxanımın dilindən belə sözlər eşitmək olar, amma, sən demə, Şirinxanım da belə Şirinxanım imiş. Dürdanə demişdi: « – Elələrinə – yəni ki, Zakir kimilərinə – biz lazım deyilik daha. Bizlə gəzəcəklər, kef çəkəcəklər, sonra gedib ev qızı tapıb alacaqlar. Elələrinin analarının, bacılarının zəhləsi gedir bizdən!..». Roza demişdi: «– Zəhlələri özlərindən getsin, bizdən niyə? Neyləmişik onlara? Kimə neyləmişik e, biz? Kimin ərini əlindən almışıq? Ər öz arvadını aldadıb başqasının yanına gedirsə, onda kül onun o arvadının başına!».

Və birdən-birə Zübeydənin yadına düşdü ki, keçən qış Bakının kolxoz bazarında ondan sirkə-badımcan alan o şubalı xanım kim idi elə... Birinci gün idi bazara sirkə-badımcan çıxarmışdı Zübeydə, həmin şubalı xanım gəlib ondan xeyli sirkə-badımcan aldı və bu xanım Zübeydəyə çox tanış gəldi, amma ha fikirləşdi ki, kimdi bu belə, tapa bilmədi, köhnə rəfiqələrindən deyildi, o tanış-bilişlərindən deyildi, amma heç cürə tapa bilmədi ki, kimdi. Şubalı xanım sirkə-badımcanın pulunu verib gedə-getdə soruşdu:

– Tanımadın məni?

– Yox... – dedi Zübeydə.

– Amma mən səni tanıdım, – deyib çıxıb getdi həmin şubalı xanım.

Indi tanıdı onu Zübeydə, bu isti yay gecəsində, bu külafirəngidə oturub dənizə baxanda tanıdı onu: Zakirin bacısı idi o şubalı xanım, ortancıl bacısıydı deyəsən, Ədiləydi adı gərək ki...

Kiminin əvvəli, kiminin axırı...

Üç bacısı vardı Zakirin, bir anası, bir də özü. Bacılarının üçünü də oxutdurdu Zakir və bu üç bacının üçü də Zübeydə ilə qanlı-bıçaq idi. Aralarında bir kəlmə söhbət də olmamışdı, hərdən küçədən gedib-gələndə o qızların baxışlarından, kinli-küdurətli, acıqlı və bir balaca də həsədli baxışlarından oxuyurdu bunu Zübeydə. Dürdanə deyirdi: « – Səni qardaşlarına qısqanırlar, istəmirlər ki, onlardan başqa bir başqa qızı da istəsin qardaşları». Ya doğrudan da Dürdanə düz deyirdi, ya da o bacılar Zübeydəni Zakirə layiq bilmirdi, həsədlə Zübeydənin sir-sifətinə, geyim-keciminə baxırdılar, amma onu qardaşlarına layiq bilmirdilər; bu, indi Zübeydənin ağlına gəlirdi. O vaxtlar belə şeylər ağlına gəlməzdi, o vaxtlar bu qızlara heç salam da verməzdilər ki, xəncərinin qaşı düşər...

Böyüyü Dilarə idi, sonra Ədilə idi, sonra da Həlimə idi. Zakir əsgər gedəndən bir az sonra Həlimə xəstələndi, öldü. Sonra nə oldu, Zübeydə bilmədi, çünki günlərin bir günündə Şirinxanım evini üçotaqlı bir mənzilə dəyişdi, indi yaşadığı mənzilə: mətbəxsiz-zadsız o iki otağının üstündə lap az pul verib bir əsgər ailəsi ilə dəmdəsgahlı üçotaqlı mənzilə dəyişdi.

Və Ədilə bazarda onu tanımışdı.

Və bir az keçəcəkdi, dan yeri tamam söküləcəkdi, yaşlı bir arvad gecə köynəyini çıxarıb paltarını əyninə geyəcəkdi, guya ki, yuxudan durubmuş kimi, quyunun suyunda əl-üzünü yuyacaqdı, həyət-bacaya əl gəzdirəcəkdi, sonra Abdulla kişinin bekarçılıqdan düzəltdiyi süpürgələri qoltuğuna vurub milisioner Səfər görməsin deyə ora-bura baxa-baxa kəndin bazarına gedəcəkdi, bu süpürgələri yayda kəndin həndəvərindəki bağlara köçüb dincələn şəhər adamlarına satmağa çalışacaqdı, sonra yenə evə qayıdacaqdı, həyət-bacaya əl gəzdirəcəkdi, gündən-günə

daha artıq yorula-yorula ağacları, gülləri, göy-göyərtini sulayacaqdı, güc-bəla ilə meynə talvarına dırmaşıb üzüm yığacaqdı, üzümlərin doşablığını, sirkəliyini, yeməliliyini ayıracaqdı sonra bir az külafirəngidə oturacaqdı, bir az dənizə baxacaqdı, bir az dünyanın işlərini fikirləşəcəkdi, sonra gedib artırmadakı miçətkənin altına girəcəkdi, gözlərini yumacaqdı ki, yatsın...

## VII

Ağagül əvvəlcə elə bildi ki, bu toyuq səsini yuxuda eşidir, çünki bütün gecəni qatmaqarışıq yuxular görmüşdü və qırmızı çil toyuq da Nisənin gözlərindən süzülən yaş gilələri kimi yuxudan-yuxuya keçmişdi, amma Ağagül gözünü açanda və külafirəngidən başını qaldırıb həyətə baxanda gördü ki, qırmızı çil toyuq, doğrudan da, həyətdədi, hasarın dibinə düşüb qalıb, bərkdən də qaqqıldayır; sonra qırmızı çil toyuq çırpınıb ayağa qalxdı və hirslə qaqqıldaya-qaqqıldaya ki, bu nə gecə macərasıdı belə mən düşmüşəm, o tərəf-bu tərəfə yeriməyə başladı.

Sonra hasarın o biri tərəfindən torbanı da qırmızı çil toyuğun dalınca həyətə atdılar.

Ağabacı qaqqıltıya hövlnak yuxudan oyandı, əvvəlcə elə bildi ki, həyətə tülkü gəlib, istədi bütün günü Bakıyla kənd arasında işləyən avtobusu sürə-sürə bərk yorulub gecə top atılsa da yuxudan oyanmaq bilməyən əri Ağababanı yuxudan oyatsın, amma artırmadakı yerindən həyətə boylanıb gördü ki, hində sakitlikdi, təkcə qırmızı çil toyuq hasarın dibində qaqqıldaya-qaqqıldaya o baş-bu başa yeriyir və arvad buna təəccüb elədi, elə başa düşdü ki, qırmızı çil toyuğu yaddan çıxarıb hinə salmayıb, sonra yenə xorultusu aləmi başına götürmüş Ağababanın yanında yerinə uzandı və təzədən yuxuya getdi.

Dan yerinin şəfəqləri isə qızarırdı.

*Fevral, 1977.*
*Dubultı.*

# DOLÇA

*(Bir itin aqibəti haqqında povest)*



# I

– Məsləhət eləyirəm də səniynən, məsləhətdi də, başuva dönüm sənin, elə bu saat gedib evi vermədim ki, yoldan ötənin birinə, məsləhətdi də, məsləhətdi don gen olar də deyiblər. Mən bir pis söz demirəm ki, sənin balalaruvun dərdini çəkirəm də, özgənin dərdini çəkmirəm ki, öz dərdimi çəkmirəm ki, mənə nə var, hay-hayım gedib, vay-vayım qalıb, istəyirəm uşaqlarçun bir gün ağlayım də... Bir gün ağlayaq bunlara biz gərək, ya yox? – Ağabacı ömründə birinci dəfə idi ki, özü haqqında ərinə belə sözlər deyirdi, qocalmağından dəm vururdu və elə bil ki, Ağabacı həmin Ağabacı deyildi ki, səhər sübhdən yerindən duran kimi, kəllə otağa keçib, uşaqlar içəri girməsin deyə, qapını da açarlayıb on-on beş dəqiqə sir-sifətinə sığal verirdi, xınasının vaxtını bir gün də keçməyə qoymurdu və kəndin ən birinci sözgəzdirəni Zübeydə hər dəfə xeyirdə, şərdə, hamamda Ağabacını görəndə yanıb-yaxılırdı: « – Ağəz, bir buna baxın e, nənəm yaşındadı (amma bunu Zübeydə lap ağ eləyirdi, çünki özü əskiyi səkkiz-on yaş Ağabacıdan böyük idi; hər halda, Ağabacı özü belə deyirdi və kəndin əksər arvadının da Zübeydədən zəhləsi getdiyi üçün Ağabacının yaş barədəki fikrini təsdiq edirdi), amma sürmələnməsinə-zadına bir bax e!.. Əriyçün bəzənib-düzənir də, Ağababayçun (Zübeydəni yandırıb-yaxan da elə burasıydı, çünki, özünün nə əri varıydı, nə də uşağı, tək canı idi və bütün təqsirlər də özündə idi, çünki atalar yaxşı deyib ki, niyyətin hara, qismətin də ora)». Burası da tamam birinci dəfə idi ki, ailə məsələlərində, ev-eşik işlərində Ağabacı ilə Ağababanın sözü bir gəlmirdi. – Böyüyüb də uşaqlar, ay Ağababa, böyük uşaqlar olublar də, maşallah, bunların axı, Allah qoysa, niyyət olmasın, qismət olsun, qayıtmağı var, evlənməyi var, ay başuva dönüm sənin, bir tədbir görmək gərəkməz bəyəm?! Heç olmasa, hərəsinə bir üzük alaq da, gərək də, qapısına getdiyimiz adamların yanında başımız aşağı olmasın da, gərək də, ay Ağababa!.. Hə, yaxşı, bunlar heç, oğlandılar, maşallah, özləri bilərlər neyniyərlər, bəs qızdar? Qızdar nə olsun bəs? Böyükdürlər e, day, lap böyüyüblər, maşallah! O gün mürdəşir üzünu yumuş o abırsız Zübeydə hamamda söz yayıb ki, guya ki, Ağagüllə bir qızı, adını deməyib hələ, vağzal bağında, ayıb olmasın səndən, öpüşən görüb! Yayır bu sözü, elə bilir mənə təsir eləyəcək, külbaş day demir ki, nöşün təsir eləyir mənə, day də yaxşı mənimçün, kişidi də oğlum, kişidi! Hələ Ağagülü deyir e! Ağababa, Ağagül hələ iki ildən sonra gələcək Amurski oblastdan, inşallah, Allah qoysa, bəs Baladadaşın gəlməyinə nə qalıb? Bir-iki aya gəlir uşaq də! Nə bilirsən sən, bəlkə elə bir istəylisi var burda, heç xəbərimiz yox? Gərək bir çarə qılaq başımıza, yoxsa yox? Qızdar, bəs, Ağababa, bu qızdarı biz köçürəcəyik inşallah də... – Ağabacı nəlbəki, bıçaq götürüb indicə yaydığı xəmiri yuxayayanın üstündə nəlbəki-nəlbəki kəsməyə başladı; kəsilən xəmirlər hamısı bir boyda idi, nəlbəki girdəliyində və bir azdan bu nəlbəki girdəsi xəmirlər ortadan bükülüb hamısı bir boyda da qarın qutabı olacaqdı. – Nolar, ay Ağababa, sənsən, mənəm, Nuhbaladı, bir də qızlardı də (guya ki, bunlar çox az adam idi), düşərik aşağı, qırx gündü qalıb sentyabra də, nə var ki, qalarıq aşağıda, xəncərimizin qaşı düşməyəcək ki, nolar, verərik evləri bir mərifətli ailəyə, vəssalam də, nə var axı burda ki, pis gəlir sənə e, başuva dönüm sənin?

Bu söhbət iki gün idi başlamışdı və bu həmin iki gün idi ki, Ağababanın iş növbəsi deyildi, evdə oturub istirahət edirdi və bütün ömürlərində birinci dəfə idi ortaya elə söhbət düşmüşdü ki, bu söhbətin ucbatından Ağababa sidq-ürəkdən istirahət edə bilmirdi.

Ağababa «Bakı – Buzovna» marşrut avtobusunu sürürdü. Üç gün işləyirdi, iki gün evdə olurdu və evdə olanda da həyət-bacayla məşğul olurdu, qışda meynələri kəsirdi, yayda tağları sulayırdı və sairə və ilaxır belə işlərlə məşğul olurdu. Son on iki ildə belə idi, yəni marşrut avtobusunda işləyəndən belə idi, amma, ümumiyyətlə, Ağababa düz, qızıl kimi, otuz iki il idi sürücü işləyirdi, on səkkiz yaşından, yəni min doqquz yüz qırx altıncı ildən bu tərəfə, indi də ki, Allaha şükür, yetmiş səkkizinci il idi; «polutorka»lardan başlamışdı, indi «Ikarus» sürürdü və burasını daha dəqiq bilirdi ki, «Ikarus» axırıncı maşınıdı, pensiyasını alıb gəlib oturacaqdı evdə. Yorulmuşdu Ağababa.

– Əgər biz də camaat kimi kirayə versəydik evi yaylarda, gör indi nə qədər qabağa düşərdik! Eyib şey döyül ki, ay Ağababa, öz evimizdi, özümüz tikmişik, halal pulumuza tikmişik, verərik bir ay, iki ay yayda kirayəyə mərifətli bir ailəyə, abırlı adamlara, onlara da yaxşı olar ki, gəlib hava udarlar burda, çimərlər dənizdə, bizə də yaxşı olar ki, əlimizə artıq pul gələr bir az, xərcimizə kömək eləyər, nöş sən axı, buna razı olmursan e, ay başuva dönüm, ay Ağababa? Vallah savab işdi!..

Ağababa bağban Əsədullanın bağışladığı kəhrəbaya oxşayan sarı təsbehi şaqqıldada-şaqqıldada şüşəbəndin açıq pəncərəsi qabağında oturub dənizə baxırdı. Buradan, Ağababagilin şüşəbəndindən baxanda dəniz elə bil əlinin içində idi: Buzovnadan Zuğulbayacan uzanan qayalıq görünürdü, qayalıqdan aşağıda bütün dəniz görünürdü, üfüq xəttinə kimi bir gömgöylük görünürdü, sahil boyu sapsarı qumluq görünürdü; dənizin göylüyü hardasa bir az açıq idi, hardasa bir az tutqun idi və bu göylükdə bu saat bir ucsuz-bucaqsızlar var idi, dibi görünməyən bir dərinlik var idi, bir dünya su var idi və bir də ki, bu göylükdə bir mehribanlıq, ılıqlıq, mülayimlik var idi; dənizdən səs gəlmirdi, dəniz uğuldamırdı və bu səssizliklə lap xırdaca ləpələrin sahilə doğru sakitcə də ləpələnməsi arasında qəribə bir uyğunluq var idi, bu sükut ilə bu ləpələnmə bir-birini tamamlayırdı və bu dəm adama elə gəlirdi ki, dəniz elə həmişə bu cür olur, elə bil heç vaxt heç bir uğultu bu səssizliyi parçalamır, heç bir bozluq heç bir vaxt bu göylüyü boğub, tamam soldurub yox eləmir, bu sakit ləpələr heç bir vaxt dalğaya dönüb köpüklənə-köpüklənə qayalara çırpılmır, elə bil xəzri həmişə beləcə meh olub əsir.

Səhərdən bəri bir nəfər bu dəniz göylüyündə, bu dəniz səssizliyində çimirdi və həmin bir nəfər çimib qurtarıb, dənizdən doyub sahilə çıxanda məlum oldu ki, bu, bir nəfər yox, iki nəfərdi, bir oğlan, bir qız...

Ağababa ayağa qalxıb enli kürəkləriylə şüşəbəndin açıq pəncərəsinin qabağını kəsdi, elə bil ki, Ağabacının da səhərdən bəri dənizdə bir adam olub, indi ikiləşən bu oğlanla bu qızı görməyinin qabağını aldı (bu tərəflərin adamları belə iş tutmazdı, həmin oğlanla həmin qız şübhəsiz idi, şəhərdən, Bakıdan gəlmişdi və bazar ertəsinin adamsız dənizində özlərini suya vermişdi), bir müddət Ağabacının təzə kündə açmağına baxdı, sonra birdən-birə hirsli-hirsli:

– Qurtar! – dedi. – Ölməmişəm hələ mən! Nə qədər ki, sağam mən, bu evdə bir yad adamın bir qara qəpiyi də xərclənməyəcək! Sırğa elə bunu, as qulağundan. Bildün?

Ağababa bu sözləri dedi və baş barmağı ilə hələ cavan vaxtlarından ağarmış qalın bığını hirslə qaşıdı, sonra otağa keçdi və mizin arxasında oturub divardakı şəklə baxdı.

Ağababa ona görə belə hirsli danışdı ki, qanı qaraydı, özü də bu qanıqaralıq təkcə ona görə deyildi ki, Ağabacının başına girmişdi ki, gərək bu yay evi kirayə versinlər; bu səssiz-küysüz yay günündə, işləmədiyi bir gündə, heç kimin sataşıb-dolaşmadığı bir gündə nəyə görə belə hirsli idi, heç özü də bilmirdi; amma birdən-birə dərd-dur eləməyə ürəyi bir adam istədi. Baladadaş üçün darıxdı, Ağagül üçün darıxdı, sonra qızlar bir-bir gəlib gözünün qabağından keçdi və belə məlum oldu ki, Ağababanın ürəyində nə isə bir nigarançılıq var, özü də bu nigarançılıq lap dərinlərdən baş qaldırır, bir qaranlıqdan, bir dumandan baş qaldırır. Sonra Ağababa şirə baxdı, əlində xəncər tutmuş qəhrəmana baxdı və necə oldusa, kişinin birdən-birə bu şirə yazığı gəldi; bu şir şir olmağına şir idi, amma qəhrəmanın əlindəki xəncərə elə baxırdı, elə bil şir yox, dovşan baxır...

...Bu şəkli böyük otağın divarına üç il bundan qabaq Bakıdan gəlmiş bir rassam çəkmişdi. Rəssamı Bakıdan kəndin klubuna çağırmışdılar ki, qırmızı parçaların üstünə şüarlar yazsın və bir də sülhün rəmzi kimi bir göyərçin şəkli çəksin, bu göyərçin şəklini assınlar klubun girəcəyinə, çünki Bakıdan hörmətli bir adam gələcəkdi, klubda iclas eləyəcəkdilər. Həmin rəssam klubda işini qurtarandan sonra, bir xeyli müddət qaldı kənddə, başladı kəndin evlərində otaqların divarlarına pulla şəkil çəkməyə. Kəndə bir dəb düşdü ki, gəl görəsən, kimi göyərçin şəklini çəkdirdi divarına, kimi meşə, gül-çiçək; bağban Əsədulla otağında divar boyu gəmi şəkli çəkdirdi, üstündə də yazdırdı ki, «ADMIRAL NAXIMOV», çünki müharibə vaxtı bu gəmidə vuruşmuşdu; dülgər Müzəffər otağında bütün divar boyu çiyninə şal salmış yarısı balıq, yarısı da sarı saçları suda dalğalanan gözəl bir qız şəkli çəkdirdi və bunun üstündə dülgər Müzəffərin arvadı Zəhra düz qırx gün əri ilə danışmadı, küsü saxladı; quşvuran Fazil bir ovçu şəkli çəkdirmişdi divarına ki, pələngi alnından vurub yerə sərmişdi və quşvuran Fazil belə deyirdi ki, guya, bu ovçunun sifəti öz sifətidi, guya, rəssam ona baxıb, cuşa gəlib, bu şəkli belə çəkib, hamı da Əmirquludan sonra başlamışdı: Əmirqulu həmin rəssamla dostlaşmışdı, tez-tez şirin çaxır içirdilər və içə-içə də Əmirqulu rəhmətlik anasını yadına sala-sala o qədər ağlamışdı ki, axırda həmin rəssam Xeyransa evdə olmayanda gəlib Əmirqulugilin böyük otağının divarında üzünü görmədiyi, heç bir şəkli qalmamış arvadın – Əmirqulunun anasının bütün divar boyu şəklini çəkmişdi və bundan sonra bütün kəndə dəb düşmüşdü. Həmin rəssam gəlib Ağababagilin də böyük otaqlarının divarında bütün divar boyu bir şir, bu şiri öldürən bir igid adam şəkli çəkdi və Ağabacı bir xeyli əli qoynunda bu şəklə baxandan sonra, soruşanda ki, bu nədi belə, dedi ki, gürcülərin çox böyük bir şairi var, Şotadı adı, onun yazdıqlarıdı çəkmişəm sizinçün. Axşam həmin rəssam Əmirqulu ilə şirin çaxır içib yenə gəlib çəkdiyi bu şəklə baxdı, özünü saxlaya bilməyib hönkür-hönkür ağladı, Əmirqulunun da gözləri doldu və hönkür-hönkür ağlayan rəssama baxıb Ağababaya dedi ki, bunun kimi böyük rəssam yoxdu dünyada, amma Bakıda qoymurlar onu qabağa getsin, basırlar başından, çünki adamı yoxdur və arvadı da bu rəssamı atıb gedib başqasına. Bu şəkil kənddə hamının cani-dildən xoşuna gəldi və hamı da bu fikrə gəldi ki, bu şəkil həmin rəssamın şah əseridi, hətta Zübeydə də bunu danmadı və Ağabacı hamamda bu şəkli tərifləyəndə səsini çıxarmadı; düzdü, qəhrəmanın əlləri birtəhər çıxmışdı və

kitabxanaçı Nəcəf deyirdi ki, guya, rəssamlıqda ən çətin iş adam əli çəkməkdi, qəhrəmanın ayaqlarının da biri elə bil bir az uzun idi o birindən, başındakı bilmirdin saçıdı, yoxsa tük papaqdı, amma, hər halda, əvvəllər Ağababanın da çox xoşuna gəlmişdi bu şəkil, amma indi necə oldusa, birdən-birə bu şirə yazığı gəldi, fikrindən keçdi ki, deyəsən, elə bu şir də Əmirqulu kimi bir şeydi...

...Ağababanın şirə yazığı gəldi və bu şiri çəkən rəssam da gəldi durdu gözünün qabağında və Ağababanın o rəssama da yazığı gəldi, amma burası lap ağ oldu ki, birdən-birə Əmirquluya da yazığı gəldi, elə bil həmin Ağababa deyildi ki, pəncərədən küçəyə baxıb görürdü ki, Əmirqulu yenə keflənib tut ağacının dibinə yıxılıb, gah insan səsinə oxşayan, gah da insan səsinə oxşamayan səslər çıxarır və ürəyində Əmirqulunu söyürdü: «Köpəkoğlu, xalis əsfələssafilindir!»

Nədən idi ki, bu Ağababanın başına belə fikirlər gəlirdi, dünyaya yazığı gəlirdi, ürəyi sıxılırdı və bilmirdi ki, nə eləsin? Bu isti yay günündə otağın bürküsündən idi, ya nədən idi?

Elə bil ki, Əmirqulu Ağababanın beləcə yumşalmasını gözləyirmiş, küçədən yenə onun səsi gəldi və Ağababa gözlərini şirdən çəkib ayağa qalxdı, küçə pəncərəsinə yaxınlaşıb pərdəni qaldırdı.

Əmirqulu, adətən, gündə dörd stəkan şirin çaxır içirdi. Əmirqulunun arvadı bədbəxt qızı bədbəxt Xeyransa kənddəki çaxır dükanında, sonra Vartan Nersesoviçin müdir olduğu böyük mağazada dava salıb, qırğın-qiyamət eləmişdi və indi kənddə heç kim Əmirquluya çaxır vermirdi, odur ki, Əmirqulu gözünə döndüyüm də hər gün xoruz banıyla yuxudan durub birinci marşrut avtobusuna minirdi, gah Maştağada, gah Buzovnada, gah Mərdəkanda, Şüvəlanda iki dolu stəkan (hərəsi 250 q.) şirin çaxırını içirdi, bir də axşam eyni minval ilə iki stəkan şirin çaxırını içirdi və bu dörd stəkan şirin çaxır bütün günü bəs eləyirdi Əmirquluya, samovar üstündəki çaynik kimi həmişə dəmdə olurdu, amma elə ki, artıq içdi, elə ki, öz cədvəlini pozdu, ortada hardansa bir imkan tapıb araq içdi, onda zalım oğlu gəlib yıxılırdı küçədəki bu tut ağacının dibinə. Hərdən Xeyransa abır-həyadan az qala yerə girə-girə Ağababaya deyirdi:

– Ağababa qədeş, mindirmə bunu maşunuva.

Amma nə çox bu Abşeron yollarında marşrut avtobuslar, nə çox yüz cürə maşın və Əmirquluyla bu cür mübarizələr bir nəticə vermirdi, bununku o idi ki, kitabxanaçı Nəcəf demişkən, zəng eləyəsən şəhərə, maşınla gəlib götürüb aparsınlar və xəstəliyinə bir çarə qılsınlar, amma Xeyransa, aydın məsələ idi ki, belə təkliflərə razı olmurdu, çünki Xeyransa da bu kənddə bir kişinin qızı idi və camaatın gözü qabağında ərini aparıb şəhərdə dəlixanaya ata bilməzdi.

Indi də Əmirqulu küçə tərəfdən evlərinin qabağındakı tut ağacının dibində oturub kürəyini söykəmişdi ağacın gövdəsinə və oxuyurdu özü üçün:

Mən əntiqə çortdayam!
Çortdayam, frontdayam!
Atıram plamyotları,
Vururam samalyotları.

Xeyransa evlərinin küçə balkonunda küftə-bozbaş üçün ət döyə-döyə başını ikinci mərtəbədən aşağı uzadıb:

– Ay sən öləsən! – dedi.

Əmirqulu hərəsi bir tərəfə axan gözlərini bir anlıq bir yerə cəm eləyib:

– Mənim canımçün vururam! – dedi. – Lap katyuşa da atıram, mən ölüm, hə!..

...Hərdən axşamüstülər, o vaxtlar ki, səhərki iki stəkanın təsiri keçib-gedirdi, axşamkı iki stəkanı isə hələ içməmişdi və başqa da heç nə dilinə vurmamışdı, yəni o vaxtlar ki, Əmirqulu nisbətən ayıq idi, soruşanda ki, bu nə səfeh mahnıdı oxuyursan belə, deyirdi ki, balam, səfeh niyə olur, Xeyransayla bir yerdə yaşamaq elə frontda olmaqdı də...

...Ağababa bu dəfə ürəyində Əmirqulunu söymədi, təkcə bunu fikirləşdi ki, Allah adama belə bir ər, belə bir oğul verincə, bir qara daş versə yaxşıdı.

Ağababa bu sarıdan narahat olmaya bilərdi, çünki özü toyda-məclisdə, ildə - əyyamda bir dəfə içərdi və oğlanları da bu cəhətdən özünə oxşamışdı, Baladadaşın da, Ağagülün də, Nuhbalanın da yığışıb gedib araq alıb qayalıqlarda içməyi, şəhərdən yeşik-yeşik pivə alıb gətirib küçədə nərd oynaya-oynaya noxudla içməyi, əllərinə keçən pulu aparıb Gümüş Malikin kababxanasında qoymağı yox idi.

Ağababa ilə Ağabacının üç oğlu var idi, altı da qızı var idi, üç oğul dalbadal olmuşdu, sonra da altı qız olmuşdu. Böyük oğlanları Baladadaş əsgərlikdə idi, əslində əsgərlik vaxtı qurtarmışdı, hansı kursdasa oxuyurdu, bir azdan sonra qayıdıb gələcəkdi, sonra da yazırdı ki, bir müddət evdə qalıb gedəcəkdi hərbçilərin ali məktəbinə imtahan verməyə. Ikinci oğlan Ağagül də, həmin Ağagül ki, dəllal Zübeydə hamamda söz yayıb ki, guya, onu vağzal bağında bir qızla öpüşən görüb, iki ay idi ki, əsgər getmişdi və Baladadaş kimi o da Amur vilayətində idi. Üçüncü oğul Nuhbala onuncu sinfə keçmişdi, gələn yay məktəbi qurtarıb o da əsgərliyə gedəcəkdi. Nailə doqquzuncu sinfə keçmişdi. Firuzə yeddinci sinfə keçmişdi. Kəmalə altıncı sinfə keçmişdi. Amalə dördüncü sinfə keçmişdi. Dilşad üçüncü sinfə keçmişdi. Sonbeşik Böyükxanım idi və Böyükxanım da ikinci sinfə keçmişdi.

Doqquz uşaq idi və Böyükxanım anadan olanda Ağababa bu axırıncı uşağa anasının adını qoymuşdu, yəni ki, ən əziz ad axırıncınındı, amma indi məlum olmuşdu ki, Böyükxanım axırıncı deyil.

Hələlik doqquz uşaqdı.

Məsələ burasında idi ki, bir həftə bundan qabaq gecə yerlərinə girəndə Ağabacı utana-utana, qızara-qızara demişdi:

– Ağababa, başuva dönüm, deyəsən, uşaq gözləyirəm...

## II

Abşeron Abşeron deyildi bu dəm, Abşeron bir cənnətməkan idi, elə bir cənnətməkan ki, bu dəm bu qayalıqdan, bu qumluqdan o aydın, o açıq üfüq xəttinə kimi bir aynası var idi və bu ayna bu saat göz qamaşdırırdı, günün altında par-par parıldayırdı, gömgöy idi, sakit idi.

Dolça dənizə baxa-baxa sahil boyu qayalıqlara tərəf qaçırdı və bu it elə bil ki, dənizin bu cür sakitliyindən, bu cür göylüyündən həzz alırdı, elə bil ki, günün istisindən, xəzrinin lap yüngülcə meh olub əsməsindən həzz alırdı. Bu qumun sarısında, bu dənizin göylüyündə, bu səmanın maviliyində ağappaq Dolça qabaqda qaçırdı, Tavarla Sarıbaş da onun dalınca qaçırdı. Dolça hərdən dayanırdı, yerində fırlanıb geri çönürdü, dal ayaqları üstə qalxıb Tavarla Sarıbaşı qarşılayırdı, onları qabağa buraxırdı, sonra yenə qaça-qaça onları ötüb keçirdi.

Dolçanın qapqara gözləri bu dəm günün işığında par-par parıldayırdı və bu gözlərdə bir sevinc var idi, bir şadlıq var idi, elə bil ki, Dolça dünyanın belə bir sakitliyinə, belə bir göylüyünə, belə bir maviliyinə sevinirdi.

Dolçanın dörd yaşı var idi və kənddə heç kim baş açmırdı ki, bu itin cinsi nədi...

...Ağababa Dolçanı tapan gecə (dörd il bundan qabaq küçüyün Ağababanın dalına düşüb gəldiyi o yağışlı-yağmurlu gecə) qonşuları qaravulçu Həsənulla gəlib itə baxdı və əvvəlcə dedi:

– Bu mansi-xantı itidi.

Sonra dedi:

– Yox, bu komi-mansi itidi.

Sonra da dedi:

– Net, net, bu komi-xantı itidi...

Həsənulla hələ müharibədən əvvəl necə olmuşdusa Xantı-Mansiyə gedib düşmüşdü və Irtışın, Obun sahillərini kənd-kənd gəzib oralarda yaşamışdı. Kənddə danışırdılar ki, o uzaq kəndlərin hər birində Həsənullanın bir arvadı var; Baladadaş məktubla belə bir xəbər göndərmişdi ki, Xantı-Mansidən Amur vilayətinə əsgərliyə gəlmiş bir oğlanla tanış olub və həmin oğlan guya ki, qarovulçu Həsənullanın elə bil ki, burnundan düşüb və ümumiyyətlə, kənddə deyirdilər ki, o tərəflərdə qarovulçu Həsənullaya oxşayan oğlan, qız çoxdu. Müharibədən sonra kəndə müharibədən salamat qalanlar qayıtdı, bir də ki, əllinci illərin əvvəllərində Həsənulla qayıtdı, başında silindr, boğazında qalstuk, əynində şalvarının balağı dar, miləmil kostyum qayıtdı, qarovulçu işləməyə başladı, Bakıdan dul bir arvad alıb gətirdi və bu günə qədər də elə həmin silindr başında, şalvarı yırtılmış həmin kostyumun pencəyi əynində idi.

Qarovulçu Həsənulla bu kənddə ən birinci it bilicisi hesab olunurdu və həmin yağışlı gecə Ağagül qaçıb qarovulçu Həsənullanı çağırdı. Qarovulçu Həsənulla Azərbaycan dilini yadından çıxarmışdı, rus dilini də əməlli-başlı öyrənməmişdi və danışanda hər iki dili bir-birinə qatırdı (Poçtalyon Fətoş deyirdi ki, o uzaq yerlərdən indi qarovulçu Həsənullaya daha məktub gəlmirdi, əllinci illərdə gələn məktublarda Həsənullanı «Qriqori Mixayloviç» çağırırmışlar: qarovulçu Həsənullanın atasının adı Mehdi idi; amma heç kimin ağlına gəlmirdi ki, poçtalyon Fətoşdan soruşsun ki, balam, sən niyə o məktubları açmısan və o məktublarda yazılanları oxumusan?).

Qarovulçu Həsənulla küçüyü görən kimi:

– Moloko! – dedi. – Moloko lazımdı!

Uşaqlar yastı, mis dolçadakı südü elə dolçadaca gətirib qoydular küçüyün qabağına və qarovulçu Həsənullanın bu dolçadan çox xoşu gəldi:

– Xoroşi dolça! – dedi.

Ağababa:

– Bəs bu küçük necədi? – soruşdu. – Xoroşi küçük?

Qarovulçu Həsənulla:

– Da, da, xoroşi dolça! – dedi və elə o gecədən də uşaqlar küçüyün adını Dolça qoydular...

...Dolça qaça-qaça qayalığın yanına gəldi və dayanıb bu sal qayalara, yekə qaya parçalarına baxdı və Dolçanın gözlərində bu dəm elə bir şövq vardı ki, gözləri

elə parıldayırdı ki, elə bil bu sal daşlarla zarafat eləyirdi, elə bil bu sal daşlara kələk gəlmək istəyirdi ki, siz hara, buralar hara.

Bütün bu tərəflərin yiyəsiz qancıq itləri həmişə bu qayalıqda olurdu, yiyəsiz qancıqlar bu qayalıqlarda küçükləyirdi, küçüklərini burada əmizdirirdi və o küçüklər də buralarda böyüyürdü, bəzisi özünə yiyə tapırdı, bəzisi səfil-didərgin olurdu, amma daha bu qayalıqlardan gedirdi, çünki kəndin itləri bir-birini yaxşı tanıyırdı, hərdən bir-biriləri ilə boğuşsalar da, yanlarına başqa it qoymurdu, başqa itlərin hamısını öz ərazilərindən qovurdu.

Kənd camaatı ancaq erkək it saxlayırdı, kimisinin həyət iti var idi, kimisinin qoyun iti var idi, kimisinin də tulası vardı (Zübeydənin itdən zəhləsi gedirdi və it saxlanan həyətlərin arvadlarına deyirdi ki, ağəz, heyvan saxlamaq istəyirsiniz, gedin qoyun saxlayın, inək saxlayın də, it nədi?). Lazım olanda, qancıq tapılırdı: ya öz-özünə gecələr bu qayalıqlarda tapılırdı, ya da hərdən kəndin bəzi it yiyələri, quşvuran Fazil kimiləri Bakıda cins qancıq saxlayanlarla sövdələşib sonralar özlərinə də bir-iki küçük götürürdü. Bakıda cins qancıq saxlayanlar yaman dəllal olurdu, özləri kənd-kənd gəzib cins köpək axtarırdı, sonra da cins küçükləri satıb pul qazanırdı. Kənddə bu cür xalis cins köpək üç dənə idi: biri bağban Əsədullanın Alabaşı idi, qoyun iti idi və bağban Əsədulla lap körpəlikdən onun qulağını kəsmişdi ki, yaxşı eşitsin, quyruğunu dibindən kəsmişdi ki, soyuq olanda tüklü quyruğuna qısılıb tənbəl-tənbəl yatmasın; biri quşvuran Fazilin tulası idi – Sarıbaş, indi Dolça ilə qaçıb qayalığa gələn həmin bu Sarıbaş, Fazil onu özüylə ova aparırdı və ömründə bir adam haqqında bir kəlmə yaxşı söz deməyən Fazil sidq-ürəkdən etiraf edirdi ki, Sarıbaş olmasa, onun kimi bir ovçunun da ovçuluğu yarıbayarıdı; biri də ki, Vartan Nersesoviçin ovçarkası Reks idi; qalan itlərin cinsi əməlli-başlı məlum deyildi.

Üç gün idi bağban Əsədullanın Alabaşı itmişdi. Kənddə əksərən hamı gecələr itləri zəncirdən açıb buraxırdı və itlər də yay ayları bütün gecəni həyət-bacanı, kəndin küçələrini gəzib-dolaşırdı, dəniz qırağına gəlirdi, bu qayalıqları ələk-vələk eləyirdi, səhər də hansının yiyəsi vardısa, həyətdə damı vardısa, qayıdırdı öz həyətinə, öz damına. Üç gün idi bağban Əsədullanın iti, həmin qulaqsız, quyruqsuz, yekə və yaraşıqlı Alabaşı həyətlərinə qayıtmamışdı və dünən günorta bütün kəndə belə bir xəbər yayıldı ki, bağban Əsədullanın iti qudurub.

Əlbəttə, nə Tavarın, nə Sarıbaşın, nə də Dolçanın bu xəbərdən xəbəri yox idi və həmin təmiz, sakit yay günü Tavarla Sarıbaş sal daşların dibini, qayaların arasını iyləyə-iyləyə özlərini verdilər qayalığa, Dolça bir az qayalığın aşağısında dayandı, dənizə baxdı, göyə baxdı, göz işlədikcə uzanan bu sarı, narın qumlu sahilə baxdı və elə bil ki, sahilin bu təmiz qumundan, bu bolluca günəşindən, dənizin bu sakitliyindən və bu cür gömgöylüyündən ayrılmaq istəmədi, yenə geri çönüb sahil boyu qaçmağa başladı.

O sakit yay günü dənizin lap sahilinə bir cüllüt uçub gəlmişdi. Cüllüt Abşeronun bu tərəfində tək-tük görünərdi, həftədə, ayda bir dəfə və bu tərəflərdə ona şorcüllütü deyirdilər, çünki cüllüt, adətən, aşağıda, Məhəmmədli kəndinin yanındakı Duzlu gölün sahilində olurdu.

Və elə bil ki, uçub bu tərəflərə gəlmiş bu cüllüt də bu boş sahildə tək-tənha qalıb bir ins-cins üçün darıxmışdı və sahil boyu qaçan Dolça gəlib ona çataçatda cüllüt qanad açıb dənizə tərəf uçurdu, bu göylükdə, bu mavilikdə yarımdairə vurub yenə sahilə qonurdu, nəm qumun üstündə hərəkətsiz dayanıb, elə bil ki, Dolçanın

qaça-qaça gəlib çatmasını gözləyirdi və elə ki, Dolça yaxınlaşırdı, təzədən havaya qalxıb yarımdairə vurub iyirmi-otuz addım qabaqda sahilə qonurdu və bu minval ilə Dolça çimərliyin boş çətirlərini, bütün görkəmləri ilə adam, uşaq həsrətində olan alıcısız-satıcısız, səssiz-küysüz, iysiz-ətirsiz qutab köşklərini ötüb-keçdi, yelləncəklər tərəfdə cüllütlə siçan-pişik oyununu qurtarıb dövrə vurdu, bu dəfə də yuxarı tərəflə qaça-qaça qayalığa tərəf gəldi.

Düzdü, bura Bakıdan uzaq idi və Bakının əksər camaatı Şıx çimərliyinə gedirdi, amma şənbə və bazar günləri hava yaxşı olanda, yəni ki, bu cür günlü-günəşli olanda bu yerlərdə adam əlindən tərpənmək olmurdu; gələnlərin çoxu xüsusi maşınlarda gəlirdi, xüsusi maşını olmayanlar avtobuslara doluşub gəlirdi və həmin vaxtlar kəndin camaatı da iti açıb buraxırdı, itlər də öz işini yaxşı bilirmiş kimi, birbaşa çimərliyə qaçıb gəlirdi, kolbasa falı, qutab qırığı, toyuq sümüyü, dondurma artığı yeyirdi, ağızları dada gəlirdi, axşamacan çimərlikdə sülənirdi, axşam da çimənlər günün altında xoruz pipiyi kimi qıpqırmızı yanıb, maşına minib çıxıb gedəndən sonra, itlər xeyli müddət sahili gəzib-dolaşırdı, qumun üstünə atılıb qalmış qəzet bağlamalarını, boş şüşələrin, konserv qablarının arasını eşələyirdi. Sonra da kəndin uşaqları sahili daramağa başlayırdı, boş şüşələri yığıb, aparıb Vartan Nersesoviçin dükanına təhvil verirdilər, kağız-kuğuzu yığıb, aparıb təhvil verib, talon alırdılar və bu talonlara gedib Bakıdan kitab alırdılar, sonra da həmin kitabları satıb göyərçinsaxlayan özü üçün göyərçin alırdı, balıqsaxlayan özü üçün balıq alırdı, hind, ərəb kinosu olanda kinoya getmək istəyən gedib kinoya baxırdı.

Şənbə və bazar günləri kəndin itləri səhər tezdən bütün günü çimərlikdə olurdu. Bütün itlər, təkcə Dolçadan başqa. Dolçanın şənbə və bazar günləri bu çimərlikdəki kolbasa falından, qutab qırığından, toyuq sümuyündən, dondurma artığından xəbəri olmurdu, çünki Dolçanın yiyəsi Ağababa belə şeylərə çox pis baxırdı. Ağababanın əqidəsinə görə kişi gərək kişi kimi yaşayaydı və kişinin evindəkilər də gərək bu kişiyə layiq olaydı və Ağababanın bu əqidəsi elə möhkəm əqidə idi ki, Dolçanın da taleyinə təsir eləmişdi və ümumiyyətlə, əslində Ağababanın evində on bir ağız yox, on iki ağız var idi – böyüklər, uşaqlar, bir də Dolça.

Dolça kolbasanın dadını bəlkə də heç bilmirdi, bilmirdi ki, dünyada belə dadlı bir təam var, çünki Ağababagil kolbasa yemirdi və təbii ki, heç kim gedib Dolça üçün xüsusi kolbasa alıb gətirmirdi (Ağababa deyirdi ki, guya, loğman deyib ki, get bazardan can al, yəni ki, ət al; can olmasa, yarımcan al, yəni ki, yumurta al; o da olmasa, zəhrimar al, yəni qatıq al).

Adətən, Dolçaya gündə üç dəfə yemək verirdilər, səhər, günorta, axşam və Dolçanın yeməyini Ağabacı özü düzəldirdi: arpa ununu xəmir kimi yoğurub girdələyib küt düzəldirdi, hərdən arpa unu, su və duzdan ibarət yal çalırdı, bir də ki, süfrədən xörək qalırdısa, xörək qalığını Dolçaya verirdilər. Ət sümüyü hərdən olurdu. Ət bişirəndə, Ağabacı, adətən, döymәlik alırdı, çünki döymәlik ətin bərəkəti çox olurdu, ya dolma bişirirdi, ya küftə-bozbaş bişirirdi, ya uşaqların hərəsinə bir kotlet bişirirdi, amma əksərən xəmir xörəyi bişirirdi – düşbərə, qutab, gürzə, xəngəl. Düzdür, xəmir xörəyinin əziyyəti çox olurdu, amma xəmir xörəyinin doydurmağı da yaxşı olurdu və burası da təbiidir ki, döymәlik ətdən Dolçaya bir şey düşmürdü. Bəzən Ağababa səhər durub işə getməzdən əvvəl, lap sübh tezdən, hindən iki dənə yumurtlamayan toyuq, ya da xoruz çıxarıb kəsirdi və o gün Dolçanın kefi kök

olurdu, çünki təbii ki, bütün sümüklər Dolçaya qismət olurdu və xüsusən qış günləri olanda, hər tərəfi qar bürüyəndə, Dolça həyətdəki damının içində bir küncə qısılıb toyuq sümüklərini xırçıldada-xırçıldada yeyəndə itin qara gözlərində elə işıqlı, elə ılıq bir ifadə olurdu ki, həmin ılıqlıq qışın soyuğu, çovğunu ilə heç cür uyuşmurdu. Belə vaxtlarda hərdən Ağababa əlinə bel alıb damın həndəvərini qardan təmizləyəndə Dolça ağzındakı toyuq sümüyünü ehmallıca yerə qoyub damdan çıxırdı, qardan seçilməyən ağ başını Ağababanın qılçalarına, ayaqlarına elə sürtürdü ki, heyvanın bu minnətdarlığı Ağababa kimi ömrünü Abşeronun yollarında yaşamış, qara-borana düşmüş, bərkə-boşa düşmüş bir kişini də açıq-aşkar kövrəldirdi...

...Onda yazın axırları idi və həmin sonuncu yaz gecələrindən birində, düz dörd il bundan əvvəl birdən-birə göy guruldadı, şimşək çaxdı, bir payız yağışı yağmağa başladı ki, gəl görəsən, bir külək qalxdı ki, belə külək ancaq Abşeronda əsə bilərdi və həmin sonuncu yaz gecələrindən birində Ağababa da, Ağabacı da qorxdu ki, həyətdəki meynələr, əncir, nar, tut əldən getsin, amma yağış birdən-birə başladığı kimi, birdən-birə də kəsdi; külək isə əsirdi.

Həmin sonuncu yaz günü Ağababa şüşəbənddə oturub çay içə-içə qaranlıq həyətə tamaşa eləyirdi. Ağacların təzə yarpaqlamış budaqları yağışdan islanıb, qaranlıqda işıldayırdı və yayqabağı birdən-birə aləmi bürümüş bu payız özü ilə bir qəmginlik, bir hüzn gətirmişdi. Birdən-birə Ağababanın ürəyini bir xof bürüdü və Ağababa başa düşdü ki, bu xof doqquz uşağın xofudu; Ağababa birdən-birə uşaqlarını fikirləşdi, Baladadaş, Ağagül, Nuhbala, Nailə, Firuzə, Kəmalə, Amalə, Dilşad, Böyükxanım bir-bir gəlib Ağababanın gözünün qabağından keçdi: bunlar nə vaxt böyüyəcək, kim olacaq, qızlar kimə qismət olacaq, yaşayışları, güzəranları necə olacaq, oğlanların axırı gedib hara çıxacaq? Birdən-birə Ağababa bunu da fikirləşdi ki, gün keçəcək, il keçəcək, bu dünyada elə bir vaxt gəlib çatacaq ki, onda yer üzündə nəinki Ağababa, nəinki Ağabacı, bu uşaqların da heç biri olmayacaq, bir gün gələcək ki, indi ağzını açıb çörək istəyən, deyən-gülən, səs-küy salan bu uşaqlar qara torpağa qismət olacaq, yəni böyüyəcəklər, qocalacaqlar və öləcəklər. Bu qəfil fikir bircə anın içində Ağababanın bütün vücuduna soyuq tər gətirdi, kişinin gözləri qaraldı, ürəyi uçundu və Ağababa əlindəki armudu stəkanın çayını yarımçıq qoyub dizləri titrəyə-titrəyə eşiyə çıxdı, heç özü də bilmədi ki, həmin küləkli son yaz gecəsi dəniz kənarına necə düşdü, qayalığın yanına necə gəlib çıxdı.

Aydın məsələdir ki, birdən-birə Ağababanın başına girən bu fikirdə elə təzə bir şey yox idi, bir gün dünyaya gələn, bir gün dünyadan köçməlidi, burası məlum idi, amma burası da məlum oldu ki, bunu fikirləşəndə, doqquz uşağın doqquzunu da bir-bir gözünün qabağına gətirəndə və yadına salanda ki, haçansa bir-birindən aralı doqquz da gün olacaq gələcəkdə və o doqquz gün bu doqquz uşağı bir-bir aparacaq qara torpağa, az qalır adamın başına hava gəlsin, hər şey qiymətdən düşür, bu dəniz də, bu qayalıq da, bu qum da, necə ki, həmin küləkli son yaz gecəsi dünya-aləm Ağababanın gözündə bir qara qəpiyə dəyməzdi.

Sonra Ağababa dənizin kənarı ilə gəzə-gəzə insanlar barədə, dünya barədə çox fikirləşdi, fikirləşdi ki, bu dünya ki, bu qədər fanidir, onda niyə qaraj müdiri Kamalov o cür əclafdı, adam, ayıb olmasın, yanını qaşımaq istəyəndə də əlini uzadır, elə bilir ki, bu saat cibindən pul çıxarıb rüşvət verəcəksən ona və ümumiyyətlə, bu dünya ki, belə fanidir, axırı ki, qara torpaqdı, niyə adamlar bir-biriylə dalaşır, söyüşür, yola getmir, bir-birindən ərizə yazır, imzasız məktub yazır

(Qışda Rayon Icraiyyə Komitəsindən iki nəfər gəlib Ağababanın həyətini yoxlamışdı, çünki Rayon Icraiyyə Komitəsinə imzasız məktub gedibmiş ki, guya, Ağababa həyətində «parnik» düzəldib, qızılgül becərir və aparıb Moskvada vağzal qabağında satır). Ağababa bütün bunları fikirləşdi, «lənət şeytana!»– dedi, sonra kitabxanaçı Nəcəfin yasda, toyda əzbərdən dediyi şerlərdən iki misra:

Qoca cadugardı, aldadar səni,
Cavanlıq donunda qalan bu dünya

– yadına düşdü və Ağababa bir də baxıb gördü ki, yekə ayaqlarının bərabərində yanınca ağ bir küçük gedir.

Ağababanın heç xəbəri olmamışdı ki, bu küçük yanına necə düşüb. Kişi ayaq saxladı. Küçük də dayandı. Tükləri tamam islanmış, ayaqları qumlu, küləkdən üşüm-üşüm üşüyən bu küçük dəniz qırağının bu çöllü-biyabanlığında, bu kimsəsizlikdə tək-tənha idi və Ağababa da lap uşaq kimi fikirləşdi ki, ay Allahın yazıq heyvanı, sənin nə günahın var ki, dünyaya gəlirsən və dünyaya gələn kimi də tək-tənha qalırsan, yağışa, küləyə düşürsən və küçük də elə bil ki, bu küləkli qaranlıq gecədə bu dəniz böyüklüyünün, bu yer-göy böyüklüyünün müqabilində özündən başqa yeganə məxluqun ürəyindəki bu mərhəməti hiss elədi, bu dəfə Ağababanın lap ayaqlarına dolaşmağa başladı. Bir müddət beləcə gəzişdilər, sonra Ağababa evə qayıtmaq istədi, böyüklü-kiçikli doqquz balasının yanına qayıtmaq istədi, amma küçük ondan ayrılmadı və əlbəttə, Ağababa o vaxt bilmirdi ki, bu küçük daha öz ömrunü həmişəlik bağlayıb Ağababagilə, bu küçük onların həyətində böyüyəcək, onların iti olacaq, özü də ağıllı it olacaq, adı da Dolça olacaq.

Ağababa kəndə qalxanda küçüyü azdırmaq istədi, amma mümkün olmadı, küçük bir qarış da uzaq durmurdu, kişi hara gedirdisə, küçük də onun şalvarının balaqlarına dolaşa-dolaşa yanınca gedirdi.

Bu küçük gülməli küçük idi və ən qəribəsi bu oldu ki, küçük, Ağababanın başındakı bəd fikirləri tamam dağıtdı, özünün balacalığıyla, inadıyla Ağababanın kefini açdı.

Ağababa şüşəbəndə girəndə küçük də onunla birlikdə içəri girdi, qızlar küçüyü görüb hay-küy saldı, kimin əlinə nə keçdi gətirib qoydu küçüyün qabağına. Ağagül qaçdı qarovulçu Həsənullanı çağırsın ki, gəlib bu küçüyə baxsın və küçük də dünyanın bu istisindən, dünyanın bu yağışsızlığından, küləksizliyindən ləzzət aldı, hamının xoşuna gəldi və o gündən də oldu bu evin iti...

...Qayaların arxasından əvvəlcə Əmirqulunun səsi gəldi:

– Tapacıyıq onu! Tapacıyıq onu!

Sonra Əmirqulunun özü göründü – elə bil bu sakit gündə, günün bu cırhacırında səssiz-səmirsiz, gözəgörünməz bir külək əsirdi və bu külək ancaq Əmirquluya təsir edirdi: Əmirqulu zivəyə sərilmiş paltar kimi yellənirdi, sonra əlində tüfəng tutmuş quşvuran Fazil, sonra da bağban Əsədulla göründü, sonra çığır-bağırla, hay-küylə onların ardınca gələn bir dəstə uşaq göründü.

Əmirqulu əlini yuxarı qaldırıb:

– Tapacıyıq onu! Tapacıyıq onu! – deyirdi, özü də bu sözləri deyə-deyə, yavaş-yavaş, yellənə-yellənə ayaqlarının altına baxırdı, elə bil Alabaş yox, Xeyransanın nişan üzüyü itmişdi və Əmirqulu da bu üzüyü qumda axtarırdı (Xeyransa hərdən Əmirquluya deyirdi: «– Sənin nişan üzüyünü barmağıma taxdığım gün başıma bir qara daş düşəydi, necə ki, düşüb də elə»).

Quşvuran Fazil və butün bu adamların hamısı həmin sakit yay günü Alabaşı axtarırdı.

Kəndə xəbər yayılmışdı ki, Alabaş qayalıq tərəfdədi və bu gün səhər az qalıbmış milisioner Səfəri qapsın, milisioner Səfərin də belindəki qoburunda tapança yox, həmişəki kimi, günorta yemək üçün yaxmac var imiş, ona görə də iti vura bilməyib (Gizlində xırda alverçiliklə məşğul olan və kənddə milisioner Səfərdən ən birinci zəhləsi gedən Zübeydə bu xəbəri eşidəndə: «–Ay nə olardı! – dedi. – Əsədullanın qudurmuş iti milisioner Səfərin yumşaq yerindən, – Zübeydə həmin yeri adıyla dedi, – bir tikə qoparaydı gərək!»).

Bağban Əsədulla öz tüfəngini götürmədi:

– Alabaşı vurmağa əlim gəlməz! – dedi və həmişə belə bir şey axtaran quşvuran Fazilgilə getdi və indi də hamı bir yerdə qayalığa qalxıb Alabaşı axtarmağa başlamışdı.

Dolça diqqətlə bu adamlara baxdı. Dolça bu adamların hamısını tanıyırdı və quşvuran Fazilin əlində tutduğu bu uzun şeyin də nə olduğunu bilirdi.

Dolça bu adamlara baxdı, sonra sakit və gömgöy dənizə baxdı, tərtəmiz göyə baxdı, sarı qumluğa baxdı, təzədən adamlara baxdı və Dolça elə bil ki, bu sakitlik müqabilindəki bu hay-küyə təəccüb elədi, elə bil, adamları başa düşmədi, başa düşmədi ki, niyə bu adamlar bu dənizdə çimmək əvəzinə, bu qumda uzanmaq əvəzinə, bu gündə qızınmaq əvəzinə o uzun şeyi əllərinə alıb beləcə hay-küylə düşüblər qayalığın canına.

Sonra Dolça nə fikirləşdisə qaça-qaça qayalığa qalxdı, bu adamların dalına düşdü. Əmirqulu əlini yuxarı qaldırıb elə hey:

– Tapacıyıq onu! Tapacıyıq onu! – deyirdi, amma hələ ki, Alabaşdan bir əsər-əlamət yox idi.

Çılpaq qayalar günün altında elə qızmışdı ki, Dolça bir yerdə dayana bilmirdi, tez-tez ayağının birini götürüb o birini qoyurdu. Bir neçə gün bundan qabaq elə-beləcə istidə birdən-birə hava tutulmuşdu– havanın birdən-birə dəyişməyinə qaldı, Abşerona qaldı! – yağış yağmışdı və qayaların çuxurlarında, ovuqlarında hələ də su qalmışdı və Dolça da belə sucuqlar görən kimi, ora atılırdı, ayaqlarını yaş eləyirdi, bir müddət sucuqda dayanırdı, adamlar qayaların arasını axtara-axtara hay-küylə uzaqlaşanda təzədən onların ardınca qaçırdı.

– Tapacıyıq onu! Tapacıyıq onu!

Quşvuran Fazil tüfəngi qaldırıb göyə bir güllə buraxdı və dəniz kənarındakı həmin isti yay gününün hər tərəfi bürümüş sakitliyi birinci dəfə belə pozuldu.

Bu qəfil güllə səsindən o tək cüllüt də səksənib havaya qalxdı.

Dolça ayağının birini götürüb o birini qoya-qoya qara gözlərini qıyıb göyə baxdı və elə bil təəccüb elədi ki, bir halda ki, göydən heç nə düşmədi, deməli, göydə heç nə yoxdu və hərgah göydə heç nə yoxdusa, onda bu uzun şeyi niyə bu təmiz, bu sakit göyə tuşlayıb partlatdılar?

Quşvuran Fazil dedi:

– Bu tüfənglə ayı vurmuşam e, mən, bir it nədi ki? Bu saat sovuraciyəm beynini göyə!

Bağban Əsədulla quşvuran Fazilin ardınca gedə-gedə və yazıq Alabaşın aqibətini bildiyi üçün ürəyi də əsə-əsə öz-özünə dedi: «– Bay sənin atova lənət! Atası da elə özü kimi çaqqal idi. Əclaf oğluna elə bil ki, medal verəcəklər it vurmağına görə! Xəncərlə adam başını qoyun başı kimi kəsər, «uf» deməz!»

Əmirqulu əlini yuxarı qaldırıb:

– Tapacıyıq onu! – dedi. – Tapacıyıq onu! – Sonra yellənə-yellənə gedə-gedə də iki əliylə şalvarının belindən tutub yuxarı çəkdi, çünki həmişəki kimi yenə də şalvarı əynindən düşürdü.

Bu vaxt qabaqdakı sal qayanın arxasından bir it atılıb onlara tərəf qaçdı və quşvuran Fazilin tüfəngi sinəsinə sıxması ilə bağban Əsədullanın əl atıb tüfəngin ağzını yana eləməsi bir oldu və atılan güllə bu dəfə lap sahildə dənizi deşdi.

Bağban Əsədulla:

– Görmürsən başqa itdi?! – qışqırdı. Qaça-qaça özünü qayalığın üstündəki bu adamlara yetirmək istəyən Tavar güllədən hürkdü və bu dəfə, elə bil ki, güllə ona dəymişdi, zingildəyə-zingildəyə bu adamlardan kənara – yuxarı tərəfə qaçmağa başladı; Tavar dəhşətli bir qorxu içində idi.

Dolça Tavarın qaçmağına baxdı, güllənin dənizi deşdiyi yerə baxdı, sonra tez-tez ayağının birini götürüb o birini qoya-qoya yenə bu adamların dalına düşdü və elə bu zaman bütün bu tərəfləri adamın tükünü biz-biz eləyən it boğuşmasının səsi bürüdü. Hamı yerində donub qaldı və birdən-birə hər tərəfi bürümüş bu it zingiltisinin, hənirtisinin təsirindən quşvuran Fazilin əlləri titrəməyə başladı və bağban Əsədulla da quşvuran Fazilin titrəyən əllərinə baxıb: «– Ay sən öləsən! – fikirləşdi, – Ayıvurana bax!».

Əmirqulu bir neçə addım qabağa atdı, özü də daha yellənmirdi, elə bil ki, möcüzə baş vermişdi, bu boğuşma səsi Əmirqulunu ayıltmışdı və günün bu vaxtında, günorta çağı Əmirqulu ayıq idi.

Quşvuran Fazillə bağban Əsədulla da bir-iki addım qabağa atdı. Uşaqlar səslərini kəsib yerlərindən tərpənmədi. Dolça uşaqlarla böyüklərin arasında dal ayaqları üstə oturub dilini çıxartdı və günün altında ləhləməyə başladı. Quşvuran Fazil çönüb Dolçaya baxdı və təəccüb elədi ki, Ağababanın iti itlər boğuşan tərəfə heç hürmür də.

Əmirqulu bir-iki addım da qabağa yeridi və bu vaxt sal bir qaya parçasının arxasından görünən Alabaş qıcırtmış dişlərini Sarıbaşın boğazından çəkib Əmirquluya tərəf atıldı. Əmirquludan heyvani bir çığırtı qopdu və qorxudan bircə anın içində gözləri böyüyüb az qaldı hədəqəsindən çıxsın, saçları qabardı və yazıq Əmirqulu həmin heyvani çığırtı ilə çığıra-çığıra da qaçmağa başladı.

Alabaşı təkcə yekəliyindən, kəsilmiş qulaqlarından, kəsilmiş quyruğundan tanımaq olardı, yoxsa ki, Alabaş Alabaş deyildi daha, bu üç gündə keçəlləmişdi, pıçalaqlı gözləri iriləşmiş, qıpqırmızı qızarmışdı, baxışlarından dəlilik yağırdı, ağzından köpük axırdı.

Əmirqulu həmin heyvani səslə qışqıra-qışqıra qaçırdı (uşaqlar bir azdan kəndə belə bir xəbər yaydılar ki, bağban Əsədullanın qudurmuş iti Əmirqulunu qovanda, Əmirqulu qaça-qaça qorxudan Xeyransanı köməyə çağırırmış) və Alabaş az qala ona yetəyetdə bağban Əsədulla quşvuran Fazilin lap qulağının dibində bağırdı:

– Alə, at də!

Quşvuran Fazil gözlərini, zingildəyə-zingildəyə yerində qıvrılan Sarıbaşdan çəkib tüfəngi döşünə sıxdı və güllənin açılmağı ilə də Alabaşın göyə atılıb yerə düşməsi bir oldu və bağban Əsədulla bu dəfə, istər-istəməz, fikrindən keçirdi ki, – yaxşı atır köpəkoğlu.

Alabaş qabaq ayaqlarının dırnağı ilə qayanı cırmaqladı, bir-iki dəfə o tərəf-bu tərəfə qovruldu, sonra qabaq və dal ayaqlarını gücü gəldikcə uzadıb axırıncı nəfəsini buraxdı.

Ağzının kənarlarından, boğazından, böyründən qan axan Sarıbaş səndələyə-səndələyə ayağa qalxdı, qayanın üstünə düşüb qalmış Alabaşa baxdı, sonra əlində tüfəng tutmuş quşvuran Fazilə baxdı və itin dəhşət, qorxu və ağrı dolu gözlərində birdən-birə bir sevinc qığılcımı parladı və Sarıbaş səndələyə-səndələyə, bədəninin qanı arxasınca zolaq sala-sala yiyəsinə tərəf gəldi.

Hamı gözünü Alabaşdan çəkib Sarıbaşa baxırdı və bu dəm bu tərəflər yenə də tamam sakitlik içində idi.

Quşvuran Fazil:

– Səndən day it olmaz! – dedi, kənd kişilərinin qaydasını pozub uşaqların yanında çox biədəb bir söyüş söydü və tüfəngi döşünə sıxıb Sarıbaşı düz alnının ortasından vurdu.

Həmin yay gününün sakitliyini quşvuran Fazilin dördüncü gülləsi beləcə pozdu və səhərdən bəri dal ayaqlarının üstündə necə oturmuşdusa eləcə də oturan Dolça bu dördüncü güllədən sonra ağzını uzadıb quşvuran Fazilə iki dəfə hürdü.

Quşvuran Fazil Dolçanın yanından keçəndə hirsindən təpiklə bu iti vurub zingildətmək istədi, amma bu itin Ağababanın iti olduğunu yadına saldı və burasını da fikirləşdi ki, Ağababayla belə zarafatın axırı onunçun yaxşı qurtarmaz. Dolçanı vurmadı, təkcə tüpürdü Dolçaya sarı və bu dəfə bərkdən yox, dodaqaltı çox biədəb bir söyüş söydü.

Quşvuran Fazil, bağban Əsədulla, uşaqlar qayalıqdan düşüb kəndə tərəf getdi: quşvuran Fazil getdi ki, görsün hirsini kimin üstünə tökür, arvadının, ya qaynının, ya da başqa bir adamın üstünə; bağban Əsədulla getdi ki, evdən bel götürsün, külüng götürsün, gəlib itlərin cəsədini basdırsın ki, günün altında qayalıqda qalıb iylənməsinlər; uşaqlar getdi ki, bütün bu əhvalatı görməyənlərə danışsınlar.

Hamı getdi. Təkcə Dolça bayaqdan bəri dayandığı yerdə də dayanmışdı.

Dəniz əvvəlki kimi gömgöy və sakit idi. Göy buludsuz, günəşli idi. Sahil yenə bomboş idi. Dəniz günəşdən alışıb-yanırdı. Sahil boyu qumdan ilğım qalxırdı və bu dəm bu sakitlik, rahatlıq içində bayaq açılan o dörd güllə də elə bil ki, çox-çox uzaqlarda qalmışdı, elə bil ki, çox-çox uzaqların söhbəti idi bu, elə bil ki, bu sakitlikdə, bu mülayimlikdə nə güllə açıla bilərdi, nə it boğuşa bilərdi.

Dolça yenə göyə, yenə dənizə baxdı, yenə sahilə baxdı və yenə həmin tək cüllütü sahildə gördü, amma Dolça daha cüllütə tərəf qaçmadı.

O ki qaldı Əmirquluya, Əmirqulunun şalvarı bayaq yaş olmuşdu və Əmirqulu özünü qayalığın aşağısına verdi ki, şalvarını çıxarıb qurutsun, sonra görsün gedib harda başına nə çarə qılır.

Əmirqulu, axır vaxtlar belə ayılmamışdı, belə ayıq olmamışdı və təbii ki, belə ayıqlığa dözmək müsibəti-kəbir idi.

Belə-belə işlər, necə deyərlər, kəpənək məni dişlər.

## III

Həmin sakit, təmiz yay gününün axşamı idi və Ağababagil yığışıb oturmuşdu şüşəbənddə. Ağababagilin hamısının şüşəbənddə yığışmağının üç səbəbi ola bilərdi: ya Ağabacı nəsə dadlı bir şey bişirmişdi və hamı da yığışmışdı ki, bu dadlı şeyi yesin, ya bir azdan televizorda Zeynəb Xanlarovanın konserti başlayacaqdı, ya da Baladadaşdan, Ağagüldən məktub gəlmişdi və hamı bir yerdə bu məktubu oxuyub qulaq asırdı.

Budəfəki səbəb məktub idi və həmin məktubu Ağagül Nuhbalaya yazmışdı və indi Nuhbala da bu məktubu bərkdən oxuyurdu, hamı da cani-dildən həmin məktuba qulaq asırdı.

Ağagül belə bir məktub yazmışdı:

*«Qələmi çernildə bir az saxladım,*
*Bu qısa məktubu belə başladım.*

*Əziz kiçik qardaşım Nuhbala, salamdan sonra bizi xəbər alsan əgər, mən sağ və salamatam və sənin də sağ-salamat olmanı arzu edirəm.*

*Nuhbala, sən indi evimizdə bir qardaşsan və sən gərək elə eləyəsən ki, mənim də, böyük qardaşımız Baladadaşın da papağını yerə soxan olmasın, qızların üstündə gözün olsun və sən indi gərək elə eləyəsən ki, onlar çox ədəbli qızlar olsun, necə ki, bizim anamız Ağabacı çox ədəbli arvaddır. (Bu yerdə Ağabacı özünü saxlaya bilməyib dəsmalla gözlərini sildi. «– Ayaqlaruvun altında ölüm sənin, Ağagül» – dedi.)*

*Nuhbala, indi sən gərək atamız Ağababaya da çox kömək eləyəsən, çünki o boyda külfəti saxlamaq çox çətindi, özü də atamız Ağababa çox kişi adamdı. (Bu yerdə Ağababanın gözləri doldu və uşaqlar bunu görməsin deyə kişi tez üzünü pəncərəyə tərəf çevirdi ki, guya, dənizə baxır, amma Ağabacı da, uşaqlar da başa düşdü ki, kişi kövrəlib və təbii ki, heç kim bunu üzə vurmadı.)*

*Nuhbala, uzaqda olanda çox şey fikirləşir adam. Qayıdıb gələndə mən də qollarımı çirmələyim gərək, pul qazanım gərək, nöşün ki, qızları biz gərək öz adımıza layiq köçürək.*

*Nuhbala, qalanını gələn məktubumda yazaram. Uzağı yaxın eləyib evdəkilərin hamısını öpürəm. Məndən atamız Ağababaya, anamız Ağabacıya, Nailəyə, Firuzəyə, Kəmaləyə, Amaləyə, Dilşada, Böyükxanıma salam de.*

*Nuhbala, Dolçadan da muğayat ol.*

*Imza özüm,*
*Qurtardı sözüm.*
*Ortancıl qardaşın Ağagül».*

Ağagül əsgər paltarında çəkdirdiyi bir şəkil də qoymuşdu zərfin içinə və həmin şəklin arxasına da qırmızı karandaşla darağın ağzı boyda üç titrək xətt çəkmişdi və bu üç qırmızı titrək xəttin üstündə yazmışdı:

*«Əziz kiçik qardaşım Nuhbala! Baxanda xatırlama, xatırlayanda bax!».*

Həmin şüşəbənddə, həmin sakit, təmiz yay gününün axşamı Ağagülün əsgər paltarında çəkdirdiyi şəkil neçənci dəfə bir-bir bacılarının, qardaşının, anasının, atasının əlində gəzdi və Ağababa həmin axşam yenə darıxdı, yerindən qalxıb şüşəbənddən həyətə düşə-düşə günortadan bəri birinci dəfə arvadını dindirdi:

– Sabah aş bişir!

Bu o demək idi ki, sabah sübh tezdən Ağababa işə getməzdən əvvəl toyuqlardan ikisini hindən çıxarıb kəsəcəkdi və axşamüstü hamı şüşəbəndə yığışıb aş yeyəcəkdi və Ağabacı Ağababanın payını ayrıca bir qazana çəkib saxlayacaqdı, gecə Ağababa işdən gələndən sonra Ağabacı qazanı qızdıracaqdı, Ağababanın payını çəkib özü də oturacaqdı yanında və kənddəki təzə xəbərləri bir-bir danışa-danışa Ağababanın aş yeməyinə tamaşa eləyəcəkdi.

Ağabacı:

– Ağəz, tez olun! – dedi. – Nailə, düyünü gətir! Firuzə, o stəkanı gətir ordan! Dilşad, ləyəni ver!

Ağabacı aş bişirəndə on-on iki stəkan düyünün aşını bişirirdi, çünki külfət böyük idi, aşın qarası azlıq eləyirdi, uşaqlar isə düyünü çörəklə yemirdi və buna görə də düyü çox olduğu üçün Ağabacı düyünü axşamdan arıtlamağa başlayırdı.

Nailə düyünü gətirdi. Firuzə stəkan gətirdi. Dilşad ləyən gətirdi. Kəmalə, Amalə, Böyükxanım da mizin arxasına keçdi. Ağabacı kisədən on iki stəkan düyü götürüb ləyənə tökdü və ləyəni qoydu mizin ortasına. Qızlar da, Ağabacı da hərə bir tərəfdən ləyəndən bir ovuc düyü götürüb tökdü qabağındakı müşəmbənin üstünə.

Nuhbala Ağagülün məktubunu zərfin içinə qoydu və zərfi aparıb otaqdakı paltar dolabının, evin qiymətli şeyləri – Ağabacının nişan üzüyü, bir də zümrüd qaşlı üzüyü, Ağababanın partiya bileti, Baladadaşın məktubları, işıqpulunun qəbzləri və bu sayaq başqa şeylər olan gözünə qoydu, sonra Ağagülün əsgər paltarlı şəklini otağın yuxarı başında, divardan asılmış girdə güzgünün yuxarısına, böyük qardaşı Baladadaşın əsgər paltarlı şəklinin yanına keçirdi. Sonra evdən çıxıb həyətin ortasındakı talvara qalxdı, şalvarını, köynəyini çıxarıb yerinə girdi, şalvarının cibindən bir «Avrora» siqareti çıxarıb ovcunun içində gizlincə yandırdı ki, Ağababa görməsin və gizlincə də bir-iki dərin qullab vurub başını yastığa qoydu, göyə baxdı, ulduzlara baxdı, birdən-birə Nuhbala özünü də əsgər paltarında gördü, gördü ki, evlərinə məktub yollayıb və hamı da şüşəbəndə yığışıb onun məktubunu oxuyur, anası Ağabacı dəsmalla gözlərini silib onunçun deyir: «– Ayaqlaruvun altında ölüm sənün, Nuhbala!», atası Ağababa onunçun kövrəlir və sabahkı aş da onun məktubuna görə bişir və bu saat Nuhbalanın belə bir əsgər məktubunu Nərgiz də qardaşlarından qorxa-qorxa, gizlincə-gizlincə oxuyur. Nuhbala bu dəfə siqaretdən lap dərin bir qullab alıb bütün sinəsinə çəkdi.

Kəndin aşağısında bir sanatoriya tikmişdilər və bu ildən həmin sanatoriya işə başlamışdı, bu ildən də kənddə ağcaqanad azalmışdı, çünki aşağı tərəfdə – qayalıqla kəndin arasındakı qamışlığa vertalyotla dərman səpmişdilər və gör bu dərmandan sonra iş nə yerə çatmışdı ki, Nuhbala həmin bürkülü yay gecəsi miçətkənsiz-zadsız uzanmışdı talvarda və ulduzlara baxa-baxa Nərgiz barədə və ümumiyyətlə, bu dünyanın eşq-məhəbbət məsələləri barədə fikirləşirdi.

Həmin gecə də günorta kimi tamam sakit idi. Göy aylı-ulduzlu idi və ya da bu sakit gecələrdə həmişəki kimi, dənizə işım-işım işıldayan bir payəndaz salmışdı və xırda ləpələr də o işıq zolağını elə hey sahilə axıdırdı. Kənd hələ yatmamışdı, pəncərələr oyaq idi, darvazaların üstündən, küçələrdəki şalbanlardan asılmış elektrik lampaları yanırdı. Küçələr bomboş idi, hətta cavanlar, yeniyetmələr də vağzal bağına, kinoteatrın, klubun qabağına yığışıb futboldan danışmırdı, meyxana demirdi. Bürkünün əlindən hamı özünü həyət-bacaya vermişdi. Bütün bu tərəflərin sakitliyini hərdən Bakıya gedən və Bakıdan gələn elektrik qatarlarının səsi pozurdu və bir də

ki, radio ilə Hacıbaba Hüseynovun muğamat konsertini verirdilər, kəndin ayrı-ayrı evlərindən Hacıbaba Hüseynovun səsi gəlirdi və bu dəm adama da elə gəlirdi ki, kənddə bir neçə müğənni pəsdən xor oxuyur.

Hacıbaba Hüseynov indi də Füzulinin sözlərinə təsnif oxuyurdu və bu təsnif bu dəm Nuhbalanın ürəyindən xəbər verirdi, amma bu boyda kənddə heç kimin xəbəri yox idi ki, bu sözləri Hacıbaba Hüseynov Nuhbalaya deyir:

Dil vermə qəmi-eşqə ki, eşq afəti-candır,
Eşq afəti-can olduğu məşhuri cahandır.

Əlbəttə, bütün kənd camaatı kimi, Ağababanın da bu işdən xəbəri yox idi və Ağababa bu dəm həyətdə də qərar tuta bilmədi, darvazanın bala qapısını açıb küçəyə çıxdı ki, bəlkə kəndin kişilərindən çöldə-bayırda olanı var, bir az dərd-dur eləsinlər, fikri dağılsın, amma o gecə elə bil ki, Ağababanın üstünə pişik asqırmışdı, kişi küçəyə çıxan kimi, əvvəlcə burnuna spirt iyi gəldi, sonra Əmirqulu tini burulub yellənə-yellənə çıxdı qabağına və Ağababanı görüb dayandı, dayandığı yerdə bir balaca yelləndi, sonra dedi:

– Yerin məlum, Ağababa, bu saat dəvə qutabı yemişəm bəs deyənəcən, durmuşam ayağa, mən ölüm!

Ağababa:

– Əcəb eləmisən, – dedi. – Nuş can!

Və Ağababa bu sözləri deyib təzədən həyətə girdi.

Aydın məsələdir ki, Əmirqulu özündən toqquşdururdu, bu kənddə və ümumiyyətlə, bu tərəflərdə axırıncı dəvəni bütün kəndi gəzdirib müştəri yığıb ən tezi iyirmi-iyirmi beş il bundan əvvəl kəsmişdilər və Əmirqulu dəvə qutabını, ancaq yatıb yuxusunda yeyə bilərdi – burası tamam doğru idi, amam burası məlum deyildi ki, Ağababaya nə olub, Ağagülün məktubundakı o gözəl sözlərdən sonra sevinib şad olmaqdansa, elə bil ki, birdən-birə bu böyük külfətin xofu yenə kişini basmışdı; oğlanlar kişi idilər, onlar heç, amma qızlar yenə bir-bir gəlib Ağababanın gözlərinin qabağından keçdi, Nailə də, Firuzə də, Kəmalə də, Amalə də, Dilşad da, Böyükxanım da Ağababanın düz gözlərinin içinə baxdı və bu qədər qız azmış kimi, biri də dünyaya təpik ata-ata gəlhagəldədi; amma nə bilir ki, qız olacaq bu da; qız ya oğlan, Ağababa üçün fərqi yox idi, övlad övlad idi, məsələ bunda deyildi. Bəs nədə idi?

Kəndin pəncərələri yavaş-yavaş yatmağa başladı.

Radionun, televizorun səsi kəsildi. Yarasalar ova çıxdı. Yüngül gilavar əsməyə başladı və bu yüngül külək əncir, meynə yarpaqlarını dənizə tərəf əsdirdi.

Və həmin gecə Ağababa Ağabacının yanında yerinə girməzdən əvvəl ağ çit tumanının bağlarını aça-aça:

– Yaxşı, – dedi. – Necə bilirsən, elə də elə, amma fərli adamlar olsun.

Ağababa bu sözləri dedi və ürəyində də fikirləşdi ki, hardadı indi fərli adam, sonra yerinə girdi, Ağabacının qılçı qılçına toxundu və bu dəfə fikirləşdi ki, nə fərli adam, fərsiz adam söhbətidi bu, nə olub axı, nə xəbərdi?

Ağabacının üzü güldü və arvad rahat bir nəfəs alıb, elə bil ki, öz şəxsi nəfi üçün evi kirayə verirdi, dedi:

– Sənə qurban olum, ay Ağababa, çox sağ ol!

Bir azdan Ağababanın xorultusu bütün həyətə yayıldı. Ağababanın xoruldamağı kənddə məşhur idi və bu kəndin heç bir kişisi xoruldamaqda Ağababaya çata bilməzdi. (Bir dəfə qonşuları Xeyransa kəndin arvadlarına şikayət eləmişdi ki, gecələr Ağababanın xorultusunun səsindən yata bilmirəm və Ağabacı da bu sözü eşidib Xeyransa ilə dava eləmişdi ki, səni külbaş Əmirqulunun dərdi qoymasın yatmağa, mənim ərimin xorultusunda nə işin? Amma bu çoxdanın söhbətidi, indi Xeyransa da, Ağabacı da qonşuluqda bir-birlərindən xeyli razı idilər.) Uşaqlar da, Ağabacının özü də Ağababanın xorultusuna elə öyrəşmişdilər ki, Ağababa hərdən gecələr evdə olmayanda, rayona avtobus sürəndə, yəni ki, Ağababanın xorultusu gəlməyəndə yuxuya gedə bilmirdilər; Ağababanın xorultusu gəlməyəndə elə bil ki, bütün bu ev, bu həyət başsız idi, yiyəsiz idi, baxımsız idi.

Yay vaxtı Ağababa ilə Ağabacı evin kəllə tərəfindəki balaca artırmada yatırdı və yatmaq vaxtı gələndə uşaqlar həyətin bu tərəfinə ayaq basmazdı. Qızların yeri şüşəbənddəki palazın üstündə salınırdı. Oğlanlar yazın axırlarından həyətdəki talvara qalxırdı və o talvarda indi təkcə Nuhbala qalmışdı və Nuhbala da dünyanın eşq-məhəbbət məsələlərini fikirləşib, fikirləşib bu dəm şirin-şirin yatmaqda idi. Qızlar da hamısı yan-yana uzanıb, üstlərinə də soruq salıb yuxuya getmişdi. Ağabacı gələcək kirayənişinlərini fikirləşirdi və elə bu fikirlərlə də arvadı yuxu apardı...

Dolça tut ağacının yanında dayanıb qulaqlarını şəklədi və diqqətlə həyətin aşağı başındakı hasarın dibinə baxdı, sonra yerindən sıçrayıb hasara tərəf qaçdı, amma dovşan Dolçadan tez atılıb yuvasına girdi.

Son vaxtlar bir tərəfdən xır salanlar, bir tərəfdən də göy alverçiləri, gül alverçiləri öz xüsusi sahələrinə, üzümlüyə, zeytunluğa və ümumiyyətlə, bütün bu tərəfin torpağına o qədər cürbəcür dərmanlar səpmişdi, gübrə vurmuşdu, zəhərli maddələr tökmüşdülər ki, dovşanlar çöllərdən həyətlərə köçmüşdü. Elə bil dovşanlar başa düşmüşdü ki, bu həyətin sahibi, yəni ki, Ağababa halal zəhmətnən dolanan adamdı, dərmanla, zəhərli maddələrlə işi yoxdu, çünki Ağababa nə bazara kisə-kisə göy aparıb satırdı, nə də qış ayları Moskva, Leninqrad vağzallarının qabağında dayanıb qızılgül satırdı. Ağababa dədə-baba qaydasıyla, halallıqla həyətinin torpağını becərirdi və tərəvəzi də, əncir-üzümü də, narı, əriyi, tutu, heyvası, badamı da öz külfətini ancaq görürdü, o ki qaldı qızılgülə, qışda xəşil ilə yemək üçün doşab olanda, səhər-səhər çay-çörəklə yeməyə əncir mürəbbəsi olanda, bir sözlə, Ağabacının bu həyətin barından düzəltdiyi və sairə tədarüklər olanda, qızılgülsüz də keçinmək mümkün idi. Nə isə, dovşanlar elə bil Ağababagili tanımışdı, həyətin aşağı başı başdan-başa dovşan yuvası idi. Əlbəttə, dovşanların ağlı kəsmədiyi bir cəhət də var idi: əvvəla, Ağabacı dovşan ətindən iyrənirdi, deyirdi ki, dovşanın ayaqları pişik ayağına oxşayır və dovşan əti yeməkdənsə, kartof qızardıb yemək yaxşıdı, o biri tərəfdən də Ağababaya belə gəlirdi ki, bu dovşanları öldürüb yuvasını dağıtmaq bu xartutu və yaxud da o heyva ağacını dibindən doğramaq kimi bir şeydi.

Dolça isə öz işini bilirdi, dovşanları evin dalındakı bostana yaxın buraxmırdı və dovşanlar da daha Dolçanı tanıyırdı; dovşanlar bilirdi ki, gecə, sakitlik çökəndə, adamlar yox olanda bu ağ it buralarda gəzişməyə başlayacaq və bu ağ it hirsli deyil, qorxulu deyil, hər halda bu ağ it ilə bir həyətdə yaşamaq mümkündü.

Milisioner Səfər deyirdi ki, it sahibinin xasiyyəti necədisə, itin də xasiyyəti elə eləcə olur. Milisioner Səfər deyirdi ki, bax, misal üçün, quşvuran Fazilin tulası (bu gün günorta bağban Əsədullanın qudurmuş itinin qapdığı və quşvuran Fazilin vurub

öldürdüyü Sarıbaş) xasiyyətdə, hətta görkəmdə də elə bil ki, yiyəsinin burnundan düşüb. (Kəndin uşaqları deyirdi ki, quşvuran Fazil ovladığı quşların başını kəsib Sarıbaşa verirmiş və tula buna elə adət edib ki, ovu tapan kimi, sahibini gözləməmiş başını qoparıb yeyirmiş, quşvuran Fazil də heç nə olmayıbmış kimi, həmin quşları aparıb Bakı bazarlarında camaata satırmış və guya bu işin ucbatından xəstələnənlər də olub Bakıda; bir də deyirdilər ki, quşvuran Fazilin tulası murdar ət yeyir, çünki Sarıbaş səhərdən axşamacan su dümləyirdi.) Milisioner Səfər deyirdi ki, bax, misal üçün, götürək Ağababanın bu ağ itini, doğrudan da bütün xasiyyətini öz yiyəsindən götürüb, çox gözütox itdi.

Bostanda yenə yemiş partladı və Dolça qulaqlarını şəkləyib bostan tərəfə baxdı. Bağban Əsədulla Özbəkistandan tezyetişən yemiş növü gətirib əkmişdi həyətində və üzümlər hələ qoralamamış bu yekə sarı yemişlər yetişib yeməli olurdu. Bağban Əsədulla xüsusi hörmət əlaməti olaraq bu tezyetişən yemiş növündən Ağababaya da toxum vermişdi və bu il Ağababanın bostanında toxumu Özbəkistandan gətirilmiş həmin yemişlər sapsarı saralıb böyümüşdülər, yetişmişdilər. Bu yemişlər gecələr, nisbətən sərinlik olanda partapartla partlayıb öz-özünə parçalanırdı. Dolça əvvəllər başa düşmürdü ki, bu partapart nədi belə, amma sonra başa düşdü ki, yemişlərin işidi bu.

Sonra Dolça quyunun başındakı şalbandan asılmış elektrik lampasının işığında sürətlə uçub-keçən yarasaya baxdı, sonra odun doğranan kötüyün üstünə qalxdı, oradan hinin damına qalxdı, hinin damından da daş hasarın üstünə çıxdı və dənizə tərəf baxdı.

Dolça ay işığında işıldayan qara gözlərini bir müddət dəniz tərəfdən çəkmədi.

Dolça bəlkə o tək cüllütü yadına saldı, bəlkə dənizlə bağlı yadına düşəcək başqa şeylər var idi? – Hər halda Dolça fikirləşirdi; baxışıyla, duruşuyla fikirləşirdi və beləcə hasarın üstündə dayanıb dənizə tərəf baxdı, sonra başını dəniz tərəfdən çöndərib kəndin yatmış evlərinə baxdı, yenə də qulaqlarını şəkləyib qulaq asdı – sahibinin xorultusundan başqa, hərdənbir tuppatupla yerə dəyən küknar qozalarının tappıltısından başqa, bir də ki, hasarın o tayında, küçədə, «ehsan tutu» deyilən yüz yaşını keçmiş xartut ağacının xışıltısından – yüngül gilavar tutun yarpaqlarını səsləndirirdi – başqa bir səs yox idi. Dolça başını qaldırıb zəndlə «ehsan tutu»nun şaxəli qol-budağına, qaranlıqda bir-birindən seçilməyən, hamısı bir yerdə bütöv bir şey kimi qaralan yarpaqlarına baxdı.

Kənddə deyirdilər ki, bu tut ağacını yüz neçə il bundan əvvəl Məşədi Muxtar adında bir kişi əkib və guya, bu Məşədi Muxtar milisioner Səfərin arvadının ulu babasıdı; Məşədi Muxtarın Əhməd adında doqquz yaşlı oğlu dənizdə batıb ölüb və Məşədi Muxtar da bu xartutu küçədə əkib, küçədə baxıb-becərib ki, yoldan ötən, ürəyi yanan ağzına bir tut qoysun və Əhmədin ruhu şad olsun. Kənddə bu ağaca «Məşəd Muxtar tutu» da deyirdilər, «Əhməd ağacı» da deyirdilər, amma əksərən «ehsan tutu» deyirdilər. Əlbəttə, Dolçanın bütün bunlardan xəbəri yox idi, amma yayın bu vaxtında, yəni iyulun əvvəllərində gündüzlər bu ağacın böyük kölgəliyi, qol-budağı kəndin uşaqları ilə dolu olardı və bəlkə də Dolça da indi bunu yadına saldı, gündüzün o səs-küyündən, o hay-həşirindən sonra gecənin bu səssizliyinə, tutun bu xışıltısına qulaq asdı və yalnız bundan sonra könülsüz-könülsüz başını çöndərib qayalığa tərəf baxdı, elə bil ki, bayaqdan ora-bura baxmalar, qulaq asmalar bir hazırlıq imiş, əsas qayalıq imiş.

Dolça gözlərini o tərəf-bu tərəfə dolandırırdı, guya ki, təsadüfən qayalığa nəzər salırdı, sonra da tez gözünü oradan yayındırırdı, elə bil ki, bu qayalıqlarla əlaqədar Dolçanın suçlu bir işi var idi, elə bil nədəsə təqsirkar idi; sonra Dolça iki dəfə yavaşdan qayalığa tərəf hürdü, qabaq ayaqlarını büküb çənəsini hasarın üstünə qoydu və yavaşdan da zingildədi; elə bil ki, Dolça həmin yay gecəsi Alabaşa, Sarıbaşa «əlvida» dedi.

Sonra Dolça hasardan enib bostana tərəf qaçdı.

## IV

Yenə əvvəlcə oğlan cır, nazik səsini zildə kökləyib dad elədi:

– Leyli! Leyli!

Sonra qız kişi səsinə oxşayan yoğun səsiylə soruşdu:

– Nədi. Məcnun?

Sonra ikisi də bir yerdə oxumağa başladı:

– Bəs, biz axı, neyləyək?
Ibn-Səlam elçi gəlir,
Dərdi kimə söyləyək?

Oğlan təzədən səsini zildə köklədi:

– Çiçəyim, mələyim,
Ey gözəlim mənim, qəşəng Leylam,
Sənsiz həyatda yaşamaq mənə olar haram!

Ağabacı bu dəfə özünü saxlaya bilməyib ürəyində fikirləşdi ki, ağıllı olub başqalarının dərdini çəkincə, gic ol, qoy elə hamı sənin dərdini çəksin; kül bunların başına! Ağabacı bunu fikirləşdi, amma məlum olmadı ki, kimin qarasınca deyinir: bu oxuyanların, yoxsa ki, kirayənişinlərin. Dünən gecə yerlərinə girəndə və Ağababa deyəndə ki, bu kirayənişinlərdən gözü su içmir, Ağabacı Ağababanı sakit elədi: «– Armud saplaqsız, adam nöqsansız olmaz, ay Ağababa...» – dedi, amma Ağababa hələ dörd gün idi gündüzlər evdə olmurdu və bu işlərdən bir o qədər də xəbəri yox idi.

Düz beş gün idi ki, bu konsert davam edirdi, düz beş gün idi ki, bu cır səsli oğlan Leylini çağırırdı və yoğun səsli qız da: «– Nədi, Məcnun?» – deyirdi (Ağabacı da ürəyində: «– Boyuvu elə qara yerə soxum sənün!» – deyirdi), sonra da ikisi bir yerdə oxumağa başlayırdı.

Düz beş gün idi ki, günorta çağı bu konsert başlayan kimi, yəni Əminə xanım valı patefonun üstünə qoyub səsi axıracan qaldırandan sonra, özü gəlib şüşəbəndin pəncərəsi ağzında dayanıb gilas yeməyə başlayırdı.

Allah, adam bu qədər gilas yeyər? Bəs, deyirlər gilas adamın qarnını ağrıdır, bəs, bunun qarnına niyə bir şey eləmir? Bu boyda qarına gilas neyləsin? Ağabacı çox çalışırdı ki, ürəyində kirayənişinlərinə qarşı kin-küdurət yaranmasın, amma heç cürə mümkün deyildl.

Ağabacı kirayənişinləri ilə açıq-aşkar düşmənçiliyə başlamışdı, amma məlum səbəbdən ürəyində düşmənçilik eləyirdi və belə bir minval ilə səsini içinə salıb düşmənçilik aparmaq Ağabacının gününü lap qara eləmişdi (atalar elə bu yerdə deyiblər ki, deyirəm, çölümü yandırır, demirəm, içimi; atalar yaxşı kişi olublar və həmişə də yaxşı sözlər deyiblər).

Düz beş gün idi ki, Ağabacı ilə Ağababa evlərini kirayə vermişdilər, özləri birinci mərtəbədəki yarımzirzəmi mətbəxə və mətbəxin yanındakı balaca otaqkimiyə (qışda bura odun yığırdılar) köçmüşdülər. Ağababa şüşəbəndin altını brezentlə örtüb bağlamışdı və qızlar burda yatırdı; Ağabacı şüşəbəndin altına palaz döşəmişdi və qızların yerini də palazın üstündən salmışdı. Dünən gecə o qədər isti oldu ki, Ağababa ilə Ağabacı bu istiyə tab gətirmədi və mətbəxdən çıxıb bütün ömürlərində birinci dəfə, yəni ikisi də evdə ola-ola, ömürlərində birinci dəfə bir-birilərindən ayrı yatdı, özü də uşaqlarla bir yerdə yatdı: Ağabacı Ağababanın yerini şüşəbəndin altında o başdan, özününkünü də bu biri başdan saldı, arada da qızlar yatmışdı.

Və düz beş gün idi ki, Nuhbala da evə gec gəlirdi, kirayənişinləri yatıb işığı söndürəndən sonra gəlirdi, çünki Nərgiz Nuhbalaya demişdi ki, and iç ki, bütün ömründə məndən başqa heç kimi sevməyəcəksən; Nuhbala da böyük qardaşı Baladadaşın canına and içmişdi ki, qara torpağın altına gedən günə kimi, ömründə Nərgizdən başqa heç kimi sevməyəcək və başqa bir qadın xeylağına gözünün ucuyla da baxmayacaq, buna görə də Nuhbala evə gec gəlirdi, gec gəlirdi ki, talvara qalxanda ikinci mərtəbənin pəncərəsindən Əminə xanımın soyunmağını, südlə dolu inək yelininə oxşayan döşlərini, yekə dalını görməsin, bu arvadın, ərinin yanında otaqda tumançaq gəzməyini görməsin (Nuhbalanın Əminə xanımdan çox, Bəşir müəllimə hirsi tuturdu: «Əri – oğraş, niyə işığı söndürmür, pərdəni çəkmir heç olmasa?!»).

Dörd nəfər idi, Ağababagilin həyət-bacasında fironluq eləyən bu kirayənişinlər dörd nəfər idi: Bəşir müəllim idi, əlli yaşı olardı, bəlkə əllidən də çox olardı, ortaboylu, qarayanız, qıvrım qara saçlı bir kişi idi, amma sonra məlum oldu ki, saçına da, nazik bığına da rəng qoyur. Ağababa diqqətlə baxanda bunu başa düşdü və bundan sonra Bəşir müəllimin üzünə baxa bilmirdi, bir də ki, Bəşir müəllimdən həmişə ətir iyi gəlirdi. Əminə xanım idi, yaşı qırx olmazdı hələ, yumurta kimi ağappaq idi, saçları xurmayı, gözləri ala idi, özü də ding-ding dingildəyirdi; oğlanları Adil idi, Adik deyirdilər və bu Adik məktəbi bu il qurtarmışdı; qızları Ofelya idi, Ofa deyirdilər, altıncı sinfə keçmişdi və bütün bu ailəni birləşdirən bir şey tamam göz qabağında idi ki, o da bunların hamısının köklüyü idi: ata da kök idi, ana da kök idi, balalar da kök idi, hamısı kök idi. (Əmirqulunun arvadı Xeyransa qonşularının bu kirayənişinlərini birinci dəfə görəndə az qaldı gülməkdən uğunub getsin, çünki bu kök adamları görən kimi, bütün kənddə məşhur olan, kişilərin də öz aralarında deyib-güldüyü, arvadların da öz aralarında deyib-güldüyü bir söhbət yadına düşdü: qarovulçu Həsənulla Irtışın, Obun sahillərindən qayıdıb gələndən sonra, bir müddət tək yaşadı kənddə, sonra evlənmək fikrinə düşdü və kəndin ağsaqqallarından qəssab Ağakişi soruşanda ki, qarovulçu Həsənulla kimi almaq

istəyir, qarovulçu Həsənulla demişdi ki, kim olur-olsun, kimi alırsız mənim üçün alın, amma kök olsun! Qəssab Ağakişi kənddəki tay-tuşları ilə klubun həyətindəki çayxanada oturub çay içə-içə: «Alə, – demişdi, – bu üftadə elə bir ailə qurmaq istəyir ki, üssü köklük olsun. Bu arvad istəmir evə, istifadə üçün mal istəyir». Və bu xəbər kəndə yayılandan sonra, məlum məsələdi ki, qarovulçu Həsənullaya gedən bir arvad olmadı və qarovulçu Həsənulla da axırda: «– Çort poberi!» – dedi və gedib Bakıdan dul bir arvad alıb gətirdi, özü də kök arvad.)

Hə, Ağababagilin kirayənişinlərinin dördü də kök idi, amma əslində onlar dörd yox, beş nəfər idi, çünki bunların bir dostu var idi, adı Kələntər müəllim idi və bu Kələntər müəllim də Allahın hər verən günü Ağababagilin evində idi, yəni ki, kirayənişinlərin yanına gəlirdi. Amma Kələntər müəllim arıq və uzun idi, boğazının hulqumu çıxırdı və uzunluqda, əyri-üyrülükdə bu kişi dəvə boynuna oxşayırdı, həm də yaman qayışbaldır kişi idi.

Yoğun səsli qız indi də o biri mahnısına başladı və bu mahnı yazılan valın ortası çatdaq olduğu üçün, ortada ilişə-ilişə bütün bu həyət-bacanı başına aldı:

«Volqa»sı yaşıl oğ-ğ-ğ-lan, Qəni, Qəni!
Ağzı qızıl diş oğ-ğ-ğlan, Qəni, Qəni!
Gəl sən mənə sataş-ş-şma.
Çünki həyasızam mə-ə-ən, Qəni, Qəni!..

«Mürdəşir üzüvü yusun sənin! «Qəni» deyə-deyə qara yerə girəsən elə!» – Ağabacı ürəyində bu sözləri deyə-deyə, yoğun səsli qızın qarasına deyinə-deyinə çayniki elə hirslə samovarın dəmkeşinə basdı ki, çaynik yanı üstə əyildi və qaynar su çaynikdən tökülüb Ağabacının baş barmağını yandırdı. «– Mənə bu da azdı! – dedi öz-özünə Ağabacı. – Guya ki, bunlardan sezonun axırında iki yüz manat alıb bəxtəvər olacağam!»

Çünki həyasızam mə-ə-ən, Qəni, Qəni...

Bu dəfə də valdan «Ay can! Ay can!» səsləri gəldi. Bu əldədüzəltmə valları hansı bir toy məclisindəsə yazmışdılar və bu cür valları Bakıdakı «Nərgiz» kafesinin yanında əldə çox baha qiymətə satırdılar, çünki bu cür valların öz azarkeşləri var idi və bu cür azarkeşlərin də cibi həmişə dolu olurdu; Əminə xanım da bu valları «Nərgiz» kafesinin qabağından aldırıb gətirmişdi və ümumiyyətlə, Əminə xanım «Nərgiz» kafesinin qabağında satılan bu cür valların birini də buraxmazdı, hamısını aldırıb səhərdən-axşama kimi ləzzətlə qulaq asardı.

Sonra həmin cır səsli oğlan yenə qışqıra-qışqıra cavab verdi, guya ki, Qəni bu başıbatmışdır:

Dəm, dəm olmuşam, ay gözəl,
Gözləri xumar olmuşam, ay gözəl!..

Allah lənət eləsin dəllal Zübeydəyə, Zübeydə ürcah elədi bu kirayənişinləri Ağabacıgilə, «– Yaxşı adamlardı – dedi, – çox kulturnu adamlardı!», yalansa bir qara daş düşsün dəllal Zübeydənin başına, kirayənişin tapdığı üçün, Allah bilir, nə qədər almışdı bunlardan, dəysin öz başına, amma bunları gətirib Ağabacıgilə ürcah eləməyi elə bil ki, azmış, beş manat da tutub Ağabacıdan aldı ki, kirayənişin tapmışam səninçün! Lap əcəb elədi dəllal Zübeydə, əlinin də içindən gəldi, çünki dəllal Zübeydə kimi anasının əmcəyini kəsənin sözünə baxanda axırı da belə olar. Sonra Ağabacı fikirləşdi ki, gərək evin kişisi bir nəfər olsun, kişi nə dedi, gərək elə də olsun, necə ki, Ağababa deyirdi ki, kirayənişin lazım deyil bizə, elə də olmalı idi.

Dolça birinci gün damın yanında dayanıb bu təzə adamlara baxdı, bu təzə adamların hərəkətinə, danışığına, davranışına fikir verdi və milisioner Səfər düz deyirdi ki, itin xasiyyəti yiyəsinin xasiyyətinə oxşayar, Dolçanın da, deyəsən, elə birinci gündən bu təzə adamlardan gözü su içmədi, bu təzə adamları görəndə üzünü çevirdi, arxasını çevirdi.

Əlbəttə, bu təzə adamlar Dolçanın onları xoşlayıb-xoşlamamağının dərdini çəkmirdi və ümumiyyətlə, dərd çəkən adamlar qəbilindən deyildi bunlar, bircə Ofelya Dolça ilə dil tapmaq istəyirdi, amma bu da mümkün olmurdu.

Ofelya Ağababagilin qızlarına qaynayıb-qarışmırdı və həyət-bacada ayağıyalın, başıaçıq gəzən, istədikləri vaxt çörək yeyən, istəmədikləri vaxt yeməyən, qaynadılmamış, çiy quyu suyu içən, təkbaşına gedib dənizdə çimən bu qızlara Ofelya elə heyrətlə baxırdı, elə bil bu qızlar tamam başqa bir dünyanın adamlarıydı və Ofelya bu qızlarla dil tapmaqdansa, sövq-təbii, Dolça ilə dil tapmaq istəyirdi, Dolça ilə dostlaşmaq istəyirdi və bütün mehrini salmışdı Dolçaya.

Ofelya bütün günortanı gilas, gilasın üstündən şokolad, şokoladın üstündən kotlet, kotletin üstündən toyuq, balıq, ərik, qara kürü və sairə və ilaxır bu sayaq şeylər yeyə-yeyə Dolçanın damının yanındakı iydə ağacının kölgəsində dayanıb ya da Ağababanın düzəltdiyi taxta kətillərdən birini gətirib üstündə oturub boynu zəncirli Dolçaya baxırdı.

Dolça tərtəmiz geyinmiş, saçları səliqə ilə daranıb qırmızı bant taxılmış bu kök qıza fikir vermirdi, qız ona yaxınlaşmaq istəyəndə Dolça hürürdü və Ofelya da o saat qorxub geri çəkilirdi və şüşəbənddən bunu görən Əminə xanım:¸

– Qudurasan, qurbağa! – deyirdi.

Əminə xanımın belə deməsinin səbəbi o idi ki, Ofelya evdə şey qoymurdu, hamısını gətirib Dolçanın qabağına atırdı, bütöv kotlet, toyuq budu, küftə, dolma içi atırdı Dolçanın qabağına, amma Dolça bunların heç birini yemirdi və bütün bunları həyətə gələn pişiklər tələm-tələsik yeyib qaçırdı. Ofelya o qədər pərt olurdu ki, az qalırdı ağlasın. Ofelya o qədər əlləşib-çalışırdı, o qədər mehriban danışırdı, o qədər əzizləyirdi, amma bütün bunlardan bir iş çıxmırdı və Dolça nə Ofelyanın üzünə baxırdı, nə də onun verdiyi yeməli şeylərə dilini vururdu.

Əminə xanım yaxşı xörək bişirirdi və bu xörəklərin yaxşılığı, çox dadlı olmağı qoxusundan məlum edirdi. Kirayənişinlər bu evə köçən gündən gündə bir neçə xörəyin ətri bütün bu həyət-bacanı başına götürürdü: səhər-səhər kəllə-paça, ət blinçiki, tavakabab, günorta və axşam dolma, dovğa, plov, çığırtma, qızartma, bozartma və ən çox da kotlet (Əmirqulunun arvadı Xeyransa deyirdi: «– Çox kalan adamlardı evündə olanlar!». «– Kalandırlar özləriyçün, mənə nə?» – deyirdi Ağabacı

və ürəyində də deyirdi ki, alnımıza belə yazılmışmış, bu yay bizimki də belə gətirməliymiş...).

Daha bir həftədən artıq idi bura köçmüşdülər, amma bu müddət ərzində Əminə xanım bir dəfə də olsun həyətdən eşiyə çıxmamışdı, tualet həyətin aşağı başında olmasaydı, zalımın qızı heç şüşəbənddən də aşağı düşməzdi yəqin. Bəşir müəllim hər gün Bakıdan taksi ilə gəlirdi və səhərlər taksi ilə də şəhərə gedirdi (Ağabacı deyirdi ki, bu kişi ki, bu qədər pul verir taksiyə, elə özünə bir maşın alsın də, Xeyransa da deyirdi ki, ağəz, olmaz yəqin də, qorxur də, məvacibi azdı yəqin, yoxsa nöşün almır?!). Bəşir müəllim hər dəfə də şəhərdən gələndə iki əli də dolu zənbillə gəlirdi və Əminə xanım bu zənbilin içindəkilərdən bir ucdan dadlı xörəklər bişirirdi.

Dərslər kəsilmişdi və Nuhbala bütün günü dəniz qırağında olurdu, qapqara qaralmışdı və yazıq biz bildiyimiz səbəbdən gecələr də evə gec gəlirdi, evdəkilər onun üzünü, demək olar ki, görmurdü. Qızlar bu xörək ətirlərinin dərdindən hərə başını götürüb bir rəfiqəsinin evinə gedirdi və Ağabacı da bu gedişlərin səbəbini bildiyi üçün canını dişinə tutub heç bir söz demirdi. Bütün bunlara bəlkə də dözmək olardı, amma bir şeyə dözmək çox çətin iş idi: bu cürbəcür xörəklərin, bu cür ətin müqabilində Ağabacı hər dəfə tavaya kartof töküb qızardanda, badımcan doğrayıb qızardanda, elə bil ki, uşaqlarından xəcalət çəkirdi; indiyəcən Ağababagildə belə şey olmamışdı və bu ən betəri idi.

Ofelya:

– Dolça! Dolça! – deyirdi və sidq-ürəkdən elə hey çalışırdı ki, bu ağ itlə dostluq eləsin. – Ala! – Əminə xanımın təzə dana ətindən bişirdiyi kotleti Dolçanın qabağına atırdı, amma Dolça bu dostluğu qəbul eləmirdi ki, eləmirdi.

Bir dəfə Ağabacının tükü ürpəşdi, arvada elə gəldi ki, Dolça gözünü Ofelyanın atdığı kotletdən çəkdi, üzünü döndərdi və ağladı.

Axşam Ağabacı Ağababaya dedi ki, səhər üç toyuq kəssin və sabah bu üç toyuğu bişirib yeyəndən sonra, Ağabacı sümüklərin hamısını bir qaba yığdı və həmin qabı aparıb Dolçanın qabağına qoydu. Dolça da həmin gün bu sümüklərin hamısını xırçıldada-xırçıldada beş dəqiqənin içində yeyib qurtardı.

Nə isə, dəsgah idi, Ağababa demişkən, eşşək gətir, mərəkə yüklə.

## V

Bəşir müəllimgil bu yay ona görə heç hara getməyib bağ kirayə eləmişdilər ki, oğlanları Adil bu il instituta girirdi və Kələntər müəllim də buna görə hər gün bura gəlib-gedirdi, çünki belə məlum olurdu ki, Kələntər müəllim institutda dərs deyir; hər halda, Kələntər müəllim institutla əlaqədar adam idi.

Kələntər müəllimin bir qırmızı «Jiquli» maşını var idi və hər dəfə bu maşın Ağababagilin darvazasının qabağında dayananda, deməli, Kələntər müəllim şəhərdən nə isə bir xəbər gətirmişdi, çünki o saat maşından düşüb tez-tələsik şüşəbəndə qalxırdı, Bəşir müəllimlə, evdə olmayanda Əminə xanımla xısın-xısın pıçıldaşırdı, hərdən Adili maşına oturdub Bakıya aparırdı – ya hazırlaşdırmağa aparırdı, ya kimləsə tanış eləməyə aparırdı; Ağabacı burasını dəqiq bilmirdi, amma burası tamam dəqiq idi ki, uşağı instituta Kələntər müəllim düzəldirdi.

Ağababagilin qızları Adili öz aralarında Abış çağırırdılar, çünki bir axşam Nuhbala Adildən soruşmuşdu ki, Amerika Birləşmiş Ştatlarının paytaxtı haradır? Adil də cavab vermişdi ki, «ABŞ».

Bəşir müəllimin harada işlədiyi dürüst məlum deyildi və işə kefi istədiyi vaxt gedirdi, amma bir gün Nuhbala evə belə bir xəbər gətirdi ki, uşaqlar deyir ki, guya, Bəşir müəllim Bakıda bazar müdiridir; hər halda, nə Ağababa, nə də Ağabacı bu barədə bir söz soruşmamışdı, çünki Bəşir müəllimin harda işləməsinin onlara dəxli yox idi; çünki Ağabacı da öz ürəyində günləri sayırdı ki, avqustun axırı nə vaxt gəlib çıxacaq və bu kirayənişinlər nə vaxt çıxıb gedəcək, Ağababa da öz ürəyində günləri sayırdı ki, bu əhvalat nə vaxt qurtaracaq.

Nə qədər ki, Ağababa toy eləyib evlənmişdi, Ağabacı ilə bir yastığa baş qoymuşdu, o vaxtdan Ağababa həmişə evə tələsmişdi və ələlxüsus da – yaş ötmüşdü, ondan idi, ya nə olmuşdusa – axır vaxtlar Ağababa «Bakı-Buzovna» marşrut avtobusunu sürə-sürə gündə altı dəfə o başa, altı dəfə də bu başa kəndlərinin yanından ötüb-keçəndə az qalırdı ki, içi adamla dolu avtobusu başlı-başına buraxıb düşüb getsin evlərinə və Ağabacı sərin quyu suyundan bir dolu vedrə çəkib elə həyətin ortasındaca töksün Ağababanın boyun-boğazına və Ağababa da üz-gözünü əməlli-başlı yuyub bütün bu avtobus haray-həşirini, bu avtobus basırığını yadından çıxarsın, şüşəbənddə oturub armudu stəkanla pürrəng çaydan içə-içə televizora baxsın.

Sən demə, yaşının bu çağında Ağababanın görəcəyi günlər var imiş. Hələ də, Ağababa gedib işdə xahiş eləyəcəkmiş ki, əlavə növbə versinlər ona, evdə də yalan danışacaqmış, deyəcəkmiş ki, Ağabacı, «naparnikim» xəstələnib, ona görə də əlavə iş veriblər mənə.

Ağabacı başa düşürdü ki, əslində Ağababa evdən qaçır, amma üzə vurmurdu bunu və Ağabacı özünü tənbeh eləməkdən də yorulub təkcə bununla təskinlik tapırdı ki, başına gələn başmaqçı olar, qələt eləyərəm bundan sonra atabaatamla, ev kirayə verməräm yayda.

Əlqərəz, doğrudan uzun əhvalat idi və indi bu əhvalatın başında kabab dəsgahı dururdu.

Kabab dəsgahı birinci dəfə həmin avqust axşamı başladı, həmin avqust axşamı ki, Əminə xanımın günorta xörəklərinin ətri həyətdən çəkilhaçəkil idi və qızlar da qayıdıb gəlmişdi evə, özləri də yığılmışdı televizorun qabağına. Hələ kirayənişinlər evə köçməmiş Ağababa televizoru şüşəbənddən endirmişdi şüşəbəndin altına. (Bəşir müəllimgilin iki tranzistor televizoru var idi, birini qoymuşdular şüşəbəndə və Əminə xanım bu televizora baxırdı, o biri televizoru ki, yapon televizoru idi, Ofelya özüylə həyətdə gəzdirirdi və Dolça on-on beş dəfə dalını Ofelyaya çöndərəndən sonra, Ofelya naəlac qalıb, bütün bu Abşeronda təkcə qalıb, iydə ağacının altında televizora baxırdı; əlbəttə, bu balaca əl televizoru maraqlı televizor idi və iydə ağacının kölgəsində oturub televizora baxmaq yaxşı iş idi, Ofelya bir dəfə, hətta, Iranı tutmuşdu həmin televizorda, amma Ağababanın qızlarından heç kim gedib Ofelyayla bir yerdə o televizora baxmırdı, Adil də televizora baxmırdı, qalın bir kitabı qabağına qoyub yayın istisində, özü də Abşeronun istisində otaqda oturub tər tökə-tökə, guya ki, imtahana hazırlaşırdı, amma bir də baxıb görürdün ki, düzdü, kitab biçarə Adilin qabağındadı, amma fikri-xəyalı uçub gedib, Allah bilir hardadı, hərdən özünə gəlirdi, kitab əvəzinə divardakı şirə, qəhrəmana baxırdı, yenə də

gedirdi uzaqlara; o ki, qaldı Bəşir müəllimə, Bəşir müəllimin televizordan zəhləsi gedirdi və Bəşir müəllimin qəzet-jurnalla da arası yox idi, çünki Bəşir müəllim deyirdi ki, adam gərək «naturalnı» yaşasın, ələlbət belədi!)

Həmin avqust axşamı Ağabacı da, qızlar da yığışmışdı şüşəbəndin altındakı televizorun qabağına və düzdü, bu televizor köhnə televizor idi, o qədər də yaxşı göstərmirdi. Ağabacının da çox ürəyindən keçirdi ki, bu televizoru dəyişdirsin, təzə bir televizor alsın ki, həm böyük göstərsin, həm də aydın göstərsin, həm də tərpənib adamı dilxor eləməsin, amma indi bunun mətləbə dəxli yox idi, çünki bir azdan xalq çalğı alətləri orkestrinin konserti başlayacaqdı və deyilənə görə bir qız oxuyacaqdı ki, elə bil Zeynəb Xanlarovadır.

Yüngül bir xəzri başlamışdı.

Ağabacı televizorun qabağında yerini yaxşıca rahatlayıb böyük bir həvəs və ləzzətlə konsertin başlamasını gözləyə-gözləyə dedi:

– Yox, ağəz, yox e!.. Ola bilməz! Nə qədər özlərini öldürsələr də, nə qədər yamsılasalar da, Zeynəbə çatan olmaz! Bir dənədi kişinin qızı! Yoxdu onnan day!

Bu vaxt Kələntər müəllimin qırmızı «Jiquli»si darvazanın qabağında dayandı və bu dəfə qırmızı «Jiquli»nin içindən Kələntər müəllimdən başqa səs-küylə dörd kişi də çıxdı və bunların maşından çıxmağı ilə ara qarışdı, məzhəb itdi.

Kələntər müəllim qışqırdı:

– Bəşir müəllim! Ay Bəşir müəllim! Gəl gör kimlər gəlib!

Yekə dalı və yoğun baldırları enli, zolaqlı pijama şalvarının altından titrəyə-titrəyə, Bəşir müəllim, bu qədər köklüyünə uyuşmayan bir cəldliklə şüşəbəndin pilləkənlərini aşağı düşdü:

– Ay xoş gəlmisiniz! Ay həmişə siz gələsiniz? Belə səfa gətirmisiniz, əcəb eləmisiniz! Ələlbət, əcəb eləmisiniz!

Qonaqlar həyətə girdi və bu qonaqlar, görünür, hardasa yeyib-içib təzədən durub bura gəlmişdilər, çünki bu qonaqlarla bir yerdə spirt və quyruq kababının iyi də Ağababagilin həyətinə doldu; o, zarafat elədi, bu güldü, o biri darvazanın bala qapısından həyətəcən çığırın hər iki tərəfində əkilmiş qərənfillərdən dərdi, bu birisi də ağacdan xartut dərəndə həm ağ köynəyi qıpqırmızı qızardı, həm də tutun budağını qırdı və bütün bu zırıltının müqabilində Ağabacı təkcə ona şükür eləyirdi ki, yaxşı ki, Ağababa evdə yoxdu; Ağababanın ürəyi partlardı, dözməzdi buna, lap qan salardı Ağababa, bədbəxt olardılar.

Qonaqlar Kələntər müəllimin otaqdan dartıb gətirdiyi Adili görüb:

– Igid budu? – soruşdular, sonra: – Qoçaq oğlandı – dedilər, sonra özlərindən birini göstərib: – Igid, sən sabah, bax, bu müəllimə, hörmətli Cabbar müəllimə imtahan verəcəksən, – dedilər. – Özün də möhkəm ol, igid! – dedilər. – Qorxma, qorxan gözə çöp düşər! – dedilər.

Əminə xanım bura köçdükləri vaxtdan birinci dəfə aşağı düşüb şüşəbəndin altına gəldi. Ağabacıdan təcili manqal istədi, şiş, maşa, kömür istədi və eşidəndə ki, Ağabacıgilin nə manqalı, nə şişi, maşası və kömürü var, Əminə xanımın gözü çıxdı kəlləsinə və sidq-ürəkdən heyrət edə-edə:

– Bay, sənə mən nə deyim, ay arvad! – dedi. – Müharibə vaxtı-zaddı bəyəm? Kabab bişirmirsiniz?

Heyrətini və sairə şeyləri bu sayaq sözlərlə ifadə etməyə Əminə xanımın vaxtı yox idi və Əminə xanım şüşəbəndin altından çıxıb yekə dalını oynada-oynada tələsik Kələntər müəllimə yaxınlaşdı, Kələntər müəllim məhrəm bir adam kimi, başını aşağı əyib qulağını Əminə xanımın ağzına yaxınlaşdırdı və Əminə xanım da Kələntər müəllimin qulağına tələm-tələsik nəsə pıçıldamağa başladı; Kələntər müəllim diqqətlə Əminə xanıma qulaq asa-asa şüşəbəndin altına, Ağabacıgil tərəfə baxdı, məzəmmətlə başını buladı və tez həyətdən çıxıb maşınına mindi və qırmızı «Jiquli» sürətlə Gümüş Malikin dəniz qırağındakı kababxanasına tərəf götürüldü.

Bir azdan bütün bu həyətə, bütün bu tərəflərə bir kabab iyi yayıldı, kabab tüstüsü aləmi basdı və Əmirqulunun arvadı Xeyransa başını pəncərədən çıxartdı ki, görsün bu nə həngamədi belə, sonra başa düşdü ki, iş nə yerdədi və tez də pəncərəni kip-kip bağladı ki, evinə kabab iyi gəlməsin, kabab tüstüsü dolmasın.

Kələntər müəllim Gümüş Malikin kababxanasından gətirib həyətin ortasında qaladığı manqalda kabab bişirirdi və çox yağlı qoyun əti olduğu üçün, yağ əriyib cızhacızla közün üstünə tökülürdü və tüstü aləmi bürüyürdü; Kələntər müəllim tüstüdən gözlərinin yaşı axa-axa, Ağabacının içində paltar qaynatdığı yekə qazanın qapağı ilə manqalı yelləyirdi və Adil də bişmiş şişləri bütün həyət boyu, pilləkənlər boyu yağı dama-dama şüşəbəndə qaldırırdı.

Şüşəbənddə isə məclis arəstə idi.

Bəşir müəllim:

– Əlbət, bu, erməni konyakıdı! Bu da Çeçen-inquş konyakıdı! Əlbət, Çeçen-inquş konyakıdı! Bu da Dağıstanındı! Dağlar qartalları düzəldib bunu! Əlbət belədi! – deyirdi.

Cabbar müəllim:

– Əşi, bu kişi lap aləmdi ki, – deyirdi.

Səftər müəllim:

– Içək aləm kişilərin sağlığına! – deyirdi. – Çünki belə aləm kişilər olmasaydı, bu dünya çox səfeh dünya olardı!

Əlisahib müəllim millət dərdi çəkirdi və deyirdi ki, Allah, bu millətin axırı nə olacaq, niyə bu millətin bu cür kişiləri bu qədər azdı, o qədər azdı bu cür kişilər ki, çıraqla axtarasan gərək və nə yaxşı iş görüb Kələntər müəllim ki, onları gətirib bura, millətin bu cür kişiləri ilə üzbəsurət oturdub.

– Süfrəyə bir bax! – deyirdi Əlisahib müəllim. – Gör necə süfrədi, özü də beş dəqiqənin içində! Əşşi, sən bir əliaçıqlığa bax, sən bir nemətlərə bax! Millətin simasıdı bu, millətin!

Təkcə Fərman müəllim birdən-birə susub heç nə demirdi, tez-tez hıçqırırdı, rəngi-rufu sapsarı saralmışdı və belə məlum olurdu ki, Fərman müəllimin halı xarabdı, ürəyi bulanır.

Bəşir müəllim:

– Əminə xanım, zəhmət olmasa, Fərman müəllimə qatıq gətir, əlbət lazımdı, – dedi.

Cabbar müəllim:

– Əşşi, bu kişi lap aləmdi, vicdan haqqı, aləmdi. - dedi.

Kələntər müəllim şişləri bir-bir manqalın üstündən götürüb verirdi Adilə və Adil də şişləri qorxa-qorxa alırdı ki, əli yanar. Kələntər müəllimin kefi doxsan doqquz vururdu və Kələntər müəllim belə bir kefiköklüklə əlini əlinə sürtüb:

– Nədən qorxursan, ay zalım! – dedi. – Girmisən e, instituta, girmisən, dədə canı! – Sonra Kələntər müəllim Adili lap xətircəm eləməkdən ötrü başı ilə şüşəbəndə işarə elədi. – Ə, sən öl girmisən! Nağdı, qağa, dədə canı!

Adil şişlərdən ürəkli yapışdı.

Kələntər müəllimin gözü şüşəbənddə qaldı və bir müddət elə bil ki, manqalın üstündəki kabablar Kələntər müəllimin yadından çıxdı, çünki Əminə xanım şüşəbənddən həyətə boylanırdı, manqala tərəf baxırdı və Əminə xanımın ipək xalatının açıq yaxasından döşlərinin arası açıq-aşkar görünürdü, sonra Kələntər müəllim özünü ələ aldı birtəhər və yenə də manqalla məşğul oldu. Və Ağabacı həmin axşam o vaxt özünə gəldi ki, qızlar bu kabab iyindən, bu kabab tüstüsündən baş götürüb hərə bir tərəfə getmişdi, televizordakı qız da oxuyurdu təkcə özü üçün, çünki bu dəm bu həyətdə televizorda oxuyan qıza heç kim qulaq asmırdı, sonra Ağabacı zəncirin səsini eşitdi, Dolçanın mırıltısını eşitdi və Ağabacı şüşəbəndin altından başılovlu çıxıb Dolçanın damına tərəf getdi.

Xəzri kababın iyini, közün üstünə damıb cızıldayan yağın tüstüsünü birbaş boynu zəncirli Dolçanın üstünə aparırdı.

Dolça elə bil yadından çıxarmışdı ki, zəncir dartmaqla qırılan deyil, boynunu zəncirdən qoparmaq istəyirdi, özünü o tərəfə, bu tərəfə atırdı, mırıldayırdı; Dolçanın tükləri qabarmışdı, ağzından su axırdı, gözləri həm pıçalaqlamışdı, həm də az qalırdı hədəqəsindən çıxsın.

Ağabacı əlimyandıda Dolçaya yaxınlaşmaq istəyəndə it lap bərkdən mırıldadı və Ağabacı bu neçə illər ərzində birinci dəfə Dolçadan qorxdu, itin qabarmış tüklərinə baxdı, yekəlmiş gözlərinə baxdı, ağzından tökülən suya baxdı, arvada elə gəldi ki, Dolça mırıldamır, yaralanmış canavar kimi ulayır, sonra Ağabacı özünü ələ aldı, cəld əlini atıb zənciri Dolçanın boğazından açdı və Dolça üç böyük sıçrayışla Kələntər müəllimin yanına atıldı, yerində qıvrıldı.

Kələntər müəllim qazan qapağı ilə manqalı yelləyə-yelləyə ayağını yerə vurdu və Dolçanın üstünə qışqırdı:

– Sürük burdan!

Dolça dal ayaqları üstə yerə çöküb başını dik qaldırdı, Kələntər müəllimin düz gözlərinin içinə baxdı və Ağabacıya elə gəldi ki, Dolça bu saat atılıb Kələntər müəllimi qamarlayacaq, amma incəvara Dolça ayağa qalxdı, iki dəfə bərkdən hürdü, manqalın başına dolandı, sonra qaça-qaça darvazanın bala qapısından küçəyə atıldı.

Dolça küçə boyu qaça-qaça kənddən çıxdı və dəniz qırağına tərəf baş götürüb getdi, amma dəniz qırağına gəlib çatmadı, necə oldusa qaça-qaça da dövrə vurdu və təzədən kəndə girib gəldiyi küçə ilə də geri qaçdı, darvazanın bala qapısından həyətə girib dayandı, dilini çıxarıb ləhləyə-ləhləyə üstü kabab dolu manqala baxdı.

Kabablar manqalın üstə cızhacızla qızarırdı.

Ofelya:

– Dolça! Dolça! – qışqırdı. – Dolça şüşəbəndə baxdı.

Ofelya tələsə-tələsə şüşəbənddən düşüb Dolçaya yaxınlaşdı, lap qabağa gəlməyə ürək eləməyib, Dolçanın üç-dörd addımlığında dayandı və əlindəki boşqabdan bir neçə isti kabab tikəsi götürüb Dolçanın qabağına atdı. Dolça qabağındakı kabab tikələrinə baxdı, kip yumduğu ağzının qıraqlarından su axa-axa Ofelyaya baxdı və birdən-birə bərkdən hürməyə başladı və Ağabacı qorxdu ki, Dolça doğrudan-doğruya bu qızı, ya manqalın yanında əlləşən Kələntər müəllimi, ya da bunlardan başqa bir adamı qapar, amma yenə də incəvara Dolça həyətin dörd tərəfini də hasar boyu qaça-qaça dövrə vurdu və darvazanın bala qapısından çıxıb yenə dəniz qırağına üz tutdu və bu dəfə gecəyə qədər həyətə qayıtmadı.

Gecə Dolça həyətə qayıdanda qonaqlar çoxdan çıxıb getmişdi. Manqalın üstünə çoxdan su töküb söndürmüşdülər. Qızlar şüşəbəndin altında yatışmışdılar. Bəşir müəllimgilin işıqları sönmüşdü. Nuhbala ürəyində Bəşir müəllimin atasının goruna söyüb qurtarmışdı və axır ki, talvarda yuxuya gedib yatmışdı. Təkcə Ağabacı gecənin bu vaxtında əlinə bel alıb darvazanın yanında hasarın dibini belləyirdi. Bayaq qonaqlar gedəndə Fərman müəllim işləri xarablamışdı: xeyli qatıq içməyinə baxmayaraq özünü saxlaya bilməyib hasarın dibinə sıfraq eləmişdi və indi də Ağabacı hasarın dibinə torpaq atırdı ki, Ağababa gəlib bu müsibəti görməsin; Ağababa bir günün ərzində ikinci növbəsini də başa vurub indilərdə gəlməli idi.

Həmin gecə Ağabacı fikirləşdi ki, bu kirayənişinlərdən alacağı pula nə gəlinləri üçün üzük alacaq, nə də qızları üçün bir tədarük görəcək, çünki Ağabacı fikirləşdi ki, bu cür adamların pulu adama xeyir gətirməz və Ağabacı qəti qərara gəldi ki, həmin pula televizor alacaq, bunların acığına bütün ili oturub yaxşıca-yaxşıca televizora baxacaq.

Həmin gecə Dolça Ağabacıya baxdı, arvadın dodaqaltı deyinməsinə qulaq asdı, gözucu, oğrun-oğrun ikinci mərtəbəyə nəzər saldı, sonra həyətin ağacları arasından keçib aşağı başa getdi.

Və həmin gecə pişiklər Ofelyanın Dolçanın qabağına atdığı kabab tikələrini ordan-burdan tapıb yedilər və kef elədilər. Dolça pişikləri həyətdən qovmadı və dovşanlarla da işi olmadı, demək olar ki, bütün gecəni hasarın üstündə oturub dənizə və qayalığa tərəf baxdı.

Həmin kabab dəsgahı birinci oldu, amma axırıncı olmadı. O gündən sonra, az qala hər axşam Kələntər müəllimin maşınında qonaqlar gəldi və Kələntər müəllimin bişirdiyi kababları Adil şüşəbəndə daşıdı; Kələntər müəllimin kefi açıq-aşkar kök idi. (Bir dəfə necə oldusa, Kələntər müəllim Ağabacıgilin yanında Bəşir müəllimlə zarafat elədi, hərçənd Kələntər müəllim başqalarının yanında Bəşir müəllimgillə söhbət eləməzdi və ümumiyyətlə, Kələntər müəllim çoxdanışan adam deyildi; Kələntər müəllim qırmızı «Jiquli»yə işarə edib Bəşir müəllimə dedi: «– Balacadı də maşın, Bəşir müəllim, qonaqlar sığışmır içinə». – Kələntər müəllim belə dedi və güldü; Kələntər müəllim güləndə nazik və uzun boğazının yoğun damarları şişirdi və ağzı o qədər açılırdı ki, ənglərindəki yuyulmamış qızıl dişləri də görünürdü; «– Eybi yox, inşallah, bu yaxınlarda «Volqa» alarsan, qonaqların da sığışar içinə. Əlbət, alarsan! Qoy uşağın imtahanları qurtarsın...» – Bəşir müəllim də belə dedi və şaqqanaq çəkib o da güldü, amma Ağabacı başa düşmədi ki, burda gülməli nə var və ümumiyyətlə, Bəşir müəllim heç nəyə gülən adam idi.)

Kababın iyi bu ağacların, bu hasarın, bu divarların canına hopdu və Əmirqulunun arvadı Xeyransa şənbə günü hamamda kəndin arvadlarına şikayət elədi:

– Kabab iyinin ucbatından axşamlar qapı-pəncərənin hamısını bağlayıram e, ağəz! Əmirqulu yazıq, istidən evdə otura bilmir.

Dəllal Zübeydə özünü saxlaya bilmədi və qabağındakı başqa bir arvadın – kənd Sovetinin katibi Suğranın belini kisələyə-kisələyə:

– Bəxtəvər başımıza! – dedi. – Pyaniskə Əmirqulu evdə oturan olub!

Bu sözün üstündə Xeyransa ilə dəllal Zübeydə elə bir davaya qalxdılar ki, bu yay hamamda belə dava olmamışdı və hamamdakı arvadlar bunları güc-bəla ilə bir-birindən araladı. (Belinin kisəsi yarımçıq qalmış kənd Soveti katibi Suğra qışqırdı ki, milsəner çağıraciyəm bura və Xeyransa, xüsusən də, dəllal Zübeydə kənd Soveti katibi Suğranı yaxşı tanıdıqları üçün başa düşdülər ki, Suğranı bu dərəcədə hirsləndirmək olmaz və aralandılar bir-birilərindən.)

Ağabacı ürəyində: «– Ağəz, siz bir-birivüzü nöş qırırsuz? – dedi. – Görün mən nə çəkirəm e, mən külbaş!»

Bir axşam da Nuhbala kirayənişinlərin qarasına xoruzlandı və acıqlı-acıqlı Ağabacıdan soruşdu ki, bunlar nə vaxt rədd olub çıxıb gedəcəklər?

«– Bir qələtdi eləmişəm atabaatamla, Nuhbala! Mənim meyidimi salıb, sonra çıxıb gedəcəklər cəhənnəmlərinə!» – və bunu da Ağabacı ürəyində dedi, amma yavaş-yavaş evin kişilərindən biri olmağa başlayan oğluna belə cavab verdi:

– Xəstə tələsər, armud vaxtında yetişər, Nuhbala! Az qalıb day, qadası!

## VI

Əminə xanım nə qədər səbrli-qərarlıydısa, nə qədər hərəkətsiziydisə, Bəşir müəllim bir o qədər səbrsiz və bir o qədər də bir yerdə qərar tuta bilməyən, civə kimi ora-bura diyirlənən bir adam idi və günortalar evdə olanda və heç bir qonaqları olmayanda, Bəşir müəllim zolaqlı pijama şalvarını əyninə geyib tez-tez həyətə düşürdü, dənizə gedirdi, evdə isə gen trusiklə gəzirdi. Bu kişinin şakəri hinin qabağında dayanıb toyuqlara çörək vermək idi və hər dəfə evdən təzə, yekə təndir çörəyi götürüb gəlib dururdu hinin qabağında və başlayırdı çörəkdən didib:

– Cib-cib-cib-cib... – deyə-deyə toyuqların qabağına atmağa və toyuqların çörək qırıqlarını dənləməyinə tamaşa eləməyə.

Bəşir müəllim Ağababaya deyirdi:

– Əşşi, toyuqların da dadı qaçıb indi. Ələlbət, belədir! Sənin canın üçün, – Bəşir müəllim ətli, qalın dodaqlarını qabağa çıxarırdı, guya ki, Bəşir müəllimin bu sözlərinə etiraz eləyən var – bay, dünya-aləm canına qurban sənin, bizim rayonda toyuqlar vardı, dünyanın hansı rəngini deyirsən, bu toyuqlarda idi. Ələlbət! Indi hərdən yolum düşür o tərəflərə, ələlbət, baxıb görürəm ki, həyət-baca ağappaq inkubator toyuqlarıdı! Noldu, ə, o toyuqlar, pah ataynan! Ə, belə də müsibət olar?! Ə, toyuq da vermişel supu yeyər?!

Hərdən Bəşir müəllim həyətdəki tutun altındakı taxta skamyada oturseverdu və qollarını geniş açıb sərinləyirdi. Bəşir müəllimin xüsusi sərinləmə qaydası var idi, o da bundan ibarət idi ki, Bəşir müəllim bir nazik stəkan dolu arağı birdən çəkirdi başına, sonra oturardu həyətdəki taxta skamyada, çünki Bəşir müəllim deyirdi ki,

belə isti havalarda gərək adamın xarici kimi, daxili də isti olsun və guya onda adam yaxşıca sərinləyir. Bəşir müəllim çox danışırdı, çünki çox danışmasaydı, skamyanın üstündə beləcə dinc otura bilməzdi.

Bəşir müəllim Ağababaya deyirdi:

– Atam, – Allah ölənlərinə rəhmət eləsin, – üç şey vəsiyyət eləmişdi mənə ki, gizlətmək lazımdır. Ələlbət, üç şey! Birincisi bu idi ki, pulunu gizlət! Ələlbət, gizlət, çünki pul düşmən qazandıran şeydi, kimin nəyinə gərəkdi sənin nəyin var?! Ikincisi, ələlbət, arvadını gizlət! Üçüncüsü də bu idi ki, səfərini gizlət! Ələlbət, gizlət! Şamaxıya gedirsənsə, ələlbət, de ki, Şəkiyə gedirəm, qoy səni Şəkidə axtarsınlar, ələlbət, Şəkidə pussunlar səni!..

Ağababa Bəşir müəllimin üzünə baxa bilmirdi, çünki əvvəllərdə dediyimiz kimi, Bəşir müəllim başına və bığına rəng qoyurdu, özündən də həmişə ətir iyi gəlirdi və Ağababanın belə şeylərdən xoşu gəlmirdi; hər halda, bu rəng və ətir məsələsinin Ağababaya dəxli yox idi, çünki bu, Bəşir müəllimin öz işi idi, özü bilərdi, amma bir iş də var idi ki, bu lap betər idi və bunun dolayı yolla Ağababaya da dəxli var idi, çünki Bəşir müəllim və Bəşir müəllimin arvadı Ağababanın evində yaşayırdılar və onlar gərək bu evdə təmiz yaşayaydılar.

Ağababa Bəşir müəllimin öz pulunu və səfərini gizlətməsi barədə bir söz deyə bilməzdi, amma o ki, qaldı arvada, Kələntər müəllimin Bəşir müəllimgilə tez-tez gəlib-getməsindən Ağababanın heç xoşu gəlmirdi. Əlbəttə, burası məlum idi ki, Kələntər müəllim ona görə hər gün bura gəlib-gedir ki, Bəşir müəllimin oğlunu instituta düzəldirdi, dostluq xatirinə, ya bir başqa işə görə, özləri bilərdi, bunun Ağababaya dəxli yox idi, amma Kələntər müəllimin hərdən Əminə xanımın arxasınca baxmasından Ağababanın heç xoşu gəlmirdi və burasından da Ağababanın heç xoşu gəlmirdi ki, deyəsən, Əminə xanımın özü də Kələntər müəllimin bu baxışlarının, udqunub-udqunub iri hulqumunun aşağı-yuxarı getməsinin mənasını başa düşürdü.

Ağababa və ümümiyyətlə, bu tərəflərin kişiləri elə adamlardı ki, hər şeyə dözərdilər, amma namus məsələsində heç bir şeyə dözməzdilər.

## VII

Adil iki imtahan vermişdi və ikisindən də deyəsən yaxşı çıxmışdı, çünki Kələntər müəllimin kefi xeyli kök idi. Qırmızı «Jiquli» darvazanın qabağında dayanan kimi, Kələntər müəllim maşından düşüb pillәkənləri üç-üç yuxarı – şuşəbəndə qalxırdı və bir azdan Əminə xanımın kraxmallı köynək, ütülü şalvar geyindirdiyi, başını səliqə ilə daradığı «Abış»ı qabağına salıb maşına oturdurdu və fəxrlə «Abış»a baxa-baxa:

– Igiddi e, igid! – deyirdi. – Malades!

Sonra qırmızı «Jiquli» yerindən tərpənib gözdən itirdi və bir də axşam qayıdırdı və maşının içində yenə də qonaqlar olurdu və bundan sonra başlanırdı kabab dəsgahı.

Ağabacının qızları axşamlar daha şüşəbəndin altından baş götürüb hərə bir tərəfə qaçmırdı; əvvəla, ona görə ki, onsuz da bunun mənası yox idi, çünki kababın iyi onsuz da həyət-bacadan çəkilib getmirdi; ikincisi də, qızlar öyrəşmişdi daha, hətta, Əmirqulunun arvadı Xeyransa da axşamlar pəncərəni açıq qoyurdu və daha

ondan bu barədə bir söz xəbər alan kənd arvadlarına deyirdi ki, varlığa nə darlıq, mən də gündə gedib kabablıq ət ala bilsəydim ki, bütün külfəti görəcək, bollu bişirərdim kababı, heç «uf» da deməzdim, heç fikirləşməzdim də ki, yaxşı düşməz qonşulardan, iyi gedir camaata, getsin də, neyləyim, mənə nə!.. Xeyransa belə deyirdi, amma kəndin arvadları bilirdi ki, Xeyransa belə adam deyil və ümumiyyətlə, bu kənddə belə adam tapılmazdı, heç dəllal Zübeydə də belə iş eləməzdi; kənddə kim kabab bişirsəydi, onda gərək bütün yaxın qonşuların, yaxşılığından, pisliyindən asılı olmayaraq, hamısına, azı, bir şiş-bir şiş pay göndəriləydi, çünki bu kənddə uşağı olmayan təkcə qarovulçu Həsənullaydı, qalan hamının, azı, dörd-beş uşağı var idi və kabab da, məlum məsələdir, elə şey idi ki, iyi aləmi götürürdü.

Ağabacı ürəyində özünü söyüb-söyüb yorulmuşdu daha, amma hər dəfə Kələntər müəllim həyətdə manqalı qalayanda, Ağabacı, heç olmasa, deyinməkdən özünü saxlaya bilmirdi: «– Insaf deyilən şey yoxdu bunlarda!...» – deyirdi öz-özünə və burası tamam dəqiq idi ki, bundan sonra Ağabacı özünün də, Ağababanın da, uşaqların da gündə bir tikə qara çörəklə acı çay içməyinə razı olardı, amma evini kirayə verməyə razı olmazdı. (Ağabacı guya ki, bütün təqsirlər dəllal Zübeydədəymiş kimi, daha dəllal Zübeydəyə salam vermirdi, dəllal Zübeydəni görəndə üzünü yana çevirirdi və dəllal Zübeydə yanıb-yaxılırdı ki, Ağababanın arvadı da acığını məndən çıxır, elə bil mən təqsirkaram ki, bunlar gündə kabab bişirir, mənə nə, balam, mən qanadıma baxmışdım bəyəm ki, görüm bunlar kabab bişirəcəklər gündə, ya yox? Kirayənişin istəmisən, mən də tapmışam da səninçün, anam, bacım, mən nöş pis oluram arada? O cür ki, Ağababa xoruldayır, kim gəlib qalacaq bunların evində?)

Ağababa hər şeyi ürəyinə salırdı, üzdə bir söz demirdi, çünki Ağababa görürdü ki, Ağabacı nə günə düşüb və buna görə bu kabab əhvalatına da dözürdü, Əminə xanımın oxutduğu mahnılara da dözürdü, həmişə sakit və təmiz-tariq həyətindəki bu səs-küyə, bu kağız qırıntılarına, kabab sümüklərinə, Bəşir müəllimin əskik işlərinə dözürdü. (Bir gün günün günorta çağı Bəşir müəllim özü həyətdə ocaq qalayıb beş-altı vedrə su qızdırdı ki, Əminə xanım çimmək istəyir, sonra Ağabacıdan böyük paltar ləyəni aldı, şüşəbəndə qaldırdı, vedrələri də bir-bir şüşəbəndə qaldırdı, həmin gün evdə olan Ağababadan iri parç istədi ki, suyu vedrədən götürüb Əminə xanımın başına töksün; Ağababa bir cavab vermədi, amma özünü də saxlaya bilmədi, darvazanın bala qapısını hirslə ardınca çırpıb həyətdən çıxdı; Bəşir müəllim Ağababanın bu hərəkətindən bir mətləb qanmadı və parçı Ağabacıdan istədi, Ağabacı da ürəyində «– Kül belə kişinin başına!» – dedi və həyadan qızara-qızara mis parçı Bəşir müəllimə verdi, Bəşir müəllim də şüşəbəndə qalxıb, soyunub paltar ləyəninin içində oturmuş Əminə xanımın başına su tökməyə başladı.)

Nə isə, hərə bir cür dözürdü, çünki atalar deyib ki, pis günün ömrü az olar.

Təkcə Dolça bu işlərə nə dözə bilirdi, nə də öyrəşə bilirdi.

Son on günün ərzində Dolça tamam arıqlamışdı. Dolçanın qabırğalarını saymaq olardı. Dolçanın gözləri elə bil iriləşmişdi və bu gözlərdə bir işıltı əmələ gəlmişdi, amma bu işıltı nəsə xəstə bir işıltı idi, ürək ağrısının, dərdin, qəmin işıltısı idi. Son on gündə Dolça demək olar ki, heç nə yeməmişdi və Ağabacının arpa unundan düzəltdiyi kütlər, yal Dolçanın qabağına necə qoyulurdusa, elə eləcə də qalırdı. Dolça bunlara demək olar ki, dilini də vurmurdu. Ortada bir Dolça həyət-

bacada göy ot yeməyə başladı və Ağabacı başa düşdü ki, Dolçanın başı ağrıyır. Dolça ayağa qalxıb bərkdən hürə-hürə Ofelyanı da dama yaxın buraxmırdı və Ofelya daha heç iydə ağacının yanına da gələ bilmirdi; Ofelya şüşəbəndin pəncərəsindən boylanıb:

– Dolça! Dolça! – qışqırırdı və elə şüşəbənddən də Dolçanın qabağına toyuq əti, tavakabab, kotlet atırdı.

Dolça ayağa qalxıb damın qabağında vurnuxa-vurnuxa bərkdən şüşəbəndə tərəf hürürdü və Əminə xanım da şüşəbənddən boylanıb:

– Qudurasan, qurbağa! – deyirdi və Ofelyanı şüşəbəndin qabağından çəkirdi.

Və bundan sonra Dolça səssiz-səmirsiz damda uzanırdı, başını damın açığından çölə çıxarırdı və heç nə ifadə eləməyən gözləri ilə naməlum bir nöqtəyə baxırdı və bu vaxt Dolçanın gözlərinin işıltısı da sönüb gedirdi; sonra Dolçanın qara gözləri yol çəkirdi, həm də o naməlum nöqtəyə Dolça bütün içindən qalxıb gələn bir qüssə ilə baxırdı.

Dolça Kələntər müəllimin qırmızı «Jiquli»sini səsindən tanıyırdı və axşamüstü bu səsi eşidən kimi, Dolçanın gözünün işıltısı birdən-birə artırdı, o saat ayağa qalxıb damın qabağında vurnuxmağa başlayırdı, ağzının suyu axırdı və Kələntər müəllim həyətə girən kimi Dolça bu kişini hürməklə qarşılayırdı, Kələntər müəllimin gətirdiyi qonaqların da üstünə bir-bir hürürdü, amma Dolçanın hürməyinə fikir verən olmurdu.

Kələntər müəllim şüşəbənddən aşağı boylanan Əminə xanıma baxa-baxa Gümüş Malikin manqalını yandıranda Dolçanın gözləri az qalırdı böyüyüb hədəqəsindən çıxsın və bu vaxt manqalın alovu Dolçanın qara gözlərində əks olunurdu. Dolça daha bərkdən hürürdü, boynunun zəncirini dartışdırıb qoparmaq istəyirdi və o zamanlar ki, Ağabacı bundan duyuq düşürdü, gəlib Dolçanın zəncirini boğazından açırdı, Dolça damın qabağından götürülüb manqalın yanına atılırdı, elə bil ki, Kələntər müəllimə yox, kababın aləmi basmış tüstüsünə hürürdü, sonra da baş götürüb həyətdən qaçırdı, kəndi dolanıb yenə də həyətə gəlirdi, yenə də həyətdən çıxıb qaçırdı; Dolça özünə yer tapa bilmirdi.

Ağababa, adətən, bu vaxtlar evdə olmurdu, amma bir dəfə Ağababa gecə işdən gələndə hamı yatmışdı, hətta, Ağabacı da istidən və əsəbilikdən yorulub əldən düşmüşdü və paltarlı-paltarlı yerində uzanmışdı ki, Ağababanı gözləsin, amma yuxu aparmışdı Ağabacını; Ağababa həyətə girdi və birdən-birə Ağababaya elə gəldi ki, bu həyət onun həyəti deyil, tamam başqa bir həyətdi; həmin ağaclar idi, həmin bina idi, həmin hasar idi, amma bütün bunlar elə bil ki, yad idi və Ağababa axır vaxtlarda birinci dəfə həyəti gəzib dolaşdı, hər ağacını, hər kolunu əli ilə əkib-becərdiyi, hər bir daşına, çöpünə bələd olduğu bu həyət niyə Ağababaya belə gəldi, başa düşmədi, sonra gəlib həyətin aşağı başına – hinin yanına çıxanda gördü ki, Dolça hasarın üstündə dayanıb ona baxır.

Həmin gecə ay çıxmışdı, ulduzlar çıxmışdı, göyün üzü tərtəmiz idi və bu aydınlıq gecədə Ağababa ilə Dolça bir müddət bir-birinə baxdı. Ağababa Dolçanın gözlərini ömründə bu cür görməmişdi, Dolçanın gözlərində bu qədər kədər, qəm, qüssə olmamışdı; Dolçanın gözlərində bir yazıqlıq, bir əlacsızlıq var idi və ən əsası, Ağababaya ən çox təsir edəni də bu idi ki, Dolçanın gözlərində bu dəm bir üzrxahlıq da var idi, elə bil Dolçanın qara gözləri həmin aydınlıq avqust gecəsində nəyə görəsə bağışlanmasını yalvarırdı, nəyinsə əvvəlcədən xəcalətini çəkirdi.

Ağababa səhərə kimi narahat yatdı və Ağababa səhərə kimi ona görə narahat yatdı ki, Dolçanın bu baxışları gözlərinin qabağından getmirdi və Dolçanın bu baxışları Ağababanın ürəyini sıxırdı, kişini darıxdırırdı, ürəyinə bir nigarançılıq salırdı; bu qara gözlər qara rənglərdən, qara daşlardan, qara məktublardan, qara göydən, qara dənizdən xəbər verirdi.

Və o gecə Dolça hamı yatandan sonra hasarın üstündə uzanıb gözlərini dəniz kənarına, o tərəflərə ki, orada Gümüş Malikin kababxanası var idi, oralara dikmişdi.

Gümüş Malikin kababxanası kənddən xeyli aralıda, çimərliyin lap axır başında, qum təpəsinin üstündə idi. Bu kababxanada yay-qış kabab bişərdi və bütün bu tərəflərin yiyəsiz itləri Gümüş Malikin kababxanasının həndəvərində sülənərdi. Sümsük itlər bir tərəfdə durub müştərilərin yeyib-içdikləri süfrəni marıtlayardı və kefi kök müştərilərin onlara atdığı kabab sümüklərini göydə qapardı, təpiyə, söyüşə, atılan daşa, taxtaya məruz qalardı, amma kababxananın həndəvərindən itilib getməzdi. Kəndin itləri bu sümsük itləri yaxın buraxmazdı və bu itlər də ya qayalıqda avaralanardı, ya da qış-yay kababxananın ətrafında olardı. Yay çağları kabab xüsusən çox bişərdi, çünki Bakıdan gələn müştərilər çox olardı və yay çağları bu həndəvərdəki sümsük itlər gözgörəti kökələrdi.

Dolça səhəri hasarın üstündə beləcə açdı. Səhər Ağababa yerindən qalxıb işə gedəndə Ağabacıya:

– Dolçaya yaxşı bax, – dedi və hindən üç toyuq çıxarıb kəsdi.

Həmin gün Ağabacı da, Nuhbala da, Nailə, Firuzə, Kəmalə, Amalə, Dilşad, Böyükxanım da bildi ki, bu toyuqlar əslində Dolçaya görə kəsilib və buna görə də günorta toyuqların sümüklərini bir az üzdən yedilər, qığırdaqlar sümüklərin üstündə qaldı, boğazları fəqərə-fəqərə, qabırğa sümüklərini bir-bir təmizləmədilər və bütün bu ləzzətli sümüklərin hamısını Ağabacı xüsusi bir həvəslə dəmir nimçəyə yığıb Dolçaya apardı, nimçəni Dolçanın qabağına qoydu və bu dəm dünyanın ən gözlənilməz hadisəsi baş verdi: Dolça sevinə-sevinə toyuqların qığırdaqlı sümüklərinin üstünə atılmadı, bir müddət gözlərini təəccübdən matı-qutu qurumuş Ağabacının gözlərinin içinə zillədi, sonra könülsüz-könülsüz ayağa qalxdı, nimçəni iylədi və nimçədəki bud sümüklərindən birini götürüb, yuxarısını dişlədi.

Ağabacı bu işə məəttəl qaldı.

Bir azdan tavada qızaran ətin qoxusu həyəti bürüdü. Əminə xanım tavada quzu qabırğası qızardırdı; həm quzu qabırğası qızardırdı, həm də gilas yeyə-yeyə şüşəbəndin pəncərəsindən həyətə baxırdı (Əminə xanım, demək olardı ki, otağa heç girmirdi, gününü elə şüşəbənddə keçirirdi və məsələ təkcə onda deyildi ki, şüşəbənd otağa nisbətən sərin olurdu – bu öz yerində, amma bir səbəb də var idi və o da bundan ibarət idi ki, hərdən otağın divarındakı şirin xofu Əminə xanımı basırdı, «– Gör bir nə çəkiblər də, evin içində, elə bil heyvanxanadı!»).

Ofelya televizor əlində həyətdə ağacların arasında dolaşırdı və Ofelya gəlib iydə ağacının yanında dayananda Dolça qıza hürmədi, damın yanından ayağa qalxıb mırıldadı, o tərəf-bu tərəfə gəzişdi, sonra yenə damın yanında yerə çökdü. Ofelya gözlərinə inanmadı və Dolçanın ona hürməməyi Ofelyaya elə təsir etdi ki, qız əvvəlcə bilmədi nə eləsin, sonra Dolçanın qara gözlərinə baxdı və bu gözlərdə bir biganəlik gördü; Ofelya belə hiss elədi, amma, əslində, bu dəm Dolçanın qara gözlərində biganəlik yox, bir məğlubiyyət var idi; Ofelya əlindəki televizoru iydə ağacının dibinə atıb qaça-qaça şüşəbəndə çıxdı və Əminə xanımın boşqaba yığdığı

qızarmış qabırğalardan üç-dördünü götürüb, əlləri yana-yana aşağı düşdü, iydə ağacının yanına yüyürüb isti qabırğaları, yağı daman qızarmış quzu qabırğalarını bir-bir Dolçaya tərəf atmağa başladı:

– Dolça! Ala! Ala! Dolça! Ala!

Birinci tikə Dolçanın qabaq ayaqlarının yanına düşdü və Dolça necə dayanmışdısa elə eləcə başını aşağı əyib qabırğa tikəsinə baxdı, sonra yenə başını qaldırıb Ofelyaya baxdı.

Dolça hürmədi.

Dolçanın ağzı açılmışdı, dili ağzından sallanmışdı və ağzından su axırdı.

Dolçanın qara gözlərində dərin bir kədər var idi.

Ikinci tikə də Dolçanın sinəsinə toxunub yerə düşdü.

Üçüncü tikə havada yox oldu və Ofelya əvvəlcə başa düşmədi ki, məsələ nə yerdədi, amma görəndə ki, Dolça tez-tez ağzındakı ət parçasını yeyir, əlindəki axırıncı tikəni də atdı və Dolça bu axırıncı tikəni də göydə qapıb təpişdirməyə başladı.

Ofelya elə bil ki, ömründə belə sevinməmişdi və sevindiyindən Ofelya bilmədi atdana-atdana şüşəbəndə necə qaçıb çıxdı və qızarmış quzu qabırğasıyla dolu boşqabı necə götürdü.

Əminə xanım dedi:

– Az, dəli olmusan, hara aparırsan bunları?

Ofelya da dedi:

– Indi ağlayaram, onda bilərsən!

Ofelya dolu boşqabla yenə iydə ağacının yanına qaçıb gəldi və Ofelya bura gələnə qədər Dolça yerdəki iki tikəni də yemişdi. Dolça dal ayaqları üstə qalxdı və fürsəti fövtə verməyən Ofelyanın bir-bir atdığı isti quzu qabırğalarını göydə qapa-qapa, tələm-tələsik yeməyə başladı. Ofelya lap Dolçanın yanına gəldi və Dolça tikələri elə tez-tez, elə acgözlüklə təpişdirib yeyirdi ki, sümükləri elə tez-tez, elə xırçıldada-xırçıldada çeynəyib udurdu ki, ət qurtaranda Ofelya boşqabı Dolçanın qabağına qoydu və Dolça boş boşqabın dibindəki yağı yalamağa başladı.

Ağabacı şüşəbəndin altında oturub göy qutabı üçün xəmir yayırdı və Ağabacının gözləri Dolçaya sataşanda, bu dəfə də arvad gözlərinə inanmadı, oxlov əlində quruyub qaldı və Ağabacı bir müddət lal-dinməz oldu, tərpənmədi, kirayənişinlərinin boşqabının dibini yalayan Dolçaya tamaşa elədi, elədi, sonra ürəyi yana-yana öz-özünə: «– Yazıq heyvan!..»– dedi.

«Volqa»sı yaşıl oğ-ğ-ğlan, Qəni, Qəni!
Ağzı qızıldiş oğ-ğ-ğlan, Qəni, Qəni!
Gəl sən mənə sataş-ş-şma,
Çünki həyasızam mə-ə-ən, Qəni, Qəni!...

Sonra cır səsli oğlan həmişəki kimi, səsini zildə köklədi:

Dəm, dəm olmuşam, ay gözəl,
Gözləri xumar olmuşam, ay gözəl!..

Və həmin gündən sonra Dolça Ağabacının arpa unundan düzəltdiyi kütə, yala bir də heç vaxt toxunmadı, Ofelyanın bir ucdan daşıdığı kotletləri, tavakababları, küftələri, qızarmış ətləri göydə qapıb yeməyə başladı.

Həmin gündən Dolça Ofelyanın kölgəsi oldu və Ofelyanı görəndə həmişə əlinə baxdı.

Həmin gündən sonra Ofelya Dolça ilə oynadı, sonra Dolça ilə dalaşdı, sonra Dolçanı ələ saldı, qovdu, Dolçaya güldü, amma Dolça Ofelyadan əl çəkmədi, Ofelya acıqlananda Dolçaya yemək vermədi, Dolça qara gözləri ilə yalvardı, yalmandı, hər dəfə Ofelyanın ürəyini yumşaltdı və dadlı tikələri havada qapıb təpişdirdi.

Sonra Dolça daha Kələntər müəllimə də hürmədi, həyətdə kabab bişirən Kələntər müəllimin ayaqlarına dolaşmağa başladı. Kələntər müəllimə yalmandı və Kələntər müəllimin də hərdən ürəyi yumşaldı, şişin ucundan bir tikə çıxartdı, Dolçaya tulladı və Dolça da Kələntər müəllimin atdığı kabab tikəsini göydə qapıb ağzı yana-yana yedi.

Bir dəfə həm yay axşamının bürküsündən, həm də manqalın istisindən puçur-puçur tər tökən Kələntər müəllimin bu zırıltıda bir tərəfdən də ayaqlarına dolaşan Dolçaya açığı tutdu və təpiklə Dolçanın belindən vurub kənara atdı.

Bu vaxta qədər Dolçaya təpik dəyməmişdi və Dolça Kələntər müəllimin təpiyindən zingildəyə-zingildəyə öz damına tərəf qaçdı, bir müddət orda dayanıb Kələntər müəllimə baxdı, «Abış»ın şüşəbənddəki qonaqlara daşıdığı yağı axan şişlərə baxdı, sonra yenə Kələntər müəllimin yanına gəldi və ən nəhayət də Kələntər müəllimin ona atdığı iki tikəni göydə qapıb yeyə bildi.

Pişiklər daha Dolçanın qorxusundan cürət eləyib bu həyətə gələ bilmədi, hərdənbir gizlincə gələndə də yeməyə bir şey tapmadı, çünki nə olurdusa hamısını Dolça özü yeyirdi.

Dovşanlar Ağababanın bostanında kef çəkdi, çünki Dolça səhərlər, günortalar və axşamlar Əminə xanımın bişirdiklərindən, Kələntər müəllimin kabablarından o qədər yeyirdi ki, bütün geçəni ağırlaşırdı, damdan bayıra çıxmırdı.

Dolça bir neçə günün içində canlandı, ətə-qana doldu, əməlli-başlı kökəlməyə başladı.

Ağabacı özünü elə göstərirdi ki, guya bu işdən xəbəri yoxdu, amma daha arpa unundan yal çalmırdı, küt düzəltmirdi, çünki, onsuz da, Dolça bunları dilinə vurmurdu.

Nuhbala da, qızlar da özünü elə göstərirdi ki, elə bil heç nə olmayıb və bu barədə bir-birilərilə bir kəlmə də kəsmirdilər, amma Nuhbala ürəyində bu kirayənişinləri indi lap yeddimərtəbə söyürdü.

Düzdü, Ağababa günortalar, demək olar ki, evdə olmurdu və bütün bu işləri öz gözü ilə görmürdü, amma təfavütü yox idi, çünki Ağababa görmədiklərini başa düşürdü, hiss eləyirdi və Ağababa birinci dəfə Dolçanın kirayənişinlərə yalmanmasını görəndə kişinin ürəyindən elə bil yandıra-yandıra bir od parçası qopub gəldi: «– Gidi dünya!..» – dedi, sonra Ağababa fikirləşdi ki, axı, yazıq Ağabacı zahıdı, onuncu uşağı gözləyir Ağabacı və bu qədər ki, Ağabacı kabab iyi çəkir, kabab tüstüsü udur, bunun axırı heç yaxşı olmaz, gərək ət tapıb, manqal tapıb bir kabab bişirsin, yoxsa, doğrudan, yaxşı olmaz bunun axırı, amma Ağababa bilmirdi ki, Ağabacı fikirləşir ki, qarnındakı uşağın kababdan zəhləsi gedəcək, çünki bu qədər ki, bu uşaq yazıq, ana bətnində kabab iyi udur, iyrənəcək kababdan, yaxşı da eləyəcək elə; hər halda, Ağabacı belə təskinlik tapırdı.

Dolça gözgörəti kökəlirdi və Dolça da Əminə xanım kimi, demək olar ki, həyətdən eşiyə çıxmırdı, gecə-gündüz həyətdə olurdu, düzdü, Ofelya daha Dolçadan doymuşdu və daha Dolçaya tez-tez dadlı yeməklər, kotlet, tavakabab, küftə və sairə gətirmirdi, hərdən-birdən xətri istəyəndə və kefi gələndə öz artıqlarını, yemək istəmədiklərini Dolçanın qabağına atırdı, amma Dolça kökəlirdi, çünki axşamkı kababların bütün sümüklərini, şıntırlarını, yeyilməyib qabaqdan qalanların hamısını Dolça yeyirdi.

Bəşir müəllim hər dəfə içi dolu həsir zənbillərlə həyətə girəndə Dolça o saat Bəşir müəllimin qabağına yüyürürdu, elə bil Dolça başa düşürdü ki, bütün bu dəm-dəsgah, bu kabablar, bu çığırtmalar, bu qızartmalar əslində nə Ofelyanın, nə Əminə xanımın, nə də ki, Kələntər müəllimin səbəbinədir, bütün bunlar, bax, bu kök kişinin, qarasaçlı, qarabığlı bu kişinin səbəbinədir və axır vaxtlar Bəşir müəllimə xüsusi yalmanırdı.

Bir dəfə Bəşir müəllim içi ağzınacan dolu iki həsir zənbillə həyətə girəndə və Dolça da o saat Bəşir müəllimin qabağına qaçanda, Ofelya beş-altı gün bundan qabaq nazını çəkdiyi Dolça barədə qəti fikrini söylədi:

– Çox sırtıq itdi bu it!

Bəşir müəllim Dolçanın belə bir xüsusi diqqətindən elə bil ki, xoşhallanırdı və xeyli feyziyab olurdu; bu dəfə də Bəşir müəllim mərhəmətlə gülümsəyib:

– Allahın heyvanıdı da! – dedi. – Sonra həsir zənbillərdən birinin içindən bir yekə kolbasa parçası çıxarıb Dolçanın qabağına atdı.

Dolça elə bil qorxurdu ki, birdən-birə ikinci bir şəriki peyda ola bilər və tikələri az qala diri-diri udaraq həyətin qumuna bulaşmış yekə kolbasa parçasını yarım dəqiqənin içində yeyib qurtardı və şüşəbəndin altında oturub soğanbozbaşı üçün baş soğan təmizləyən Ağabacı bütün bunları gördü, eşitdi və hiss etdi ki, qəhər onu boğur, bu saat ağlayacaq, niyə ağlayacaq, bunu dəqiq deyə bilməzdi, amma gördü ki, bu saat ağlayacaq, əlindəki soğanı tələsik nimçənin içinə atıb ayağa qalxdı, şüşəbəndin altından çıxdı, sonra da həyətdən çıxdı, heç bilmədi ki, niyə çıxdı.

Dolça çalışırdı ki, Ağababanın gözünə görünməsin və Ağababa həyətə girən kimi, Dolça yox olurdu, hərdən də kənarda dayanıb oğrun-oğrun Ağababaya baxırdı və bu zaman Dolçanın qara gözlərinin lap dibindən bir kədər axıb gəlirdi.

## VIII

Avqustun axırına az qalırdı və Ağabacı indi günləri yox, saatları sayırdı, həm də Ağabacı nəsə bir nigarançılıq içində idi, elə bil inana bilmirdi ki, bu adamlar buradan çıxıb gedəcəklər, yenə bu həyətdə özlərindən başqa heç kim olmayacaq; elə bil Ağabacı inana bilmirdi ki, haçansa bu kabab iyi, cürbəcür xörəklərin ətri buralardan yox olub gedəçək, o yoğun səsli qız başıbatmış, daha Məcnunu çağırmayacaq və Məcnun da ona çavab verməyəcək, Qəninin başına daş düşəcək və səsi kəsiləcək.

Və elə bil bütün bunlar azmış kimi, bir gün elə bir əhvalat baş verdi ki, Ağabacı bilmədi başına nə çarə qılsın, bilmədi dərdini kimə desin və özünü necə aparsın.

Həmin gün səhərdən bir az keçmiş Bəşir müəllim həmişəki kimi, getdi ki, klubun yanında taksi tutsun və Bakıya işə getsin, bir azdan Kələntər müəllimin qırmızı «Jiquli»si gəlib darvazanın yanında dayandı və Kələntər müəllim Adili maşına mindirib həmişəki kimi Bakıya apardı; Əminə xanım şüşəbəndin pəncərəsindən başını çıxarıb ala gözləri ilə qırmızı «Jiquli»ni yola saldı, sonra yenə də həmişəki kimi, Ofelya günorta payını yatmaq üçün şüşəbəndə qalxdı, amma Əminə xanım özü açma-yığma çarpayını şüşəbənddən aşağı düşürüb Ofelyanın yerini tüt ağacının altında saldı və dedi ki, bundan sonra günortalar Ofelya burda yatacaq, çünki hava qəbul eləmək lazımdı və Ofelya bu təzə fikirdən çox razı qalıb, həvəslə tut ağacının altında yatdı. Çox çəkmədi ki, Kələntər müəllimin qırmızı «Jiquli»si yenə gəlib darvazanın qabağında dayandı və şüşəbəndin altında ləyəni taxta kətilin üstünə qoyub Nuhbalanın köynəklərini yuyan Ağabacı (qızlar öz paltarlarını özləri yuyurdu) əvvəlcə buna fikir vermədi. Adil maşında yox idi, Kələntər müəllim tək idi və Kələntər müəllim qırmızı «Jiquli»dən düşüb suçlu adamlar kimi o tərəf-bu tərəfə baxanda Ağabacı, nədənsə, özünü narahat hiss etdi, bir şübhə bürüdü ürəyini, sonra Kələntər müəllim tut ağacının altında günorta yuxusuna getmiş Ofelyanın yanından ötüb-keçəndə Dolça damından çıxıb bu arıq, uzun kişinin qabağına yüyürdü, amma Kələntər müəllim yavaşcadan acıqla «– Rədd ol! Rədd ol!» pıçıldadı və tələsik şüşəbəndə qalxdı, bundan sonra Əminə xanım başını şüşəbəndin pəncərəsindən çıxarıb o tərəf-bu tərəfə baxdı və bundan da sonra şüşəbənddən Əminə xanımın gülməyinin səsi gəldi, sonra sükut çökdü, özü də bu elə bir sükut idi ki, çox şeydən xəbər verirdi.

Ağabacının iki əli də ləyənin içində qalmışdı, qolları titrəyirdi və Ağabacı bütün içini, bütün bədənini bürümüş həyəcandan belini düzəldə bilmirdi.

Dolça damın yanına gəldi və başını qaldırıb bir müddət şüşəbəndə baxdı, amma bu dəfə şüşəbənddən bişmiş iyi gəlmirdi, sonra Dolça tut ağacının altında yatan Ofelyaya baxdı və Dolça da damın yanında yerə uzanıb mürgü döyməyə başladı.

Şüşəbənddən pıçıltı səsləri gəldi, sonra bir hənirti eşidilməyə başladı, sonra da şüşəbəndin pilləkənə açılan qapısının cəftəsi bağlandı.

Ağabacı şüşəbəndin altında ürəyi uçuna-uçuna öz-özünə: «– Vay, ciyərüvüz yansın sizün! Yansun ciyərüvüz! Köpək uşağı! Əclaf uşağı, əclaf! Qəhbəymiş ki, bu qancıq!..» – dedi və istədi ki, şüşəbəndə qalxıb bu dalı yekə arvadı biabır eləsin, amma Ağabacı bu rüsvayçı əhvalata görə özünü elə itirmişdi ki, yerindən tərpənə bilmirdi, təkcə buna şükür eləyirdi ki, nə yaxşı ki, uşaqlardan heç kim evdə yoxdu, qızlardan evdə olanı olsaydı, bu rüsvayçılığa dözmək olmazdı.

Ağabacı bu əhvalatı heç kimə demədi və bu əhvalat Ağabacının içini yandıra-yandıra özündə qaldı.

Sabahkı gün Bəşir müəllim yenə taksi tutub Bakıya getdi, bir azdan yenə qırmızı «Jiquli» gəlib darvazanın yanında dayandı və Kələntər müəllim yenə Adili maşına mindirib apardı, Əminə xanım yenə günorta yatmaq üçün Ofelyanın yerini tut aqacının altında saldı və Ağabacı təcili surətdə qızların hamısını dənizdə çimməyə göndərdi (qızlar başa düşmədi ki, nə olub belə və Ağabacı niyə belə cidd-cəhd edir?), çünki, doğrudan da, bir azdan qırmızı «Jiquli» təzədən gəlib darvazanın qabağında dayandı və Kələntər müəllim yenə oğrun-oğrun, o tərəf-bu tərəfə baxa-

baxa şüşəbəndə qalxdı, yenə şüşəbəndin qapısının cəftəsi bağlandı və yenə də şüşəbənddən o abırsız hənirtilər eşidilməyə başladı.

Dolça bu dəfə Kələntər müəllimin qabağına qaçmadı, elə bil Dolça da başa düşmüşdü ki, əhvalat nə yerdədi; bir-iki dəfə gözaltı şüşəbəndə tərəf baxdı, özü də elə bil ki, bir balaca rişxəndlə baxdı, sonra dama girdi.

Kələntər müəllimlə Əminə xanımın əhvalatı bu minval ilə bir neçə gün davam etdi və Ağabacının əlindən, ancaq o gəldi ki, Əminə xanıma salam vermədi, Əminə xanımın sözlərinə çavab vermədi, amma Ağabacının belə bir münasibəti Əminə xanıma qətiyyən təsir eləmədi, vallarını oxuda-oxuda gilasını yedi. Günortalar da Ofelyanı tut ağacının altında yatırtdı, qırmızı «Jiquli» ikinci dəfə Adilsiz qayıdandan sonra şüşəbəndin qapısının cəftəsini bağladı, axşamlar Kələntər müəllim təzədən gələndə və özü ilə birlikdə qonaqlar gətirəndə, qonaqlara süfrə açdı.

Ağabacı hər gün bir bəhanə tapıb qızları ora-bura göndərirdi (Nuhbala, onsuz da, səhər çıxıb, gecə qayıdırdı). Kələntər müəllim oğrun-oğrun şüşəbəndə qalxanda özünü görməməzliyə vururdu, tez-tez Əmirqulugilin küçə eyvanına tərəf boylanırdı ki, görsün Əmirqulunun arvadı Xeyransa pənçərədən baxır, yoxsa yox; Ağabacı qorxurdu ki, bu rüsvayçılığın xəbəri kəndə yayılar.

Tərs kimi, necə oldusa, həmin günlərdən birində darvazanın bala qapısı açıldı və kəndin birinci qeybətçisi və xəbərçisi dəllal Zübeydə həyətə girdi, həm də elə bir vaxtda ki, Ofelya tut ağacının altında günorta yuxusuna getmişdi, qırmızı «Jiquli» darvazanın qabağında dayanmışdı və şüşəbəndin qapısının da cəftəsi bağlanmışdı (elə bil ki, dəllal Zübeydə belə şeylərin iyini çəkirdi, pişik kimi axtarıb gəlib tapırdı). Dəllal Zübeydə şüşəbəndə tərəf baxdı, sonra şüşəbəndin altına, Ağabacının yanına gəldi və əvvəllərdə yazdığımız səbəbə görə Ağabacının onunla danışmamağına baxmayaraq soruşdu:

– Noldu, ağəz, girdi bunların uşağı instuta?

– Bilmirəm, – dedi Ağabacı; qıpqırmızı qızarmışdı və tamam tərin içində idi.

Dəllal Zübeydə Ağabacının bu vəziyyətini özü bilən kimi yozdu:

– A-a... hamama getmüşdün, ağəz?

Ağabacı:

– Hə, – dedi.

Dəllal Zübeydə:

– A-a-a... – dedi. – Bu nə vaxtın hamama getməgüdü, ağəz?

Ağabacı daha cavab vermədi və işi ilə məşğul olmağa başladı (Ağababanın şalvarının düymələrini tikirdi).

Kəndin arvadları, adətən, şənbə və yaxud bazar günləri axşamçağı gedərdi hamama və yaxşı ki, dəllal Zübeydə, ancaq bu təəccübü ilə kifayətləndi, daha Ağabacını sorğu-suala tutmadı.

– Xəbərün var? Kulturnu itsaxlayan Həsənullanın iti yenə ölüb!

(Kəndin camaatı qarovulçu Həsənullaya «kulturnu itsaxlayan Həsənulla» da deyirdi, çünki qarovulçu Həsənulla evdə balaca it saxlayırdı, bu iti çimizdirirdi, öz boğazından kəsib onu yedirdirdi; dörd il bundan əvvəl qarovulçu Həsənullanın saxladığı it xəstələnib ölmüşdü və qarovulçu Həsənulla kəndin kişilərindən utanmayıb hönkür-hönkür ağlamışdı, sonra gedib özünə təzə bir it almışdı: balaca qıvrım qara tüklü bir it idi və bu itin adını kənddə qarovulçu Həsənulladan və axır vaxtlar da kitabxanaçı Nəcəfdən başqa, heç kim yadında saxlaya bilmirdi –

Skoçteryer və indi belə məlum olurdu dəllal Zübeydənin dediyindən ki, yazıq qarovulçu Həsənullanın bu iti də ölüb.)

Dəllal Zübeydə dedi:

– Kişilər yığışıb gedib kulturnu itsaxlayan Həsənullaya başsağlığı verecəylər e, ağəz! – Dəllal Zübeydə bərkdən güldü, amma Ağabacının qətiyyən danışmaq həvəsi olmadığını görüb: – Xudahafiz – dedi və həyətdən çıxdı ki, gedib özünə başqa bir arvad tapsın ki, söhbətləri tutsun.

Ağabacının əli elə əsirdi ki, iynə iki-üç dəfə barmağına batdı.

Və beləcə gəlib həmin gün çatdı ki, o gün Ağababanın iş günü deyildi və Ağababa bütün günü evdə olacaqdı.

Ağabacı neçə gün idi ki, bu günü gözləyirdi və bu gündən qorxurdu; Ağabacı bu günün xəcalətindən qorxurdu, çünki bu rüsvayçılığın xəcalətindən Ağabacı Ağababanın üzünə baxa bilməzdi.

Gecə Ağabacı yuxuya gedə bilmirdi, bilmirdi ki, sabah nə eləsin. Əvvəlcə bu qərara gəldi ki, özü də qızları ilə bərabər baş götürüb getsin bir yerə və özünü elə tutsun ki, guya heç bir şeydən xəbəri yoxdu, sonra fikirləşdi ki, bəlkə Ağababanı bir bəhanə ilə bir yerə göndərsin, amma başa düşdü ki, belə də eləyə bilməyəcək, çünki belə eləsə, ya elə eləsə, nəsə pis bir iş eləyəcək, nəsə ört-basdır eləyəcək, gizlədəcək Ağababadan; axırda Ağabacı bu fikrə gəldi ki, bu dinsiz-imansızlar da adamdı axı və adam da abrı-həyanı bu dərəcədə itirə bilməz axı, yəqin görəcəklər ki, Ağababa kimi dağdan ağır bir kişi evdədi, nəfslərini saxlayacaqlar.

Həmin gün səhər Bəşir müəllim yenə həmişəki kimi işə getdi. Bir azdan qırmızı «Jiquli» darvazanın qabağında dayandı və Kələntər müəllim Adili götürüb şəhərə apardı, amma hayıf ki, Kələntər müəllim Ağababanı görmədi, çünki Ağababa şüşəbəndin altında oturub mürgüləyirdi (kişi daha ikinövbəli işə tab gətirmirdi) və buna görə də Ağabacı üç-dörd dəfə bərkdən həyətdə hərəsi bir iş görən qızlara dedi ki, səs salmasınlar, Ağababa bu gün evdədi, istirahət eləyir, qızlar da Ağabacının bu sözlərinə təəccüb etdilər, çünki bilirdilər ki, Ağababa evdədi və heç kim də səs salmırdı; Ağabacı ona görə bu sözləri, bərkdən deyirdi ki, heç olmasa Əminə xanım eşitsin bu, sözləri, amma bir azdan Əminə xanım yenə həyətə düşüb Ofelyanın yerini tut ağacının altında salanda Ağabacının ürəyi uçun-uçun uçunmağa başladı və Ağabacı bilmədi ki, nə eləsin, yaxşı ki, qızlar özləri yığışıb dənizə getdilər.

Dolça damın dalına keçib orda uzanmışdı; Ağababa evdə olanda Dolça həmişə damın dalına keçirdi və Ağababanın yanında Dolça kirayənişinlərin verdiklərini o saat yemirdi, tikələri ağzına alıb cəld gözdən itirdi.

Ağababa şüşəbəndin altından çıxıb quyunun yanına gəldi və quyudan vedrə-vedrə su çəkib balaca çarhovuzu doldurmağa başladı.

Yenə əvvəlcə oğlan cır, nazik səsini zildə kökləyib dad elədi:

– Leyli! Leyli!

Sonra qız kişi səsinə oxşayan yoğun səsiylə soruşdu:

– Nədi, Məcnun?

Sonra ikisi də bir yerdə oxumağa başladı:

– Bəs, biz axı, neyləyək?
Ibn Səlam elçi gəlir,
Dərdi kimə söyləyək?

(Bir gün səhər-səhər Əminə xanım bu mahnını oxudanda Nuhbala özünü saxlaya bilməmişdi, Adilə demişdi ki, alə, ay maygülü, get anova de ki, Ibn Sina yox, Ibn Səlam elçi göndərir.)

Qırmızı «Jiquli» tozanaq qaldıra-qaldıra gəlib darvazanın qabağında dayandı və Ağabacı ürəyində: «– Vallah, – dedi, – adam hesab eləmirlər bizi bunlar! Bizi də it bilirlər! Tramvay altda qalasuz sizi! Özdəridi it! Qayalıq itdəri kimi hoqqadan çıxırlar camaatın gözü qabağında, köpəkuşağı!», sonra Ağabacı birinci mərtəbədəki mətbəxə girib qapını da örtdü ki, Ağababanın yanında bu rüsvayçılığın şahidi olmasın.

Kələntər müəllim maşından düşüb həyətə girəndə və tələsik şüşəbəndə qalxanda Ağababa əvvəlcə büna fikir vermədi, yəni, əvvəlcə Ağababanın ağlına bir şey gəlmədi və kişi ikiəlli kəndiri darta-darta vedrəni quyudan çıxartdı, amma o vaxt ki, şüşəbəndin bayır qapısının cəftəsi bağlandı və bu bağlanan cəftənin səsi gəlib Ağababaya çatdı, Ağababa əlində vedrə quyunun qabağında necə dayanmışdısa bir müddət eləçə dayandı, vedrənin içindəki suya baxdı və həmin avqust günü Ağababanın rəngi ağappaq ağardı, sonra vedrəni quyunun yanında quma qoyub baş barmağı ilə hələ lap cavan yaşlarından ağarmış bığını qaşıdı, sonra düz şüşəbəndin qabağına gəldi:

– Məllim! Ay məllim!

Ağababanın səsini eşidən kimi, Ağabacının ürəyi düşdü: «– Öldürəcək! – dedi öz-özünə. – Qan salaçaq! Bu köpəkoğlunun bağırsaqlarını tökəcək yerə! Bədbəxt olaciyik! Ay Ağababa, vay!.. Ölüm ayaqlaruvun altında, Ağababa, batırma əlivü bu əclaf oğlunun qanına, Ağababa!..», sonra Ağabacı istədi həyətə qaçsın, Ağababanın əl-ayağından yapışsın, haray salsın, həşir qoparsın, qonşuları köməyə çağırsın ki, Ağababa Kələntər müəllimin zibilinə düşməsin, amma Ağabacı mətbəxdən çıxa bilmədi, çünki belə bir məqamda, rüsvayçılığın bu çağında, Ağabacı ölərdi, amma heç cürə Ağababanın gözünə görünə bilməzdi.

– Alə, məllim!

Şüşəbənd qapısının çəftəsi açıldı, sonra qapı açıldı, sonra Kələntər muəllim başını qapıdan çölə uzatdı və bu dəm Kələntər müəllimin saçları pərişan idi, köynəyinin düymələri açılmışdı, tüklü sinəsi görünürdü, şalvarının qayışı sallanırdı.

Kələntər müəllim gözlərini bərəldib Ağababaya baxdı, yəni ki, «nə deyirsən» və sənin mənimlə nə haqq-hesabın?

Ağababa:

– Bir dəqiqə buyur bura... – dedi.

Ağababa bu sözləri sakit dedi, hay-küysüz dedi, amma elə dedi ki, Kələntər müəllimin gözlərinin içinə elə baxdı ki, bu deyilişin və bu baxışın müqabilində Kələntər müəllim özündən asılı olmayaraq pilləkənləri bir-bir düşüb gəlib dayandı Ağababanın yanında və Ağababa da elə bunu gözləyirdi, əlini atıb yapışdı Kələntər müəllimin yaxasından və Kələntər müəllimin yaxasını əlinin içinə yığıb yumruğunu boğazına dirədi; Kələntər müəllimin boğazının damarları şişdi, gözləri qızardı, nəfəsi tınçıxdı, ağzını açıb nəsə demək istədi, amma adam kimi bir söz deyə bilmədi; Ağababa Kələntər müəllimi dal-dala apara-apara Kələntər müəllimin

kürəklərini darvazanın bala qapısına çırpdı, darvazanın bala qapısı bu zərbədən çırıldayıb açıldı, amma Ağababa Kələntər müəllimin yaxasını əlindən buraxmadı, Kələntər müəllimi küçəyə itələyib o biri əli ilə qırmızı «Jiquli»nin qapısını açdı və Kələntər müəllimi qırmızı «Jiquli»nin içinə dürtdü, sonra maşının qapısını çırpıb bağlamaq istədi, amma bu dəm həyətdəki manqal Ağababanın yadına düşdü, Kələntər müəllimi təzədən dartıb maşından çıxartdı, sürükləyə-sürükləyə manqalın yanına gətirdi, əlini Kələntər müəllimin yaxasından çəkib:

– Götür! – dedi.

Yaxası Ağababanın əlindən çıxmış Kələntər müəllim ildırım sürətilə manqalı qamarlayıb həyətdən götürüldü və Ağababa heç macal tapmadı ki, Kələntər müəllimin taxta dalına bir təpik vursun.

Qırmızı «Jiquli» yerindən götürüldü və tozanaq qaldıra-qaldıra sürətlə gözdən itdi – elə bil, bu qırmızı «Jiquli» də qorxurdu ki, yaxası Ağababanın əlinə keçər.

Əminə xanım xalatının yaxasını əliylə örtə-örtə başını şüşəbənddən çıxarıb:

– Bura bax, a kişi!.. – çığırdı. – Xoruldamağın bəs deyil...

Amma Ağababa Əminə xanımın çığırtısını kəsdi:

– Əgər bu gün rədd olub burdan getməsöz baltayla doğrayaçıyam hamuvuzu!

Əminə xanım yuxarıdan-aşağı Ağababaya baxıb, xırp səsini kəsdi, çünki Əminə xanım başa düşdü ki, Ağababa, doğrudan da, dediyini eləyər, baltanı əlinə alıb Əminə xanımın da, Bəşir müəllimin də, Kələntər müəllimin də başını kəsər, sonra otağın divarındakı şirin şəkli Əminə xanımın gözlərinin qabağına gəldi və Əminə xanım başını şüşəbəndin pəncərəsindən çəkdi.

Ağabacı:

– Allah, sənə çox şükür! – pıçıldadı. – Şükür sənə! Şükür!

Ağababa özü öz soyuqqanlılığına təəccüb etdi.

Mahnının səsi kəsildi.

Və axşamüstü Bəşir müəllim hər əlində içi dolü bir həsir zənbil şəhərdən qayıdanda Əminə xanım Bəşir müəllimə nə dedi, nə demədi, Bəşir müəllim gedib klubun qabağından bir taksi tütub gətirdi və Bəşir müəllim, Əminə xanım, Ofelya (Kələntər müəllim Adili şəhərdən gətirməmişdi) maşına doluşub «sağ ol»suz çıxıb getdilər.

Dolça bütün bu əhvalat zamanı damın yanında dayanıb səsini çıxartmadı, amma bir dəfə yavaşca hürdü və əsəbləri xarab olmuşdu, hirslənmişdi, nəydisə, Ağababaya elə gəldi ki, Dolça ona hürür.

## IX

Iki gün idi ki, Ağabacı bütün həyət-bacanı silib-süpürürdü, ikinci mərtəbədəki otağı, şüşəbəndi, artırmanı qarış-qarış yuyub təmizləyirdi və məsələ onda deyildi ki, kirayənişinlər pinti adam idi və hər tərəf çirkin-pasın içində idi, belə deyildi, amma Ağabacı döşəməni, divarları, sürahiləri, mizin üstünü, dolabın gözünü və sairə bütün dəlmə-deşikləri, xüsusən də şüşəbənddəki qaz pilətəsinin və pilətənin altındakı balaca mizi nə qədər silirdi, yuyurdusa da canına yatmırdı, ürəyi çimçişirdi, yadına salanda ki, Əminə xanımla Kələntər müəllim şüşəbəndin qapısının cəftəsini necə bağlayırdı və bundan sonra bu şüşəbənddən necə at tövşüməsinin, it ləhləməsinin səsi gəlirdi və burasını da yadına salanda ki, Nailə, Firuzə, Kəmalə, Amalə, Dilşad,

Böyükxanım bu şüşəbənddə yataçaq, Ağabacı onqat artıq bir cidd-çəhdlə silib təmizləyirdi.

Və bu axşam Ağababagil yenə də qalxmışdı yuxarı, öz yerlərinə, köhnə televizoru da qaldırmışdılar şüşəbəndə və bu geçə yenə hərə öz yerində yatmışdı, illərdən bəri həmişə necə olmuşdusa, indi də eləcə idi; Ağabacı yorulub əldən düşüb artırmada, Ağababanın yanında yatmışdı; Ağababanın xorultusu bütün bu tərəfləri lərzəyə salmışdı; qızlar şüşəbənddə yatışmışdı; Nuhbala da axşamdan gəlib rahatca uzanmışdı talvarda və rahatca da yuxuya getmişdi və elə bil ki, yuxuda gülürdü (ola da bilərdi ki, Nuhbala yuxuda gülürdü, çünki bu günorta Nərgiz elektrik qatarına minib Bakıya getmişdi ki, özümə dəftər-kitab almalıyam, Nuhbala da avtobusa minib Bakıya getmişdi və Nərgizlə Nuhbala Bakıda bir yerdə kinoya getmişdi, kinoda Nuhbala əlini qoymuşdu Nərgizin çiyninə, çünki bir belə Bakı camaatının içində heç kim onları tanımırdı, sonra Nərgiz yenə elektrik qatarına minib kəndə gəlmişdi, Nuhbala da avtobusa minib kəndə qayıtmışdı və bu unudulmaz Bakı səfərindən sonra şirin-şirin yatırdı talvarda, küləyi də vecinə almırdı).

Axşamdan xəzri əsməyə başlamışdı və külək get-gedə bərkiyirdi və bu dəm dənizin uğultusu da küləyin səsinə qatışmışdı, ağaclar da xışıldayırdı. Külək qozaları bir-bir tarappaturupla salırdı yerə, narın çiçəklərini havaya sovururdu.

Dolça hasarın üstündə oturub bu qaranlıq gecədə, aysız-ulduzsuz, küləkli Abşeron gecəsində qayalığa tərəf baxırdı; qayalıq görünmürdü, amma xəzri köpüklənib qaranlıqda ağaran dalğaları qayalara çırpırdı və Dolça qayalara çırpılan dalğanın səsinə tərəf baxırdı, sonra Dolça başını qaldırıb bağban Əsədullanın evinə tərəf baxdı; bağban Əsədullanın evi kəndin yuxarısındakı dikdirin üstündə idi və indi bu ev də qaranlıq içində itib-batmışdı, təkcə darvazalarının qabağında elektrik lampasının işığı gəlirdi, sonra Dolça aşağı tərəflərə, kəndin o hissəsinə ki, quşvuran Fazilin evi orda idi, oralara baxdı və elə bil ki, həmin aysız-ulduzsuz, küləkli Abşeron geçəsində Alabaşı yadına saldı, Sarıbaşı yadına saldı, elə bil ki, o sakit, o mülayim, təmiz yay gününü yadına saldı, onunla qaç-tut oynayan cüllütü yadına saldı, o sakit, o mülayim, təmiz yay günündə açılan dörd gülləni yadına saldı.

Dolça bu iki günün içində yenə də arıqlamışdı, heç nə yemirdi, heç su da içmirdi, həyətdən bayıra çıxmırdı, evin başına dolanırdı, Kələntər müəllimin manqal qoyduğu yerə gəlib torpağı iyləyirdi, damın yanında yerə uzanıb gözlərini şüşəbəndə zilləyirdi, hərdən maşın səsi eşidəndə başını qaldırıb yola baxırdı, elə bil qırmızı «Jiquli»nin həsrətini çəkirdi.

Ağababa belə hiss edirdi ki, Dolça kirayənişinlərin xiffətini çəkir və Dolçanın belə yaramaz adamların xiffətini çəkməsi Ağababanın ürəyində qubar bağlayırdı, Ağababa kitabxanaçı Nəcəfin dünya və həyat barədə söylədiyi müdrik sözləri yadına salırdı: «– Gidi dünya!..» – deyirdi ürəyində və söyüş söyürdü.

Bu gün günorta Ağabacı yenə arpa unundan yal çaldı və yalı gətirib qoydu Dolçanın qabağına, amma Dolça yenə də yala dilini vurmadı, dəmir nimçəyə baxdı, Ağabacıya baxdı və Ağabacıya hürdü.

Ağabacı Dolçanın bu hürməyindən çox pərt oldu:

– Nədi? Nə istəyirsən? – dedi.

Dolça yenə Ağabacıya hürdü və nifrətlə, açıq-aşkar bir nifrətlə dəmir nimçənin içindəki yala baxdı. Ağabacı:

– A-a-a... Allah haqqı, kabab istəyir bu! – dedi. – Və bu vaxt Nailə quyunun yanında paltar yuya-yuya dedi:

– Elə mən də kabab istəyirəm...

Sabahkı gün isə Dolça yoxa çıxdı...

Bütün günü Dolça həyətə gəlmədi. Dolça geçə də gəlmədi. Ağababagil o biri gün də gözlədi, Dolça gəlib çıxmadı.

Dolça bir də bu həyətə gəlmədi...

## «SÜRPRİZ» KABABI

*(Epiloq əvəzi)*

Gümüş Malikə ona görə Gümüş Malik demirdilər ki, var-dövlətinə işarə edirlər, belə olsaydı, Qızıl Malik deyərdilər, çünki dəllal Zübeydənin dediyinə görə (və burası da hamıya məlum idi ki, dəllal Zübeydənin bilmədiyi şeyə qurd duşər!) Gümüş Malikdə olan qızıl ingilis bankındakı qızıla bərabər bir şey idi; Gümüş Malikə ona görə Gümüş Malik deyirdilər ki, Gümüş Malik oturub-durub deyirdi ki, gümüş, adamın bədəninə ən xeyirli şeydi və evdə bütün çəngəl-bıçağı, qədəhləri, buludu, hətta boşqabları da gümüşdən idi, həm də Gümüş Malikgil bunu təkcə qonağın qabağına qoymurdu, on iki uşağı, özü, arvadı, anası, qayınanası, dul baldızı və dul baldızının yeddi uşağı səhər də, günorta da, axşam da yeyib-içəndə, ançaq gümüş işlədirdilər, əlqərəz, hərənin bir xasiyyəti olar və adam da ayağını yorğanına görə uzadar, Gümüş Malikin də şakəri gümüş idi.

Gümüş Malikin kababxanasının adı «Mixək» idi, çünki bura, guya, kababxana yox, çayxana idi və guya, camaat bura mixəkli çay içməyə gəlirdi; əlbəttə, çay içilməyinə içilirdi burda, amma acqarına yox, təzə osetrina və sevryuqa kababının, əmlik quzu kababının, toyuq və hindquşu kababının və bunların hamısının lüləkababının, qutabın, düşbərənin, gürzənin, xəngəlin, xülasə-kəlam, dünyanın ən ləzzətli yeməklərinin üstündən içilirdi. Söhbət həmişə bu kababxanadan düşəndə kitabxanaçı Nəcəf yanıb-yaxılırdı, deyirdi ki, buna bax bir, hökumətin çayxanasını eləyib kababxana, əti, balığı və hər nə varsa, hamısını öz puluna alverçilərdən alıb bişirdir və onqat qiymətinə satır çamaata, elə bil, dədəsinin kababxanasıdı, elə bil, Gümüş Malikin atası hambal Israfil öləndə bu çayxananı Gümüş Malikə vəsiyyət edib və tapşırıb ki, buranı çöndər elə kababxana, soy camaatı, yandır atasını, heç nədən də qorxma, nə müfəttişdən qorx, nə yoxlamadan, nə də bir başqa şeydən; qəssab Ağakişi kitabxanaçı Nəcəfin bu sözlərinə qulaq asıb deyirdi ki, balam, çamaatın ki, öz canında yoxdusa, getməsin də, gedib oturub Gümüşün kababxanasında çörək yeməsin də! Kitabxanaçı Nəcəf qəssab Ağakişinin bu sözlərinə belə çavab verirdi ki, Gümüş Malikin kababxanasına gedənlər də elə Gümüş Malikin taylarıdı, hərəsi bir yerdə daraşıb taxtabiti kimi hökumətin malına, hərəsi bir tərəfdən yeyir və gəlib burda dəniz havası uda-uda kef eləyir, neynək, qoy eləsinlər, amma görərlər onların başına nə oyun açacağam mən; kitabxanaçı Nəcəf bu barədə qəzetə böyük bir məqalə yazıb göndərmişdi.

Gümüş Malikin kababbişirəni Hacıməmməd kişi ki, camaat ona Məşədi Manqal deyirdi, kababxananın dal tərəfində sıra ilə düzülmüş manqallara səhərdən bir az keçmiş od vururdu, şişləri düzürdü və təmiz, küləksiz yay günlərində Ağababagildən diqqətlə baxanda Gümüş Malikin kababxanasının tüstüsünü görmək olurdu.

Həmin gün Ağababanın iş günü deyildi və ümumiyyətlə, Ağababa yenə də əvvəlki kimi, təkcə öz növbəsini işləyirdi, işləmədiyi günlər də həyət-bacaya əl gəzdirirdi, evdə istirahət edirdi, bir sözlə, əvvəl necə yaşayırdısa, indi də eləcə yaşamağa başlamışdı; hər şey yenə də əvvəlki qaydasına düşmüşdü. Kələntər müəllimin bişirdiyi kababların iyi, demək olar ki, həyətdən çəkilib getmişdi, bu həyət, bu ev, bu ağaclar Əminə xanımın vallarının səsini yavaş-yavaş yaddan

çıxarırdı; bütün bunlar belə idi, amma yenə də nəsə çatışmırdı və Ağababa bu «nə isə»nin nədən ibarət olduğunu yaxşı başa düşə bilmirdi.

Əlbəttə, bu «nə isə»yə ən başlıça Dolçanın yox olması daxil idi. Düz altı gün, altı gecə idi ki, Dolça yox idi və hətta Ağababa fikirləşdi ki, yəqin Dolça Bakıya gedib, orda bu kirayənişinləri tapıb və indi orda onlarla qalır; Ağababa bunu fikirləşdi və narahat oldu, çünki Dolça gedib onları tapsaydı da, o adamlar Dolçanı saxlamazdılar yanlarında; sonra Ağababa qayalığa düşüb Dolçanı axtardı ki, bəlkə qayalıqdadı Dolça və kəndin uşaqları qayaların arasını gəzən Ağababanı görüb qaçıb dağılışdılar (kəndin uşaqları hərdən günortalar gəlib qayalıqda gizlin-gizlin gəzirdi, Bakıda bir yerləri yoxmuş kimi, gəlib bu qayaların arasında mazaqlaşan və mazaqlaşmaqdan da o tərəfə keçən şəhərli oğlan-qızlara tamaşa edirdi), amma bütün bu yerlərdə Dolçanın izi-sorağı da yox idi və ümumiyyətlə, elə bil kimsə Ağababaya deyirdi ki, Dolça buralarda deyil və Dolça məsələsi qurtardı daha.

Dolçanın yoxa çıxmasından başqa da bir şey o «nə isə»nin içinə daxil idi və çəkic-mismar götürüb, nərdivana qalxıb talvarın taxtalarını bərkidən Ağababa, həmin gün, avqustun lap axırlarındakı o aydın, küləksiz yay günü uzaqda Gümüş Malikin kababxanasından qalxan tüstünü görəndə başa düşdü ki, nə eləməlidir və bunu mütləq eləməlidir, elə bu gün eləməlidir.

Ağababa nərdivandan aşağı düşdü, mıxı, çəkici aparıb mətbəxin yanındakı balaca otağa qoydu, sonra yuxarı qalxıb şüşəbənddə hərəsi öz işi ilə məşğul olan Ağabacıya, qızlara dedi:

– Hazırlaşın, gedirik kabab yeməyə!

Ağabacı da, uşaqlar da Ağababanı yaxşı tanıyırdı və bu dəfə də Ağababanın səsinin tonundan başa düşdülər ki, mütləq durub hazırlaşmalıdırlar və getməlidirlər.

Nailə qonşuya getmişdi, Amalə qaçıb Naileni çağırdı, Dilşad dəniz qırağına qaçıb Nuhbalanı çağırdı, Ağabacı çoxdan geymədiyi krepdeşin paltarını dolabdan çıxardıb ütülədi, Ağababanın qolsuz ağ köynəyini ütülədi, qızlar quyudan su çəkib əl-üzlərini, ayaqlarını yudu və düz saat yarımlıq hazırlıqdan sonra Ağababa qabaqda, Ağabacı ilə qızlar arxada, Nuhbala da lap arxada darvazanın bala qapısından çıxıb Gümüş Malikin kababxanasına tərəf üz tutdular.

Əmirqulu hardasa yenə bir az artıqlıq eləmişdi və yenə də küçədəki tut ağacının dibində oturub kürəyini söykəmişdi ağacın gövdəsinə və gözləri axa-axa oxuyurdu özü üçün:

Mən əntiqə çortdayam,
Çortdayam, firontdayam.
Atıram plyumotları,
Vururam samalyotları!

Xeyransa da evlərinin küçə eyvanında idi və Ağababagili görən kimi, utandığından pərdənin dalında gizləndi, Əmirqulunun xəcalətindən heç soruşa da bilmədi ki, görsün bu istidə Ağabacıgil geyinib-kecinib hara gedirlər belə; düzdü, onsuz da, sabah kənddə biləcəydilər ki, Ağabacıgil hara gedib, amma Xeyransa ürəyində yenə Əmirqulunun qarasına deyindi: «– Başun batsun elə sənün! Batsun başun! Ər olan yerdə bir qara daş olub düşəydün mənim başıma!»; sonra Xeyransa evə keçdi, çünki indilərdə usta Mərdan gələcəkdi və başlayacaqdı otağın divarındakı şəkli qaşımağa. (Axır vaxtlar usta Mərdan müştərinin çoxluğundan kefə baxırdı,

çünki indi də kəndə dəb düşmüşdü və hamı otaqlarının divarındakı şəkilləri qaşıtdırırdı; sabah usta Mərdan Ağababagilə gələcəkdi.)

Ağababagil kəndin küçəsi ilə aşağı düşdü. Istinin əlindən hamı çəkilmişdi həyət-bacaya və boş küçədə Ağababagilin qabağına çıxan birinci adam qarovulçu Həsənulla oldu. Qarovulçu Həsənullanın kefi elə kök idi ki, uçmağa qanadı yox idi və qanad əvəzinə hər əlində bir it balası tutmuşdu: balaca, qıvrım tüklü, qəhvəyi rəngli küçüklər idi və qarovulçu Həsənulla Ağababanı görən kimi, sevincini bölüşdü:

– Görürsən! Aldım e, aldım! Pudeldi bunların adı, pudel! Maya meçta pudel! Bacı-qardaşdı! Görürsən necə krasividi?!

Belə məlum olurdu ki, qarovulçu Həsənulla yenə varını-yoxunu verib bu qəribə itdən almışdı, özü də ikisini birdən almışdı, bir dənə erkək, bir dənə də dişi və yəqin ki, bundan sonra qarovulçu Həsənullanın həmişə iti olacaqdı, bu bacı-qardaş doğub-törəyəcəkdi.

Ağababanın da kefi kök idi və Ağababa:

– Hə, çox krasividi! – dedi və bir: – Malades! – də əlavə etdi.

Sonra kitabxanaçı Nəcəfə rast gəldilər; kitabxanaçı Nəcəf çeşməyini taxıb evlərinin qabağındakı əncir ağacının kölgəsində oturub təzə qəzetləri oxuyurdu və Ağababagili görəndə salamlaşıb:

– Xeyir ola, hara belə, Ağababa müəllim! – soruşdu (Kitabxanaçı Nəcəf kəndin bütün kişilərinə «müəllim» deyə müraciət edirdi və hətta bir dəfə qəssab Ağakişi acıqlandı ki, balam, mən ki, bütün ömrüm boyu qəssab olmuşam, bu gədə mənə niyə müəllim deyir? Bağban Əsədulla da belə cavab verdi ki, kitabxanaçı Nəcəf ona görə hamıya müəllim deyir ki, onun özünə də çamaat «müəllim» desin, day «kitabxanaçı Nəcəf» deməsin. Bağban Əsədullanın sözü camaatın ağlına batdı.)

– Gəzməyə gedirik.

– Həmişə gəzməkdə! – dedi kitabxanaçı Nəcəf və yenə də başladı qəzetdəkilərin hamısını bircə-bircə oxumağa; bütun bu tərəflərdə kitabxanaçı Nəcəf qədər qəzet oxuyan ikinci bir adam tapmaq mümkün deyildi və kitabxanaçı Nəcəf, hətta rus dilində Estoniya qəzetinə də abunə olmuşdu ki, görsün oralarda nə var, nə yox. (Bir dəfə kitabxanaçı Nəcəfin anası Əlibala arvad – valideynləri bu arvada kişi adı qoymuşdu, çünki Əlibala arvad on dörd baçının axırıncısı imiş, – hə, bir dəfə kitabxanaçı Nəcəfin anası Əlibala arvad deyib ki, çamaatın uşağının əli pula çatır, mənimkinin də əli qəzetə çatıb.)

Əlbəttə, kitabxanaçı Nəcəf bilsəydi ki, Ağababa bütün əhli-əyalı ilə bir yerdə Gümüş Malikin kababxanasına gedir, inanmazdı, çünki Ağababa kitabxanaçı Nəcəfin bu kənddə ən çox hörmət etdiyi adamlardan biri idi və bu hörmətin də əsas səbəbi, təbii, bu idi ki, Ağababa halal zəhmətnən dolanan adam idi, əməlisaleh adam idi, gözütox adam idi, əyri işlərlə arası olmayan, xeyrə-şərə yarayan adam idi, bir sözlə, Ağababa, kişi adam idi.

Ağababagil kənddən çıxıb sahilə düşdü və qumluqda Gümüş Malikin kababxanasına tərəf getməyə başladı.

Yenə xəzri əsməyə başlamışdı, dəniz göy-mavi idi, dalğalar üç-dörd qat köpüklənə-köpüklənə sahilə gəlirdi, bir də ki, ləpədöyəndə düz bir xətt boyu ağappaq dalğa köpüyü uzanırdı; üfüqdə dəniz bir az maviləşirdi, bir az göy göyərirdi və dənizdə göy bir şeymiş kimi birləşirdi.

Həm bu xəzriyə görə, həm də şənbə və bazar günü olmadığına görə sahil bomboş idi və Ağababa bu boş sahillə gedə-gedə, necə oldusa, birdən-birə o yağışlı-küləkli sonuncu yaz gününü yadına saldı, dalınca düşüb evlərinə gedən o gülməli küçüyü yadına saldı, dənizə baxdı, qumluğa baxdı və fikirləşdi ki, min-min o cür yağışlı-küləkli günlər olub bu dənizin qırağında, min-min o cür küçüklər görüb bu dəniz, min-min Ağababalar görüb, min-min dərdin-sərin şahidi olub bu dəniz və adamların bütün dərdi-səri, bütün çatışmayan işləri bu dənizin böyüklüyünün, bu dənizin qocalığının müqabilində elə o balaca küçük kimi gülməli bir şeydi.

Poçtalyon Fətoş məktub-qəzet dolu çanta belində, köhnə velosipedini sürə-sürə qabaqdan gəlib Ağababagilin yanından ötdü (bütün bu tərəflərdə poçtalyon Fətoşdan başqa heç kim bu qumluqda velosiped sürə bilmirdi, özü də poçtalyon Fətoşun rəsmi altmış səkkiz yaşı var idi, amma qəssab Ağakişi deyirdi ki, poçtalyon Fətoş elə mənimlə yaşdaş olar, yəni, belə çıxırdı ki, poçtalyon Fətoşun səksən bir yaşı var), salamlaşdı və soruşdu:

– Hara belə, xeyir ola?

Ağababa:

– Gəzməyə gedirik! – dedi.

Poçtalyon Fətoş:

– Həmişə gəzməkdə! – dedi və velosipedini sürüb uzaqlaşdı.

Baxmayaraq ki, şənbə və bazar günü deyildi, Gümüş Malikin kababxanası müştəri ilə dolu idi və təkcə kababxananın içində yox, bütün ətrafındakı qumluqda da, əncir kölgəsində, meynə talvarının kölgəsində dördkünc mizlər qurulub, kürsülər düzülmüşdü və Bakıdan gələn müştərilər yeyib-içib kef çəkirdilər: kimi dostu ilə gəlmişdi, kimi gələn qonağını gətirmişdi və bu qonaqlar kababdan daha çox göy-göyərti yeyirdi, araq içirdi və tez keflənirdi, kimi dəstə ilə gəlmişdi və sairə.

Gümüş Malik Ağababanı görən kimi:

– Xoş gəlmisən, qədeş! – dedi. – Sonra gördü ki, Ağababa bütün əhli-əyalı ilə gəlib və bunu özünə qarşı böyük bir hörmət əlaməti kimi qəbul etdi, çünki, əslində, kəndin kişiləri arvad-uşağı götürüb kababxanaya gətirməzdi: – Anam-bacım olsunlar, əcəb eləyib gətirmisən bacını da, uşaqları da! Buralarda oturmayın, süzə layiq döyül, tapşırram düzəldərlər süzünçün bu saat!

Gümüş Malik həm boydan-buxundan, həm də qarından çox yekə bir kişi idi (belə danışırdılar ki, guya, bir dəfə Gümüş Malik səhər-səhər otuz üç yumurtanın qayğanağını yeyib!) və əvvəllər özü də atası məşhur hambal Israfil kimi yükdaşıyan idi, amma evlənəndən sonra qaynı Ələkbərin dost-tanışının sayəsində əvvəlcə klub çayxanasında çayçı oldu, sonra öz gücünə Buzovnanın vağzal restoranında bufetçi düzəlib işlədi, sonra da bu kababxananın müdiri oldu və Gümüş Malikin işləri elə gözəl gətirmişdi, özünə elə bir hörmət qazanmışdı ki, indi qaynı Ələkbər Gümüş Malikin yanında ürək eləyib papiros çəkmirdi ki, kişidən ayıbdı.

Kababxanada Gümüş Malikin balaca bir müdir otağı var idi ki, burada oturub kağız-dəftərdə haqq-hesab aparırdı, telefonla danışırdı, mal qəbul edirdi və ən hörmətli adamlar gələndə bu otaqdakı balaca yazı mizinin üstünü boşaldıb süfrə saldırırdı, qonaqları burda oturdurdu ki, başqa müştərilərdən ayrı olsunlar və indiki halda Ağababanın külfəti, demək olar ki, hamısı kişi olan bu müştərilərin yanında sıxılmasın.

Bu istidə başına «aerodrom» papaq qoymuş xörəkpaylayan Çəfərqulu içəri girib Ağababagillə salamlaşdı, hal-əhval tutdu (xörəkpaylayan Cəfərqulu Xeyransanın xalası oğlu idi və dünyada ən birinci zəhləsi gedən adam Əmirqulu idi) və menyünü qoydu Ağababanın qabağına.

Abşerondakı belə kababxanalarda menyü olmazdı, amma Gümüş Malikin kababxanasının bir fərqli cəhəti bundan ibarət idi ki, burda menyü olurdu və hamı bilirdi ki, bu gözəl menyü bukletini Gümüş Malik Çexoslovakiyada sifariş elətdirib gətirmişdi, arasına əllə yazılmış kağız qoyurdu və bu kağızda kababxanadakı cürbəcür yeməklərin adı yazılırdı, amma qiyməti yazılmırdı.

Ağababa xörəkpaylayan Cəfərqulunun gətirdiyi menyüyə baxdı və gördü ki, burda ən birinci şaşlık «Sürpriz» yazılıb, Ağababa da göy-göyərti, pomidor-xiyar və pendirdən başqa adama bir yeməklik şaşlık «Sürpriz» sifariş verdi.

Gümüş Malikin bu otağındakı pənçərədən Məşədi Manqalın manqalları görünürdü və ömrü boyu həmişə kabab bişirməklə məşğul olmuş Məşədi Manqal bu manqaldan o manqala qaça-qaça bir belə müştərinin kababını bütün gün ərzində təkbaşına bişirirdi. (Kəndin camaatı danışırdı ki, Məşədi Manqal hər gün o qədər tin-tüstü udur ki, axşam iş qurtarandan sonra, yəni, kababxananın manqallarının hamısına su çiləyib söndürəndən sonra, Məşədi Manqal bir tikə çiy quyruğa sap bağlayıb udur, sonra sapı dartıb quyruq tikəsini çəkib qarnından çıxarır və quyruq tikəsi hisdən qapqara olur; guya, Məşədi Manqal bu minval ilə hər axşam mədə-bağırsağını təmizləyir.)

Xörəkpaylayan Cəfərqulu göy-göyərti gətirib mizin üstünə düzdu, xiyar, pomidor gətirdi, pendir gətirdi, Ağababa üçün iki yüz qram araq gətirdi, quyuya sallanmış və indi buz kimi olan «Badamlı» gətirdi və:

– Nuş can! – deyib getdi.

Ağababagil mizin üstundəkilərdən yeməyə başladı, sonra Ağababa araqdan yüz qram süzüb Baladadaşın və Ağagülun sağlığına içdi, sonra da hamı «Sürpriz» kababını gözləməyə başladı.

Ağabacı dedi:

– Balam, bu nə kababdı belə? Birdən qoyun əti olmaz, alayı şey olar a?..

Ağababa başa düşdü ki, Ağabacı ehtiyat eləyir ki, birdən donuz əti-zad olar, kişini gülmək tutdu və Ağababanın axır vaxtlar bu qədər urəkdən güldüyü olmamışdı; Nuhbala da, qızlar da başladılar gülməyə və elə bu vaxt klarnet səsi gəldi, zurna səsi, nağara səsi gəldi, «Gəlin» havasının adamın sümüyünü oynadan səsi aləmə yayıldı, sonra qapı açıldı, xörəkpaylayan Cəfərqulu əlində üstü pomidorla, göy-göyərti ilə bəzədilmiş içi kabab dolu böyük bir bulud oynaya-oynaya içəri girdi və xörəkpaylayan Cəfərqulunun ardınca da klarnetçalan Muxtar, zurnaçalan Ərəstun, nağaravuran Ibrahim çala-çala, klarneti, zurnanı, nağaranı oynada-oynada içəri girdilər, xörəkpaylayan Cəfərqulu buludu mizin ortasına qoydu. Muxtar, Ərəstun və Ibrahim də keçib dayandılar Ağababanın başının üstundə və güc verdilər «Gəlin» havasına.

Bu əhvalatın gözlənilməzliyindən əvvəlcə Ağababagilin gözü çıxdı kəllələrinə və handan-hana özünə gələn Ağababa:

– Alə, Cəfərqulu, bu nədi belə? – soruşdu.

Xörəkpaylayan Cəfərqulu:

– Şaşlık «Sürpriz»di də, qədeş! – dedi, – sonra: – Nuş can! – dedi və otaqdan çıxdı.

Muxtar klarnetin ağzını otağın tavanına qaldırdı, Ərəstun ovurdlarını şişirdib var gücü ilə püflədi, Ibrahim bir əli ilə nağaranın qabağını, o biri əli ilə də nağaranın dalını döyəclədi və çalğıçılar doğrudan aləm çaldılar, elə ürəkdən çaldılar ki, Ağabacı özünu saxlaya bilməyib ürəyində bunlara: «– Əhsən!» – dedi.

Ağababa başa düşdü ki, kababdan yeməyincə Muxtarın dəstəsi burdan çıxıb gedən deyil, çünki «Sürpriz» kababı belə kabab idi ki, gərək çalğıçılar müştərinin başının üstündə «Gəlin» havası çalaydı; əl atdı buluda, kababdan Ağabacının qabağına qoydu, qızların qabağına qoydu, Nuhbala özü götürdü, hərə özünə bir dənə də pomidor kababı götürdü. Ağababa qalan yüz qramı da töküb başda klarnetçalan Muxtar olmaqla çalğıçıların sağlığına qaldırdı və burası da aydın oldu ki, Gümüş Malik Ağababagil üçün, həqiqətən əla kabab təşkil eləyib.

Necə oldusa, birdən-birə Ağabacı fikirləşdi ki, görəsən, kirayənişinlərinin oğlu Adil instituta girdi, yoxsa yox? Ağabacı istədi ki, bu sualı bərkdən versin, amma bir söz demədi, çünki belə bir qiyamət gündə Ağababanın və uşaqların kefinə soğan doğramaq istəmədi.

Ağababa bura gələndə cibinə əlli manat pul qoymuşdu, amma Ağababagil yeyib-içib qurtarandan sonra, Gümüş Malik içəri girib dedi ki, gərək mənim qonağım olasınız. Ağababa təşəkkürünü bildirdi, sonra Gümüş Malik gedib xörəkpaylayan Cəfərqulunu içəri göndərdi ki, haqq-hesabı çəksin və bu zaman məlum oldu ki, gərək Nuhbala evə qaçıb bir xeyli əlavə pul gətirsin.

Kirayənişinlər, yəni Bəşir müəllimgil Ağabacıya yüz əlli manat pulu əvvəlcədən vermişdilər, əlli manat da sonradan verməli idilər, amma Ağababa Bəşir müəllimgili vaxtından beş-altı gün qabaq qovduğu üçün qalan pulu vermədilər və Ağabacı da həmin pulu onlardan istəmədi.

Nuhbala qaçdı evə ki, o yüz əlli manatı götürüb gəlsin və Ağababa bu kababxana ilə haqq-hesabı çürütsün, yəni «Sürpriz» kababının xərcini ödəsin.

Ağabacı təzə televizorun məhəbbətini ürəyindən sildi, amma, doğrudan, heç «uf» da demədi. Ağababa da həmin pulun ikicə saatın içində beləcə xərclənməsinə fikir vermədi. Elə bil ki, elə belə də olmalı imiş.

Ağababagil kababxanadan çıxanda Nuhbala ilə qızlar qabaqca çıxdı. Ağababa ilə Ağabacı sonra çıxdı və onlar kababxananın dal tərəfindən keçib dəniz kənarına düşmək istəyəndə ki, evlərinə getsinlər, birdən Ağabacı Ağababanın qolundan yapışdı:

– Ağababa!

Ağababa əvvəlcə Ağabacıya baxdı, sonra Ağabacının baxdığı səmtə tərəf baxdı.

Üç dənə it Gümüş Malikin kababxanasının dalında sür-sümük yeyirdi və bu itlərdən biri Dolça idi.

Dolça ağzında yekə bir sümük başını qaldırıb Ağababagili gördü.

Dolça bir müddət Ağababagilə baxdı. Dolçanın qara gözləri günün altında parıldayırdı və Ağababa bu gözlərdə açıq-aşkar bir kədər oxudu.

Sonra Dolça başını aşağı salıb yavaş-yavaş zingildəyə-zingildəyə kababxananın həyətinə girdi.

Ağabacı bir də onu gördü ki, bətnindəki körpə qarnını təpikləyir; birinci dəfə idi ki, qarnındakı bu uşaq təpik atırdı, tərpənirdi və həmin avqust günü Ağababa ilə birlikdə evlərinə gedə-gedə Ağabacı Baladadaşın, Ağagülün, Nuhbalanın, Nailənin, Firuzənin, Kəmalənin, Amalənin, Dilşadın, Böyükxanımın çağalığını yadına saldı, bu çağaları bir-bir gözünün qabağına gətirdi və fikirləşdi ki, adamın nə qədər çox uşağı olsa, bir o qədər yaxşıdı.

*Iyul, 1978.*
*Zuğulba.*

*«Qaçqınlar» silsiləsindən*

# BAYRAQDAR

*(Eysebionun faciəli ölümü haqqında kədərli povest)*



– Adam dəli olanda, özü bilmir ki, dəli olub? Hıy?

*(Gözlə-Gəlirəm Məmməd kişinin Cümüyə (Qızıl Diş Cümşüdə) verdiyi sual.)*

– Nə deyim e, qağa? Üçrəngli bayrağımıza qurban olum! Mən ölüm, bunnan artığını nə deyim? Hıy? Denə, deyim!

*(Bi-bi-si müxbirinin: «– Bu bayraq sizin üçün nədir?»– sualına Bayraqdarın verdiyi cavab.)*

– Sovet zubulu ilə zarafat eləmək olmaz ha!..

*(Cümünün (Qızıl Diş Cümşüdün) söylədiyi kəlam.)*

... sonra o həyətdə, elə bil, xəzri, giləvar yox, bir sevinc küləyi əsdi:
– Eysebio gəldi!..
– Eysebio!..
– Eysebio!..
... və o həyətdə gözəl bir futbol oyunu başladı...
... və o zaman o həyəti ilk dəfə görən adam, yəqin, fikirləşərdi ki, burada nə xoşbəxt insanlar yaşayır...

## I

2003-cü il Mayın 28-nə – Azərbaycan Demokratik Respublikasının 85-ci ildönümünə bir gün qalmış, yəni mayın 27-də, axşamçağı, böyük-kiçik – bütün şuşalıların Bayraqdar çağırdığı Surxayın daha sabahı gözləməyə səbri çatmadı, səliqə ilə ağ çitə, üstündən də sellofana büküb çarpayının altında – başqa yer yox idi – saxladığı bayrağı – müstəqil Azərbaycanın üçrəngli bayrağını – çıxartdı, xüsusi bir həvəslə, ləzzətlə çiti, sellofanı açdı və bayrağı götürüb Buzovna Fəhlə Yataqxanasının həyətinə düşdü, gözünü qıyıb zəndlə qazanxananın damına baxdı.

Birmətrəbəli o köhnə qazanxana həyətin yuxarı başında idi, ondan o tərəfə həyət qurtarırdı və Bakıya gedən şose yol başlayırdı. Surxay Yataqxanada məskunlaşdıqları bu on ildə bayrağı həmişə üçüncü mərtəbədəki evinin (otağının) pəncərəsindən uzadıb asırdı, amma pəncərədən uzanan bayraq bu yerlərin küləyinə dözmürdü, xəzri əsəndə bir tərəfə əyilirdi, gilavar əsəndə o biri tərəfə və Surxay da gündə neçə dəfə o bayrağın səmtini düzəltməli olurdu. Bir müddət bundan əvvəl cani-dildən 28 Mayı gözləyə-gözləyə birdən Surxayın ağlına gəldi ki, bu dəfə bayrağı evin (otağın) pəncərəsindən yox, qazanxananın damında, küncdən assın. Bayraq həm şose yol tərəfdən görünəcəkdi, həm həyətdən, həm də onu orda elə bərkitmək olardı ki, hər dəfə küləyin səmtinə əyilməsin. Surxay belə hesablamışdı ki, Mayın 28-də sübh tezdən durub bayrağı o küncdən asacaq, amma Mayın 28-i yaxınlaşdıqca, çarpayının altındakı o bayraq da Bayraqdarı maqnit kimi özünə çəkirdi, – srağagün dözdü, dünən dözdü, amma bu axşam daha dözə bilmədi və bayrağı götürüb beləcə həyətə endi.

Şose yolun Yataqxananın həyətinə bitişik səkisi boyunca dörd-beş addımdan bir otuz-otuz beş illik tut ağacları əkilmişdi – yeddi-səkkiz ağac idi və o tut ağaclarından biri ilə qazanxananın divarı arasında yarım metrdən də az bir məsafə var idi və Bayraqdar bayraqla birlikdə o tut ağacının yanına getdi.

Bir vaxtlar Bayraqdar bayrağı əlinə alanda, həndəvərdə nə qədər uşaq var idi, onun başına yığılırdı, amma indi həyətdə heç kim yox idi və ümumiyyətlə, elə bil ki, illər ötdükcə o bayrağın da cazibəsi azalırdı və bu barədə – xüsusən gecələr yerinə girib yuxuya getməzdən əvvəl – fikirləşəndə, Surxaya elə gəlirdi ki, elə bil, ürəyində Şuşadan başqa (bəlkə, Şuşadan da betər!), ikinci bir dərd yarğanı da əmələ gəlir.

Surxay əlində tutduğu bayrağa baxdı və birdən-birə ürəyindən belə bir ağrı da keçdi ki, bayraq – bu gözəl bayraq, bu gözəl üçrəngli bayraq qocalıb... Göyünün də, qırmızısının da, yaşılının da rəngi solmuşdu, qotazı tiftiklənmişdi, dəmir ucluğunun nikeli nöqtə-nöqtə orda-burda pas atmışdı, dəstəyinin lakı adda-budda tökülmüşdü və bu bayraq açıq-aşkar deyirdi ki, Surxay, qardaş, daha mən yorulub əldən düşdüm, məni dəyişdir. Elə həmin anda da Bayraqdarın bütün içindən bir vicvicə keçdi,

birdən-birə də əməlli-başlı gözləri doldu, çünki Surxay – Bayraqdar belə vəfasız adam deyildi.

Əvvəlcə Cümünün (Qızıl Diş Cümşüdün) sürdüyü lafetli motorellerin (tırtırın) tırıltısı gəldi, sonra özü görünüb şosedən həyətə buruldu və Cümü əlində bayraq tutub, qazanxananın küncündə dayanmış Surxayı görəndə tırtırı saxladı:

– Nədi, ə, Bayraqdar, bayram bu gündü?

O axşam Buzovnada külək yox idi, xəfif bir yel əsirdi, amma elə o xəfif yel də bəs elədi ki, Cümüdən gələn araq iyi bütün ətrafa yayılsın.

– Hara vurassan?– Cümü soruşdu və motorollerdən düşüb Surxayın yanına gəldi...

– Istəyirəm ora, – Bayraqdar əlini uzadıb qazanxana damının küncünü göstərdi, – vurum.

– Bə nətər bərkidəssən?

– Odu ha, – Bayraqdar haçansa tut ağacının dibində düşüb qalmış yekə bir kubik parçasını göstərdi, – onu dəstəyin üstünə qoyajam. – Sonra: – Amma o azdı, – dedi. – Bir-iki yekəsini də tapım gərək.

Cümü, elə bil, bir bəhanə axtarırdı ki, Yataqxananın beşinci mərtəbəsindəki evinə (otağına) getməsin və:

– Qoy, əvvəlcə mən dırmaşım, – deyib, elə bil, çoxdan gözlədiyi əzizi idi, tutun yoğun gövdəsini bağrına basıb yuxarı dırmaşmağa başladı və dırmaşa-dırmaşa da, hıqqandıqca bir az bundan əvvəl Bolelşik Bufetçi Ibadullanın bufetində içdiyi 200 qram arağın iyi aləmi başına götürürdü və Bayraqdar üçün bu araq iyi ilə o bayraq bayramı ərəfəsinin gözəl ab-havası arasında tamam bir uyuşmazlıq var idi.

Cümü yuxarı dırmaşıb asanca qazanxananın damına adladı və Surxay bayrağı uzadıb ona verdi, tutun dibindəki yekə kubik qırığını da qaldırıb Cümüyə ötürdü və o tərəf-bu tərəfə baxdı ki, yenə daş tapsın, amma Cümü:

– Burda zubul kimi bir şey var, – dedi. – Qalx, elə onuynan vuraq. Üstünə daş qoymağnan başa gəlməyəjək.

Bayraqdar da tutla dırmaşıb qazanxananın damına çıxdı və Cümü, doğrudan da, Allah bilir nə vaxtdan atılıb damda qalmış, illərdən bəri də paslanmış, amma ucu iti, uzun və nazik zubul kimi bir şey tapmışdı.

Surxay zubulun o tərəfinə-bu tərəfinə baxa-baxa bir az tərəddüdlə:

– Görən paralamaz dəstəyi?– soruşdu.

Cümü:

– Nə bilim, – dedi. – Küləyin öhdəsindən gəlsə, o gələjək. Daş yığmağnan düzələsi iş deyil...

Surxay o nazik, uzun zubulu o tərəf-bu tərəfə çevirərək fikirləşdi ki, elə bunun özünün də başını nikelləmək, həmişəlik dəstəkdə saxlamaq, hər dəfə də istədiyin yerə vurmaq olar və bu qərarından sonra bayrağı qazanxananın damının küncündən uzatdı, Cümü bayrağı tutdu, Surxay da o daş parçası ilə zubulu bayrağın dəstəyinə vurmağa başladı.

Surxay:

– Ə, yavaş ol, buralar dağılıf əldən gedif, – dedi. – Yıxılarsan.

Cümü sidq-ürəkdən:

– Cəhənnəmə yıxılım! – dedi. – Amma, qağa,bu bayrağı gərək remont eləyəsən, qotazını-zadını təzələyəsən...

Bu bədbəxt Cümü – «pyaniskə» olanda nə olar (yaxşı gününə görə içmir ki!) – yaxşı adam idi, onun o «remont» sözü Bayraqdarın xoşuna gəldi. Cümü «gərək bu bayrağı atasan» demədi, «gərək remont eləyəsən» dedi və elə bil 2003-cü il mayın 27-dəki o axşam, Fəhlə Yataqxanasının həyətindəki o qazanxana damında birdən-birə üçbucaq bir doğmalıq əmələ gəldi: Surxay – Bayraq – Cümü.

Surxay:

– Hə, – dedi, – əl gəzdirəjəm.

Cümü zarafatla:

– Sovet zubulu ilə zarafat eləmək olmaz ha!.. – dedi. – Yavaş ol, əlini əzərsən.

Surxay:

– Ə, buna da üçrəngli bayrağ deyərlər! – dedi və o paslı zubul, elə bil, Bayraqdarın o sözlərini eşidib, o ruh yüksəkliyini hiss edib kubik parçası ilə vurula-vurula dəstəyi parçalayıb-eləmədi, amma damın özünün daşları illərin yağışının, küləyinin altında suvaqdan çıxmışdı, tərpənirdi və Bayraqdar nigarançılıqla: – Allah eləməsin, – dedi, – amma bu daşlar bir dəfə burdan kiminsə başına düşəcək.

Cümü:

– Qağa, mən ölüm, onlara tapşır ki, mənim başıma düşsün, – dedi və güldü.

Surxay:

– Mənim tapşırmağımnan olsaydı, elə tapşırardım, sənin o taksini qaytarardılar özünə! – dedi və birdən qorxdu ki, onun bu sözləri qazanxananın üstündə Cümünü kövrəldər, yaxşı olmaz, amma Cümü kövrəlmədi, əksinə, bayrağın duruşunu təriflədi:

– Allah haqqı, əla görünür!..

Surxay:

– Çox sağ ol, – dedi, elə bil, Cümü bayrağı yox, Surxayın özünün əlalığından dəm vururdu, amma o zubul bayrağı, doğrudan da, dama möhkəm bərkitdi və Surxayın da kefi açıq-aşkar kökəldi. – Bu zubulu elə dəstəkdə saxlayajam...

Bolelşik Bufetçi Ibadullanın bufetində içdiyi o 200 qram arağın təsiri tamam keçib getməsə də, Cümü ay işığında Bayraqdarın gözlərinin güldüyünü, bütün dərdini-sərini yadından çıxardığını gördü və elə bil, Bayraqdarın içindən gələn o gözgörəti uşaq sevinci Cümüyə də sirayət etdi, Cümü də Buzovna Fəhlə Yataqxanasının həyətindəki o qazanxananın damında sinədolusu yaxşıca bir nəfəs aldı.

Nə müddət idi, Cümünün (Qızıl Diş Cümşüdün) sinəsi beləcə «doydum» deyib, hava ilə dolmamışdı.

## II

Çox illər bundan əvvəl – onda hələ Azərbaycanda sovet hökuməti qurulmamışdı – bütün bu yerlər – Buzovnadakı Fəhlə Yataqxanasının həyətinin yuxarı başından üzüaşağı, Yataqxana binasının özünün də tikildiyi ərazi daxil olmaqla, neftxuda Məşədi Ağarəhim Mir Abdulla oğlunun əncir, iydə, innab, püstə, badam, muşmula bağı idi və Kolxoz kişinin, əlbəttə, bundan xəbəri yox idi ki, o uzaq zamanlarda hər dəfə yazağzı səksən yaşlı Məşədi Ağarəhim o boyda bağın ağaclarını aftafa ilə bir-bir özü sulayırdı və bundan sonra gələn yaza qədər bağa Məşədinin bağbanları qulluq edirdi və yenə də növbəti yazqabağı xəzrisiz-gilavarsız gözəl bir sübh çağı

kişi özü ağappaq alt paltarının üstündən əyninə bir pencək geyib, ağ təsəyi də həmişəki kimi, başında, əlinə aftafa alıb bağı sulamağın siftəsini edirdi və bu, illər keçdikcə etiqad mərasimi kimi bir şeyə çevrilmişdi, elə bil, kişinin ömrünü də bütün il boyu gözlədiyi o növbəti sulama mərasimi uzadırdı.

Və əlbəttə, Kolxoz kişinin, aydın məsələdir, burasından da xəbəri yox idi ki, Abşeronda sovet hökuməti qurulanda birdən-birə bolşevik olmuş üç-dörd nəfər keçmiş fəhlə – onlardan birinin büstü Sovet Ittifaqı dağılanacan Buzovna parkında dururdu, birinin də adını məktəbə vermişdilər, sonra həmin məktəbdə oxumuş Qarabağ şəhidinin adı ilə dəyişdilər – iki rus əsgəri ilə gəlib, Məşədi Ağarəhimi yuxudan durğuzub, elə həmin ağappaq tuman-köynəkdə, aparıb sinfi düşmən kimi güllələdilər və iyirminci illərdə, otuzuncu illərin əvvəllərində Məşədi Ağarəhim Mir Abdulla oğlunun bağı tamam tələf olub getdi və o bağdan təkcə üç iydə ağacı, bir də o qədim zeytun qaldı.

Sonralar – müharibə qurtarandan sonra – qırxıncı illərin axırlarında burada bu Fəhlə Yataqxanasını tikdilər və elə ki, Sovet Ittifaqı dağıldı, müəssisələr dayandı, Yataqxanada yaşayan fəhlələrin hərəsi bir tərəfə dağılışdı, sonra ermənilər Qarabağı işğal etdi, o vaxt – 1992-ci ilin cırhacır isti yay aylarında Şuşadan qaçqın düşmüş camaatın bir qismini müvəqqəti olaraq bu Yataqxanada yerləşdirdilər və o müvəqqəti, bu müvəqqəti, – Buzovnadakı Fəhlə Yataqxanası həmişəlik məsgən olub qaldı.

Kolxoz kişi həyətdə durub əlini uzadaraq orda-burda suvağı tökülmüş, Nuh-Nəbidənqalma əhəngi rəngini itirmiş, il-on iki ay pəncərələrinin, eyvanlarının arasında zivədən pal-paltar asılmış Yataqxana binasını göstərib deyirdi:

– Bu da bizim elimiz, obamızdır də...

## III

Surxay müstəqil Azərbaycan Respublikasının üçrəngli bayrağını ilk dəfə 1988-ci ildə – Ermənistan «perestroyka» hərc-mərcliyindən və Qorbaçovun maymaqlığından istifadə edib Qarabağı Azərbaycandan qoparmaq istəyəndə – Şuşadakı etiraz mitinqində, Bazar başında qaldırdı və o bayraq dədəsi kimi uzunboylu olan Uzun Surxayın başının üstündə xeyli müddət dalğalandı, amma üstündən bir ay keçəndən sonra, elə ki, ara bir az sakitləşdi, o bayrağı qaldırdığına görə Surxayı tutub qoduqluğa saldılar, iki gün saxlayıb, buraxdılar, çünki Şuşanın dəliqanlıları Bazar başına yığışıb bir ağızdan qışqırmağa başladı:

– Bay-raq-dar!..

– Bay-raq-dar!..

– Bay-raq-dar!..

Və günün günorta çağı Müsavat hökumətinin üçrəngli bayrağını Şuşanın mərkəzində başının üstünə qaldırmış Surxayı – Stalinin ölən günləri idi – təzədən ara qızışmasın deyə, Bakıdan gəlmiş Azərbaycan KP MK təlimatçısının göstərişi ilə həbsdən azad etdilər və Telefon Stansiyasının yanındakı mətbuat köşkündə qəzet-jurnal satan Uzun Surxay (Məmmədov) o gündən də oldu Bayraqdar – Surxay Bayraqdar. Daha doğrusu, Şuşa camaatı onu «Bayraqdar Surxay»– deyə çığırmağa başladı, amma Surxayın «Bayraqdar Surxay» yox, «Surxay Bayraqdar» daha çox xoşuna gəlirdi və Surxay erməni təcavüzü ilə bağlı Moskvaya göndərilən bütün etiraz məktublarına, mitinqlərdə həbs olunmuş adamları azad etmək

tələbnamələrinə, Azərbaycanın SSRI-nin tərkibindən çıxmaq istəməsi barədə Siyasi Büroya göndərilən teleqramlara və s. elə bu cür – «Surxay Bayraqdar» kimi imza atmağa başladı və onun hələ heç kimə deməmiyi, ürəyində gəzdirdiyi bir arzusu da bundan ibarət idi ki, Əbülfətin də familini gələcəkdə «Məmmədov» yox, «Bayraqdar» yazdırsın: Əbülfət Surxay oğlu Bayraqdar.

Şuşa camaatı gözünü açıb bu mətbuat köşkündə Surxayın dədəsi Uzun Məti dayını qəzet-jurnal satan görmüşdü və o vaxt ki, Uzun Məti dayı xəstələnib yorğan-döşəyə düşdü (onda Surxay məktəbin onuncu sinfində oxuyurdu), elə o vaxtdan da Surxay məktəbi atıb, gəlib dədəsinin yerində oturdu və iyirmi il sərasər Şuşadakı o gözəl köşkdə qəzet-jurnal satdı.

Surxay o biri sinif yoldaşları kimi Bakıya, ali məktəbdə oxumağa getmədi, heç onuncu sinifi də bitirmədi. Köşkdə dədəsinin yerinə keçəndən sonra, hərdənbir dərsə gedirdi, amma bir dəfə Məleykə müəllimə – məktəbin dərs hissə müdiri – köşkün qabağında dayanıb:

– Dərsə niyə gəlmirsən, a bala? – soruşdu.

Surxay:

– Dədəmin yerindəyəm axı... – donquldandı.

Məleykə müəllimə də:

– Nədi, dədən səni varis elan edib?– deyə onun üzünə çımxırdı və bununla da kifayətlənməyib əli ilə köşkü göstərdi: – Pah!.. – dedi. – Bura da sənin padşahlığındı?!

Və Məleykə müəllimənin o «Pah!»ından sonra Surxay məktəbi tamam atdı, amma oxumağın dalınca getməsə də, Şuşada az adam tapılardı ki, Surxay qədər siyasi aləmdən xəbərdar olsun (Syerra-Leonenin prezidentinin adından tutmuş Suslovun dədəsinin adınacan) və «perestroyka»nın şıdırğı vaxtında ilk dəfə Məhəmməd Əmin Rəsulzadənin şəklini tapıb köşkün şüşəsinə taxan adam da Surxay oldu və o zaman, elə bil ki, uzun illərin ayrılığından sonra nəhayət ki, Azərbaycana qayıda bildiyinə görə Şuşadakı o qəzet köşkünün şüşəsindən xəfif bir təbəssümlə gülümsəyən Məhəmməd Əmin bəyi çox adam ilk dəfə görürdü və soruşurdu ki, bu kimdi belə?

Surxay evləndi, Əbülfət – Əbili anadan oldu və o vaxt, əlbəttə, Surxay bilmirdi ki, Əbülfət haçansa, Eysebio olacaq, bütün Bakı onu «Eysebio»– deyib, çağıracaq. Surxay o vaxt Salazarın kim olduğunu, nə vaxt doğulduğunu bilirdi, amma dünyada Eysebio adında bir məxluqun olduğundan heç xəbəri də yox idi və əlbəttə, o vaxt Surxay burasını da bilmirdi ki, Allah-taala Eysebionun ömrü üçün (Əbülfətin ömrü üçün) bu dünyada az bir möhlət ayırıb.

İllər keçdikcə, Şuşanın mərkəzindəki o köşk, o köşkdəki qəzet-jurnallar və o qəzet-jurnallardakı siyasi xəbərlər Surxayın həyatının mənasına çevrildi – hər şey belə deyirdi, amma əslində, belə deyilmiş, çünki Surxayın həyatının həqiqi mənası və onu Bayraqdar edən üçrəngli bayraq oldu.

Surxay Gülzar arvadı tikiş maşınının arxasında oturdub başının üstünü kəsdirərək göy, qırmızı, yaşıl ipəkdən bayrağı özü tikdirdi, ayı, ulduzu da öz əli ilə kağızın üstündə ölçdü, biçdi, kəsdi və sonra yenə Gülzar arvadın başının üstündə dayanıb ağ ipəyə keçirtdi, bayrağın dəstəyini əvvəlcə şam ağacından düzəltdi ki, yüngül olsun, sonra fikirləşdi ki, üçrəngli bayrağın dəstəyi gərək yüngül olmasın, palıd ağacından bir dəstək düzəltdi, sonra o palıd dəstəyi də üçrəngli bayrağa layiq bilmədi və

rəhmətlik Uzun Məti kişinin cavanlıq çağlarında həyətdə əkdiyi böyük qoz ağacının bir gözəl budağından dəstək düzəltdi, Bazar başında misgər Əlihüseyn kişinin dükanına gedib bayrağa dəmir ucluq düzəltdirdi, o ucluğa nikel çəkdirdi və qaynanasına – Səyyarənin anasına – o arvadın əl işi bütün Şuşada məşhur idi – ipək qotaz düzəltdirib o ucluqdan asdı və Surxay Bayraqdar 1988-ci ildə üçrəngli bayrağı başının üstünə qaldırıb mitinqin önündə dayananda, il-on iki ay Sovet Azərbaycanının oraqlı-çəkicli bayrağını görməyə adət etmiş çox adam o müstəqillik bayrağını birinci dəfə gördü.

Və o vaxtdan Şuşada bir mitinq olmadı ki, Surxayın bayrağı o mitinqin iştirakçısı olmasın, erməni gülləsinə tuş gələn bir şəhid dəfni olmadı ki, Surxayın əlindəki o bayraq orada başını əyməsin...

Və o bayrağın eşqi Telefon Stansiyasının yanındakı o mətbuat köşkünə, qəzet-jurnallara və o qəzet-jurnallardakı siyasi xəbərlərə hörməti və məhəbbəti də sıxışdırıb Surxayın ürəyində büzüşdürdü – indi o ürəyin içindəki üçrəngli bayraq idi...

## IV

Vasili Kuzmiçın qızı bir yəhudiyə ərə getmişdi və indi əri ilə birlikdə köçüb ABŞ-da yaşayırdılar, oğlu Vanya hələ sovet vaxtı Tambovda əsgərlik etmişdi, sonra da orada qalmışdı, orada evlənmişdi və orada da yaşayırdı, Kuzmiçin arvadı Vera Arxipovna altı iliydi ki, torpağın altında idi, özü, yəni Vasili Kuzmiç isə beş ildən artığıydı ki, Bilgəhdə, prokuror Əhməd Ağayeviçin bağında yaşayırdı.

Sovet vaxtı Vasili Kuzmiç Bakı Lampa zavodunda çilingər işləyirdi və işləməyi sevən adam olduğu üçün, hər ay aldığı maaş onu da, ailəsini də dolandırırdı. Vanya əsgərliyə gedəndən və Tambovda qalandan, qızı ABŞ-a köçəndən sonra, Vera Arxipovna ilə birlikdə dolanışıqları isə lap şah dolanışığı idi – həftədə, heç olmasa, iki dəfə evdə təzə donuz əti bişirdi və həmin günlərdə Vasili Kuzmiç axşam işdən evə gələndə Vera Arxipovna ilə üzbəüz oturub o qızarmış gözəl donuz ətini yanındakı kartof, ya qarabaşaq, ya vermişel qarniri ilə yeyə-yeyə yarımlitrlik bir araq şüşəsi boşaldırdılar – 100, uzaq başı 150 qram Vera Arxipovna içirdi, qalanını da Vasili Kuzmiç. Sonra rus çastuşkaları, Şuljenkonun, ya Utesovun mahnıları yazılmış valları hələ 60-cı illərin əvvəllərində aldıqları patefonda oxudub ləzzətlə qulaq asırdılar, ya da əli dinc durmayan Vasili Kuzmiç çəkicini, kəlbətinini götürüb haranısa təmir edirdi, nəsə düzəldirdi, hərdənbir də elə divanın üstündə cavanlıqlarını yada salırdılar. Bütün bunlara onu da əlavə eləsək ki, Vera Arxipovna özü qış üçün sala düzəldirdi, zels hazırlayırdı, duzlu xiyar qoyurdu, o zaman, əlbəttə, Vasili Kuzmiçin sovet dövründəki həyatına qibtə etmək olardı və indi o həyata birinci qibtə edən adam, elə Kuzmiçin özü idi.

Və hərdən bağda – Əhməd Ağayeviçin bağında qədim əncir ağacının dibində oturub kürəyini ağacın yoğun gövdəsinə söykəyərək filtrsiz siqaret çəkə-çəkə o zamanları xatırlayan Vasili Kuzmiçin, bəzən, özünün də inanmağı gəlmirdi ki, haçansa, həqiqətən elə gözəl bir həyat yaşayıb, amma Vasili Kuzmiçin ürəyində xüsusi bir təəssüf hissi də yox idi, çünki o, həyat adamı idi və fikirləşirdi ki, həyatdı, yaşanıb, keçib-gedib və yalnız Vera Arxipovnanı xatırlayanda, sonuncu siqareti nə vaxt çəkməyindən asılı olmayaraq, Kuzmiç təzə bir siqaret yandırırdı.

Sovet zamanının bayramlarında – 1 Mayda, 9 Mayda, 7 Noyabrda Vasili Kuzmiç Vera Arxipovnanın səliqə ilə ütülədiyi göy kastyumunu geyib, Lampa zavodunda işlədiyi müddətdə əmək qələbələrinə görə aldığı orden və medalları döşünə taxırdı, axşamdan şotka ilə təmizləyib boya sürtdüyü üçün pap-par parıldayan ayaqqabılarını geyirdi və nümayişlərə gedirdi, sonra da ya onlarda, ya dostlardan birinin evində yığışırdılar, gecəyə qədər yeyib-içirdilər, qarmon çalıb oynayırdılar və indi o günlər – o gözəl günlər Vasili Kuzmiçə yuxu kimi gəlirdi, onun ürəyini bir kədər bürüyürdü, amma yenə də xüsusi bir təəssüf hissi keçirmirdi, çünki həyat idi və həyatın öz qanunları var idi.

Uşaqların hərəsi bir tərəfə getdi, sonra satqın Qorbaçovun (ABŞ kəşfiyyatının onu ələ almasına Kuzmiçin qəti şəkk-şübhəsi yox idi) «perestroyka» boşboğazlığı başladı, ara qarışdı, məzhəb itdi, sonra Sovet Ittifaqı dağıldı, Lampa zavodunda istehsal dayandı, sonra Vera Arxipovna öldü və işsiz Vasili Kuzmiç üçotaqlı mənzilində tək qaldı. Yavaş-yavaş alətlərini – çəkicini, mişarını, kəlbətinini, rəndəsini... – satmağa başladı, sonra yorğan-döşəyə, qab-qaşığa keçdi və bu minvalla o üçotaqlı mənzildə demək olar ki, bir şey qalmadı.

Əhməd Ağayeviçin sürücüsü, tatar balası Şövkət Vasili Kuzmiç ilə bir blokda yaşayırdı və Bilgəhdəki o bağa köçməyi, ora qulluq eləməyi və oranın qarovulunu çəkməyi də həmin sürücü təklif elədi.

Bakının 3-cü mikrorayonundakı həmin üçotaqlı mənzili Vasili Kuzmiçə Lampa zavodunda vermişdilər və Vasili Kuzmiç o boş mənzilin mətbəxində qabağına bir şüşə araq qoyub xeyli fikirləşdi, özü özü ilə söhbət elədi və səhər Vanyaya teleqram vurdu ki, Bakıya gəlsin. Vera Arxipovna öləndə Vanya gəlməmişdi və Vasili Kuzmiç fikirləşdi ki, çağırışının səbəbini bilməsə, Vanya yenə gəlməyəcək, ona görə də teleqramda yazdı: «Evi satıram. Gəl.»

Üç gündən sonra Vanya Bakıda idi və Vasili Kuzmiç, doğrudan da, evi satdı, doqquz min dolları gətirib mətbəxdəki mizin üstünə qoydu və dedi:

– Nə qədər istəyirsən, götür.

Vanya udquna-udquna mizin üstündəki o bir dəst yüzlük dollara baxdı – bu qədər pulu Vanya, ancaq kinoda görmüşdü – sonra, elə bil, gördüklərinin gerçəkliyinə inanmayan gözlərini güclə o pullardan çəkib atasına baxdı, sonra özündən asılı olmayaraq birdən-birə titrəməyə başlamış əlini uzadıb pulun hamısını götürdü, sonra da eləcə udquna-udquna yenə atasına baxdı:

– Sənə də lazımdı?

Vasili Kuzmiç barmağını bığına çəkib:

– Yox, – dedi və o vaxtdan da Əhməd Ağayeviçin Bilgəhdəki bağında yaşamağa başladı.

O isti iyun günü də Vasili Kuzmiç əncir ağacının altında oturub acqarına siqaret çəkirdi və siqaret çəkə-çəkə də o bir dəst dolları xatırladı, Vanyanın udquna-udquna o pullara baxmağı gözlərinin qabağına gəldi və fikirləşdi ki, o pulların üstündə Vanya onu öldürə də bilərdi.

Düzdü, Vasili Kuzmiç bunu fikirləşdi, amma Vanyaya qəzəblənmədi, çünki həyat idi və həyatın öz qanunları var idi.

Vasili Kuzmiç siqaretdən bir dərin qullab alıb ciyərlərinə çəkdi və ağzından, burnunun pərələrindən tüstü çıxa-çıxa:

– Allah ona kömək eləsin... – dedi.

Vasili Kuzmiç məhz «Allah» sözünü dedi.

Məsələ burasında idi ki, Vasili Kuzmiç müsəlman olmuşdu, hər halda, özü deyirdi ki, mən daha müsəlmanam.

## V

On il bundan qabaq Şuşa camaatının bir hissəsi Buzovna Fəhlə Yataqxanasına yerləşəndə – adamların sayından asılı olmayaraq, hər ailəyə bir otaq – hərə öz otağına əl gəzdirdi, kimi pəncərənin çürümüş çərçivəsini möhkəmlətdi, kimi suvağı qopmuş divarı təzədən suvaqladı, kimi döşəmənin sementin üstündən çəkilmiş lineliumunun yırtılmış yerlərini ört-basdır elədi, bir sözlə, hərə müvəqqəti olaraq (onda elə bilirdilər ki, müvəqqətidi) yaşamaq üçün otağı abıra salmağa başladı və o zaman Surxaygil üçüncü mərtəbədəki otaqda yerləşəndən (doluşandan, doluşdurulandan) sonra Bayraqdar da haradansa göy rəng, qırməzı rəng, yaşıl rəng tapıb gətirdi və otağın qapısının çöl tərəfini (aralığa açılan hissəsini) yuxarıdan aşağı bayrağın rəngi ilə göy, qırmızı, yaşıl rəngə boyadı.

Səyyarə Bayraqdarın cidd-cəhdlə o qapını eləcə rəngləməsinə baxa-baxa özünü saxlaya bilməyib ağlamsındı və ağlamsına-ağlamsına da:

– Bu da mənim günüm... – dedi.

## VI

Yataqxananın həyətində, o iydə ağaclarının yanındakı krantda qab-qacaq yüyan Səyyarə açıq-aşkar bir fəxarətlə Kolxoz kişinin dul arvadı Xədicə xalaya deyirdi:

– Əbili (yəni Əbülfət) heç iməkləmədi ki... Bir də gördüm, getdi, küçədə özündən üç dəfə böyük uşaqlarla futbol oynamağa başladı... Küçədə futbol oynayırdı, acanda, qaçıb qucağıma dırmaşırdı, əmməyə başlayırdı...

Sonralar Xədicə xala ürəyi yana-yana deyirdi ki, o uşağı, o bədbəxt Əbilini elə Səyyarənin özü gözə gətirdi...

## VII

Bakıdan gələn şose yol sola, Buzovnaya (oradan da Zuğulbaya, Bilgəhə, dəniz qırağına) dönürdü, düz isə – Şağana, Mərdəkana, Şüvəlana, SES qəsəbəsinə gedib çıxırdı və həmin yolayrıcına Buzovna dairəsi deyirdilər. Kamança Tanrıverdi avtobusdan düşüb böyük muşmula ağacının kölgəsində dayanmışdı və səhərdən bəri təpəsinə gün çaxa-çaxa, suyun-tərin içində qucağındakı bir dəstə qəzet-jurnalla o tərəf-bu tərəfə maşınların qabağına qaçan Bayraqdara baxırdı.

Bayraqdar o qəzet-jurnalı qucağında elə tutmuşdu, elə bil ki, sübh tezdən maşınların qabağına qaçdığı bu müddət ərzində günün altında saralmış, üstünə maşın təkərlərinin altından çıxan toz hopmuş kağız yığınını yox, yekə bir dəstə gülü sinəsinə sıxmışdı.

Surxay arıq adam idi, Abşeron günəşinin altında qapqara yanmışdı, hərdən dayanıb it kimi ləhləyə-ləhləyə nəfəsini dərirdi və Kamança Tanrıverdi uşaq kimi maşınların qabağına qaçan bu uzun adama baxa-baxa Şuşada əlində bayraq yellədə-yellədə mitinqlərin önündə dayanan, yürüşlərin qabağında addımlayan, həmişə də başını dik tutan, özünün də, yerişinə, duruşuna, gözgörəti, o bayrağa layiq bir o məğrurluq şəsti verən Bayraqdarı gözünün qabağına gətirirdi və o bayraqdarlıq

məğrurluğu ilə Buzovna dairəsində beləcə qəzet satmaqla məşğul olmaq düşgünlüyünü, Kamança Tanrıverdi, nəinki Surxaya, bütün xatirələrin canlı şahidi olan bir adam kimi, heç özünə də sığışdıra bilmirdi və ürəyində dünyanın qarasına ən pis küçə söyüşləri söyürdü.

Bayraqdarın bu aqibəti, əslində, elə Kamança Tanrıverdinin özünün aqibəti kimi bir şey idi və dünyanın qarasına söydüyü o küçə söyüşləri də, əslində, təkcə Surxay Bayraqdara görə deyildi, həm də özünə görə idi, Buzovna Fəhlə Yataqxanasına pərçim edilmiş o camaata görə idi.

Nəsillikcə kamançaçalan olan Tanrıverdi müəllim (ona Kamança Tanrıverdi müəllim deyirdilər) Şuşa Musiqi Məktəbində kamançadan dərs deyirdi, yay aylarında isə axşamlar Şuşa Istirahət Evinin həyətində dünyanın ən gözəl havalarını ifa edirdi və onun o kamançasının elə aşiqləri var idi ki, Füzulidə, Bərdədə, Ağdamda, Xankəndində yeyib-içəndə birdən Kamança Tanrıverdi müəllimin o havaları yadlarına düşürdü və maşını sürüb xüsusi Şuşaya gəlirdilər ki, ona qulaq assınlar və pencəyinin ciblərini də pulla doldursunlar.

Hərdən Abşeronun 40 dərəcə istisində, ya Abşeron küləkləri əsməyə başlayanda və az qala, Buzovnadakı Fəhlə Yataqxanasının (Kamança Tanrıverdigilin də orada mənzili (otağı) var idi) damını uçurub aparmaq istəyəndə, Kamança Tanrıverdi, sərin yay axşamları Şuşa Istirahət Evinin həyətində çaldığı havaları, elə bil, qəfildən eşitməyə başlayırdı və kişiyə elə gəlirdi ki, o zaman o havaları o çalmırdı, əslində, o havaları Şuşanın dağları çalırdı, Şuşanın bulaqları, ab-havası, gülləri, çiçəkləri, rəngbərəng kəpənəkləri çalırdı, ona görə də indi rəhmətlik Ustad Məşədi Müzəffər Ağanın kamançası daha o səsləri çıxara bilmirdi. Qaçaqaç düşəndə Kamança Tanrıverdi müəllim Şuşadakı mülkündən təkcə rəhmətlik babası Ustad Məşədi Müzəffər Ağadan qalmış kamançanı götürüb qaçmağa macal tapdı və indi o kamança ilə gecə-gündüz Abşeron kababxanalarında çalıb qəpik-quruş qazanırdı. Kamança Tanrıverdi müəllim indi, ancaq Kamança Tanrıverdi olmuşdu, «müəllim» sözü yaddan çıxıb getmişdi.

On dəqiqədən çox olardı ki, Kamança Tanrıverdi o böyük muşmula ağacının kölgəsində dayanıb, uşaq kimi maşınların qabağına qaçan Surxay Bayraqdara baxırdı və bu müddət ərzində bir nəfər də olsun, Bayraqdardan qəzet alan olmadı. Bayraqdar növbəti dəfə Kamança Tanrıverdinin böyründən ötən maşının üstünə qaçanda onu gördü və ona yaxınlaşıb ləhləyə-ləhləyə:

– Boy, qağa?– dedi. – Nətərsən?

Kamança Tanrıverdi bir müddət heç nə demədi və birdən – heç özü də bilmədi necə oldu? nəyə görəsə Bayraqdarı sancmaq istəyirdi? ya özü-özündən nəyinsə acığını çıxırdı?– soruşdu:

– Deyirsən o bayraq qayıdacaq də, Şuşaya?– Və bu sözlərdə açıq-aşkar bir rişxənd var idi.

Surxay Bayraqdar sübh tezdən Buzovna dairəsində ciyərinə çəkdiyi maşın tüstüsündən, qazdan xırıldaya-xırıldaya bir müddət ösgürdü və ösgürtüdən nazik, uzun boğazının damarlarının şişi getməmiş, çox ciddi və heç bir şübhə yeri qalmayan təntənə ilə:

– Əlbəttə! – dedi.

Onun o «Əlbəttə!»si ilə sinəsinin xırıltısı, eləcə ləhləməsi heç cürə bir-birinə uyuşmurdu, amma olanı bu idi ki, Bayraqdar o «Əlbəttə!»ni elə bir xatircəmliklə dedi ki, Kamança Tanrıverdinin o «Əlbəttə!»ni lağa qoymaq həvəsi (yanğısı) itib getdi.

Məsələ burasında idi ki, qaçaqaç düşəndə, camaat Şuşadan çıxanda – 1992-ci il mayın 8-də – Surxay bir əli ilə üçrəngli bayrağı tutmuşdu, o biri əli ilə də Əbülfəti sinəsinə sıxmışdı və həmin vaxt çönüb Şuşa qalasının divarlarına baxanda, bütün bu qaçaqaç dəhşəti içində, elə bil, göydən birdən-birə Bayraqdara bir vəhy gəldi və o dedi:

– Bu bayraq ki, Şuşada elə... elə dalğalandı, yenə qayıdacaq Şuşaya!

Əlbəttə, bu sözləri Bayraqdara Məhəmməd Əmin bəyin – «Bir kərə yüksələn bayraq bir daha enməz!» – sözləri dedirtmişdi, amma o dəm özü də gözləmədən dediyi o sözlər Bayraqdara Ilahidən gələn sözlər kimi təsir etdi və Bayraqdar bir əli ilə üçrəngli bayrağın dəstəyini daha da bərkdən sıxdı, o biri əliylə də qucağındakı Əbülfəti sidq-ürəkdən bağrına basdı, addımları gözgörəti sağlamlaşdı, enerjisini çoxaltdı və elə bil, onun o sağlam addımları Bayraqdarı Şuşadan uzaqlaşdırmırdı, elə indidən onu Şuşaya qaytarmağa başlamışdı.

... Sonralar Bayraqdarın o sözləri şuşalıların da ağzına düşdü, onlar da toyda, yasda bu sözləri dedilər, amma yavaş-yavaş o sözlər də, Şuşanın dağları kimi, uzaqlarda qaldı...

## VIII

Iş belə gətirdi ki, Buzovna Fəhlə Yataqxanasında məskunlaşanda Məleykə müəllimə üçüncü mərtəbədə Surxaygillə yanaşı – divar qonşusu oldu və yaşa dolmuş, məktəbini də, şagirdlərini də itirmiş, dövlətin verdiyi müavinət və humanitar yardımlarla yaşayan Məleykə müəllimə, əlbəttə, yadından çıxarmışdı ki, haçansa o qəzet-jurnal köşkünün qabağında dayanıb Surxaya: «– Pah!.. Bu da sənin padşahlığındı!?»– demişdi və bir dəfə Surxay sübh-tezdən evdən (otaqdan) çıxanda gördü ki, əlində yarımçıq xlor şüşəsi tutmuş Məleykə müəllimə bomboş aralıqda o üçrəngli qapı ilə üzbəüz dayanıb və gözlərini də zilləyib rəngləri tamam solmuş qapıya. Surxay elə bildi ki, Məleykə müəllimə nəsə istəyir, amma deməyə ürək eləmir.

– Sabahın xeyir, məlimə. Nədi, bir şey lazımdı?

Və Məleykə müəllimə birdən-birə dedi:

– Nə qəşəng budkan varıydı, ay Surxay!.. Qəzet budkasını deyirəm... Nə qəşəngiydi...

Yataqxananın bütün mərtəbələrindəki aralığın hər iki başında burada yaşayanlar üçün ümumi tualet var idi və o tualetlərin iyini itirməkdən, çirkabını təmizləməkdən ötrü, ora birucdan xlor tökürdülər və Məleykə müəllimə də bu sözləri dedi, sonra əlindəki xlorla tualetə getdi.

Və o gün həmin sübh tezdən ta gecə yerinə girənəcən Surxayın ürəyindən qara qanlar axdı – görəsən, durur o «budka»? erməni indi orda qəzet satır? – və Surxay, düzdü, bunları fikirləşirdi, amma gözünün qabağında şüşələri qırılmış, cırıldaya-cırıldaya qapısı tərpənən, içi boş bir köşk gəlib dururdu. O küçə də bomboş idi və orada o köşkün qapısının cırıltısından başqa heç nə eşidilmirdi və birdən o küçədən arıqlayıb qabırğaları sayılan eşşəklər tək-tək keçməyə başladı və küçədə o arıq

eşşəklərin də heç bir səsi eşidilmirdi: nə ləpir səsi gəlirdi, nə fınxırırdılar, nə də eşşəyin bir anqıranı var idi. Xruşşov eşşəklər üçün böyük məbləğli vergi (o məbləğ eşşəyin dəyərindən və xeyrindən artıq idi) müəyyən eləyəndə, Şuşada kim ki, eşşək saxlayırdı, yüksək vergini verə bilmədiyi üçün o eşşəklərdən imtina etmişdi və başlı-başına qalan eşşəklər də çöllərdə, düzlərdə vəhşi heyvana dönmüşdü. Surxay bilirdi ki, o boş küçədə, tək-tək köşkün qabağından keçən o arıq və tamam səssiz-səmirsiz eşşəklər, Xruşşov vaxtının o eşşəkləridi, amma nə üçün birdən-birə gəlib Surxayın yadına düşmüşdülər (o Xruşşov eşşəklərinin indi sümükləri də çürüyüb getmişdi) və bütün günü beynində o bomboş küçədəki bomboş qalıb qapısı cırıldayan köşkün qabağından keçirdilər?

Yataqxanada ikinci idi, ya üçüncü idi – ölən şuşalı da elə yazıq Məleykə müəllimə oldu və o vaxt Məleykə müəllimənin qırx illik əri Kazım – Dəmir Kazım! – neçə gün kimi görürdüsə, özünü saxlaya bilməyib, uşaq kimi hönkür-hönkür ağlayırdı.

Dəmir Kazım Məleykə müəllimənin dərs hissə müdiri işlədiyi məktəbdə idman müəllimi idi, həqiqətən, dəmir kimi sağlam bir adam idi və internat məktəbin idman müəllimi Salman onun yanında zəif bir məxluq idi. Salman Buzovna Fəhlə Yataqxanasında məskunlaşandan sonra, bir müddət özünə iş tapa bilmədi, axırda xəstəxanada gözətçi işləməyə başladı və gecələr oradan spirt oğurlayıb satdığı üçün, işdən qovuldu və indi onda keçmiş idman müəllimliyindən heç nə qalmamışdı. Dəmir Kazım isə özünü saxlaya bilmişdi, nə olur-olsun, hər səhər idman edirdi, nə cür hava olur-olsun, həyətə düşüb qaçırdı, yazağzından ta payızın sonuna qədər tez-tez dənizə gedib üzürdü və Məleykə müəllimə vəfat edəndə hamı dedi ki, Dəmir Kazımı öldürsə, bu dərd öldürəcək – onların uşağları olmamışdı və bir-birindən başqa heç kimi yox idi – amma Dəmir Kazım ölmədi, düzdü, qaradinməz oldu, daha səhərlər idman eləmədi, qaçmadı, dənizə gedib üzmədi, sınıxdı, zəiflədi, dəmirliyi ilə birlikdə ləğəbi də əriyib getdi, amma ölmədi. Kazım, evdə (otaqda), ümumiyyətlə, bu həndəvərdə az görünürdü, çünki qoyun otarmağa başlamışdı. Yataqxananın arxasında hələ Xruşşovun vaxtında tikilmiş beşmərtəbə binada yaşayanlardan kimin qoyunu var idi, ona vermişdi və Kazım da sübh tezdən qoyunları qabağına qatıb bağlararası torpaq yollarla Bilgəh sahilindən fırlanıb, gedib Nardarana çıxırdı, qoyunlar da torpaq yolların qırağında, bağ hasarlarının dibində toz basmış adda-budda otdan-alaqdan otlayırdı, yay vaxtları dənizkənarı plyajlarda ora-bura atılmış qarpız, yemiş qabığı, quru çörək axtarıb, tapıb yeyirdi.

Kazım deyirdi:

– Buranın qoyunları, elə bil, itdi, plyajdakı zibillikdə eşələnirlər, iyləyif selefanların arasını axtarırlar...

## IX

Cümünün (Qızıl Diş Cümşüdün) anası Güllü arvad Surxaygilin illərdən bəri solub bozarmış rəngbərəng qapısını döydü və cırıldaya-cırıldaya açılan qapıdan Gülzar arvada:

– Az, düş aşağı, – dedi. – Humanitar yardım gətiriblər.

Axır vaxtlar eşitdiyi sözlər, elə bil, Gülzar arvadın beyninə bir az gec gəlib çatırdı və bu dəfə də:

– Hıy?– soruşdu.

Güllü arvad bu «Hıy?»dan açıq-aşkar narazılıqla təkrar elədi:
– Humanitar yardım gətiriblər... Düş aşağı...
Gülzar arvad birdən-birə alışıb:
– Humanitar yardım onların dədəsinin təpəsinə dəysin! – dedi. – Şuşanı qaytarsınlar mənə!
Gülzar arvadın bu gözlənilməz kin-küdurətindən Güllü arvad, elə bil, bir az duruxdu, sonra:
– Gözlə! – dedi. – Şuşanı torbaya qoyub gətirif sənə verəjəklər!.. – Və hirslə çönüb pilləkənə tərəf getdi.
On il bundan əvvəl bu arvadlardan soruşsaydılar ki, «humanitar» nə deməkdir, çiyinlərini çəkərdilər, amma indi «humanitar» (yardım) sözü onların dilinə elə yatmışdı ki, elə bil, bu dünyada gözlərini açıb «ana» sözü ilə, «ata» sözü ilə bir yerdə «humanitar» (yardım) sözünü də demişdilər.
Gülzar arvad, bağlananda, elə bil, daha da artıq cırıldayan qapını hikkə ilə örtüb açıq pəncərənin qabağına gəldi – otağa ağcaqanad girməsin deyə pəncərənin çərçivəsinə cuna vurmuşdular – və nə qədər yuyursan, yu, Abşeron küləyinin üç dəqiqənin içində toza basıb bozartdığı cunanın arxasından eşiyə baxdı: bayır da o cuna kimi həmişəki bozluq içində idi.
Cümü (Qızıl Diş Cümşüd) səhər tezdən tırtırına minib cəhənnəm olub, getmişdi, Cəmilə dərsdə idi – bu il onuncu sinifə keçirdi, Səyyarə Buzovna bazarına göyərti almağa getmişdi (günortalar göyərti səhərə nisbətən ucuz olurdu) – bir sözlə, Gülzar arvad otaqda tək idi və eləcə, o bomboz eşiyə baxırdı və birdən, heç özü də bilmədi, necə oldu, arvadın dodağı qaçdı və öz-özünə:
– Get, köpəy qızı, – dedi. – Canın çıxsın, get, humanitar yardımını al! – Çənəsi əsə-əsə pəncərənin qabağından çəkilib otağın küncündə, Cəmilənin dəftər-kitabının yanında yerə atılmış torbanı götürdü və cırıltıyla qapını açıb: – Get, sülən orda, it kimi, vermişelini versinlər... – deyə-deyə pilləkənləri aşağı düşdü.
Qapı cırıldaya-cırıldaya öz-özünə bağlandı.

## X

Əhməd Ağayeviçin Bilgəhdəki bağını Abşeronun yaxşı bağlarından biri hesab eləmək olardı, düzdü, onun binasında son zamanlar Abşeronda tikilən villaların xarici təmtəraqı yox idi, amma əsaslı, böyük (iki mərtəbə, hər mərtəbədə vanna, səkkiz otaq, mətbəx, sauna) bina idi və o bina ilə üzbəüz qarovulçu üçün tikilmiş birotaqlı dam var idi, Vasili Kuzmiç də o otaqda yaşayırdı.
Vasili Kuzmiç otağın divarına vaxtilə hansı bir jurnaldansa kəsdiyi Stalinin generalissimus formasında rəngli şəklini yapışdırmışdı və Vasili Kuzmiç qəti surətdə bu fikirdə idi ki, Stalin əsl rəhbər və əsl rus mujiki idi (Qorbaçov isə – Iuda idi). Vasili Kuzmiçin gəncliyi Stalinin zamanına düşmüşdü və o, Stalinə sevgi və ehtiramını bu günə kimi ürəyində saxlamışdı.
Vasili Kuzmiç o bağı da sevirdi, daha doğrusu, həyətdəki o əncir, tut, üzüm, ərik, şəftəli, armud, zoğal, əzgil – bir sözlə, o ağacların hamısı, illər keçdikcə, Kuzmiç üçün əziz bir məxluqa çevrilmişdi, Kuzmiç onların hamısını – az qala, budaqlarının sayınacan – bir-bir tanıyırdı və əsas məsələ burasında idi ki, ona elə gəlirdi, elə bil, o ağaclar da onu tanıyır, onun üçün darıxır və ağacların belə bir

vəfadarlığı Kuzmiçə bəzən elə təsir edirdi ki, – xüsusən bir az araq içəndən sonra – kişi qəhərlənirdi, burnunu çəkib bir siqaret yandırırdı.

Kuzmiç bəzən ağacların arasında dolaşanda, özündən asılı olmayaraq, hansı ağacınsa yanında dayanırdı, əlini onun gövdəsinə sürtüb:

– Necəsən?– soruşurdu və onun o sualının ağac üçün xoş olduğunu, az qala, cismən hiss edirdi.

Vasili Kuzmiçin heç bir güzəran iddiası yox idi, gününü bir kömbə çörək və bir şüşə araqla keçirə bilərdi və bunu özünə dərd eləmirdi – həyat idi və həyatın öz qanunları var idi. Əhməd Ağayeviçin verdiyi pul azlıq edirdi, amma Vasili Kuzmiç bir dəfə də olsun, bu barədə bir söz demirdi və əsas məsələ burasında idi ki, Vasili Kuzmiç o ağaclara Əhməd Ağayeviçin verdiyi pula görə qulluq etmirdi, o ağacları sevdiyinə görə onlara o cür sidq-ürəkdən qulluq edirdi – dibini boşaldırdı, sulayırdı, budayırdı, gövdəsinə əhəng çəkirdi, vaxtlı-vaxtında dərman püsgürdürdü, dibinə peyin tökürdü və s. – Vera Arxipovna xəstələnib yatağa düşəndə, arvadına necə xidmət etmişdisə, indi Əhməd Ağayeviçin bağındakı o ağaclara da eləcə cani-dildən xidmət edirdi, intəhası, Veranın o bəd xəstəliyinə görə, Kuzmiçin ürəyi kədərli olurdu, indi isə, əksinə, ağaclara xidmət edəndə ürəyi tamam açılırdı.

Bağdakı o ağaclardan sonra Vasili Kuzmiçin ünsiyyətdə olduğu ikinci məxluq isə ağac yox, insan idi – üzbəüz bağa baxan Ələmdar – və Ələmdar hərdən arvadının qorxusundan xəlvət-xəlvət Vasili Kuzmiçin yanına gəlib onun arağına şərik çıxırdı. Ələmdar Ermənistandan qaçqın düşmüşdü və ailəsi – arvadı, dörd uşağı – ilə birlikdə Əhməd Ağayeviçin bağının qarşısındakı bağda, Vasili Kuzmiçin damı kimi birotaqlı damda yaşayırdı və onun bağ sahibindən aldığı pul araq almağa imkan vermirdi, imkan olanda da, arvadı o saat duyuq düşürdü və Ələmdarı növbəti dəfə qovub bağa buraxmırdı.

Bir dəfə, axşam Ələmdar yenə arvadından gizlin Vasili Kuzmiçin yanına gəldi və böyük heyva ağacının altında, Əhməd Ağayeviçin Lənkərandan gətirtdiyi, üzünə lak çəkilmiş kötüklərin üstündə oturub, Kuzmiçin günorta aldığı, yarısı hələ qalmış araq şüşəsini iki stəkana boşaltdılar.

Ələmdar:

– Zakuskaya bir şey net?– soruşdu.

Vasili Kuzmiç:

– Net, – dedi. – Quyu suyu yest.

Ələmdar:

– Olmadı ki... – dedi və arağı içdi, sonra quyu suyu doldurulmuş bardaqdan bir-iki qurtum aldı, sonra da ağzını su ilə doldurub cidd-cəhdlə qarqara eləməyə başladı – bəzən arvadı ondan şübhələnəndə ağzını iyləyirdi – axırı ki, ağzındakı suyu yerə tüpürüb: – Sabah, – dedi, – səni bir əntiqə yerə qonaq aparacam...

Ələmdar araq içəndə çox şey deyirdi, səhərisi də dediklərini yadından çıxarırdı, amma o günün sabahı, doğrudan da, Vasili Kuzmiçi çağırdı:

– Adevaysa, paydyom.

Vasili Kuzmiç:

– Hara paydyom?– soruşdu.

Ələmdar:

– Ə, dünən ne skazal tebe?– dedi. – Qonaq vazmu tebya. Adevaysa.

Vasili Kuzmiç daha bir söz deməyib dama girdi. Otaqda dolab yox idi və Vasili Kuzmiç divarın bir küncünə qəzet yapışdırıb mismar vurmuşdu və sovet vaxtı bayramlarda geydiyi o yeganə kastyumu da Nuh-Nəbidən qalma bir asılqana keçirib o mismardan asmışdı – onu götürüb geyindi. Burada yaşadığı beş il müddətində kastyumu bir dəfə də olsun əyninə geymədiyi üçün, Vasili Kuzmiçə elə gəldi ki, elə bil, onu qəfəsə salıblar və o, damdan çıxanda Ələmdar mat-mat onun pencəyinin döşündəki orden-medallara baxdı:

– Eta vsyo tvoy?

Vasili Kuzmiç açıq-aşkar bir qürurla:

– A kak je?.. – dedi.

Ələmdar bir müddət də o orden və medallara baxıb:

– Net, – dedi. – Eta vsyo snimat!

Vasili Kuzmiçin içində bir etiraz dalğası yarandı, amma Kuzmiç o dalğanın qarşısını aldı, çox atılıb-düşmək lazım deyildi, dünya dəyişmişdi, həyat idi və həyatın öz qanunları var idi.

Vasili Kuzmiç iyirmi beş il bundan qabaq o kastyumu alıb döşünə orden və medalları taxdığı gündən sonra, ilk dəfə onları açıb çıxartdı.

Ələmdar:

– Tak xaraşo. Getdik.

– Kuda getdik?

– Maştağa! Ehsan tam.

– Çto?

– Ehsan! Znayeş ehsan şto?

– Net.

Və həmin gün Ələmdar ehsanın nə olduğunu Vasili Kuzmiçə başa saldı və elə həmin gündən də ehsan Vasili Kuzmiçin güzəranının gözəl bir hissəsinə çevrildi.

Məsələ burasında idi ki, Ələmdar son üç ildə təkcə Bilgəhdə yox, yaxın kəndlərdə də tanıyıb-tanımamağından asılı olmayaraq – əksəriyyətini tanımırdı – hansı mərhumlar üçün ehsan məclisi düzəlirdisə, çayxanada, bazarda, məsciddə, bundan xəbər tuturdu, ünvanı öyrənirdi və gedib ədəb-ərkanla orada ehsan – adətən, plov – yeyirdi və tanımadığı o mərhuma da Allahdan rəhmət diləyirdi. Əlbəttə, ehsan sahibləri Ələmdarı tanımırdılar, amma bunun fərqi yox idi, elə bilirdilər ki, Ələmdar mərhumun, ya da onun hansısa qohumunun tanışıdı, bir də ki, müsəlmançılıqda ehsan savab idi və heç kim Ələmdarı yas yerindən qova bilməzdi ki, niyə gəlib burda ehsan yeyirsən.

Ələmdarla birlikdə Maştağaya gedib həyatında ilk dəfə həqiqi plov, halva yeyən, zəfəranlı şərbət içən və bütün bunlardan vəcdə gələn Vasili Kuzmiç həmin gündən sonra bir müddət Ələmdarla birlikdə öyrəndikləri yas məclislərinə gedib ehsan yedi. Bəzən elə olurdu ki, kəndlərdəki o yas məclislərində təəccüb və maraqla Vasili Kuzmiçə baxırdılar və günlərin birində Ələmdar dedi:

– Znayeş şto? Tı addelna, mən də addelna. A to, vmeste, patom ploxo budet!

Və Vasili Kuzmiç həftədə iki dəfə, üç dəfə, elə həftə olurdu ki, lap beş dəfə kimlərinsə yas məclislərinə gedib ehsan yeyirdi və onun sidq-ürəkdən təəssüf elədiyi bircə şey var idi ki, bu da ehsan süfrələrində arağın olmaması idi.

Vasili Kuzmiç müsəlmanlığı elə həmin vaxtlarda qəbul etdi – məscidə getmədi, heç bir mollaya müraciət etmədi, sadəcə, bir gecə tut ağacının altındakı o laklı

kötüklərdən birinin üstündə oturub siqaret çəkə-çəkə fikirləşdi ki, düz eləmir və bu, Allahın xoşuna gələn iş deyil, özü xaçpərəst ola-ola müsəlmanların yas məclisində iştirak edir və elə həmin gecə də Vasili Kuzmiç özü-özünə qərar verdi ki, müsəlman olub.

Ələmdar ona deyirdi:

– Sən necə müsəlmansan ki, araq içirsən?

Vasili Kuzmiç ondan soruşmurdu ki, bəs, sən niyə müsəlman ola-ola araq içirsən – bu, həyat idi və həyatın öz qanunları var idi, ona görə də deyirdi:

– Mən musalman olanda dedim ki, bunun yedinstvenni, vodkaya daxli yoxdu.

– Sünnət oldun?

– Sunnat olsa da, olmasa da, o, heç neyə ne qodidsya.

Ələmdar araqdan sonra quyu suyu ilə ağzını qarğara eləyəndən sonra soruşurdu:

– Bəs, sən necə müsəlmansan?

– Ya musalman olanda dedim ki, ya müsəlmanam, i vsyo! Uje elə Vasili Kuzmiç deyiləm, kak ranşe...

Ələmdar:

– Heç olmasa, adını dəyiş də... – deyirdi. – Vasili Kuzmiçdən müsəlman olar?

Vasili Kuzmiç:

– Allax urakdadi, adda yox. Man Vasili Kuzmiçam, i vsyo!

## XI

Kolxoz kişinin yaşı altmışı hələ keçməmişdi, saç-saqqalı isə ağappaq idi, amma məsələ saç-saqqalın ağlığında deyildi, onda idi ki, Kolxoz kişi cavan vaxtlarından özünü ağsaqqal kimi aparırdı, duruşunda, oturuşunda, danışığında elə o vaxtlardan ağsaqqallıq ədası var idi və elə ki, üzünə-başına dən düşməyə başladı, şəstlə özü özünə ağsaqqal dedi, az qala, özündən böyük kişilərə: «– Ə, a bala!..»– deyə müraciət etdi və Azərbaycanda, o cümlədən, gözəl Şuşada müstəqillik və ərazi bütövlüyü uğrunda xalq hərəkatı başlayanda, bu hərəkatın fəal üzvlərindən biri oldu, Kommunist partiyasının əleyhinə hansı sənəd yazılırdısa, Mixail Qorbaçovun Dağlıq Qarabağı Ermənistana vermək istəyinə hansı etiraz bəyanatı qəbul edilirdisə, özü öz adını çəkib:

– Kolxoz kişinin adını birinci yaz! – deyirdi, boylanıb öz adını kağızda birinci görməyəndə də narazılıq edirdi: – Ə, adam ağsaqqalın sözünə baxar!

Surxay Kolxoz kişinin adını heç cürə üçrəngli bayrağın dalğalanmasına yaraşdıra bilmirdi və bir dəfə Kolxoz kişiyə dedi:

– Bura bax, Kolxoz kişi, sənə bir sözüm var...

Kolxoz kişi:

– Nədi, a bala?– soruşdu.

Surxay dedi:

– Sən dədəyin goru, Kolxoz kişi, adını dəyişdir. Bizi biyabır eləmə...

Kolxoz kişi at gözü kimi iri və qara gözləriylə zəndlə Surxayın gözlərinin içinə baxıb:

– Kişinin bir adı olar! – dedi, sonra dediyi sözdən özünün də açıq-aşkar xoşu gələ-gələ əlavə etdi: – Kişi odu ki, adı Kolxoz ola-ola kolxoza qarşı mübarizə apara!

## XII

Şuşanın yuxarı hissəsində – Ağadədəli məhəlləsindən üzü-yoxuşa qalxırdın – Azərbaycan yazıçılarının dördmərtəbəli gözəl bir Yaradıcılıq Evi (şuşalılar ora «Yazıçılar Evi» deyirdi) var idi və elə ki, yay başlayırdı, yazıçılar Bakıdan ailələri ilə ora gəlirdilər, dincəlirdilər və yaradıcılıqla məşğul olurdular.

Arsen Allahverdiyan uzun illər idi ki, o Yaradıcılıq Evinin həm komendantı idi, həm təsərrüfat müdiri, həm də gözətçisi, bir sözlə, yay-qış ailəsi ilə birlikdə o Evin birinci mərtəbəsində daimi yaşayan, həm Azərbaycan Yazıçılar Ittifaqından aldığı maaşla, həm də Yaradıcılıq Evinin həyətində əkdiyi kartofun qazancı ilə ailəsini dolandıran bir erməni idi.

Bu fani dünyaya varlı bəy ailəsində gəlmiş, sovet hökuməti qurulandan sonra isə Şuşada hamballıq edən Hambal Əsgər bəy, bir dəfə, növbəti yükü daşıyandan sonra Bazar başında dayanıb nəfəsini dərəndə, bir yekə kisə kartof gətirib bazarda satan Arsendən soruşdu:

– Ə, Arsen, «Allahverdiyan» da erməni famili olar? «Verdi» də bizimki, «Allah» da bizimki!

Arsen dedi:

– Ara, Əsgər bəy, niya olmasın? Allax hamının Allaxıdı da!..

Arsenin arvadı Yeva rus idi və deyilənə görə, Arsenin böyük oğlu Vova da, əslində, Yevanın hansısa bir rusdan olan bic oğlu idi, Arsen Yevanı alanda yanında gətirmişdi və doğrudan da, Vovanın sifətində ermənilikdən bir əlamət yox idi, xalis sarışın bir rus, slavyan balası idi, amma Arsenin ikinci oğlu Arkadi sifətdən əsl erməni idi ki, varıydı, çünki, elə bil, Arsen asqıranda, burnundan düşmüşdü.

Və – dünyanın qəribə işləri var – həmin gün ki, Məleykə müəllimə əlində yarımçıq xlor şüşəsi tutub Buzovnadakı Fəhlə Yataqxanasının üçüncü mərtəbəsində o bayraq rəngli qapıya baxa-baxa birdən-birə Surxayın qəzet-jurnal köşkünü yada salmışdı, bax, elə həmin günün axşamı Arsen Allahverdiyan, Şuşada, elektrik olmadığı üçün qaranlıq çökmüş küçə ilə evinə gedirdi. Əslində, Şuşanın özü də bu küçə kimi bomboş idi, düzdü, ordan-burdan gəlmiş erməni ailələri var idi ki, qaçqın düşmüş azərbaycanlıların evlərində yaşayırdılar, amma Arsen onları tanımırdı, tanıdığı, ancaq şuşalı ermənilər idi ki, onların da çoxu ora-bura dağılmışdı – bir-ikisi Yerevanda veyllənirdi, qalanı da Moskvada, Rusiyanın başqa şəhərlərində idi, bacarığı, imkanı, qohumu olan da Avropada, Amerikadaydı.

Arsen ehtiyatla addımlayırdı, çünki Ermənistandan, xüsusən Gorus tərəfdən ermənilər Şuşaya axışıb evlərin, səkilərin daşlarını, elektrik dirəklərini, məftilləri, boruları – nə vardısa, söküb aparırdılar Irana, satdıqlarını satırdılar, qalanından da özləri istifadə edirdi və həmin qaranlıqda Arsen, necə oldusa, həmin o qəzet-jurnal köşkünün qabağında dayandı.

Arsen özü qəzet oxuyan deyildi, amma yayda ki, Azərbaycan yazıçıları Bakıdan Şuşa Yaradıcılıq Evinə gəlirdi, onda hər gün Arsenə pul verib, xahiş edirdilər ki, təzə qəzet alıb gətirsin və Arsen də yoxuşu aşağı enib gəlib Surxaydan qəzet alırdı.

Arsen nə üçün paslı dəmir skleti qalmış o köşkün qabağında dayandı, niyə birdən-birə Surxayı xatırladı (xatırlamağa, yada salmağa o qədər adam vardı ki...) – bunu heç özü də bilmədi və o qaranlıq içində köşkün dəmir skletinə baxa-baxa öz-özünə azərbaycanca soruşdu:

– Ara, Surxay, xardasan indi, ara? Ara, sağsan xeç olmasa?..

Və Arsen Allahverdiyan ayağı çuxura düşməsin deyə, eləcə ehtiyatla addımlaya-addımlaya o qəzet-jurnal köşkündən uzaqlaşdı və qaranlıq içində itməzdən əvvəl bir dəfə də ayaq saxlayıb yenə öz-özünə danışıb azərbaycanca:

– Köpay oğlu, Vova!.. – dedi.

Vova Şuşada deyildi, Yerevanda yaşayırdı və özü də böyük adam olmuşdu, Ermənistanda Daxili Işlər Nazirinin birinci müavini idi. Vova Qarabağı Ermənistana birləşdirmək tələbi ilə odlu-alovlu nitq söyləyəndə, onun qabağında durmaq mümkün deyildi.

## XIII

Əvvəllər – Buzovna Fəhlə Yataqxanasında təzəcə məskunlaşdıqları vaxtlar – onda hələ məktəbə getmirdi – Əbülfət fəhlə yataqxanasının həyətinə düşüb uşaqlarla futbol oynayanda bu qıvrımsaç, qarabuğdayı, amma göy gözlərindən cin yağan uşağın oyunu hamını məəttəl qoymuşdu və illər keçdikcə, onun şöhrəti bütün Buzovnaya yayıldı. Buzovnalı cavanlar, ümumiyyətlə, futbol həvəskarları Yataqxananın həyətinə yığışıb onun oyununa tamaşa edirdi.

Yataqxananın həyətinin bir böyrü gedib Buzovnadakı Beynəlxalq «Gənclik» Düşərgəsinin hasarına dirənirdi və orada dincələn xaricilər də hərdən gəlib Əbülfətin futbol oynamağına tamaşa edirdilər və deyirdilər bu uşaq böyüyəndə, Fransa, Ingiltərə, lap elə Amerika onun üstündə bir-biri ilə dava edəcək, o deyəcək ki, mənim komandamda oynasın, bu deyəcək ki, yox, mənim komandamda oynasın, özü də milyonçu olacaq və bu «milyonçuluq» söhbəti gedib Səyyarəyə çatanda, arvadın içinə bir şəst dolurdu ki, elə bil, elə indi, Buzovnadakı bu Fəhlə Yataqxanasındaca milyonçu olublar və elə o zaman da xüsusi gəlib Yataqxananın həyətində bu şuşalı balasının futbol oynamağına baxan Bolelşik Bufetçi Ibadulla onun adını «Eysebio» qoydu və o vaxtdan da Əbülfət bütün bu tərəflərdə Eysebio kimi məşhurlaşdı, onun sorağı gedib Bakıya çıxdı və Əbülfəti Bakıya apardılar, futbol təmayüllü internat məktəbdə oxudu və çox çəkmədi ki, onu Azərbaycanın gənclərdən ibarət yığma komandasına daxil etdilər.

Əbülfətin işım-işım işıldayan qara saçları qıpqıvrım idi və Abşeronun günəşi də, elə bil, Bolelşik Bufetçi Ibadullanın bu uşağa qoyduğu adı daha da görümlü eləməkdən ötrü, onun qarabuğdayı dərisini bir az da qaraltmışdı (gözləri isə gömgöy idi) və Əbülfətin futbol oynamağı, həqiqətən, möcüzə kimi bir şey idi, elə bil, hansı top olur-olsun, Əbülfətin ayaqlarını tanıyırdı, uşaq anasının qucağından əl çəkməyən kimi, top da gəlib yapışırdı onun ayaqlarına və Əbülfət nə oyun deyirdin, o topun başına açırdı və o topla da bir yerdə rəqib tərəfin başına oyun açırdı.

Cümünün (Qızıl Diş Cümşüdün) anası Güllü arvad çirkli pal-paltarı Yataqxananın beşinci mərtəbəsindən aşağı düşürüb həyətdəki krantın altında sabunlayıb yuya-yuya Səyyarəyə deyirdi:

– Az, sənə nə var e... Əbili («Eysebio» adını tələffüz eləyə bilməyən Güllü arvad Əbülfətə, çağa çağlarındakı kimi elə «Əbili» deyirdi), Allah qoysa, milyaner olajağ, dərd bizim dərdimizdi, bizi aparıb o ilan mələyən qəbiristanlığda basdırajağlar.

Səyyarə, əlbəttə, içində bir qürur hissi keçirirdi, amma nə qədər edirdisə də, o qürur hissinə həmişə bir kədər də qarışırdı və özündən asılı olmayaraq, bir «ah» çəkib deyirdi:

– Helə deмə, Güllü xala... Allah qoysa, öz elimizə - obamıza qayıdıf dədəmizin, nənəmizin yanındaja öz torpağımızda öləjəyik...
Güllü xala:
– Ba?– deyirdi və kiriyirdi.
Güllü nənə bir də haçansa Şuşaya qayıdacaqlarına daha heç cürə özünü inandıra bilmirdi.

## XIV

Şuşadakı o mitinqlər – çox vaxt yaxın kəndlərdən – Malıbəylidən, Zarıslıdan gəlmiş camaatın da qoşulduğu o izdihamlı mitinqlər və Bayraqdarın ön cərgədə dayanıb o mitinqlərdə üçrəngli bayrağı qaldırması, o bayrağın mitinqlərdəki həyəcanın, sarsıntının, qəzəbin müqabilində bir təsginliyə, bir ümid mənbəyinə çevrilməsi – bütün bunlar keçmişdə qalmışdı və Bayraqdara elə gəlirdi ki, o keçmiş – çox uzaq bir keçmişdir, hətta onun yaşından da uzaq, qədim, tamam qocalmış bir keçmişdir və bəzən o uzaq keçmişdə o bayrağı qaldıran adamın Surxay olmağı da indi onun özünə qəribə görünürdü.

Neçə il idi ki, daha o bayraq, ancaq Respublika günündə – 28 Mayda Buzovna Fəhlə Yataqxanasının beşinci mərtəbəsindəki o pəncərədən uzanıb dalğalanırdı, bir də xüsusi günlərdə – misal üçün, Türkiyə futbolçularının dünya çempionatında üçüncü yerə çıxdıqları gecə, yaxud «Türk ulduzları»nın sürdüyü reaktiv qırıcı təyyarələr Abşeronun üstündən uçanda, yaxud Namiq Abdullayev Sidneydə Olimpiya çempionu olanda və orada Azərbaycanın himni çalınıb, bayrağı qaldırılanda – Surxay o bayrağı götürüb yataqxananın həyətinə düşürdü, o saat ətrafına yığılan uşaqların, cavanların əhatəsində başının üstündə yelləyə-yelləyə dalğalandırırdı.

Bir də ki, Ermənistanın işğal etdiyi ərazilərdə sərhəd boyu güllə ilə vurulan, yaxud minaya düşən şəhidlərin cənazəsini Bakıya, Abşeron kəndlərinə gətirəndə (bu yerlərdən əsgərliyə getmiş uşaqlar idi) Bayraqdar həmin gün Buzovna dairəsində qəzet satmırdı, özünə borc bilirdi ki, bayrağı götürsün və o şəhidlərin yas yerinə getsin və o üçrəngli bayraq, Şuşada olduğu kimi, şəhidin cənazəsi qarşısında baş əysin.

## XV

Əbülfətin hərdən gəlib Buzovnadakı Fəhlə Yataqxanasının həyətində təkcə şuşalı qaçqın uşaqlarıyla yox, ümumiyyətlə, bu həndəvərdəki kənd yeniyetmələri ilə bir yerdə futbol oynamağı, təkcə onunla oynayanların yox, bütün Yataqxana camaatının həyatında (gündəlik güzəranında) iki-üç saatlıq gözəl bir hadisə olurdu və bu hadisə, elə bil, o həyətə bir hərarət gətirirdi, daimi bir yeknəsəqlik, kəsafət, kasıbçılıq, ümidsizlik içində mürgü döyən o həyət (boz rəngli həyət) birdən-birə canlanırdı.
– Eysebio gəlib!..
– Eysebio oynayır!..
Böyük-kiçik – hamı – yaxınlıqda yaşayan buzovnalılar, Buzovnada bağı olanlar, «Gənclik»də dincələnlər, Yataqxanadan bir az o tərəfdəki bazarda alver edənlər və

müştərilər – kimin həvəsi varıydısa, həyətə doluşub oyunçuları dövrəyə alırdı və Eysebionun futbol oynamağına tamaşa edirdi.

Səhər-səhər tırtırını (lafetli motorollerini) sürüb, Bolelşik Bufetçi Ibadullanın bufetində 150 (ya da 200) qram nisyə araq (üstündən də bir stəkan soyuq kampot) içib, sonra da Yataqxananın həyətində Əbülfətin futbol oynamağına tamaşa eləyən Cümü deyirdi:

– Ə, sən ölmiyəsən, bu, Şuşada oynasaydı, indi SSRI-nin çempiyonuyduq!..

Guya ki, SSRI hələ tar-mar olmamışdı...

Cümü, adətən, Bolelşik Bufetçi Ibadullanın bufetində o 150 (200) qram arağı (üstündən də bir stəkan soyuq kampotu) içəndən sonra, tırtırı Maştağaya, yem satılan dükanlara sürüb, ot, quru çörək, arpa alıb lafeti doldururdu və Nardaranda, Bilgəhdə, Zuğulbada mal, qoyun, toyuq saxlanılan həyətlərə aparıb, nə qədər imkan olurdusa, o qədər də aldığından baha qiymətə satmağa çalışırdı, amma elə ki, eşidirdi, Eysebio gəlib həyətdə futbol oynayacaq, alveri yadından çıxırdı, tırtırı bufetdən birbaşa geriyə – təzədən Yataqxananın həyətinə sürürdü.

Əlbəttə, Cümünün (və Cəmilə ilə Əbülfətdən başqa, ümumiyyətlə, dünyada heç kimin) xəbəri yox idi ki, Əbülfət Bakıdan bura, bu həyətdə oynamağa beşinci mərtəbədəki pəncərədən oğrun-oğrun aşağı baxan o qıza – Cəmiləyə – Cümünün qızına görə gəlir.

Əbülfətin gənclərdən ibarət yığma komandada oyununa tamaşa edən braziliyalı Karlos Alberto Torres – Azərbaycanın böyüklərdən ibarət yığma komandasının yeni baş məşqçisi – günləri sayırdı ki, Əbülfətin, heç olmasa, 17 yaşı tamam olsun ki, onu yığmaya götürsün.

Karlos Alberto Torres portuqal dilində deyirdi və onun dediklərini də tərcüməçi ləzzətlə azərbaycancaya çevirirdi:

– Bu oğlan futbolun kralı olacaq!

Ondan soruşurdular:

– Bəs Pele? Kral Pele deyil?

Karlos Alberto Torres həmyerlisinin və dostunun tərəfini vermirdi:

– Yox, Pele futbolun kralı deyil... Pele futbolun Allahıdı... – deyirdi və gülümsəyirdi, amma elə gülümsəyirdi ki, elə bil, açıq-aşkar Pelenin tərəfkeşliyini etdiyi üçün, özünə gülür, sonra uzun, qara barmağını meydanda oynayan, ya məşq edən Əbülfətə tuşlayırdı: – O çox böyük futbolçu olacaq! Bunu sizə Karlos Alberto Torres deyir! Yadınızda saxlayın!

Əbülfət çoxdan daha həyət oyunçusu deyildi, Azərbaycan futbolunun şərəfini xarici ölkələrdə də qorumuşdu, gənclərin yığması ilə Macarıstana, Pakistana və Estoniyaya getmişdi (Macarıstanda 2, Pakistanda 1, Estoniyada da 1 qol vurmuşdu) və Əbülfət son bir ildə Buzovnadakı o Yataqxananın həyətində, ancaq o qıza – Cəmiləyə görə gəlib futbol oynayırdı və məşqçiləri bundan xəbər tutsaydılar ki, Əbülfət gedib Buzovnada haçansa basılmış asfaltı çoxdan çala-çuxur olmuş bir həyətdə futbol oynayır, əlbəttə, bunu qadağan edərdilər – ayağı sına bilərdi, zədələnərdi; məşqçilər elə bilirdi ki, Əbülfət, sadəcə, gedib evlərinə baş çəkir.

Düz bir il bundan əvvəl – onda da mayın axırı idi və Bayraqdar yenə də bayram ərəfəsində o üçrəngli bayrağı beşinci mərtəbədəki pəncərədən eşiyə çıxarmışdı – Əbülfət evdən (otaqdan) çıxıb Bakıya qayıtmaq istəyəndə o qız – Cəmilə, – elə bil, Əbülfəti güdürdü, pilləkəndə tələsik ona bir zərf verdi və qaça-qaça yuxarı qalxdı.

Əbülfət elə pilləkəndəcə xlor iyindən burnu tutula-tutula o zərfi açıb məktubu oxudu:

«Şanlı məktub.

Gözümün işığı Əbülfət!.. Sənə məktub yazıram... Amma istədiklərimi yazmıram... Əbülfət!... Əbülfət!.. Əbülfət!.. Amma, Əbülfət, mən fikirləşəndə ki, hamımız Şuşaya qayıdacağıq, amma sən başqa ölkələrdə futbol oynayacaqsan, Şuşaya qayıtmayacaqsan, onda Əbülfət, az qalıram dəli olum... Çünki, Allah qoysa, hamımız Şuşaya qayıdacağıq, amma mən səni görə bilməyəcəyəm, Əbülfət... Eybi yox, Əbülfət, amma mən istəyirəm ki, bütün dünya səndən danışsın. Əbülfət!.. Əbülfət!.. Əbülfət!.. Bəlkə elə doğrudan da, dəliyəm mən? Gecə səhərə qədər ürəyimdə sənin adını çəkirəm... Sən həyətdə futbol oynayanda, Əbülfət, bizim həyətdə hər tərəf adamın üzünə gülür... Mənə acığın tutmasın, Əbülfət, sənə qurban olum... Heç kim də bilməsin ki, sənə məktub yazmışam...

Cəmilə.»

Qız məktubu göy mürəkkəblə, amma onun adını, yəni «Əbülfət»i hər dəfə qırmızı karandaşla yazmışdı və Əbülfət bu qırmızı rəngli «Əbülfət»lərə baxıb, əvvəlcə bilmədi ki, nə eləsin, – bu məktubu cırsın, cırmasın?– amma o qırmızı «Əbülfət»lərdə, bir də, o «istəyirəm ki, bütün dünya səndən danışsın»da nəsə elə bir şey var idi ki, – qəribədir, – birdən-birə Əbülfəti çəkib lap uşaqlıq illərinə apardı, Şuşada uşaqlarla futbol oynadığı vaxtlara.

Əbülfət Şuşanı çox dumanlı xatırlayırdı, Şuşa onun üçün, əslində, nəsə... nəsə, içində, ürəyində olan gözəgörünməz, amma çox əziz və çox doğma bir... bir... nə idi? doğma bir... doğma bir varlıq idi... Misal üçün, anası Səyyarə Əbülfətin içində, ürəyində nə idisə, Şuşa da onun üçün elə bir şey idi, intəhası, anası yadına düşəndə Səyyarənin sifəti o saat gəlib dururdu Əbülfətin gözlərinin qabağında, amma Şuşanın simasını, şəklini görə bilmirdi, çünki Əbülfət Şuşadan çıxanda (Surxayın qucağında qaçanda) – 12 il bundan qabaq – 4 yaşı var idi və «Şuşa» deyəndə də onun gözlərinin qabağına futbol topu gəlirdi, Allahın hər verən günü, üzü şəhər hamamının daş divarına baxan – yadında qalan elə bu idi – darvazalarının ağzında uşaqlarla futbol oynadığı qara rezin top. Bir də ki, böyük məhəllə uşaqlarının küçənin axırındakı orta məktəbin həyətində səksəkə içində (birdən dərs hissə müdiri Məleykə müəllimə xəbər tutub gəlib onları qovalayar) futbol oynadıqları yekə top onun yaddaşına hopub qalmışdı və o zamanlarda Imranın velosipedinin tərkində gəzdirdiyi nasosla o yekə topu doldurmağına baxmaq Əbülfətin ən sevimli uşaqlıq xatirələrindən biri idi.

Yayda, məktəblərdə tətil vaxtı məhəllənin böyük uşaqları Şuşanın yuxarı hissəsində, Yazıçılar Evinin arxasındakı düzənlikdə başqa məhəllələrin uşaqları ilə məhəllələrarası futbol oynayırdılar və Əbülfət də məhəllənin balacalarıyla birlikdə o düzənliyə doluşub böyüklərin oyununa baxırdı, uşaqlarla bir yerdə cani-dildən öz komandalarına, xüsusən də quş kimi hoppanıb topu tutan qapıçı Imrana azarkeşlik edirdi və aradan bu qədər il keçmişdi, Əbülfət əsl stadionlarda gözəl futbol oyunları görmüşdü, televizorun qabağında oturub Dünya birinciliyinə, Avropa birinciliyinə baxmışdı (sonra da məşqçilər o oyunların videosunu göstərə-göstərə təhlil etmişdilər), amma Şuşadakı o düzənlikdə gördüyü futbola dünyanın heç bir futbolu çatmazdı və Əbülfət bilirdi ki, ömrünün axırına kimi də belə olacaq, bilirdi ki, dünyanın hansı stadionunda hansı komandanın oyununa baxır-baxsın, – lap Milanda

«Milan»ın, yaxud Istanbulda «Qalatasaray»ın oyunu olsun, fərq etməz, – Şuşadakı o məktəb həyətində baxdığı futbol oyunlarına çatanı olmayacaq.

Imran Əbülfətgilin hasar qonşusu və məhəllə komandasının qapıçısı idi və Imranın top tutmağı uşaqların arasında bir əfsanə idi, kim hardan top vurursa-vursun, Imran quş kimi atılıb o topu tuturdu və elə buna görə də Imrana «Qartal» deyirdilər. Ermənilər Şuşanı götürəndə, qaça-qaç düşəndə, Imranı güllə ilə vurmuşdular və onun cəsədi «Ərimgəldi»nin altındakı qayalıqda düşüb qalmışdı və sonralar uşaqlar belə danışırdı ki, guya, qartallar Imranın gözlərini dimdikləyib yeyiblər.

Imranın qəribə bir işıqla işıldayan yaşıl gözləri var idi və sən demə, o işım-işım işıldayan yaşıl gözlər əməlli-başlı Əbülfətin yaddaşında imiş və həmin məqamda ki, Əbülfət əlindəki o məktuba – Cəmilənin məktubuna – baxırdı, elə bil, Imranın qartal dimdikləməsindən pırtlamış gözlərinin yaşılımtıl rəngi o «Əbülfət»lərin qırmızısına qarışdı, elə bil, dama-dama şagird dəftərindən qoparılmış o vərəqə bulanıq bir rəng yayıldı...

Əbülfət məktubu qatlayıb şalvarının cibinə qoydu.

Doğrudan da, qəribə idi, o məktub, qırmızı karandaşla və gözəl hərflərlə yazılmış o «Əbülfət»lər birdən-birə Imranın yaşıl gözlərini tamam alatoran içində olan uşaqlıq xatirələrindən dartıb, çıxarıb, Əbülfətin yadına saldı.

Nə üçün?

Bu, bir sirri-xuda idi.

Əbülfət həmin gecə Bakıda, məşq bazasında, çarpayıda uzanıb o tərəfə-bu tərəfə vurnuxurdu və heç cürə yuxuya gedə bilmirdi, axırda yerindən qalxdı, heç özü də bilmədi ki, şalvarının cibindən o məktubu necə götürdü və kortecdən eşiyə çıxıb qapının ağzındakı taxta pillələnin üstündə oturdu, qapının başında yanan elektrik lampasının zəif işığında o məktubu təzədən bir də oxudu.

O məktuba qədər o qız – Cəmilə – Əbülfət yatsaydı, heç yuxusuna da girməzdi. Əbülfət bilirdi ki, o qız Cümünün qızıdı və Buzovna Fəhlə Yataqxanasında yaşayan bütün şuşalılar kimi o qız da qaçqındı, amma sonra, elə o zəif elektrik lampasının altındaca Əbülfətin fikrindən keçməyə başladı ki, hər dəfə Buzovnadakı evlərinə (otaqlarına) gedib-gələndə, həmişə o qız beşinci mərtəbədəki o pəncərənin qırağından baxırdı (demə, ona – Əbülfətə baxırmış...), elə bil, o qız – Cəmilə – üçüncü mərtəbədəki o bayraq rəngli qapının açılıb-örtülməsindən və indicə oradan Əbülfətin çıxacağından o saat xəbər tuturdu...

Və Əbülfət o zəif elektrik lampasının işığında o məktubu üçüncü dəfə oxudu.

O günə qədər heç bir qız Əbülfətə məktub yazmamışdı və ümumiyyətlə, Əbülfətin heç bir qızla yaxınlığı olmamışdı. Onlar bazanın meydanında məşq edəndə, futbol azarkeşləri, idman müxbirləri, təsadüfi tamaşaçılar yığışıb baxırdı və o tamaşaçıların arasında Bayıl tərəfdən gələn rus qızları da olurdu. O qızlar cavan futbolçularla tanış olmaq üçün gəlirdilər və futbolçular da onlarla xəlvəti əlaqə yaradırdı, amma Əbülfət o qızlara yaxın durmurdu – təkcə ona görə yox ki, rus dilini pis bilirdi, ona görə də yox ki, məşqçilər o sırtıq qızlarla gəzməyi qəti qadağan etmişdilər; ona görə ki, Əbülfət meydanda, topla özünü necə hiss edirdisə, o qızlarla özünü heç vəchlə elə hiss edə bilmirdi, həmin qızlarla olanda, ona elə gəlirdi ki, ayağı top saxlaya bilmir, hamı da ona gülür.

O zəif elektrik işığının altında əlində tutduğu o məktub birdən-birə Əbülfət üçün futbol topu kimi doğma bir şeyə çevrildi və o gecədən sonra məşqçilər mat qalmışdılar ki, necə oldu ki, bu yeniyetmə oğlan ikiqat bir həvəslə, ehtirasla oynamağa başlamışdı və meydanda, həqiqətən, möcüzə göstərirdi.

Bir dəfə məşq zamanı yenə Əbülfətin oyununa baxan Karlos Alberto Torres özünü saxlaya bilməyib əlini əlinə vurdu:

– Allaha and olsun, bunun yaşında Pele də belə oynaya bilmirdi!..

Əbülfətin ayaqları topu özünə necə çəkirdisə, Buzovna Fəhlə Yataqxanasının həyəti də indi onu eləcə özünə çəkirdi. Əbülfət imkan tapan kimi, elektrik qatarına minib Buzovnaya gedirdi və həyətdə futbol oynaya-oynaya tez-tez gözlərini topdan çəkib yuxarı – beşinci mərtəbəyə – pəncərənin küncündən gözlərini ona zilləmiş o qıza baxırdı və o qızı görmək, o qızın baxışları ilə öz baxışlarının eləcə toqquşması topdan sonra Ələkbər üçün ən əziz bir şey olmuşdu, amma bu bir ildə onlar bir dəfə də olsun görüşüb-danışa bilməmişdilər, təkcə iki dəfə məktublaşmışdılar.

Birinci məktubu (əslində ikinci məktubu) yenə də Yataqxananın pilləkənində Cəmilə ona verməyə macal tapmışdı və o məktubu da Əbülfət xlor iyi burnuna dola-dola elə pilləkəndə oxumuşdu:

«Şanlı məktub [1] 2.

Qurban olum sənə, Əbülfət... Əbülfət, mən həmişə ürəyimdə səninlə danışıram... Əbülfət... Əbülfət... Əbülfət... Mən ürəyimdə səninlə əl-ələ tutub dəniz qırağında gəzirəm, Əbülfət... Mən istəyirəm biz Şuşada bir yerdə gəzək, amma Şuşanı yadıma gətirə bilmirəm, Əbülfət... Amma istəyirəm orada əl-ələ gəzək. Belə sözlər yazdığıma görə məni qınama, Əbülfət... Sən ki, mənim birinci məktubumu heç kimə deməmisən, mən sənə çox minnətdaram, Əbülfət. Sənə bir sualım var, Əbülfət: sən mənə görə gəlib həyətdə futbol oynayırsan? Qurban olum sənə, Əbülfət, mənə cavab yaz, yoxsa ürəyim gedir, Əbülfət...

Cəmilə».

O məktub yenə göy mürəkkəblə və o «Əbülfət»lər də qırmızı karandaşla yazılmışdı. Əbülfətin oturub yazı yazmaqla qəti arası yox idi, amma bu dəfə ürəyindəkilərin hamısını yazmaq istədi, gecə yenə kotecin taxta pilləkənində oturub o zəif elektrik işığında gözlərini dizinin üstünə qoyduğu dəftərçənin ağ kağızına zillədi və iki saatdan çox bir müddətdə nə qədər çalışdısa, nə qədər hıqqandı-zıqqandısa da, heç nə yaza bilmədi, kağızın ortasında iri hərflərlə təkcə elə bunu yazdı:

«HƏ.»

Bu, Əbülfətin həyatında yazdığı birinci və sonuncu məktub oldu.

Və Əbülfət bilirdi ki, Cəmilə elə eləyəcək ki, Yataqxananın pilləkənində onun rastına çıxacaq və doğrudan da, belə oldu və Əbülfət də o bir kəlmədən ibarət məktubu Cəmiləyə verə bildi.

## XVI

Gözlə-Gəlirəm Məmməd kişi səhər tezdən Yataqxananın ikinci mərtəbəsindəki evindən (otaqdan) çıxıb həmişəki kimi, Məşədi Ağarəhim Mir Abdulla oğlunun o gözəl bağından yadigar qalmış (kimə? Şuşa qaçqınlarına?) o zeytun ağacının altındakı sınıq-salxaq skamyada oturdu, göyə baxıb, həmişəki kimi, əvvəlcə yavaş-

yavaş, sonra da bərkdən öz-özüylə danışmağa başladı. Məmməd kişi özü ilə elə tələsik danışırdı ki, nə dediyini başa düşmək olmurdu və hərdən Bakıdan gəlib Buzovnadan keçərək Mərdəkanacan gedən və Şağan tərəfdə fırlanıb eləcə də geri qayıdan elektrik qatarının səsi eşidiləndə, qatar çarxlarının o tukkatukuyla Məmməd kişinin bərkdən dediyi anlaşılmaz sözlərin arasında, elə bil, çox doğma bir ahəngdarlıq əmələ gəlirdi.

Bir azdan səhər növbəsində oxuyan uşaqlar məktəbə getdi, ikinci, üçüncü növbədə oxuyan uşaqlar da həyətə düşüb futbol oynamağa başladı (Eysebioya görə bu həyətdə və ümumiyyətlə, bu həndəvərdə futbol oynamayan uşaq yox idi) və birdən uşaqlardan hansı bir həssası isə hiss etdi ki, bu futbol hay-küyünün içində nəsə bir səs çatışmır, qeyri-iradi zeytun ağacının altına tərəf baxdı və gördü ki, Gözlə-Gəlirəm Məmməd kişinin boynu yana bükülüb, başı da o sınıq-salxaq skamyanın söykənəcəyinin üstündə düşüb qalıb.

Gözlə-Gəlirəm Məmməd kişi şuşalıların Buzovna Fəhlə Yataqxanasında məskun olduqları vaxtdan üzü bu tərəfə, burada vəfat edən 16-cı şuşalı idi.

Gözlə-Gəlirəm Məmməd kişinin yasında Cümünün (Qızıl Diş Cümşüdün) baldızı kor Solmaz qışqırırdı:

– Ay Allah!.. Bizim camaat burda niyə milçək kimi qırılıb gedir?!.

Qışqırırdı və ağlayırdı.

Və o zaman Cümü fikirləşdi ki, görəsən, burada, bu Yataqxanada Allah dərgahına gedən 17-ci şuşalı kim olacaq? Və elə o dəmdə də Cümünün ürəyindən keçdi ki, Allah eləyəydi, o 17-ci şuşalı elə o özü olaydı...

## XVII

Çəkisi 160 kilodan artıq olan Bolelşik Bufetçi Ibadulla Buzovnanın məşhur futbol azarkeşlərindən və ümumiyyətlə, kəndin seçilib-sayılan kişilərindən biri idi, amma heç kim – nə kənd camaatı, nə də daimi müştərilər –Cümü (Qızıl Diş Cümşüd) kimi – bilmirdi ki, bəzən elə məqamlar olurdu, Bolelşik Bufetçi Ibadulla, əslində, özü öz bufetindən xəcalət çəkirdi...

Iyunun həmin ilk günü də günorta bufet boş idi, Bolelşik Bufetçi Ibadulla iri dəsmalı ilə yay-qış həmişə tərli olan boynunu, sifətini silə-silə və həmişə də bu bufetdən əskik olmayan sırtıq milçəkləri qova-qova bufetin şüşə piştaxtasının arxasındakı «zakuskalara» baxırdı: ABŞ-dan gəlmiş toyuq budunun soyutması, fransız yumurtası, Iran kartofu, Türkiyə pendiri, Qazaxıstandan koreyalıların gətirib ucuz qiymətə satdıqları baş soğan, Tunis zeytunu, gətirilmə yeri məlum olmayan (bic uşaqlar kimi) və içi də sapsarı qarpız... O piştaxtada yerli məhsul, ancaq süpürgəçi Marusyanın bişirdiyi kampot idi.

Müştərilər arağı Bolelşik Bufetçi Ibadullanın bufetinin bu nemətləri ilə içirdilər və iyunun həmin ilk günü, elə bil, qəfildən uzanan bir əl Ibadullanın beynini piydən qat bağlamış peysərindən dartıb çıxarıb, küləksiz gecəni səhərə qədər sahildəki qumun üstündə qalmış dəniz suyu kimi dup-duru, şəffaf və gözəl uşaqlıq illərinə apardı, Buzovnanın kahısını, Nardarandakı Paçan bağlarının qara şanısını, Sarayın, Novxanının ağ şanısını onun yadına saldı, Hacıxuna bağlarının sarıgiləsini, dərəndə adamın barmaqları yapışqan kimi bir-birinə yapışan Bilgəh əncirini, Hövsanın soğanını, Zirənin ağ turpunu, kəhrəba kimi kökünü – hələ qarpızı bir tərəfə – yadına saldı...

Və elə bil, bu meyvə-tərəvəzin tumunun daha Abşerondan kəsilməyinin təqsirkarı Bolelşik Bufetçi Ibadullaymış kimi, onun rəhmətlik atası Həmidulla kişi o biri dünyadan iki əli ilə də oğlunun başına ürək dolusu bir kül ələdi və iyunun o ilk günü birdən-birə gəlmiş o pis istidə doyunca nəfəs ala bilməyən Bolelşik Bufetçi Ibadulla o biri dünyadan başına ələnən o qarğışı, təkcə başı ilə yox, az qala, bütün nəhəng və tərləmiş vücudu ilə hiss etdi.

## XVIII

Sara altıncı sinifdə və ikinci növbədə oxuyurdu və Səyyarə yavaş-yavaş sinəsi dolmağa başlayan Saranın nimdaş yubkasına, azı, yüz dəfə yuyulmuş ağ köynəyinə baxanda, arvadı az qalırdı ağlamaq tutsun və həmin məqamlarda darağı götürüb özü qızın saçlarını darayırdı, elə bil, saçların səliqə-sahmanı, gözəlliyi o yubka ilə, o adda-budda süzülməyə başlayan ağ köynəyin nimdaşlığını ört-basdır edəcəkdi.

Bu dəfə Səyyarə Saranın saçlarını daraya-daraya dedi:

– Qoy bir!.. Qoy bir, Əbili gedif Fransada oynamağa başlasın, onda burda nə ölümümüz var, az, bizim?.. Köçüf, gedif, oturajayığ Fransada! Orda sənə elə paltarlar alajam, göz istəyəjək, tamaşasına dursun!

O gözəl Fransada haçansa Əbilinin futbol oynayacağı, əlbəttə, Surxaya açıq-aşkar ləzzət edirdi, hətta o gözəl gələcək günlərin Fransadan, elə bil, yüngülcə bir ətri də gəlirdi və Surxay Fəhlə Yataqxanasının üçüncü mərtəbəsindəki otaqda o ətri açıq-aşkar hiss edirdi, amma buna baxmayaraq, sidq-ürəkdən deyirdi:

– Mən Vətəndən heç hara gedən deyiləm!

Səyyarə hirslə:

– Qal! Sən qal burda! – deyirdi. – O sən, o da sənin bayrağın!..

## XIX

Abşeronun il-on iki ay saralıb-solmuş olan kollu-koslu çöllü-biyabanında salınmış şuşalılar qəbiristanlığı hələ ki, o qədər də böyük deyildi, burada cəmi 23 qəbir var idi və bunun da 17-si Buzovnadakı Fəhlə Yataqxanasından idi, beşi isə başqa ətrafda yaşayan şuşalıların (bəlkə də təkcə şuşalıların yox, ümumiyyətlə, qarabağlı qaçqınların) qəbri idi.

Aydın məsələdir ki, dünyanın ən qəmgin yerlərindən biri qəbiristanlıqdır, amma Bakıdan gələn və elektrik qatarı yolunun sağında, sovet vaxtı tikilməyə başlamış və o vaxtdan bəri tikintisi yarımçıq qalmış bir binanın (bura məktəb olmalıydı, ya nəsə başqa bir tikinti idi) arxasında salınmış bu qəbiristanlıq həm də, yəqin, dünyanın ən kasıb qəbiristanlığı idi.

Buradakı qəbirlərin başdaşı həmin yarımçıq tikintinin divarlarından sökülüb-qoparılıb gətirilmiş kubik daşlar idi və divarların köhnə suvağı adda-budda üstündə qalmış o kubik daşlar bu kiçik qəbiristanlığa elə bir ab-hava gətirmişdilər ki, elə bil, bu qəbirlərin özləri də qaçqın idi, hardansa qaçıb gəlmişdilər...

Gözlə-Gəlirəm Məmməd kişini də bu qəbiristanlıqda basdırdılar və Buzovna Fəhlə Yataqxanasından bura gətirilən o 17-ci şuşalının – Şuşada doğulan, Şuşanın dağlarında, meşələrində böyüyən, erməni gələndən qaçqın düşənəcən Şuşadan başqa bir şəhər görməyən, ayağını Şuşadan kənara basmayan məşhur çayçı Gözlə-Gəlirəm Məmməd kişinin – əlbəttə, heç vəchlə ağlına gələ bilməzdi ki, bərkdən öz-özünə

danışa-danışa sınıq-salxaq bir skamyada öləcək və Abşeronun çöllü-biyabanında torpağa tapşırılacaq.

## XX

... gecələr elektrik qatarının təkərlərinin tukkatuku o yerlərdə çox aydın eşidilirdi, hətta o tukkatukun yüngülcə bir titrəyişi də, Buzovnada yuxuya getmiş Fəhlə Yataqxanasında, elə bil, hiss olunurdu və həmin gecə də sonuncu – gecə saat 1 elektrik qatarı Mərdəkandan qayıdıb Bakıya gedəndə o tukkatuk eləcə aydın eşidildi və yüngül bir titrəyiş də hiss olundu...

... və o gecə bütün Yataqxana kimi, Bayraqdarın ailəsi də yuxudaydı: hərə öz həmişəki yerində – Güllü arvad otağın ortasındakı mizin üstündə, Sara həmin mizin altında, Surxay qapının ağzında, yerdə, Səyyarə də ensiz dəmir çarpayıda yatmışdı; Səyyarə o yeganə çarpayıda yatmağı özünə qıymırdı, amma nə illah edirdi, nə Güllü arvad, nə də Sara o çarpayıda yatırdı, Surxaya isə bu barədə bir söz deyən yox idi; əslində, Surxay öz yerindən çox razı idi, çünki səhər ən tez duran o idi, heç kimi narahat etmədən qapını açıb eşiyə çıxırdı; düzdü, hərdənbir gecənin yarısı Güllü arvad mizin üstündən düşüb tualetə gedəndə Surxayın üstündən addımlamalı olurdu, amma Surxay on ildə buna adət etmişdi və bu, onun üçün elə bir narahatlıq deyildi...

... və həmin gecə o elektrik qatarının çarxlarının tukkatuku hələ tamam keçib getməmiş Səyyarə bərkdən:

– Aparma!.. Aparma!.. – qışqırıb yuxudan ayıldı və o saat da qalxıb çarpayıda oturdu...

– Noluf az, yuxu görürdün?– Bunu mizin üstünə salınmış döşəyində qurcalanan Güllü arvad yuxulu-yuxulu soruşdu.

Səyyarə:

– Hə... – pıçıldadı. – Görürəm, vaqon Əbilini dartıf güjlə mənnən alır, özüylə bir qaranlığa aparır... Görürəm, ora quyunun dibi kimi, zülmət bir yerdi... – Bir az susub təzədən pıçıldadı. – Qorxuram...

Güllü arvad eləcə yuxulu-yuxulu:

– Az, kiri... – dedi. – Niyyətin hara, mənzilin ora...

Səyyarə yenə:

– Nağayrım... – pıçıldadı. – Hələ yaxşı ki, Bakıdadı... Bir də gördün, aparıflar Amerikaya, nə bilim, hara... Başına bir iş gəlsə, nəğayrajıyıq?..

Güllü arvad sinədolusu əsnəyib:

– Az, yat... – dedi. – Bədniyyət olma...

... və o Amerika sözü nə ayıq kimi ayıq, nə də yatmış kimi yatmış olan Bayraqdarı get-gedə uzaqlaşan o tukkatuk altında gözəl bir mürgü aləminə apardı...

... böyük bir stadion idi və bütün stadion ayağa qalxıb bağırırdı...

... Əbili qol vurmuşdu...

... bütün stadion – hamısı da qalstuklu, şlyapalı adamlar idi – ayaq üstə qışqırırdı:

– Ey-se-bi-o!..

– Ey-se-bi-o!..

– Ey-se-bi-o!..

... Əbiliyə görə Surxayı da o stadiona buraxmışdılar və Surxay iki əlilə də müstəqil Azərbaycanın üçrəngli bayrağının dəstəyindən tutub, başının üstündə fırlada-fırlada dalğalandırırdı...

... sonra elektrik qatarınının çarxlarının tukkatuku tamam eşidilməz oldu...

## XXI

O axşam Cümü hələ gəlməmişdi və Cümü evə (otağa) gəlməmiş, əvvəlcə həyətdən tırtırın səsi gəlirdi, tırtırın o səsi həyətdə axırıncı dəfə zilə qalxıb, susurdu, bir-iki dəqiqədən – Cümü Yataqxananın beşinci mərtəbəsinə qalxırdı – sonra, hələ otağın qapısı açılmamış, arağın iyi içəri dolurdu və o arağın iyi daha əvvəlkitək Sonanın ürəyini bulandırmırdı, çünki o günə ki, Şuşadan sonra Cümü düşmüşdü – Şuşanın bir nömrəli taksi sürücüsü Qızıl Diş Cümşüd ki, plov yemirdi, bığım yağa batar, indi hər dəfə tırıltısı dünyanın xəcalətini gətirib bu beşinci mərtəbədəki otağa pərçim edən köhnə motorollerin (tırtırın) lafetində Abşeron kəndlərinə yem satan Cümü olmuşdu – o günü, Sona fikrindən keçirirdi ki, Allah ermənidən başqa, heç kimə göstərməsin və Şuşada ildə-ayda, toyda-düyündə bir az təmiz tut arağından başqa heç nə içməyən Cümü, indi gündə nöyüt kimi arağı dümləyib ürəyini o araq stəkanına boşaldırdısa, nə eləmək olardı, Sona fikirləşirdi ki, qoy içsin və Cümünün arağa verdiyi o pula ki, 300 qram ət almaq olardı, o 300 qram ət də heç lazım deyildi.

O axşam Cümü hələ gəlməmişdi, Sona pəncərənin qabağında dayanıb eşiyin qaranlığına baxırdı, Güllü arvad plastmas siniyə (gözəl mis sini Şuşada qalmışdı) düyü töküb (humanitar yardım idi) Cəmiləyə vermişdi ki, arıtlasın və Cəmilə də otaqdakı yeganə çarpayının üstündə oturub, o plastmas sinini də dizlərinin üstünə qoyub haçan qurtaracağını səbrsizliklə gözləyə-gözləyə düyü arıtlayırdı.

...və düyü axırı ki, qurtardı, Cəmilə sinini nənəsinə verdi və otağın küncündə yerdən bir-birinin üstünə yığılmış dəftər-kitabın arasından səhər dərsə aparacağını dartıb çıxartdı və bu vaxt Cəmilənin dəftərinin arasından bir şəkil sürüşüb döşəmədə linoliumun üstünə düşdü.

Bu, bir zənci oğlanın rəngli şəkli idi və o zənci oğlan şəkildən baxa-baxa sidq-ürəkdən gülürdü.

– Bu neqr kimdi az, belə?– Sona dəftərin arasından sürüşüb düşən o şəkilə baxdı və yaxşı ki, elektrik lampasının işığı eləcə zəif idi – Sona qızının bircə anın içində qıpqırmızı qızardığını görmədi.

Cəmilə ağızucu:

– Heç... – dedi və şəkli tələsik dəftərinin arasına qoydu.

Əlbəttə, Buzovna Fəhlə Yataqxanasının beşinci mərtəbəsindəki o mənzildə (otaqda) heç kim bilmədi ki, o şəkildə eləcə gülən o zənci balası Portuqaliya futbolçusu Eysebio idi.

O rəngli fotoşəkli Cəmilə köhnə bir «Oqonyok» jurnalından kəsib götürmüşdü.

Və heç kim orasını da bilmirdi ki, Cəmilə tez-tez o şəkilə baxır və o şəkili öpür.

## XXII

Əhməd Ağayeviçin özü də, ailəsi də Bilgəhdəki bağlarında bircə gün də yaşamamışdılar və altı il idi ki, bu ikimərtəbəli mülkü tikdirib hazır eləmişdi,

Azərbaycanın müxtəlif rayonlarından gətirtdirdiyi cins Quba almalarından, Ordubad əriyindən, Göyçay narından tutmuş Abşeron ənciri, xartutu, muşmulası, iydəsi, innabınacan ağac əkdirib bağ saldırmışdı və hər dəfə yay qurtaranda özü də, arvadı da söz verirdilər ki, gələn yay mütləq Bilgəhə köçəcəklər, amma elə ki, yay gəlib çıxırdı, o söz də yaddan çıxırdı, Əhməd Ağayeviç məzuniyyət götürə bilsəydi, bir yerdə, götürə bilməsəydi, özü Bakıda qalırdı, ailəsi isə ya Antalyada, ya Karlovı-Varıda, ya da başqa bir yerdə – sovet hökumətindən sonra azadlıq idi və kim hara istəyirdi, ora da gedirdi – istirahət edirdilər və illər də beləcə ötüb-gedirdi.

Bilgəhdəki bağ Əhməd Ağayeviçin klassik daşınılmaz əmlakına çevrilmişdi və o əmlakın etibarlı gözətçisi də Vasili Kuzmiç idi.

Həmin gün idarədə iş çox gərgin keçdi (haçan gərgin olmurdu ki?) və Əhməd Ağayeviç işdən sonra bir az yeyib-içib istirahət etmək, həm də Cavanşirin klarnetinə qulaq asmaq üçün dostlarıyla «Şən həyat» restoranına getdi və içkini çox xoşlamasa da, Cavanşir onun şəxsi sifarişi ilə klarnetdə elə bir «Segah» çaldı ki, Əhməd Ağayeviçin heç xəbəri olmadı neçə qədəh konyak içdi.

Cavanşir klarnetin ağzını tavana tutub sidq-ürəkdən «Segah» çalırdı və o «Segah» Əhməd Ağayeviçi «Şən həyat» restoranından çıxarıb haralara apardı?– o yerin adı yox idi, amma görünməz-bilinməz bir uzaqlıqda olan o məkan çox kövrək və çox qəmgin bir yer idi, orda Əhməd Ağayeviç həyatın ötüb-getdiyini və sonun yaxınlaşdığını tükürpəşdirən bir aydınlıqla hiss edirdi, o məkanda bir əlacsızlıq var idi, yaşanmış ömrün və ümumiyyətlə, həyatın, dünyanın mənasızlığı oranın hər tərəfinə hopmuşdu və Əhməd Ağayeviçi «Şən həyat» restoranında nəfəs almağa qoymurdu.

Hamı Əhməd Ağayeviçi sərt, hətta daşürəkli və təhlükəli bir adam kimi tanıyırdı, amma heç kimin xəbəri yox idi ki, axır vaxtlar, hərdən, gecə yuxuya getməzdən əvvəl, bəzən də hansısa bir iclasda, rəsmi konsertdə birdən-birə xəyal Əhməd Ağayeviçi – bu «sərt, daşürəkli və təhlükəli» adamı həmin o naməlum, amma tamam qüssəli məkana aparırdı və Əhməd Ağayeviç o məkanda özünü, elə bil, hava əvəzinə kədər doldurulmuş bir çəkisizlik içində hiss edirdi, həyatın amansız bir sürətlə sona doğru getməsi, 3 ildən, 5 ildən, lap 15 ildən – onda 75-76 yaşı olacaqdı – sonra heçə dönəcəyi, torpaqda çürüyəcəyi onu dəhşətə gətirirdi, pulları da, arvadının çox nadir daş-qaşları da, hətta oğlunun məktəbi bitirəndə aldığı qızıl medalı, qızının bəstələdiyi və iki ilin içində bütün Azərbaycanda məşhur olan mahnıları da tamam mənasız bir şeyə çevrilirdi və yaxşı ki, bu duyğular tez də keçib-gedirdi, yoxsa ki, onlara dözmək mümkün deyildi, amma bu dəfə – «Şən həyat» restoranındakı bu axşam Əhməd Ağayeviçin düşüncələri, hissiyyatı o kədərli məkandan geri qayıda bilmirdi, elə bil, yapışıb orada qalmışdı, qopa bilmirdi və bu azmış kimi, Əhməd Ağayeviç növbəti qədəhi içəndə, mədəsi bu qədər konyaka öyrənmədiyi üçün, az qaldı ürəyi bulansın, onu soyuq tər basdı, ayağa qalxıb tualet bəhanəsi ilə eşiyə çıxdı.

«Şən həyat» restoranı Pirşağıda, dəniz kənarında idi və Əhməd Ağayeviç tualetə yox, sahilə getdi, əyilib dənizin dayaz qum sahilindən bir ovuc durulmuş su götürdü və o suyu sifətinə çırpdı, amma su ılıq olduğu üçün Əhməd Ağayeviçin əhvalına heç bir sərinlik, heç bir təravət gətirmədi, əksinə, ılıq dəniz suyunun damcıları sifətindən axıb boğazından ağ köynəyinin altına süzüldükcə, ürəyi daha artıq sıxılmağa başladı,

elə bil, o adi dəniz suyu da damcı-damcı o kədərli, qəmli-qüssəli, uzaq məkandan (əslində naməkandan!) damırdı.

Klarnet ağzını tavana yox, elə bil, həmin məkandan (naməkandan) düz Əhməd Ağayeviçin üzünə (ürəyinə... içinə...) tuşlayıb deyirdi ki, ay səfeh insan, yox, daha da açıq ünvanlı deyirdi, deyirdi ki, ay səfeh Əhməd Ağayeviç, hər şeyin var, otuz ildi cürbəcür vəzifələrdəsən, pulun var, yaxşı övladların var, nəvən var, ev-eşiyin var, amma nə olsun? bunun mənası nədi? hər şeyin var, amma öz içində, öz ürəyində, heç olmasa, bir kvadratmetrlik balaca adan da yoxdu ki, üstünə çıxıb özünü boğulmaqdan xilas edəsən və Əhməd Ağayeviç hiss etdi ki, bu saat bu aydınlıq gecədə, dənizin kənarında arvad kimi hönkürüb ağlayacaq, tez geri çevrilib iri addımlarla «Şən həyat» restoranına qayıtdı.

Cavanşirin klarneti bu dəfə hansısa bir xalq mahnısı çalırdı və süfrə arxasında oturmuş dostlar ləzzətlə ona qulaq asırdılar, amma Əhməd Ağayeviçin indi, hətta Cavanşirin klarnetinə də qulaq asmağa taqəti yox idi və: «– Gərək gedib bağa baş çəkim...»– bəhanəsi ilə dostlardan ayrıldı və qəribəsi də bu oldu ki, «Şən həyat» restoranından çıxıb maşına minəndə, doğrudan da, sürücüyə dedi:

– Bilgəhə sür!

Sürücü (tatar balası Şövkət):

– Oldu! – dedi və fikirləşdi ki, dünyada kiminsə sürücüsü olmaqdan da əbləh bir iş yoxdu.

O isti iyun günü Şövkətin qızının 10 yaşı tamam olurdu və axşamdan bəri «Şən həyat» restoranının qabağında Əhməd Ağayeviçi gözləyən sürücünün evə gedib qızını hələ yatmamış görmək ümidi tamam boşa çıxdı.

Maşın gün istisindən yumşalıb dalğalanmış əyri-üyrü asfalt yolla «Şən həyat» restoranından uzaqlaşdıqca, elə bil, o «Segah»ın səsi də yavaş-yavaş Əhməd Ağayeviçin qulağından uzaqlaşırdı, arxada qalırdı, hətta Əhməd Ağayeviç fikrindən keçirdi ki, əvvəllər kolxozlara «Şən həyat» adı verirdilər, indi isə restoranlara və gülümsədi də, sonra fikirləşdi ki, bu gecə vaxtı nə var Bilgəhdə, bəlkə geri – Bakıya qayıtsın, amma bu vaxt, elə bil, kimsə qəflətən Vasili Kuzmiçin sifətini Əhməd Ağayeviçin gözlərinin qabağına gətirdi və Əhməd Ağayeviç bu rus kişisinin sifətində heç vaxt görmədiyi bir əzab, iztirab gördü, hiss etdi.

Elə bil, uzaqdan yenə də o «Segah»ın sədaları yavaş-yavaş eşidilməyə başladı və Əhməd Ağayeviç ürəkdən gələn səmimi bir tənə və peşmançılıqla fikirləşdi ki, beş ildən artıqdı bu bədbəxt rus kişisinə həftədə otuz beş, qırx mindən artıq pul vermir. Otuz beş, qırx minə üç kilo ət almaq olardı, vəssalam. Yaxşı, ət yeməsin bu bədbəxt oğlu, nə zirzibil keçir əlinə, onu yesin, bir həftə otuz beş, qırx minə necə yaşamaq, geyinmək, siqaret çəkmək olar? Axı, it deyil, pişik deyil, insandı bu bədbəxt oğlu Vasili Kuzmiç... Günə nə qədər düşür? Beş min... Insanla belə rəftar eləyərlər? Bu adamın, bu bədbəxt oğlu Vasili Kuzmiçin sənin ona verdiyin o puldan başqa bir gəlir yeri yoxdu. Onu o cür ac saxlamağının günahını Allah elə bilirsən, bağışlayacaq sənə? Elə bilirsən, bunun altını çəkməyəcəksən?

Əhməd Ağayeviç Bakıda təzə qəbiristanlıqda (köhnə qəbiristanlığın arxasında) geniş bir sahə almışdı, orada ağac əkdirmişdi, oranı mərmər üzlüklü hasara almışdı və indi, «Şən həyat»dan çıxıb Bilgəhə getdiyi bu dəqiqələrdə həmin qəbiristanlıq sahəsi onun gözlərinin qabağına gəldi və elə bil, gözəgörünməz bir əl Əhməd Ağayeviçin boğazından tutub onu boğmağa başladı: ay səfeh oğlu, səfeh, ora nə

qədər bərbəzək vurdurursan, vurdur, özün qara torpağın içinə girəcəksən... nə aparacaqsan o qara torpağa? pul aparacaqsan özünlə, qızıl aparacaqsan?..

Və bu vaxt, elə bil, pencəyinin sol tərəfdən iç cibi öz-özünə tərpənməyə başladı, Əhməd Ağayeviçin döşünü qapı kimi tıqqıldadıb kişinin ürəyinə: «– Aç qapını!»– dedi...

Əhməd Ağayeviçin pencəyinin sol cibində səliqə ilə ağ kağıza bükülmüş on min dollar var idi. Bu pulu bu gün gətirib onun mizinin üstünə qoymuşdular və hələ evə aparmamışdı, dollar dəsti eləcə pencəyinin cibində idi. Bu on min dollara, əslində, Əhməd Ağayeviçin heç bir ehtiyacı yox idi, amma, bax, bu gecə vaxtı həmin dəsti cibindən çıxarıb Vasili Kuzmiçə bağışlasaydı... nə olardı? o bədbəxtin başına hava gələrdi? dəli olardı? hər halda o bədbəxtin bütün həyatı dəyişərdi, yəni haçanacansa (bəlkə də elə ömrünün axırınacan!) insan kimi yaşaya bilərdi...

– O nəydi elə?– Bunu Əhməd Ağayeviç soruşdu.

Sürücü maşının qabağından qaçıb qaranlığa girən heyvanın ardınca baxıb:

– Çaqqalıydı... – dedi.

Əhməd Ağayeviç istədi: «– Dünya çaqqallar dünyasıdı!»– desin və bu sözlərlə özü özündən bir az intiqam alsın, amma özünü saxladı və fikirləşdi ki, bilirsən, nə var, özünü ələ al, bəbə deyilsən... Vasili Kuzmiç kimsəsiz yazıq bir adamdı, on min dolları o nə edəcək? bundan sonra evlənən deyil ki, özünə təzə həyat qursun, ya maşın sürən deyil ki, gedib bir maşın alsın, nə edəcək? Bilgəhin bütün qarovulçuları yığışacaq onun başına, bir ayın içində on min dolları içəcəklər, çıxıb gedəcək. Kim bilir, bir də gördün o pulun üstündə cinayət də törətdilər – ola bilən işdi... Yox, on min yox, mincə dollar Vasili Kuzmiçin dədə-babasına da bəs idi, gedib özünə bir kostyum alar, ayaqqabı alar – Allah bilir dəyişəyi nə gündədi? – özünə dəyişək alar, ehtiyat azuqə yığar və bütün qışı xan kimi dolanar...

Həmişəki kimi, maşının arxa oturacağında, sağ tərəfdə oturmuş Əhməd Ağayeviç dollar dəstini pencəyinin cibindən çıxardı və bir balaca aşağı əyilərək kağızı xısın-xısın, səssiz açıb qaranlıqda on dənə yüzlük saydı, qatlayıb şalvarının sol cibinə basdı ki, sağ cibindəki Azərbaycan manatlarına qarışmasın, dəsti isə yenidən kağıza büküb əvvəlki yerinə – pencəyinin iç cibinə qoydu.

10-15 dəqiqədən sonra gözlərini bu min dollara bərəldəcək Vasili Kuzmiçin sevinci, elə bil, indidən Əhməd Ağayeviçə sirayət etdi, Cavanşirin o «Segah»ını eşidəndən bəri birinci dəfə sinə-dolusu, rahat nəfəs aldı. Əhməd Ağayeviç, əslində, bütün ömrü boyu başqalarına yaxşılıq etmək istəyib, alınmayıbsa – bu, onun təqsiri deyil, dünya belə dünyadı...

Maşın dənizkənarından ayrılıb asfalt yoxuşla Bilgəhə girdi və gecə saat 11 radələri olsa da, kənd camaatı artıq yatmışdı, bağ sahibləri isə hələ Bakıdan köçüb gəlməmişdilər, asfalt boyu adda-budda taxta dirəklərin başındakı işıqlar, bir də boş bağlardakı qarovulçu köşklərinin təkəm-seyrək lampaları yanırdı və Əhməd Ağayeviç daş barıların üstündən görünən o lampalara baxa-baxa fikirləşdi ki, Vasili Kuzmiç gedib özünə nə kastyum, ayaqqabı alacaq, nə də qış ehtiyatı görəcək, üç-dörd özü kimi rusla yığışıb qarmon çala-çala ikicə günə o min dolların axırına çıxacaqlar və maşın bağın darvazası qarşısında dayananda Əhməd Ağayeviç şalvar cibindəki min dolların arasından bir yüzlük çıxarıb pencəyinin yan cibinə qoydu.

– Qoy, yığsın başına rusları, bir yaxşı məclis düzəltsin...

Əhməd Ağayeviçin nəsə pıçıldadığını eşidən sürücü:

– Nəsə deyirsiz, Əhməd Ağayeviç?– soruşdu.
Əhməd Ağayeviç:
– Yox, – dedi. – Düş, qapını aç.
Və Əhməd Ağayeviç ayağını darvazadan içəri basan kimi, gecənin bu çağında bura gəlməyinə peşman oldu. Vasili Kuzmiç darvazanın qabağındakı meydançada elektrik peçini yandırıb üstündə it üçün sür-sümük bişirirdi və o böyük və köhnə qazandan elə ağır, iylənmiş iy gəlirdi ki, konyakın narahatlığı hələ də mədəsində qalmış Əhməd Ağayeviçin az qaldı əməlli-başlı ürəyi bulansın, hirslə:
– Sluşi, – dedi, – bu gecə vaxtı, bu nədi belə?
Vasili Kuzmiç indicə əyninə geydiyi şalvarın qayışını bağlaya-bağlaya:
– Zdrastvuyte, xozyain. – dedi. – Itin xorayini indidan bişiriram da... Zavtra utrom soyusun, verim ona...
Əhməd Ağayeviç bütün bağı bürümüş bu iyə daha tab gətirə bilmirdi, ona görə də əlini tələsik şalvarının sağ cibinə soxub bir əlli min manatlıq çıxardı və Vasili Kuzmiçə uzatdı:
– Na, sluşi!..
Vasili Kuzmiç əvvəlcə barmağını bığına çəkdi, sonra o gözlənilməz və ay işığında çox gözəl görünən yaşıl əlliminliyi Əhməd Ağayeviçdən alıb:
– Spasibo, xozyain! – dedi.
Əhməd Ağayeviç eləcə tələsik də maşına əyləşdi və maşın darvazanın qabağında dövrə vurub geri qayıtdı.
Gecə vaxtı halını xarab edən o murdar iydən uzaqlaşdıqca, Əhməd Ağayeviç yavaş-yavaş özünə gələrək arxa oturacaqda yerini rahatlayıb:
– Bəsidi... – pıçıldadı. – Mən qarovulçu tayfasını yaxşı tanıyıram, bunları qudurtmaq olmaz!..
Sürücü (tatar balası Şövkət) bayaqdan ürəyində oxuduğu qəmli bir tatar mahnısını kəsib, başını geri çevirdi və:
– Mənləsiz, Əhməd Ağayeviç? – soruşdu.
Əhməd Ağayeviç:
– Yox. Sənlə deyiləm... – dedi. – Sür!.. – Və pencəyinin yan cibinə qoyduğu o yüzlük dolları da, şalvarının sol cibinə qoyduğu o doqquz yüzü də çıxarıb bir yerə yığdı, sonra onları pencəyinin döş cibindəki doqquz minin yanına qoydu – evə çatanda onları da bir yerə yığar...
... klarnetçalan Cavanşir isə elə bu vaxtlar klarneti söküb qutusuna yığırdı ki, nəhayət «Şən həyat»dan çıxıb evə getsin...
... amma sabah axşam yenə bura gəlib gecəyəcən klarnet çalmalı idi...

## XXIII

Eysebio (Əbülfət!.. Əbülfət!.. Əbülfət!..) Bakıdan gəlib Yataqxananın o həyətində futbol oynayanda, Cəmiləyə elə gəlirdi ki, həyətin yuxarı başındakı o üç gözəl iydə ağacı da Eysebioya (Əbülfətə!.. Əbülfətə!.. Əbülfətə!..) baxırlar və onlar da Eysebionu (Əbülfəti!.. Əbülfəti!.. Əbülfəti!..) sevirlər...

## XXIV

Surxay Gözlə-Gəlirəm Məmməd kişinin dəfnindən sonra o kiçik qəbiristanlıqdan qayıdanda Kolxoz kişinin qəbrinin yanında ayaq saxladı və Kolxoz kişinin kubik başdaşına baxa-baxa:

– Nətərsən, ay ağsaqqal?– soruşdu və elə bil, hiss etdi ki, o «ağsaqqal» sözü qəbrin içində də Kolxoz kişinin xoşuna gəldi.

## XXV

Gülzar arvad otağın açıq pəncərəsindən uzaqlara baxa-baxa sızıldayırdı və elə sızıldaya-sızıldaya da, elə bil, özü özündən soruşdu:

– Hardadı, görən, indi o profesır?

Səyyarə:

– Hankı professor, ay nənə?– soruşdu.

– O bizim evdə qalan də...

Səyyarə təəccüblə qaynanasına baxdı:

– Bizim evdə qalan?

– Hə də... Onda sən hələ bizə gəlməmişdin... Yayda Bakıdan gəlmişdi arvad-uşağıynan. Ikinci mərtəbəni onlara kirayə vermişdik... Deyirdi ki, Şuşa Isveçrədir... Deyirdi ki, gərək Şuşanın qədrin biləsiz...

Səyyarə:

– Sən də, ay nənə... – dedi. – Indi neynirsən o kişini?

Gülzar arvad:

– Yapışajam yaxasınnan, – dedi. – Deyəjəm, yaxşı, biz bilmədik Şuşanın qədrin, bə, sən niyə bilmədin Şuşanın qədrin, a köpəy oğlu?! Hıy?!

Səyyarə, sulanmış gözləri də səsi, nəfəsi kimi sızıldayan qaynanasının hərdən beləcə yaddaşı ilə qabaq-qabağa durmağına öyrənmişdi:

– Eh, ay nənə... Indi hərə öz hayındadı... – Sonra göz görəti Səyyarənin gözlərinə işıq gəldi (Əbilinin gələcək futbol məşhurluğunu xatırlayanda həmişə də belə olurdu, arvadın gözlərinə beləcə işıq gəlirdi). – Qoy bir, Əbili başlasın oynamağa, nə var ki, səni aparajam Isveçrəyə!..

Səyyarənin bu sözləri arvada elə təsir elədi ki, az qaldı, hansısa professorun əvəzinə gəlininin yaxasından yapışsın, gəlinini söyüb biabır eləsin:

– Isveçrəni neynirəm, az, mən? – Sonra qışqırdı: – Şuşanı ver mənə!.. Şuşanı!..

Elə bil, Şuşanı ermənilər yox, Səyyarə tutub saxlamışdı və heç kimi də ora buraxmırdı...

## XXVI

O dəhşətli, o ağlasığmaz, inanılmaz hadisə iyunun 1-də baş verdi – birdən-birə, qəflətən baş verdi və o xəbərin həqiqiliyinə inanmaq mümkün deyildi.

Buzovna Fəhlə Yataqxanasının həyətindən cənazəsi qaldırılan 17-ci şuşalı, belə bir aqibəti sidq-ürəkdən arzulayan Cümü (Qızıl Diş Cümşüd) yox, Eysebio oldu.

O dəhşətli hadisə təkcə yataqxana camaatını, orda-burda məskunlaşmış və o tükqabardan xəbəri eşidən başqa şuşalıları yox, təkcə Yataqxananın qonşuluğundakı Buzovna sakinlərini, Eysebionun futbolçu yoldaşlarını, məşqçilərini də yox, elə bil, bu həyəti, bu həyətdəki o beşmərtəbəli binanı, o iydə ağaclarını, o qoca zeytunu, o kranı, elə o qazanxananın özünü də canlı bir varlıq kimi sarsıtmışdı, elə bil, Fəhlə

Yataqxanasının o həyəti birdən-birə titrəyişlərinin arası kəsilməyən gözəgörünməz bir zəlzələyə düşmüşdü – o həyət də bu bəd xəbərdən uçunurdu.

Mayın 28-i – bayram günü keçdi, 29-u, 30-u, 31-i də keçdi, Surxay Bayraqdarın o üçrəngli bayrağı Yataqxananın həyətindəki qazanxananın damında eləcə dalğalandı, iyunun 1-də Surxay saat 10 radələrində yenə tut ağacı ilə qazanxananın damına dırmaşıb bayrağı çıxardı və aşağı düşürüb, əvvəlcə evə aparmaq istədi, sonra fikirləşdi ki, günü günə satmasın, bayrağın təmirini elə indidən başlamaq lazımdır və ucluqdan başladı – dəmir ucluğu dartıb çıxartdı, bayrağı qəzetə, sonra da səliqə ilə sellofana büküb, qazanxananın divarının dibində yerə uzatdı, ucluğu təzədən nikel vurdurmaq üçün, avtobusa minib Mərdəkana getdi – qalayçı Mərdəkanda idi.

Və o dəhşətli hadisə də həmin iyunun 1-də, günorta saat 12 radələrində baş verdi.

Həmin gün Əbülfət məşq bazasında səhər idmanından sonra elektrik qatarına minib Buzovnaya gəldi və o saat onun başına toplanmış yeniyetmələr Əbülfətə heç otaqlarına qalxmağa da imkan vermədilər (sonralar Kamança Tanrıverdi deyirdi: «O yazığı əcəl girləyirmiş...»), həyətdə yenə gözəl bir futbol başladı.

Cəmilə beşinci mərtəbədəki pəncərədən həyətə baxırdı.

Əbülfətə elə gəlirdi ki, hansı simsiz teleqrafsa, onun gəlməyini o saat Cəmiləyə xəbər verir, çünki elə həyətə girəndə – hələ futbol hay-küyü (və sevinci) başlamamış – görürdü ki, Cəmilə o pəncərədən baxır və yüz faiz – buna heç bir şəkk-şübhə yox idi – Əbülfətin yolunu gözləyir.

Cəmilənin o pəncərədən eləcə onun yolunu gözləməyi Əbülfət üçün futbol oynamağında məşqlərdən, səhər idmanlarından, baxdığı futbol videolarından qat-qat artıq bir şey olmuşdu – Cəmilənin onun yolunu gözləməsi Əbülfətin içində elə bir hissiyyat yaratmışdı ki, onu futbol meydanında eləcə oynadan, hər oyunda gözəl qollar vurduran da, bax, həmin o hissiyyat idi.

O gün də – 2003-cü il iyunun 1-i – o cür adi (və qeyri-adi) gözəl bir gün idi, həyətdə futbol başladı, adamlar yavaş-yavaş yığışdı və zərbələrin birindən sonra top qazanxananın damına düşdü. Əbülfət özü qaçıb bir göz qırpımında tut ağacı ilə yuxarı dırmaşdı – elə bil, o baxışların altında hər şeyi özü eləmək istəyirdi – qazanxananın damına atıldı və diyirlənib damın küncündə dayanmış topu götürmək istəyəndə ayağının altındakı daş qopdu və Əbülfət o daşla bir yerdə qazanxananın damından yerə yıxıldı.

Əbülfət uzuqoylu o bayrağın üstünə düşdü.

Bayrağın dəstəyinin ucundakı zubul Əbülfətin sinəsini deşib düz ürəyinə girmişdi...

## XXVII

Eysebionun ölüm xəbəri gəlib Bolelşik Bufetçi Ibadullaya çatanda, bu nəhəng kişi kövrəlib az qaldı, uşaq kimi ağlasın. Həmişə əlində olan böyük əl-üz dəsmalı ilə peysərinin, sinəsinin tərini silə-silə:

– Alə, – dedi. – Allah, elə bil, seçib aparır bir-bir!.. Alə, bilirsən necə futbolist olaceydi o bədbəxt?! – Sonra şalvarının dal cibinin düyməsini açdı və həmişə xüsusi xərclər üçün ehtiyatda saxladığı əzik-üzük və tərdən nəm çəkmiş zərfi çıxarıb içindəki dörd əllilik dollardan birini çıxardaraq oğlu Ağasəlimə uzatdı. – Alaginən. Get, bir dənə toğlu alginən, apar ver onlara, qoy Eysebio üçün ehsan versinlər...

Ağasəlim əyninə ağ xalat geyib bufetdə müştəriləri yola salmaqda atasına kömək edirdi və indi, bu istidə təzədən paltarını dəyişməliydi, Zabratla Maştağanın arasındakı qoyun bazarına gedib heyvan almalıydı, sonra da o heyvanı Buzovnadakı Fəhlə Yataqxanasına aparmalıydı...

Bolelşik Bufetçi Ibadulla Ağasəlimin narazı sifətinə baxıb təkrar etdi:

– Get, oğlum, get... Qoy, bir savabı da sənə düşsün...

Və Ağasəlim əllilik dolları götürüb bufetdən çıxanda Bolelşik Bufetçi Ibadulla oğlunun ardınca qışqırdı:

– Alə, alver elə, qoyun böyük olsun!..

Ağasəlim yenə narazı-narazı atasının puçur-puçur tər süzülən sifətinə baxdı, yəni ki, mən nə vaxtdan bəri pulu göyə sovuran olmuşam?

## XXVIII

Əbülfəti iyunun 2-də dəfn etdilər.

Əbülfətin cənazəsini otaqdan götürüb həyətə aparanda, elə bil, dibinə qum tökmüsən, torba kimi sallanan ətsiz döşlərinin üstündən açıq sinəsini, üzünü cırmaq-cırmaq etmiş Səyyarə, Yataqxananın dəhlizində onu tutmuş arvadların əlindən buraxılıb Surxayın üstünə cummaq istəyirdi və batmış səsi ilə qışqırırdı:

– Sən girməliydin o bayrağınla bir yerdə qara qəbirə, sən!..

Arvadlar Səyyarəni güclə saxlayırdılar.

– Səni görüm bayrağınla bir yerdə gorbagor olasan, Surxay!.. Sənə gəldiyim gün başıma bir qara daş düşəydi mənim!.. Gorbagor olasan səni, Surxay, bayrağınla bir yerdə!..

## XXIX

Molla Fərzəli (Fərzəli müəllim) həyətdə «Fatihə» verdi və Buzovna Fəhlə Yataqxanasının sakinləri, bu acı xəbəri eşidib gəlmiş başqa Şuşa qaçqınları, komanda yoldaşları, məşqçilər Əbülfətin cənazəsini qaldırıb Şuşalılar qəbiristanlığına tərəf üz tutdu.

Cəmilə uçuna-uçuna pəncərənin qabağında dayanıb həyətə baxırdı və uçuna-uçuna da pıçıldayırdı:

– Əbülfət... Əbülfət... Əbülfət...

Qəbiristanlığa ancaq kişilər gedirdi. Səhərin gözü açılandan Səyyarənin yanında olan Sona ilə Güllü arvad, heç olmasa, bir stəkan çay içməkdən ötrü otağa girdi və Sona qızının uçuna-uçuna pəncərənin qabağında dayanıb həyətə baxa-baxa yazıq Əbülfətin adını pıçıldadığını görüb əməlli-başlı özünü itirdi, səhərdən bəri Səyyarənin dərdinə ağlamaqdan qızarmış gözləri bərəldi:

– Az, Cəmilə?..

Cəmilənin, elə bil, nə anası ilə nənəsinin otağa girməyindən xəbəri var idi, nə bir söz eşidirdi, elə o cür uçuna-uçuna pıçıldayırdı:

– Əbülfət... Əbülfət... Əbülfət...

Əlbəttə, Əbülfətin ölümü hamı kimi, Sonanın da ürəyini yandırırdı, amma qızını belə bir vəziyyətdə görməyi bu cavan qadını, həqiqətən, çaşdırmışdı:

– Bu nədi az, nağayrırsan?

Cəmilə pəncərənin qabağından çönüb, az qala, hədəqəsindən çıxmaq istəyən dəli gözləri ilə onlara baxdı və bərkdən:

– Əbülfət!.. – deyə çığırıb özündən getdi.

Güllü arvad tələsik Sonaya:

– Az, qapını bağla, – dedi. – Camaat eşidər!..

## XXX

Əbülfətin dörd nəfər komanda yoldaşı ağlaya-ağlaya mafanı qaldıranda və kişilər onların ardınca Şuşalılar qəbiristanlığına tərəf üz tutub həyətdən çıxanda Gülzar arvad Yataqxana blokunun qabağında iki əli ilə arıq baldırlarına vura-vura nəvəsinin dalınca qışqırırdı:

– Qız görməyən balam, hey!..

## XXXI

Həmin gün axşam Molla Fərzəli (Fərzəli müəllim) «Fatihə» oxuyub qurtarandan sonra, bozarıb naməlum rəngə düşmüş nimdaş pencəyin, üst-üstə geydiyi iki köynəyin içində cılız vücudundan bir üşütmə keçdi və Molla Fərzəli (Fərzəli müəllim) fikirləşdi ki, buranın küləyində də bir qəbir soyuqluğu var.

Buzovna tərəflərdə xəzri ilə gilavar arasında hərdən dağ yeli deyilən külək əsirdi və Şamaxı dağlarından gələn bu külək qəfil başladığı kimi, qəfil də kəsirdi və həmin günün ikinci yarısında da birdən-birə dağ yeli əsməyə başladı.

Fəhlə Yataqxanasının həyətində, krantın arxa tərəfində, həmin üç qoca iydə ağacının altında Yataqxana camaatı, yaxın kəndlərdə adda-budda məskunlaşmış və Bayraqdarın oğlunun ölümündən xəbər tutmuş başqa şuşalı kişilər Əbülfətin yas məclisinə yığılmışdı.

Dərslər bitmişdi və keçən əyyamların (gözəl əyyamların) keçmiş hörmətli musiqi müəllimi kimi Kamança Tanrıverdi yaxınlıqdakı məktəbin müdirindən xahiş etmişdi və müdir də – sağ olsun! – qaçqınların xahişini yerə salmayıb yasa müəllimlər otağından, ayrı-ayrı siniflərdən altı uzun miz göndərmişdi. O mizləri elə həyətdəcə düzüb ehsan süfrəsi açmışdılar və Kamança Tanrıverdiylə Cümü o mizlərdən birinin arxasında yanaşı oturmuşdu.

Əbülfət Buzovna Fəhlə Yataqxanasında yaşayan şuşalılar arasında haqq dünyasına köçən on yeddinci adam idi və bu on yeddi adamın, azı, onunun «Fatihə»sini Molla Fərzəli (Fərzəli müəllim) vermişdi və əgər on beş il bundan əvvəl Şuşada Molla Fərzəliyə (Fərzəli müəllimə) desəydilər ki, bir azdan sən molla olacaqsan və Abşeronun Buzovna deyilən bir kəndində milçək kimi qırılan yürdsuz-yuvasız şuşalıları bir-bir haqq dünyasına yola salacaqsan, qırx ildən artıq məktəbdə tarixdən dərs deyən bu müəllimin saçları qabarıb papağını deşərdi.

Molla Fərzəli (Fərzəli müəllim) Fəhlə Yataqxanasının, bax, bu həyətində «Fatihə»lərini verdiyi o rəhmətlikləri bir-bir gözlərinin qabağına gətirdi və yanında oturmuş, bütün günü susub bir kəlmə də söz deməyən Surxayın quru heyva kimi

sıxılıb büzüşmüş sifətinə baxdı və birdən-birə, elə bil, kimsə tamam açıq-aşkar kişinin qulağına pıçıldadı ki, Molla Fərzəli (Fərzəli müəllim), burada növbəti ölən şuşalı – 18-ci şuşalı, bax, bu bədbəxt Bayraqdar olacaq.

Bu qəfil hissiyyatdan Molla Fərzəlinin (Fərzəli müəllimin) bütün vücudundan növbəti bir üşütmə keçdi və bu hissiyyatı özündən uzaqlaşdırmaq üçün, yerində vurnuxub üzünü camaata qulluq eləyən cavanlara tutdu:

– Yeməyi gətirin, camaat «Bismillah» eləsin...

Məclis əhlinə Əbülfətin komanda yoldaşları xidmət edirdi və bu cavan oğlanlar elə cidd-cəhdlə və sidq-ürəkdən xidmət edirdilər ki, bu dəqiqələrdə o rəhmətlik oğlanın ruhu onları görürdüsə, şübhəsiz ki, qürurlanırdı.

Səhərdən bəri susub heç nə danışmayan Cümü (Qızıl Diş Cümşüd) birdən dedi:

– O uşaq, bədbəxt, gərək belə ucuz ölümün qurbanı olmayaydı...

Kamança Tanrıverdi:

– Qağa, – dedi. – Ölümün ucuzu, bahalısı olur?

Cümü filtrsiz siqaret çəkməkdən iki barmağının arası sapsarı saralmış əlini neçə gündən bəri qırxmadığı sifətində gəzdirə-gəzdirə:

– Nə bilim... – dedi.

Plovun düyüsünü gətirdilər, sonra qarasını gətirib mizə düzdülər və Kamança Tanrıverdiylə Cümünün qabağına qoyulan qara boşqabında şabalıdın, albuxaranın, yağlı ət tikələrinin arasında sümüyü qırılmamış bütöv bir maça da var idi və o bütöv maça ətinə baxanda, qəribədir, birdən-birə, bir-birindən xəbərsiz, ikisinin də – Cümünün də, Kamança Tanrıverdinin də – yadına Şuşa düşdü. Niyə belə oldu? Bunun səbəbini yəqin nə Kamança Tanrıverdi bilirdi, nə də Cümü, amma olanı bu idi ki, birdən-birə, həyatlarının indi əlçatmaz, ünyetməz bir uzaqlığında qalmış məqamlarında Şuşa bulaqlarının başında – Isa bulağında, Turşsuda, Səkili bulaqda, Daşaltında qurduqları, yeyib-içdikləri məclislərin ab-havası onların ikisinin də içindən ötüb keçdi.

Kamança Tanrıverdi başı ilə qara boşqabına işarə edib və açıq-aşkar o bütöv maçanı nəzərdə tutaraq Cümüyə:

– Qaradan götür... – dedi.

Cümü də elə o bütöv maçanı nəzərdə tutaraq:

– Yox, əvvəl sən götür, sonra... – dedi.

Kamança Tanrıverdi:

– Ə, mən sənnən böyüyəm, götür... – dedi.

Və bu vaxt onlarla üzbəüz, amma bir az kənarda – mizin küncündə oturmuş rusa oxşayan bir nəfər (Vasili Kuzmiç) qaşığı uzadıb o bütöv maçanı götürdü və ədəb-ərkan ilə öz qabağındakı plovla dolu boşqaba qoydu.

Kamança Tanrıverdi bir az pörtüb yavaşdan:

– Ə, bu kimdi belə?– soruşdu.

Cümü:

– Hər kimdi... – dedi. – Halalı olsun...

Vasili Kuzmiç isə o maçanın əti ilə plovun düyüsünü ləzzətlə yeyə-yeyə bir daha əmin olurdu ki, dünyada azərbaycanlılardan dadlı xörək bişirən millət yoxdu və həmin anlarda Vasili Kuzmiç fəxr eləyirdi ki, o da bu gözəl azərbaycanlılar kimi müsəlmandı...

Və elə bu vaxt heç kimin gözləmədiyi bir hadisə baş verdi.

Bayraqdar Surxay birdən-birə yerindən qalxdı və iti addımlarla camaatın arasından keçib uzaqlaşdı.

Məclisdəkilərin bir qismi təəccüblə onun ardınca baxdı, çünki Bayraqdar həyətin aşağı başındakı tualetə, ya Yataqxana blokunun qapısına tərəf yox, qazanxanaya tərəf getdi və çox çəkmədi ki, əlində tutduğu bayraqla geri qayıtdı və bayrağı məclisin qənşərindəki iydə ağacının budaqlarının arasından uzatdı.

Sonra Surxay keçib Molla Fərzəlinin (Fərzəli müəllimin) yanında bayaqkı yerində oturdu və o dəm Surxay, elə bil, başqa bir dünyadan zühur etmiş səssiz-səmirsiz bir məxluq, çəkisiz kölgə kimi bir şey idi.

Dağ yeli qoca iydənin budaqları arasında yüngülcə səs sala-sala bayrağı yellədirdi.

Məclis əhlinin boğazından tikə keçmirdi.

Bu an, gah Molla Fərzəlinin (Fərzəli müəllimin) yanında oturmuş Surxaya, gah da dağ yelinin eləcə səslə-küylə yellətdiyi o bayrağa baxan Kamança Tanrıverdinin ürəyinə, elə bil, iynə sancdılar və Kamança Tanrıverdiyə elə gəldi ki, indicə Ustad Məşədi Müzəffər Ağanın kamançasının simləri – dörd simin dördü də birdən qırıldı və o kamançanın xərəyi bir də heç vaxt sim saxlaya bilməyəcək.

Cümü, elə bil, öz-özünə pıçıldadı:

– O zubulu damda mən tapıb verdim, o bədbəxt də vurdu...

Kamança Tanrıverdi:

– O vurmayıb, əcəl vurub, – dedi.

Təkcə Vasili Kuzmiç öz taleyindən razı halda həmin qoyun maçasının ətini ləzzətlə yeyib qurtarmaq üzrə idi və onun dünyanın hər üzünü görmüş göy gözləri indi də qara boşqabında təzə bir ət tikəsi axtarırdı...

*12 – 17 iyun 2004.*
*Moskva – Bakı.*

# KİNOPOVESTLƏR





## PROLOQ

*Gecə qaranlıq gecə idi, nə ay işığı vardı, nə də ulduz işıldayırdı və qaranlıq elə bil bu saat təkcə bu gecənin qaranlığı deyildi, bütün dünyanın qaranlığı idi; elə bil daha heç vaxt gün çıxmayacaqdı və heç vaxt da işıq deyilən bir şey görünməyəcəkdi.*

*Belə bir intəhasız qaranlıq gecə xofu əmələ gətirmişdi və bu xof elə bil ki, rayonun kimsəsiz küçələrinə, birmərtəbəli, ikimərtəbəli binaların divarlarına, darvazalara, zülmət içində əcaib bir görkəm almış çılpaq ağaclara hopmuşdu; ağaclar elə bil bu dünyanın ağacları deyildi, başqa bir aləmin ağacları idi və pisi bu idi ki, hər tərəfi bürümüş bu gecə xofu yaş idi, sulu idi – sulu qar yağırdı; küçələr başdan-başa suyun içindəydi; evlərin pəncərə şüşəsindən, qapı-bacadan su süzülürdü.*

*Sulu qarın şırıltısı elə bil ki, həmin qaranlıq qış gecəsinin canına hopmuş xofun səsi idi.*

*Və küçədə yavaş-yavaş boğuq addım səsləri eşidildi, sonra qara paltosunun boynunu qaldırıb şlyapasını gözünün üstünə kimi çəkmiş bir kişi göründü.*

*Kişi addımladıqca onun addım səsləri bomboş küçədə əks-səda verirdi.*

*O, əllərini paltosunun ciblərinə salıb asta addımlarla irəliləyirdi; hərdən ayağı səkidəki sucuğa düşürdü, palçığa, zığa girirdi və bu addımlardan da, onun görkəmindən də belə məlum olurdu ki, bu saat kişinin fikri bu yerlərdən çox-çox uzaqdadı.*

*Sulu qar elə bil vedrədən tökülürdü, amma həmin qaranlıq gecənin yeganə qonağı bunu heç vecinə almırdı. Külək hərdən qarı onun lap üzünə çırpırdı və o, su damcıları sifətindən axıb tökülənəcən gözlərini açmayıb asta-asta addımlamağında davam edirdi.*

*Birdən nə isə küt bir səs eşidildi və kişi yerində donub qaldı. Onun gözlərinin hədəqəsi birdən-birə genişləndi və bu gözlərdə birdən-birə də bir dəhşət əmələ gədi. Sonra kişi bir neçə an yerində səndələyib heç əllərini də cibindən çıxarmağa macal tapmadı və üzüstə səkiyə sərildi.*

*Onun kürəyinin sol tərəfində, paltosunun üstündə yekə bıçaq dəstəyi, həmin qaranlıq qış gecəsində birdən-birə işıldadı.*

*Dəstəyin altından axan qan, suya qarışıb səki ilə axdı.*

## I

Ağaclar, kollar, bütün yer qarın içində idi; göy də ağappaq idi və hər tərəfi bürümüş bu qar ağlığında bir təmizlik, şəffaflıq var idi.

Ağacların budaqlarından lopa-lopa qar sallanmışdı, yerin üzü isə tamam hamar idi, heç bir ayaq izi, heç bir ləpir yox idi və belə görünürdü ki, bu yerlərdə qar lap təzəcə dayanmışdı.

Əvvəlcə qarın xırıltısı eşidildi, sonra meşədən bir cüyür çıxıb açıqlıqda dayandı, bir müddət qulaqlarını şəkləyib o tərəf-bu tərəfə baxdı. Cüyürün ağzından, burnunun pərələrindən buğ çıxırdı. Ayaqları qara bata-bata bir neçə addım da irəlilədi və yenə də qulaqlarını şəkləyib o tərəf-bu tərəfə baxdı.

Cüyürün ayaqları altında qalan qarın xırtıltısı bütün bu tərəflərə çökmüş səssizlik içində çox aydın eşidilirdi və bu xırtıltı kəsiləndən sonra yenə də hər tərəfə sükut çökdü; elə bil ki, həmişə belə olmuşdu və həmişə də belə olacaqdı; təbiət həmişə bu cür tərtəmiz, pak, şəffaf olacaqdı və elə bil ki, bütün yer üzündə təkcə cüyür ayağı altında qalan qar xırtıltısı bu yerlərin səssizliyini poza bilərmiş.

Və həmin vaxt uzaqdan gələn qatarın səsi eşidildi. Cüyür də başını qaldırıb uzaqda görünən parovozun tüstüsünə baxdı. Parovozun tüstüsü hər tərəfi bürümüş bu ağlıqda özündən sonra qapqara zolaq buraxa-buraxa irəliləyirdi. Cüyür yenə başını aşağı saldı; belə məlum olurdu ki, parovozun səsi də, görkəmi də onu qorxurtmurdu; elə bil bilirdi ki, parovoz da, qatarlar da heç vaxt yolundan çıxmayacaqdı və onu qabağına qatıb bağrı yarılanacan qovmayacaqdı.

Qatar bu yerlərə uyuşmayan bir sürətlə gəlib-keçdi və parovoz elə bil ki, bayaqkı səssizlikdən intiqam alırmış kimi, birdən-birə fit verdi. Bu parovoz fiti hər tərəfi lərzəyə gətirdi və cüyür də bu eybəcər səsdən ürkdü, ayaqları qara bata-bata qaçıb meşədə gözdən itdi.

Vaqonun pəncərəsi ağzında dayanıb bayıra baxan səkkiz yaşlı qəşəng bir qız bərkdən qışqırdı:

– Ceyran!.. Ceyran!..

Saçına bağlanmış ağ bantları özündən böyük olan bu qəşəng qız qəfil ceyran sevincindən geniş açılmış gözlərini pəncərədən çəkib anasına baxdı:

– Ceyran idi e, mama, ceyran idi! Elə gözəl idi ki! Dayanmışdı, sonra qaçdı...

Anası gözlərini qarşısında tutduğu jurnaldan çəkməyib:

– Yaxşı, yaxşı... – dedi.

Qız başa düşdü ki, anası yenə inanmır ona və belə bir insafsızlıqdan dodağı qaçdı:

– Inanmırsan? – dedi. – Doğru deyirəm...

Anası bu dəfə gözlərini jurnaldan ayırıb təkrar etdi:

– Yaxşı! – Sonra yenə gözlərini jurnala dikdi.

Qız bircə dəqiqənin içində bikeflədi və dünyanın belə bir insafsızlığı onun gözlərindəki parıltını söndürdü.

Yumşaq kupedə dörd nəfər yol gedirdi – bizim bu balaca qız, anası, qəzet oxuyan yaşlı bir kişi və həmin yaşlı kişi ilə üzbəüz oturan cavan bir oğlan.

Cavan oğlan soruşdu:

– Üşüyürdü ceyran?

Qız əmiyə baxdı və başa düşdü ki, bu cavan əmi ona inanır, inanır ki, indicə doğruçu ceyran görüb.

– Ağzından, burnundan buğ çıxırdı, – dedi.

Cavan oğlan gülümsədi. Onun qəribə gülümsəməyi vardı – nazik dodaqları qaçırdı, ağappaq dişləri ağarırdı və gözlərində də bir təmizlik parlayırdı – bu təmizlikdə həmişə bir yaxınlıq, doğmalıq hiss edirdin.

Qızın anası yenə də gözlərini jurnaldan çəkib, əvvəlcə bu sadəlövh cavan oğlana baxdı, sonra qızına və başını buladı, yəni ki, dünyada əcəb avam adamlar var.

Qız yenə də bikeflədi və pəncərənin yanından aralanıb anası ilə üzbəüz oturdu.

Parovoz hər tərəfi bürümüş qarın içi ilə uzun qatarı ardınca çək ki, çəkirdi.

Qız anasına dedi:

– Şaşki oynayaq, mama?

Qızın qaradinməz anası gözlərini jurnaldan çəkmədi.

– Həbəşistanda iki yüz min adam acından ölüb! Pah atonnan! – Bunu da qəzet oxuyan kişi, guya ki, öz-özünə dedi.

Qız əlini uzadıb anasının çantasından kart çıxartdı və yenə də anasını insafa gətirmək ümidilə:

– Onda gəl kart oynayaq, «duraki»... – dedi.

Anası yenə cavab vermədi.

Cavan oğlan kartı qızdan aldı və sürətlə qarışdırıb:

– Birini götür, bax, – dedi.

Qızın, məlum məsələdir ki, o saat kefi kökəldi və o, bir kart çəkib gizlincə baxdı.

Cavan oğlan əlindəki kartları qızın qabağına sərib:

– Hara istəyirsən qoy, – dedi.

Qız ehtiyatla və bir az şübhə ilə öz kartını qarşısındakı kartların arasına qoydu. Cavan oğlan dedi:

– Götür, özün qarışdır.

Bu lap möcüzə olacaqdı. Qız cidd-cəhdlə kartı qarışdırdı, sonra göydə axtarıb, yerdə tapdığı bu cavan əmiyə uzatdı.

Cavan oğlan kartı qızdan alıb lap gözlərinin qabağına gətirdi və bir-bir baxdı, nəhayət, kartın birini çıxarıb qıza göstərdi:

– Budu?

Qız gözlərini geniş açıb:

– Hə! – dedi. – Necə tapdız? – Və cavab gözləmədən heyrətini anasıyla bölüşdü: – Gördün, mama?

Qızın anası gözlərini jurnaldan çəkib, cavan oğlana baxdı.

– Gör neçə vaxtdır Italiyada hökumət böhranı davam edir! – Bunu təbii ki, yenə də yaşlı kişi dedi və sonra o da qəzeti büküb cavan oğlana baxdı.

Cavan oğlan əlindəki kartları saya-saya:

– Kartın biri çatışmır... – dedi. – Sən götürməmisən?

Qız sidq-ürəkdən:

– Yox, – dedi. – Hamısı oradadı...

– Bəs bu nədir? – Cavan oğlan bomboş əlini qızın əynindəki yun jaketə uzatdı və onun düymələrinin arasından bir kart çıxartdı, sonra əlini qızın qara saçlarına tərəf aparıb bir kart da ordan çıxartdı. – Biri də burdaymış ki!

Qız heyrətlə anasına baxdı və dünyanın bu cür sirli işlərindən vəcdə gəlib cavan əmiyə dedi:

– Yenə göstərin də!..

Qızın anası şübhəli-şübhəli cavan oğlana baxıb, çantasını özünə tərəf çəkdi – yəqin içində qiymətli şeylər vardı.

Cavan oğlan gülümsədi və:

– Daha bəsdi, – deyib ayağa qalxdı, kupenin qapısını açıb vaqonun darısqal arakəsməsinə çıxdı.

Yaşlı kişi də onun ardınca arakəsməyə adladı və cibindən siqaret qutusu çıxarıb:

– Çəkirsiz? – soruşdu.

– Yox, çox sağ olun.

Yaşlı kişi bir siqaret yandırıb:

– Birinci dəfədir görürəm ki, – dedi – cavan oğlan vaqonda siqaret çəkmir.

Cavan oğlan gülümsədi:

– Siz deyən qədər də cavan deyiləm...

Yaşlı kişi dedi:

– Cavanların adətidir, həmişə istəyirlər ki, yaşlı görünsünlər... Iyirmi beş, iyirmi altı yaşınız ancaq olar, cavanlıq deyil bu?

Cavan oğlan bu dəfə güldü:

– Otuz yeddi  yaşım var mənim...

Yaşlı kişi lap möhkəmcə heyrət etdi:

– Ola bilməz!..

– Lap doğrusu belədir ki, var!

– Siz foksçusunuz? – Yaşlı kişi yol yoldaşının cavan qalmasını da «foksçuluğa» yozdu.

Cavan oğlan yenə güldü – kişinin bu sualı ona lap ləzzət eləmişdi:

– Yox, canım!

Bu dəfə də yaşlı kişi gülümsədi:

– Amma uşağın anası sizdən qorxdu, çantasını özünə tərəf çəkdi ha... – Sonra ciddiləşib əlavə etdi. – Yazıq neyləsin, nadürüstlər çoxdu hələ...

Cavan oğlan bir az dərindən nəfəs alıb:

– Elədir, – dedi.

## II

Vağzala sulu qar yağırdı, hava da yaman soyuq idi və elə bil ki, bu cür havada heç kim gəlib, heç kim də getməyəcəkmiş kimi, ins-cins deyilən şey gözə dəymirdi, təkcə peraşkisatan arvaddan və onun köşkünün yanında dayanıb, peraşki təpişdirən on bir-on iki yaşlarında iki oğlan uşağından başqa.

Vağzalda yeganə isti yer də yəqin ki, peraşkisatan arvadın balaca köşkü idi. Içi peraşki dolu qabdan buxar qalxırdı və belə səfeh havada peraşkilər üçün həmin buxardan yaxşı reklam yox idi, amma qalın kürkün üstündən ağ xələt geymiş peraşkisatan arvad müştərisizlikdən mürgü döyürdü.

Oğlanlardan biri dedi:

– Ziba xala, yaxşı peraşkidi bugünkü peraşki.

Peraşkisatan Ziba mürgüsünü döyə-döyə gülümsədi, sonra köhnə «Araz» radioqəbuledicisində Qədir Rüstəmovun səsi eşidiləndə arvad gözünün birini açıb baxdı və Qədir Rüstəmov oxuyanda ki:

Küçələrə su səpmişəm,  
Yar gələndə toz olmasın.

Ziba özünü saxlaya bilməyib:

– Sözə bax e! – dedi. – Pah atonnan!.. Küçələrə su səpib ki, sevgilisinin ayağı toza batmasın!.. Hanı indi elə kişi?

Peraşki yeyən bayaqkı oğlan bu sözlərdən bir mətləb qanmayıb soruşdu:

– Nə deyirsən, Ziba xala?

Ziba o biri gözünü də açıb oğlana tərəf baxdı və yenə də gülümsəyib dedi:

– Sən bilən işlər deyil bu, a Mürşüd!... Balacasan e, sən hələ... Böyüyəndə biləssən ki, nə sözlərdi bu sözlər...

Qəribə iş idi – bu arvad beləcə gülümsəyəndə peraşkisatan Zibadan çox, uşağın könlünü almaq istəyən bağça müəlliməsinə oxşayırdı.

Qədir Rüstəmov oxuyurdu:

Elə gəlsin, elə getsin,
Aralıqda söz olmasın.

Bu dəfə Ziba xalis peraşkisatan Ziba idi, əlini bulaya-bulaya radioqəbulediciyə dedi:

– Ay olmadı ha!..

Və yenə də həmişəki kimi, əvvəlcə parovozun səsi gəldi, sonra qatar göründü və qatar gəlib vağzalda dayananda peraşkinin axırıncı tikələrini az qala diri-diri udan oğlanlar vaqonlara tərəf qaçdı. Mürşüd qaça-qaça yoldaşına dedi:

– Sən o yandan, mən bu yandan!

Uşaqlardan biri parovoza tərəf, o birisi qatarın axırına tərəf götürüldü.

Ziba Mürşüdün sözlərini mahnının bir misrası kimi dodaqaltı zümzümə etdi:

«Sən o yandan, mən bu yandan».

Bizim tanışımız cavan oğlan qatardan düşüb əvvəlcə göyə baxdı, sonra əynindəki kürkün boynunu qaldırıb isti yerdən çıxdığı üçün üşüyə-üşüyə vağzalın çıxacağına tərəf addımladı və Mürşüd də onu elə burada haqladı:

– Əmi, əmi, spiçkanız var? Dəyişək?

Cavan oğlan ayaq saxlayıb:

– Spiçka kağızı yığırsan? – soruşdu.

– Hə.

Cavan oğlan ürəkdən təəssüf etdi:

– Hayıf... Papiros çəkmirəm...

Uşaq da kor-peşman qatara tərəf baxdı və başqa bir adam gözünə dəymədiyi üçün onun yanınca addımlamağa başladı.

– Çoxdan yağır belə?

– Üç gündü başlayıb.

– Soyuqdu yaman. – Və cavan oğlanın bədənindən bir üşütmə keçdi; kürkün içində bədənini silkələdi.

– Bakıda yağıb-eləmir? – Mürşüd böyüklər kimi xəbər aldı.

– Bakıda yaz havasıdı.

Onlar vağzaldan çıxanda cavan oğlan soruşdu:

– Adın nədi sənin?

– Mürşüd.

– Ünvanını ver mənə, Bakıdan sənə spiçka kağızı göndərim.

Sevindiyindən Mürşüdün gözləri parladı:

– Doğrudan? – Amma sonra gözlərindəki bu sevinc çəkilib getdi. – Yox, belə olmaz, – dedi.

– Niyə?

– Mən də gərək spiçka verim axı sizə.

– Mən neynirəm spiçkanı, nə papiros çəkənəm, nə də spiçka kağızı yığanam.

– Nolsun... – Havayı istəmirəm mən...

– Yamansan ha, sən!.. Kitab mağazası haradadı burda?

Mürşüd diqqətlə Bakıdan gələn qonağa baxdı:

– Yoxlayacaqsız oranı?

Qonaq güldü:

– Nədi ki?

– Atam işləyir mənim orada.

– Hə... Qorxursan ki, atanı yoxlayım?

Mürşüd çiyinlərini çəkdi:

– Eh, atamın nəyini yoxlayacaqsız? – Sonra da əlini uzadıb göstərdi. – Bude, bu küçə ilə düz gedin, sonra da dönün sağa...

– Sən burada qalırsan?

– Hə, yoldaşımı gözləyirəm.

– Yaxşı, Mürşüd kişi, çox sağ ol. – Bakıdan gələn qonaq Mürşüdlə əl tutuşdu, sonra küçəboyu addımlamağa başladı.

Havanın belə bir bozluğundan idi ki, yəqin, küçədə adam tək-tək gözə dəyirdi. Sulu qar, təbii ki, yerdə qalmırdı, orda-burda sucuqlar, gölməçələr əmələ gətirmişdi, palçıq, zığ var idi və bu sucuqlar, balaca gölməçələr, addımladıqca çəkmənin altından sıçrayan palçıq adamı lap üşüdüb islanmış cücəyə döndərirdi.

Bakıdan gələn qonaq boynunu kürkün içinə qısıb, üstündən su süzülən qara portfeli əlində yellədə-yellədə Mürşüdün göstərdiyi tindən sağa dönüb bir müddət də getdi və təzə tikilmiş ikimərtəbəli kitab mağazasının qabağında dayandı.

Mağazanın qapısı ağzındakı kiçik girişdə yaşlı bir kişi üstü qurama döşəkçəli taxta kətildə oturub qəlyanını tüstülədə-tüstülədə girdə elektrik plitəsini qurdalayırdı. Kişi yəqin ki, mağazanın qarovulçusu idi və uzun qış gecəsinin hazırlığını görürdü.

Axşam hələ təzəcə düşürdü.

Bakıdan gələn qonaq kitab mağazasının yanından keçib qapısında iri hərflərlə «Rayon prokurorluğu» – yazılmış ikimərtəbəli qədim binaya girdi.

## III

Prokuror Dadaşlı çırthaçırtla yanan sobanın gözünü maşa ilə yerbəyer edib, ağır cüssəsini düzəltdi və əllərinin ikisini də şalvarının ciblərinə soxub dodaqaltı zümzümə edə-edə öz yazı mizinə yaxınlaşdı, çayı yarımçıq qalmış armudu stəkanı götürüb bir-iki qurtum içdi, yenə mizin üstünə qoydu.

Armudu stəkan prokuror Dadaşlının yüz otuz kiloluq bədəni müqabilində elə kiçik görünürdü ki, elə bil o, bu soyuq havada yaxşıca dəmlənmiş xoruzpipiyi çay içmirdi, oyuncaq oynadırdı və burası da adama qəribə gəlirdi ki, bu çay bu boyda adama nə edəcək?

Kabinetin qapısı açıldı və Bakıdan gələn qonaq içəri girib:

– Salam, – dedi, – sonra qapını ardınca örtdü.

Prokuror Dadaşlı əynindəki kürkü də soyunmayıb birbaş içəri girən bu adamı təəccüblə nəzərdən keçirdi və elə bil ki, Azərbaycan SSR prokuroru yanında mühüm işlər müstəntiqi, ədliyyə müşaviri Gündüz Kərimbəylini bu dəm qarşısında gördüyünə inanmırmış kimi:

– Gündüz Kərimbəyli? – soruşdu və yəqin özü də hiss etmədən «Gündüz» sözünü xüsusi bir vurğu ilə tələffüz etdi.

Gündüz Kərimbəyli öz məşhur təbəssümü ilə gülümsəyib:

– Icazə olar? – dedi.

– Buyurun, buyurun, əlbəttə!.. – Prokuror Dadaşlı birdən-birə peyda olmuş bu qonaqla əl tutuşdu. – Gəlin, əyləşin! – Sonra yoğun biləkli, ətli əlini Gündüz Kərimbəylinin çiyninə qoyub onunla birlikdə mizə tərəf addımladı.

Prokuror Dadaşlının kündə kimi girdə, dolu sifətinin müqabilində xırda qara gözləri vardı və bu gözlər gülümsəyəndə o, dünyanın ən mehriban adamına oxşayırdı; prokuror beləcə gülümsəyə-gülümsəyə öz mizinin arxasına keçdi, geniş və yumşaq kürsüdə əyləşib qonağa da yer göstərdi.

Gündüz əynindən çıxartdığı kürkü divanın üstünə atıb oturdu.

Prokuror Dadaşlı iki qara üzüm giləsi kimi işıldayan xırda gözlərini qıyıb, Gündüz Kərimbəyliyə baxa-baxa dedi:

– Adam tanıyanam mən, inanın mənə, amma vicdan haqqı, sizi tanımasaydım, ömrümdə deyə bilməzdim ki, mühüm işlər müstəntiqisiniz, ədliyyə müşavirisiniz, hələ üstəlik də Gündüz Kərimbəylisiniz! Hər dəfə sizi görəndə belə fikirləşirəm...

Görünür, bu cür təriflər, məşhurluq, hətta Gündüz Kərimbəyliyə də təsir edə bilərmiş – yaman şeydir tərif! – və o, bir balaca özündən razı halda gülümsəyib:

– Istidi bura, – dedi. – Yaman qızdırmısınız.

Bu söhbət, deyəsən, prokuror Dadaşlının ürəyindən idi:

– Belə havanınkı odur ki, yaxşıca odun yandırıb oturasan qırağında. Fəttah dayı da ki, peç qalamağın ustasıdı. – Prokuror Dadaşlı ləzzətlə əlini əlinə sürtdü, sonra dirsəklərini səliqə ilə mizin üstünə sərdiyi nişastalanmış dəsmala söykəyib ətli barmaqlarını bir-birinə keçirdi və heç vaxt, hətta ciddi olanda da sifətindən çəkilməyən bir mehribanlıqla qonağına baxa-baxa:

– Mənim kimilər Amosovun gözündən iraq, – dedi. – Mənimki bax, bu peçdi, kitabdı, bir də ki, bu yerlərin sakitliyi. Bilirəm, siz də kitabbazsız yaman. – Söhbət kitabın üstünə gələndə prokuror Dadaşlının kefi lap yüz əlli faiz duruldu. – Mən də ki, kitabbazın ən böyüyü! Kitabxanamı gərək göstərim sizə!

– Mütləq. Işimizi qurtaran kimi, sizin kitabxananıza baxarıq.

Prokuror Dadaşlı mühüm işlər müstəntiqinin sözlərindəki işarəni, təbii ki, başa düşdü və burası da açıq-aşkar hiss olunurdu ki, kitab söhbətindən sonra cinayət söhbətinə keçmək onun üçün bir o qədər də xoşagələn iş deyil.

– Neçə gündü rahatlığım yoxdu. Iyirmi yeddi ildi bu sistemdə çalışıram, amma belə bir vicdansızlığı... Işi özüm aparıram, özü də... özü də düşmüşük, deyəsən, izə... – Prokuror əllərini bir-birindən ayırıb pəncələrini mizin üstünə qoydu və yəqin ki, daxili bir əsəbilikdən barmaqları ilə mizi döyəclədi. – Istəyirsiniz əməliyyat qrupunu da çağırım, ətraflı söhbət edək.

Prokuror Dadaşlı əlini zəngin düyməsinə tərəf aparıb katibəni çağırmaq istədi, amma Gündüz Kərimbəyli dedi:

– Hələlik ikilikdə söhbət edək. Yoldaşlarla sonra görüşərik.

Bakıdan gələn bu qonaq, açıq-aşkar prokuror Dadaşlının xoşuna gəlirdi və o, mizin arxasından qalxıb, Gündüz Kərimbəyli ilə üzbəüz stulda əyləşdi; o, stula lövbər salanda adama elə gəlirdi ki, stulun nazik ayaqları bu nəhəng bədəni saxlaya bilməyib çilik-çilik olacaqdı bu saat.

Dadaşlı stulun üstə yerini rahatlayıb:

– Sakit rayondu bura, – dedi. – Ölüm hadisəsi, demək olar ki, yox idi. Demək olar ki, deyirəm, çünki iyirmi ildə bircə ölüm hadisəsi olub burda, namus üstdə bir kişi arvadını doğramışdı xəncərlə... on beş il bundan əvvəl... Indi birdən-birə bu cür bir iş!.. Özü də prokurorluğun binasının üç addımlığında, rayonun mərkəzində!.. Vicdan haqqı, elə bil ki, sakit günlərimin hayıfını alıblar məndən, neçə gündü gecə yerimə girəndə də, əlimə bir kitab alıb vərəqləyə bilmirəm əsəbilikdən... Mən heç bilmirdim ki, respublika prokurorluğundan adam gələcək... Niyə xəbər eləmədiniz qarşılayaq sizi?

– Nə ehtiyac var buna?

– Oğlum düz deyirmiş ki, Gündüz Kərimbəyli konsperasiyanı xoşlayır. Bakıda hüquq fakültəsində oxuyur oğlum. Bunu bilirsiniz özünüz yəqin, amma mən də deyim: – Adınız hüquq fakültəsi tələbələrinin dilinin əzbəridi. Xüsusən Mehrəlizadənin cinayət işinin açılması...

Görünür, mühüm işlər müstəntiqi Gündüz Kərimbəyli ilə prokuror Dadaşlının fərqi yalnız onda deyildi ki, biri yetmiş altı kilo, o biri yüz otuz kilo idi, həm də onda idi ki, birinin səbr kasası daşmaq bilmirdi, o biri, yəni Gündüz Kərimbəyli isə bir o qədər də səbrli deyildi.

Mühüm işlər müstəntiqi soruşdu:

– Hadisə nə zaman baş verib? (Yəni ki, indi Mehrəlizadə söhbətinin yeri deyil.)

Prokuror Dadaşlı, əlbəttə, bu dəfə də mühüm işlər müstəntiqinin eyhamını başa düşdü və yəqin bu qərara gəldi ki, keçsin birbaş mətləbə:

– Hadisə tasrağagün gecə saat on iki ilə bir arasında baş verib. Məhkəmə tibb ekspertizasının rəyi belədir. Bütün gecəni sulu qar yağırdı. Meyit səhərə kimi yağışın altında qalıb. Bir iz qoymayıb hadisə yerində. Öldürülən adam – Mahmud Qəmərlinski Bakıdan buraya iyirmi iki iyirmi beş qatarı ilə gəlib. Nəvəsinin dediyinə görə, təxminən on bir üçün evə çatıblar. Yenə də təxminən on beş-iyirmi dəqiqədən sonra evdən çıxıb.

– Nə üçün?

Prokuror Dadaşlı çiyinlərini çəkdi və onun buxağı daha da ətləndi, şişdi:

– Nəvəsi deyir ki, ürəyi qısılırdı. Belə havada adamın ürəyi qısılmasın, nə eləsin?

Gündüz Kərimbəyli gülümsədi:

– O baxır adamına.

Prokuror Dadaşlı:

– Orası da düzdü, – dedi və sözünə davam etdi. – Evlərindən hadisə yerinəcən təxminən on beş-iyirmi dəqiqəlik yoldu.

Prokuror Dadaşlı stulun üstündən qalxıb sobaya tərəf getdi və səliqə ilə düzülmüş odun parçalarından birini götürüb sobanın içinə atdı; təzə odun parçasının o saat alışıb-yanması bircə anın içində kişinin kefini yenə də kökəltdi və o:

– Vələsdir, – dedi. – Qiyamət yanır. – Sonra sobanın ağzını açıq qoyub mizə tərəf gedə-gedə soruşdu. – Siz kitabsevənlər cəmiyyətinin üzvüsünüz?

Gündüz Kərimbəyli öz məşhur təbəssümü ilə gülümsəyib:

– Əlbəttə, dedi və sonrakı sözlər də elə bil kitabsevənlər cəmiyyəti ilə əlaqədarıymış kimi, əlavə etdi. – Mahmud Qəmərlinski ilk dəfə idi bu rayona gəlirdi?

Prokuror Dadaşlı:

– Bəli! – dedi. – Ilk dəfə gəlirmiş. – Sonra mizin üstündəki qovluqlardan birini açdı. – Qəmərlinskinin öldürülməsi ilə əlaqədar qaldırılmış cinayət işi budur.

– Icazə olar?

Prokuror Dadaşlı:

– Əlbəttə, buyurun, – dedi və barmaqları ilə gicgahını ovuşdurdu; görünür, bu da əsəbiləşəndə sakitləşmək üçün bir gicgah masajı idi və yəqin hansı köhnə kitabda isə bu barədə ətraflı təlumat yazılmışdı.

Gündüz Kərimbəyli qovluğun içindəki sənədləri vərəqləyə-vərəqləyə soruşdu:

– Qızıl saatını götürüblər?

Prokuror Dadaşlı əllərini gicgahından çəkib dedi:

– Hə. Köhnə qızıl qol saatını götürüblər. Bir də portmanatını çıxarıblar cibindən. Içində nə qədər pul varıymış – məlum deyil. Nəvəsi deyir ki, otuz-qırx manatdan artıq olmazdı... Pensiyaçıymış, respublika dərəcəli...

Mühüm işlər müstəntiqi Gündüz Kərimbəyli bu dəfə əlindəki sənədi oxudu:

– Qəmərlinski Fazil, iyirmi dörd yaşında, tarix müəllimi. Nəvəsidir, hə?

– Hə, nəvəsidir. – Prokuror Dadaşlı bu sözləri dedi və birdən özü öz fikirlərindən hirslənib yumruğunu mizin üstünə vurdu; əli çox ətli olduğundan top kimi öz-özünə atılıb-düşdü. – Belə də vicdansızlıq olar?! Bir insanı vur öldür ki, qəpik-quruş qazanacaqsan! Bir köhnə qızıl saat, otuz manat da pul!

Gündüz Kərimbəyli isə qovluğun içindəki fotoları bir-bir gözdən keçirirdi.

Fotolarda üzüstə səkiyə sərilmiş kişinin şəkli idi.

Gündüz Kərimbəyli gözlərini fotoşəkillərdən çəkib dedi:

– Bayaq siz izə düşməyinizi deyirdiniz...

– Hə, mənim üçün şəxsən məlumdur məsələ... Burda biri var, Imaş deyərlər adına. Anasının əmcəyini kəsəndi! Onun işidi bu!

– Dəlilləriniz nədir?

– Mahmud Qəmərlinski Bakıdan gələndə Imaş vağzalda imiş. Kassanın qabağında dayanıb gözlərini onlardan çəkmirmiş. Kassir deyir bunu. Amma özü danır. Qorxur ki, soruşum ondan: a oğru Imaş, o cür qarda-boranda, gecə vaxtı vağzalda nə işin vardı? Bir yerə ki, getməyəcəkdin... Nə cavab versin? Desin ki, yoldaş prokuror, şikara çıxmışdım, ov axtarırdım?

– Başqa dəlilləriniz də var?

– Var.

Gündüz Kərimbəyli prokuror Dadaşlıya baxdı, yəni ki, – hansılardır?

Prokuror Dadaşlı:

– Iyirmi yeddi ilin yaratdığı intuisiya, yoldaş mühüm işlər müstəntiqi, – dedi. – Imaşın gözlərinə baxıram və hiss edirəm ki, bu, əclafdı, bağışlayın, qəpik-quruş üstündə adam öldürəndi! Iki dəfə oğurluq üstündə dustaq yatıb.

– Özü nə deyir?

– Özü ilə hələ üstüörtülü danışıram. Kassirlə də üzləşdirməmişəm hələ. Düzdü, evlərində yoxlama aparmışam, amma saatla portmanat tapılmayıb... Harda gizlədib, Allah bilir!

Gündüz Kərimbəyli gülümsəyib bir söz demədi. Prokuror Dadaşlı sözünə davam etdi:

– Eybi yox, taparıq!.. Bıçağı sapına qədər yeridiblər. Yaranın uzunluğu on yeddi santimetrdir, təsəvvür edirsiniz? Qəmərlinski hündür adam idi. Gərək Imaş kimi boy-buxunun olsun ki, belə vəhşiliyi bacarasan.

Gündüz Kərimbəyli fotoları qovluğa qoyub, yeni sənəd götürdü və bu sənədi gözdən keçirdikdən sonra soruşdu:

– Ekspertiniz təcrübəli yoldaşdır?

– Tibb institutunu bu il bitirib, gəlib. Ağıllı oğlandı. Bir də ki, burda hər şey kor-kor, gör-gördür də...

– Onunla görüşmək istəyirəm.

– Indi?

Gündüz Kərimbəyli saatına baxdı:

– Yox, gecdi indi, sonra bir yerdə söhbət edərik. Iş vaxtı qurtarıb daha...

O, qovluğu örtüb ayağa qalxdı və birdən-birə öskürməyə başladı.

Prokuror Dadaşlı seyfi açarla bağlayıb, ona tərəf gəldi:

– Soyuqlamısız deyəsən?

– Hə, deyəsən, bir balaca soyuqlamışam.

– Belə havanınkı odu ki, heç bir dərdin-sərin olmaya, oturasan özünçün sobanın qırağında, qabağına da bir qalaq kitab yığasan! Bizim qonaq evinin də sobası yaxşı yanır.

– Uzaqdı burdan?

– Yox, canım. Bizim bu rayon balaca yerdi, burda nə uzaq, nə yaxın?! Qonaq evinin bağbanı Fəttah dayı da yaxındakı kitab mağazasının gözətçisidi.

Onlar üz-üzə dayanmışdılar. Hərgah bütün yer üzündə, görkəminə görə bir-birindən ən çox fərqlənən iki nəfər vardısa da, mühüm işlər müstəntiqi Gündüz Kərimbəyli ilə prokuror Dadaşlı idi: biri həddən artıq kök, başının tükü tökülmüş və əlli dörd, əlli beş yaşı olsa da, yaşından yaşlı görünən, amma səliqə və zövqlə qara kostyum, qara çəkmə, ağappaq köynək geymiş, qırmızı güllü enli qalstuk taxmış bir kişi, o biri isə ortaboylu, çəkisi qaydada, kobud toxunmuş yun cemper və «cins» şalvar geymiş, yaşından çox cavan görünən bir oğlan; doğrudan da, heç kimin ağlına gəlməzdi ki, bu oğlan Azərbaycan SSR Baş prokuroru yanında mühüm işlər müstəntiqi, ədliyyə müşaviri və prokuror Dadaşlı demişkən, həm də Gündüz Kərimbəylidir; on nəfərdən doqquzu deyərdi ki, futbolçudur.

## IV

Gündüz Kərimbəyli ilə Dadaşlı prokurorluğun binasından birlikdə çıxdılar və Dadaşlı havanın dilxorçuluğundan üz-gözünü turşudub, şlyapasını gözünün üstünə çəkdi, sonra kitab mağazasına tərəf baxıb bərkdən:

– Axşamın xeyir, a Fəttah dayı, – dedi.

Kitab mağazasının qarovulçusu küçənin o biri tərəfindən:

– Axşamın xeyir, – deyə cavab verdi.

– Bir bu tərəfə gəlsənə...

Fəttah dayı kətildən qalxıb sırıqlısını düymələyə-düymələyə küçəni keçdi və onların yanına gələndə təzədən dedi:

– Axşamınız xeyir.

Gündüz Kərimbəyli ilə bərabər, prokuror Dadaşlı da kişi ilə ikinci dəfə salamlaşdı və yəqin ki, belə bir havada küçədə ayaq üstdə çox dayanmamaq üçün birbaş mətləbə keçdi:

– Bakıdan qonaq gəlib bizə, a Fəttah dayı, qonaq evində qalacaq.

Fəttah dayı qonağa baxdı:

– Lap əcəb eləyəcək! – dedi.– Gözümüz üstə yeri var.

Dadaşlı bu dəfə də Gündüz Kərimbəyliyə müraciət etdi:

– Fəttah dayının sözlərinə qulaq asmaq təzədən bir universitet qurtarmaq kimi şeydi. Özü də qonaq evinin həm bağbanıdı, həm administratoru, bir sözlə, bizim qonaq evi bu kişiyə baxır. Özü də elə ailəsi ilə orada yaşayır.

Bu ağsaçlı, ağsaqqal şümşad kişi, görünür, mühüm işlər müstəntiqinin də xoşuna gəlmişdi.

Prokuror Dadaşlı Fəttah dayıya dedi:

– Qonağı elə indicə apar rahatlansın bir az. Işi çoxdu. Kitablarından da, qorxma, heç nə olmaz, tez qayıdarsan.

Fəttah dayı da qəlyanını tüstülədə-tüstülədə gülümsəyib:

– Qorxaq gündə yüz yol ölər, igid ömründə bir dəfə, – dedi. – Nədən qorxacağam?!

Fəttah dayının bu sözləri, prokuror Dadaşlıya ləzzət elədi və o gülüb dedi:

– Gördünüz ki, belədi bizim bu Fəttah dayı. Buyurun mənim maşınıma.

Gündüz Kərimbəyli dedi:

– Piyada getsək yaxşıdı.

– Bax, bu yerdə başqa-başqa adamlarıq. Piyada getməklə aram yoxdu mənim. Yaxşı, siz gedin dincəlin. Sabahdan bizim işçilər də, milis də hazırdı sizin qulluğunuzda. Əlimizdən nə gəlir!.. Bilirəm, sizin çoxluqla aranız yoxdur, amma nə lazımsa, biz hazır.

Gündüz Kərimbəyli Dadaşlının əlini sıxa-sıxa:

– Bunu da hüquq fakültəsi deyir? – soruşdu.

Prokuror Dadaşlı:

– Elədir ki, var! – dedi.

Onlar xudahafizləşib ayrıldılar. Gündüz Kərimbəyli Fəttah dayı ilə birlikdə səkiylə üzüaşağı addımlamağa başladı, prokuror Dadaşlı isə səhərdən bəri onu gözləyən «QAZ-69»a tərəf getdi və birdən nəsə çox mühüm bir şey xatırlayıb geri çevrildi, gülümsəyə-gülümsəyə arxadan Gündüz Kərimbəylini səslədi:

– Az qala yadımdan çıxacaqdı sizə deyim! Bax e bir!

Gündüz Kərimbəyli ayaq saxlayıb prokuror Dadaşlıya tərəf döndü.

Prokuror Dadaşlı dedi:

– Şeyx Mahmud Şəbüstərinin qiyamət bir əlyazmasını tapmışam, çox nadir şeydir, XVI əsrdən bu tərəfə deyil! Sizə göstərərəm kitabxanama baxanda.

Bu saat Gündüz Kərimbəylinin beləcə gülümsəməyini prokuror Dadaşlı yəqin ki, feyzbazlıq kimi qiymətləndirdi.

Gündüz Kərimbəyli:

– Mütləq! – dedi.

Prokuror Dadaşlı yüz otuz kiloya yaraşmayan bir çevikliklə «QAZ-69»a mindi və maşın gəlib Gündüz Kərimbəylinin yanından keçəndə qapının şüşəsindən ona əl elədi.

Fəttah dayı qəlyanının başını ovcuna alıb dərindən qullab vura-vura bir balaca irəlidə addımlayırdı. Gündüz Kərimbəyli yenə də isti yerdən çıxdığı üçün kürkün boynunu qaldırıb üşüyə-üşüyə Fəttah dayının yanınca gedirdi və çəkmələri su çuxuruna düşməsin deyə gözlərini ayaqlarının altından çəkmirdi.

Fəttah dayı qəlyanını ağzından götürməyərək, başının işarəsiylə bir az irəlini göstərdi:

– Budu ha bax, buradı.

Gündüz Kərimbəyli təəccüblə Fəttah dayıya baxdı. Fəttah dayı qəlyanını tüstülədə-tüstülədə təmkinini pozmayıb:

– Ay bacıoğlu, – dedi, – balaca rayondu bizim rayonumuz. Həm də deyiblər ki, iynə torbada qalmaz. Sakit yerdi buralar, indi ilin düz vaxtında bu boyda bir əhvalat!... Müəllimin babasının öldürülməsini deyirəm...

Gündüz Kərimbəyli Fəttah kişinin göstərdiyi yerə çatanda ayaq saxladı və gözlərini qıyıb ətrafa baxdı.

Bura rayonun adi küçələrindən idi. Küçəboyu birmərtəbəli, ikimərtəbəli binaların həyət hasarı uzanırdı və hər on beş-iyirmi addımdan bir rəngbərəng darvazalar artıq alaqaranlıqda güclə sezilirdi.

Gündüz Kərimbəyli bir neçə dəfə öskürdü və kürkün içində daha da büzüşdü.

Fəttah dayı:

– Gedək, bacıoğlu, gedək, – dedi. – Özünü soyuğa vermisən deyəsən...

Mühüm işlər müstəntiqi Fəttah dayının sözlərini eşitmirmiş kimi, dayandıqları səkiyə bitişik hasarın darvazasına tərəf işarə edib soruşdu:

– Bura kimin evidi?

Fəttah dayı da elə bil bu tərəflərin qonağı idi, əvvəlcə o da darvazaya tərəf boylandı, sonra dedi:

– Bura?.. Bura Fatma arvadın həyətidi.

– Nəçidi Fatma arvad?

Fəttah dayının, qəlyanı sümürən dodaqları qaçdı:

– Nəçi olacaq, qeybətçi.

Gündüz Kərimbəyli də gülümsədi:

– Kimlə qalır bəs burda?

– Bir gədəsi var, şoferdi, onunla...

– Adı nədi oğlunun?

– Cəbi.

Gündüz Kərimbəyli yenə nəsə soruşmaq istədi, amma bu dəfə öskürək ona macal vermədi və o öskürdükcə Fəttah dayı açıq-aşkar narahat olub:

– Soyuqlamısan möhkəmcə, – dedi. – Gəl, gəl gedək. Allah kərimdi, bəlkə hava düzəldi sabah. Indi gedək, dincəl bir az.

Gündüz Kərimbəyli bir-iki dəfə də öskürüb:

– Biri – dedi, – deyirmiş ki, borcun içindəyəm. Deyiblər ki, fikir eləmə, Allah kərimdi. Deyib məsələ burasındadı ki, elə Kərimə də borcluyam...

Gündüz Kərimbəyli bu sözləri deyib gülümsədi və yenə də öskürməyə başladı.

Fəttah dayı bu dəfə də onun qolundan tutub:

– Getdik, getdik, – dedi. – Kərimin borcu qalsın sabaha.

Mühüm işlər müstəntiqi də:

– Getdik, – dedi. – Amma birbaş sizə yox, Fəttah dayı, Fazil Qəmərlinski yaşayan evə, sonra sizə.

Fəttah dayı soyuqlamış qonağın bu sözlərinə lap ürəkdən etiraz etdi:

– Yox, bu olmadı, qonaq. O ev rayonun o başındadı, qonaq evi bu biri başında!..

– Havadan qorxursan, Fəttah dayı?

Fəttah dayı bu dəfə hirsləndi və qəlyanı ağzından götürüb:

– Havadan qorxmuram, a kişi! – dedi. – Səndən qorxuram, səndən! Cavanlığına salma. Özün də havanı dəyişmisən. Səni də Bakıda gözləyən var yəqin?

Mühüm işlər müstəntiqi kürkün içində büzüşdü:

– Bunu lap ürəyimdən dedin, Fəttah dayı. Yaman tələsirəm Bakıya! Bilirsən niyə? Qızımın ad günüdü üç gündən sonra...

Fəttah dayının acığı soyumuşdu daha:

– Böyük qız olsun! Uşaqdı yəqin...

– Çox sağ ol, on yaşı tamam olur. On yaş da ki, bilirsən də Fəttah dayı, yubileydi. Getdik?

– Qonaq evinə?

– Əvvəlcə Fazil müəllimin yaşadığı evə tərəf, sonra da evimizə.

Fəttah dayı, deyəsən, daha yəqin elədi ki, Bakıdan gələn bu qonağı fikrindən daşındırmaq çətin məsələdi, başını bulayıb yenə də bir az irəlidə yanpörtü addımlamağa başladı.

Hava yavaş-yavaş tamam qaralırdı daha və bu alaqaranlıq içində taxtapuşların bacası tüstülədikcə, elə bil, bayırın soyuğu bir az da artıq təsir edirdi. Pəncərələr bir-bir yanırdı və mühüm işlər müstəntiqi Gündüz Kərimbəyli Fəttah dayının yanınca addımlaya-addımlaya kirpiklərindən sulu qarın damcıları süzülən gözlərini qıyıb tüstüləyən bacalara, işığı yanan pəncərələrə baxırdı, sonra da ayaqları su çuxuruna düşməsin deyə başını aşağı dikirdi.

Fəttah dayı da qəlyanını tüstülədə-tüstülədə elə bil öz-özünə danışırmış kimi:

– Belədir dünyanın işləri, – dedi. – Ağsaqqal yaşında durub gələsən nəvənə baş çəkməyə, bir namərd səni qanına qəltan eləsin ki, on beş köpük xeyir görəcək!.. Ay gördü, ha!.. Zəhrimar olub töküləcək burnundan...

– Dünyanın işləri deyil bu, a Fəttah dayı, adamların işləridi...

– Dünya da elə adamlardı də, bacıoğlu!.. Insana cəmi məxluqatın əşrəfi deyiblər! Indi gör bu cəmi məxluqatın əşrəfi olan insan hərdən necə oyun çıxarır... Olacağa çarə yoxdu, bu, düzdü. Kimin alnında nə yazılıbsa da odu. Ölümün də pisi-yaxşısı yoxdu, bu da düzdü, ölüm ölümdü. Amma vəzni var ölümün, ucuzluğu yandırır adamı!..

Fəttah dayı addımlaya-addımlaya pis adamların qarasına deyindikcə, hava da tamam qaraldı – rayona gecə düşdü daha və elə bil sulu qar da fürsəti fövtə verməyib bərkidi; Gündüz Kərimbəyli də daha tez-tez öskürdü və şəhərdən gələn bu qonaq öskürdükcə Fəttah dayı başını buladı:

– Səninki bu saat odu ki, evdə oturub moruq mürəbbəsiylə çay içəsən...

Gündüz Kərimbəyli özünü saxlaya bilməyib:

– Hə, – dedi, – bu saat moruqlu çay dərmandı.

Fəttah dayı qaranlıqda divarları ağaran ikimərtəbəli evin darvaza qapısı ağzında ayaq saxladı və ikinci mərtəbədə işığı yanan pəncərəyə işarə eləyib dedi:

– Budu, burda olur.

Gündüz Kərimbəyli boynunu kürkün içinə qısıb işıq gələn pəncərəyə baxdı.

Bir müddət dinməz dayandılar və bu müddət ərzində getdikcə bərkiyən sulu qarın şırıltısı içində bir-birinə qatışan adam səsləri eşidildi; səslər işığı yanan pəncərədən gəlirdi və burası da açıq-aşkar hiss olundu ki, iki nəfər bir-biri ilə höcətləşir.

Mühüm işlər müstəntiqi Gündüz Kərimbəyli də, Fəttah dayı da pəncərədən gələn səslərə qulaq asdılar. Sözləri ayırd etmək mümkün deyildi, amma bir şey məlum idi: içəridəki mübahisə get-gedə qızışırdı.

Fəttah dayı qəlyanını tüstülədə-tüstülədə dedi:

– Deyəsən, vaxtında gəlməmişik...

Gündüz Kərimbəyli gözlərini pəncərədən çəkməyib:

– Ya da ki, lap vaxtında gəlmişik! – dedi və səhərdən bəriki yumşaq danışığına yaraşmayan bir qətiliklə əlavə etdi. – Sən get, Fəttah dayı, mən sonra gələcəyəm.

Fəttah dayı başa düşdü ki, etiraz etməyin yeri deyil; bu qonağın islanmış cücə kimi üşüməyi də gözgörəti kəsmişdi.

– Bəlkə gözləyim səni burda?

– Yox, niyə gözləyirsən, get.

– Bəs bizi necə tapacaqsan?

– Taparam. Müəllim yola salar məni.

– Neynək. Elə məktəblə üzbəüz oluruq...

Fəttah dayı qəlyanını tüstülədə-tüstülədə geri çevrildi və yavaş-yavaş uzaqlaşaraq qaranlıq içində itdi.

Gündüz Kərimbəyli darvazanın kiçik qapısını döymək istədi, amma qapı açıq idi. O, içəri girəndə həyətin aşağı başındakı it damından qulağıkəsik yekə bir köpək çölə sıçrayıb, hürməyə başladı; boynu zəncirli olmasaydı, işlər xarab olacaqdı; birinci mərtəbənin artırmasından gələn işıqda itin gözləri par-par parıldadı.

Yaşlı bir arvad birinci mərtəbədəki evin qapısını aralayıb, belə bir havada nə qədər mümkünsə bir elə də başını bayıra çıxarıb səsləndi:

– Kimdi, ə, orda heylə?

– Fazil müəllimin yanına gedirəm.

Arvad bu dəfə itə tərəf çımxırdı:

– Kiri!

It o saat səsini kəsdi və elə bil bu arvadın çımxırmağını gözləyirmiş kimi, quyruğunu bulaya-bulaya tez-tələsik də damına girdi.

Gündüz Kərimbəyli taxta pilləkənlərlə ikinci mərtəbəyə qalxıb şüşəbəndin qapısına yaxınlaşdı. Içəridən gələn səslər indi aydın eşidildi:

– Mən səninçün balaca bəbə-zad deyiləm ki, qorxudasan məni!

– Bilmirəm, bəbəsən, ya nəsən, budu deyirəm sənə, islanmışın yağışdan qorxusu yoxdu, sırğa elə, as qulağından, əgər naxələflik eləsən, tökəcəyəm yerə bağırsaqlarını!

– A kişi, necə adamsan sən? Adam dili başa düşmürsən? Niyə durub gəlmisən üstümə?

Mühüm işlər müstəntiqi Gündüz Kərimbəyli iş xatirinə də olsa, qapı dalında gizlənib başqalarının danışığına qulaq asmağı yəqin ki, xoşlamırdı, əlini kürkünün cibindən çıxarıb qapını tıqqıldatdı.

Əvvəlcə bir sakitlik çökdü, sonra içəridən səs gəldi:

– Heç nə lazım deyil, Ayna xala!

Gündüz Kərimbəyli qapını bir də döydü.

– Nədi axı? – sözüylə qapının açılması bir oldu və qapını açan oğlan tanımadığı bu qonağa baxıb soruşdu: – Kim lazımdı?

Gündüz Kərimbəyli əynində sırıqlı, otağın ortasında dayanmış qırx beş, əlli yaşlarında kişiyə baxıb qarşısındakı cavan oğlandan soruşdu:

– Fazil müəllim sizsiniz?

– Bəli, mənəm.

– Sizinlə bir balaca işim var.

Fazil müəllim sırıqlılı kişiyə ötəri bir nəzər salıb, Gündüz Kərimbəyliyə yer göstərdi.

– Gəlin içəri, buyurun, əyləşin.

Gündüz Kərimbəyli içəri girdi və otaq isti olduğundan, Fazilin göstərdiyi stula tərəf gedə-gedə kürkünü çıxartdı, üzərindən su süzülən portfeli stulun yanında yerə qoyub oturdu və kürkü dizlərinin üstünə saldı.

Sırıqlı geymiş kişi qonağa tərs bir nəzər salıb, Fazil müəllimə baxdı və xüsusi bir tələffüzlə:

– Mən getdim! – dedi. – Lazım olsa, gələcəyəm yenə!

O, qapıdan çıxanda Fazil müəllim dərindən nəfəs alıb, Gündüz Kərimbəyliyə tərəf çevrildi:

– Bağışlayın, elə bildim ki, yenə Ayna xaladı, soruşur ki, nə lazımdı. Ev yiyəsini deyirəm... Kirayənişinəm mən burda.

Mühüm işlər müstəntiqi dizlərinin üstündəki kürkün döş cibindən vəsiqəsini çıxarıb Fazil müəllimə göstərdi:

– Mahmud Qəmərlinskinin işi ilə əlaqədar sizə əziyyət verirəm.

Fazil müəllim qapının yanındakı köhnə meşin divanda oturdu və lap ürəkdən gələn bir yanğı ilə:

– Kişi yaman getdi! – dedi. – Mənim üstümdə getdi!

– Sizin üstünüzdə niyə?

Fazil müəllim Gündüz Kərimbəyliyə baxdı və ancaq Gündüz Kərimbəylinin sezə biləcəyi bir tərəddüddən sonra dedi:

– Mən olmasaydım, nə işi vardı burda?

Gündüz Kərimbəyli dizlərinin üstündəki kürkü sürüşməyə qoymayıb, soruşdu:

– Nəyə görə gəlmişdi ki, bura?

Fazil müəllim divandan qalxıb ona yaxınlaşdı və kürkü götürüb:

– Qoyun asım, – dedi. – Yaşdı, qurusun bir az.

O, kürkü qapının arxasına vurulmuş mismardan asıb, yenə də bayaqkı yerində oturdu.

– Məni görməyə gəlmişdi də...

– Bunu ifadənizdə oxumuşam.

Fazil müəllim təəccüblə mühüm işlər müstəntiqinə baxdı, yəni ki, oxumusunuzsa, niyə təzədən soruşursunuz?

– Sizin doğma babanızdı, hə?

Fazil müəllim əlini ağzına aparıb uşaq kimi baş barmağının dırnağını dişi ilə gəmirtləyə-gəmirtləyə:

– Hamısını demişəm də. Protokola yazıblar hamısını...

– Mənimlə danışmaq istəmirsiniz?

Fazil əlini ağzından çəkmədən:

– Niyə istəmirəm? Doğma babamdı, əlbəttə... Atam müharibədə ölüb, tək oğlu idi. Iki nəvəsi vardı, biri mən, biri də mənim bacım, daha heç kimi yox idi. Bacım məndən böyükdü, Bakıda ərdədi, öz ailəsi var. Babam tək qalırdı. – Fazil müəllim əlini ağzından çəkib qollarını döşündə çarpazladı.

– Bacınız babanızın dəfninə gəlmişdi?

– Gəlmişdi, əlbəttə. Çox qala bilmədi, körpə uşağı var...

– Qabaq bir yerdə yaşayırdınız?

– Hə. Universiteti qurtarandan sonra mənim təyinatımı verdilər bura.

– Nə vaxt?

– Il yarımdı burdayam.

– Bakıya gedib-gəlirdiniz? Babanızı yoluxmağa?

– Hə, əlbəttə. Bizsiz darıxırdı yaman...

– Axırıncı dəfə nə vaxt getmişdiz Bakıya?

– Ayın iyirmi ikisində, şənbə günü, dərslər qurtarandan sonra.

– Bazar günü də orada qaldız?

– Hə. Gecə çıxdım Bakıdan, bazar ertəsi gəlib çatdım dərsə.

– Deməli, siz iyirmi üçündə Bakıdan çıxmısınız. Iyirmi dördü keçib, iyirmi beşində babanız bura gəlib. Cəmi bircə gün keçəndən sonra təzədən sizi görmək üçün bura gəlib?

Fazil müəllim Gündüz Kərimbəyliyə baxdı, sonra iki əli ilə də üzünü tutub başını aşağı saldı və bu dəfə özünü saxlaya bilməyib riqqətə gəldi:

– Mənim üstümdə getdi kişi! – dedi. – Mənim üstümdə!

Gündüz Kərimbəyli bərkdən öskürdü, öskürəyi daha boğazdan yox, xalis sinədən gəlirdi və belə məlum olurdu ki, özünü əməlli-başlı soyuğa verib. O, öskürə-öskürə ayağa qalxıb qapıdan asılmış kürkünün cibindən dəsmal çıxartdı və dəsmalı ağzına tutub bir daha öskürdükdən sonra dedi:

– Mənə baxın, Fazil müəllim! Əgər istəyirsinizsə ki, babanızı öldürən adam, ya da adamlar cəzalarına yetsinlər və bu məsələ tez həll olunsun, nə bilirsiniz, hamısını deyin, heç nə gizlətməyin. Bizim gizlənpaç oynamaq vaxtımız çoxdan keçib! Sizi mütləq prokurorluğa çağırıb rəsmi sorğu-suala tutmalıyam?!

Fazil müəllim başını əllərinin arasından qaldırıb təəccüblə qonağa baxdı, elə bil ki, ondan belə sərt danışıq gözləmirdi; sonra dedi:

– Bunların bir-birinə dəxli yoxdur.

– Nəyin?

– Mənim məsələmlə, babamın öldürülməsinin.
– Sizin hansı məsələnizin?
Fazil müəllim əllərini üzündən çəkib barmaqlarını sındırdı və başını divanın arxasına söykəyib qızarmış gözlərini tavana zillədi; yəqin başa düşdü ki, bu çağırılmamış qonaq havayı yerə adamdan əl çəkən deyil, açmalıdı sandığı, tökməlidi pambığı.
– Babam mənim işim üçün gəlmişdi...
Mühüm işlər müstəntiqi eyni sərtliklə soruşdu:
– Sizin hansı işiniz üçün?
Fazil müəllim ayağa qalxıb pəncərəyə yaxınlaşdı və şüşənin arxasındakı qaranlığa baxa-baxa:
– Onsuz da bu rayonda heç nə gizlətmək mümkün deyil, – dedi. – Sonra gözlərini pəncərədən çəkməyərək sıxıla-sıxıla əlavə etdi. – Mənim Bakıda nişanlım var. Babalarımız uşaqlıq dostu olublar... Hələ universitetdə oxuyanda nişanlanmışdıq... Mən gəldim bura, o qaldı Bakıda... Bura gələndən sonra... – Fazil müəllim sözünə davam edə bilmədi: yəqin bu saat özünü dünyanın ən naqolay vəziyyətində olan bir adam hesab edirdi.
Gündüz Kərimbəyli ona kömək etmək istədi:
– Qız başqasını...
Fazil müəllim gözlərini pəncərənin şüşəsindən çəkməyərək onun sözünü kəsdi:
– Yox, qız başqasını yox, mən başqasını...
Araya sükut çökdü. Gündüz Kərimbəyli dəsmalını kürkün cibinə qoyub pəncərəyə yaxınlaşdı:
– Gecələr qaranlıq olur rayonunuz, – dedi. – Küçələrdə işıq azdır.
Fazil müəllim, görünür, başladığı söhbəti tez də qurtarmaq istəyirdi:
– Rus dili müəlliməsidir. Səadətdir adı... Babam razılıq vermirdi, deyirdi ki, yaxşı iş görmürsən, kişi belə iş tutmaz... Mən də bilirəm, yaxşı iş deyil bu, amma adamın özündən asılıdı bəyəm? Adam özü bilir ki, nə olacaq? Cavan uşaqlardıq, nişanlamışdılar bizi, elə bilirdik ki, istəyirik bir-birimizi, amma sonra məlum oldu ki, uşaq işləridi bu, istəmirik bir-birimizi... – Fazil müəllim özü öz sözlərindən əsəbiləşərək yavaş-yavaş səsini qaldırdı. – Sonra məlum oldu ki, mən başqasını istəyirəm!.. Getdim kişini başa salım. Yox, dedi, gərək özüm gəlib görüm ki, nə məsələdi bu! Tərs idi yaman!.. Bir şey ki, beyninə batdı, çıxarmaq olmazdı... Xasiyyəti belə idi, evdə də, işdə də... – Fazil müəllim gözlərini şüşədən çəkib yanında dayanmış Gündüz Kərimbəyliyə baxdı. – Vaxtilə o da sizin, bir növ, kolleqanız idi... Qabaqlar rayonlarda milisdə işləyirdi, milis rəisi... Hələ biz yox idik o vaxtlar... Sonralar təqaüdə çıxanacan, başqa işlərdə işləyirdi... Quldurlara, qaçaqlara can verməyib, amma bir saat oğrusunun bıçağının qurbanı oldu...
Öskürək yenə də Gündüz Kərimbəylini boğdu.
Fazil müəllim pəncərədən ayrılıb soruşdu:
– Bəlkə Ayna xalaya deyim çay gətirsin?
– Yox, çox sağ olun, getmək istəyirəm. – Bu sözləri deyən adam artıq yenə də əvvəlki xoşrəftar qonaq idi. – Bağışlayın, bir-iki sual da vermək istəyirəm... Qız bilirdi ki, babanız bu işə razı deyil?
– Hansı qız?
– Buradakı müəllimə, Səadət.

Fazil müəllim başı ilə təsdiq edə-edə:
– Bilirdi! – dedi.
– Bura gəlməyini də bilirdi?
– Yox, ona deməmişdim.
– Bəs kimə demişdiniz?
Fazil müəllim bir az susduqdan sonra cavab verdi:
– Imaşa. Səadətin qardaşı... Böyük qardaşı...
Gündüz Kərimbəyli qapıya yaxınlaşıb kürkü mismardan aldı və geyinə-geyinə soruşdu:
– Babanızı qarşılamağa tək getmişdiniz?
– Bəli.
– Yolda heç kimə rast gəlmədiniz?
– Yox.
– Birbaşa bura gəldiniz?
– Hə.
– Gələn kimi də evdən çıxdı?
– Hə.
– Niyə?
– Bilmirəm, ürəyi qısıldı, ya nə oldu... Birdən-birə tutulmuşdu yaman. Paltosunu da çıxarmayıb beş-altı dəqiqə oturdu, bəlkə on dəqiqə... Sonra dedi ki, çıxıram küçəyə. Nə qədər elədim, olmadı. Məni də qoymadı ki, yanınca gedim. Dedi ki, bir az hava alıb qayıdacağam...
– Yolda, ya da evdə olduğu vaxt sizdən bir şey soruşmadı?
– Yox, soruşmadı.
– Lap dəqiq?
Fazil müəllim bir az fikrə getdi, sonra dedi:
– Soruşdu ki, ev yiyəsindən razıyam, ya yox? Dedim ki, yaxşı adamdı Ayna xala.
– Vəssalam?
– Hə.
– Yolda da?
– Yolda heç nə soruşmurdu. Əvvəlcə kefi pis deyildi. Deyirdi ki, şəhərdən sonra buralar adama ləzzət eləyir, maşınların tüstüsü, hər tərəfin asfaltı bezikdirib məni... Sonra daha bir söz demədi...
Gündüz Kərimbəyli portfeli götürüb qapını açmaq istəyəndə, əl saxladı və axırıncı sualını verdi:
– Buradakı kişi Imaş idi?
Fazil müəllim təəccüblə Gündüz Kərimbəyliyə baxdı:
– Hə, o idi. Nə bildiniz?
Mühüm işlər müstəntiqi gülümsəyib çiyinlərini çəkdi.
Fazil müəllim də çarpayının başına saldığı paltosunu götürüb geyinə-geyinə dedi:
– Sizi ötürüm...

## V

Rayon evlərinin yaş taxtapuşları qaranlıqda işıldayırdı; sulu qar elə hey yağır, yağırdı. Dəmir kirəmitli taxtapuşlardan süzülüb tökülən, novçalardan gələn su sel kimi küçələrdən axırdı. Rayonun işıqları yavaş-yavaş sönürdü və bu qaranlıq içində, bu kimsəsizlikdə küçələrdəki tut, qoz, söyüd ağaclarının çılpaq görkəmi adamı daha da üşüdürdü.

Mühüm işlər müstəntiqi Gündüz Kərimbəyli balaca elektrik plitəsinin yanındakı taxta kətildə oturub cərəyandan qıpqırmızı qızarmış məftillərə baxırdı; bu balaca elektrik plitəsindən güclə seziləcək bir ilğım qalxırdı. Və elə bil ki, bu ilğım bayırın soyuğundan və ümumiyyətlə, dünyanın bütün əbləh işlərindən şikayət edirdi.

Mühüm işlər müstəntiqi kürkünü çiyninə salmışdı və çölün zəhlətökən havasından sonra yəqin ki, bu saat bu plitə istisinin, bu balaca otaqdakı xudmaniliyin ayrı ləzzəti vardı; amma burası da hiss olunurdu ki, onun gözləri plitənin qızarmış məftillərinə baxırdısa da, fikri başqa yerlərdə dolaşırdı.

Pəncərənin qabağındakı girdə mizin üstündə qənd, mürəbbə, balaca çaynik və bir armudu stəkan vardı. Pəncərənin pərdələri aralanmışdı və şüşənin bayır tərəfinə çırpılan sulu qardan bilinirdi ki, bu hava hələ düzələn şey deyil.

Fəttah dayı əlində balaca bir torba içəri girdi:

– Yatmamışdan əvvəl bir bankalıyam səni gərək, bacıoğlu...

Gündüz Kərimbəyli banka dəsgahının ləzzətini əvvəlcədən hiss edə-edə gülümsədi və:

– Fəttah dayı, – dedi, – pis öyrədirsən ha, qonağı...

Fəttah dayı əlindəki torbanı dəmir çarpayının yanındakı alabəzək sandığın üstünə qoyub:

– Qonaq istəyənin süfrəsi boş olmaz, – dedi. – Düzdü, bu zəmanədə heç kim ac qalmır, hərənin süfrəsində bir şey olur, ağ çörəyin kilosu otuz qəpiyədi, qonaq da ki, umduğunu yeməz, olduğunu yeyər... Amma, bacıoğlu, bu öskürəklə ki, o cür yağışın altında başladın işini görməyə, tanıdım səni yaxşıca! Bildim ki, sabah da belə edəssən, biri gün də, o birisi gün də. Lap ömrünün axırınacan... Deyiblər ki, yaxşılıq elə, at dəryaya, balıq bilməsə də, Xaliq bilər. Sənin də evdə gözləyənin var!..

Gündüz Kərimbəyli ayağa qalxıb kürkü çarpayının başına atdı və gəlib çarpayıda otura-otura dedi:

– Bir anam var Bakıda, Fəttah dayı, elə bil sənin dediklərini yığıb bir-bir.

Fəttah dayı bankaları torbadan çıxarıb, sandığın üstünə düzdü.

– Sənin kimiləri az görməmişəm, bacıoğlu. Sizin xəmiriniz işlə yoğrulub. Astanın işi qalmaz, xəstənin işi qalar, deyiblər. Asta olmağına asta adama oxşamırsan sən, amma xəstə olmağına xəstəsən. Mənim də borcum budu ki, anan səni necə göndərib bura, elə də mən qaytarım səni onun üstünə. Niyə ki, mənim qonağımsan, başqasının yox. – Sonra Fəttah dayı qapıya tərəf dönüb bərkdən çağırdı: – Mürşüd!

Mürşüd qapıdan içəri boylandı:

– Nədi, dədə?

– Gəl kömək elə mənə.

Mürşüd içəri girib təbii ki, çarpayıda oturan qonağı tanıdı. Gündüz Kərimbəyli əlini uzadıb onunla görüşdü.

– Ba!.. – dedi, – Mürşüd kişi, sənin qonağınammış ki...

Fəttah dayı təəccüblə onlara baxdı və o saat da məsələni başa düşüb, oğluna acıqlandı:

– Yenə vağzala getmişdin?

Gündüz Kərimbəyli əynindəki cempiri çıxara-çıxara:

– Kişi kolleksiyaçıdır də! – dedi və əli ilə Mürşüdün qıvrım, qara saçlarını qarışdırdı. – Kolleksiyaçı bilirsən nədir? Biri marka yığır, o biri qəlyan yığır, bir başqası tramvay yığır. Sən də kibrit kağızı yığırsan. Kolleksiyaçı sizsiniz, sizə deyirlər...

Fəttah dayı balaca dəmir çubuğun ucuna pambıq dolaya-dolaya lap təəccübləndi:

– Tramvay ha!

– Hə, Fəttah dayı, hardasa bir milyoner var, tramvay yığır.

Fəttah dayı dedi:

– Harınlıqdandı. Tramvay yığmaq da elə bir qızıl saatdan ötrü adam öldürmək kimi bir şeydi əslində... Bir şahının iki üzüdü... – Sonra spirt şüşəsini də torbadan çıxarıb ağzını açdı. – Tamam soyun, gir yerinə. Bankalayandan sonra üstünü basdıracam. Əslinə baxsan heç gərək sabah da çıxmayasan eşiyə...

– Elə şey yoxdu, Fəttah dayı, sənin bankandan sonra sabah gərək qiyamət eləyək!

Fəttah dayı başını bulaya-bulaya gülümsədi.

Gündüz Kərimbəyli üzüqoylu çarpayıda uzandı. Fəttah dayı yorğanı belinəcən onun üstünə çəkib yekə, döyənəkli əlləri ilə Gündüz Kərimbəylinin kürəklərini ovxaladı, sonra kibriti Mürşüdə verib dedi:

– Yandır görüm.

Mürşüd kibrit çöpünü çəkib yandırdı, Fəttah dayı da yaşına uyuşmayan bir cəldliklə əlindəki dəmir çubuğun pambıqlı ucunu spirtə batırıb yandırdı və bankaları bir-bir salmağa başladı.

– Hə, gör necə tutur!... Bacıoğlu, lap kefin istəyən soyuqlamısan ha...

Gündüz Kərimbəyli qollarını hər iki tərəfdən yanlarına uzadıb, üzünü onlara tərəf tutmuşdu. O, Mürşüdə göz vurdu, Mürşüd gülümsədi.

Fəttah dayı bankaları salıb yorğanı lap yuxarıyacan çəkdi, sonra kətildə oturub pencəyinin cibindən tənbəki kisəsini, qəlyanını çıxartdı.

Mürşüd sandığın üstündə oturdu.

Gündüz Kərimbəyli Mürşüddən soruşdu:

– Neçə nəfərsiz?

Mürşüd dedi:

– Dörd bacım var, iki qardaşım.

Gündüz Kərimbəyli gülümsədi:

– Ordudu ki, bu, a Fəttah dayı!..

Fəttah dayı qəlyanını yandırıb, gülümsəyə-gülümsəyə başını buladı, yəni ki, görürsən də...

Gündüz Kərimbəyli Mürşüddən soruşdu:

– Sən kiçiyisən?

– Yox, bir bacım məndən böyükdü, qalanları hamısı kiçikdi...

Fəttah dayı qəlyanını tüstülədə-tüstülədə bir ayağını qaldırıb altına qoydu və dedi:

– Tez yeyənlə tez evlənən peşman olmaz, deyiblər. Yemək heç, amma evlənməyi düz deyiblər. Mənim kimi gec evlənəndə nəvən yerindəkilərə atalıq eləyəsən gərək... Düzdü, bunu da deyiblər ki, subaylıq sultanlıqdı, amma mən bir sultanlıq görməmişəm... Həmişə zəhmətlə keçib ömrüm. Elə indi də... Buraları silib-süpürürəm, bağ-bağatla məşğul oluram, sənin kimi hörmətli qonaqlara qulluq edirəm, gecələr də kitab dükanında qarovulçuluq edirəm.

– Bəs heç yatmırsan, Fəttah dayı?

– Yatmaq nədi, a saqqalı ağarmış?! Zarafatdı bir ordunun əppəyini yetirmək?.. «Qu» deyəndə su verəsən gərək, «qa» deyəndə çörək. – Fəttah dayı qəlyanına dərin bir qullab vurdu.

Gündüz Kərimbəyli dedi:

– Boynumun yanındakı yaman göynədir, Fəttah dayı.

– Soyuğu çəkib çıxarır də canından. Vaxtı çatanda götürəcəyəm.

– Darıxmırsan mağazada?

Fəttah dayı qəlyanını tüstülədə-tüstülədə:

– Yox, bacıoğlu, darıxmıram. Sizin vaxtınız olanda kinoya baxırsınız, bunları, – Fəttah dayı Mürşüdə işarə elədi, – televizorun qabağından çəkmək olmur. Mənim kinom da, televizorum da keçib getmiş günlərdi, gəlirlər bir-bir gözümün qabağına... – Fəttah dayının gözləri naməlum bir nöqtəyə zillənib qaldı və kişi elə bil ki, dünyanın bütün işlərini yadından çıxarıb sidq-ürəkdən dedi. – Keçən günə gün çatmaz, calasan da günü günə!.. – Sonra elə bil ki, yenə özünə qayıtdı. – Qayğı da ki, – Fəttah dayı yenə Mürşüdə işarə elədi, – görürsən də, kefin istəyən qədər...

Mühüm işlər müstəntiqi Gündüz Kərimbəyli sir-sifətini qırışdırdı:

– Yaman göynədir e, Fəttah dayı...

Fəttah dayı qəlyanını ağzından çıxarıb, bir az rişxəndlə gülümsədi:

– Ba, a kişi, sənin heç davamın yoxmuş ki...

Fəttah dayı yenə də qəlyanını ağzına qoydu və bu dəfə pəncərəyə tərəf baxdı. Sulu qar pəncərə şüşəsini döyəcləyirdi, elə bil ki, bayırın soyuğu bu isti və xudmani otağa soxulmaq istəyirdi.

Gündüz Kərimbəyli Mürşüdə, sonra Fəttah dayıya baxdı və soruşdu:

– Imaş harda işləyir, Fəttah dayı?

– Hansı Imaş?

Mürşüd də öz növbəsində soruşdu:

– Səadət müəllimənin qardaşı?

Gündüz Kərimbəyli yəqin ki, yenə bankaların göynətməsindən sifətini turşudub:

– Hə, – dedi. – Səadət müəllimənin qardaşı.

Fəttah dayı qəlyanını tüstülədə-tüstülədə:

– Gərək heç harda işləməsin, – dedi.

– Niyə? Xəstədi?

Fəttah dayı bir müddət cavab vermədi, sonra dedi:

– Xəstə olmağına xəstədi, amma başqa xəstəlikdi xəstəliyi...

Gündüz Kərimbəyli bir söz deməyib Fəttah dayıya baxdı. Fəttah dayı:

– Adamlardı də... – dedi. – Hərənin bir xəstəliyi olur, biri iflic olur, birinin gözü tutulur, biri də oğru olur. Bayaq dediyin də... Kolleksiyaçı...

Gündüz Kərimbəyli soruşdu:

– Hansındandı Imaş?

Fəttah dayı kətildə qurcalandı:

– Biri ki, haram çörək yedi, gözümün düşmənidi... Düşmənidi gözümün! Hə, oğrudu, oğru Imaş deyərlər ona, anasının əmcəyini kəsəndi...

Mürşüd dedi:

– Səadət müəllimə yaxşı adamdı.

Fəttah dayı:

– Meşə çaqqalsız olmaz, – dedi. – Camaatın toyuğunu, hinduşkasını, qazını, ördəyini oğurladı, yedi-içdi, tənbeh elədilər, bu dəfə də başladı camaatın qoyununu, inəyini, camışını oğurlamağa, atını oğurlamağa, tutdular, neçə il yatdı, indi çıxıb bir-iki aydır, işləmir hələ...

Mürşüd dedi:

– Indi bəs nə oğurlayacaq? Adam?

Fəttah dayı qəlyanı ağzından çıxarıb oğluna çımxırdı:

– Sən kiri! – Gecə vaxtı oğru söhbəti kişinin qanını qaraltmışdı; sonra ayağa qalxıb yorğanı aşağı çəkdi və bankaları bir-bir qoparmağa başladı; bankalar səs sala-sala Gündüz Kərimbəylinin kürəklərindən qopurdu. – Pah! Qapqara qançırdı yerləri, yaman tutubmuş...

Bankalar bir-bir torbaya yığıldı. Fəttah dayı bankaların yerini tez-tələsik ovxalayıb yorğanı yuxarı çəkdi və qonağın üstünü əməllicə basdırdı.

– Yat, bacıoğlu. Gecən xeyrə qalsın.

– Sağ olun.

– Gecə durmaq olmaz. – Guya ki, bir işdən ötrü gecənin yarısı durub-durmamaq mühüm işlər müstəntiqinin özündən asılı idi.

Mürşüd bic-bic güldü:

– Sağ olun.

– Sağ ol, Mürşüd kişi.

Mürşüd banka torbasını götürüb otaqdan çıxdı. Fəttah dayı da işığı keçirib, onun ardınca otaqdan çıxdı və qapını örtdü.

Birdən-birə otağa çökən qaranlıq içində pəncərənin şüşəsi yavaş-yavaş parıldamağa başladı.

Sulu qar tıqqıltı ilə şüşəni döyəcləyirdi.

Gündüz Kərimbəyli arxası üstə çevrilib qollarını başının ardında çarpazladı və gözlərini pəncərəyə zillədi; elə bil ki, şüşənin tıqqıltısı elə hey nəsə deyirdi və mühüm işlər müstəntiqi də bu tıqqıltıya qulaq asırdı...

## VI

Sulu qar toxtamaq bilmirdi. Su bütün həyət-bacanı ağzına almışdı.

Qulağıkəsik it səs eşidib ayağa qalxdı və bu səs salanın Ayna xala olduğunu bilib yenə başını damın ağzından çəkdi, yerində uzandı.

Ayna xala başını qapıdan artırmaya tərəf uzadıb bir müddət qaranlığa baxdı, sonra artırmadan keçib ehmallıca-ehmallıca taxta pilləkənləri qalxmağa başladı. Ayna xala bir pilləkən qalxıb dayanırdı, qulaq asırdı, şübhəli bir şey hiss etməyib bir pilləkən də qalxırdı.

Ayna xala ikinci mərtəbəyə çıxıb qapı ağzında dayandı, yenə bir müddət tərpənmədi, sonra aşağı əyilib qulağını qapıya söykədi.

Içəridə kimsə var-gəl edirdi – addım səsi gəlirdi. Sonra çarpayının dəmir yayları cırıldadı, sonra sükut çökdü.

Ayna xala bir az beləcə dayandı, sonra qalxdığı kimi də ehmallıca-ehmallıca pilləkənləri bir-bir aşağı düşdü və artırmanın taxta sürahisinin yanındakı mis aftafanı əlinə aldı, palçığa bulaşmasın deyə uzun tumanının balaqlarını yığıb həyətin aşağı başına tərəf getdi və qaranlıqda ağacların arasında gözdən itdi.

## VII

Xoruzun axırıncı banından xeyli keçmişdi.

Daha yağmırdı, amma göy tutqun idi və hər şey ondan xəbər verirdi ki, bu topa-topa buludlar bir azdan yenə qiyamət edəcəkdi.

Hər tərəf yaş idi – çılpaq alma, gilənar, alça ağacları da, həyətin aşağı başına gedən asfalt cığır da, ikinci mərtəbənin altındakı artırmanın sement döşəməsi də.

Fəttah dayı həyətdə odun yarırdı və Mürşüd də yarılmış odunu qucaq-qucaq götürüb ikinci mərtəbəyə qalxan taxta pilləkənin altına yığırdı.

Fəttah dayının arvadı Güldəstə artırmada samovar qaynadırdı. Onun qırx-qırx iki yaşı olardı və yeddi uşağın anası olmağına baxmayaraq, canının suyu hələ çəkilməmişdi, yaraşıqlı arvad idi.

Fəttah dayının böyük qızı taxta pilləkənlərin palçığını yuyurdu.

Səkkiz-doqquz yaşlarında bir qız artırmanın divarına söykədilmiş mizin üstündəki stəkan-nəlbəkini balaca ləyəndə isti suya salıb-çıxarıb qurulayırdı.

Üçyaşlı balaca qızın – yəqin ki, sonbeşiyin sol əli iplə bədəninə bağlanmışdı – tərpədə bilmirdi; dişlərində tutduğu çörəyi sağ əli ilə didişdirib həyətdəki toyuq-cücəyə atırdı.

Gündüz Kərimbəyli ikinci mərtəbənin şüşəbəndindən çıxanda, Fəttah dayı başını qaldırıb onu gördü və birinci salamlaşdı:

– Sabahın xeyir, bacıoğlu, nə var, nə yox?

Gündüz Kərimbəyli həyətə düşə-düşə:

– Sabahınız xeyir, – dedi. – Işlər düzəlib deyəsən.

Güldəstə sübhdən həyətə düşən qonağın yanında, deyəsən, özünü bir balaca naqolay hiss edib, yun şalının altından başına örtdüyü ipək yaylıqla yaşmaqlandı və yavaşdan onun salamını aldı.

Gündüz Kərimbəyli Fəttah dayıya yaxınlaşıb gülümsəyə-gülümsəyə:

– Həmişə işdə-gücdə, Fəttah dayı! – dedi.

Fəttah dayı iki əli ilə baltanın vələs sapından yapışıb yuxarı qaldırdı, kötüyün üstündəki oduna endirdi və bir zərbə ilə yoğun odun parçasını ikiyə böldü. Dedi:

– Iş yiyəsi işdə gərək.

– Kömək eləyim?

Fəttah dayı:

– Dəmir döyən dəmirçi olar, – dedi və güldü. – Inciyib eləyərsən ha birdən sözümdən... Yəni deyirəm ki, hər iş öz ustasının əlində asandı.

Gündüz Kərimbəyli də gülümsəyib:

– Incimək nədi, a Fəttah dayı? – dedi və yanında dayanmış Mürşüdün qıvrım saçlarını qatışdırıb başını sinəsinə tərəf sıxdı. – Yadında saxla atanın bu sözlərini. Hikmətdi bunlar...

Fəttah dayı dedi:

– Atasının sözləri yox, elin-obanın sözüdü bunlar. Milyon-milyon mənim kimi Fəttah dayılar gəlib, Fəttah dayılar gedib, Süleymana qalmayan dünyadı... Elin sözüsə qalıb... – Fəttah dayı baltanı yenə başının üstünə qaldırdı və: – Dərslərini yaxşı oxusunlar, özlərinə bir gün qazansınlar, vaxt gələcək bu sözlər öz-özünə gəlib düşəcək yadlarına – deyib zərbəni vurdu; kötüyün üstündəki yoğun odun yenə bir zərbəyə ikiyə bölündü.

Balaca qız gəlib onların yanında dayandı və maraqla tanımadığı əmiyə baxdı.

Gündüz Kərimbəyli soruşdu:

– Sənin adın nədi?

Qız cavab vermədi.

– Dilin yoxdu sənin, hə?

Qız dilini çıxarıb göstərdi.

– Varıymış ki!.. – Və yalnız bundan sonra Gündüz Kərimbəyli uşağın sol qolunun bədəninə sarıldığına fikir verdi.

– Bu qızın qoluna nə olub belə?

Güldəstə başındakı şalı düzəldə-düzəldə:

– Solaxaydı, – dedi. – Bağlamışam ki, sağ əlini işlətsin.

Qız anasına tərəf baxdı, sonra üzünü qonağa tutub bağlı əlini tərpətdi və sübh tezdən düşdüyü bu bəladan xilas olmaq üçün ondan imdad istədi:

– Mən istəyirəm ki, sağ əlim bu olsun. – Yenə sol əlini tərpətdi.

Gündüz Kərimbəyli güldü. Güldəstə də gülümsəyib başını buladı, yəni ki, bunun belə balacalığına baxmayın, şeytana papış tikər.

Fəttah dayı dedi:

– Gör bir nə istəyir ha! – və o da güldü, sonra üzünü qonağa tutub soruşdu:

– Əl-üzünü yumusanmı?

– Şüşəbənddəki əlüzyuyanda yudum.

– Əşşi, o yuyunmaq deyil ki... Mürşüd, yeri su tök, əmin üzünü yusun.

Mürşüd birinci mərtəbədəki otağa girib bir dolça su gətirdi və elə həyətin ortasındaca Gündüz Kərimbəylinin əlinə tökdü. Gündüz Kərimbəyli suyu üz-gözündə şappıldada-şappıldada:

– Bu lap qiyamət iş oldu!.. Borclu borclunun sağlığını istər, a Fəttah dayı! – dedi.

Fəttah dayı da sırıqlısının döş cibindən çıxartdığı qəlyanı ağzına qoyub:

– Borc almaq başlanan yerdə dostluq pozular, – dedi. – Nə borc? Öz evin bil buranı. Nə qədər ki, buradasan, gözümüz üstə yerin var. Özünü möhkəm tutasan gərək, vaxtında yeyib-içəsən. Işin sənin ağır işdi...

## VIII

Prokuror Dadaşlı sobanın qarşısında əyilib maşa ilə ocaqda yanan odunları yerbəyer elədi. Isti dəydikcə onun ətli sifəti daha da pörtür, qızarırdı; sonra maşanı sobaya söykəyib belini düzəltdi və hər dəfə adamın heyrət etdiyi yüngül addımlarla mizin arxasına keçib əyləşdi.

Gündüz Kərimbəyli kürkünü dizlərinin üstünə salıb yumşaq kürsüdə oturmuşdu və Fəttah dayının bankaları da öz işini görmüşdü; mühüm işlər müstəntiqinin görkəmi indi yenə sağlamlıqdan və cavanlıqdan xəbər verirdi.

Cinayət axtarışı üzrə baş inspektor, kapitan Cabbarov arıq, uzun kişi idi, yuxarı başı prokurorun mizinin tən ortasına söykədilmiş uzun stolun arxasında oturmuşdu və qarşısındakı qovluğun içindəki kağızlara baxırdı. Sonra o, araya çökmüş sükutu pozdu:

– Altı ildi mən bu rayonda işləyirəm. Elə bilirdim ki, bura, dünyanın ən sakit guşəsidi. Oğurluq olub, dava-dalaş olub, alver olub, amma ölüm hadisəsi olmayıb. Balaca rayondu, adamlar bir-birini tanıyır, mehribandı... Birdən-birə bu cür soyğunçuluq...

Gündüz Kərimbəyli ayağa qalxıb kürkü kürsünün üstünə atdı və:

– Bunları eşitmişəm! – dedi, sonra pəncərəyə tərəf yaxınlaşıb dayandı.

Yenə yavaş-yavaş sulu qar yağırdı və bir dəstə uşaq bunun fərqinə varmayıb suya, palçığa bata-bata futbol oynayırdı.

Gündüz Kərimbəyli gözlərini futbol oynayan uşaqlardan çəkməyərək dedi:

– Soyğunçuluğa oxşamır bu...

Araya sükut çökdü və kapitan Cabbarov gözlərini qovluqdakı kağızlardan çəkib prokurora baxdı. Prokuror Dadaşlı mizə dirsəklənib ətli çənəsini hər iki ovcuna söykədi və altdan-yuxarı mühüm işlər müstəntiqinə baxdı.

Küçədən bir yük maşını keçib səkiyə çıxmış uşaqların üst-başını, üz-gözünü tamam lığ elədi. Uşaqlar maşının ardınca əllərini-qollarını oynada-oynada yəqin ki, sürücünün qarasına deyindilər və sonra yenə də küçənin ortasına düşüb oynamağa başladılar.

Gündüz Kərimbəyli pəncərədən aralanıb kapitan Cabbarovla üzbəüz oturdu:

– Mən Mahmud Qəmərlinskinin soyğunçuluq məqsədilə öldürülməsini tamam inkar etmirəm. Hər şey ola bilər... Amma bir məsələ məni çox düşündürür. O, nəfəsini dərməmiş nə üçün evdən çıxıb, özü də tək? Ürəyi qısılıb? Ola bilər. Bəs, niyə həyətdə, evin qabağında gəzişməyib, gəldiyi yolla düz geri qayıdıb? Deyirsiniz ki, Mahmud Qəmərlinski gəzməyə çıxıb. Şübhə edirəm buna. Fazil müəllimin evi ilə hadisə baş verən yer arasında xeyli məsafə var. Palçıqlı, sulu bir yoldu. Arada isə, Fazil müəllimgilin evlərinin yaxınlığında, lap yolun üstündə parkdı. Niyə orada gəzişməyib? Palçıq yox, su yox... Vağzala qayıdırmış? Nə üçün? Bakıya qayıtmaq istəyirmiş?

Kapitan Cabbarov dedi:

– Gecə vaxtı burdan Bakıya gedən qatar yoxdu.

Gündüz Kərimbəyli onun sözlərini təsdiq etdi:

– Elədir, mən də yoxladım bunu. Ikincisi, bu cür tələsik Bakıya qayıtmaq üçün bir səbəb olmalı idi. Nə ola bilərdi? Nəvəsi ilə sözləşib? Belə tezliklə? Bəlkə Fazil müəllim düz demir?

Prokuror Dadaşlı nəyəsə etiraz etmək istədi. Gündüz Kərimbəyli ona macal vermədi:

– Bütün bunların hamısı rəvayətlərdir, yoldaş prokuror. Əgər Fazil müəllim düz demirsə, daha məntiqli bir yalan uydurmaq olmazdı? Olardı... Özü də Fazil müəllim küt adama oxşamır... Bu saat, mənim fikrimcə, ən əsas məsələ budu: Qəmərlinski nə üçün tələsik evdən çıxıb, nə üçün birbaş vağzala tərəf qayıdıb, yəni nə üçün gəldiyi yolla da geri qayıdıb?

Prokuror Dadaşlı mizin orta gözünü çəkib siqaret çıxartdı və Gündüz Kərimbəyliyə təklif etdi.

Gündüz Kərimbəyli:

– Çox sağ olun, – dedi. – Çəkən deyiləm.

Prokuror Dadaşlı siqareti yenidən mizin üstünə qoyub:

– Mən də çəkən deyiləm, – dedi və ayağa qalxıb sobaya yaxınlaşdı, yenə maşanı götürüb ocağın közünü qarışdırdı, sonra belini düzəldib mühüm işlər müstəntiqinə baxdı. – Deməli, Qəmərlinski başqa bir məqsədlə öldürülüb. Izi də yayındırmaqdan ötrü cibindən saatını, portmanatını çıxarıblar...

Bir müddət yenə araya sükut çökdü. Prokuror Dadaşlının sözlərindəki rişxəndi sezmək üçün Tarix - Nadiri yarısına kimi oxumaq lazım deyildi. Sükutu Dadaşlının özü pozdu:

– Bu ki, lap standart oldu, yoldaş mühüm işlər müstəntiqi...

Gündüz Kərimbəyli prokuror Dadaşlının pörtmüş sifətinə baxıb gülümsədi:

– Standart nədi? Standart da, şablon da, trafet də gündə gördüyümüz, gündə təsadüf etdiyimiz şeylərdi, elə deyil?

Prokuror Dadaşlı mühüm işlər müstəntiqinin sualına cavab vermədi; pərtliyi hələ keçib getməmişdi və o, həmişəki yüngül və ahəstə addımları ilə öz mizinə tərəf gələ-gələ:

– Əlbəttə, – dedi, – sizin «nə üçün?» – sualınızda bir həqiqət var. Bunun üstündən elə-belə keçmək olmaz. Amma, axı, bu tərəfdən də bir «nə üçün?» – çıxır. Oğru Imaşın ki, bu işlərdə bir barmağı yoxdu, niyə danır ki, vağzalda olub? Bir səbəb var ki, danır də...

Prokuror Dadaşlı iki əlini də mizə söykəyib mühüm işlər müstəntiqinə tərəf əyildi və bu dəfə rəsmi yox, yana-yana dedi:

– Adamtanıyanam mən! Imaş kimilərini yaxşı tanıyıram, dabbaqda gönlərinə bələdəm bu köpəkuşağının! Bağışlayın... Canavar ac olanda kəndin, rayonun həndəvərində dolanar... Gəlib sümsünüb vağzalda, görüb ki, Bakıdan gələn adamdı, qolunda da qızıl saat, nə bilsin ki, kişi pensiya ilə dolanandı, portmanatında da otuz manat pul... Qaralayır onu, özü də bilirsiniz, o fikirlə yox ki, bu saat öldürəcək bunu, var-dövlətinə sahib olacaq, yox, elə-belə, necə deyim, sövq-təbii... Kişinin evdə ürəyi qısılıb... Sizin «nə üçün?»ünüz burada başlayır. Hər halda, Qəmərlinski evdən çıxıb. Oğru Imaş soyuqdan büzüşə-büzüşə, cibində siçanlar oynaya-oynaya, öyrəncəli əlləri də gicişə-gicişə yenə onunla rastlaşır. Bəlkə elə söhbətə başlayır onunla, dünyanın dərdindən-sərindən danışır... Sonra da bitirir kişinin işini! Ola bilər bu cür, vicdan haqqı ola bilər! Mən yaxşı tanıyıram bu... – Prokuror Dadaşlı demək istədiyi açıq-aşkar yağlı bir sözü udub soruşdu. – Ola bilməz belə, hə?

Mühüm işlər müstəntiqi Gündüz Kərimbəyli gülümsədi və:

– Bütün bunlar hamısı rəvayətlərdir, – dedi. – Sizin söylədikləriniz də, mənim mülahizələrim də... – Sonra ayağa qalxıb telefon aparatına yaxınlaşdı. – Buradan Bakını avtomatla yığmaq olur?

Müstəntiq Cabbarov:
– Yox, – dedi. – Gərək sifariş edəsiniz. Bizi tez calaşdırırlar.
Prokuror Dadaşlı yenə bir balaca rişxəndlə soruşdu:
– Yenə konsperasiya?
– Yox, konsperasiya üçün bir əsas yoxdu. Evlə danışmaq istəyirəm, uşaqlarla.
O, telefonun dəstəyini götürdü.

## IX

Güldəstə birinci mərtəbənin artırmasında ocaq qalamışdı.
Fəttah dayı qəlyanını tüstülədə-tüstülədə həyətdə yekə bir xoruzun dalınca qaçan Mürşüdə deyirdi:
– Allahın bir xoruzunu da tuta bilmirsən!
Güldəstə içi su dolu mis qazanı ocağın üstünə qoya-qoya:
– Allahın xoruzu yox, Allahın bəlasıdı bu! – dedi. – Uşaq neyləsin buna?
Sol qolu hələ də bədəninə bağlanmış balaca qız Fəttah dayının yanına gəlib:
– Qolumu aç, – dedi. – Mən tutum.
Fəttah dayı uşağın başını sığallayıb:
– Bicin birisən, – dedi. – Kimə oxşamısan belə?
Güldəstə gülə-gülə:
– Kimə oxşayacaq, ay kişi? – dedi. – Bilmirsən kimə oxşayıb?
Balaca qız dedi:
– Cırtdana oxşamışam.
Fəttah dayı uşağı qucağına aldı:
– Cırtdana oxşamamısan e, elə özüsən Cırtdanın!..
Mürşüd atılıb xoruzun quyruğundan tutdu, amma bu dəfə də əlində saxlaya bilmədi. Xoruz qaqqıldaya-qaqqıldaya əldən çıxıb qaçdı.
Fəttah dayının səbr kasası daşdı:
– Tez elə, ə, a bivec, günorta keçir, qonaq gələcək indi!..
Mürşüd yenə də xoruzun dalınca yüyürdü.

## X

Yağmırdı, amma yenə də hər tərəf bomboz idi və bu bozluq içində taxtapuşlardakı bacalardan çıxan tüstü güclə seçilirdi. Tüstü bir az yuxarı qalxıb rayonun üstündən gəlib-keçən topa-topa buludlara qatışırdı; buludlar az qala bacaların üzərindən axıb gedirdi.
Rayonun yuxarısındakı dağların ətəyi də duman içində idi.
Bu yaş taxtapuşlar da, bu dumanlı dağlar da, bu yerlərdə gözə görünən hər şey bu saat gün həsrətində idi.
Imaş həyətin aşağı başında diz çöküb, təzə düzəltdiyi qapının kənarlarını rəndələyirdi və bir müddətdən sonra o, Gündüz Kərimbəylinin böyürtkən kollarından salınmış çəpərin yanında dayandığını görəndə, halına təfavüt etmədi.
Gündüz Kərimbəyli:
– Işiniz irəli! – dedi.
Imaş cavab vermədi və daha artıq bir cidd-cəhdlə işinə davam elədi.

Gündüz Kərimbəyli yaxınlaşıb həyətin qapısını açdı:
– Olar?
Imaş dönüb bu üzlü qonağa tərəf baxdı, başını tərpətdi, yəni ki, olar.
– Salaməleyküm. – Bunu da mühüm işlər müstəntiqi dedi.
Və Imaş yenə də başını tərpətdi, yəni ki, əleyküməssalam.
Gündüz Kərimbəyli əvvəlcə axurun qabağında qapını iki dizləri arasına alıb rəndələyən Imaşa baxdı, sonra hər şeyi yerli-yerində olan bu səliqəli həyəti nəzərdən keçirdi və dedi:
– Əgər bu gün danışmaq fikriniz yoxdursa, mən gedim.
Imaş işinə davam edə-edə:
– Bu gün gedib, sabah qayıdacaqsan də, naçalnik! – dedi.
Gündüz Kərimbəyli:
– Qayıdacağam yox, sizi çağırtdıracağam! – dedi. – Sonra öz xüsusi təbəssümüylə gülümsədi. – Nə bildiniz ki, «naçalnik»əm?
Imaş:
– Sizlərlə çox rastlaşmışam, – dedi. – Görən kimi tanıyıram. O avçarkalar var ha, naçalnik, iyləyib iz tapırlar e, mən də bir dəfə burnumu çəkən kimi o saat sizləri tanıyıram.
Görünür, mühüm işlər müstəntiqi də beləlarini yaxşı tanıyırdı və onlarla danışmağın qaydasını da bilirdi. O, əlini kürkün döş cibinə salıb vəsiqəsini çıxartdı və Imaşın gözlərinin qabağında tutub birbaş məsələyə keçdi:
– Ayın iyirmi beşində gecə siz halda idiniz?
Imaş hələ də işinə davam edirdi.
– Iyirmi beşində?.. Nə bilim mən, naçalnik, işsiz-gücsüz adamam, görəsən, harada veyillənirdim...
– Yadınıza salın.
– Nədi axı, naçalnik, yenə keçisi, buzovu oğurlanan var?
Gündüz Kərimbəyli Imaşın sözlərindəki açıq-aşkar lağlağıya fikir verməyib daha artıq təfsilatla təkrar etdi:
– Ayın iyirmi beşində, müəllim Fazil Qəmərlinskinin babası öldürüldüyü gecə, siz harda idiniz?
Imaşın əli işdən dayandı və onun damarları çıxmış arıq boğazının iri hülqumu enib-qalxdı.
– Nə demək istəyirsən, naçalnik?
Mühüm işlər müstəntiqi bu dəfə səsini qaldırıb daha artıq bir sərtliklə dedi:
– Onu demək istəyirəm ki, tanımadığınız adamla «sən»lə danışmayın! Biz yoldaş olmuşuq?
Imaş cavab vermədi.
– Soruşuram sizdən, yoldaş olmuşuq biz? Cavab verin!
Imaş özü də bilmədi ki, necə ayağa qalxdı və cavab verdi:
– Yox.
– Onda zəhmət çəkin «Siz»lə danışın!
Imaş şalvarının dizlərini çırpa-çırpa:
– Bağışlayın, – dedi.
– Ayın iyirmi beşində gecə hardaydınız?

Imaş sırıqlısının cibindən siqaret çıxarıb yandırdı və bir-iki qullab vurandan sonra bir az özünə gəlib dedi:

– Həmin gecə... iyirmi beşində mən evdə idim... yatmışdım...

– Evinizdəkilər bunu təsdiq edə bilər?

Imaş cavab vermədi.

– Bacınız necə? Təsdiq edər bunu?

Imaş təzə yandırdığı siqareti hirslə yerə çırpdı:

– Onunla işiniz olmasın! – dedi. – Mənim tayım deyil o! Təmiz adamdı...

Gündüz Kərimbəyli həyətin qapısına tərəf addımlaya-addımlaya:

– Sağ olun, – dedi. – Hələ görüşəcəyik yəqin. – Sonra bir an ayaq saxlayıb əlavə etdi. – Dünyada ən xoşuma gəlməyən şey yalan danışmaqdı. Yadınızda saxlayın bunu...

Imaş onun ardınca gedə-gedə:

– O vaxt ki, adam gözükölgəli oldu, – dedi, – onda da batdı...

Gündüz Kərimbəyli ona tərəf döndü:

– Niyə işləmirsiniz?

Nədənsə, Imaş daha bu cavan «naçalnik»in gözlərinin içinə baxa bilmirdi və bu dəfə də gözlərini yayındırıb:

– Bizim bu rayonda adamın adı çıxınca, canı çıxsa yaxşıdı! – dedi. – Adımın yanına «oğru» ləqəbi qoyublar. Kimdi indi burada oğru Imaşa iş verən? Kimdi oğru Imaşla bir yerdə işləmək istəyən? Eh... – Imaş əlini yellədi və yenə də sırıqlısının cibindən bir siqaret çıxarıb yandırdı. – Deyirəm çölüm yanır, demirəm içim... – Sonra yəqin bu dərəcədə açıqlıq elədiyinə görə özünün də özünə acığı tutdu. – Bilirəm, o müəllimin işləridi bu! O göndərib sizi mənim üstümə! Amma bir şey çıxmaz bundan! – Imaş yavaş-yavaş səsini qaldırırdı. – Demişəm ona! – Sonra əyilib axurun qabağında yerə atılmış iri paslı bıçağı götürüb zərblə qapıya atdı; bıçaq qapıya sancıldı və paslı-palçıqlı dəstəsi bir müddət titrədi. – Demişəm ki...

Mühüm işlər müstəntiqi onun sözünü yarımçıq kəsdi:

– Neçə yaşınız var?

Imaş susub gözlərini döydü, yəqin fikirləşdi ki, görəsən bu sualın da arxasında bir biclik durur, ya yox? Sonra cavab verdi:

– Əllini ötüb...

Gündüz Kərimbəyli həyət qapısından çıxa-çıxa:

– Bəs nə vaxt özünüzə bir gün ağlayacaqsınız? – dedi. – Vaxtdı.

Gündüz Kərimbəyli sağollaşmadan uzaqlaşıb getdi.

Imaş bir müddət dayanıb onun ardınca baxdı, sonra geri dönüb axura tərəf gəldi və yenə də siqareti ağzından alıb hirslə palçığa çırpdı.

Qapıya sancılmış bıçağın dəstəsi isə hələ də titrəyirdi.

## XI

Gündüz Kərimbəyli soyuq bayırdan sonra prokuror Dadaşlının isti kabinetinə girəndə əvvəlcə, istər-istəməz, çırthaçırtla yanan sobaya baxdı. Əlbəttə, bu, prokuror Dadaşlının gözündən qaçmadı və o, əməlli-başlı bir qürurla:

– Hə, yaxşı yanır, – dedi. – Sonra qarşısındakı uzun mizin arxasında cinayət axtarışı üzrə baş inspektor Cabbarovla üzbəüz oturmuş cavan oğlana işarə etdi. – Ekspert sizi gözləyir.

Gündüz Kərimbəyli kürkünü çıxara-çıxara cavan oğlanla əl tutuşdu.

– Məhkəmə-tibb eksperti Kazımov.

Mühüm işlər müstəntiqi birbaşa mətləbə keçdi:

– Yoldaş prokuror, zəhmət olmasa, Qəmərlinskinin ölüm işi ilə əlaqədar qaldırılmış cinayət işini göstərin.

Prokuror Dadaşlı qarşısındakı qovluğu Gündüz Kərimbəyliyə tərəf uzatdı:

– Budur, buyurun. – Yəni ki, biz də burda oturub gözümüzü göyə zilləməmişik, iş görürük.

Gündüz Kərimbəyli bir balaca gülümsədi, sonra qovluğu götürüb, Kazımovun yanında əyləşdi və qovluqdan məhkəmə-tibb ekspertizasının rəyini çıxartdı:

– Sizin rəyinizə görə Qəmərlinski bir tərəfi iti, o biri tərəfi küt bıçaqla vurulub?

– Bəli, elədir.

– Bıçağın iti tərəfi üzüyuxarıdı?

– Elədir.

Gündüz Kərimbəyli bu dəfə prokuror Dadaşlıya müraciət etdi:

– Bıçaq çox dərinə yeriyib. Buna görə də siz bu fikirdəsiniz ki, onu hündürboylu bir adam vurub?

Prokuror Dadaşlı:

– Əlbəttə, – dedi. – Qəmərlinski yağışın altında küçədə oturmayıb ki, gəlin məni yuxarıdan aşağı bıçaqla vurun.

– Məsələ də burasındadır ki, bıçağı əllə vurmayıblar, atıblar! – Gündüz Kərimbəyli ayağa qalxıb divanın üstünə atdığı kürkün cibindən iri bir ovçu bıçağı çıxartdı. – Bunu bu gün sizin univermaqdan almışam. Doludur orda. – Sonra o, əlindəki bıçaqla məhkəmə-tibb ekspertinə yaxınlaşdı. – Təxminən belə bir bıçaqla vurulub, eləmi? Görürsünüz, bir tərəfi iti, o biri tərəfi kütdür.

Ekspert Kazımov ovçu bıçağına baxa-baxa hələ də bir şey başa düşə bilmədi:

– Hə, – dedi. – Belə bir bıçaqla vurublar.

Mühüm işlər müstəntiqi Dadaşlıya baxdı və prokuroru tamam çaş-baş salmış bu mülahizəsini izah etdi:

– Heç bir adamöldürən cani, yuxarıdan aşağı bıçağın küt tərəfi ilə zərbə vurmaz. – O, bıçağın dəstəyindən yapışıb yuxarı qaldırdı. – Bax, belə tutasan gərək... Tərsinə tutmaq heç cürə mümkün deyil.

Prokuror Dadaşlı bir söz demədi, əvvəlcə əlini uzadıb qovluğun içindəki fotoları götürdü və elə bil birinci dəfə görürmüş kimi, bir-bir onlara baxdı, sonra ayağa qalxdı, mühüm işlər müstəntiqinin ona tərəf uzatdığı bıçağı alıb ətli barmaqlarıyla dəstəyindən yapışdı və Gündüz Kərimbəylinin göstərdiyi kimi, yuxarı qaldırdı; bu bircə anın içində həmişə onun sifətindən əskik olmayan mehriban ifadə itdi, elə bil ki, o, doğrudan da kimi isə vurmaq istəyirdi, sonra dedi:

– Burada mübahisəlik bir şey yoxdu. Düz deyirsiz... Atıb zalım oğlu, işini bitirəndən sonra da dartıb çıxarıb.

Prokuror Dadaşlı bu sözləri elə dedi, elə bil ki, şahmat oynadığı vaxt vəziri gətirib qoyub piyadanın qabağına ki, vur və bunu sonradan görüb, duyuq düşüb.

O, mizin arxasından çıxıb sobaya tərəf getdi; elə yüngül və ahəstə addımlayırdı ki, elə bil yüz otuz kiloluq bədənin yiyəsi o deyildi.
Gündüz Kərimbəyli gülümsəyib:
– Hə, kimdi sizin rayonda belə bıçaq atan? – soruşdu.
Prokuror Dadaşlı sobanın yanındakı maşanı götürüb dedi:
– Bıçaq atanı bilmirəm, amma Fazil Qəmərlinski məktəbdə ox atmaq dərnəyi düzəldib.
Mühüm işlər müstəntiqi Gündüz Kərimbəyli də sobaya yaxınlaşdı və prokuror Dadaşlının əyilib maşa ilə ocağı qarışdırmağına baxa-baxa:
– Sizin xəbəriniz var? – dedi. – Qəmərlinski əvvəllər milisdə işləyib.
Prokuror Dadaşlı gözlərini ocaqdan çəkib altdan-yuxarı mühüm işlər müstəntiqinə baxdı, yəni ki, görəsən, bu yeni xəbərin arxasında nə dayanıb?
Gündüz Kərimbəyli Cabbarova müraciət etdi:
– Siz elə bu gün Bakıya getməlisiniz. Daxili Işlər Nazirliyinin arxivində Qəmərlinskinin sənədləri ilə tanış olmalısınız. Bu barədə sizinlə ətraflı söhbət edəcəyəm.

## XII

Fatma arvadgilin küçə qapısının ağzında iki gödək şalban parçasının üstünə vurulmuş uzun bir taxta vardı və bu əldədüzəltmə skamya rayon arvadlarının gimgə yeri idi. Üç-dörd gün yağan sulu qar hələlik dayandığı üçün, fürsəti fövtə verməyib bura yığılmışdılar.
Fatma arvad deyirdi:
– Müəllimin ki, babasını öldürüblər burda, tapacaqlar bu gün-sabah öldürəni! Bakıdan böyük naçalnik gəlib. Deyir adamın ki, gözünün içinə baxdı, bilir ki, düz adamdı, ya yox! Bilir ki, hansı yuvanın quşudu! Eh! Gidi dünya!.. Kişini öldürüblər, amma nəvə eşqbazlıqdadı oğru Imaşın bacısıyla! Səhərdən-axşamacan çay qırağıyla o baş sənin, bu baş mənim...
Qarılardan biri söyləndi:
– Nə bilirsən axı, a Fatma, heylə danışırsan?
O biri qarı dedi:
– Fatma bilməyən şeyə qurd düşər.
Fatma arvad:
– Gözümlə görmüşəm, – dedi. – Gözümlə görmüşəm həyasızların çay qırağında qol-boyun olduğunu!
Ayna xala soruşdu:
– Bu havada?
– Qızışanda nə havabazlıqdı, Fatma, – dedi. – Oğru Imaşın bacısına hava nə təsir edəcək?
– Yəni deyirsən o Səadət müəllimə Zibadan da pisdi? – Bu sözləri də Ayna xala dedi.
Fatma arvad yaman acıqlandı və belə məlum oldu ki, bu sözlər onun yarasının üstünə köz basdı.

– Bura bax, ay arvad! – dedi. – Allaha and olsun, sənə bir düdəmeyi-hindi gələrəm ki, yüz il bundan əvvəl anadan əmdiyin süd indi burnundan tökülər! Zibadı, nə zibildi, o mənim nəciyəzimdi ki, başıma vurursan, hə?!.

Cəbinin yük maşını gəlib qapının ağzında dayanmasaydı, yəqin ki, arvadlar küçə söyüşünə çıxacaqdılar.

Cəbi maşından atılıb salamsız-kalamsız həyətə girdi və Fatma arvad da tələsik oğlunun ardınca içəri keçib taxta pilləkənlə ikinci mərtəbəyə qalxdı.

Cəbi əynindən çıxartdığı meşin kürkü şüşəbənddəki taxta atıb köynəyinin yaxasını açdı. Əlüzyuyanın qabağına əyilib üz-gözünü yudu.

Fatma arvad dördkünc mizin üstünə göy-göyərti, çörək, duz, istiot düzdü və:

– Yaxşıca piti asmışam, – dedi. – Qəssab Abış bu gün yaxşı bir erkək kəsmişdi, döş əti götürmüşəm. Bu saat gətirirəm.

Cəbi bir söz deməyib mizin arxasında əyləşdi: bir dəstə göyü birdəfəyə götürüb ortadan bükdü və duza batırıb yeməyə başladı.

Fatma arvad bir kasa pitini buğlana-buğlana gətirib oğlunun qabağına qoydu və üstünə üzü qurama döşəkcə saldığı taxta kətildə oturdu.

Cəbi pitidən bir qaşıq götürüb çörəkdən dişlədi və çeynəyə-çeynəyə:

– Sözlü adama oxşayırsan, – dedi.

Fatma arvad həm yaşdan, həm də işdən-gücdən quruyub qaxaca dönmüş barmaqlarını bir-bir mizin üstündəki güllü klyonkaya sürtə-sürtə soruşdu:

– Sənin niyə qanın qaradı?

– Sözünü de görüm!..

– Heç... – Fatma arvad dedi. – Nə sözüm olacaq? Bayaq yenə Şəmistanın anası Tutu havayı-havayı danışırdı... O küpəgirən Ayna da bir tərəfdən...

– Nə deyirdi?

– Heç... Nə deyəcək? Zibanı çaxırdı başıma yenə.

Cəbi ağzına aparmaq istədiyi qaşığı yenə kasanın içinə saldı və təkcə bunu dedi:

– Başqa söz danış.

Cəbi təkcə bunu dedi, amma Fatma arvad yəqin başa düşdü ki, bir də Zibanın adını çəksə, qalmaqal qopacaq.

Cəbi pitini təzədən qaşıqladı.

Fatma arvad dedi:

– Niyə çörək doğramırsan?

Cəbi cavab vermədi.

Fatma arvad bir az yerində vurnuxub yenə dedi:

– Səlbinazın qızını Abbasəlinin oğluna nişanlayıblar. Vecələnin biridi deyirlər, hayıf o qızdan!.. Yaxşı qızdı, hamamda görmüşəm...

Cəbi bir söz demədi. Araya sükut çökdü və bu sükutu yenə də Fatma arvad özü pozdu:

– Bizim tində öldürülən kişinin işi üstə Bakıdan böyük adam gəlib. Deyirlər bu günə, sabaha tapacaq ki, kimdi öldürən.

Bu dəfə Cəbi qaşığı kasanın içinə atdı və pitinin suyu da bütün ətrafa sıçradı.

Cəbi bir söz demədi, ayağa qalxıb taxtın üstündən meşin kürkünü götürdü və iti addımlarla şüşəbənddən çıxıb həyətə düşdü.

Fatma arvad bu işə lap məəttəl qaldı.

Cəbinin kabinkaya atılması ilə motoru işə salmağı bir oldu; maşın yerindən götürüldü.

## XIII

Bakıda günəşli bir gün idi və indi belə məlum olurdu ki, bir belə sulu qardan, soyuqdan, palçıqdan sonra hardasa doğrudan da gün çıxa bilərmiş.

Və işıqforun qırmızı işığı günün altında ora-bura şütüyən maşınları saxlayan kimi, cinayət axtarışı üzrə baş inspektor Cabbarov küçəni keçib iti addımlarla Daxili Işlər Nazirliyinin küçə pillələrini yuxarı qalxdı...

## XIV

Bir azdan qaş qaralacaqdı və o zaman indi köpüklənə-köpüklənə axan bu çay hər tərəfi bürümüş qaranlıq içində işıldayacaqdı, köpüyü ağarmağa başlayacaqdı.

Burada çayın şırıltısından və hərdən hop-hop quşunun meşədən gələn səsindən başqa bir səs-səmir yox idi – nə maşın səsi, nə radio, nə də şəhər hay-küyü.

Hətta addımların səsi də eşidilmirdi burada – hər tərəfi bürümüş xəzəl yaş idi və mühüm işlər müstəntiqi Gündüz Kərimbəyli çılpaq ağacların arası ilə çayın axarı boyu addımladıqca bu yerlərin səssizliyinə, təmizliyinə, saflığına bir xələl toxunmurdu; bu dəm burada insanla təbiət üzbəüz idi və bu dəm burada insan təbiətin işlərinə qarışa bilmirdi.

Gündüz Kərimbəyli əllərini kürkünün cibinə salıb, asta-asta xəzəl basmış cığırla addımlayırdı. O, çaya baxırdı, ağaclara baxırdı, böyürtkən, itburnu kollarına baxırdı və burası da açıq-aşkar hiss olunurdu ki, bu saat o, bütün varlığı ilə bu səssiz, təmiz, saf təbiətin qoynunda idi, fikirləri də yəqin bu yerlərdə dolanırdı; bəlkə də başqa şey fikirləşirdi, fikirləşirdi ki, bir halda ki, dünyada belə bir səssizlik var, təmizlik, saflıq var, niyə adam adam öldürür, niyə bir nəfər başqa birisinin qanına bais olur?

Fazil müəllimlə Səadəti birinci o gördü; onlar yavaş-yavaş addımlaya-addımlaya Gündüz Kərimbəyliyə tərəf gəlirdilər; uzaqdan onların yerişində bir biganəlik hiss olunurdu, elə bil ki, bütün bu yerlərlə və ümumiyyətlə, bütün dünya ilə küsülü idilər; sonra Fazil müəllimlə Səadət onu gördü və bir-birlərinə nəsə dedilər; nə dedikləri məlum deyildi, amma bu lap yaxşı məlum idi ki, təbiətin bu kimsəsizliyində birdən-birə mühüm işlər müstəntiqi ilə rastlaşmalarına sevinmədilər...

Onlar üzbəüz dayananda, təbii ki, salamlaşdılar və Gündüz Kərimbəyli gülümsəyərək dedi:

– Mənə inanın ki, bu görüşümüz tamam təsadüfdür.

Nə Fazil müəllimin, nə də Səadətin onun gülümsəməyinə gülümsəməklə cavab vermək halı yox idi. Fazil müəllim dedi:

– Hər şey elə təsadüfdən başlanır...

– Hə, təsadüfdən çox şey asılıdı. – Bunu da Gündüz Kərimbəyli dedi.

Səadət müəllimə isə sağollaşdı:

– Sağ olun. Mən getdim.

Mühüm işlər müstəntiqi bu dəfə özünü birtəhər hiss etdi:

– Mən öz yolumla gedirəm... Sizə maneçiliyim olmayacaq...

Fazil dedi:

– Onsuz da, buralarda bir-birimizdən ayrılırıq... Rayonda bizi bir yerdə görəndə qeybət ikiqat artır...

Səadət müəllimə bir daha:

– Sağ olun, – dedi və onlardan uzaqlaşdı.

Fazil müəllim Gündüz Kərimbəylinin yanında dayandı. Bir müddət heç biri heç nə demədi. Sonra Gündüz Kərimbəyli əyilib yerdən bir çubuq götürdü və çaya baxa-baxa yavaş-yavaş addımlamağa başladı. Fazil müəllim də onun yanınca getdi.

Gündüz Kərimbəyli soruşdu:

– Sizin mənə bir sözünüz var?

– Yox, mənim... mənim elə bir sözüm yoxdu. Amma sizin yəqin yenə mənimlə işiniz var... Sabah da yəqin mənim üçün məktəbə gələcəkdiniz...

Gündüz Kərimbəyli yenə də məxsusi təbəssümüylə gülümsədi və:

– Acığınız tutmasın, – dedi. – Səadət müəllimə ilə bugünkü söhbətimiz faydalı oldu.

– Bir şey öyrənə bildiniz? – Fazil müəllimin sualında əməlli-başlı rişxənd vardı.

– Öyrəndim, əlbəttə...

– Məsələn, nə öyrəndiniz?

– Məsələn, öyrəndim ki, – Gündüz Kərimbəyli ani olaraq Fazil müəllimə baxdı, – o sizi çox istəyir.

Fazil müəllim əvvəlcə bir söz demədi və yəqin burasını da birdəfəlik başa düşdü ki, bu adamla danışanda rişxəndi qatlayıb cibə qoymaq lazımdı, çünki bu adam nə məktəb direktorudu, nə də rayon maarif şöbəsinin inspektoru. Sonra dedi:

– Məlumat üçün çox sağ olun.

Görünür ki, belə bir söhbət Gündüz Kərimbəylinin ürəyinə yatmırdı və onun səbri tükəndi:

– Bura baxın, cavan oğlan! – Ayaq saxlayıb düz Fazil müəllimin gözlərinin içinə baxdı. – Elə bilirsiniz ki, mənim xoşuma gəlir camaatın işinə qarışım, görüm kim kimi istəyir, kim də kimi istəmir? Kimin qardaşı necə adamdı?

Fazil müəllim cavab vermədi.

Gündüz Kərimbəyli yenə asta addımlarla yoluna davam etdi və bu dəfə həmişəki mülayimliyi ilə:

– Amma, – dedi, – sizə, doğrudan da, sözüm var... Bir şey soruşacağam, daha doğrusu, təzədən soruşacağam.

O susdu və əlindəki çubuğu oynada-oynada bir müddət heç nə deməyib irəlilədi.

Yavaş-yavaş qaş qaralırdı.

– Yaxşı yadınıza salın. Sizin deyəcəklərinizdən çox şey asılıdı. Babanız qatardan düşəndən sonra, – Gündüz Kərimbəyli bu sözləri xüsusi bir vurğu ilə tələffüz etdi, – otağınıza girdiyiniz vaxta qədərki müddətdə kiminlə rastlaşdınız, kimi gördünüz? Çalışın ki, həmin gecəni bütün təfərrüatı ilə yadınıza salasınız, bütün təfərrüatı ilə, tələsməyin.

Onlar yanaşı addımlayırdı və Fazil müəllim gözlərini ayaqlarının altına dikib bir söz demirdi; nəhayət ki, dilləndi:

– Heç kimlə rastlaşmamışıq...

– Heç kimi də görməmisiniz?
Fazil müəllim yenə bir müddət susduqdan sonra:
– Yox! – dedi.
– Axı, bu ola bilməz ki, heç kimi görməyəsiniz?
– Qışda hava pisdi, gecə vaxtıydı özü də... Adam olmur rayonda bu vaxt... Yəni küçədə, çöldə deyirəm...
– Vağzalda heç kim yox idi?
– Yox...
– Bəs vağzalın işçiləri?
– Işçiləri? Yəqin ki, orada idi...
– Bax, görürsüz...
– Tanımadığım adamlardı, bəlkə də yan-yörəmizdə olublar, fikir verməmişəm...
– Bəs küçə boyu? Evə gələndə?
Mühüm işlər müstəntiqinin bu cür cidd-cəhdlə verdiyi suallar Fazil müəllimi düşündürürdü və o, addımladıqca həmin gecənin təfərrüatını yadına salmağa çalışırdı.
– Fəttah dayını – qarovulçunu kitab mağazasının yanında gördüm, salamlaşdıq da...
– Görürsünüz, bir-bir yada düşür. Sonra kimi gördünüz? Bax, bu cür fikir vermədiyiniz adamlardan?
Fazil yenə bir müddət susduqdan sonra:
– Ayna xalanı, – dedi. – Salamlaşıb qalxdıq yuxarı. Sonra Ayna xala çay gətirdi, gördü ki, babam çıxıb evdən, təəccüb elədi ki, bu havada hara belə?..
– Bax, bu iki nəfər... Sonra kimi?
Fazil müəllim dayandı və gözlənilmədən:
– Bilirəm siz nə fikirləşirsiniz, – dedi.
Gündüz Kərimbəyli də ayaq saxladı və gülümsəyə-gülümsəyə dedi:
– Qəribədi. Siz bilirsiniz, amma mən özüm öz fikirlərimdən baş açmıram hələ.
Fazil müəllim yəqin ki, bu sözləri də növbəti bir fənd hesab edib dedi:
– Məni çox da sadəlövh bilməyin. Mənim işlərimin babamın ölümünə dəxli yoxdur.
– Burası hələ məlum deyil...
Fazil müəllim, qulaqlarına inanmırmış kimi, mühüm işlər müstəntiqinə baxdı və nə isə demək istədi, amma Gündüz Kərimbəyli onun danışmağına imkan vermədi:
– Burası da məlum deyil ki, sizin işlərinizin bizim indiki söhbətimizə nə dəxli var?
Fazil müəllim artıq qaranlıq düşdükcə yavaş-yavaş işıldamağa başlayan çaya tərəf baxdı və dedi:
– Imaş vağzalda idi.
– Bax, bu üç nəfər...
Fazil müəllim bu dəfə də təəccüblə mühüm işlər müstəntiqi Gündüz Kərimbəyliyə baxdı. Əlbəttə, o, heç cür gözləmirdi ki, dediyi bu sözlər, verdiyi bu xəbər beləcə sakit qarşılanacaq.
Gündüz Kərimbəyli soruşdu:
– Bunu nə üçün gizlədirdiniz?

– Istəmirəm Səadəti bu məsələyə qarışdırsınlar. Istəmirəm onun adı rayonda dildən-dilə gəzsin.
– Imaş vağzalda nə edirdi?
– Kassanın yanında dayanıb bizə baxırdı.
– Sizinlə üzbəüz idi?
– Hə.
– Sonra?
– Sonra çıxıb getdi.
– Daha onu görmədiniz?
– Yox. – Fazil müəllim bir az çətinliklə də olsa əlavə etdi. – Amma onun bu işə dəxli yoxdu... Səadəti çox istəyir o. Belə iş tutmaz... Soyublar babamı...
– Siz oxatma dərnəyi düzəltmisiniz məktəbdə?
Fazil müəllim təəccüblə mühüm işlər müstəntiqinə baxdı:
– Bəli. Nədir ki?
Gündüz Kərimbəyli yenə nə isə soruşmaq istədi, amma bu vaxt arxadan Mürşüd onu hayladı:
– Gündüz əmi! Gündüz əmi!
Mürşüd qaça-qaça gəlib onlara çatdı və tövşüyə-tövşüyə:
– Bizim prokuror sizi axtarır, – dedi. – Evə adam göndərmişdi. Maşını da küçələri dolaşır sizinçün...

## XV

Gündüz Kərimbəyli kabinetə girəndə prokuror Dadaşlı oturduğu yerdə altdan-yuxarı ona baxıb bic-bic gülümsədi və təbii ki, bizimlə birlikdə mühüm işlər müstəntiqi bu baxışlarda nəsə təzə bir xəbər oxudu; həm də xeyir xəbər, çünki prokuror Dadaşlının ətli sifəti bu saat açıq-aşkar xeyir xəbərdən dəm vururdu.
Dadaşlı qarşısında oturmuş kiçik leytenant Həsənzadəyə işarə edib:
– Milissiz bir günümüz olmasın! – dedi və qarnını məhdud imkanları daxilində geri çəkib mizin yeşiyini özünə tərəf siyirdi.
– Sizi sürpriz gözləyir.
Kiçik leytenant qalxıb ayaq üstə dayandı. Gündüz Kərimbəyli isə mizə yaxınlaşıb:
– Saat? – soruşdu.
Dadaşlı gözlərini yeşikdən çəkib yaşından çox cavan görünən bu şəhərli oğlana baxdı və öz növbəsində soruşdu:
– Buna nə deyirlər? Telepatiya?
Gündüz Kərimbəyli öz məxsusi təbəssümüylə gülümsəyib:
– Instinkt, – dedi.
Prokuror Dadaşlı kiçik leytenanta baxıb başını buladı, yəni ki, görürsən də, yoldaş kiçik leytenant, belə işlər var dünyada, sonra yeşikdən çıxartdığı qızıl qol saatını mizin üstünə qoydu.
Gündüz Kərimbəyli saatı götürüb ona elə maraqla baxdı ki, elə bil bu qızıl saat indicə dil açıb başına gələn qəza-qədərin hamısını bircə-bircə danışacaqdı.

Dadaşlı ayağa qalxıb əllərini şalvarının ciblərinə saldı və mizin arxasından keçib Gündüz Kərimbəylinin yanına gəldi, birinci dəfə görürmüş kimi, mühüm işlər müstəntiqinin başı üstündən saata baxdı, sonra sağ əlini cibindən çıxarıb kiçik leytenantın çiyninə qoydu.

– Sən otur, – dedi. – «Şahzadə və dilənçi»ni oxumusan?

Həsənzadə:

– Oxumuşam, yoldaş prokuror, – dedi.

– Mayls yadına gəlir orda?

Həsənzadə bir balaca tutulub:

– Çoxdan oxumuşam, yoldaş prokuror, – dedi.

– Həmin Maylsa ixtiyar verilmişdi ki, Ingiltərə krallarının qarşısında istədiyi vaxt otura bilər. – Prokuror Dadaşlı öz sözlərindən ləzzət çəkib bərkdən güldü, – bu qızıl saatın tapılması kişini əməlli-başlı sevincək etmişdi – o yenə də əlini cibinə qoyub saata baxdı. – Bizim bu kiçik leytenantın adama elə yaxınlaşması var ki, heç xəbərin olmur, bir də görürsən ki, çıxdı böyürdən. Zibanın başının üstünü eləcə alıb.

Gündüz Kərimbəyli saatı mizin üstünə qoyub kiçik leytenanta sarı çöndü:

– Eşidirəm sizi.

Onun ciddiliyi Dadaşlıya zərrə qədər də sirayət etmədi və prokuror kiçik leytenantın əvəzinə dedi:

– Bizim bu rayonda bir Zibamız var, vağzalda peraşki satır. Elə vağzalda da bu saatı qatardan düşmüş bir nəfərə sırımaq istəyirmiş. – Dadaşlı yenə kiçik leytenanta baxdı. – Sırımaq istəyirmiş, – amma bizim bu qoçaq Mayls qartal kimi alıb başının üstünü!

Gündüz Kərimbəyli eyni ciddiyyətlə soruşdu:

– Izahat verib?

Bu dəfə onun ahəngindəki ciddilik prokuror Dadaşlıya da sirayət etdi və o, mizin arxasına keçib yerində əyləşərək:

– Guya tapıb, – dedi.

Kiçik leytenant əyilib ayaqlarının yanına qoyduğu portfeldən bir vərəq çıxartdı və mühüm işlər müstəntiqinə tərəf uzatdı.

– Buyurun, – dedi. – Budu izahatı.

Gündüz Kərimbəyli:

– Lazım deyil, – dedi. – Ziba harada yaşayır?

Həsənzadə portfeli yerdən götürüb:

– Icazə versəniz mən sizi ötürərəm, – dedi.

## XVI

Hava yavaş-yavaş çiskinləməyə başlamışdı və bu çiskin rayonun işıqlı pəncərələri qarşısında lap aydın görünürdü; bu çiskin deyirdi ki, bir azdan sulu qar yenə vay verəcək.

Kiçik leytenant Həsənzadə, Gündüz Kərimbəyliylə yanaşı addımlaya-addımlaya soruşdu:

– Şəhərdə də maşına minmirsiniz, yoldaş Kərimbəyli?

– Lazım olanda minirəm, əlbəttə. Bakıda maşınsız keçinmək çətin işdi. Amma maşınla da, trolleybusla da, avtobusla da aram yoxdu.

Kiçik leytenant Bakıdan gəlmiş bu məşhur işçinin hər sözünə xüsusi diqqət verirdi və yəqin ki, hər sözdən də özü üçün bir nəticə çıxarırdı. O, bir az çəkinə-çəkinə:

– Bilirsiz, – dedi, – rayonumuz yaxşı rayondu. Gəzməli rayondu. Adamları da yaxşı adamlardı...

Gündüz Kərimbəyli kiçik leytenanta baxıb gülümsədi, yəni ki, qara qızın dərdi varmış, sonra dedi:

– Mən başqa fikirdə deyiləm.

Həsənzadə yenə də çəkinə-çəkinə:

– Bilirsiz, – dedi, – adam özünü bir az belə... birtəhər hiss eləyir... Birinci dəfədi gəlirsiz bura... Birinci dəfədi görürsüz bu yerləri, bu adamları... Amma cani axtarırsız...

– Bizim işimiz belə işdi, leytenant. – Gündüz Kərimbəyli yəqin bilə-bilə «kiçik» sözünü ixtisara saldı. – Sizin də, mənim də, hamımızın... Neçə yaşınız var?

– Iyirmi dörd.

– Hələ hər şey irəlidədi, leytenant. Hələ çox üzlər görəcəksiz, çox işlərlə rastlaşacaqsız, ürəyiniz də çox qısılacaq, amma bir şey olmasın gərək: peşmançılıq. Gərək peşman olmayasan ki, bu nə işdi ömrümü həsr etmişəm, camaat gül becərir, kitab yazır, konsert verir, amma mən də gecəmi gündüzümə qatıb oğru axtarıram, cani gözləyirəm, fikrimdə hərəyə bir qara yaxıram, sonra da məlum olur ki, pis adam bu yox, bir başqasıdı. Gərək haçansa bütün bunlar barədə fikirləşib peşman olmayasan. Bununçün bilirsiz nə lazımdır?

Kiçik leytenant bir söz deməyib mühüm işlər müstəntiqinə baxdı.

Gündüz Kərimbəyli yenə öz məxsusi təbəssümüylə gülümsəyib dedi:

– Bununçün gərək, adamları da çox istəyəsən, bax, bu çiskini də, o dağları da... Bu sözlərim bir az müəllim nəsihətinə oxşadı, hə? Mən, axı, hüquq fakültəsində xeyli vaxt dərs demişəm.

Kiçik leytenant:

– Bilirəm, – dedi, – bir dəfə bizim məktəbə də gəlmişdiniz. Mən Mərdəkandakı milis məktəbində oxumuşam. Bizim rəis sizi dəvət etmişdi bizə mühazirə oxumağa. Valyutaçıların işini açmışdınız onda...

Gündüz Kərimbəyli söhbəti davam etdirmədi və taxtapuşların üstündən qaralan dağlara tərəf baxdı; elə bil bayaq kiçik leytenanta dediyi sözlərdən sonra bu dağlar da, bu taxtapuşlar da, işıqlı pəncərələr və həmin işıqda tor tutmuş çiskin də onunçün daha da doğmalaşmışdı; görünür, mühüm işlər müstəntiqinin təbiətində müəllimliklə bərabər, bir tələbəlik də hələ qalmaqda idi.

Kiçik leytenant qarşı səkidəki ikimərtəbəli binanın darvaza qapısını göstərib:

– Budu, çatdıq, – dedi. – Zibanın evi budu.

Bu ikimərtəbəli binanın birinci mərtəbəsi qaraj idi, ikinci mərtəbəsinin isə pəncərəsindən işıq gəlirdi.

– Maşını da var deyəsən?

– Yox, əşşi, onunku deyil, Cəbinin «Moskviç»idi, köhnə...

– Cəbi kimdi?

Kiçik leytenant bir balaca tutuldu:

– Heç, şoferdi, – dedi, – kolxozun yük maşınını sürür.

– Fatma arvadın oğlu Cəbi?

Kiçik leytenant təəccüblə Gündüz Kərimbəyliyə baxdı:
– Bəli.
– Bəs öz maşınını niyə burda saxlayır?
Kiçik leytenant cavab vermədi və onlar darvazaya yaxınlaşanda qapını aralayıb boynunu həyətə tərəf uzatdı:
– Ziba! Ay Ziba!
Ziba, yəqin ki, səsindən o saat kiçik leytenantı tanıyıb, hələ içəridə deyinə-deyinə pilləkənin başına çıxdı.
– Nədi? Nə istəyirsən məndən? – soruşdu. – Nə veribsən mənə, ala bilmirsən? Başıma itin müsibətini açdın, azındı? – Və sonra kiçik leytenantın yanında tanımadığı bir adam da görüb bir balaca ürkdü elə bil, daha deyinməyib onlara baxdı.
Həsənzadə dedi:
– Yoldaş Kərimbəyli Bakıdan gələn prokurordu. Sənnən özü danışmaq istəyir.
– Istəsin də...
Gündüz Kərimbəyli çiskindən gözlərini qıyıb aşağıdan-yuxarı Zibaya tərəf baxdı və soruşdu:
– Qalxmaq olar yuxarı?
– Olar də, niyə olmur...
Onlar yuxarı qalxıb otağa girdilər.
Ziba alnını dəsmalla bərk-bərk bağlamışdı və indi ahından-ufundan belə məlum olurdu ki, başı ağrayır; amma qəribə idi, bu arvadın başı bəlkə doğrudan-doğruya möhkəmcə ağrıyırdı, di gəl ki, ahı da, ufu da adama elə təsir edirdi ki, elə bil, başağrısı yalandandır.
Gündüz Kərimbəyli:
– Vaxtınızı çox almayacağıq, – dedi. – Deyəsən, yaxşı hiss eləmirsiniz özünüzü?
Ziba nifrət dolu nəzərlərlə Həsənzadəyə baxıb:
– Day necə hiss eləyəcəyəm özümü? – dedi. – Qoyurlar ki, adam qaxılıb oturSun xarabasında rahatca? – Sonra o, kiçik leytenanta yox, məhz Gündüz Kərimbəyliyə yer göstərdi. – Oturun də, ayaq üstdə niyə dayanırsız?..
Gündüz Kərimbəyli girdə mizin arxasındakı stullardan birini çəkib oturdu:
– Çox sağ olun, – dedi. – Bəs siz niyə əyləşmirsiniz?
Ziba əli ilə alnını tutub:
– Mən elə səhərdən-axşamacan oturuıram də, – dedi və səhərdən axşamacan bu işlə məşğul olmağına baxmayaraq, Gündüz Kərimbəyli ilə üzbəüz oturdu.
Kiçik leytenant həyət pəncərəsinin sürahisinə söykənib ayaq üstə dayandı.
Ziba yenə alnını ovuşdura-ovuşdura, öz-özünə danışırmış kimi ağlamsındı:
– Işimə bax mənim, ay Allah, gücümə bax! Camaat kefdə-damaqda, mənim də evimə prokuror gəlir...
Gündüz Kərimbəylinin əvəzinə kiçik leytenant pərt oldu:
– Yaxşı danışmırsan, Ziba.
Ziba yenə nifrət dolu gözlərlə kiçik leytenantı təpədən-dırnağacan süzüb dedi:
– Sən kəs! Pişik kimi gəlib adamın başının üstünü almağı bilirsən... Dayan bir!
Zibanın bənzətməsi kiçik leytenantı təbdən çıxartdı:
– Nədi, Cəbiyə deyəcəksən?

Ziba bu sözlərdən lap yandı-yaxıldı:

– Sən get bacın Gülyazın dərdini çək ki, əri şəhərdə qızlarla kef eləyir!

Gündüz Kərimbəyli kiçik leytenanta baxdı və Həsənzadə bu baxışlar altında ağzını yummağa məcbur oldu.

Onun susmasını Ziba özü bildiyi cür yozdu, yəni, bunu üstünlüyü hesab eləyib, fürsəti fövtə vermədi, qabaqdan gəlmişliklə çığırmağa başladı:

– Nədi? Nə böyük iş görmüşəm! Saatdı, tapmışam, sonra da istəmişəm satım! Cibgirlik eləməmişəm ki?!

Gündüz Kərimbəyli qəribə bir sakitliklə soruşdu:

– Harda tapmısız?

Ziba kiçik leytenanta işarə edib:

– Demişəm də ona, – dedi. – Yazdım da hamısını bir-bir! Qol da çəkdirib mənə!.. Nədi, savadı çatmayıb, pis yazıb?

Gündüz Kərimbəyli eyni sakitliklə dedi:

– Mənə də deyin.

Onun sakitliyi və bu sakitlikdəki qətiyyət Zibaya da sirayət etdi və arvad bu dəfə adam kimi cavab verdi:

– Bu gün tapmışam. Tapdım, elə orada da satmaq istədim ki, bu... – Ziba kiçik leytenanta baxıb yağlı bir söz deməkdən özünü güclə saxladı, – bu... aldı başımın üstünü..

– Bəs qabını neylədiniz?

– Hansı qabını?

– Saatın qabını. Meşindən balaca qabı olmalı idi.

– Hə, qabını... qabını tulladım də, uşaq deyiləm ik, saatqabı oynadam!..

– Hara tulladınız?

– Nə bilim, hara tulladım? Vağzalda adam bəyəm bilir ki, nəyi hara tullayır?

Gündüz Kərimbəyli ayağa qalxıb nəinki Zibanın, hətta kiçik leytenantın belə gözləmədiyi bir sərtliklə:

– Burda sizinlə söhbətimiz baş tutmayacaq, Ziba xanım! – dedi. – Söhbətimizi prokurorluqda davam etdirərik.

Zibanın gözləri kəlləsinə çıxdı:

– Niyə tuturlar məni? Neyləmişəm mən? Adam soymuşam?

Bir müddət araya sükut çökdü və bu sükutu mühüm işlər müstəntiqinin səsi pozdu:

– Saatını satmaq istədiyiniz adam öldürülmüşdür. Bilmirəm, sizin bundan xəbəriniz var, ya yox?! Amma yalan danışırsınız. Belə bir işdə yalan satmağın özü ağır cinayətdir.

Yenə araya sükut çökdü və bu dəfə Zibanın gözləri xalis heyvani bir qorxudan az qala hədəqəsindən çıxacaqdı. Gündüz Kərimbəyli diqqətlə ona baxırdı.

Ziba alnındakı dəsmalı dartışdırıb açdı və udquna-udquna:

– Mən yalan demirəm, – dedi.

– Siz yalan deyirsiz! Saatın qutusunu vağzalda hara atmısınız, özünüz də bilmirsiniz, hə? – Mühüm işlər müstəntiqi yəqin ki, özündən asılı olmayaraq səsini qaldırdı.

– Hə...

– Qutu nə rəngdə idi?

– Palçığa batmışdı... Çirkli idi, fikir vermədim mən renginə... Yağır də, neçə gündü...

– Doğru dediyiniz söz də elə budur. Doğrudan da yağır neçə gündü... Amma həmin saatın heç bir qutusu olmayıb! Siz də nə palçığa batmış, nə də palçığa batmamış qutu görə bilməzdiniz, hələ onu vağzalda harasa tullamağınız bir tərəfə!

– Necə görə bilməzdim?.. Özünüz dediniz də... – Və yalnız bundan sonra Ziba məsələni başa düşdü və məsələni başa düşməyilə də bayaq alnından açdığı dəsmalı gözlərinə sıxıb hönkürməsi bir oldu. – Niyə gəlmisiniz bura? Adam öldürəndi o? Məndən bir söz qopara bilməyəssiz!..

Mühüm işlər müstəntiqi qapıdan çıxdı, kiçik leytenant da onun ardınca getdi və onlar pilləkənlə həyətə düşüb küçəyə çıxana qədər yuxarıdan Zibanın hönkürtüsü eşidilirdi.

Bir müddət yanaşı addımladılar.

Yenə də əməlli-başlı yağmağa başlamışdı.

Gündüz Kərimbəyli kürkünün boynunu qaldırıb əllərini cibinə saldı və bir az getdikdən sonra Həsənzadə dilləndi:

– Ziba düz demir, yoldaş Kərimbəyli...

Gündüz Kərimbəyli gözlərini ayaqlarının altından çəkməyərək soruşdu:

– Nəyi?

– Mənim bacımın əri Moskvada aspiranturada oxuyur...

Gündüz Kərimbəyli kiçik leytenanta baxdı.

Həsənzadə əlavə etdi:

– Özü də tərbiyəli oğlandı...

## XVII

Rayon prokurorluğunun bircə pəncərədən başqa, qalan bütün pəncərələrinin işığı sönmüşdü və bu gecə həmin işığı yanan otaqda iki nəfər üzbəüz oturmuşdu – mühüm işlər müstəntiqi Gündüz Kərimbəyli və cinayət axtarışı üzrə baş inspektor Cabbarov.

Gündüz Kərimbəyli qarşısındakı qovluqdan sənədləri götürüb bir-bir diqqətlə nəzərdən keçirirdi və bu dəm o, mühüm işlər müstəntiqindən daha çox kitabxanada oturub, dissertasiya işi üçün material toplayan cavan alimə oxşayırdı.

Kapitan Cabbarov gözlərini Gündüz Kərimbəylidən çəkmirdi və bu məşhur müstəntiqi bu dərəcədə məşğul edən sənədləri toplayıb Bakıdan gətirdiyi üçün indi yəqin özündən çox razıydı.

Nəhayət, mühüm işlər müstəntiqi sənədləri qovluğa yığdı, bir müddət kapitan Cabbarova baxdı və soruşdu:

– Bakıda havalar necədi?

Əlbəttə, cinayət axtarışı üzrə baş inspektor Gündüz Kərimbəylidən daha mühüm suallar gözləyirdi...

– Yaxşıdı... – dedi.

## XVIII

Fəttah dayı bir ayağını altında büküb kürsüdə oturmuşdu və qəlyanını tüstülədə-tüstülədə deyirdi:

– Qoca nənəm vardı, Nabat qarı deyirdi ona böyük də, kiçik də, Nadiri taxtda görmüşdü, yüzü çoxdan keçmişdi! Qış vaxtı belə havalarda axşamlar yığılırdıq başına. Bilmirəm bu arvadın sinəsi dəryaydı-nəydi! Gecənin yarısına kimi nağıl danışardı. Məlikməmməddən tutmuş, ovçu Nəzərdən tutmuş, Şah Abbasın xalça toxumağınacan, danış ki, danışasan!.. Pəh...

Gündüz Kərimbəyli Fəttah dayı ilə üzbəüz oturub çay içirdi. Mürşüd də taxta kətildə oturub gözlərini dikmişdi dədəsinin ağzına və Fəttah dayının bu söhbətləri də onunçun yəqin elə Məlikməmməd nağılı kimi bir şey idi.

– Yaman da qorxaq idi arvad. Gecələr həyətə tək düşməyə qorxurdu. Qış keçirdi, yazda, yayda da axşamlar yığılırdıq başına ki, nağıl de. Nətər şeydisə, yazda-yayda nağıl deməklə arası yoxdu. Deyirdik ki, deməsən, gecələr çıxmarıq sənnən həyətə. Qalırdı naəlac, başlayırdı danışmağa... Indi fikirləşirəm ki, niyə heylə qorxudurduq o yazıq qarını... – Fəttah dayı gülümsəyib: – Ərə gedən qızın dili altda qənd gərək, qayınanası olan gəlinin dili altda fənd gərək, deyiblər!.. – dedi. – Dünyanın işləri belədi...

– O nağılları mən də bilirəm. – Bunu da Mürşüd dedi.

– Sən bilərsən də, sənə nə var ki!.. Indi hara baxırsan, Allaha şükür, nağıl kitabıdı!.. Hələ məktəbə getməmişdən oxumağı öyrənirsiz. Bəs bizə Nabat qocam danışmasaydı, nə biləcəydik?

– Mən də yaman nağılbazıydım uşaqlıqda. – Bunları da Gündüz Kərimbəyli dedi. – Bəzən səhərə kimi nağıl oxuyurdum. Atam acıqlanardı, gəlib otağın işığını keçirirdi ki, yatım, yorğanın altında əl fənərini yandırıb oxuyurdum...

Fəttah dayı:

– Eh!.. – dedi. – Keçər bu dövran, sənə də qalmaz, deyiblər... – Sonra soruşdu. – Atan da sağdı, bacıoğlu?

Gündüz Kərimbəyli dedi:

– Hə, sağdı.

– Mənim kimi qocafəndidi, hə? O nə sənətin sahibidi?

– Bəstəkardı.

Fəttah dayı da, Mürşüd də təəccüblə Gündüz Kərimbəyliyə baxdı, guya ki, Bakıdan gələn bu qonağın atası bəstəkar ola bilməzmiş.

Fəttah dayı tənbəkidən sapsarı saralmış baş barmağı ilə qəlyanının odluğunu bir-iki dəfə basıb tüstülədə-tüstülədə soruşdu:

– Yəni mahnı yazandı də?

– Mahnı, opera, balet, nə istəyirsiz! – Mühüm işlər müstəntiqi gülümsədi.

Birdən Mürşüd tapdı ki, qonaqlarının atası kimdi:

– Fəzli Kərimbəyli?

– Özüdür ki, var. – Atasının belə bir məşhurluğu Gündüz Kərimbəyliyə açıq-aşkar ləzzət verdi.

Fəttah dayı başını buladı və özünü saxlaya bilməyib dedi:

– Balam, bəs, sən nə əcəb belə bir sənət seçmisən özünə?

– Özün demirsən ki, dünyanın işləri belədi, Fəttah dayı? On il musiqi məktəbində oxumuşam, amma musiqi, oxumaqla deyil, vergiynəndi.

– Bəs, sənin bu işin vergiynən deyil?

Gündüz Kərimbəyli çiyinlərini çəkdi:
– Çətin sual verirsən, Fəttah dayı.
– Çətinliyə düşmənin düşsün. Niyə çətin olur?
– Cinayət elə şeydi ki, Fəttah dayı, həmişə təsadüf axtarır ki, açılsın, çünki yenə də sən deyən kimi, dünyanın işləri belədi. Cinayət təbiətə ziddi. Insan da təbiətin bir parçasıdı...
Fəttah dayı qəlyanını tüstülədə-tüstülədə bir müddət susdu, sonra sulu qarın döyəclədiyi pəncərəyə tərəf işarə etdi:
– Bizim bu rayon ki, var, bacıoğlu, balaca yerdi. Burda bir söz gizlətmək çətin işdi. Hamı indi sənnən danışır. Sözün də ki, bilirsən də, bacıoğlu, damarı olar, çəkərsən uzanar. Indi sən nə vaxt son qoyursan bu söz-söhbətə, inşallah?
Mühüm işlər müstəntiqi əlini ağzına aparıb əsnədi:
– Görək də, Fəttah dayı...
– Gec olsa yaxşıdı. – Bunu gözlərindən yuxu tökülən Mürşüd dedi.
Fəttah dayı təəccüblə oğluna baxdı.
Gündüz Kərimbəyli soruşdu:
– Niyə?
– Çünki siz də o qədər çox qalarsız burda.
Gündüz Kərimbəyli bərkdən güldü və ayağa qalxıb Mürşüdün qıvrım saçlarını qarışdırdı.
Fəttah dayı da ayağa qalxıb başını bulaya-bulaya:
– Yaman gimgəbazdı bizim bu gədə, – dedi. – Adama azarı var. Mən də elə beləydim uşaqlıqda. – Sonra Mürşüdə işarə elədi. – Dur, dur gedək, az qalıb gecə yarı ola.
Mürşüd ayağa qalxdı:
– Gecəniz xeyrə qalsın.
– Xeyrə qarşı get, Mürşüd kişi.
Fəttah dayı da qapıdan çıxı-çıxa:
– Yat, – dedi. – Bu gün heç öskürmədin, düzəlirsən deyəsən.
Gündüz Kərimbəyli:
– Qızılmış sənin əllərin, Fəttah dayı. – dedi.
– Eh, qızıldansa, çarıq yaxşıdı, bacıoğlu. Çünki qızıldan çarıq geysən, adı çarıqdı, qızıl deyil. Gecən xeyrə.
– Sağ ol, Fəttah dayı.
Fəttah dayı otaqdan çıxıb qapını ardınca örtdü.
Gündüz Kərimbəyli pəncərəyə yaxınlaşıb çölə baxdı.
Rayonun işıqları tamam sönmüşdü.

## XIX

Zibagilin darvazasından bir nəfər çıxıb şıdırğı yağan sulu qarın altında addımlamağa başladı.
Qaranlıqda onu tanımaq mümkün deyildi.
Bir azdan o, gedə-gedə sırıqlısının cibindən bir siqaret çıxarıb yaş olmasın deyə ovcunda tutdu, sonra bir an ayaq saxlayıb kibritlə siqareti yandırdı.
Kibrit çöpünün bir anlıq işığında Cəbinin sifəti göründü.

Sonra Cəbi iti addımlarla yoluna davam etdi.

## XX

Neçə müddətdən bəri rayonda birinci dəfə idi ki, gün çıxmışdı, elə bil ki, günün beləcə çıxması rayondakı bütün taxtapuşlara, binalara, küçələrə bir şadlıq gətirmişdi və elə bil ki, küçələrdəki çılpaq ağaclar da indi belə bir gün şadlığının içində idi.

Neçə müddətdən bəri rayonun yuxarısındakı uca dağlar da birinci dəfə idi ki, beləcə aydın görünürdü və o dağların başındakı qar da indi günün şüaları altında gümüş kimi parıldayırdı.

Içi su dolu vedrəyə salıb çıxartdığı əsgi ilə böyük yük maşınının kuzovunu yuyub təmizləyən yaşlı bir sürücü dedi:

– Əcəb gün çıxıb. Yaxşıca havadı...

Öz maşınının pəncərə şüşələrini silən Cəbi, işindən ayrılmayıb:

– Hava da adam kimidir, – dedi. – Etibar yoxdu ona...

– Adamlar yəni belə etibarsızdı? – Bu sualı gəlib Cəbinin maşınının yanında dayanan mühüm işlər müstəntiqi Gündüz Kərimbəyli verdi.

Cəbi ona baxdı və yəqin ki, məsələnin nə yerdə olduğunu başa düşdü. Gündüz Kərimbəylini başdan-ayağacan süzüb elə bil ki, birinci dəfədən necə adam olduğunu bilmək istədi, sonra əllərini əsgi ilə silə-silə soruşdu:

– Mənimlə işiniz var?

Gündüz Kərimbəyli kürkünün döş cibindən vəsiqəsini çıxarıb ona tərəf uzatdı. Cəbi vəsiqəyə baxmadı:

– Lazım deyil, – dedi. – Bilirəm, Bakıdan gələn müstəntiqsiniz. Görən kimi tanıdım sizi. Gözləyirdim...

Məlum məsələ idi ki, Cəbi bu məlumatları Zibadan toplamışdı.

– Tələsmirsiz?

Cəbi saatına baxıb:

– Tələsirəm, – dedi. – Kəndə gedib gəlməliyəm.

– Kəndə nə vaxt gedib gəlməlisiniz?

– Bir saata gedib qayıdaram, yaxındadı.

– Məni də özünüzlə götürün. Belə havada bir saat gəzməyin özü də savab işdi.

Cəbi bu dəfə açıq-aşkar tutuldu və çiyinlərini çəkdi:

– Necə bilirsiz...

Mühüm işlər müstəntiqi xüsusi bir dəvət gözləmədən qalxıb kabinədə oturdu. Cəbi də öz yerinə qalxdı və içəri tərəfdən şüşəni silə-silə təkrar etdi:

– Köhnə dəyirmanın yanında beş dəqiqəlik işim var...

– Eybi yox, gözləyərəm.

– Yolun üstündədi elə...

– Cəbi narahat idi.

Motor işə düşdü və maşın qarajdan çıxdı.

Gündüz Kərimbəyli qarşısındakı şüşədən küçəyə baxa-baxa gülümsəyib:

– Siz mənim sualıma cavab vermədiz, – dedi.

Cəbi təəccüblə yol yoldaşına baxdı:

– Hansı sualınıza?

– Adamların etibarsızlığı barədə.

Bu dəfə Cəbi də gülümsədi:

– Hə... Olur də, görürsən ki, birini Allah kimi tanıyırsan, peyğəmbər bilirsən, sonra məlum olur ki, çaqqalın biridi...

– Bir nəfər olar, amma hamı yox də. Necə bilirsiz?

– Bir nəfər də adamdı də...

Maşın rayonun küçələri ilə gedirdi və Gündüz Kərimbəyli şüşədən baxa-baxa heç nə demirdi və belə bir sükut görünür ki, Cəbinin ürəyindən deyildi, hövsələdən çıxarırdı onu; nəhayət o özü dilləndi:

– Bilirəm, – dedi. – Zibadakı saata görə mənimlə yolyoldaşlığı edirsiniz indi...

Gündüz Kərimbəyli gülümsəyib:

– Necə deyərlər, – dedi. – Həm ziyarət, həm ticarət...

Cəbinin isə daha gülümsəməyə halı yox idi.

– O, tapmayıb saatı, mən tapmışam, vermişəm ona. Belə olmaz?

– Niyə olmur? Əgər, doğrudan da, belədisə, olar.

– Əgər, doğrudan da, belə deyilsə, nə olar bəs? Adamsoyan olaram mən, adamöldürən olaram?

Mühüm işlər müstəntiqi cavab vermədi; güman ki, o, Cəbini daha yaxşı tanımışdı: Cəbi özü nəyi lazım bilirdisə, danışacaqdı, qalanlar isə sonranın işi idi.

Maşın rayondan çıxıb hələ qurumamış asfalt yolla getməyə başladı. Yolboyu uzanan elektrik məftillərinə tək-tək, hərdən ikisi bir yerdə, qarğalar qonmuşdu və bu saat bu qarğalar da elə bil ki, günün altında qızına-qızına dünyanın işləri barədə fikirləşirdi.

Cəbi sükan arxasında qurcalanıb, guya ki, yerini rahatladı və dedi:

– Düzdü, əhmədi-biqəmliyim olub, dünyanı vecimə almamağım olub, yeməyi-içməyi xoşlayıram, bəzən hətərən-pətərən danışmağım da var, at keçməz işlərim də var, amma nə adam soya bilərəm mən, nə də ki, adam öldürə bilərəm...

Mühüm işlər müstəntiqi cavab vermədi.

– Bilirəm fikirləşirsiz ki, Cəbi bildiklərinin hamısını demir.

Maşın çayın üstündəki körpüdən keçib, çılpaq budaqları sallanmış söyüdün yanında dayandı.

Cəbi yoldan yüz-yüz on metr aralıdakı köhnə dəyirmanı göstərib dedi:

– Bu saat gəlirəm. Beş dəqiqəlik işim var orda. – Sonra mənalı-mənalı gülümsədi. – Cəbi təmiz oğlandı...

O, motoru söndürüb aşağı düşdü və yolun kənarındakı kolluqların arası ilə dəyirmana tərəf getdi.

Mühüm işlər müstəntiqi də maşından düşüb körpüyə tərəf gəldi və iki əli ilə körpünün taxta sürahisindən yapışıb çaya baxdı.

Çay köpüklənə-köpüklənə axıb meşənin içində çılpaq ağacların, kolların arasında yox olurdu. Meşənin yuxarı tərəfindəki dağların ətəkləri bomboz idi və bu saat həmin bozluq da elə bil ki, günün şüalarından ləzzət alırdı. Dağların başındakı qar isə öz soyuq tənhalığının hündürlüyündən gümüş kimi parıldayırdı. Yolboyu uzanan və çayın da üstündən keçən elektrik məftillərinə qonmuş qarğalar da tərpənmir və elə bil ki, bu qəfil çıxmış günün şüalarından məst olub mürgü döyürdü.

Mühüm işlər müstəntiqi körpüdən aralanıb yenə maşına tərəf gəldi və gözlərini qıyıb günə baxdı, sonra elə bil ki, yaxşıca bir rahatlığın ləzzətini qabaqcadan hiss edirmiş kimi, qollarını geniş açıb ləzzətlə gərnəşdi və bu dəfə Cəbinin getdiyi köhnə

dəyirmana tərəf baxdı – köhnə dəyirman elə bil ki, həm köhnəliyindən, həm də daha işə-gücə yaramadığından çölün düzündə tək-tənha öz axırını gözləyirdi.

Və bu zaman elə bil ki, dəyirmanın arxasından bir kölgə ötüb meşəlikdə yox oldu.

Bu kölgə mühüm işlər müstəntiqinin nəzərindən yayınmadı və o, daha artıq bir diqqətlə köhnə dəyirmana tərəf baxdı.

Elə bil ki, bu adi kölgənin beləcə qəflətən görünüb itməsiylə bu yerləri xoflu bir intizar bürüdü.

Gündüz Kərimbəyli açıq-aşkar narahat idi və o, eyni diqqətlə köhnə dəyirmana tərəf baxa-baxa əlini qaldırıb kabinkanın qapısını açdı və maşının əvvəlcə qısa, bir müddətdən sonra uzun siqnalı çayın şırıltısını üstələyib bu meşəyə, bu dağlara səs saldı.

Köhnə dəyirmanda nə bir adam göründü, nə də ordan bir səs-səmir gəldi.

Gündüz Kərimbəyli əvvəlcə asta addımlarla, sonra daha cəld hərəkətlə kol-kosun arası ilə köhnə dəyirmana tərəf gəldi və dəyirmanın qapısı ağzında dayanıb çağırdı:

– Cəbi!

Dəyirmandan səs gəlmədi. Mühüm işlər müstəntiqi ayağı ilə qapını itələyib içəri girdi. Qapı cırıldadı və bu qapı cırıltısında bu an bir müdhişlik vardı. Gündüz Kərimbəyli keçib dəyirmanın içinə girdi və bir göz qırpımında əlini atıb döşündən tapança çıxartdı.

Cəbi taxta pilləkənin üstünə düşüb qalmışdı. Onun sol kürəyinə sancılmış bıçağın dəstəsi dəyirmanın balaca pəncərəsindən düşən işıqda parıldayırdı. Cəbinin gözləri elə bil ki, dünyanın işlərinə matı-qutu qurumuş kimi geniş açılmış və beləcə də bərələ qalmışdı. Onun ağzı açıq idi və ağzından axan qan sırıqlısının ətəklərini, taxta pilləkəni büsbütün qırmızıya boyamışdı.

Gündüz Kərimbəyli bircə anın içində bu bomboş dəyirmanı gözdən keçirib pilləkənə atıldı, sonra pəncərəyə yaxınlaşdı; taxtası çürümüş bu şüşəsiz pəncərə o qədər balaca idi ki, buradan girib-çıxmaq mümkün deyildi.

Gündüz Kərimbəyli həyətə çıxdı və dolanıb bayır tərəfdən pəncərənin yanına gəldi, diqqətlə ətrafa baxdı: dörd tərəfdə çılpaq ağaclar idi və indi burada adam axtarmaq yəqin ki, mənasız idi.

O, bir neçə an beləcə dayandı və hara gedəcəyini bilmədi, sonra sürətlə maşına tərəf qaçıb kabinkaya atıldı və kabinkaya atılmağı ilə də maşını işə salmağı bir oldu.

Maşın dairə vurub rayona tərəf götürüldü.

Maşın sürətlə rayonun küçələri ilə getdikcə, orda-burda oynaşan uşaqlar, küçədən keçib gedənlər təəccüblə onun arxasınca baxıb yəqin fikirləşdilər ki, nə olub belə görəsən, Cəbinin maşınını başqası sürür və elə də sürür ki, elə bil, daldan onu cin qovur.

Kiçik leytenant Həsənzadə də portfelini yellədə-yellədə gedirdi və o da təəccüblə maşının ardınca baxıb addımlarını yeyinlətdi.

Gündüz Kərimbəyli maşını Imaşgilin həyət qapısı ağzında saxlayıb aşağı atıldı və qapını itələyib həyətə girdi.

Imaş bellə həyətdəki nar ağacının dibini yumşaldırdı və o, əl saxlayıb birdən-birə bu cür nagah peyda olmuş mühüm işlər müstəntiqinə baxdı, sonra çəpərdən görünən maşına nəzər saldı və rişxənd eləməkdən özünü saxlaya bilmədi:

– Bəs, Ziba hanı? – deyib gülümsədi. – Cəbi yoxdu maşında, heç olmasa, Ziba oturaydı də...

Əlbəttə, bu saat hiss olunurdu ki, mühüm işlər müstəntiqi Imaşın beləcə rişxənd edə-edə həyatdə işdə-gücdə olacağına bir o qədər də əmin deyildi.

Və elə bil birdən-birə hər şey onun üçün aydın oldu. O, heç nə deməyib geri döndü və yenidən kabinkaya sıçrayıb maşını yerindən tərpətdi.

Imaş bu məsələdən bir mətləb qanmayıb işinə davam etdi.

Maşın sürətlə gedib vağzalın qabağında dayananda daha aşağı düşməyə bir ehtiyac yox idi. – Zibanın peraşki köşkü kimsəsiz idi və sobadan da isti peraşkinin buxarı qalxmırdı.

Maşın yenə də yerindən götürüldü və bu dəfə rayonun küçələrindən ötüb Zibanın evinin qabağında dayandı. Gündüz Kərimbəyli aşağı atıldı, darvazanı itələyib açmaq istədi, amma darvaza bağlı idi. Gündüz Kərimbəyli yuxarı boylanıb evin pəncərəsinə tərəf baxdı, sonra qapını bir neçə dəfə döyəclədi.

Yoldan ötənlər ayaq saxlayıb gah Cəbinin maşınına, gah da tanımadıqları bu adama baxırdılar və onun tələsik hərəkətlərindən yəqin başa düşürdülər ki, nə isə bir iş var bu işin içində.

Mühüm işlər müstəntiqi qapını bu dəfə daha artıq bir təkidlə döyəclədi.

Əlində içi dolu zənbil tutub, güman ki, bazardan qayıdan yaşlı bir arvad:

– Yoxdu Ziba evdə! – dedi. – Indicə aşağı düşürdü, çay qırağına tərəf.

Gündüz Kərimbəyli bu sözləri deyən arvada baxdı və əvvəlcə elə bil ki, arvadın dediklərinin mənasını yaxşı başa düşmədi, sonra daha da tələsik kabinkaya sıçradı; maşın yerindən götürüldü.

Maşın rayondan çıxıb torpaq yolla çaya tərəf getdi və meşənin kənarında dayandı.

Bu o yerlər idi ki, mühüm işlər müstəntiqi, Fazil müəllimlə və Səadətlə burada rastlaşmışdı.

O, maşından atılıb çılpaq ağacların arası ilə çay boyu irəlilədi və bu saat Gündüz Kərimbəyliyə baxan bir kəs heç şübhə etməzdi ki, dörd bir tərəfdə quş da uçsa onun gözündən yayınmayacaqdı.

Və nəhayət, o, böyük bir palıd ağacının yanında dayanmış Zibanı gördü. Ziba qəribə bir kədərlə başı qarlı dağlara tərəf baxırdı və bu saat günün şüaları altında o başı qarlı dağlar elə bil ki, bu arvadın gözlərindəki kədərə biganə deyildi.

Mühüm işlər müstəntiqi kolların, quru budaqların arası ilə daha sürətlə irəliləyərək qəflətən nəsə görüb bərkdən qışqırdı:

– Ziba!

Zibanın gözlərini dağlardan çəkib bu gözlənilməz qışqırığa tərəf dönməsi ilə iri bir bıçağın bir göz qırpımında palıdın yoğun gövdəsinə sancılması bir oldu; Ziba qışqırığa tərəf bircə an gec dönsəydi, iş işdən keçəcəkdi.

Arvad bu dəfə dəhşət dolu nəzərlərlə palıdın gövdəsində hələ də dəstəyi titrəyən bıçağa baxdı.

Gündüz Kərimbəyli isə artıq özünü kolların, ağacların arasına atıb bıçaqatanın ardınca qaçırdı.

Bıçaqatan adamın ağaclar arasında hərdən kürəyi, hərdən başı görünürdü və bu saat onu beləcə qovan, təbii ki, mühüm işlər müstəntiqinin səsi idi.

Gündüz Kərimbəyli qışqırdı:

– Dayan! Dayan deyirəm sənə!

O, sağ əlində tapança tutmuşdu, sol əli ilə quru budaqlar gözünə girməsin deyə özünə yol açırdı.

– Dayan!

Sonra o, qaçan adamın başı üstən dalbadal iki güllə atdı və daha artıq bir inadla caniyə yaxınlaşmağa başladı.

Bıçaqatan adamın sürəti yavaş-yavaş azalırdı və onun tez-tez nəfəs almasından, tövşüməsindən hiss olunurdu ki, bir atımlıq barıtı qalıb. Birdən o, qəflətən ayaq saxladı və bir anın içində əyilib haçansa qalanmış köhnə ocaq yerindən tutarlı bir kösöv götürdü, geri çevrildi və geri çevrilməyi ilə kösövü Gündüz Kərimbəyliyə tərəf vıyıldatmağı bir oldu.

Və biz də, ancaq indi onu görüb tanıdıq.

Bu adam Fəttah dayı idi.

Kösöv zərblə Gündüz Kərimbəylinin sağ əlinə dəyib tapançanı ağacların dibinə saldı və elə bil ki, Fəttaha təzədən güc gəldi. O, ağ saqqalına yaraşmayan bir sıçrayışla Gündüz Kərimbəylinin üzərinə atılıb:

– Boğacağam səni, köpəkoğlu! – dedi. – It kimi gəbərdəcəyəm səni!

Və o, doğrudan da, iki əli ilə mühüm işlər müstəntiqinin boğazından yapışıb bütün ağırlığını onun üstünə saldı; Gündüz Kərimbəyli arxası üstdə yerə yıxıldı və onun sifətinin damarları şişdi, gözləri qızarıb qanla doldu.

Fəttahın gözlərindən od, alov tökülürdü, kin-küdurət, qəzəb tökülürdü, elə bil ki, neçə illərdən bəri ürəyində gizlincə saxladığı, gizlincə onu yandırıb-yaxan adam boğmaq ehtirası birdən-birə üzə çıxmışdı və bu alışıb-yanan ehtiras dolu gözlərdə indi bir təntənə şovqü oynayırdı.

Lakin, Gündüz Kərimbəyli bütün gücünü toplayıb ayağı ilə Fəttahı öz üzərindən ata bildi; bu dəfə Fəttah arxası üstə yerə sərildi, amma Gündüz Kərimbəyli onun üzərinə atıla bilmədi. Fəttah tez üzü üstə çevrilib ayağa qalxdı və iki əlini birləşdirib, balta ilə odun yarırmış kimi, var gücü ilə Gündüz Kərimbəylinin boynuna vurdu. Bu zərbə Gündüz Kərimbəylini sarsıtdı, o, arxasını vələs ağacının gövdəsinə söykəyib qaldı və Fəttah başını bədəninə qısıb bir az yanpörtü irəli sıçradı, bu dəfə də var gücü ilə Gündüz Kərimbəylinin qabırğalarının arasına kəllə vurdu. Gündüz Kərimbəylinin sinəsindən bir inilti qopdu və o, əlləri ilə mədəsini tutub aşağı əyildi. Fəttah:

– It balası! – deyib onun boynunun ardına güclü bir zərbə ilişdirdi; Gündüz Kərimbəyli dizləri üstə yerə çökdü; Fəttah üçüncü dəfə zərbə vurmağa hazırlaşırdı, amma gözü beş-on metr aralıdakı palıdın dibinə düşmüş tapançaya sataşanda bir an əl saxlayıb tapançaya tərəf atıldı və bu zaman mühüm işlər müstəntiqi cəld bir sıçrayışla onun ayaqlarından yapışdı, Fəttah üzü üstə yerə sərildi. Gündüz Kərimbəyli eyni cəldliklə onun üstünə atılıb sağ qolunun dirsəyi ilə ilan boğurmuş kimi onun boynundan basdı: sol əli ilə Fəttahın çəkməsindən yapışıb yana gərdi və Fəttah üstünü xəzəl basmış palçığın içində çapalamağa başladı.

Dalbadal atılan üç güllə səsi eşidildi və elə bil ki, bu güllə səsləri ilə Fəttaha təzədən güc gəldi; o, bir həmlə ilə Gündüz Kərimbəylinin əlindən buraxılıb özünü irəli atdı və əvvəlcə palçığın içi ilə bir-iki addım iməkləyib sonra ayağa qalxdı və qaçmağa başladı.

Gündüz Kərimbəyli qarşısına çıxan ağac budaqlarına, kol-kosa ilişə-ilişə onun ardınca qaça-qaça:

– Dayan! – dedi. – Hara qaçacaqsan?!

Və elə bil ki, bu sözlərdəki həqiqəti Fəttah birdən-birə dərk etdi, yerində dayanıb geri döndü və nifrət dolu nəzərlərlə Gündüz Kərimbəyliyə baxdı; bu baxışlarda nifrətlə bərabər, bir ümidsizlik vardı və bu ümidsizliyin doğurduğu qorxu dəhşəti, daxili bir fəryad Fəttahın gözlərini böyütmüşdü.

O, axırıncı gücünü toplayıb sonuncu dəfə Gündüz Kərimbəylinin üstünə atıldı; bu həmlənin sonuncu olması, ölüm-dirim işi olması Fəttahın sinəsindən qopub gələn iniltinin yanğısından bilinirdi; elə bil ki, bu saat bütün dünya və o cümlədən, Fəttahın özünün də aqibəti bir tərəfə idi, Gündüz Kərimbəylini didib-parçalamaq, anasını ağlar qoymaq bir tərəfə.

Fəttah qabırğasının arasına dəyən zərbədən sarsılmadı, iki əlilə də Gündüz Kərimbəylini qamarlayıb altına basdı və ikisi də yerə – palçığın üstünə yıxıldı; Fəttah Gündüz Kərimbəylinin saçlarından yapışıb onun başını palçığa basmaq, nəfəsini kəsmək istəyirdi, mühüm işlər müstəntiqi isə iki əli ilə onun çənəsini yuxarı sıxır, bu fısıldayan qəzəbli sifəti üstündən rədd etmək istəyirdi.

Bu zaman bir əl Fəttahın kürkünün boynundan yapışıb onu qaldırdı və elə bil ki, Fəttah da birdən-birə süst düşüb asıla qaldı.

Prokuror Dadaşlı bir əli ilə onu qaldırıb, az qala, ayaqlarını yerdən üzəcəkdi və adamın heç ağlına gəlməzdi ki, bu həddən artıq kök və astagəl kişinin qolunda bu qədər güc var.

Gündüz Kərimbəyli hələ də nəfəsi tıncıxan prokuror Dadaşlının, müstəntiq Cabbarovun, kiçik leytenant Həsənzadənin bura nə vaxt gəlib çıxdıqlarını hiss etməmişdi və indi onlara elə baxırdı ki, elə bil başqa dünyadan gəlmiş adamlara baxır.

Sonra prokuror Dadaşlı Fəttahın kürkünün boynunu buraxdı və Fəttah yumşaq yeri üstə palçığa düşdü, eləcə də oturub qaldı.

Gündüz Kərimbəyli üz-gözünün palçığını silə-silə dikəlib Fəttahla üzbəüz oturdu və bir-bir prokuror Dadaşlıya, Cabbarova, Həsənzadəyə baxıb:

– Vaterlooda Blyuxerin köməyə gəlməsinə döndü bu!.. – dedi, sonra Fəttaha baxdı, sağ əlinin kösöv dəymiş barmaqlarını ovxaladı. – Güc varmış bunda!..

Fəttah da iki əli ilə, salavat çevirirmiş kimi, üzünü sildi və:

– Gərək gecəylə başını kəsəydim sənin! – dedi. – Qoyun başı kimi! – Həm də bu sözləri elə sakit dedi ki, bu adam qəssabının həvəsinin doğruluğuna heç kimin şübhəsi qalmadı.

Indi kənardakı şam ağacının yanında dayanıb onlara baxan Ziba da bu sözlərin həqiqət ola biləcəyinə qətiyyən şübhə etmədi.

Mühüm işlər müstəntiqi Gündüz Kərimbəyli gülümsədi və onun sifətinin ifadəsində neçə günlərin, bəlkə də neçə ayların, neçə illərin yorğunluğu, əziyyəti indi açıq-aşkar görünürdü; beləcə gülümsəyə-gülümsəyə də dedi:

– Səndən nə desən çıxar!... – Və necə deyərlər, acıdillik eləmək dilxoşluğundan özünü saxlamaq istəmədi. – Amma yaxşıca bankalayıb sağaltdın məni!

Fəttah:

– O da mənim səfehliyim! – dedi. – Hər adamın bir səhvi olur!... Səhv eləmişəm...

– Deyirdin ki, milyon-milyon fəttahlar gəlib-gedib bu dünyadan. Amma səndən tək-tək olub, Qurd Cəbrayıl!

Fəttah gözlərini qıyıb diqqətlə mühüm işlər müstəntiqinə baxdı və dedi:

– Əvvəldən gözüm su içmirdi səndən!.. Yaşından ki, cavan göründü adam, heç xoşlamıram onları... Amma Qurd Cəbrayıllığı sübut eləyəsən gərək!

– Eləyərik, eləyərik!... Barmaqlarının izindən tutmuş, nə istəsən, qoyacayıq qabağına. Başını kəsdiyin adamların arvad-uşağıyla da üzləşdirəcəyik səni...

Araya sükut çökdü və onsuz da, bütün işlərdən bir şey başa düşməyən prokuror Dadaşlı matdım-matdım gah mühüm işlər müstəntiqinə, gah da Fəttaha baxırdı.

Gündüz Kərimbəyli isə səhərdən bəri cınqırını çəkməyən Həsənzadəyə baxıb gülümsədi:

– Siz gətirdiz bu camaatı, hə? Küçədə mən gördüm sizi bayaq. Belədir bizim işimiz, yoldaş leytenant, mənim, sizin, hamımızın. Görürsüz də, kimlərə rast gəlirik hərdən?... Müharibə vaxtının quldurudu bu, Cəbrayıldı adı, Qurd Cəbrayıl deyirmişlər. Bütün Qarabağ dad deyərmiş əlindən. Sonra da qaçıb gəlib burada məskən salıb, bıçaq atmağıyla məşhuruymuş. Çox qan axıdıb. Atdığı bıçaqla Mahmud Qəmərlinskini də bir dəfə arxadan vurub beləcə. Budəfəki ikinci sınaq idi. Belədi işlər, leytenant!.. Mahmud Qəmərlinski pensiyaya çıxandan sonra iş başında həlak olub.

Gündüz Kərimbəyli bir müddət susdu və yenə də sağ əlinin barmaqlarını ovxaladı, görünür, Fəttahın atdığı kösöv əlini əməlli-başlı əzmişdi. Sonra Fəttaha baxa-baxa dedi:

– Cabbarovun nazirliyin arxivindən gətirdiyi sənədlərdən hiss etdim ki, Qurd Cəbrayılın işidi bu. Beləcə bıçaq atmaq onun işidi. Vaxtıyla Mahmud Qəmərlinskinin yaralanıb sağaldıqdan sonra öz əli ilə yazdığı izahatı da oxudum. Amma bilmirdim ki, Qurd Cəbrayıl kimdi, hansıdı... Budu, yoxsa... – Gündüz Kərimbəyli sözünün ardını deməyib prokuror Dadaşlıya müraciət etdi. – Imaşa niyə bir iş düzəltmirsiz, yoldaş Dadaşlı?

Prokuror Dadaşlı səhərdən bəri birinci dəfə ağzını açdı və:

– Ərizə verib pensiyaya çıxacağam mən... – dedi. – Mənimki bundan sonra kitab oxumaqdı, prokurorluq deyil! Konstitusiya müddətim gəlib çatır onsuz da...

Mühüm işlər müstəntiqi, elə bil, onun sözlərini eşitmədi:

– Sizin «nə üçün?» – sualınızın cavabı isə çox sadədir, prokuror. Imaş da, Fazil müəllim kimi, istəmirdi bacısının adı dilə düşsün. Ona görə danırdı vağzalda olmağını. Həm də... Həm də «Ilanvuran ala çatıdan qorxar» – deyiblər. Belə deyiblər, Qurd Cəbrayıl?

Fəttah baxdı, baxdı və:

– Elə deyiblər, – dedi.

Gündüz Kərimbəyli sözünə davam etdi:

– Imaş bilirdi ki, Fazil müəllimin Bakıda nişanlısı var, qorxurdu ki, Fazil onun bacısını aldada. Bilirdi ki, onun babası bu məsələdən ötrü buraya gələcək. Vağzalda gəlib öz gözləriylə görmək istəyirdi, Fazilin sözlərinin doğruluğunu bilmək istəyirdi...

Sonra Gündüz Kərimbəyli yenə də kiçik leytenant Həsənzadəyə baxdı:

– Bilmək istəyirsiniz necə olub bütün bu işlər, leytenant? Qurd Cəbrayıl necə öldürüb Mahmud Qəmərlinskini, həmin Mahmud Qəmərlinskinin ki, bir vaxt Qurd Cəbrayılın dəstəsini darmadağın etmişdi, bilmək istəyirsiz?

Fəttah, daha doğrusu, Qurd Cəbrayıl yenə mühüm işlər müstəntiqinə baxdı və bu saat o, qətiyyən şübhə etmirdi ki, yaşından xeyli cavan görünən bu bəstəkar oğlu, doğrudan da, hər şeyi bilir; sonra çox gözlənilməz bir hadisə baş verdi: Fəttah əlini aparıb ağzındakı diş protezini çıxartdı və onun damaqları bir-birinə yapışanda xalis qoca çaqqala oxşadı.

– Belə olub əhvalat, leytenant, qulaq asın... – dedi. Gündüz Kərimbəyli və elə bil ki, onun sözlərinə qulaq asan Fəttah da bir neçə gün bundan əvvəlki həmin gecə görüşünə qayıtdı...

... Sulu qar dayanmaq bilmirdi və paltosunun boynunu qaldırıb şlyapasını gözünün üstünə çəkmiş Mahmud Qəmərlinski yanında addımlayan Fazilə nəsə deyə-deyə gəlirdi.

Rayonun küçələri qaranlıq və kimsəsiz idi.

Onlar kitab mağazasına yaxınlaşanda, Fəttah mağazanın arakəsməsində taxta kətildə oturub qəlyanını tüstülədə-tüstülədə əllərini elektrik plitəsinin cərəyandan qızarmış məftillərinin üstünə tutmuşdu və o bu soyuq gecədə kiminsə gəldiyini hiss edib mağazanın qapısından küçəyə boylandı, Fazillə babası onun yanına gəlib çatanda:

– Salam, a müəllim, – dedi. – Gecə vaxtı xeyir ola belə?

Fazil dedi:

– Salam, Fəttah dayı. Babam gəlib Bakıdan.

Fəttah:

– Xoş gəlib, səfa gətirib, – dedi və Mahmud kişiyə baxdı.

– Çox sağ olun. – Bunu da Mahmud kişi dedi və elektrik plitəsinin zəif işığında Fəttahın sifətini güclə sezdi.

Onların baxışı cəmi bir an toqquşdu, sonra Fəttah başını içəri saldı, Mahmud kişiylə nəvəsi də yoluna davam etdi. Və bütün yolboyu Mahmud kişi ancaq bunu soruşdu:

– Nədi dedin adı bu kişinin?

– Fəttah dayıdı. Kitab mağazasının qarovulçusudu. Oğlu bizdə oxuyur.

Sonra onlar Ayna xalanın açdığı qapıdan həyətə girib pilləkənlə ikinci mərtəbəyə, Fazil müəllimin otağına qalxdılar.

Elə bil ki, Mahmud kişinin fikri özündə deyildi və o, pəncərəyə yaxınlaşıb bir müddət bayırın qaranlığına baxdı, sonra əlini paltosunun, pencəyinin yaxasından sinəsinə salıb ürəyinin üstünü ovuşdurdu, nəvəsinə sarı dönüb nəsə dedi, Fazil nəyəsə etiraz etdi və nəhayət, Mahmud kişi yenə elə-eləcə əynindən çıxartmadığı paltosunun boynunu qaldırıb aşağı düşdü, küçəyə çıxdı.

O, asta addımlarla boş və kimsəsiz küçələrlə addımlaya-addımlaya gəlib kitab mağazasının qabağına çatdı.

Fəttah qapının ağzında ayaq üstdə dayanıb qəlyanını tüstülədirdi və elə bil ki, Mahmud kişinin bu gəlişini gözləyirdi.

Onlar bir müddət üzbəüz dayanıb bir-birinə baxdılar.

Sonra Mahmud kişi:

– Səhərdən fikirləşirdim ki, sən deyilsən, bəlkə səhv edirəm, – dedi. – Sağ qalmışam mən. Görürsən də.

Mahmud kişi bu sözləri dedi və elə bil ki, neçə illər bundan əvvəlki son görüşləri onların ikisinin də gözlərinin qabağından gəlib-keçdi. Iyirmi-otuz il bundan əvvəlki son görüş...

...Qurd Cəbrayıl dağın döşündəki sıldırım qayaların arası ilə çapırdı və tez-tez arxaya çevrilib baxırdı; arxadan gələn atlı Mahmud idi və o Qurd Cəbrayılı qovduqca, atının ayaqlarının altından çınqıl qopub ətrafa səpələnirdi.

Qurd Cəbrayıl böyük bir qayanın başına fırlanıb atın yüyənini çəkdi və at yüyənin tarımlığından boynunu az qala ikiqat yana əyib qabaq ayaqlarını qaldırdı; Qurd Cəbrayıl atın belində qayanın dibinə qısıldı.

Mahmud çapıb qayanı keçdi və o, bir balaca aralanan kimi, Qurd Cəbrayıl sağ əlində hazır tutduğu iri bıçağı qaldırıb arxadan bir göz qırpımında Mahmuda tərəf atdı; bıçağın kürəyinə sancılması ilə Mahmudun atın belindən yerə sərilməsi bir oldu.

Sonra o, güclə başını qaldırıb qızarmış və genişlənib, az qala, hədəqəsindən çıxacaq gözləri ilə qayanın dibindən çıxmış Qurd Cəbrayıla baxdı, sonra da əllərini yerə basıb qolları əsə-əsə dizləri üstə dayandı, gücdən boğazının, üz-gözünün damarları şişdi, dodaqları səyriyə-səyriyə dedi:

– Arxadan vurursan, Qurd! Kişi arxadan vurmaz!

– Sən kişi niyə olursan?! – dedi Qurd Cəbrayıl. – Adam izləyən itsən sən, indi gəbər, köpəkoğlu! Milsanerlərin, geroyların indi gəlsin köməyinə, görüm necə gəlir!

Və Mahmud daha bu sözləri eşitməyib üzü üstə yerə sərildi.

Qurd Cəbrayıl ata yağlı bir şallaq ilişdirib çapdı və bir azdan qayaların arasında görünməz oldu...

– ...Mən sağ qaldım, – Mahmud kişi dedi, – amma elə bilirdim sən itib-batmısan çoxdan, amma sağmışsan sən də... – Mahmud kişi çevrilib bayaqkı ağır addımlarla geri qayıtdı.

Fəttah bir müddət elə-eləcə kitab mağazasının qapısı ağzında dayandı, sonra tələsik küçəyə çıxıb Mahmud kişinin ardınca getdi və ona on-on beş addım qalmış gecə gözətçisi kimi cibində gəzdirdiyi bıçağı, bu işin köhnə ustası kimi zərblə atdı.

Mahmud kişi yerində dayandı, başını geri çevirib Fəttaha baxdı və nə isə demək istədi, amma bir söz deyə bilməyib uzuqoylu səkinin üstünə sərildi; paltonun üstündən kürəyinə sancılmış bıçağın dəstəyi qaranlıqda işıldadı.

Fəttah tələsik addımlarla ona yaxınlaşdı, əyilib baxdı və əvvəlcə bilmədi ki, neyləsin, sonra Mahmud kişinin qolundakı qızıl saata baxdı, tələsik saatı açdı, əlini onun paltosunun döş cibinə salıb portmanatını çıxartdı.

Və elə bu vaxt sulu qarın şırhaşırı içində Cəbinin kefli zümzüməsi eşidildi:

Gül açılanda yaz olur, bəh-bəh-bəh!
Kədərim, qəmim az olur, bəh-bəh-bəh!
Gözəldə işvə, naz olur, bəh-bəh-bəh!
Gəl, gəl, gözəl yar, sevirəm səni!

Cəbi tini burulub alışıb-yanan gözləriylə onu gözləyən Fəttahı gördü, yerə yıxılmış adam qaraltısına baxdı və güclə ayaq üstə dura-dura dedi:

– Bu nədir a, Fəttah dayı, indi də piyanları daşıyırsan ayıltmaya?

Fəttah ona yaxınlaşıb:

– Gir, gir evinə! – dedi. – Sənnik bir iş yoxdu!

– Qoy görüm kimdi ki, o elə, ceyran südünün qədrini bilmir?

– Gir evinə, dedim sənə!

– Yox, a Fəttah dayı, canın üçün gərək görəm kimdi bu səfeh.

– Dedim ki, gir evinə!.. – Fəttah Cəbinin qolundan tutub darvazalarına sarı çəkdi.

Cəbi onun əlindən dartınıb:

– Vallah, görüm gərək kimdi o! – dedi.

Fəttah qızıl saatı Cəbinin ovcuna basdı:

– Al bunu! – dedi, – Qızıl saatdı, mən tapmışam, səninki olsun.

– Nədi? Qızıl saatdı? Mənə verirsən bunu, Fəttah dayı? Bu ki, Mirpaşanın kababxanasında ikigünlük kefin puludu!

– Hə, hə, sənə verirəm! Yeri, yeri, get gir evinə! – Fəttah Cəbinin qolundan çəkib darvazanın qapısından içəri saldı və Cəbi əlində tutduğu saata baxa-baxa bu dəfə vurnuxmadı, təzədən ləzzətlə zümzümə edə-edə həyətdən keçib pilləkənlə ikinci mərtəbəyə qalxdı:

Bülbul bağlarda səs salır: cəh-cəh-cəh!
Güllərin ətrini alır, bəh-bəh-bəh!
Musiqi səsi ucalır, cəh-cəh-cəh!
Gəl, gəl, gözəl yar, sevirəm səni!..

... Mühüm işlər müstəntiqi Gündüz Kərimbəyli ayaq üstə dayanıb, kürkünün ətəklərindəki palçığı təmizləyə-təmizləyə hələ də bayaqkı yerində oturub qalmış Fəttahdan soruşdu:

– Elə səhəri gün aldın Cəbinin başının üstünü? Saatı gizlət dedin, hə? Indi xatası var, mən tapmışam, sənə bağışlamışam, amma ölüymüş, kefli deyilmiş yerə yıxılan, saat da, deyəsən, onunkudu, hə? Qorxutdun onu yaxşıca? Yaxşı bacarırdın bunu...

Prokuror Dadaşlı əllərini paltosunun cibinə salıb:

– Bir də mənim kabinetimdəki sobanı yaxşı qalayırdı... – dedi.

Hamı Fəttahın haqqında keçmiş zamanla danışırdı.

Mühüm işlər müstəntiqi sözünə davam etdi:

– Cəbi aparıb saatı verdi Zibaya. Ziba da nəfsini saxlaya bilməyib satmaq istədi.

Bu yerdə Qurd Cəbrayıl özünü saxlaya bilmədi, iyrənc bir şeymiş kimi, başdan-ayağacan Zibanı süzüb:

– Toyuqca da ağlın yoxdu, səfeh qızı, səfeh! – dedi. – Sənin tamahın ucbatındandı bütün bu işlər!

Gündüz Kərimbəyli yenə sözünə davam etdi:

– Saat gəlib çıxdı bizə. Sən də bildin bunu, Cəbi dedi. Qorxdun yaman. Cəbini köhnə dəyirmana çağırdın, ağzından söz qaçmasın deyə, dəyirmanın pəncərəsindən bıçaq atıb onun da işini bitirdin...

Sonra Gündüz Kərimbəyli prokuror Dadaşlıya müraciət etdi:

– Cəbinin meyiti köhnə dəyirmandadı.

Və bu sözləri eşidəndə Zibanın gözləri az qaldı böyüyüb hədəqəsindən çıxsın:

– Necə? Cəbini? Cəbini öldürdün, a kaftar? – Ziba bu sözləri pıçıldaya-pıçıldaya dizləri üstə taqətsiz halda yerə çökdü və eləcə də pıçıldaya-pıçıldaya: – Bu nə müsibətdi belə mən düşmüşəm, ay Allah? – deyib Fəttaha sarı tüpürdü. – Tfu sənin zatına, a kaftar! Gorbagor olasan səni, a kaftar! Məni də qanıma qəltan eləmək istəyirdin? Kimə lazımam mən indi, ay Allah?!

Mühüm işlər müstəntiqi Zibanın yanından ötüb ağacların arası ilə yavaş-yavaş addımlaya-addımlaya buradan uzaqlaşdı.

Prokuror Dadaşlı Fəttaha baxıb:

– Dur, kişi, dur gedək, – dedi.

Fəttah bayaqdan əlində tutduğu diş protezini yenə ağzına saldı, sonra sırıqlısının cibindən qəlyanını çıxartdı və güclə ayağa qalxıb ayaqlarını sürüyə-sürüyə mühüm işlər müstəntiqinin ardınca addımladı; Fəttah on dəqiqənin içində qocalıb əldən düşmüşdü.

Prokuror Dadaşlı onun ardınca gedirdi. Cabbarovla Həsənzadə də axır ki, bayaqdan bəri dayandıqları yerdən tərpəndilər.

Fəttah Zibanın yanından keçəndə arvad bir göz qırpımında ayağa qalxıb ağızdolusu bir lomba Fəttahın üzünə tüpürdü. Fəttah sırıqlısının qoluyla üzünü silib Zibaya tərəf baxmadı və bir söz də demədi, elə bil ki, daha dünyanın bütün işlərinə biganə idi; sonra cibindən çıxartdığı kibritlə qəlyanını yandırıb tüstülətdi.

Mühüm işlər müstəntiqi Gündüz Kərimbəyli əyilib tapançanı yerdən götürdü və bu zaman Fəttah bir dəm tapançaya nəzər salıb rişxəndlə gülümsədi.

Gözlərini ondan çəkməyən kiçik leytenant Həsənzadə pıçıldadı:

– Iblisdi! Xalis iblisdi!

Prokuror Dadaşlı başını geri çevirib:

– Cavid bilirsən nə deyib? – soruşdu.

Kiçik leytenant cavab vermədi, çünki Cavidin nə dediyindən xəbərsiz idi və bu saat ədəbiyyatla məşğul olmaq halında da deyildi.

Prokuror Dadaşlı dedi:

– Belə deyib Cavid: Hər kəsə xain olan insan nədi? Iblis!

Kiçik leytenant:

– Dəhşətdir! – dedi.

Mühüm işlər müstəntiqi qanrılıb kiçik leytenanta baxdı və:

– Adi cinayət işidir, leytenant! – dedi, sonra gülümsədi. – Əgər cinayətə adi demək mümkündürsə... – Sonra da yerdən bir çubuq götürdü və çubuqla cığırı basmış xəzəli eşələyə-eşələyə çayın kənarına gəlib çıxdı.

Çay köpüklənə-köpüklənə axırdı.

Və topa-topa buludlar da daha günün qabağını almışdı; bir azdan yenə sulu qar başlayacaqdı.

## XXI

Yavaş-yavaş gün batırdı və Gündüz Kərimbəyli portfelini götürüb qonaq evinin darvazasından çıxanda Mürşüdlə üzbəüz gəldi.

Mürşüd ayaq saxlayıb qonağa baxdı.

Mühüm işlər müstəntiqi uşağın qarşısında dayandı.

Bir müddət onlar bir-birinə baxdılar.

Gündüz Kərimbəyli:
– Sağ ol, Mürşüd, – dedi.
Mürşüd cavab vermədi.
Onlar yenə bir-birinə baxdılar.
Gündüz Kərimbəyli:
– Kibrit kağızı göndərəcəyəm sənə, – dedi.
Mürşüdün gözləri doldu, dodaqları əsə-əsə:
– Dədəmi buraxdır! – dedi.
Mühüm işlər müstəntiqi gözlərini Mürşüddən çəkmədi; onun baxışları açıq-aşkar belə deyirdi ki, sənin nə təqsirin var, evdəki bacılarının, qardaşının nə təqsiri var ki, bu dünyada atasız böyüyəsiz? Atanıza sizin nə deyim mən!..
Gündüz Kərimbəyli əlini qaldırıb Mürşüdün qıvrım saçlarını qarışdırdı və:
– Böyüyəndə çox şeyi başa düşəcəksən! – dedi. – Məni də başa düşəcəksən.
Sonra asta addımlarla uzaqlaşdı...
... Və daha sonra qatar qar basmış meşənin səssizliyini poza-poza getdi.

*1975.*

# AMAN OVÇU, VURMA MƏNI...

*İlyas Əfəndiyevin «Mahnı dağlarda qaldı»*
*pyesinin motivləri əsasında yazılmışdır.*



## BİRİNCİ HİSSƏ

### I

Şərqə karvan çəkən buludlar altından Topxana meşəsi görünürdü və bu dəm bu meşə sakitliyində elə bil ki, əsrlərdən keçib gələn bir mahnının sədaları eşidilirdi:

Deyirlər Qarabağ bir cənnət imiş,
Bəslərmiş qoynunda mələklərini.
Məndə qüdrət hanı qələm çalmağa,
Tərif eləməyə ancaq birini.

Və elə bil ki, bu dəm sədası meşəyə yayılmış bu mahnını kimsə bir nəfər oxumurdu, elə bil ki, bu mahnı Topxana meşəsinin mahnısı idi; elə bil ki, bu qollu-budaqlı ağaclar, bu kol-kos, bu sıldırım qayalar həmin mahnının sədalarını gözləyirdi, həmin mahnının dediklərini bəyənirdi, təsdiq edirdi.

Bu mahnının sədaları bu cavan qırqovulu da sehrləmişdi və quş böyürtkən kolunun yanında dayanıb, heç nədən çəkinmədən, elə bil ki, yazın bu çağında, günün bu günorta vaxtında təbiətdən pis bir şey gözləmədən, həmin mahnıya qulaq asırdı.

Nicatın altındakı səmənd ürgə də bu dəm səssiz-səmirsiz yerində dayanıb başını yuxarı qaldırmışdı və elə bil ki, karvan-karvan şərqə axıb gedən ağ buludlara baxırdı.

Bu ağ bulud karvanlarında, bu qoca palıdda, bütün Topxana meşəsində bu dəm bir əbədilik var idi.

Nicat birdən-birə böyürtkən kolunun yanındakı qırqovulu gördü və o saat da cavan oğlanın ovçu təbiəti oyandı, üzənginin üstündə ayağa qalxıb, əlini yuxarı uzatdı, palıddan bir qoza qırıb qırqovula tərəf atdı və atmağıyla da atın yalındakı tüfəngi götürüb sinəsinə sıxmağı bir oldu.

Qırqovul ürküb göyə qalxdı.

Nicat döşünə sıxdığı tüfəngi qırqovulun tuşuyla fırladı və bu zaman qəfil bir güllə səsi Topxana meşəsinin sakitliyini tamam darmadağın elədi və bir göz qırpımında qırqovulun qanadları yanına düşdü, quş bir daş parçası olub yerə dəydi.

Nicat əvvəlcə tüfəngə baxdı və elə bil təəccüb etdi ki, bu tüfəng öz-özünə necə açıldı, sonra qaya başında dayanmış atlını gördü və hirs onu boğdu.

Səmənd ürgə sahibinə sataşıb ovunu ovlayan atlıya tərəf götürüldü və sıldırım qayaları qalxan səmənd ürgənin ayaqlarının altından qopan çınqıllar aşağıya – əyri-üyrü yarğan boyu qıvrıla-qıvrıla axıb gedən və gün altında gümüş kimi parıldayan Daşaltı çayına töküldü.

Solaxay Həsənalı atın yüyənini dartdı və sıldırım qayanın başında dayanmış kəhər at şahə qalxdı; Solaxay Həsənalı yüyəni sağ əli ilə tutmuşdu, sol əlində tüfəng var idi.

Səmənd ürgə altdakı qayadan yuxarı çıxdı və Nicat yalnız indi atasını tanıdı, oğlanın tar simi kimi tarım çəkilmiş əsəbləri elə bil birdən-birə süstəldi:

– Mən də deyirəm kimdi belə, ovuma güllə atır?..

Solaxay Həsənalı:

– Əlin iti deyil, gözün iti olsun barı, – dedi və Nicata tərəf çapdı. – Ovçunun ki, ovunu vurdular, demək hələ ovçu deyil.

Nicat pərt oldu yaman, özünü güclə saxladı ki, artıq-əskik söz deməsin və onun bu vəziyyətini Solaxay Həsənalı da hiss etdi.

– Amma hirsdə-hikkədə, söz götürməməkdə Güzdəkli Bayandurun nəvəsisən. – Sonra kişi gülümsədi və onun sərt sifətindən bir mehribanlıq ötüb-keçdi...

– Əslində elə Solaxay Həsənalı da sizə çəkib...

Səmənd ürgə ilə kəhər at birgə addımladı.

– Get qırqovulu götür, – dedi Solaxay Həsənalı.

– Mən vurmamışam ki, mən götürüm, – dedi Nicat.

Solaxay Həsənalı Topxana meşəsinə tərəf baxdı:

– Onsuz da, Böyük bəyin süfrəsinə qırqovul lazımdı. Bir qırqovul yerinə ikisi hayıf olmasın. Çap get götür.

Nicat da çönüb Topxana meşəsinə baxdı və elə bil ki, atasının sözləri ağlına batdı.

Solaxay Həsənalı dedi:

– Düzdü, adam gərək ağzını ətə, altını ata öyrətməyə, amma Böyük bəy qırqovulsuz keçinmir.

Nicat yaxşı başa düşürdü ki, atası nə deyir, amma Solaxay Həsənalı daha dolayısıyla yox, elə birbaşa dedi:

– Sənin tayın deyil Şahnaz. Ona görə yox ki, o bəy qızıdı, bəy bacısıdı, sən ovçu oğlu ovçusan. Güzdəkli Bayandur Böyük bəyin atası Cavanşir bəydən əskik adam olmayıb. Bunu bütün Qarabağ bilir. Güzdəkli Bayandurun iyidliyi dastanlarda söylənilir. Ona görə də yox ki, bəylə bostan əkənin tağı çiynində bitər. Sən tağı çiynində bitənlərdən deyilsən. Ona görə ki, Solaxay Həsənalının gəlini də gərək mərd olsun, ər gəlin olsun, gecə-gündüz at belində dağları, düzləri gəzməyin qədrini bilsin, qiymətini versin...

– Sən onu tanımırsan... – dedi Nicat.

Və bu zaman aşağılardan güllə səsi gəldi, hay-küy qopdu.

Səmənd ürgə ilə kəhər at atışma gələn tərəfə birgə çapdı.

Bir azdan atışma kəsdi, hay-küy yavaşıyıb yox oldu. Topxana meşəsinə, sıldırım qayalara yenə bir sakitlik çökdü və bu sakitliyi yalnız səmənd ürgə ilə kəhər atın ayaq səsi pozurdu.

Solaxay Həsənalı atın yüyənini çəkdi və kəhər at yenə də şahə qalxdı.

Səmənd ürgə də dayandı.

Ağacların arasından bir eşşək çıxıb yavaş-yavaş addımlaya-addımlaya onlara tərəf gəlirdi.

Eşşəyin üstündə adam var idi, amma bu adam eşşəyin belində tərsinə oturmuşdu, dalı qabağa idi və onun əl-ayağını kəndirlə bağlamışdılar, başına da qatıq tökmüşdülər.

Solaxay Həsənalı:

– Bahadırın işidi, – dedi.

Nicat:

– Pristav Mirzə bəydi... – deyə eşşəkdə gələn adamı tanıdı.

Solaxay Həsənalı gülümsədi və yenə də onun sifətindən bir mehribanlıq ötüb-keçdi.

– Bu iki daşın arasında qatığı hardan tapıblar belə? – Solaxay Həsənalı oğluna baxdı.

Nicat:

– Bahadır özüylə götürüb yəqin. Mirzə bəy döşünə döyürdü ki, Bahadırın axırına çatacağam Topxana meşəsində.

Eşşək eləcə ağır-ağır gəlib onların yanından ötdü. Solaxay Həsənalı eşşəyə tərəf işarə eləyib:

– Bunların belə günləri də olur... – dedi.

Eşşək ötəndən sonra üz-gözündən qatıq süzülən Mirzə bəy atlıları gördü və görməyiylə də o boyda kişinin zır-zır ağlamağı bir oldu:

– Qırdı tökdü hamımızı... – dedi. – Qaçaq Bahadır qırdı tökdü bizi... Nikolay padşahın ölən günləridi... Gəl, a ovçu, a Solaxay Həsənalı, gəl aç düşür məni, belə girməyim Şuşaya, mən də bir kişinin oğluyam, a Solaxay...

Solaxay Həsənalı daha eşşəyə tərəf baxmadı, yanında dayanmış Nicata dedi:

– Yeri get aç onu. Biz gördük, bəsdi... – Sonra kəhər atın səmtini çöndərdi və at çapa-çapa Topxana meşəsində gözdən itdi.

Karvan-karvan buludlar isə elə hey şərqə tərəf axıb gedirdi.

Cıdır düzündə gül gülü çağırırdı, bülbül bülbülü.

Qızlar Məlikşahnəzər kahasının üstündəki çəmənlikdə xalça sərmişdilər.

Şahnaz arxası üstə xalçanın üstündə uzanıb, başını mütəkkəyə qoymuşdu, əllərini başının altında çarpazlamışdı, göyə baxırdı.

Göy tərtəmiz, buludsuz idi.

Gülgəz döşəkcənin üstündə oturub dizlərini qucaqlamışdı və bu saat bütün hiss-həyəcanıyla, bütün varlığıyla Cıdır düzünün gül-çiçəyi ilə, dörd bir yanın təmizliyi, paklığı, saflığı ilə nəfəs alan Şahnazdan fərqli olaraq bu qız deyinməkdən yorulub-usanmırdı:

– Yaman pis arvaddı Fəxrəndə xanımın gətirdiyi o çörəkçi arvad. Gözəldi adı, yalançının başına dəyirman daşı! Mən ölüm, bir gözələ bax da, iti bağlasan qalmaz onnan bir yerdə. – Gülgəz özü öz söylədiklərindən cuşa gəldi, Gözəl arvadı yamsılamağa başladı: «Nədi, balam, Böyük bəyin bu boyda bağ-bağçası azlıq eləyir sizə, gedib Cıdır düzündə xalça açırsız?..».

Bir halda ki, Cıdır düzündə bu qədər gül-çiçək vardı, bir halda ki, o beləcə tərtəmiz idi, göz işlədikcə geniş idi, qurtarmaz idi, dünyanın işləri Şahnaz xanmın vecinə deyildi; qayğısız-qayğısız və gözlərini də gömgöy göydən çəkməyib soruşdu:

– Yoxsa bir şey duyub, ay qız?

– Nə bilim? – dedi Gülgəz. – Nə bilim, xanım? Pişik kimi şeydi, yerin yeddinci qatından iy çəkir... – Sonra Gülgəz də başını qaldırıb göyə baxdı. Gülgəz də gördü ki, göy necə tərtəmizdi, göz işlədikcə necə qurtarmazdı, Gülgəzin də ürəyinin sarı simi dilə gəldi. – Vallah, xanım, mənim də bəxtim bir gün açılacaq. Uşaqlıqda o qədər eşşəyə minmişəm ki...

Şahnaz xanım şaqqanaq çəkib güldü və bu saat onun bu gülüşü də bu Cıdır düzünün, bu tərtəmiz göyün bir hissəsiydi.

Gülgəz dedi:

– Axı, deyirlər qız uşağı eşşəyə minəndə bəxti açılır. Mütləq açılacaq! Görərsən, xanım! Ölmüşdü Xankişi, mənə nə olub bəyəm? – Gülgəz qoynundan kiçik bir güzgü çıxarıb üz-gözünə sığal verdi. – Göz məndə, qaş məndə... Boy məndə – Gülgəz ayağa qalxdı – Intəhası rəngim bir az qaradı... O da keçər. Qoca nənəm deyirdi ki, qara kişmişi cibə tökərlər, ağ ayranı itə...

Və Gülgəz kiçik aynanı qoynunda gizlədə-gizlədə, Şahnaz uzanmış xalçanın başına fırlana-fırlana, oxuya-oxuya sındırmağa başladı:

Adım Qara qız,
Özüm qara qız.
Eşitmərəm söz...

Gülgəz oxuyub süzdükcə Şahnaz xanım şaqqanaq çəkdi.

Və bu zaman səmənd ürgə Məlikşahnəzər kahasının ağzından burulub yuxarı çapdı.

Gülgəz qaya başına qaçdı, yoxuşu çapan atlını gördü, qışqıra-qışqıra:

– Gəldi, xanım! – dedi. – Gəldi çıxdı ovçu!..

Şahnaz xanım o saat göylərdən yerə endi, cəld ayağa qalxıb üst-başını düzəltdi və qaça-qaça qaya başına gəldi.

Nicat qızların yanında cilovu çəkəndə səmənd ürgə qabaq ayaqlarını qoşa qaldırdı, fınxırıb boynunu dartdı və bu dəm elə bil ki, Nicat Böyük bəyin ovçusu deyildi, birdən-birə nağıllardan peyda olub Cıdır düzünə gəlmişdi.

Şahnaz xanım:

– Nə olmuşdu, ovçu Pirim, niyə gecikdin? – dedi.

Gülgəz:

– Mən yazıq səhərdən otuz dəfə bura yüyürüb, kahaya boylanmışam, – dedi.

Nicat atdan sıçrayıb:

– Quş tapa bilmirdim, – dedi. – Səhər Topxana meşəsində elə duman idı ki, bir addım qabağı görmək olmurdu.

Şahnaz oğlanın qolundan tutdu:

– Çıxıb gələydin...

Nicat Gülgəzə baxdı və elə bil ki, başqa adamın yanında, Şahnazın onun qolundan tutması oğlanı bir balaca karıxdırdı.

Gülgəz dedi:

– Necə gələydi?.. Ay xanım, özün bilirsən ki, Böyük bəy qırqovulsuz plov yemir.

Nicat Şahnaz xanıma baxıb gülümsədi:

– Deyəsən, axı, bəyin bacısı da qırqovulu az xoşlamır...

Şahnaz xanım da bu hündürboylu, enlikürəkli, şumal oğlana baxdı, belindəki patrondaşa baxdı və cavan xanımın gözlərində bir qürur duydu. Şahnaz xanım dedi:

– Mən qırqovulu ona görə xoşlayıram ki, gözəldir... Gün işığında hər tükü bir rəngə çalır. Gözləri yaqut kimi alışıb-yanır.

Nicat zarafat elədi:

– Plovda qırqovul tüksüz, başı da kəsilmiş olur.

Hər zarafatda bir həqiqət var, deyiblər. Şahnaz xanımın gözlərindən ani bir pərtlik, bir kin gəlib keçdi:

– Sancırsan yenə, ovçu, – dedi və əlini oğlanın qolundan çəkdi.

Bu sözləri, əllərini başının altında çarpazlayıb uzun-uzadı göyə baxan o qız demədi, bu sözləri Böyük bəyin bacısı Şahnaz xanım dedi.

Gülgəz birdən-birə bilmədi ki, nə eləsin, gah saçına sığal vurdu, kah əynini-ətəyini hamarladı.

Nicat ucundan tutub ucuzluğuna getmədi, səmənd ürgənin o biri tərəfinə keçib, atın yalına bağladığı böyürtkənli uzun sünbülü götürdü – böyürtkənlər bir-bir muncuq kimi səliqə ilə sünbülün samanına keçirilmişdi – və oğlan böyürtkən düzülmüş sünbülü Şahnaza uzatdı:

– Bu sizin, – dedi. – Sənlə Gülgəzin.

Şahnaz xanım bircə anın içində yenə dəyişdi:

– Sənin kimi ceyranı gözündən vuran bir oğlanın, bax, beləcə səliqəsini görəndə az qalır ürəyim dağa dönsün, istəyirəm səni... – Şahnaz xanım sözünü demədi, qulluqçu qıza baxdı. – Gülgəz, aşpaz sənə basdırma üçün kəklikotu tapşırmadı?

Gülgəz:

– Hə, yadıma düşdü, xanım, – dedi. – Mən qaçdım kəklikotu yığmağa...

Adım Qaraqız,
Özüm qara qız,
Eşitmərəm söz...

Gülgəz oxuya-oxuya kəklikotu yığmağa qaçdı.

## II

Nicat səmənd ürgənin cilovunu buraxdı və at elə bil ki, çoxdan belə bir əmin-amanlığın həsrətindəymiş kimi, başını aşağı salıb yavaş-yavaş otlamağa başladı.

Şahnaz xanımla Nicat çəmənlikdə salınmış xalçaya tərəf gəldilər və qız gələ-gələ də soruşdu:

– Bir de görüm beş gün idi hara yox olmuşdun?

Nicat:

– Bakıya getmişdim... – dedi.

– Xeyir ola?

– Bir dostum var orda, onun yanına getmişdim.

– Nəçidi?

– Mədəndə işləyir.

– Axır vaxtlar yaman tez-tez gedirsən Bakıya, – dedi Şahnaz xanım və sövq-təbii bir narahatlıqla oğlana baxdı.

Nicat söhbəti dəyişdi:

– Sənin üçün darıxmışdım yaman.

– Doğrudan? – Şahnaz xanım sidq-ürəkdən sevindi. – Darıxmışdın mənimçün? Heç bilirsən mən nə fikirləşmişəm? Dünən bir roman oxuyurdum, firəng dilindədi, Böyük Parisdən gətirtdirib. Oğlan gecə xəlvətcə qızgilin bağına girir. Bağbanın nərdivanını pəncərənin qabağına qoyub qalxır sevgilisinin otağına...

Nicat maraqla:

– Sonra? – soruşdu.

– Nə sonra? Sonra da balqabaq!

Nicat güldü:

– Bunu niyə danışırsan ki?

– Ona görə danışıram ki, ovçu Pirim, əyər bir qızla bir oğlan bir-birilərini istəyirlərsə, gərək heç nədən qorxmasınlar. Gərək çəkinməsinlər heç nədən! Nicat... – Şahnaz xanım bir az tərəddüd etdi, sonra dedi: – Nicat, qoşulub qaçaq!

Nicat elə bil ki, bütün bu sözləri ciddi qəbul eləmirdi, elə bil ki, bütün bu sözlər gəldi-gedəri bir şıltaqlıqdı.

– Hara?

Şahnaz böyürtkənləri bir-bir sünbüldən çıxardıb yeyə-yeyə:

– Hara istədik, – dedi. – Arazın o tayına. Təbrizdə mənim əmizadələrim var.

– Bəs onlar deməzlər ki, niyə qoşulub qaçmısan?

Şahnaz bu dəfə doğrudan zarafata saldı:

– Deyərəm bir ovçunun dərdindən dəli-divanəydim. Yaşaya bilmirdim onsuz. Lap deyərəm, bu məni yox, mən bunu götürüb qaçmışam. Deyərəm Həsənalı bəyin oğludu.

– Bəyəm mənim atam bəydi?

– Onlara heylə deyərik. Gəlib yoxlamayacaqlar ki, görsünlər bəydi, ya ovçudu?

Nicat xalçanın yanında ayaq saxladı və onun beləcə hirslənəcəyini heç Şahnaz da gözləməzdi.

– Yüz sənin kimi qız olsa, mən yenə əslimi danmaram. Mənim atam Solaxay Həsənalı bütün Qarabağda məşhur kişidi! Ovçu olsa da, sənin bəylərindən əskik adam deyil!

Səmənd ürgə uzaqda başını qaldırdı, elə bil ki, sahibinin səsini dəyişməyindən başa düşdü ki, getmək vaxtıdı.

Nicat iri addımlarla səmənd ürgəyə tərəf addımladı. Şahnaz yüyürüb oğlanın qolundan yapışdı:

– Dayan!

– Burax!

– Mən ölüm, dayan!

Nicat ayaq saxladı və qızın üzünə baxmadan:

– Mən sənə yalvarmamışam, – dedi.

Şahnaz qızğınlıqla:

– Bilirəm! – dedi. – Mən özüm səni istəmişəm! Mən özüm sənə vurulmuşam! Sənsiz mənim bir günüm olmasın!

Və bu vaxt Gülgəz yenə qaça-qaça gəlib qaya başına çıxdı, ordan əl eləyib qışqırdı:

– Ey-y-y-y! Ay xanım, yenə kəklikotu yığım?

Şahnaz:

– Hə, bir az da yığ! – qışqırdı, sonra dedi: – Əyər sən mənim üçün əziz olmasaydın, günün günorta çağı bura gələrdim?

Qızın belə bir cidd-cəhdi Nicatı hələ də yumşaltmamışdı:

– Istəyirsən gəlmə.

Şahnaz:

– Kobud! – dedi. – Qabanın biri qaba! – dedi. – Gələcəyəm! Bax, səni buna görə istəyirəm! Məğrur ovçu, zalım ovçu. – Sonra ata tərəf gedən Nicatın başına fırlana-fırlana oxumağa başladı:

Aman ovçu, vurma məni,

Mən bu dağın maralıyam.
Yaralıyam, yaralıyam,
Mən bu dağın, a balam, maralıyam.

– Məni istəyirsən?

Nicat başını tərpətdi, yəni ki, hə, istəyirəm.

Şahnaz dedi:

– Bir pud başını tərpədincə, üç misqal dilini tərpədə bilmirsən?

Nicat:

– Yox, – dedi.

Şahnaz:

– Ba-a? – dedi, sonra şaqqanaq çəkib güldü və qızın gülüşü bütün Cıdır düzünə yayıldı.

Yuxarı düzənlikdə kəklikotu yığan Gülgəz belini düzəldib aşağı baxdı, Nicatla xanımı gördü, özünü saxlaya bilməyib çığırdı:

– Xanım, daha Cıdır düzündə kəklikotu qalmadı. Indi nə yığım?

Şahnaz da aşağıdan yuxarı qışqırdı:

– Indi də reyhan yığ!

Hava birdən-birə dəyişdi. Kirs tərəfdən topa-topa buludlar gəlib göy üzünü aldı.

Nicat:

– Yağacaq, – dedi.

Şahnaz Nicata qısıldı:

– Mən bayaq zarafat eləmirdim, Nicat, – dedi. – Məni Yunis bəyə vermək istəyirlər. Fəxrəndə xanımın bacısı oğlu Yunis bəyə.

Nicat Şahnaza baxdı, bir müddət susdu, sonra soruşdu:

– Bəs sənin fikrin nədi?

– Qaçaq, Nicat, qaçaq gedək. Mən hərtərəfli fikirləşmişəm, götür-qoy eləmişəm, başqa çarə yoxdu. Yunis bəyə getməyə bilərəm. Böyük qoymaz ki, məni zorla ərə versinlər, amma çifayda? Yunis bəy olmasın, Həsən bəy olsun, Məmməd bəy olsun. Ya gərək ömrümüz boyu beləcə gizlincə görüşək, Gülgəz ətəyini kəklikotuyla doldursun hər dəfə, ya da gərək qoşulub qaçaq.

Bir müddət heç biri heç nə demədi, Cıdır düzünün sıldırım qayaları arasında addımladılar; aşağıda, yarğanın dibində Daşaltı çayı qıjıldaya-qıjıldaya, köpüklənə-köpüklənə axırdı; buludlar daha günün qabağını tamam-kamal kəsmişdi; Şuşanın məşhur yağışqabağı ilk payız yeli əsməyə başladı.

Nicat dedi:

– Qohum-qardaşdan ayrı düşəcəksən.

– Bilirəm. Qohum-əqrəba içində ən əziz adamım bircə Böyükdü. Yerimizi əvvəlcə bildirməyəcəyəm, amma fürsət düşdükcə ona məktub yazacağam. Böyük məni başa düşəcək, Nicat. Mən onu yaxşı tanıyıram.

– El-oba nə deyər?

– Nə deyir, desin! Mən sənin sevgilinəm, istədiyinəm, sən də mənim ürəyim, canım, ciyərim! Bildin? – Şahnaz gizli bir narahatlıqla oğlana baxdı. – Belə deyil? Bəlkə yanılmışam mən bu iki ildə?

Nicat bu suala özü bildiyi kimi cavab verdi:

– Bakıya gedək!

Şahnaz:

– Hə, qaçırıq?! – dedi. – Allaha çox şükür! Yuxum çin oldu, Nicat. Gecə yuxuda görmüşdüm ki, hər tərəfi su basıb, dünya su içindədi! Bildim ki, su aydınlıqdı! Amma Bakıya niyə? Bakının istisinə, toz-torpağına mən dözə bilmərəm. Düzdü, qonaqlarımız çoxdu Bakıda, Hacı Zeynalabdinin oğlu da Böyüyün dostudu, amma Bakıya yox, uzaqlara gedək... Irana gedək. Mən firəngcə də bilirəm, farsca da, hara getsək sənin dilmancın olaram. Sən də ruscanı yaxşı bilirsən. Avropaya gedək, Firəngistana... Anamdan mənə bir mücrü ləl-cavahir qalıb, vəsiyyət eləyib ki, bu təkcə Şahnazındı, onu da götürəcəyəm...

Nicat qızın sözünü kəsdi:

– O mücrünü götürməyəcəksən, Şahnaz. O mücrü də qalacaq sənin çıxıb getdiyin evdə. Sən kefə də getmirsən, Şahnaz, hər şey daşdan çıxacaq. Özü də Bakıya gedəcəyik.

– Sən nə təhər deyirsən, elə olsun. Amma niyə o toz-torpağın, o nöyütün içinə, hisin-pasın içinə?

– Əvvəla ona görə ki, Bakıda mənim işlərim var, vaxt gələr, bilərsən. Bu gün xalqa canı yananların, camaatın güzəranını fikirləşənlərin çoxu Bakıdadı. Mənim də dostlarımdı onlar, Şahnaz. Mən mütləq Bakıda olmalıyam...

Şahnaz, elə bil, öz-özü ilə danışdı:

– Deyirəm axı, bu niyə belə tez-tez Bakıya gedir... Olmaya sən də Mir Həsən ağa kimi əlahəzrət Nikolayın əleyhinə çıxanlardansan?

Nicat qızın sualına cavab vermədi:

– Vaxt gələr, hər şeyi bilərsən, – dedi. – Bir də ki, Şuşadan qaçırıq, Qarabağdan qaçırıq, daha bütün Azərbaycandan qaçıb getsək bağrımız yarılar.

Şahnaz yenə də bayaqkı qürurla, şövqlə bu zalım ovçuya baxdı və:

– Yaxşı, yaxşı, – dedi, – indi ki, belə oldu, zalım ovçu, mən gözlərimi yumub özümü tapşırıram sənə... Hara istəyirsən apar, amma mənimlə ol, mənimlə ol həmişə, zalım ovçu... Apar məni hara istəyirsən...

Nicat daha hər şeyi qət etmişdi özü üçün, qızın gözlərinin içinə baxdı:

– Qəti sözündü? – soruşdu.

– Qəti... Qəti!.. Qəti!..

Şahnazın ürəkdən qopub gələn bu pıçıltısı elə bil bütün Cıdır düzünə yayıldı, elə bil bu güllər, çiçəklər də o pıçıltını eşitdi; sonra göy guruldadı, Daşaltı çayı daha artıq bir qıjıltıyla axdı.

Gülgəz ətəyi kəklikotu ilə, reyhanla dolu yuxarıdan aşağı qaça-qaça Şahnazla ovçunun yanına gəldi, tövşüyə-tövşüyə:

– Vallah, xanım, – dedi. – Daha reyhan da qurtardı o tərəflərdə. – Sonra Şahnazın əlində böyürtkəni qurtarmış kolu gördü. – Boy, ay xanım, bəs mənə böyürtkən saxlamadın? Nicat qağa ikimizə gətirmişdi axı...

Şahnaz birinci dəfə görürmüş kimi əlindəki kola baxdı:

– Bağışla, ay qız, – dedi. – Heç bilmədim necə yedim hamısını. – Sonra bərkdən güldü və bu gülüşdə zarafatdan, məzəli bir peşmançılıqdan başqa da nəsə vardı.

Nicat:

– Axşam sənə bir sap böyürtkən yığıb gətirrəm, – dedi.

## III

Böyük bəyin bağ-bağatı bütün Qarabağda məşhur idi və bu bağda armud, alma, tut, gavalı ağaclarının arasında böyük bir meydan vardı.

Güllənin açılmağı ilə Yunis bəyin göyə tolazladığı boşqabın çilik-çilik qırılıb yerə tökülməyi bir oldu.

Fəxrəndə xanım əlindəki tüfəngi aşağı saldı. Yunis bəy:

– Vallah, xala, – dedi. – Qarabağın çox igidləri gərək atmağı səndən öyrənsin!

Sonra Yunis bəy əyilib yerdə düzülmüş boşqablardan ikisini götürdü və cəld hərəkətlə boşqabları bir-birinin dalınca göyə tolazladı və Fəxrəndə xanım da bir göz qırpımında tüfəngi döşünə sıxıb iki güllə ilə göydəki boşqabları dalbadal çilik-çilik elədi.

Yunis bəy özünü saxlaya bilməyib bir uşaq fəxarəti ilə:

– Afərin, xala, vallah afərin! – dedi.

Çörəkçi arvad Gözəl də meydana tərəf gələ-gələ ağacların arasından göydə çilik-çilik olan boşqabları gördü və öz-özünə:

– Allah, sən saxla! – dedi. – Arvad deyil, sifətinə baxırsan, mələkdi, amma özü şiri-nərdi!.. – Sonra ağacların arasından çıxdı, çönüb ona tərəf baxan Fəxrəndə xanımı him-cimlə çağırdı.

Fəxrəndə xanım tüfəngi Yunis bəyə verib Gözəl arvada yaxınlaşdı və Gözəl arvad da can-dildən Fəxrəndə xanımın qulağına nəsə pıçıldamağa başladı.

Yunis bəy arvadlara baxdı, sonra əyilib üst-üstə yığılmış boşqablardan birini götürdü, var gücü ilə göyə vızıldatdı, sol əlində tutduğu tüfəngi elə birəlli də yuxarı qaldırıb atdı: boşqab göydə çilik-çilik olub yerə töküldü.

Fəxrəndə xanım Gözəl arvaddan ayrılıb bacısı oğluna yaxınlaşdı, iyirmi üç-iyirmi dörd yaşlarında bu gözəl oğlanı təpədən dırnağacan süzüb:

– Bax, atmaq buna deyərlər, Yunis! Sənin damarlarından Cəfərqulu xanın qanı axır, belə də olsun gərək! – dedi.

Boşqablar yenə bir-bir göyə tolazlandı və göydə də bir-bir çilik-çilik olub yerə töküldü.

## IV

Böyük bəy qırx yaşlarında, saçı vaxtından əvvəl ağarmış, Avropasayağı və çox da zövqlə geyinmiş bir adamdı, indicə oxuyub qurtardığı qəzetləri bir tərəfə qoydu, oturduğu kreslodan ayağa qalxıb malikanənin həyatinə çıxdı və həyətdə Şahnaz xanımı görüb bacısına tərəf getdi və qızın əlindən tutub:

– Mənim əziz bacımın kefi necədi? – soruşdu.

Böyük bəyin ağayana və nəzakətli davranışı, üzündəki şux ifadə həmişə Şahnazın ürəyinə bir sevinc, bir fərəh gətirirdi.

Şahnaz:

– Şükür Allaha, qardaş, – dedi. – Yaxşıyam, dünən axşam gəlib-gedən çox idi, heç soruşa bilmədim ki, Peterburq səfərin necə keçdi?

Böyük bəy bacısının qoluna girib həyət boyu addımlamağa başladı və addımlaya-addımlaya da dedi:

– Səfərim o qədər də fərəhli olmadı. Peterburq bu saat qazan kimi qaynayır. Hər tərəfdə bir inqilab havası var.

– Bəs, görəsən, əlahəzrət imperator nə fikirdədi?

– Kim bilir? Hökumətin başı bu saat Cahan müharibəsinə qarışıb, mən bir ciddi tədbir hiss eləmədim. Bir də ki... – Böyük bəy bir müddət sözünə ara verdi, gözlərini qıyıb batmaqda olan günəşin qırmızı şəfəqlərinə baxdı, sonra dedi: – Deyəsən, ikibaşlı qartalın caynaqları korlaşıbdı, bacı. O cür iğtişaşların kökünü birdəfəlik kəsmək üçün Bonapart kimi amansız olmaq lazımdı. Əlahəzrət isə məşhur inqilabçıları həbs eləyib üçillik sürgünə göndərir. – Böyük bəy dərindən nəfəs aldı. – Rusiyanın taxt-tacı sarsılır, bacı. Bakının özündə də ali hökumət adamları, qubernator cənabları çox narahatdı.

Şahnaz açıq-aşkar narahat oldu:

– Bakıda da?

– Bəli... Qəzetlərdə oxumursan? Orda da tez-tez nümayişlər baş verir. Rus erməniyə qarışıb, erməni axmaq müsəlmana qarışıb, aləm dəyib bir-birinə. Sahibkarlar güzəştə getməyə məcbur olur... Yaxşı, siyasətdən danışdıq, bəsdi, inşallah, yaxşı olar hər şey, de görüm sən nə fikirdəsən?

– Nə barədə?

– Biz Yunis bəyin elçilərinə cavab verməliyik.

Şahnaz birdən-birə qızardı, özünü naqolay hiss elədi:

– Mən hələ qəti bir qərara gəlməmişəm, qardaş, – dedi.

Bu dəm Böyük bəy Şahnazın böyük qardaşından daha çox qızın atasına oxşayırdı:

– Məncə, Yunis bəy pis cavan deyil. Bilirsən ki, onun atası Qarabağın ən mötəbər bəylərindəndi. Ana babası Cəfərqulu xan tarixi bir şəxsiyyətdi. Düzdü, təhsili mən istədiyim deyil, realnı məktəbi qurtarmaqla kifayətlənib, amma nəcib oğlandı, zirək adamdı.

Şahnaz belə bir söhbətə görə böyük qardaşının yanında bir az sıxıla-sıxıla:

– Yunis bəyin ləyaqətli bir cavan olmağına mənim sözüm yoxdu... – dedi. – Amma izin versəydin, bir az da fikirləşərdim...

Böyük bəy gülümsədi:

– Eybi yoxdu, düşün, bacım... Təki axırı yaxşı olsun. Fəxrəndə xanımın da arzusu sizin izdivacınızdı.

– Bilirəm...

– Budur, özü də gəlir...

Fəxrəndə xanım onlara yaxınlaşdı. Görünür, Şahnazın otuz beş yaşında, çox yaraşıqlı, təhsil görmüş, təkəbbürlü bu qadından bir o qədər də xoşu gəlmirdi və buna görə də cavan xanım onlardan ayrılmaq istədi:

– Icazənizlə mən gedim.

Böyük bəy bu gedişin fərqinə varmadı:

– Buyur, – dedi. – Ancaq dediyim məsələ barədə yaxşı fikirləş.

Şahnaz qardaşıgildən ayrılıb gedə-gedə:

– Baş üstə, – dedi.

Fəxrəndə xanım Şahnazın ardınca baxdı:

– Yoxsa mane oldum söhbətinizə?

Böyük bəy mehriban-mehriban gülümsədi:

– Əsla. Biz Yunis bəy barədə danışırdıq. Gedək o dikdirdəki kürsülərdə əyləşək, Fəxrəndə xanım. Görürsən günəş necə qürub eləyir? Altı il Parisdə təhsil aldım, amma elə bir gün olmadı ki, Şuşadan ötrü burnumun ucu göynəməsin. Hara gedirəm, gedim, Peterburqa, Cenevrəyə, Istanbula, xəyalım həmişə bu yerləri gəzir. Banklara girib-çıxıram, alış-veriş danışıqları aparıram, yüksək rütbəli dövlət adamları ilə görüşürəm, ancaq ürəyim həmişə burdadı, burda, sizin yanınızda...

Həyətdəki dikdirdən, böyük tut ağacının altından alışıb-yanan üfüq lap aydın, maneəsiz görünürdü, sıx meşəli uca dağlar, Cıdır düzünün sıldırım qayaları da buradan aydın görünürdü və bu dəm elə bil ki, təkcə günəş batmırdı, bu sıx meşələr, bu uca dağlar, sıldırım qayalar da yuxuya hazırlaşırdı.

Böyük bəy tut ağacının altındakı kürsüdə oturub ayağını ayağının üstündən aşırmışdı, Fəxrəndə xanım ərinin yanındakı kürsüdə əyləşmişdi və Böyük bəydən fərqli olaraq bu qadının fikri-zikri bu saat bu qürubdan, bu yerlərin qəribə sakitliyindən uzaqlarda idi.

Fəxrəndə xanım soruşdu:

– Şahnaz nə deyir?

Böyük bəy gülümsədi:

– Bir az da fikirləşmək istəyir...

– Neynək, qoy fikirləşsin... Amma bu gün qəribə bir söz eşitmişəm.

Böyük bəy gözünü üfüqdən çəkib Fəxrəndə xanıma baxdı.

Fəxrəndə xanım dedi:

– Deyir, Şahnaz bizim ovçu oğlanla tez-tez görüşür, dayanıb saatlarla söhbət eləyir.

– Kim deyir?

– Çörəkçi arvadın sözüdü.

Böyük bəy açıq-aşkar hirslənib yerində qurcalandı:

– Qələt eləyir, deyir. Şahnaz təhsil görmüş açıq təbiətli bir qızdı. Onun Solaxay Həsənalının oğlu ilə başqa nə haqq-hesabı ola bilər?

– Ovçu çox gözəl oğlandı...

Böyük bəy ayağa qalxıb yanpörtü arvadına baxdı:

– Nə olsun?

– O, hər bir qızın, xanımın xoşuna gələ bilər...

– Yəni, Bəhmənmirzənin nəvəsi, Böyük bəyin bacısı o günə qalıb ki, gədənin birinə aşiq olsun?

– Atalar məsəlidi, Böyük, deyir qızı öz başına buraxsan, ya zurnaçıya gedər, ya halvaçıya. – Fəxrəndə xanım da ayağa qalxdı. – Üşüdüm, gedək. – Və malikanəyə tərəf gedə-gedə də xəbər verdi: – Səhər darğa gəlmişdi...

– Nə deyirdi?

– Kəndlilərdən bir neçəsi bizim hissəmizi verməkdən boyun qaçırır...

– Nə deyib boyun qaçırırlar?

– Deyirlər ki, məhsul yaxşı olmayıb...

– Bəhanədir! Havadan iy çəkiblər, Rusiyadakı, Bakıdakı iğtişaşın təsiridi, gəlib çıxır buralara da yavaş-yavaş...

Fəxrəndə xanım ürəkdən ah çəkdi:

– Sabir kimi, Mirzə Cəlil kimi əhli-qələm kənd camaatını yoldan sapdırıb bizim əleyhimizə qaldırır. Üzr istəyirəm, Böyük, amma siz ziyalı bəylər də ağzınıza su alıb susursunuz...

Böyük bəy fikirli-fikirli:

– Fəxrəndə xanım, – dedi. – Mərhum Mirzə Ələkbər də, Mirzə Cəlil də qiymətli adamlardı. Əgər onlar Avropada olsaydılar, bu saat kürreyi-ərz onların hər bir kəlamını qızıla tutmuşdu.

– Zadəganları, ruhaniləri ələ saldıqlarına görə?

– Yox, – millətin tərəqqisinə çalışdıqlarına görə. Mən özüm də millətin inkişafı naminə avamlığın, cəhalətin, acgözlüyün qamçılanması tərəfdarıyam... Mən millətimizin cəsur oğulları ilə fəxr edirəm. Parisdə Qarabağ atlıları cıdıra çıxanda bütün əhli-şəhər onların tamaşasına dururdu. Gözəl firəng xanımları onların üstünə gül-çiçək yağdırırdı... Ancaq burası da bir həqiqətdi ki, bütün ölkələrdə olduğu kimi, bizim kənd əhlində də nankorluq var... Nə qədər güzəştə getsən, deyəcək ki, azdı.

– Məsələ də bundadı, Böyük... Üzr istəyirəm səndən, amma bir az yumşaqsan sən, evdə də, çöldə də...

Bu vaxt Gülgəz malikanənin ikinci mərtəbəsindəki eyvana çıxıb onları səslədi:

– Xanım, çay hazırdı.

Böyük bəy:

– Gedək içəri, – dedi.

## V

Gecənin qaranlığı idi, hər tərəfə dərin sükut çökmüşdü və yalnız harda isə Isaq-Musaq quşu aramla səslənirdi.

Böyük bəyin malikanəsi də yuxu içində idi.

Şahnaz otağından çıxıb qaranlıqda əli, ayağı bir şeyə ilişməsin deyə, ehtiyatla yeriyə-yeriyə birinci mərtəbəyə düşdü və burda onu gözləyən Gülgəzə pıçıltı ilə dedi:

– Pəncərəni aç, bu tavakabablları itlərə at ki, başları qarışsın.

Gülgəz boşqabı Şahnazdan alıb:

– Boy, bir belə tavakababın hamısını itlərə atım? – dedi.

Şahnaz eyni pıçıltı ilə:

– At! – dedi.

Və bu zaman qulluqçular otağında yatmış Gözəl arvad, yerdən salınmış yorğan-döşəyin içində vurnuxdu, gözlərini açıb bir müddət həyət pəncərəsinə tərəf baxdı, bir şey hiss eləməyib yenə də gözlərini yumdu.

Gülgəz isə tavakababları bir-bir pəncərədən atırdı.

Böyük bəyin həyət itləri yeməyin üstünə tökülüşmüşdü.

Şahnaz o biri əlindəki boğçanı Gülgəzə verdi, özü qabağa düşdü:

– Gedək.

Gülgəz əlindəki boğçanın vəznini yoxlayırmış kimi bir-iki dəfə silkələdi, sonra heyrətlə pıçıldadı:

– Xanım, bu boyda ev-eşikdən elə bu boğçanı götürürsən, vəssalam?

Şahnaz acıqlı-acıqlı:

– Çərənnəmə, – dedi. – Sus-s... gedək.

Gülgəz malikanədən çıxıb bağçada Şahnazın ardınca gedə-gedə hıçqırmağa başladı. Şahnaz geri çevrilib:

– Niyə ağlayırsan? – soruşdu.

Gülgəz:

– Mən sənsiz burda necə qalacağam, xanım? – dedi. – Bundan sonra dərdimi-sərimi kimə deyəcəyəm, kimlə danışıb güləcəyəm? Məni də apar özünlə.

– O sonranın işidi. Gedək.

Şahnaz qabağa düşüb kola-kosa ilişməsin, səs-küy salmasın deyə ehtiyatla addımlayırdı və bu vaxt Gözəl arvad öz otağında yenə ayıldı, taybatay açılmış pəncərədən itlərin hənirtisinə qulaq asdı, nə fikirləşdisə, hövlnak ayağa qalxdı, şal götürüb gecə köynəyinin üstündən çiyninə saldı və otaqdan çıxdı.

Səmənd ürgə Böyük bəy imarətinin daş hasarı qabağında başını aşağı salıb dinməz dayanmışdı, elə bil, uzun səfərqabağı dincini alırdı və at birdən qulaqlarını şəklədi, başını yuxarı qaldırdı və bu zaman qızlar darvazanın bala qapısından eşiyə çıxdılar. Nicat əlində tutduğu cilovu dalınca dartıb qızlara yaxınlaşdı, boğçanı Gülgəzdən alıb, yəhərdən asdı və Gülgəz yenə də hıçqırdı. Şahnaz:

– Uşaq olma, ay qız, – dedi. – Qoy bir az keçsin, xəlvətcə dalınca bir adam yollayacam.

Nicat:

– Yolçu yolda gərək, – dedi.

Şahnaz bu aysız-ulduzsuz gecə qaranlığında Nicatın gözlərinin içinə baxdı və daha bu baxışın sahibi, elə bil, başa düşmüşdü ki, söhbət firəng romanından yox, ölümdən gedir.

Nicat sol ayağını üzəngiyə basıb səmənd ürgənin üstünə atıldı, sonra əyilib Şahnazın belindən yapışdı və qızı bir göz qırpımında tərkinə aldı və səmənd ürgə də elə bu himə bəndmiş kimi yerindən götürüldü. Gülgəzin içini çəkə-çəkə pıçıldaması uzaqlaşan at nalının səsinə qarışdı:

– Yaxşı yol, a xanım!.. Xoşbəxt olasız, qoşa qarıyasız!..

Sonra Gülgəz başqa bir səs də eşitdi, çönüb darvazadan həyətə tərəf boylandı və qız yerində donub qaldı: qaranlıqda bir çıraq işığı sürətlə darvazaya yaxınlaşırdı.

Fəxrəndə xanım əlində çıraq tutub qabaqda, Gözəl arvad da onun dalınca gəlirdilər və Fəxrəndə xanım darvazadan eşiyə çıxıb, Gülgəzi görəndə birinci sualı bu oldu:

– Burda nə qayırırsan, qız? Niyə ağlayırsan?

Gülgəz heç bilmədi ki, ağzını necə açdı:

– Allah ölənlərinə rəhmət eləsin, xanım, qoca nənəm yadıma düşüb, məni yaman çox istəyirdi, indi istəməsin... – Və qız bu dəfə səsini içinə salmayıb zırhazır ağlamağa başladı.

Fəxrəndə xanım:

– Axmağın biri! – dedi. – Qoca nənən gecənin bu vaxtı niyə yadına düşüb? Bəs eşiyə niyə çıxmısan? Təksən burda? – Əlindəki lampanı qaldırıb o tərəf-bu tərəfə baxdı. – Təksən, soruşuram? – Gülgəzdən cavab gəlməsə də, elə bil Fəxrəndə xanım hər şeyi başa düşdü. – Bəs Şahnaz hardadı?

Gülgəz içini çəkə-çəkə:

– Bilmirəm, xanım, – dedi. – Nənəmin canı üçün heç nədən xəbərim yoxdu!..

Və qız bu sözləri elə dedi ki, daha Fəxrəndə xanımın şəkk-şübhəsi qalmadı ki, nəsə bir iş var bu işin içində, qulluqçunun saçından yapışıb bərk-bərk dartdı və darta-darta da:

– Xəbərin var, ləçər! – dedi və qızın üzünə bir sillə vurdu, sonra yenə saçını elə dartdı ki, Gülgəzin başı silkələndi, haray-həşiri aləmi başına götürdü.

Böyük bəy təngnəfəs darvazadan çölə çıxdı:

– Nə olub? Nə hay-küydü?

Fəxrəndə xanımın halı özündə deyildi, hirs-küdurətdən elə bil ki, heç kimi tanımırdı, heç kimi görmürdü və ərinə məhəl qoymayıb yenə qulluqçunun sifətinə bir sillə vurdu:

– Hardadı Şahnaz?

Gülgəz hönkürə-hönkürə:

– Getdilər... – dedi.

Fəxrəndə xanım qızın saçlarını buraxdı. Ərinə sarı çönüb:

– Qız o gədəyə qoşulub qaçıb, Böyük! – dedi.

Araya bir anlıq sükut çökdü, sonra Böyük bəy birdən özünə gəlib, təpiklə darvazanın bala qapısını vurub açdı və imarətinə tərəf qaça-qaça qışqırdı:

– Qüdrət! Qüdrət!

Qüdrət hay-küyə yuxudan oyanmışdı, əyin-başını düymələyə-düymələyə imarətdən çıxıb onlara tərəf qaçırdı, ağasının səsinə hay verdi:

– Bəli, ağa! Nə olub?

Böyük bəy özünə yer tapa bilmirdi, hirsindən dili topuq çalırdı və hövlnak yuxudan oyanıb həyətə tökülüşən nökər-qulluqçular yəqin ki, ağalarını belə hirsli-hiddətli görməmişdilər.

Böyük bəy qışqırdı:

– Tez gədələri oyat, atlansınlar! Mənim də atımı yəhərləyin! Tez! Tüfənglənin!

Fəxrəndə xanım da əlindəki çıraqla ətrafı işıqlandıra-işıqlandıra:

– Qüdrət! – qışqırdı. – Qüdrət, Yunis bəyi çağır! Yunis bəy də atlansın! – Sonra Fəxrəndə xanım güclə özünü yetirib ayı kimi ağına-bozuna baxmadan kolun-kosun içindən keçən, ağacların qol-budağını sındıran Böyük bəyin ətəyindən yapışdı. – Sən getmə, Böyük, sən dayan! Gədə qovmaq sənə yaraşmaz! Sakit ol, Yunis bəy o it oğlunun ölüsünü, ya dirisini sürükləyib gətirəcək bura!..

...Və bu dəm səmənd ürgə də, səmənd ürgənin belindəki iki nəfər də o hay-küydən xəbərsiz sıldırım qayaların, sal daşların arası ilə Şuşadan üzüaşağı, arana çapırdı və bu dəm bu zülmət qaranlıqda bir işıq kimi o gözəl mahnı da onlarla birlikdə çapırdı:

Aman ovçu, vurma məni,
Mən bu dağın maralıyam...
Yaralıyam, yaralıyam,
Mən bu dağın maralıyam.

Səmənd ürgə eniş-yoxuşa düşəndə, hərdən Şahnazın səsi qırılırdı, at belində yırğalandıqca, səsi titrəyirdi, amma mahnısını oxuyurdu, iki əlilə də Nicatın belindən yapışıb, üzünü onun geniş kürəyinə sıxmışdı və qızın saçları elə şivə qarası

idi ki, yaylığının altından çıxıb havada dalğalandıqca bu zülmət gecə qarasından da seçilmirdi.

Əvvəlcə, deyəsən, səmənd ürgə hiss elədi ki, gecənin bu qaranlığında, bu daşın, qayanın arasında tək çapmır; arxadan gələn var, fınxırdı, boynunu daha da qabağa uzatdı və daha da bərk çapmağa başladı, sonra ovçu geri qanrılıb gözünü qıydı, elə bil ki, bu qaranlıqda nəsə görəcəkmiş, sonra da təkcə bunu dedi:

– Bərk tut!

Şahnaz özünü oğlanın kürəyinə daha da kip sıxdı.

– Bərk tutmuşam, bərk tutmuşam mən, çap! Çap, gözünə dönüm sənin!

Səmənd ürgə isə çap ki, çapırdı və daşa, çınqıla dəyən nal səsi, atın tövşüməsi bu dəm bu qayalıqda yeganə səs idi, amma bir müddətdən sonra, elə bil, uzaqlardan bu ayaq səslərinin əks-sədası eşidilməyə başladı və get-gedə bu əks-səda artdı, yaxınlaşdı.

Nicat:

– Qovurlar bizi! – dedi.

Şahnaz hər şeyi başa düşmüşdü, odur ki, bir söz demədi, bərk-bərk oğlanın belini sıxdı, geniş kürəyinə qısıldı.

Nicat:

– Ikimizi qaçıra bilməyəcək ürgə, – dedi. – Qarabağın ən yaxşı atları Böyük bəyin tövləsindədi.

Şahnaz heç nə demədi.

Nicat:

– Verməyəm səni! – dedi. – Verməyəm səni onlara! Verməyəm! – dedi və boynunu atın yalına əydi.

Şahnaz:

– Vermə! – dedi. – Vermə məni onlara! Çap, zalım ovçu! Çap, mənim əzizim, mənim ovçum, mənim kişim!..

...Altı-yeddi atlı idi – Yunis bəy idi, Qüdrət idi, Böyük bəyin başqa igidləri idi, çapırdılar, yel olub səmənd ürgəyə çatmaq istəyirdilər, qaranlıqda gözlərindən qığılcım parlayırdı və birdən Qüdrətin iti gözləri səmənd ürgənin üstündəki iki nəfərin hələ xeyli uzaq kölgəsini seçdi.

– Onlardı! – qışqırdı Qüdrət. – Onlardı! – Sonra bir göz qırpımında tüfəngi belindən aşırıb bu yatmış qayaları birdən-birə lərzəyə gətirdi.

Yunis bəy birinci çapırdı, sol əli ilə tüfəngini yuxarı qaldırdı və Qüdrətə tərəf qanrılıb:

– Atma! – qışqırdı və qışqıra-qışqıra bir də təkrar elədi: – Atmayın! – Sonra sol əlində yuxarı qaldırdığı tüfəngi hamının gözü qabağında yerə tulladı və iki əliylə də atın boynunu qucaqlayıb: – Mən yuxarıdan getdim, Qüdrət, sən aşağıdan çap! – dedi.

Atlılar iki dəstəyə haçalandılar. Yunis bəylə iki atlı yuxarıdan çapdı, Qüdrətlə üç atlı aşağıdan...

...Nicat:

– Atmırlar. – dedi. – Sənə görə atmırlar. – Sonra qanrılıb geri baxdı.

Qüdrət lap yaxında çapırdı, bir azdan Qüdrət də, atlıları da səmənd ürgəyə çatasıydı.

Nicat cilovu sol əlində tutdu, sağ əliylə atın belindəki tüfəngi çıxartdı və aşağı əyilə-əyilə:

– Atları vuracağam... – dedi.

Güllənin açılması ilə Qüdrətin atının üzüstə yerə sərilməsi bir oldu, sonra ikinci güllə açıldı və ikinci atın qabaq ayaqları büküldü, üçüncü güllə açıldı, dördüncü güllə yenə də bir atlını atdan yerə atdı.

Şahnaz:

– Vur, – dedi. – vur, vur, vuran əlinə qurban olum mən, zalım ovçu, vur, vur, vur!.. – Və Şahnaz bu axırıncı sözləri hıçqıra-hıçqıra dedi, ağlaya-ağlaya dedi, qorxudanmı ağladı Şahnaz, Qarabağın ən gözəl atlarıyçınmı heyfsiləndi, qaramı basdı Şahnazı, bilmirəm, amma qız atın belində ləngər vurdu, əli-ayağı süstəldi, az qaldı bu vurhavurda sürüşüb yerə düşsün. Nicat sol əli ilə cilovu buraxıb qızın çiynini qamarladı, özünə tərəf çəkdi və elə bu dəm yanpörtü çapa-çapa onlara yaxınlaşan Yunis bəyin atdığı kəmənd səmənd ürgənin boynuna dolandı, atın ağzı yuxarı getdi, qabaq ayaqlarının ikisi də dizdən büküldü və at boynu üstə yerə sərildi, səmənd ürgənin boynu həmin qaranlıq gecədə tükürpədici bir «xırç» eləyib sındı.

Nicatın bir ayağı atın altında qalmışdı, sol əli ilə özündən getmiş Şahnazı tutmuşdu, sağ əli atın yalını döyəcləyirdi:

– Qalx! – deyirdi. – Qalx! Qalx!

Hər şey məhv olub getmişdi, hər şey qurtarmışdı və hər şeyin beləcə tamam-kamal bitməsi bu dəm Nicatın sifətində, hərəkətində, səsində öz əksini tapmışdı. Ovçu atın yalını döyəcləyə-döyəcləyə:

– Qalx! – deyirdi. – Qalx! Qalx!..

...Böyük bəylə Fəxrəndə xanım atlıları darvazanın qabağında qarşıladı.

Yunis bəy qabaqda gəlirdi, huşunu itirmiş Şahnaz onun qucağında idi, Yunis bəy kəməndin bir ucunu atının yəhərinə bağlamışdı, o biri ucu ilə Nicatın əl-qolunu sarımışdı və onu dalınca çəkib gətirirdi.

Qüdrət başqa bir atda oturmuşdu. Üçüncü adam da atlı idi. Qalanlar piyada gəlirdilər.

Fəxrəndə xanım əlindəki lampanı qabağa tutdu:

– Allaha çox şükür! – dedi, sonra birdən-birə irəli yeriyib ovçunun qabağında dayandı və həmin qaranlıq gecədə bir qəfil sillə səsi cingildədi.

Nicat gözünü də qırpmadı, necə dik dayanmışdı, eləcə də Fəxrəndə xanımın gözlərinin içinə baxdı, gülümsədi və dedi:

– Əlin ağırıymış yaman, xanım, yazıq Gülgəzin halına... Fəxrəndə xanım əlindəki lampanı aşağı saldı.

Böyük bəy Yunis bəyin qabağına yeridi:

– Qıza bir şey olmayıb ki?

Yunis bəy:

– Bir az əzilib yəqin, – dedi. – Və qızı ehmalca atın üstündən Böyük bəyə uzatdı və Böyük bəy də Şahnazı qucağına alıb darvazadan içəri girdi.

...Bayırın o zülmətindən sonra Böyük bəyin imarətindəki çılçıraqlar göz qamaşdırırdı. Böyük bəylə Fəxrəndə xanım pilləkənlərlə tələsik ikinci mərtəbədən birinciyə endi. Qüdrətlə Gözəl arvad dəhlizdə onları gözləyirdi.

Fəxrəndə xanım Gözəl arvadın ovcuna bir qızıl onluq basdı:

– Al, – dedi. – Bir daş altda, bir daş üstə.

Gözəl arvad:
– Allah köməyin olsun, xanım, – dedi. – Bir daş altda, bir daş da üstə.
Fəxrəndə xanım:
– Yeri get yıxıl yat, – dedi və Gözəl arvad da o saat öz otağına getdi.
Böyük bəy:
– Qüdrət, o gədə hardadı? – soruşdu.
– Zirzəmiyə salıb ağzını bağlamışıq.
– Tapşır ona göz olsunlar. Özün göz ol ona, özün! Naçalnik burda yoxdu, gələn kimi o haramzadəni göndərəcəyəm Qala həbsxanasına. Elə edərsən ki, orda başını əksinlər, rədd olsun. Eşitdin?
Qüdrət atının heyfini almağa elə belə bir fürsət gözləyirmiş kimi dedi:
– Istəyirsən elə burda...
Fəxrəndə xanım Böyük bəyə baxdı.
Böyük bəy:
– Yox, burda olmaz, – dedi. – Necə deyirəm heylə edərsən!
– Baş üstə, ağa!
Böyük bəy Qüdrətdən çox Fəxrəndə xanıma dedi:
– Həbsxana rəisi belə işlərdə təcrübəli adamdı...
Qüdrət başı ilə ağasının dediklərini təsdiq elədi:
– Bilirəm...
– Gedə bilərsən.
Qüdrət imarətdən həyətə çıxdı. Böyük bəylə Fəxrəndə xanım bir müddət bir-birlərinə baxdılar, sonra Böyük bəy gözlərini Fəxrəndə xanımdan ayırıb iki əlini də yuxarı qaldırdı:
– Ilahi, sən özün bilirsən ki, mən heç vaxt heç zaman sənin qanunlarına zidd getməmişəm! Ancaq nankorları, kəmfürsətləri, azğınları məhv eləmək lazımdı!
– Şükür!.. – Fəxrəndə xanım pıçıldadı.
Böyük bəyin belə bir duruşu və dediyi bu sözlər onun avropasayağı qiyafəsinə heç uyuşmurdu.

## VI

Indi sizə kimdən xəbər verim, Böyük bəyin bacısı Şahnazdan. Şahnaz Böyük bəy imarətinin ikinci mərtəbəsindəki şüşəbənddə, yelləncək həsir kresloda oturub astaca-astaca yellənə-yellənə şüşəbəndin açıq pəncərəsindən səhər-səhər aydın görünən Xəznə qayasına baxırdı və bu cavan qızın yol çəkən gözlərində bu dəm bir kədər, bir həzinlik vardı.
Böyük bəy sol əlinin baş barmağını jiletinin qızıl saat zənciri sallanan cibinə salıb şüşəbənd boyu var-gəl edirdi və bütün qəzəbini boğmağa, kin-küdurətini unutmağa çalışırdı.
– Mənim mədəniyyətim sənə əl qaldırmağa yol vermədi. Ancaq Allaha çox şükür ki, mən səni yolda tutdura bildim. Əgər sən o gədə ilə bir yastığa baş qoymuş olsaydın, inan Allaha, ürəyimi daş eləyib səni tikə-tikə doğrardım.
Şahnaz gözlərini Xəznə qayasından çəkdi, birdən-sifəti alışıb-yandı, qardaşına ötkəm bir nəzər salıb:
– O, gədə deyil, qardaş! – dedi. – Mən də onu istəyirəm!

Böyük bəy şüşəbəndin ortasında ayaq saxladı, diqqətlə bacısına baxdı və ən qəribəsi də bu oldu ki, qızın belə bir ötkəmliyi, elə bil, onu birdən-birə yumşaltdı; bacısına yaxınlaşıb, çoxdan bəri həsrətindəymiş kimi, saçlarını oxşadı:

– Sənin cəsarətin mənim xoşuma gəlir, – dedi Böyük bəy. – Bu cəhətdən sən rəhmətlik nənəmiz Xanbikəyə oxşamısan. O da qabağındanyeyən arvad deyildi... Ancaq, Şahnaz, bacım, inan ki, sənin ürəyindəki hisslər müvəqqəti aldanışdır. Başqa cürə ola bilməz. Sən onu istəyə bilməzsən.

– Nə üçün?

– Çünki sən xan qızısan, ancaq o, Solaxay Həsənalının oğludu! Ovçu oğlu ovçudu! Gec-tez onsuz da bu fərq özünü göstərəcək.

Şahnaz yenə Xəznə qayasına tərəf baxdı və elə bil, özü özü ilə dərdləşdi:

– Bəs, sən Firəngistandan gələndən sonra saatlarla fikirlərin azadlığından danışırdın... Jan Jak Russodan, insanların bərabərliyindən, qardaşlığından danışırdın...

– Qardaşlığı, bərabərliyi bizim peyğəmbərimiz də buyurub. Ancaq peyğəmbər ağanın ağa, rəiyyətin də rəiyyət olduğunu rədd etməyib! Zəif ağıllar həmişə güclü ağıllara tabe olub. Güclü gücsüzə kömək eləməlidi və sən də yaxşı bilirsən ki, mən heç vaxt kömək əlimi məzlumdan əskik etməmişəm. Ancaq, bacım, bu o demək deyildir ki, rəiyyətlə ağa bir-birinin tay-bərabəridi... – Böyük bəy pəncərəyə yaxınlaşıb eşiyin ağaclarına, kol-kosuna, uzaqdakı göy dağlara, Xəznə qayasına baxdı və elə bil ki, bu yaşıllıq, bu təmizlik, bu genişlik Böyük bəyin ürəyinə bir səmimiyyət gətirdi, bir etiraf istəyi gətirdi. – Fikirləşirsən yəqin ki, qardaşının bərabərlik, demokratiya haqqındakı sözləri də onun firəng modasında tikdirdiyi libaslar kimi bir şeydi... Belə deyil... Mən Firəngistanda təhsil alanda demokratiya, bərabərlik, insanpərvərlik haqqında eşitdiklərimə, doğrudan da, inanırdım. «Yaşasın azad respublika!» – deyirdim. Viktor Hüqoya pərəstiş edirdim. Ancaq... ancaq təhsili bitirib qayıdanda, Yevlaxda qabağıma gələn üçatlı faytonumuza əyləşib Şuşaya tərəf yollananda özümü elə rahat hiss elədim ki... Bu Topxana meşəsinə baxanda, bu bərəkətli torpaqlara baxanda fəxr elədim ki, bunlar hamısı bizimdi. Fəxr elədim ki, mən rəiyyət yox, ağayam. Damarlarımdan axan qanımla hiss elədim bunu, çünki ağalıq bizim qanımızdadı...

Bu vaxt birdən-birə Şahnaza bir hönkürtü gəldi və qız hönkürə-hönkürə yerindən qalxıb özünü bəyin ayaqlarına atdı:

– Buraxdır onu, qardaş! Onu Qüdrətin umuduna qoyma!

Böyük bəy əvvəlcə özünü tamam itirdi:

– Dur ayağa! Qalx! – dedi və əyilib bacısını qaldırdı və bu gözlənilməz hərəkətin qəfilliyindən sonra özünə gələ-gələ: – Gədənin birindən ötrü qardaşının da olsa, ayağına yıxılmaq sənə yaraşmaz, – dedi. – Kəndistana göndərirəm səni bir neçə aylığa, get, dincəl orda!

Və Böyük bəy iti addımlarla şüşəbənddən çıxıb pilləkənlərlə aşağı endi.

Böyük bəyin kip örtmək istədiyi dodaqları səyriyirdi.

Şahnaz isə, elə-eləcə şüşəbənddə dayanıb uçunurdu.

## VII

Yunis bəy tövlələrin qənşərində atın belinə sıçrayıb çapdı və Böyük bəyin həyət darvazasından çıxhaçıxda Fəxrəndə xanım hövlnak bacısı oğlunun qabağını kəsdi. Yunis bəyin cilovu çəkməyiylə ağ atın şahə qalxmağı bir oldu və az qaldı qabaq ayağı ilə Fəxrəndə xanımın döşündən vurub yerə sərsin.

Fəxrəndə xanım buna məhəl qoymadı, iki əlini də uzadıb atın yalından yapışdı və qəzəbindən titrəyən bir səslə:

– Getməyəcəksən! – Qışqırdı. – Buraxmaram səni!

Yunis bəy, elə bil, dolmuşdu, içəridən partladı:

– Şahnazı istəyirəm, öküz kimi böyürürəm onun həsrətindən gecələr, xala, Qarabağın bütün gözəlləri bir heçdi gözümdə, xala, amma daha ala bilmərəm mən onu, yoxsa papaq gəzdirməyim başımda gərək, ləçək taxım!.. Gədənin birinin tərkinə minib gecəyarısı evdən qaçan qızı sən də gərək mənə layiq bilməyəsən, xala!

Fəxrəndə xanım tövşüyə-tövşüyə:

– Uşaqsan sən hələ, uşaqsan! – dedi. – Bəs bu mal-dövlət nə olsun?! Bu imarətlər, bu torpaqlar kimə qalsın?! – Sonra Fəxrəndə xanım əlini qoynuna atıb boynundan asdığı daş-qaşları qopardı və bunları az qala Yunis bəyin gözünə soxdu: – Bəs bu ləl-cavahir nə olsun?! Uşağım olmur mənim! Allah-taala bir uşağı çox görür Böyük bəyə! Nə olsun bəs bunlar, kimə qalsın? Gədə-güdəyəmi qismət olsun? Yetim-yesirmi yeyib kef çəksin, hər dəfə də dədəmizin goruna söysün?!

Yunis bəy xalasının ovcundakı ləl-cavahirə baxdı:

– Çəkisi ağırdı onların, xala, – dedi. – Düz deyirsən! Amma indi onların çəkisi qeyrətsizliyin çəkisidi! Mən bu yükü daşıya bilmərəm, xala, ölərəm o yükün altında, canım çıxar mənim!

Və Yunis bəy atı çapıb darvazadan çıxdı, çapa-çapa da Şuşanın sal daşlar döşənmiş küçələrindən ötüb Ərimgəldidən keçdi, aran yolunda gözdən itdi.

## VIII

Böyük bəy öz otağında yazı mizinin arxasında oturub, qabağındakı bir qalaq kağız-kuğuza baxırdı.

Qüdrət içəri girib:

– Bəy, – dedi. – Solaxay Həsənalı sizi görmək istəyir.

Böyük bəy başını kağız-kuğuzdan ayırıb:

– Nə deyir? – soruşdu.

– Bilmirəm, bəy, yəqin oğlundan ötrü gəlib.

Böyük bəy ayağa qalxıb otaqda var-gəl elədi, sonra:

– Qoy gəlsin, – dedi.

Qüdrət bir az tərəddüd elədi, soruşdu:

– Yaraq-yasağını açdırımmı?

Böyük bəy dedi:

– Yox, qoy gəlsin!

– Baş üstə.

Qüdrətin otaqdan çıxmağı ilə Solaxay Həsənalının içəri girməyi bir oldu. Bu ucaboy, arıq kişinin günəşdən, dağ havasından yanmış üzündə sakit və məğrur bir ifadə vardı.

– Salaməleyküm, bəy.

Böyük bəy Solaxay Həsənalıya sərt bir nəzər yetirdi və kişinin salamını almayıb:

– Nə var? Niyə gəlmisən? – soruşdu.

Solaxay Həsənalı:

– Uşağın işi üçün gəlmişəm, bəy, – dedi və əlindəki tüfəngi qapının yanında yerə söykədi.

– Uşağın? Uşaq olan kəs də eylə qələt edər?!

Solaxay Həsənalı təmkinini pozmadı:

– Başa düşməyib, bəy.

Böyük bəy:

– Eybi yoxdu, başa salarlar, – dedi və keçib yazı mizinin arxasında oturdu, mizin üstündəki qutudan bir siqaret çıxarıb yandırdı.

Solaxay Həsənalı dedi:

– Bəy, sən özün yaxşı bilirsən ki, bizim nəsildən dələduz çıxmayıb. Dost-tanışlarımızın arasında da bir nəfər dələduz tapılmaz. Nicat özü də ağlı başında uşaqdu... Insan səhv eləyəndə eləyir, bəy...

– Dələduz tapılmaz deyirsən, dost-tanışının arasında sənin?

– Xeyr, bəy, tapılmaz!

– Bəs Bahadır kimin dostudu? Qaçaq Bahadır? Yoxsa padşahın əleyhinə çıxmaq, günün günorta çağı naçalnikin kabinetinə soxulub onatılanı boğazına dirəmək səncə dələduzluq deyil?

Solaxay Həsənalı eyni təmkinlə:

– Xeyr, bəy, – dedi. – Dələduzluq deyil. Naçalnik, Bahadırın atasını bihörmət eləyəndə boğazına tapança dirərlər də.

– Hə? Qulağınıza səs dəyib yoxsa?

– Nə səs?

Böyük bəy əlindəki siqareti büllur külqabıya sıxıb söndürdü və hirslə:

– Yaxşı bilirsən nə səs! – dedi. – Sizlər tülküdən də çox bilirsiz!

Solaxay Həsənalının sifətindən bir qəzəb kölgəsi keçdi, amma özünü saxladı, təmkinini pozmadı.

– Böyük bəy! – dedi. – Mən sənin evinə oğlumun təvəqqəsi üçün gəlmişəm. Belə sözlərə dözmək mənim şanıma şayəstə deyil! Danışığına fikir ver!

Solaxay Həsənalının hər bir sözü xəncər kimi kəsirdi.

Böyük bəy ayağa qalxdı:

– Sənin oğlun cinayətkardı, Həsənalı kişi...

– Nə üçün?

– Çünki öz yerini bilməyib, çünki mənə silahlı müqavimət göstərib, seçmə atlarımı qanına qəltan eləyib, adamlarımı yaralayıb!

– O, sənin bacını zorla aparmayıb.

– Bunu ədalət məhkəməsi həll eləyəcək. Naçalnik burda yoxdu, gələn kimi oğlunu verəcəyəm onun sərəncamına.

– Axır sözündü, bəy?

– Qurtardıq, Həsənalı kişi!

Solaxay Həsənalı sol əlini tüfəngə apardı və tüfəngi yerdən qaldırıb:

– Böyük bəy! – dedi. – Ağa Məhəmməd şah Qacar Qarabağa hücum eləyəndə mənim babam Güzdəkli Bayandur sənin babanı bütün əhli-əyalı ilə birlikdə ölümdən qurtarıb. Bunu bütün Qarabağda bilməyən yoxdu.

Böyük bəy:

– Bunu mən də bilirəm. – dedi. – Sən də yaxşı bil ki, Həsənalı kişi, ikinci dəfə belə bir hadisə baş versə, Güzdəkli Bayandurun nəvəsinə öz borcumu qaytarram! Oğlunu buraxsam, bütün mahalda biabır ollam, tay-tuşlarım mənə tənə eləyib gülər. Oğlun mənim ad-sanıma, əsil-nəcabətimə toxunub! Oğlun cəzasına yetməlidi!

Solaxay Həsənalı daha qəzəbini boğa bilmədi, kişinin ağzı-gözü əyildi:

– Əsil-nəcabət böyük sözdü, bəy! – dedi. – Mənim babalarım üstündə durduğumuz bu torpağın yolunda canlarından keçib! Amma sənin babaların bu torpağı qəsb eləməyə gələnlərin qabağına düşüb bələdçilik eləyib!

Bu sözlər Böyük bəyi sarsıtdı və bəy bir müddət donuq nəzərlərlə Solaxay Həsənalıya baxdı, sonra boğuq səslə:

– Bir də ayağın mənim evimə dəyməsin! – dedi.

Solaxay Həsənalı əlini qapıya atdı:

– Mənim oğlum bir stəkan bulaq suyu deyil, birnəfəsə başına çəkəsən!

– Əlindən gələni əsirgəmə, Solaxay Həsənalı!

– Baxarıq!

– Baxarıq!

Solaxay Həsənalı bəyin qapısını ardınca çırpıb iri addımlarla birinci mərtəbəyə düşdü, həyətə çıxdı və yaşına yaraşmayan bir çevikliklə həyətdə yiyəsini gözləyən kəhər atın belinə sıçrayıb, çapıb getdi...

...Fəxrəndə xanım yataq otağının pəncərəsindən çapıb gedən atlını gördü və çiyninə, döşünə tökülmüş uzun saçlarını yığmadan başını darayan qulluqçu qızı kənara itələyib yataq otağından çıxdı, uzun yataq libasının ətəkləri ayağına dolaşa-dolaşa Böyük bəyin otağına girdi və hiddətindən alışıb yana-yana:

– Niyə buraxdın onu? – soruşdu. – Evdəki qulluqçu-nökərin hərəsinə bir qızıl onluq bağışlamışam ki, ağızlarını mumlasınlar, amma bütün Şuşa əhli bu saat Şahnazın ovçuya qoşulub qaçmasından danışır. Sənin bacın Yunis bəyi də tay-tuş yanında xar elədi! Niyə salamat buraxdın bu quzğunu, it atasını?!

Böyük bəy arvadına yaxınlaşıb əllərindən tutdu:

– Sakit ol, Fəxrəndə xanım, – dedi. – Solaxay Həsənalı mənim qapıma təvəqqəyə gəlmişdi. Qapıya gələn adamı yola salmağı da bacarmaq lazımdı.

Fəxrəndə xanım sakitləşə bilmirdi:

– Ərəbzənki kimi yaraq-yasağın içində idi, demirdin vurar səni, bizi başsız qoyar?

Böyük bəy gülümsədi:

– Vurmadı ki!..

Fəxrəndə xanım:

– Yumşaqsan, Böyük, çox yumşaqsan, – dedi. – O gədə ölməlidi! Eşitdinmi? Bu ləkə qanla yuyulmalıdı. Yoxsa bəylər, ağalar bir tərəfə, heç nökər-qulluqçunun da gözünə baxa bilmərik, camaatın üzünə çıxa bilmərik. Qoy görsünlər ki, Böyük bəyə sataşmaq nə deməkdi!

– Sakit ol, Fəxrəndə. Sənin sözündə bir həqiqət var. Mən kəndləri gəzib əlsiz-ayaqsızlara kömək edirəm. Kəndlilərin zəhmətini asanlaşdırmaq üçün maşınlar gətirdirəm. Mil düzünə su çəkdirmək istəyirəm. Ancaq, görünür, biz bir əlimizdə kitab, digərində qılınc tutmalıyıq.

– Allaha çox şükür, – dedi. – Nəhayət, qəti bir fikrə gəlib çıxdın.

– Fəxrəndə, mən hiss eləyirəm ki, hər tərəfi inqilab əhvali-ruhiyyəsi bürüyüb. Qəzetlərdən də bunu hiss eləyirəm, Bakıdan, Peterburqdan aldığım xəbərlərdə də bunu görürəm, lap elə bu – Solaxayın danışığında da bunu hiss elədim. Bu, dəhşətli işdi, Fəxrəndə. Böyük-kiçik olmayandan sonra, hörmət də götürüləcək, aləm qarışıb məzhəb itəcək. Bu gün mənim bacımı götürüb qaçmağa cəsarət eləyən rəiyyət, sabah bütün zadəgan sinfinin üstünə çomaq qaldıracaq. Bunun qarşısını almaq lazımdı.

Fəxrəndə xanımın gözləri mehribanlaşdı, bir az doluxsundu:

– Allaha çox şükür, Böyük, – dedi. – Çox şükür Allaha!..

... Kəhər at isə Şuşadan çıxıb Topxana meşəsinə girdi, kol-kosların, ağacların arasından çapdı, dərə keçdi, təpə aşdı...

...Qaçaq Bahadırın gözətçilərindən biri qaya arxasından çıxıb onlara tərəf çapan atlını gördü, beşaçılan tüfəngi belindən aşırıb fit çaldı. Bir neçə gözətçi qaçaq qayaların arxasından başını qaldırıb atlıya tərəf baxdı və birdən qaçaqlardan biri ayağa qalxdı, əlini gözünün üstünə qoyub atlıya bir də baxdı, sonra:

– Əyə, Solaxay Həsənalıdı! – dedi. – Biriniz düşün aşağı, kişiyə bələdçilik eləyin. Biriniz də Bahadıra xəbər verin, qonağı gəlib.

Solaxay Həsənalı kəhər atın yalına yatıb çapırdı.

## IX

Şuşa yatmışdı. Şuşanın dağları-daşları da, sıldırım qayaları da, dərə-təpələri də, hündür ağacları, bağ-bağatı da yatmışdı və həmin aydın gecədə, ay işığında bağ-bağat arasından görünən Şuşa evlərinin kirəmit damları da bu dəm lal sükut içində idi.

Və bu lal sükutu Şuşanın sal daş küçələri ilə çapan atların nal səsi pozdu.

Qaçaqlar Böyük bəyin imarətini dövrəyə aldı...

Və elə bil, bu qəfil nal səslərini, at fınxırtısını gözləyirmiş kimi, zirzəminin bir küncündə oturub belini divara söykəmiş Nicat yerindən sıçradı, qulağını zirzəminin qapısına söykədi, qulaq asdı...

...Qaçaqlardan biri atın üstündən Böyük bəyin həyət hasarına atıldı, hasardan həyətə tullandı, darvazanın lomunu çəkib çıxartdı, darvazanın enli qapıları taybatay açıldı və çiyninə yapıncı salmış, yaraqlı-yasaqlı Qaçaq Bahadır içəri birinci çapdı; qalan atlılar da başçılarının dalınca Böyük bəyin həyətinə çapdı...

...Və bu dəm Qüdrət özünü hövlnak zirzəminin üstündən yerə atdı:

– Qaçaqlardı! – qışqırdı. – Qaçaqlar gəlib! – Sonra əlindəki beşatılan tüfənglə həyətə dolmuş qaçaqların qaraltısına dalbadal atəş açdı.

Ara qarışıb, məzhəb itdi.

Böyük bəyin adamları kimisi zirzəminin damından, kimisi birinci, ikinci mərtəbənin aynabəndindən, kimisi də pəncərələrdən qaçaqları gülləyə tutdu.

Atlar kişnədi, qaçaqlar tüfəng oynatdı, kimi ikinci mərtəbənin aynabəndindən, pəncərələrindən başı üstə yerə gəldi, kimi atdan yıxıldı.

Böyük bəyin imarətinə vurnuxma düşmüşdü, qulluqçular çığırışa-çığırışa ora-bura qaçdı, nökərlər əlinə tüfəng aldı. Böyük bəy özü təpiklə vurub yataq otağının qapısını açdı, elə gecə paltarında da ikinci mərtəbənin həyət pəncərəsinə tərəf atıldı, əlindəki tüfəngin qundağı ilə pəncərə şüşəsini vurub sındırdı və tüfəngi döşünə sıxıb dalbadal atmağa başladı.

Çörəkçi Gözəl arvad çarpayısının üstündə oturub dili-dodağı əsə-əsə pıçıldayırdı:

– Allah, sən saxla!.. Allah, sən saxla!..

Fəxrəndə xanım əynindəki gecə köynəyində, uzun saçları döşünə-başına tökülmüş halda özünü o pəncərəyə, bu pəncərəyə vururdu, səsi gəldikcə qışqırırdı:

– Qüdrət! Qüdrət! O gədəni vur! Öldür ovçunu, Qüdrət! Qoyma diri qala onu! Öldür onu, Qüdrət! Qüdrət!..

Fəxrəndə xanım özünə yer tapa bilmirdi, elə bil, qəfəsə salınmış heyvan idi, bütün gözəlliyini, qadınlığını, xanımlığını yadından çıxarmışdı, əl-ayağına dolaşan nökər-qulluqçuların arasından özünü o pəncərəyə, bu pəncərəyə atırdı, səsi boğulanacan qışqırırdı:

– Qüdrət! Qüdrət! Öldür ovçunu! Öldür!..

Qüdrət isə, əlbəttə, xanımın sözlərini eşidirdi, amma böyük tut ağacının enli gövdəsi yanında yerə sinib zirzəminin qapısına tərəf atılmağa macal tapmırdı – qaçaqların gülləsi, elə bil, dolu idi, zirzəminin həndəvərini dəlik-deşik edirdi.

Böyük bəy gülləsi qurtarmış tüfəngi hiddətlə yerə çırpdı.

Güllə səsləri yavaş-yavaş seyrəldi və bu zaman Nicatın var gücü ilə zirzəminin qapısını döyəcləməyi aydınca eşidildi.

Qaçaq Bahadır zirzəmiyə tərəf çapdı, atdan sıçrayıb qapının qıfılına iki güllə sıxdı, sonra iki güclü təpiklə qapını açdı, var səsilə:

– At çəkin bura! – bağırdı, sonra zirzəmidən özünü çölə atan Nicata: – Atlan! – dedi və özü də atının belinə sıçradı.

Nicat zirzəminin qabağına at çəkib gətirən qaçağa məhəl qoymadı, yüyürüb özünü Böyük bəyin imarətinə saldı, əlini çırpa-çırpa, təpiklə qapıları bir-bir açdı: bütün otaqlar bomboş idi və nəhayət, Nicat çarpayıda oturub öz-özünə:

– Allah, sən saxla!.. Allah, sən saxla!.. – pıçıldayan çörəkçi Gözəl arvadı gördü.

– Şahnaz hardadı?

Qorxudan gözləri bərələ qalmış Gözəl arvad:

– Burda yoxdu, qadan alım, – dedi. – Kəndistana göndəriblər onu, dərdin ürəyimə! Dünən axşam yola saldılar onu!

Və bu zaman at nallarının səsi aləmi ağzına götürdü. Qaçaqlardan biri darvazadan həyətə çapdı:

– Kazaklar!

Qaçaq Bahadır atı birbaşa Böyük bəyin imarətinə çapdı, atlı-atlı da pilləkənləri qalxıb dəhlizə girdi, ona tərəf yüyürən Nicata:

– Tez elə! – qışqırdı və yenə də çapıb dəhlizdən həyətə düşdü.

Nicat imarətdən çıxıb yəhərli atın belinə atıldı, yüyəni qaçaqdan aldı və Qaçaq Bahadırın ardınca çapdı.

Bahadır darvazadan birinci çıxdı, sonra Nicat, sonra da o biri qaçaqlar çapıb darvazadan çıxdı.

Otuz-qırx kazak atlısı qaçaqların ardınca düşdü və atışma təzədən qızışdı, qaçaqlardan, kazaklardan bir neçəsi Şuşanın küçələrinə sərilib qaldı...

Böyük bəy özünü Qüdrətin çəkib gətirdiyi atın üstünə atdı:

– Atlanın! Kim salamatdısa atlanın! – dedi. – Hamısını qırmaq lazımdı! Yurdlarını kor qoymaq lazımdı!

Qaçaqlar isə onları qovan kazakları bir-bir yerə sərə-sərə Topxana meşəsinə tərəf üz qoymuşdu...

...Böyük bəyin seçmə atları özlərini kazaklara çatdırdı və atışma daha da şiddətləndi, daha da qızışdı.

Böyük bəy ayağını üzəngiyə basıb, atın belində dikəldi:

– Qüdrət! – qışqırdı. – Qüdrət, min qızıldı ovçunun başı! Min qızıldı qiyməti!.

...Ehtirasdan və hiddətindən bığlarını gəmirən Qüdrətin xallı atı, axır ki, kazaklardan və Böyük bəyin atlılarından ayrıla bildi, irəli çıxdı, dalbadal çapan Qaçaq Bahadırla Nicata yaxınlaşmağa başladı.

Qaçaq Bahadır hərdən arxaya güllə atırdı, amma Qüdrət gah sola, gah sağa burulub bu güllələrdən yayınırdı: Nicat silahsız idi.

Bu dəfə Qüdrət qabaqdakı atlıları gülləyə basdı və birdən-birə də Qaçaq Bahadırın çapdığı atın qabaq ayaqları büküldü və at boynu üstə çevrilib yerə sərildi, ağzından qan açıldı. Qüdrətin gülləsi ciyərini deşib keçmişdi, amma Qaçaq Bahadırın belə işlərdə, görünür, səriştəsi çox idi, bir göz qırpımında sıçrayıb ayağa qalxdı, sol əli ilə yapıncını boynundan qoparıb yerə atdı, sağ əli ilə tüfəngi qaldırdı, gözünün birini qıyıb tələsmədən, arxayın nişan aldı və Qaçaq Bahadırın tətiyi çəkməyi ilə az qala çapıb ona çatmış Qüdrətin başının geri getməyi bir oldu: Qaçaq Bahadırın gülləsi Qüdrətin düz alnının ortasını deşib, beynini göyə sovurdu.

Qüdrət bir motal tuluğu kimi yerə düşüb qaldı. Xallı at bu vurhavurdan baş götürüb çapdı.

Kazaklar Qaçaq Bahadırı atsız gördü; atsız gördü, yəni köməksiz gördü, «qolu-qanadı sınmış» gördü, quzğun kimi üstünə çapdı və Qaçaq Bahadır da eyni təmkinlə, eyni arxayınlıqda ayaq üstə dayanıb təkəlli tutduğu tüfəngi atırdı.

Kazaklardan biri yerə sərildi, ikincisi, üçüncüsü yerə sərildi, amma kazaklar da çox idi və indicə Qaçaq Bahadıra yetişəcəkdilər.

Yasavul:

– Jivım! – bağırdı. – Jivım yeqo!

Və bu dəm Nicatın atı şahə qalxdı və Nicatın dartdığı yüyənin tarımlığından iki dal ayağı üstə geri döndü və atın geri dönməsi ilə də Nicatın geriyə, Bahadıra tərəf çapmağı bir oldu.

Qaçaq Bahadır əvvəlcə əlindəki tüfəngi Nicata atdı, sonra özü Nicatın qabağına yüyürə-yüyürə bir göz qırpımında atın tərkinə atıldı və bu müddətdə Nicatın əlindəki tüfəng iki dəfə dalbadal açıldı və az qala, onlara çatan iki kazak da bir-birinin ardınca yerə sərildi...

...Qaçaqlar özlərini Topxana meşəsinə verdilər və sıx, uca ağaclar arasında görünməz oldular...

Yasavul:

– Nazad! – qışqırdı və bu dəfə kazakların atı şahə qalxdı, kazaklar meşəyə girməyib geri döndülər.

Böyük bəy:

– Qorxaqlar! – qışqırdı. – Muzdurlar! Gədə-güdədən qorxan acizlər! Söz pəhləvanları.

Yasavul Böyük bəyə tərəf çapdı:

– Bek, oni v tom lesu – kak rıba v vode! Zastrelyat vsex nas kak zaysev!

Böyük bəy hiddətindən titrəyə-titrəyə öz atlılarına tərəf çöndü:

– Gedək! – dedi. – Dalımca! Solaxay Həsənalının evinə gərək od vurub yerlə-yeksan eləyim!

...Və Böyük bəyin atlıları çapa-çapa kazaklardan ayrılıb Şuşaya tərəf üz qoydu...

... Və həmin aydın gecənin macərası Solaxay Həsənalının ev-eşiyinin, bağ-bağatının göyə qalxan alovu ilə axıra yetdi; alov dillərinin işığında həyət-bacadakı arvad-uşağın ərşə çıxan naləsi ilə, bütün bu yerləri yandırıb külə döndərən əli məşəlli atlılarının əməlinə baxa-baxa:

– Odlayın! Odlayın bu quldurlar yuvasını! – deyən Böyük bəyin sözləri ilə axıra yetdi.

## X

Gün Topxana meşəsində təkcə yarpaqların üstünə düşürdü; ağacların qol-budağı o qədər sıx idi, o qədər bir-birinə bitişmişdi ki, meşənin içində, elə bil, axşam idi.

Iki atlı yavaş-yavaş yanaşı addımlayırdı.

Qaçaq Bahadır:

– Qal, – dedi. – Qal mənimlə. Qal mənimlə bu köpək uşağının, bu tacir-darğaların, bu kazakların anasını ağlar qoyaq!

Nicat:

– Sonra? – soruşdu. – Sonra nə olsun? Kazak azdı? Naçalnik, pristav olmağa adam azdı? Bunlar gedib, onlar gələcək, nə qazanassan? Onun anasını sən ağlar qoyassan, sənin atlılarından da beşinin anası ağlar qalacaq. Bu cür gəlib, amma bu cür gedə bilməz, Bahadır! Ilanı gərək başından əzəsən!

– Haradı yolun?

– Horadizə düşüb, ordan Bakıya gedəcəyəm.

Qaçaq Bahadır:

– Vağzalda tutarlar səni, – dedi. – Böyük bəy bütün Qarabağ mahalında səni axtartdırır.

– Maşinist dostlarım var, aparacaqlar məni.

– Böyük bəyin əli uzundu, Bakıda da çatar sənə.

– O uzun qolları kəsməkdən ötrü gedirəm Bakıya, Bahadır!

Qaçaq Bahadır atın başını çəkib dayandı. Nicat da atını saxladı. Bir müddət bir söz demədilər, bir-birilərinə baxdılar. Sonra Qaçaq Bahadır:

– Yolun sayalı olsun, qardaş! – dedi. – Dünyanın işləridi, sən gedəsi oldun, mən qalası. – Sonra Qaçaq Bahadır başını qaldırıb Topxana meşəsini ağac-ağac, kol-kol gözdən keçirtdi. – Mənimki bu Topxana meşəsidi. Nə qədər burdayam, nə qədər at belindəyəm, nə qədər tüfəng tutur əlim, nişan seçir gözüm, atışacağam bu köpək uşağıyla! Nə hökumət olur-olsun, atdan düşdü yoxdu, qardaş. Bütün dünyanın hökumətləri mənim düşmənimdi! – dedi Qaçaq Bahadır. – Yaxşı yol sənə! – Və Qaçaq Bahadır geri döndü, çapıb Topxana meşəsində görünməz oldu.

Tək atlı isə yavaş-yavaş dağlardan endi və bu dəm bu tək atlının hər bir hərəkətində bir hüzn, bir kədər var idi, bütün bu yerlərdən ayrılıb getməyin hüznü, kədəri.

## İKİNCİ HİSSƏ

### I

Yenə Cıdır düzü idi və yenə də bir neçə il bundan əvvəlki kimi hardansa uzaqlardan həmin xanəndənin səsi gəlirdi:

Deyirlər Qarabağ bir cənnət imiş,
Bəslərmiş qoynunda mələklərini.
Məndə qüdrət hanı qələm çalmağa,
Tərif eləməyə ancaq birini...

Yenə də Məlikşahnəzər kahasının üst tərəfində xalça salınmışdı və yenə də bu xalçanın rəngbərəng naxışları, elə bil, öz rəngini bir-bir bütün ətrafdakı gül-çiçəkdən almışdı.

Şahnaz xanım Məlikşahnəzər kahasının lap qabağına gəlib Topxana meşəsinə baxırdı.

Gülgəz Cıdır düzündə kəklikotu qoymamışdı, ətəyini doldurub qaça-qaça Şahnaz xanımın yanına gəldi:

– Oh, ay xanım, – dedi. – Yenə ora baxırsan? Vallah, sənin bu işlərin məni salıb qorxuya, heç yata bilmirəm gecə...

Şahnaz xanım gözlərini Topxana meşəsindən çəkmədi:

– Niyə?

– Elə bil o Topxana meşəsi ovsunlayıb səni, ay xanım...

Şahnaz qulluqçu qıza bir söz demədi, elə bil, özü özü ilə danışdı:

– Elə bil, bu Topxana meşəsi də bizdən həmişəlik üz döndərib... Elə bil, çox-çox uzaqdadı, soyuqdu, küskündü...

Gülgəz doğrudan-doğruya vahimələnmişdi və qız içini çəkib dedi:

– Düz dörd ildi belə sözlər danışırsan, ay xanım, vallah, tay qorxumdan meşəyə gedə bilmirəm... – Sonra Gülgəz birdən-birə sevincək oldu. – Bilirsən, ay xanım, bəyin bayaqkı qonaqlarından biri deyirdi ki, Fitilbörkdə bir oğlan görüb, lap qağam Nicata oxşayırmış...

Şahnaz xanım bir söz demədi. Gülgəz and-aman elədi:

– Xanım, nənəmin canı üçün bu dəfə doğru deyirəm!

Şahnaz xanım qulluqçu qıza baxdı:

– Bəs bir söz danışmayıblar?

– Yox, danışmayıblar. Deyir elə yaxşı geyinmişdi ki, inanmadım o ola... Axmaq kişi, guya ki, Nicat qağam yaxşı geyinə bilməzmiş... Vallah, xanım, sağ-salamatdı qağam!..

– Bilirəm, əlbəttə, sağ-salamatdı! – dedi Şahnaz xanım və elə dedi bu sözləri, elə bil, Gülgəzi yox, özünü inandırmaq istəyirdi bu sözlərə. – Elə igid oğlan itib-batmaz! Amma niyə bir yol tapıb məktub göndərmir mənə, bir xəbər çatdırmır mənə?..

Gülgəz:

– Eh... – dedi. – Allah Böyük bəyə insaf versin...

Və qız bu cür hayıfsılanan kimi də, Şahnaz xanımın üzü sərt bir ifadə aldı:

– Bu nə sözdü, ay qız? – dedi. – Indi də bir o qalıb ki, sənin kimisinin biri Böyük bəyin qarasına danışsın?

Gülgəz qorxdu əməlli-başlı və yazıq qız tez özünü yığışdırıb:

– Bağışla, ay xanım, – dedi. – Qələt elədim... Əlbəttə, Böyük bəy istəsəydi, məni də elə qovardı ki, izim-sorağım da tapılmazdı. Amma sənə görə məni də saxladı evində...

Şahnaz xanım yumşaldı:

– Yaxşı, – dedi. – Mən yadımdan çıxardım o sözləri.

– Allah canına sağlıq versin, ay xanım, sənsiz mənim bir günüm olmasın, yetim qızam. Inşallah, qağam gəlib çıxar, yetişərsiniz bir-birinizə! Mənə də Allah birini yetirər. – Gülgəz birdən-birə göyə baxdı: göy tərtəmiz, mavi və sonsuz idi. Sənə qurban olum, ay Allah, tez ol, dayna!.. Elçi daşına baxmaqdan gözümün kökü saraldı ki...

Şahnaz xanım özünü saxlaya bilməyib güldü:

– Bəs tez-tez qabağına çıxan o dərzi oğlan necə oldu?

Gülgəz:

– Eh... – dedi. – Qoy iynəsini taxsın yaxasına! Dalından dəydim onun, xanım. Arvad kimi şeydi... Kişi gərək kişi olsun, Nicat qağam kimi!.. Oh, xanım, vallah, hər şey yaxşı olacaq, təki tez ərə gedək!..

Şahnaz xanım bu dəfə gülmədi, dərindən nəfəs alıb:

– Nə yaxşı ki, sən varsanmış... – dedi və yeriyə-yeriyə Məlikşahnəzər kahasının üstündən aşağı düşüb, Böyük bəyin imarətinə tərəf addımladı...

...Böyük bəy əyninə sadə libas geyib əlinə böyük bağ qayçısı almışdı və həyətindəki gül kollarını, ağac budaqlarını qayçılayıb nizama salırdı. Bu dörd ildə Böyük bəy heç dəyişməmişdi, təkcə saçları daha tamam-kamal ağarmışdı.

Böyük bəy darvazadan həyətə girən Şahnaz xanımı görəndə ağacların arasından çıxdı.

– Salam, bacı.

– Əleykəssalam.

Böyük bəy gəlib artırmanın qabağındakı skamyada əyləşdi və əlindəki qayçını qabağındakı mizin üstünə qoyub:

– Gəl otur, – dedi. – Gün çıxandan bağbanla birlikdə işləyirik.

Şahnaz xanım gəlib qardaşı ilə üzbəüz oturdu:

– Yaxşı eləyirsiz, işləmək kökəlməyinizin qabağını alır.

– Elədir, işləyəndə özümü çox yüngül hiss eləyirəm.

Bu vaxt Fəxrəndə xanım da imarətdən çıxıb, Böyük bəylə Şahnaz xanıma yaxınlaşdı, salamlaşıb mənalı-mənalı Böyük bəyə baxdı, sonra əlindəkn qəzetləri Şahnaz xanıma uzatdı:

– Al, sənin qəzetlərin gəlib.

Böyük bəy bir az yana çəkilib arvadına yer göstərdi:

– Gəl əyləş, Fəxrəndə. – Sonra gülümsəyib: – Bağışlayın ki, yanınızda belə bir qiyafədə oturmuşam, – dedi. – Libas sadə olanda, elə bil, adam da özünü yüngül hiss eləyir. – Sonra Şahnaz xanımın baxdığı qəzetlərə işarə eləyib zarafatyana: – Bu bolşevik mətbuatını oxumaqdan yorulmadın, bacı? – soruşdu.

Şahnaz xanım da eyni zarafatyanalıqla bir-bir qəzetlərin başlığına baxdı:

– «Azərbaycan», «El həyatı», «Al bayraq»... Görürsünüz ki, qardaş, heç biri bolşevik qəzeti deyil...

Böyük bəy qəzetlərdən birini açıb məqalələrin altındakı imzaları oxudu:

– Üzeyir Hacıbəyli... Hacı Ibrahim Qasımov... Ruhulla Axundov... – Böyük bəy birdən-birə əsəbiləşib qəzeti mizin üstündə bir tərəfə atdı və həmin sadə libasının döşündən qızıl papirosqabını çıxarıb açdı, bir papiros yandırdı. – Müsavat hökumətinin gözü kordu, görmür ki, bunlar hürriyyət, bərabərlik, demokratiya deyə-deyə əslində kommunizmi təbliğ edirlər!

Şahnaz xanım qardaşının könlünü almaq istədi:

– Hərənin bir əqidəsi var də, qardaş...

Böyük bəy dedi:

– Sən elə bilirsən ki, bunlar bir əqidə sahibidi?

Fəxrəndə xanım kinayə ilə söz atdı:

– Üzeyir bəyin millətin maariflənməsində haqqı var...

Böyük bəy, elə bil ki, arvadının sözlərindəki kinayəni hiss eləmədi:

– Bəs o birilər? – soruşdu. – Bunlar bolşeviklərə satılmış avantüristlərdi! Bunlar cəmiyyətdə istədikləri mövqeyi qazana bilmədikləri üçün, həyatın dibində çapaladıqları üçün, aristokratiyaya, var-dövlət sahibi olan ağıllı şəxslərə kin-küdurət bəsləyir... Müsavat liderləri isə, qırqovul kimi başlarını kola soxub, üzr istəyirəm, quyruqlarından xəbəri yoxdu! Heylə olmasaydı, doktor Nəriman bəy kimi kommunistlərin açıq-açığına meydan sulamalarına yol verilməzdi. Nikolayı taxtdan elə bu saldı! Gördünüzmü ingilisləri? Ermənini rusa qatdı, rusu müsəlmana qatdı, hamısını bir yerə yığıb, Şaumyanını da, Məşədi bəyini də, Ivanını da Ağcaqum səhrasında güllə-borandan keçirdi!..

– Yazıq Mir Həsən bəy də onların arasında idi, qardaş...

Fəxrəndə xanım bu dəfə kinayəsiz, açıq-aşkar bir hirslə:

– Mir Həsən bəy dinc oturaydı, Şuşada balalarımıza dərs deyəydi, cavan yaşında qanına qəltan olmayaydı! Qudurğanlara qoşulanda, dinsiz-imansızlara qoşulanda axırı belə olar!

Şahnaz xanım Fəxrəndə xanımla mübahisə eləmədi, qardaşından soruşdu:

– Sizcə Müsavat nə etməlidi, qardaş?

Böyük bəy, elə bil, özü də özünə bu sualı vermişdi və cavabını da çoxdan hazırlamışdı:

– Bir gün, bir saat belə itirmədən xaricdən kömək istəmək lazımdır. Birinci növbədə Ingiltərədən! Firənglər özləri təxribat carçısıdı, almanlar da bu saat öz haylarındadı. Naxçıvan tərəfdə Türkiyə ilə sərhədi açmaq lazımdı. Dünya əfkar-ümumiyyəsini ayağa qaldırmaq lazımdı! Müsavat liderləri isə, başda Məhəmməd Əmin cənabları olmaqla, arxayın oturub süsən-sünbül oxuyurlar. – Sonra Böyük bəy papirosu külqabıya sıxıb söndürdü və ayağa qalxdı. – Yaxşı, siyasətdən bəsdi daha. Gəlin bir az gəzişək. Bu ab-hava ilə, bu təbiətlə bu söhbət heç uyuşmur bir-birinə...

Və Böyük bəy, Fəxrəndə xanım, Şahnaz xanım həyətdəki hündür tut ağaclarının, qoz ağaclarının arası ilə gəzişməyə başladı; Böyük bəy nə isə dedi, Şahnaz xanım güldü, Fəxrəndə xanımın da dodağı qaçdı...

...Bu zaman naçalnik Kəriş bəy başının dörd-beş atlısı ilə çapa-çapa Molla Nəsrəddin yolundan çıxıb Daşaltı tərəfdən Şuşaya qalxdı...

... Bu dörd ildə Böyük bəyin imarətində təzə adam peyda olmuşdu. – Qüdrətin kiçik qardaşı Hümmət böyük qardaşının yerini tutmuşdu; Hümmət tələsik imarətdən çıxıb həyət darvazasına tərəf qaçdı, tələsik də darvazanın qapılarını taybatay açdı.

Kəriş bəy başının atlıları ilə içəri çapdı:

– Bəy evdədi?

Hümmət:

– Bəli, naçalnik! – dedi və Kəriş bəyin atının boynunu tutdu.

Kəriş bəy atdan yerə atılıb yüyəni Hümmətə verdi və iti addımlarla imarətə tərəf getdi...

... Hümmət tələsik özünü bağçada gəzişən Böyük bəygilə yetirdi:

– Ağa, naçalnik Kəriş bəy cənabları gəliblər...

Böyük bəy təəccüb etdi:

– Naçalnikdən nə əcəb bu vaxt? – Sonra, istər-istəməz, üst-başına baxdı. – Libasımı dəyişib gəlirəm. Get naçalniklə məşğul ol.

Hümmət:

– Işi vacibdi, ağa, – dedi. – Sizinlə tez görüşmək istəyir.

Böyük bəy, elə bil, nəsə hiss edib, Fəxrəndə xanıma baxdı:

– Siz gəzişin, – dedi və tələsik imarətə tərəf addımladı.

Fəxrəndə xanım nigarançılıqla ərinin ardınca baxdı, sonra üzünü Şahnaz xanıma tutub dedi:

– Bu gecə qardaşın gözünü də yummayıb...

– Niyə?

– Bütün Şuşa əhli danışır ki, Böyük bəyin bacısı bir ovçuya aşiq olduğu üçün heç kimə getmir, elçini elçi dalınca geri göndərir...

Şahnaz xanım çoxdan bəri ürəyində yığılıb qalmış sözləri, birnəfəsə Fəxrəndə xanımın üzünə çırpdı:

– Eybi yoxdu, o sağ gəlsə, mənim ərim olacaq, ölmüş olsa, mən onun xatirəsiylə yaşayıb heç kəsə getməyəcəyəm. Qoy desinlər ki, Mehmandar ağanın qızı bir kasıb ovçunun dərdindən qarıyıb evdə qaldı!

Bu sözlər Fəxrəndə xanıma təsir etdi və bu dörd ildə saçlarına adda-budda dən düşmüş, iri qara gözlərinin qıraqlarında güclə seziləcək qırışlar əmələ gəlmiş bu qadın dərin bir mütəəssirliklə:

– Böyük bəy həmişə sənə ata, mən də həmişə ana-bacı olmuşam, – dedi. – Adam anasıyla, böyük bacısıyla belə danışmaz... – Və Fəxrəndə xanım tələsik addımlarla uzaqlaşdı.

Şahnaz xanım bu hündür ağaclar arasında, bu böyük bağda tək qaldı...

...Kəriş bəy Böyük bəyin otağında var-gəl edirdi, addım səsləri eşidib, qapıya tərəf baxdı. – Böyük bəy tələsik içəri daxil oldu:

– Salam, Kəriş bəy, xeyir ola?

Kəriş bəy Böyük bəyin əynindəki bu qəribə libasa fikir vermədən birbaşa mətləbə keçdi:

– Dünən Müsavat nazirləri hökuməti bolşeviklərə təhvil veribdi. Gəldim sizə deyim ki, nə qədər camaat xəbər tutmayıb, özünüz barədə bir tədbir görəsiz.

Kəriş bəyin sözləri Böyük bəyi tamam sarsıtdı və bəy cibindən bir papiros çıxarıb yandırdı:

– Mən bunu gözləyirdim, – dedi.

Kəriş bəy yenə də var-gəl edə-edə:
– Vaxt itirmək olmaz, bəy, – dedi. – Qırmızıların on birinci ordusu Bakını alıb, ordadı, yeriyəcək ağzı bu tərəfə.
Böyük bəy əlindəki papirosu hirslə yerə çırpdı:
– Bəs siz onları necə qarşılayacaqsınız? Siz, Müsavat naçalnikləri?
Kəriş bəyin sifəti sərt bir görkəm aldı və yerində dayanıb sərt də dedi:
– Böyük bəy, boş mübahisənin yeri deyil. Mən sizinlə bir süfrədə duz-çörək kəsmişəm, bununçün da özümə borc bildim ki, sizi şəxsən xəbərdar edim!
Böyük bəy özünü ələ aldı:
– Bağışlayın, bəy, – dedi. – Bəs, siz özünüz nə eləmək fikrindəsiz?
– Atlılarım sizin həyətdə gözləyir məni. Yarım saatdan sonra gedirəm Araz qırağına – öz kəndimiz Hacımahmudluya.
– Sonra?
– Sonra da baxarıq işin gedişatına... Lazım gəlsə, keçərəm Arazın o tayına. Rus ordusu sərhədi pozub Arazı keçməz. Iran, hər halda, Irandı...
– Deməк qaçırsınız?
Kəriş bəyin sifəti yenə də sərt bir görkəm aldı:
– Başqa nə etmək olar, bəy? Rusiyanın hırnan-zırı qanmayanları ayaq açıb üstümüzə yeriyir. Bizim millətin satqınları da onlara bələdçilik edir!..
– Hökuməti şəxsən kimlərə təhvil veriblər?
– Hökuməti Müsavatdan təhvil alanlardan mənə ikisi məlumdu: Həmid Sultanov, Çingiz Ildırım.
Böyük bə, az qala, qəhqəhə çəkib güldü:
– Qubadlı Ildırım bəyin oğlu Çingiz Ildırım?! – dedi. – Kommunist imiş demək! Öz xadimlərinin kim olduğunu bilməyən hökumətin aqibəti, əlbəttə, belə olar! – Və Böyük bəy qəfildən əlini iri yazı mizinin ortasına çırpdı. – Yox, mən qaçmayacağam.
Kəriş bəy istehza ilə dedi:
– Kəhrizli Əhməd bəyin qızı Ayna xanım da beş yüz atlı ilə Bərdənin yolunu kəsib, gözləyir ki, bolşevikləri Qarabağa buraxmasın...
Bu xəbər, bu istehza ilə deyilmiş sözlər, elə bil, bir dirək oldu Böyük bəy üçün, yapışdı ondan:
– Afərin, Ayna xanım! Kişi qızıdır! Siz müsavatçılarsa qaçın gizlənin, aralıq sakitləşəndən sonra hərəniz qolunuza bir qırmızı bağlayıb çıxarsınız ortalığa!
Kəriş bəy acıqlı-acıqlı:
– Mən belə sözlərə dözmərəm, bəy! – dedi. – Inciklik düşər araya! Vaxtı deyil! Əgər bir su səni aparırsa, ona sel deməyi bacarmaq lazımdı!
Böyük bəy qışqıra-qışqıra:
– Yox, Kəriş bəy! – dedi. – Yox! Bolşevik hökuməti axıra qədər davam gətirməyəcək! Rusiya camaatı acından qırılır! Xaricdən heç kim kömək eləmir. Təkcə lütlərlə dövlət yaratmaq olmaz! Ona görə də bizim müqavimətimiz məqsədəuyğundur. Biz, imkan düşdükcə, bolşeviklərin qabağını kəsib onları içimizə buraxmamalıyıq. Biz Bakı neftinin Rusiyaya daşınmasına mane olmalıyıq. Bu saat Rusiyaya neft hava, su kimi lazımdı! Mən bilirəm ki, siz deyən selin qabağında dayanmaq çətindi. Ona görə də əl-ələ vermək lazımdı!..
– Mənasız işdi, bəy!

– Niyə? Niyə? Nə üçün?

– Çünki Lenin deyir: torpaq kəndlinin olmalıdı! Bilirsiniz bu nə deməkdi? Bəy, ac – qılınca çapar! Min illərdən bəri həsrətində olduğu torpağı kəndliyə boyun olandan sonra, onun qabağında da durmaq olmaz! Mən gedirəm, bəy, qoy Allah özü sizə kömək olsun!..

...Kəriş bəy başda olmaqla atlılar çapıb həyətdən çıxdı...

...Fəxrəndə xanım başıalovlu Böyük bəyin otağına girdi:

– Bu nə xəbərdi, Böyük?

Böyük bəy arvadını qorxutmasın deyə özünü ələ aldı, imkan daxilində, mülayim və sakit danışmağa çalışdı:

– Düzdü, Fəxrəndə, bolşeviklər hökuməti yıxıblar Bakıda. Naçalnik Kəriş bəy buna görə gəlmişdi. Başımıza çarə qılmağımızı təklif edirdi.

– Bəs sən nə qərara gəldin?

Böyük bəy daha özünü saxlaya bilmədi qışqıra-qışqıra:

– Vuruşacağam! – dedi. – Axır nəfəsimə kimi vuruşacağam! Bolşevikləri buraxmayacağam Qarabağa! Hümmət! Hümmət!

Hümmət tələsik içəri girdi:

– Bəli, ağa, nə buyurursunuz?

– Gədələrdən üç-dörd nəfərini götürüb çaparsan Şahsevən Vəli bəyin evinə. Mənim adımdan deyərsən ki, Araz qırağındakı bəylərin hər biri yüz atlı ilə birigün səhər tezdən Bərdədə hazır olsun. Nə qədər patron ehtiyatları var, nə qədər yaraq-yasaq var, götürsünlər! Di tərpən!

Hümmət otaqdan çıxa-çıxa:

– Baş üstə, – dedi...

...Hümmət başının üç-dörd atlısı ilə birlikdə çapıb bəyin həyətindən çıxdı...

...Rəngi-ruhu qaçmış Fəxrəndə xanım soruşdu:

– Atlıları Bərdəyə niyə çağırırsan?

Böyük bəy, elə bil ki, daha bu dəqiqənin özündən vuruşda idi, ehtirasdan və hirsdən yana-yana qızdırmalı-qızdırmalı dedi:

– Kəhrizli Əhməd bəyin qızı Ayna xanım beş yüz atlı ilə Bərdədədi. Fikrim budu ki, onun atlıları ilə birləşib Yevlaxa gedək. Orda Gəncə, Şəmşir bəyləri ilə birləşək. Mən bu saat Kürdüstana çapıb Soltan bəylə görüşəcəyəm. Soltan bəy min beş yüz atlı çıxara bilər. Sonra Qazağa, o tərəfdən Qubaya, Lənkəran tərəfə, Şamaxıda Mehdi bəyə çapar göndərmək lazımdı. Gürcü menşevikləri ilə əlaqəyə girməyə çalışacağam, belə bir gün onları da gözləyir! Daşnaklardan kar aşmaz! Hə, başımıza çarə qılmalıyıq, düzdü! Nə qədər ki, Rusiyada bolşevik hökuməti hələ yerini möhkəmləndirməyib, başımıza çarə qılmalıyıq! Sonra gec olacaq! Bakıda düzəlmiş bolşevik hökumətinin bütün üzvlərini divara dirəyib bir-bir güllələyəcəyəm!..

Fəxrəndə xanım Böyük bəyə yaxınlaşıb iki əli ilə də ərinin güclü qollarından yapışdı:

– Böyük bəy! Mən sənin o vuruşlarına indidən xeyir-dua verirəm!

Böyük bəyin gözləri doldu və o, Fəxrəndə xanımı bərk-bərk bağrına basıb:

– Sağ ol, Fəxrəndə! – dedi. – Başqa cürə ola da bilməzdi. Sənin damarlarından gəncəli Cavad xanın qanı axır...

... Böyük bəy başının on-on beş atlısı ilə çapıb darvazadan çıxdı.

Fəxrəndə xanım da, Şahnaz xanım da, evin bütün qulluqçu-qaravaşı, hamı Böyük bəyin ardınca su atdı...

...Böyük bəyin atlıları Şuşadan çıxıb Laçın yoluna düşdü və çapa-çapa Turşsu dağları arasında gözdən itdi.

## II

Qırmızı bayraq dalğalanırdı və bu bayrağı əlində tutmuş döyüşçü çapdıqca qırmızı bayraq qalan atlıların arasından keçib irəli çıxdı; qırmızı bayraq yol göstərirdi və bu yol indi Şuşa qalasına idi.

Qırmızılar hücuma keçmişdi və bu dəm Əsgəran qalasının həndəvərində at kişnərtisi, səs-küy, güllə-boran ərşə qalxmışdı.

Böyük bəyin atlıları davam gətirə bilmirdi.

Atının ayaqları qırılan kim, bir gülləyə hədəf olub yerə sərilən kim, vuran kim, vurulan kim...

Böyük bəy atırdı, Yunis bəy atırdı, Hümmət atırdı.

Mirzə bəy bir qaya dibinə qısılıb atın cilovunu bərk-bərk əlində tutub saxlamışdı və özünü güllə qabağına verməyib bütün bu hənqamənin, bu qanlı vuruşun nə ilə qurtaracağını gözləyirdi.

Qırmızıları saxlamaq mümkün deyildi.

Nicat Ovçuoğlu çapa-çapa əlini yuxarı qaldırıb qışqırdı:

– Irəli! Irəli!

Və bu çağırışdan sonra, elə bil, qırmızıların atları daha yeyin getdi, güllələri daha sərrast oldu.

Birdən-birə Nicat Ovçuoğlunun altındakı atın qabaq ayaqları büküldü və düz alnından dəyən güllə atı yerə sərdi və Nicat Ovçuoğlu da bir göz qırpımında atın belindən yerə sıçrayıb:

– Irəli! Irəli! – qışqırdı.

Başına «Budyonnı papağı» qoymuş əsgərlərdən biri komandirin yanında atının cilovunu çəkdi və ağzından köpük tökülən at şahə qalxdı. Əsgər atın belindən atılıb:

– Min, komandir. – dedi. – Atalar üçdən deyib, üçüncü atdı dəyişirsən!

Nicat Ovçuoğlu atın belinə sıçradı və yenə də çapa-çapa:

– Irəli! Irəli! – qışqırdı...

...Böyük bəy gülləsi qurtarmış «Mauzeri» yerə çırpdı:

– Qıracaqlar hamımızı... – dedi. – Qıracaqlar... – Sonra ayaqlarını üzəngiyə basıb atın belində dikəldi və qışqırdı: – Çəkilin. Qurtarın canınızı! Salamat qalanlar Turşsu meşəsinə gəlsin!..

Və Böyük bəy başının bir dəstə atlısı ilə sıldırım qayalar arası, daş-kəsək arası kəsə yolla Şuşaya tərəf çapmağa başladı.

Bir dəstə qırmızı atlı onların ardınca düşdü.

Bayaq öz atını komandirə verən cavan əsgər indi başqa bir atda Böyük bəyi qovurdu və Böyük bəy də, bu «Budyonnı papaq»lı cavan əsgər də güllələrdən yayına-yayına bir-birinə atırdı.

Böyük bəy yenə də arxaya qanrılıb əlindəki tüfəngin tətiyini bir çəkdi, iki çəkdi, tüfəng açılmadı, bu dəfə də güllə qurtarmışdı.

Cavan əsgər bunu başa düşdü və daha da bərk çapmağa başladı. Böyük bəy tüfəngi yerə atıb iki əlilə də cilovdan tutdu və atın yalına yatıb özünü qurtarmaq istədi, amma Böyük bəyin axırı yetmişdi deyəsən – cavan əsgər ona çataçatda idi.

Və bu zaman bu sıldırım qayalar arasında qəfil bir güllə açıldı, cavan əsgər bir anlıq atın üstündə dikəldi, tüfəngi əlindən yerə düşdü, cilov əlindən çıxdı, iki əli ilə də başının arxasını tutdu, sonra bərəlmiş gözləri ilə qandan qızarmış əllərinə baxdı və bundan sonrasına vaxtı qalmadı, qızmış atın belindən sürüşüb böyrü üstə yerə sərildi və az qala, hədəqəsindən çıxacaq gözləri naməlum nöqtədə həmişəlik donub qaldı.

Arxadan çapıb gələn Hümmət indicə nişan alıb atdığı tüfəngi atın qarınaltı qayışına keçirdi və vurulmuş cavan əsgərin yanından ötüb çapa-çapa da Böyük bəyə yaxınlaşdı.

Böyük bəy:

– Sağ ol! Sağ ol, Hümmət! – dedi və iki əlilə də üst-başını yoxladı, bir şey tapmayıb, barmağındakı böyük almaz qaşlı üzüyü çıxarıb Hümmətə tərəf atdı: – Sənindi bu!

Hümmət üzüyü göydə tutub ovcunda sıxdı, sonra ovcunu açıb gün işığında par-par yanan almaza baxdı və dedi:

– Buna görə çox sağ olun, bəy! Amma buna görə qurtarmadım sizi!

Böyük bəyin gözlərində bir sevinc qığılcımı parladı və bəy fəxrlə nökərinə baxıb:

– Bilirəm, Hümmət! – dedi. – Qeyrətli qardaşlarsınız siz! Amma bu da lazımdı. Görürsən, dünya qarışıq dünyadı indi. Bir saatdan sonra nə olacaq, bilmək olmaz. Balalarına xərclik elə.

Və hər iki atlı çapıb sıldırım qayalar arasında gözdən itdi.

...Qırmızılar isə, «Ağa körpüsü»ndən keçirdi və daha onların qabağını heç kim kəsmirdi...

...Qırmızı bayraqlılar aramla, tələsmədən irəliləyirdilər...

## III

...Axşam düşmüşdü və həmin axşam Böyük bəyin imarətində təkcə bir işıq yanırdı və indi Fəxrəndə xanımla Şahnaz xanım bu təkcə işığın – onluq lampanın arxasında üzbəüz oturmuşdu.

Heç kim danışmırdı, heç bir səs-səmir yox idi, amma bu sükutun özündə həyəcan, bir intizar, bir xof vardı.

Birdən həyətdə səs-küy eşidildi, at ayaqlarının səsi gəldi, darvaza açılıb-bağlandı və Gülgəz qaça-qaça içəri girdi:

– Böyük bəydi, xanım. Gəldi Böyük bəy!

Fəxrəndə xanım da, Şahnaz xanım da ayağa qalxdı və xanımların qalxmağı ilə də Böyük bəyin tələsik içəri girməyi bir oldu.

Fəxrəndə xanım:

– Böyük! – dedi.

Şahnaz xanım:

– Qardaş! – dedi.

Böyük bəy əyninə «çərkəzka» geymişdi və bu saat bəyin üst-başı çirkin-pasın içində idi və belə bir görkəm Böyük bəyə heç yaraşmırdı; bəy qızdırmalı-qızdırmalı:

– Həyəcanlanmayın! – dedi. – Qorxmayın. Fəxrəndə, qorxma. Bacım, heç bir şey olmayıb. Geri çəkilmək hələ məğlub olmaq deyil. Mən hələ qayıdacağam. Bolşeviklərə deyiləsi sözüm çoxdu hələ. Güllə ilə deyəcəyəm bu sözləri. Inanın, and olsun Allaha, dünənə qədər elə bilirdim ki, məndən çox nifrət eləmək mümkün deyil bolşeviklərə. Amma bu gün, indi, dünənkindən min dəfə, milyon dəfə artıq düşmənəm onlarla. Biz Qarabağ dağlarına çəkilirik, bir az qüvvə toplamaq üçün!.. Bir az nəfəsimizi dərmək üçün!.. Çoxdular!.. Vuruşandılar!.. Öldü var, döndü yoxdu deyəndilər... Fəxrəndə, gecə ikən ələ keçən nə varsa götür, Şahnazla birlikdə get Araz qırağında Şahsevən Xurşud bəyin evinə. On atlı seçmişəm, aparacaq sizi. Mən sizə orda baş çəkəcəyəm.

Fəxrəndə xanım ayaq üstə titrəyə-titrəyə:

– Mən sənsiz qala bilmərəm, Böyük! – dedi. – Nə götürəcəyəm mən! Bu malikanəni qoyub sənsiz neyləyəcəyəm mən? Sənsiz yuxumu gedər gözümə, Böyük? Səni and verirəm əmdiyin südə, sən hara, mən də ora!

Böyük bəy:

– Dağa-daşa düşmək çətin olar sənə, – dedi.

Fəxrəndə xanımın boğazının damarları şişdi və xanım ayaq üstə güclə dura-dura:

– Böyük! – qışqırdı. – Böyük!..

Böyük bəy arvadının əlini sıxdı:

– Yaxşı, – dedi, sonra yenə özündən çıxdı: – Məlunlar! Ac-yalavaclar! Evimizdən, babalarımızın min illik torpağından didərgin saldılar bizi! Yox, bu evə qayıdacağam mən, qayıdacağam! Sən hələlik burda qal, Şahnaz, hələlik. Gözüm üstündə olacaq, adamlarımın yarısını burda, sənin yanında qoyacağam. Pal-paltarlarını dəyişib səni qoruyacaqlar. Lazım olsa, tez qaçıracaqlar səni. Yoxsa ki, səhər-axşam at belində, bu meşə sənin, o meşə mənim gəzmək sənin kimi bir qız xeylağına şayəstə deyil. Nökər-naibdən kimi istəyirsən?

– Bir Gülgəz qalsa bəsdi. Başqa adam lazım deyil.

Böyük bəy yana-yana:

– Yox, – dedi. – Bir qulluqçu ilə səntək xanım keçinə bilməz. Aşpaz Hürü arvad, faytonçu Həbib, bir də bağban Muradxan dayı da qalar. Muradxan dayı etibarlı adamdı. Bəs... – Böyük bəy Fəxrəndə xanıma baxdı. – Bəs o çörəkçi Gözəl arvad hanı?

Fəxrəndə xanım:

– Bilmirəm, – dedi. – Bu gün sübh tezdən yoxa çıxıb...

## IV

Səhər tezdən idi. Şuşa yuxudan təzəcə ayılmışdı.

Əlində səhəng tutmuş qızlar «Xan qızı» bulağında durub növbə gözləyirdi.

Səhər tezdən idi, Şuşa təzəcə yuxudan ayılmışdı, amma elə bil ki, günün günorta çağı idi, böyük-kiçik hamı həyətlərdə, küçələrdə idi və ən qəribəsi də bu idi ki, elə bil, bu boyda Şuşada, o Şuşada ki, Qafqaz Parisi deyərdilər ona, bir nəfər də olsun bəy  geyimli-kecimli, xanım geyimli-kecimli adam yox idi, hamısı şəhər alverçiləri idi, şəhər sənətkarları idi, adi şəhərlilər idi.

Qalayçı qalayını çəkirdi, nalbənd eşşək nallayırdı, bağırsağçı bağırsaq aşılayırdı, sərrac yəhər düzəldirdi, misgər qazanla məşğul idi, palanduz palan tikirdi; xalçasatan idi, şirnisatan idi, çörəksatan idi, çəkmə-çust satan idi, müştəri gözləyirdi.

Əslində bu dəm bütün Şuşa gözləyirdi.

Kimsə:

– Gəlirlər!.. – qışqırdı.

Aləm bir-birinə dəydi. Camaat Şuşanın aşağısındakı «Ərimgəldi»yə yığışdı, «Xan qızı» bulağı boş qaldı, qızlar və o cümlədən, Gülgəz də camaata qoşulub şəhərin aşağı başına qaçışdı.

Əvvəlcə at ayaqlarının tappıltısı, araba təkərlərinin cırıltısı eşidildi, sonra qırmızı bayraq göründü, sonra şeypur dilə gəldi və Nicat Ovçuoğlunun başçılığı ilə qırmızı əsgərlər dəstə-dəstə «Ərimgəldi»dən keçib Şuşaya daxil oldu...

Bütün Şuşa tamaşaya çıxmışdı, kimi maraqla baxırdı, kimi məhəbbətlə baxırdı, kimi də paltarını dəyişsə də, gözlərinin ifadəsini dəyişə bilməmişdi, nifrətlə baxırdı...

...Gülgəz tələsik darvazadan içəri girib boş səhəngi bir tərəfə atdı və qaça-qaça Böyük bəyin imarətinə tərəf gəlib aşağıdan-yuxarı ikinci mərtəbəyə qışqırdı:

– Gəldilər! Gəldilər, ay xanım!..

Şahnaz xanım əlindəki kitabı bir tərəfə atdı, cəld ayağa qalxıb otağından çıxdı, tələsik pilləkənləri aşağı enib həyətə çıxdı:

– Nədi? Nə olub? – soruşdu.

– Gəldilər! Gəldilər, ay xanım!

– Kim gəldi?

– Bolşeviklər!

Şahnaz xanım bir müddət susdu, sonra dedi:

– Bəs, sən niyə sevinirsən, ay axmaq?

Gülgəz təəccüblə Şahnaz xanıma baxdı:

– Boy, ay xanım, bəs, onlar bizim hökumətimizdi də!.. Bizimkilərdi!..

## V

Yenə də həmin təkcə lampa işığı idi və həmin təkcə lampa işığının altında, indi Şahnaz xanımla Gülgəz üz-üzə oturmuşdu.

Hər tərəfə cansıxıcı bir sakitlik çökmüşdü və bu sakitlik içində, ancaq pəncərə şüşəsini döyəcləyən yağışın səsi gəlirdi.

Çöldə bir yağış yağırdı ki, tut ucundan qalx göyə.

Gülgəz:

– Vallah, ay xanım, – dedi. – Heç gözüm alışmır e sənin bu görkəminə...

Şahnaz xanım da, Gülgəz kimi, əyninə qulluqçu paltarı geymişdi.

Şahnaz xanım bu sözlərdən, elə bil, pərt oldu və elə bil, bu sözlər Şahnaz xanımı daha da sıxdı:

– Sənin işlərindi də... – dedi.

– Yox, ay xanım, nənəmin canıyçün, Şuşadakı bütün xanımlar bu saat qulluqçu paltarı geyib... Ay xanım, vallah, lətifəsi sənə gəlməsin, böyük şeymiş geyim-kecim. Bayaq Şahbaz bəyin arvadı Pəri xanımı gördüm, Allah haqqı, nənəmin canıyçün, elə bil, ömür-billah qulluqçu-qaravaş olub! Pəri xanım e!..

Şahnaz xanım əynindəki nimdaş paltarlara baxdı:

– Vaxtında Yunis bəyə getsəydim, indi bu günə qalmazdım... Indi Parisdəydim, Brüsseldəydim, Allah bilir ki, haralardaydım...

Gülgəz, elə bil, qulaqlarına inanmadı:

– Hayıfsılanırsan, xanım?

Şahnaz xanım öz-özüylə danışırmış kimi:

– Bəzən hayıfsılanıram, – dedi. – Amma çifayda ki, ağıl deyirdi get Yunis bəyə, amma ürək qoymurdu. Ürək ovçu oğlandan ayrı dura bilmirdi...

Gülgəz gizli bir sirr açırmış kimi:

– Ay xanım, – dedi. – Bilirsən nədi? Bolşeviklərin böyüyünün adı Ovçuoğludu, özü də deyirlər buralıdı...

Şahnaz xanım ayağa qalxdı:

– Görmüsən onu?

– Yox, ay xanım, böyüklərini görməmişəm... Bilirsən, ay xanım, deyirlər ki, bunnan sonra biz nə dedik, odu. Bunnan sonra bəy, xan, xanım olmayacaq. Bulaqdakı qulluqçular danışırdı ki, çoxu ağası Böyük bəylə bir yerdə Turşsu meşəsinə çəkilib. Xanımlar da qulluqçu paltarı geyib, kimi cəhrə əyirir, kimi corab toxuyur, deyəcəklər bolşeviklərə ki, ağamız xanımla qaçıb, biz də oturub sizin yolunuzu gözləyirik... Deyirlər ki, bu gün-sabah meşədən gəlib bolşevikləri qovacaqlar. Eh, Allah vurmuşdu onları, nə hünərin yiyəsidirlər ki, gəlib bu qədər qoşunu qırsınlar burda!

Şahnaz xanım qulluqçu qıza çıxmırdı:

– Kiri, ay qız!

Gülgəz isə tələsik qulaqlarını şəkləyib:

– Bu nə səsdi, ay xanım? – soruşdu.

Və bu dəfə yağış şırıltısı arasından darvazanın döyəclənməyi lap aydın eşidildi.

– Qapını döyürlər, ay xanım, gəlirlər deyəsən... Bəlkə açmayım?

– Açmazsan, sındırarlar. Yeri get aç.

Gülgəz ayağa qalxdı...

...Və başına şal tutub yağışın altında qaça-qaça Böyük bəyin həyət darvazasıia tərəf gəldi:

– Kimdi? – soruşdu.

– Açın! Hökumət adamlarıdı...

...Iki cavan oğlan və onların yanında bir arvad içəri girdi. Gülgəz arvada məhəl qoymadı, qaranlıqda onu tanımadı, başlarına «Budyonnı papağı» qoymuş uzun şinelli əsgərlərə:

– Gəlin, – dedi. – Heç kim yoxdu evdə, ağayla xanım qaçıb, iki qulluqçu qalmışıq...

...Bu gecə qonaqları Şahnaz xanım oturan otağa girəndə, Gülgəz onluq lampanın işığında qonaqlarla gələn arvadı – çörəkçi Gözəli tanıdı:

– Boy... başıma xeyir... Ay arvad, sən indi də bolşevik olmusan?
Gözəl arvad özünü darta-darta:
– Mən arvadlarla iş aparanam, – dedi. – Yalançının biri yalançı! Bolşevik hökumətini aldatmaq olmaz! – Sonra üzünü əsgərlərə tutub: – Bu birisi qulluqçu-zad deyil, – dedi. – Böyük bəyin bacısıdı.
Oğlanlardan biri güldü:
– Onsuz da, xanım paltarını dəyişəndə brilyant bilərziyi yadından çıxıb qolunda qalıb...
Gülgəz nəsə demək istədi, bir söz tapmağa çalışdı, amma Şahnaz xanım qoymadı:
– Düzdü, – dedi. – Bu arvad düz deyir. Mən Böyük bəyin bacısıyam.
Ikinci oğlan soruşdu:
– Bəy hardadı?
– Bilmirəm.
Gözəl arvad:
– Yalan deyir, – dedi. – Bilməmiş olmaz...
Gülgəz yanıb-yaxıldı:
– Bay səni! Nə imansız arvadsanmış az sən!..
Gözəl arvad qaşını çatdı, hirsli-hirsli:
– Kəs səsini! – dedi. – Hökumətə sataşmaq olmaz!
Əsgərlərdən birincisi yenə güldü və Gözəl arvada dedi:
– Sən nə tez hökumət oldun, ay bacı?..
Və bu vaxt Böyük bəyin imarətində addım səsləri eşidildi və bu səs get-gedə yaxınlaşmağa başladı.
Əsgər oğlanlar qulaq asdı, ikincisi:
– Kimsə gəlir, – dedi.
Hər ikisi tapançanı çıxartdı. Gözəl arvad gizlənmək üçün ora-bura baxdı:
– Allah, sən saxla! – dedi.
Ayaq səsləri daha da yaxınlaşdı. Əsgərlər pusquda dayandı. Şahnaz xanım ayaq üstə quruyub qalmışdı. Gülgəz qorxudan tir-tir əsirdi. Gözəl arvad özünə yer tapa bilmirdi.
Qapı döyüldü. Qapı bir də döyüldü. Sonra qapı açıldı.
Şahnaz xanım heç cınqırığını da çıxarmadı. Əsgərlər təəccüblə komandirə baxdı. Gözəl arvadın matı-qutu qurudu. Gülgəz özünü saxlaya bilmədi:
– Bıy, qağa, başına dönüm, sən göydən düşdün, nədi?
Nicat Şahnaz xanıma baxdı:
– Xoş gördük, – dedi.
Şahnaz xanım heyrət, maraq və kədərlə, elə bil ki, birdən-birə başqa bir dünyadan peyda olmuş bu adama baxdı, onun uzun şinelini, belindəki tapançanı, başındakı ortası qırmızı ulduzlu kepkasını gözdən keçirtdi:
– O ayaq səslərini eşidən kimi, ürəyimə damdı, ürəyimə damdı ki, sənsən.
Gülgəz:
– Ay qağa, – dedi. – Yoxsa o Ovçuoğlu dedikləri sənsən?!
Nicat gözlərini Şahnaz xanımdan çəkmədi, necə baxırdısa, elə-eləcə də baxa-baxa:
– Hə, mənəm, – dedi:

Gülgəz özünü saxlaya bilməyib, əlini şappıltıyla baldırına çırpdı:
– Oy, qurban olum qağama! Gör necə böyük adam olub?
Əsgərlər bir-birinə baxdı, sonra ikisi də otaqdan çıxdı. Gözəl arvad da onların ardınca sivişib çıxdı.
Nicat dedi:
– Maşallah, heç dəyişməmisən...
Şahnaz xanım diqqətlə, bir görməmişliklə Nicata baxa-baxa qeyri-şüuri soruşdu:
– Doğrudan?
Gülgəz Şahnaz xanıma baxdı, Nicata baxdı, sonra bərkdən gülə-gülə:
– Mən getdim kəklikotu yığmağa! – deyib gülə-gülə də otaqdan çıxdı.
Şahnaz xanım:
– Sən çox dəyişmisən... – pıçıldadı.
– Qocalmışam?
– Yox, qocalmamısan... Yox. Qorxuram mən səndən...
Nicat bir söz demədi və bu zaman Şahnaz xanım birdən-birə özünü onun üstünə atdı:
– Əzizim!.. – dedi. – Iki gözüm!.. – dedi. – Həyatım mənim!.. Sənsiz bir günüm, bir gecəm olmayıb bu illər ərzində!... – dedi. Nicatın üz-gözünü öpdü, oğlanın qüvvətli qolları arasında dünyada hər şeyi yadından çıxardı, dünyanın ən bəxtəvər adamı oldu və bu bəxtəvər pıçıltıyla da: – Nicat, – dedi, – tapançanı çıxart, məni vur, – dedi.
Nicat dodaqlarını qızın saçlarında gəzdirə-gəzdirə:
– Nə üçün? – soruşdu.
Şahnaz xanım eyni bəxtəvərliklə:
– Ölmək istəyirəm... – dedi. – Bax, bu saat, bu dəqiqə ölmək istəyirəm. Bu dəqiqəni özümlə həmişəlik aparmaq istəyirəm...
Nicat yenə eyni zarafatla soruşdu:
– Səni vurdum, bəs özüm?
– Özün yaşa... – Şahnaz xanım Nicatın üz-gözünü öpə-öpə, nəfəsi tıncıxa-tıncıxa: – Hə, özün yaşa, – dedi. – Çox yaşa sən. Işin çoxdu sənin. Qocalıb belin büküləndə gələrsən.
– Hara?
– O biri dünyaya... Mənim yanıma...
– Yox, mən o vaxta qədər sənsiz qala bilmərəm!
Birdən Şahnaz xanım başını Nicatın sinəsindən qaldırıb düz gözlərinin içinə baxdı:
– Zarafatdı, hə?
– Yox! – dedi Nicat və bu bir kəlmə sözün qətiyyəti araya çökmüş səssizliyin hakimi oldu.
– Bax, inanaram ha...
– Inan, Şahnaz!
Şahnaz xanım:
– Sən mənim... sən mənim adımı necə mehriban pıçıldadın... – dedi və dəli bir ehtirasla oğlanı öpməyə başladı. – Mənim əzizim, mənim ovçum... Nə eləyirsən, elə!.. Kim olursan, ol!.. Qardaşımın qatili ol!.. Gözümün düşməni ol!.. Səninəm

mən!.. Ölsəm də, qalsam da səninəm... Sənin! Yox, yox, ölmək istəmirəm daha... Xoşbəxtəm, bəxtəvərəm mən! Bu gecədən sən ərimsən mənim! – Sonra bərkdən qışqırdı: – Gülgəz! Gülgəz!

Gülgəz yüyürə-yüyürə içəri girdi.

Şahnaz xanım eyni qızdırmalı həyəcanla:

– Tez samovarı eyvana çıxart! Yandır bütün şamları! Qorxma yağışdan! Plov qazanını as! Qonşudan çağır Axund ağanı. Nicata ərə gedirəm mən!

Gülgəz sevinə-sevinə:

– Allah xeyir versin, xanım! – dedi, sonra əlavə elədi. – Amma Axund ağa qaçıb axı...

Şahnaz xanım qəribə bir təəccüblə Nicata baxdı:

– Bəs Axundsuz necə olacaq?

Nicat gülümsədi:

– Eybi yoxdu. Bizim polkda qırmızı molla var.

Şahnaz xanım:

– Qırmızı molla? – soruşdu, sonra birdən-birə bərkdən gülə-gülə: – Hə! – qışqırdı. – Qoy Şahnaz xanımın kəbinini qırmızı molla kəssin! Qoy Böyük bəyin bacısına, Mehmandar ağanın qızına qırmızı molla xeyir-dua versin!..

Nicat:

– Sakit ol, – dedi. – Sakit ol.

Gülgəz də bilmirdi ki, sevinsin, ya da qorxsun.

## VI

Bütün bu Şuşa dağlarının fövqəladə komissarı Nicat Ovçuoğlu bu otaqda həm yaşayırdı, həm də bura onun müvəqqəti iş yeri idi və bu otağın pəncərəsindən Xəznə qayasının sıldırım zirvəsi aydın görünürdü.

Bu otağa o qədər girib-çıxan olurdu, hamı o qədər tələsirdi, hamı elə işgüzarlıq göstərirdi ki, bütün bu tələsiklik, vurnuxma müqabilində Xəznə qayasının ağır, təmkinli sükutu, diqqət edəndə, fikir verəndə, qəribə, sirli, bəlkə də sehrli təsir bağışlayırdı.

Nicat budəfəki camaatı yola salandan sonra, mizin üstündəki balaca zəngi götürüb səsləndirdi və elə bu səsə bəndmiş kimi, cavan əsgər içəri girdi:

– Eşidirəm, yoldaş komissar.

– Qaryagin tərəfdən nə xəbər var?

– Dünən gecə bizim hissələr Qaryagindən ötüb Cəbrayılla Qubadlı qəsəbələrinə daxil oldu. Hələlik təzə bir xəbər yoxdu.

Nicat yerindən qalxıb divardan asılmış böyük xəritənin qabağına gəldi:

– Bəs Zəngilan?

– Hələ bir məlumat yoxdu. Hacımahmudlu Kəriş bəy Horadiz tərəfdə Arazı keçmək istəyəndə bizimkilər tutublar. Burdadı indi.

– Tək qaçırmış?

– Üç-dörd bəylə mal-qaranı, qoyun-quzunu qabaqlarına qatıb, qaçırmaq istəyirmişlər o taya, iyirmi araba yükü xalı-gəbə, qızıl-gümüş aparırmışlar özləriylə.

– Gətirin onu bura.

Nicat öz yerinə keçməmişdən əvvəl pəncərədən Xəznə qayasına baxdı.

Kəriş bəy əli arxasında içəri girdi və bəyin duruşunda, baxışında bir istehza vardı; islanmışın yağışdan qorxusu yoxdu. Kəriş bəy də bunu yaxşı başa düşürdü və bunu başa düşdüyü üçün də özünü kişi kimi aparırdı.

Nicat cibindən maxorka kisəsi çıxarıb papiros bükdü.

Kəriş bəy komissarın əlindəki papirosa işarə elədi:

– Hökumət üzvü olanda da maxorka?

Nicat gülümsədi:

– Eybi yoxdu, vaxt gələr, bahalı papiros da çəkərik. Qaça bilmədiz, hə, bəy?

– Zəmanə sizin zəmanədi indi...

– Yaxşı, bu mal-qaranı ki, götürüb aparırdız, demirdiz, bəs, nəylə dolanacaq arvad-uşaq?

– Bəs, siz onlara yağ-bal verməyəcəksiz? Süd gölündə üzdürməyəcəksiz? Əlbəttə, belə olmayacaq! Olmayacaq belə! Onsuz da, acından öləcəklər hamısı! Rusların qabağına düşüb viran elədiniz yurdumuzu. Atasını yandırdınız Vətənin, elin, obanın. O vətənin ki, – Kəriş bəy iki barmağını düz tutub hirslə, az qala, öz gözlərinə soxdu, – bax, bu iki gözümü də verərəm onun yolunda, «uf» deməràm!

Nicat Ovçuoğlu papirosu külqabıda sıxıb söndürdü və dedi:

– Bəs biz ki, bu qədər pisik, siz də vətəni beləcə istəyirsiz, onda niyə vətəni də, eli-obanı da qoyub Arazı keçib qaçırsız?!

Kəriş bəy bir söz demədi və bu zaman cavan əsgər hövlnak içəri girib:

– Yoldaş komissar, bir nəfər hay-küy salıb yaraqlı-yasaqlı içəri girmək istəyir.

– Kimdi?

– Kim olduğunu demir. Hündürboy, zəhmli kişidi.

– Buraxın içəri. Bunu isə aparın.

– Yoldaş komissar, tüfəngli-zadlı buraxaq?

– Əməl edin, yoldaş Valeh!

Cavan əsgər Kəriş bəylə birlikdə otaqdan çıxdı və onların çıxmağı ilə də Solaxay Həsənalının içəri girməyi bir oldu.

Nicat tələsik yerindən qalxıb kişinin əlindən yapışdı.

– Xoş gördük, ata! Başa düşdüm ki, sənsən! Necəsən, ata?

Solaxay Həsənalının sifətində bir tük də tərpənmədi.

– On gündü gəlmisən, indi soruşursan? Yoxsa, Gülablını tay şəninə sığışdırmırsan?

Nicat gülümsəyib:

– Inciməyə haqqın var, ata, – dedi. – Sağ-salamat olmağından hal-əhval tutmuşam. Özüm də ha deyirəm indi gedərəm, bir saatdan gedərəm, hər dəfə bir iş çıxır ortaya. Biz bu saat əksinqilabla ölüm-dirim mübarizəsi aparırıq, yəni ki, onların ölümü, bizim diriliyimiz.

Solaxay Həsənalı əlindəki beşatılanın qundağını yerə söykəyib necə dayanmışdısa elə-eləcə də dedi.

– Ona görə də oturmusan Böyük bəyin imarətində? Ona görə də Böyük bəyin bacısını almısan?

Nicat köksünü ötürüb bir müddət susdu və burası tamam aydın idi ki, qarşısındakı atası yox, bir başqası olsaydı, cavabını alardı.

– Əvvəla burada müvəqqəti qalıram, ata. Ikincisi, indi bu mülk nə mənimdi, nə də Böyük bəyin, xalqındı, məktəb eləyəcəyik buranı. O ki, qaldı... Sən bilirsən ki, mənim onun bacısı ilə münasibətim çoxdanın əhvalatıdı...

– Heç bir namuslu oğul atasının dədə-baba yurdunu dağıdıb kor qoyan, özünü dost-düşmən yanında xar eləyən namərd düşməninin bacısını almazdı!

– Qızın nə təqsiri vardı, ata? Bacı qardaşın, özü də Böyük bəy kimi bir qardaşın işinə necə cavabdeh ola bilər?!

Solaxay Həsənalı qəzəbindən boğula-boğula:

– Düşmənin böyüyü-kiçiyi yoxdu, – dedi. – Düşmən düşməndi! Bəs, mənim nə günahım vardı? Kişi əcdadının namusunu arvada satmaz!

– Ata!.. – Nicat özünü güclə ələ aldı. – O qızın ürəyi...

Solaxay Həsənalı oğlunun sözünü kəsdi:

– Boşla bu əzginiş sözləri! Kişi söhbəti danış! Arvadın dili şeytan dilidi. Onun felinə düşməmək üçün kişi olmaq lazımdı!

Nicat dərindən nəfəs alıb:

– Sağlıq olsun, ata... Vaxt gələr, görərsən ki, yaxşı qızdı o...

Solaxay Həsənalı birdən-birə maraqlandı:

– Kəbin kəsdirmisən ona?

– Əlbəttə.

– Kim kəsib kəbini?

– Qırmızı molla.

Solaxay Həsənalı təhdidlə:

– Deyəsən, məni dolayırsan, – dedi. – Mollanın da qırmızısı, ağı olur? Hardadı o qırmızı molla?

– Bizim polkda.

Bu dəfə Solaxay Həsənalı dərindən nəfəs aldı:

– Allaha şükür ki, ona bizim molla kəbin kəsməyib! Günü bu gün qov getsin!

– Bu nə zarafatdı, ata?

Solaxay Həsənalı qəzəblə:

– Sən mənim ömrümdə zarafat eləməyimi görmüsən?! – soruşdu. – Dedim ki, qov getsin!

Nicat həyəcanla:

– Bu, mümkün olan iş deyil, ata! – dedi.

– Sən kişisən! Əyər o sənin ürəyinin bir parçasıdısa, o parçanı kəs at, qoy Böyük bəy görsün ki, bir olan Allah nahaq işi qisassız qoymaz! Böyük bəyin ingilis banklarında milyonları var. Gedib yenə kefi istəyən kimi yaşayacaq, mənim qisasımı bəs kim alacaq?! – Solaxay Həsənalı bir müddət susdu, sonra dərin bir kinlə: – Onun bacısını bir qatıra mindir, – dedi. – Göndər hüzuruna. Qoy yansın ciyəri qiyamətəcən!

Bu dəfə daha Nicatın təmkini tab gətirmədi:

– Bəsdi, ata! Bəsdi!

Solaxay Həsənalı hiddətlə guruldadı:

– Qışqırma! Naməkbəharam! Yoxsa, elə bilirsən ki, qapında soldat durur deyən, səndən qorxub çəkinəcəyəm? Bu gündən sən adlı oğlum yoxdu mənim! Qoy Böyük bəyin yurdunu, yuvasını dağıdıb qapılara saldığı ananın südü sənə haram

olsun! Dörd ildi at belindən düşmürəm, dağlar, daşlardı məskənim, Böyük bəyin adamları izləyiblər məni ki, vursunlar. Kaş elə vuraydılar!

Solaxay Həsənalı ayağı ilə qapını vurub açdı, əl-ayağa dolaşanları o tərəf-bu tərəfə itələyib həyətə çıxdı, qapı ağzında gözləyən atın belinə sıçrayıb bir cavan oğlan kimi çapdı və Böyük bəyin həyət darvazasından çıxıb getdi...

...Valeh komissarın otağına girdi:

– Yoldaş komissar, üç gün bundan əvvəl üzə çıxıb, guya ki, bizim tərəfə keçən qaçaq Şahmar günün günorta çağı Hüseyn bəyin evinə basqın eləyib, bütün qiymətli şeyləriylə bərabər, iki uşaq anası cavan arvadını da kəbinli-kəbinli zorla götürüb qaçırıb.

Elə bil, hələ də özünə gəlməyən Nicat Ovçuoğlu bir biganəliklə:

– Bəs Hüseyn bəy özü hardaymış? – soruşdu.

– Hüseyn bəy biz gələndə qaçıb. Harda olduğu məlum deyil!

Və bu vaxt elə bil ki, Nicatın bütün hirsi, kini bir vulkan kimi püskürdü:

– Yerin dibində də olsa, qaçaq Şahmarı tutub tribunala vermək lazımdı! Güllələmək lazımdı belələrini camaatın gözü qabağında! Aydındı?

Valeh tələsik:

– Bəli, yoldaş komissar, – dedi, – aydındı!

Nicat bir balaca özünə gəlib:

– Bahadırdan nə xəbər var? – soruşdu:

– Qaçaq Bahadır bu saat öz dəstəsilə Topxana meşəsindədi... Qara camaat onun xətrini istəyir, yoldaş komissar...

– Bilirəm. Hazırlaş, sabah sübh tezdən onunla görüşməliyik.

– Neçə atlı götürək?

– Ikimiz gedəcəyik, sənlə mən. Qorxmursan?

– Mən yox, yoldaş komissar, sizin həyatınız üçün təhlükəli olar. Hər halda, qaçaq qaçaqdı... Bələdçi də götürməyək?

– Bələdçi? – Nicat Ovçuoğlu gülümsədi. – Topxana meşəsində mənə bələdçi lazım deyil, Valeh...

## VII

Şahnaz xanımın otağın qaranlığından seçilməyən saçları ağ köynəyinin üstünə tökülmüşdü və bu dəm Nicatın əli onun saçlarında gəzirdi. Şahnaz başını Nicatın geniş sinəsinə qoymuşdu və Nicat çarpayıda uzana-uzana, bir əli öz başının altında, o biri əli Şahnazın saçlarında, gözlərini qaranlıq tavana zilləyib qalmışdı.

Şahnaz, elə bil, kimsə onları eşidəcəkmiş kimi, pıçıltıyla:

– Mən sənin əzablarını hiss edirəm, Nicat, – dedi. – Bütün yoldaşların, dostların kimi, atan da məni düşmən hesab edir. Burax məni çıxım gedim...

Nicat tamamilə qeyri-şüuri:

– Hara gedəsən? – soruşdu.

– Uzaqlara... Heç kəsin məni tanımadığı bir yerə...

Nicat onun saçlarını qatışdırdı:

– Uşaqsan sən?.. Yat. Atamdan da incimə.

– Heç kəsdən incimirəm mən... Amma çıxıb getmək istəyirəm... Baş götürüb qaçmaq istəyirəm... Suçlu adamlar kimi heç kəsin üzünə baxa bilmirəm... Elə bil, nədəsə, təqsirkaram. Bilmirəm nədi bu, Nicat... Adamların baxışı məngənə kimi sıxır ürəyimi... Istəmirəm ki, atanla da düşmən kəsiləsən mənim üstümdə...

Nicat:

– Vaxt gələr, – pıçıldadı, – atam da başa düşər öz səhvini. Inqilabın mənasını, qanunlarını hamıya birdən başa salmaq çətin işdi. Qınama atamı. Çar üsul-idarəsi, ağalıq dünyası sümüklərinə qədər yandırıb-yaxıb onu... Fikirləş də, bir... – Nicat yavaş-yavaş qızışırdı. – Öz vətənimizdə vətənsiz idik. Ana dilimiz belə işə keçmirdi. Dövlət işlərinə yaxın buraxmırdılar bizi. Bizim nə xarici siyasətdən xəbərimiz olurdu, nə də daxili siyasətdən. Milli vüqarımızı ayaqlar altına salıb tapdalayırdılar.

– Indi sizin yaratdığınız təzə dövlətdə bunların hamısına son qoyulacaq?

– Şübhəsiz! Çünki biz deyirik: bütün cinayətlərin, haqsızlıqların kökü bir sinfin o birisinin üzərindəki ağalığıdı. Biz zəhmətkeş xalqla birlikdə elə bir cəmiyyət quracağıq ki, orada kim zəhmət çəkirsə, o da yaxşı yaşasın. Hər bir vətəndaş öz hökumətinin nə elədiyini, nə işlə məşğul olduğunu bilsin. Örtülü qapılar dalında heç nə həll edilməsin. Istismara son qoyulacaq, Şahnaz!

Şahnaz xanım bir müddət heç nə demədi, sonra pıçıldadı.

– Kaş sənin bu gözəl arzuların bir xam xəyal olmayaydı, Nicat!..

Nicat dərin bir inamla:

– Vaxt gələcək, özün görəcəksən öz gözlərinlə bu arzuların həqiqət olduğunu.

## VIII

Topxana meşəsini çən-çiskin bürümüşdü və həmin çən-çiskin altında beş-altı atlı çapa-çapa özünü meşəyə verdi.

Atlılar Mirzə bəy idi, Yunis bəy idi, başqa bəylər idi, bir də Hümmət idi.

Mirzə bəy:

– Ağlım kəsmir Bahadırdan bizə bir xeyir gələ! – dedi. – Böyük bəy nahaq göndərdi onun üstünə bizi!..

Yunis bəy:

– Qorxursan? – soruşdu.

Hümmət bu sualdan qımışdı.

Mirzə bəy:

– Qorxan gözə çöp düşər deyiblər, Yunis bəy! – dedi. – Mən gədə-güdədən qorxan oğullardan deyiləm! Pişikdən qorxan yuvasından çıxmaz!

Yunis bəy:

– Tanıyıram səni! – dedi.

Bəylər çapa-çapa meşədə görünməz oldu...

...Və bu çən-çiskin altında iki atlı da çapa-çapa yuxarı başdan Topxana meşəsinə girdi.

Valeh:

– Yoldaş komissar, qaçaq Bahadırı tanıyırsız siz? – dedi.

Nicat Ovçuoğlu:

– Uşaqlıq yoldaşımdı mənim, – dedi.

Hər iki atlı çapa-çapa meşədə görünməz oldu.

...Topxana meşəsi sükut içində idi və meşənin bu sükutunda bu dəm, elə bil ki, bir əbədilik vardı, amma birdən-birə qəfil bir səs bu sükutu pozdu:

– E-he-he-hey!..

Topxana meşəsi bu səsə əks-səda verdi və bu əks-səda hər tərəfi bürüdü.

Bəylər aşağıdan çapa-çapa yuxarı qalxırdı və onlar irəlilədikcə o ağacın dalından, bu daşın dibindən bir qaçaq qalxıb tüfəngini tuş tuturdu.

Bəylər qaçaqların düşərgəsinə yaxınlaşanda, başında motal papaq, çiynində yapıncı bir qaçaq Bahadırı səslədi:

– Bəylər gəlib, Bahadır!

Qaçaq Bahadır mağaradan çıxıb bəyləri ayaq üstə qarşıladı.

Yunis bəy atı irəli sürdü:

– Məni tanıyırsan, Bahadır, düşmənik sənlə! Dost başa baxar, deyiblər, düşmən ayağa. Indi gözüm gözündədi sənin! Böyük bəy yollayıb bizi! Turşsu meşəsindədi Böyük bəy, atlılarıyla birgə. Bolşeviklər taxtabiti kimi, eli-obanı bürüyüb, Bahadır. Dinsiz, imansızdılar! Hörmət-izzət aradan götürülüb! Namus, qeyrət ayaq altına düşüb! Vətənin, millətin yaman günüdü! Olub-keçənləri yaddan çıxarıb Böyük bəy! Sən də unut! Igid igidə xor baxmaz! Turşsu meşəsinə çağırır səni Böyük bəy, dəstənlə bir yerdə. Bolşeviklərə divan tutmaqdan ötrü! Millət uğrunda! Qeyrət, namus, kişilik yolunda!

Qaçaq Bahadır yaxınlaşıb Yunis bəyə baxdı, sonra Mirzə bəyə baxdı, sonra yaxınlaşıb o biri bəylərə bir-bir baxdı, Hümmətə baxdı, sonra iti addımlarla geri qayıdıb atının belinə sıçradı.

Topxana meşəsində milçək uçsaydı, səsi eşidilərdi.

Qaçaq Bahadırın atı şahə qalxdı və Qaçaq Bahadır çapıb Yunis bəylə üz-üzə durdu.

– Tanıyıram səni, Yunis bəy, – dedi Qaçaq Bahadır. – Igidliyinə sənin sözüm yoxdu!

Sonra Qaçaq Bahadır atın ağzını döndərdi və at yenə də şahə qalxdı.

Qaçaq Bahadır qışqırdı:

– Atlanın!

Qaçaqlar bir göz qırpımında atların belinə sıçradı.

Qaçaq Bahadır dedi:

– Qaçaqlar! Bir hökumətlə ki, bunlar vuruşur, – əlini uzadıb Mirzə bəyi göstərdi – o hökumət sizin hökumətdi demək!

Yenə milçək uçsaydı, Topxana meşəsində səsi eşidilərdi.

Qaçaq Bahadır dedi:

– Qaçaqlar! Illərdən bəri arvad-uşaqdan ayrı düşmüsüz, gecə-gündüz at belində mürgüləmisiz, ürəyiniz doludu dərdlə, innən belə istəmirəm ki, qocalıb əldən düşənə kimi at belində qalasız! Məqam yetişib, gün çatıb! Torpaq gözləyir sizi! Arvad-uşaq gözləyir sizi! Gedin yeni hökumətdən aman istəyin! Dağılın, gedin ev-eşiyinizə!

Araya sükut çökdü. Mirzə bəy açıq-aşkar bir istehza ilə Yunis bəyə baxdı. Gözlərini Qaçaq Bahadırdan çəkməyən Hümmət tüfəngə əl atdı. Yunis bəy onun əlindən yapışdı.

Yaşlı bir qaçaq irəli çapıb:

– Bəs sən? – soruşdu.

Qaçaq Bahadır:

– Daha mənə bənd olmayın. – dedi. – Mən nə eləyəcəyimi sonra fikirləşəcəyəm. Allah kərimdi!

Qaçaqlar səs-küy saldı:

– Sənsiz getmirik biz!

– Sənsiz dağılmırıq!

– Sən hara, biz də ora!

Qaçaq Bahadır yəhərin qayışından tüfəngini çıxarıb yuxarı qaldırdı:

– Qaçaqlar! Qardaşlar! Bugünkü günə qədər qaçaq Bahadırın bir sözünü iki eləməmisiniz! Bu gün də eləməyin, yaraşmaz sizə! – Sonra qaçaq Bahadır əlindəki tüfəngi yerə atdı, patrondaşı da belindən açıb yerə tulladı. – Qaçaq Bahadır yoxdu daha! – Salamat qalın! Niyyət olmasın, qismət olsun, görüşərik, inşallah...

Və qaçaq Bahadır düşərgədən uzaqlaşdı.

Qaçaqlar bəylərin yanından ötüb aşağı düşdü.

Yunis bəy:

– Gedək. – dedi. – Xeyir xəbər aparmırıq Böyük bəyə.

Mirzə bəy alışıb-yanan həris gözləriylə Yunis bəyə baxıb:

– Siz gedin, – dedi. – Gəlib çatacağam sizə. – Və Mirzə bəy atı mahmızlayıb çapıb gözdən itdi.

...Qaçaq Bahadır Topxana meşəsində bir düzənliyə çıxdı və bu düzənlikdən başı qarlı Kirs dağı açıq-aydın görünürdü.

Qaçaq Bahadır atın cilovunu çəkib dayandı, yapıncısının boyunluğunu açıb çiynindən atın tərkinə saldı, əlində tutduğu sapı sədəflə işlənmiş qamçını təpəsiylə buxara papağını alnının üstündən yuxarı itələdi və başı qarlı Kirs dağına baxdı və elə bil ki, bu dağın böyüklüyü, azadlığı, sərbəstliyi qaçaq Bahadıra da sirayət etdi və qaçaq, güman ki, illərdən bəri hiss etmədiyi bir azadlıqla sinə dolusu nəfəs aldı və elə bu vaxt namərd gülləsi bütün bu yerləri lərzəyə gətirdi.

Qaçaq Bahadırın əlləri süstləşib yanlarına düşdü, gözləri hələ də Kirs dağına baxa-baxa böyüyüb az qaldı hədəqəsindən çıxsın, sonra qaçağın beli büküldü, başı atın yalına düşdü.

Atışmada qaçaqaça adət eləmiş at yerindən götürüldü.

Qaçaq Bahadırın əlindən sürüşüb düşən sapı sədəfli qamçı elə-eləcə o düzənlikdə qaldı.

Mirzə bəy at belində ağaclıqdan çıxıb gülümsəyə-gülümsəyə özündən razı-razı Qaçaq Bahadırı aparan atın ardınca baxdı, sonra indicə pusquda durub atdığı tüfəngi yəhərin qayışına keçirdi...

...Yunis bəy uzaqdan güllə səsi eşidib atın cilovunu çəkdi və tələsik də o biri bəylərə:

– Siz gedin, gəlirəm, – dedi və atı səs gələn tərəfə çapdı...

...Yunis bəylə Mirzə bəy Topxana meşəsində üz-üzə gəldi.

Mirzə bəy nəşəli-nəşəli:

– Gəbərtdim köpək oğlunu! – dedi.

Yunis bəy bütün hirs-hikkəsini Mirzə bəyin üstünə tökdü, səhərdən bəri bütün bu əhvalat barədə bir kəlmə də deməyib partlayırdı, axırı ki, bir fürsət düşdü, bir məqam yetişdi, bağıra-bağıra:

– Silahsıza güllə atdın? – soruşdu Yunis bəy. – Arxadan vurdun onu? Sənin kimi çaqqallara qoşulduq, igidlərə düşmən olduq, axırımız da belə oldu! Ac-yalavac bolşeviklərin əlindən baba yurdumuzda çıraq yandıranımız qalmadı! Tüfəngsizə tüfəng tuşlayan oğraş! Qaldır tüfəngi!

Dalbadal iki güllə açıldı.

Mirzə bəy atdan sürüşüb yerə sərildi.

Yunis bəy atın ağzını döndərib çapıb gözdən itdi.

Mirzə bəyin yalqız atı bu çapaçapdan, bu vurhavurdan xilas olub sakit-sakit ağacların dibini otlamağa başladı.

...Nicatın ardınca gedən Valeh:

– Elə bil, kimsə gəlir, yoldaş komissar, – dedi.

Nicat cilovu çəkib dayandı.

Valeh tüfəngi belindən aşırdı.

Və elə bu vaxt Qaçaq Bahadırın atı ağaclar arasından çıxıb onlara sarı gəldi.

At yavaş-yavaş, ehmalca addımlayırdı. Bahadır üzü üstə eləcə atın yalına düşüb qalmışdı və neçə müddət idi at onu beləcə belində gəzdirirdi.

Bahadırın atı Nicatgilə çatıb dayandı və başını aşağı saldı.

Bir müddət heç kim heç nə demədi, sonra Nicat:

– Bahadırdı, – dedi. – Düş, Valeh, düş. Düş basdıraq onu. Topxana meşəsi son məskəni olsun Bahadırın...

## IX

Şahnaz xanım pəncərə önündə dayanıb duman içində güclə seçilən Topxana meşəsinə baxırdı və bu dəm qızın üzündə bir qorxu, bir nigarançılıq vardı.

Gülgəz otağa girəndə Şahnaz xanım diksinib geri çöndü və vahimə ilə:

– Nədi? Nə olub? – soruşdu.

Gülgəz bir təəccüblə:

– Heç bir şey, xanım, nə olasıdı ki?

– Bəs, niyə mənə heylə baxırsan?

– Nə cür, xanım?

Şahnaz xanım, elə bil, birdən yuxudan oyandı, yenə pəncərədən Topxana meşəsinə baxdı.

– Fikir ver, elə bil, Topxana meşəsi tilsim içindədi.

Gülgəz qorxdu əməlli-başlı:

– Bismillah de, xanım. Tilsim nədi?.. Dumandı çöküb üstünə...

– Mənə xanım niyə deyirsən?

– Bəs nə deyim?

Şahnaz xanım gülümsədi:

– Yoldaş de. Yoldaş Şahnaz...

– Bəsdi, sən Allah... Niyə özünü axı, belə həlak eləyirsən?.. Nə olub axı, ay xanım?

– Görəsən, Nicat niyə gecikdi?

– Xəbər göndərib ki, bəlkə gecə gəlmədi...

Şahnaz xanım qəribə bir təəccüblə:

– Bəs, mənə niyə bir söz deməyib? – soruşdu.

Gülgəz çiyinlərini çəkdi:
– Yəqin qəflətən işi olub də...
Şahnaz xanım pıçıltıyla təkrar etdi:
– Qəflətən...
Gülgəz, elə bil, qorxdu yenə:
– Heç bilmirəm, axır vaxtlar niyə belə olmusan, xanım...
Şahnaz xanım birdən-birə vahimələnib:
– Nə cür axı? Nə cür? – soruşdu.
– Eyzən fikir-xəyal içindəsən. Hər şeydən şübhələnirsən. Mən dedim sən Nicata gedəndən sonra dünyanın bəxtəvəri olassan... Elə istəyir səni o, ay xanım, elə istəyir!
Şahnaz xanım, elə bil, öz-özüylə danışırdı:
– Bəs, mən istəmirəm onu? Amma onu nə qədər öpürəm, oxşayıram onu nə qədər, yaxınlıq eləyirəm nə qədər, ürəyimi sakit eləyə bilmirəm... Bir nigarançılıq boğur məni, Gülgəz...
Şahnaz xanım qulluqçu qızı qucaqlayıb ağladı.

## X

Valeh hər biri öz işi ilə məşğul olan qızıl əsgərlərin, gəlib-gedən, harda oldu oturub gözləyən yerli camaatın arasından keçib tələsik komissarın otağına girdi.
Nicat yazı masasının arxasından başını qaldırıb yuxusuzluqdan, yorğunluqdan qıpqırmızı qızarmış gözlərilə cavan oğlana baxdı və soruşdu:
– Nə olub?
– Yoldaş komissar, bu saat xəbər gətirdilər ki, Böyük bəylə Gəncəli Həmid bəyin atlıları Yevlax tərəfdə dəmir yolunu dağıtmaq üçün əli bel tutan kəndliləri silah gücünə yığıb aparıblar...
Nicat yorğun-yorğun:
– Bakı ilə, Rusiya ilə əlaqəmizi kəsmək üçün... – dedi, sonra birdən-birə yumruğunu mizə çırpdı. – Bu, axırıncı döyüş olmalıdı!..
...Nicat şinelinin kəmərini bağlayıb, evdən çıxaçıxda Şahnaz xanım içəri girdi:
– Yenə gedirsən?
– Hə, təcili gedəsi oldum, Şahnaz. Nigaran qalma məndən. Gecə gəlməyəcəyəm.
Bir müddət sükut çökdü, sonra Şahnaz xanım təkrar elədi:
– Nigaran qalma məndən... Gecə gəlməyəcəyəm.
Yenə araya sükut çökdü və Nicat bir anlıq, elə bil, bütün işini-gücünü yadından çıxartdı, arvadına yaxınlaşıb qucaqladı, elə bil, təkcə Şahnaz xanıma yox, özünə də təskinlik verdi:
– Zamanə belədi, Şahnaz... Tələsiklikdi... Heç nə dayanıb gözləmir... Amma eybi yox... Pis günün ömrü qısa olar.
– Inanırsan buna?
Nicat Şahnaz xanımın gözlərinin içinə baxdı:
– Inanıram. Sən də inan.
– Hara gedirsən?
Nicat bir az tərəddüdlə dedi:

– Gəncə-Qarabağ bəyləri dəmiryol xəttini dağıtmaq istəyirlər.

Şahnaz xanım ərinin qollarının arasından çıxdı.

– Gəncə-Qarabağ bəyləri... Başçıları Böyük bəylə Həmid bəy, hə? Biri qardaşım, biri də xalam oğlu. Ərim də onların üstünə gedir... Kimsə ölə bilər, vurula bilər, qanına qəltan olar, ya qardaşım, ya ərim, hə?..

Nicat:

– Böyük bəy düşməndi, Şahnaz... – dedi.

Şahnaz xanım çığırdı:

– Yox! Böyük bəy qardaşımdı mənim!..

## XI

Qızıl əsgərlər hücuma keçmişdi. Böyük bəyin adamlarının daldalandığı qayalıqda baş qaldırmaq mümkün deyildi, hər tərəfdən güllə dolu kimi yağırdı, əl qumbaraları partlayırdı.

Başı sarıqlı, üstü-başı qanlı, çirkli Yunis bəy arxa tərəfdən çapa-çapa qaya dibinə sığınıb dalbadal güllə atan Böyük bəyin yanına gəldi.

– Böyük bəy! – qışqırdı Yunis bəy. – Həmid bəy otuza yaxın atlısıyla qaçıb canını qurtardı. Bir azdan keçəcək Arazı.

Böyük bəy əl saxlayıb hiddətdən alışıb-yanan gözləriylə altdan-yuxarı Yunis bəyə baxdı:

– Nə deyirsən, Yunis bəy, mən də qaçıb canımı qurtarım?!

– Yox, sən Həmid bəy deyilsən! Amma qırğına vermək olmaz bu qədər camaatı! Gözləyənləri var evdə-eşikdə!

– Bəs bizim, bəs bizim, bəs bizim gözləyənlərimiz yoxdu?!

Və bu zaman qumbara partladı və hər tərəf toz-torpaq içində görünməz oldu. Böyük bəyin bağırtısı da eşidilməz oldu, sonra yavaş-yavaş sakitlik çökdü, toz-torpaq yatdı, üz-gözü çirkin-pasın içində olan Böyük bəy ətrafa baxdı.

Yunis bəy arxası üstə qayalığa çırpılıb qalmışdı və onun cəsədi qıpqırmızı qan içində idi, bir az aralıda isə atı yerə sərilmişdi.

Böyük bəy sürünə-sürünə Yunis bəyə yaxınlaşdı, başını qaldırıb dizlərinin üstünə qoydu, bir müddət bu cavan, yaraşıqlı oğlanın sifətinə baxdı, sonra tozlu-torpaqlı ovcu ilə Yunis bəyin gözlərini qapadı...

...Valeh qaça-qaça:

– Yoldaş komissar! – qışqırdı. – Böyük bəy mühasirədən çıxa bilmədi! Bizimkilər onu diri tutublar!

Şəfqət bacısı Nicatın yaralı qolunu sarıyırdı.

## XII

Gecə idi və bu gecə qaranlığında Böyük bəyin keçmiş malikanəsi tamam kimsəsiz görünürdü, elə bil ki, bu son ayların vurhavuru, bu son ayların təlatümü bu daş divarlara, bu aynabəndlərə, bu qırmızı kirəmitli taxtapuşa da təsir etmişdi.

Çarşablı bir arvad həyət darvazasının bala qapısını açıb tələsik içəri girdi, ehtiyatla ora-bura baxa-baxa binaya yaxınlaşdı, Şahnaz xanımın pəncərəsi ağzında dayanıb xısın-xısın:

– Şahnaz! Şahnaz! – deyə səslədi.

Şahnaz xanım çarpayısından dik atılıb qulaq asdı.

– Şahnaz! Şahnaz!

Şahnaz xanım əynindəki gecə köynəyiylə, döşü-başı açıq özünü artırmaya atdı:

– Kimsən?

– Aşağı düş.

Şahnaz xanım bu səsi tanıdı:

– Fəxrəndə xanım?

Fəxrəndə xanım çadranı başından atıb soyuqqanlıqla:

– Sus... – dedi. – Səs salma! Tez ol, aşağı düş...

Şahnaz xanım tələsik çiyninə şal salıb tələm-tələsik, səssiz-səmirsiz aşağı düşdü, həyətə çıxıb Fəxrəndə xanımla üzbəüz durdu.

Fəxrəndə xanımın kinli, alışıb-yanan gözləri macal tapıb Şahnaz xanımı bu gecə qaranlığında təpədən dırnağa qədər nəzərdən keçirdi.

– Ərə getmək düşüb sənə!.. – dedi Fəxrəndə xanım. – Qardaşın həbsxanada tribunal dustağıdı, sən də onun düşməniylə eyş-işrətlə məşğulsan!

– Böyük bəyi tutublar? Heç olmasa, salamat qalıb, Allaha çox şükür!.. – Sonra elə bil ki, yadından çıxartdı ki, kimlə danışır, tələsik də soruşdu: – Nicat da salamatdı görəsən?

Fəxrəndə xanım yandı-yaxıldı:

– Komissar arvadı! – dedi. – Nə insafınız var, nə mürvətiniz! Sən yana-yana məndən qan düşmənimizin halını soruşursan! Ərin çölün düzündə Kəriş bəy kimi adamları güllələdir!.. Bu nə zəmanədi, Allah!.. – Sonra Fəxrəndə xanım özünü ələ aldı. – Qardaşını istəyirsən sən, bilirəm. O da səni istəyir. Bir tikə körpə vaxtından sənə ata da o olub, ana da. Başın ağrıyanda sənin, boğazından onun çörək keçməyib. Indi onu da güllələyəcəklər, Şahnaz! Bura gətirirlər, Qala türməsinə, sonra da Ivanın birinin gülləsinə qurban olacaq...

Şahnaz xanım soyuqdanmı, həyəcandanmı tir-tir əsə-əsə, elə bil, öz-özünə dedi:

– Gərək yerə qoyaydı silahı...

– Böyük bəy ovçu Həsənalının oğluna baş əysəydi, yeddi arxadönənlərinin ruhu ona lənət oxuyardı! Birinci elə mən gülləni öz ürəyimə sıxardım. Amma sən Böyük bəy kimi bir qardaşı öldürmək istəyən, xanimanımızı dağıdıb, bizi zəlil eləyən bir adamla bir yastığa baş qoyursan! Elə bilirsən istəyir o səni? Səni yox, bax, bu əndamını istəyir o! – Fəxrəndə xanım dəli kimi əl atıb Şahnaz xanımın gecə köynəyinin yaxasını cırıb qopardı və qızın sinəsi, döşləri həmin gecə qaranlığında ağappaq ağardı.

Şahnaz xanım şalı sinəsinə bürüyə-bürüyə, uçuna-uçuna inildədi:

– Bəsdi!.. Bəsdi!..

Fəxrəndə xanım hiddətdən, qəzəbdən titrəyə-titrəyə:

– Ciyərim od tutub yanır mənim! – dedi. – Ərin Böyük bəyi güllələtsə, mən də gedib özümü Xəznə qayasından atacağam, Şahnaz! Bilirsən ki, eləyəcəyəm bunu! Qoy səni barmaqla göstərib desinlər ki, qardaşının qatiliylə gecələr kef çəkən bacı, bax, budu! Bizim ruhumuz hər addımda sənin dalınca gəzib lənətləyəcək səni!

Şahnaz xanım pıçıltıyla dedi, amma qətiyyətlə dedi, budəmki gücsüzlüyünə, taqətsizliyinə yaraşmayan bir qətiyyətlə dedi:

– Böyük bəyi xilas eləyəcəyəm həbsdən!.. Nəyin bahasına olursa-olsun!..

Fəxrəndə xanım bir müddət susdu, bir balaca özünə gəldi, sonra dedi:

– Səhər saat səkkizdə uçuq kilsənin yanında səndən bir xəbər gözləyirəm.

Fəxrəndə xanım yenə də çarşabı başına salıb tələsik addımlarla həyətdən çıxdı...

...Sübh tezdən uçuq kilsə bomboş idi. Fəxrəndə xanım iki arvadla birlikdə kilsənin bir küncünə qısılıb gözləyirdi.

Şahnaz xanım axırı ki, gəlib çıxdı.

Fəxrəndə xanım səbirsizliklə:

– Nə oldu? – soruşdu.

– Nicat Böyük bəyi buraxmağa razı olmadı.

Fəxrəndə xanım həyəcanla:

– Razı olmadı?! – dedi.

Qadınların pıçıltıyla belə danışmaları boş kilsədə əks-səda verirdi.

Şahnaz xanım:

– Qulaq as, – dedi. – Bu gün hava qaralandan sonra yaxşı qaçan yəhərli bir at göndərərsiz, Qala türməsinin aşağı başındakı uçurumun yanında Böyük bəyi gözləsin.

Fəxrəndə xanım həyəcanla:

– Qaçıracaqlar onu? – soruşdu.

Şahnaz xanım tələsik:

– Çalışacaqlar ki, qaçırsınlar.

– Kimlər? – Fəxrəndə xanım bir ümidlə, bir həsrətlə xəbər aldı.

Şahnaz xanım qardaşı arvadının sualını cavabsız qoydu.

– Bizi burda görməsələr yaxşıdı... – Şahnaz xanım iti addımlarla boş kilsədən çıxdı...

... Yenə gecə idi və yenə də neçə müddət bundan əvvəlki kimi həmin xanəndənin səsi uzaqlardan eşidilirdi:

Deyirlər Qarabağ bir cənnət imiş,
Bəslərmiş qoynunda mələklərini.
Məndə qüdrət hanı qələm çalmağa,
Tərif eləməyə ancaq birini...

Əlbəttə, Nicat bu saat bu uzaqdan gələn səsi eşitmirdi. Nicat elə paltarlı-paltarlı, yorğun-arğın divanın üstündə uzanıb yatmışdı və onun sifətindəki bu yorğun mehriban təbəssüm bu dəm, elə bil, Şahnaz xanımın yaxınlığından, doğmalığından idi.

Şahnaz xanım divanın kənarında oturub Nicata baxırdı, ərinin üzünü, gözünü, qaşını, alnını, saçlarını sığallayırdı və onun baxışlarında kədərlə, qüssəylə bərabər, bir fəxarət də var idi; elə bil ki, o bu dəm əlçatmaz bir bəxtəvərliyin, əlçatmaz bir gözəlliyin həndəvərində dayanıb təkcə elə baxırdı...

Xanəndənin o uzaq səsi isə hələ də eşidilirdi:

Deyirlər Qarabağ bir cənnət imiş.
Bəslərmiş qoynunda mələklərini...

## XIII

Elə həmin gecə idi.

Fəxrəndə xanım, Hümmət, bir də bir başqa atlı yaraqlı-yasaqlı Qala həbsxanasının aşağı başında, uçurumun yanında dayanıb gözləyirdilər. Onların yanında dördüncü at da vardı, yəhərli, qayışı tüfəngli, amma yiyəsiz at. Bu at da öz yiyəsini gözləyirdi...

...Yapıncısı çiynində, papağını gözünün üstünə basmış, ağzını, burnunu şalla örtmüş bir atlı da Ərimgəldi tərəfdən Qala həbsxanasına çapırdı və bu atlının da yanınca beli yəhərli, qayışı tüfəngli boş bir at çapırdı...

...Şahnaz xanım Qala həbsxanasının darvazasına yaxınlaşıb qapının dəmir çəkicini döyəclədi.

Valeh darvazaya yaxınlaşıb:

– Kimdi? – soruşdu.

– Komissarın arvadıdı!

Valeh Şahnaz xanımın səsini tanıdı, darvazanın qapısını açdı.

Şahnaz xanım tələsik:

– Nicatdan izin almışam, Böyük bəylə görüşə gəlmişəm, – dedi.

Valeh tərəddüd etdi:

– Yoldaş komissar mənə bir söz deməyib...

– Mənə inanmırsınız?

– Inanıram, yoldaş komissar arvadı, amma...

– Tez edin, mən Böyük bəylə cəmi üç dəqiqə danışıb gedəcəyəm.

Valeh tərəddüd içində qalıb dayanmışdı.

– O mənim qardaşımdı axı, bilmirsiz?

– Bilirəm...

– Tez eləyin!

Valeh darvazanın qapısını içəridən bağlayıb:

– Dayanın burda, – dedi və həbsxananın pilləkəni ilə yuxarı qalxdı.

Bu üçmərtəbəli kiçik həbsxananın artırmaları həyətə baxırdı və bu kiçik həyət üç tərəfdən də hündür daş hasarla əhatəyə alınmışdı...

... Yapıncılı atlı Qala həbsxanasının hasarına çatıb dayandı. Yanındakı boş at da dayandı. Yapıncılı atlı atın belindən kəmənd götürüb hasarın başında çoxdan hədəf elədiyi sal daşa atdı. Kəməndin ucu hasarın başındakı daşı aldı və yapıncılı atlı:

– Ya Allah! – deyib atın belindən kəməndlə üzüyuxarı qalxmağa başladı...

... Valeh pilləkənləri aşağı düşüb:

– Yoldaş komissar arvadı, – dedi. – Böyük bəy gəlmədi. Deyir sizlə görüşmək istəmir.

Şahnaz xanım eyni soyuqqanlılıqla:

– Gedin deyin ki, mən ona çox mühüm bir xəbər verməliyəm.

Valeh yenə tərəddüd içində dayanıb qaldı. Hiss olunurdu ki, bütün bu əhvalat bu cavan oğlanın xoşuna gəlmir.

– Xahiş edirəm, Valeh.

Valeh ikinci dəfə yuxarı qalxdı...

...Yapıncılı adam hasarın üstünə dırmaşdı və oradan aşağı baxdı. Hasarın üstündən həbsxananın zəif işığı altında həyət ovuc içindəymiş kimi görünürdü...

...Böyük bəy əlləri arxasında, Valeh də əlində tüfəng onun ardınca pilləkənləri aşağı düşdülər.

Böyük bəyin ilk sözü bu oldu:

– Nəyə gəlmisən?

Şahnaz xanım qardaşına baxdı. Böyük bəy bu aylar ərzində on beş il qocalmışdı, saçı-saqqalı tamam ağarmışdı. Həmişə səliqə ilə geyinən bu kişinin üz-gözünü tük basmışdı, pal-paltarı çirkin-pasın içindəydi, amma, başını yenə dik tutmuşdu, addımları, hərəkətləri yenə də əvvəlki kimi sərrast, qəti və sanballı idi.

Şahnaz xanım bu dəfə Valehə baxdı və Valeh də bu baxışların mənasını başa düşüb, istər-istəməz, kənara çəkildi, amma əlindəki tüfəngi hazır tutmuşdu.

Şahnaz xanım dedi:

– Bu saat qala uçurumunun yanında yəhərli bir at səni gözləyir, qardaş. Qaç, özünü qurtar. Al bunu. – Şahnaz qoynundan tapança çıxarıb ehmalca Böyük bəyə tərəf tutdu ki, Valeh görməsin.

Böyük bəy tapançaya baxdı.

– Mənə acıyırsan, hə? – dedi, Böyük bəy. – Bilirsən ki, güllələyəcəklər məni, qurtarmaq istəyirsən, hə? Niyə qaçım, yenə də on nəfər bolşevik öldürüm, on beş nəfər də qurban verim? Sonrası nə olsun? Get! Görmək istəmirəm səni! Hərdən vaxt tapıb fikirləşirdim sənin haqqında, elə bilirdim ki, yenə də istəyirəm səni, amma indi görürəm ki, kəsib atmışam səni ürəyimdən! Baxa bilmirəm üzünə sənin! Qaçıb Arazı keçim, canımı qurtarım? Qaçardım, bolşeviklərlə bacarmaq mümkün deyil. Gedib o tayda bir gün ağlardım özümə. Fəxrəndə də xoşbəxt olardı... – Daha Böyük bəy özünü saxlaya bilməyib elə danışırdı, elə bil, dünyanın ən pis adamına, dünyanın ən namussuz, ən iyrənc məxluquna söyüş söyürdü. – Amma sənnən almaram o tapançanı. Belə binamusluq yaraşmaz mənə. Məni evimdən-eşiyimdən eləyib çöllərə salan bir adamı gecələr qucağına alan bacının əllərindən iyrənirəm mən!..

Şahnaz xanım dəhşət içində təkcə elə bunu pıçıldayırdı:

– Böyük!.. Böyük!.. Böyük!..

Böyük bəy Valehə üz tutub:

– Gedək, qarovulçu, gedək – dedi. – Dustağından muğayat ol!

Böyük bəy həbsxananın pilləkəninə tərəf addımladı.

Valeh bir dustağa, bir də komissar arvadına baxıb əvvəlcə darvazanın qapısını açdı və Şahnaz xanım da ayaqları ayaqlarına dolaşa-dolaşa həbsxananın həyətindən çıxdı.

...Fəxrəndə xanım onlara tərəf gələn Şahnaz xanımı görüb irəli çapdı:

– Nə oldu, qız? – soruşdu. – Hanı Böyük?

Şahnaz xanım, elə bil, heç nə eşitmədi, Fəxrəndə xanımın yanından ötüb uçuruma yaxınlaşdı və birdən-birə əlindəki tapançaya baxa-baxa lap astadan oxumağa başladı:

Aman ovçu, vurma məni,
Mən bu dağın maralıyam.
Yaralıyam, yaralıyam,
Mən bu dağın maralıyam...

Və elə bu zaman Şahnaz xanım ürəyinin başına sıxdığı tapançanın tətiyini çəkdi.

Güllə səsi həmin gecənin sakitliyini pozdu.

Fəxrəndə xanım özünü atdan atıb:

– Şahnaz! – qışqırdı.

Şahnaz xanım qaya parçasının üstündə sərilib qalmışdı və ay işığında qızın solğun üzü gülümsəyirdi, dodaqlarının qırağından isə qan süzülürdü...

...Pilləkənləri qalxan Böyük bəy güllə səsi eşidib ayaq saxladı. Valeh də geri çönüb güllə səsi gələn tərəfə baxdı.

Bu dəm hasarın üstündəki yapıncılı adam kəməndi atdı və kəməndin atılmasıyla da Valehin əlinin-qolunun bədəninə sarılıb pilləkənlərdən yerə aşması bir oldu.

Yapıncılı adam:

– Haydı, Böyük! – qışqırdı. – Darvazanın qabağında at gözləyir səni!

Böyük bəy hasarın üstünə baxdı. Yapıncılı adam daha yox olmuşdu. Böyük bəy bir ildırım sürətilə aşağı atılıb əli-qolu bağlı yerdə çapalayan Valehin cibindən açarı çıxardı, darvazaya atılıb qapını açdı və Böyük bəy eşiyə çıxanda artıq yapıncılı adam at belində darvaza önündə idi, yəhərli boş at da yanında.

Böyük bəy boş atın belinə sıçradı və hər iki atlı üzüaşağı çapıb ay işığında gümüş kimi ağara-ağara qıjıltıyla axan Daşaltı çayına tərəf getdi...

...Çay qırağında yüyənlər çəkildi, qızmış atlar şahə qalxdı və Böyük bəy nəfəsini dərib:

– Kimsən, igid? – qışqırdı. – Kimsənsə, bu gündən qardaşdan artıqsan mənə!

– Yox! – Bağırdı yapıncılı adam. – Qanlıyıq biz son nəfəsə qədər! Axır ki, təkbətəkik səninlə!

Yapıncılı adam əl atıb üzündəki dəsmalı açdı və Böyük bəy yalnız indi Solaxay Həsənalını tanıdı.

Solaxay Həsənalı qışqırdı:

– Qaldır tüfəngi! Ya sənə verən Allah, ya mənə!

Böyük bəy tüfəngi atın qayışından dartıb çıxardı.

Həmin gecə ay işığında gümüş kimi parıldaya-parıldaya qıjıltıyla axan Daşaltı çayının qırağındakı çınqıllıqda dalbadal iki güllə açıldı və bu güllələrin açılmasıyla da Solaxay Həsənalının atdan aşıb yerə sərilməyi bir oldu.

Böyük bəy yaxına çapdı.

Bu vaxt ovçu Həsənalı güclə dirsəklənib dizləri üstə qalxdı. Böyük bəyə ikinci dəfə atmağa imkan vermədi, sol əlindən buraxmadığı tüfəngi qaldırıb tətiyi çəkdi.

Həmin gecə dördüncü güllə belə atıldı və Böyük bəyin qolları yanına düşdü, bəy atın belindən sürüşüb üzüqoylu çınqıllığa sərildi.

Solaxay Həsənalı:

– Kəramətinə şükür, Ilahi! – dedi və üzüüstə Daşaltı çayına yıxıldı.

Atlar kişnədi və elə bil, bu kişnərti də Daşaltı çayının qıjıltısına qarışıb axdı.

Və boş atlar baş alıb çapdı, elə bil ki, sakitliyini güllə deşən bu gecədən qaçıb qurtarmaq istəyirdilər...

Sonra tamam sakitlik çökdü.

Sonra, elə bil ki, uzaqlardan bir əks-səda gəldi:

Aman ovçu, vurma məni,

Mən bu dağın maralıyam.
Yaralıyam, yaralıyam,
Mən bu dağın maralıyam...

*1978.*

# HÖKMDARIN TALEYI

*İlyas Əfəndiyevin «Hökmdar və qızı»*
*faciəsinin motivləri əsasında yazılmışdır.*



## PROLOQ

… Sonra ildırım çaxdı…

… Tufan qopmuşdu, şıdırğı bir yağış yağırdı…

… Və atlı o şıdırğı yağış altında sıldırım qayaların dibi ilə yarğan boyu boz ürgəni var gücü ilə çapırdı…

Su atlının sifətindən, üst-başından süzülüb axırdı, amma o bunun fərqində deyildi, gözlərini qıyıb qarşıya baxırdı, elə bil ki, baxışları ilə sıldırım qayaların dibindən cığır açırdı və elə bil, boz ürgə də o dəm belindəki adam gözləri ilə açdığı o cığırla çapırdı.

Qayaların təpəsindən baxanda, adama elə gəlirdi ki, at çapmırdı, atlı ilə bərabər, o boz ürgəni də tufan aparırdı…

Yarğanın dibi bitib burulanda atlı cilovu çəkdi, boz ürgə bu qəfil dartmadan şahə qalxdı, burun pərələri gözgörəti şişib böyüdü və atın kişnərtisi o çovğun hay-küyündən də güclü oldu, bütün yarğana yayıldı.

Və o kişnərtinin ardınca atlının bağırtısı eşidildi:

– Ruslar gəlir!..

Elə o andaca iri bir qayanın altında daldalanmış ikinci atlı bu xəbəri alıb yerindən götürüldü və bu dəfə də o tufanın içində ikinci atlı çapmağa başladı…

O sözlərin isə, yağış şırıltısının müşaiyəti ilə əks-sədası yarğan boyu hər tərəfə yayılırdı:

– Ruslar gəlir!..

– Ruslar gəlir!..

– Ruslar gəlir!..

## BİRİNCİ HİSSƏ

### 1.

### 6 sentyabr 1802–ci il. Sankt-Peterburq. Qış Sarayı.

Imperator I Aleksandr öz iş otağında general və əyanların arasında var-gəl edirdi və imperator bu dəm, elə bil, əsabələri ilə yox, öz-özü ilə danışırdı:

– Xəzər Rusiyanın daxili dənizinə çevrilməlidir. Isti dənizlərə bizim yolumuz Cənubi Qafqazdan keçir… Nə qədər ki, Avropanın başı Bonaparta qatışıb, biz bundan istifadə etməliyik… Cənubi Qafqaz imperiyanın tam rahatldıqla söykənə biləcəyi bir Cənub sütunu olmalıdır… – Ani sükutdan sonra imperator sonuncu sözü, elə bil ki, bir az rişxəndlə təkrar etdi:– Olmalıdır… ancaq… General Knorrinq!

General Knorrinq baş əydi:

– Əlahəzrət…

1 Aleksandr yenə ani bir sükutdan sonra:

– Mən hələ keçən il sizə yazmışdım ki, Fətəli şahın… – dedi və nəyi isə yadına salmaq istədi.– Onu oralarda necə çağırırdılar?

General Knorrinq:

– Baba xan, əlahəzrət…– dedi.– Fətəli şah taxta çıxmazdan əvvəl…

Imperator generalın sözünü yarımçıq kəsdi:

– Bilirəm, bilirəm… Baba xan… Mən sizə, general, hələ keçən il yazmışdım, nə qədər ki, Iranın Cənubi Qafqazla bağlı iddiaları gerçəkləşməyib, yerli hakimləri, xüsusən, Qarabağ, Gəncə, Irəvan, Bakı, Şirvan… Biri də var idi… Hə, Şəki xanlıqlarını öz tərəfimizə çəkməliyik... Bu isə o demək idi ki, ən yaxın zamanlarda – vaxt artıq çoxdan yetişib! – o xanlıqları Rusiyanın tərkibinə qatmaq üçün hazırlıq işləri getməli idi… Artıq Ingiltərə Fətəli şahla müqavilə bağlayıb! Bəs siz nə etmisiz, general?

General Knorriq nəsə demək istədi.

Imperator əlinin işarəsi ilə onu saxladı:

– Bilirəm… Georgiyevskdə danışıqlar aparmısınız. Ancaq… – Imperator gülümsədi.– Orada kimlər iştirak edib?

Həyəcanını boğmağa çalışan general Knorrinq dedi:

– Tərki şamxalı, Qara Qaytaq usmisi, Tabasaran hakimi…

Imperator yenə onun sözünü kəsdi:

– Bunları bilirəm… Bəs, Azərbaycandan? Azərbaycandan kimlər?

– Quba və Talış xanlarının nümayəndələri…

– Bəli, cəmi iki xanlığın… Özü də xanla yox, onların nümayəndələri…

General Knorrinq:

– Üzr istəyirəm, əlahəzrət…– dedi.– Onları yanlız danışıqlarla ram etmək olmayacaq…

I Aleksandrın sifətindəki təbəssüm çəkildi və o sərt bir ifadə ilə:

– Kim deyir ki, biz onları yalnız danışıqlarla ram edəcəyik?..
– soruşdu.– Mən sizə belə bir söz demişəm, general?

General Knorrinq yenə nə isə demək istədi, amma imperator bu dəfə də əlinin işarəsi ilə onu saxladı:

– Lazım deyil, general… Artıq bunun əhəmiyyəti yoxdur… Bu danışıqlar, verilən vədlər müvəqqəti diplomatik gedişdən başqa bir şey deyil! Bu ki, aydın məsələdi!.. Rusiya bu danışıqları məgər ciddi qəbul edə bilər?.. Yox! Qəbul edə bilməz! Və etməyəcək! Əlbəttə, zor işlədiləcək! Şərq hakimləri o qədər də axmaq deyillər ki, güc görməyəndə bizim verdiyimiz vədlərə inansınlar! Vəd o zaman şirnikdirici olur ki, arxasında güc dayanır! Güc görməyən hansı axmaq ultimatum qəbul edər?! Biz zor işlətməliyik və işlədəcəyik! Özü də elə zor ki, ətrafdakılara da dərs olsun! Qafqaz Şərqdir! Vəhşi qafqazlılarla Şərq dilində də danışmağı bacarmaq lazımdır! Knyaz Sisianov!

Knyaz Sisianov bir addım irəli atıb baş əydi:

– Əlahəzrət…

– Mən sizi Qafqazın Baş komandanı təyin edirəm! Cənubi Qafqazdakı bütün mülkü-hərbi hakimiyyəti mən sizə həvalə edirəm, general!

Knyaz Sisianov şümal bədənini tarım çəkib:

– Təşəkkür edirəm, əlahəzrət!– dedi.– Əmin ola bilərsiniz ki, mən sizin etimadınızı doğruldacağam!

Imperator yenə gülümsədi:

– Bunu zaman göstərəcək, Pavel Dmitriyeviç!.. Əsas odur ki, Qafqazda başınızı qoruyun!..

– Imperiyanın yolunda mən başımdan keçməyə hazıram, əlahəzrət!..

– Mənim buna şübhəm yoxdur, knyaz… Ancaq, hər-halda, başınızı qoruyun! O sizə də, bizə də lazımdı!

## 2.

## 6 sentyabr 1802-ci il. Sankt-Peterburq. Qış sarayı. Bal zalı.

Gözəl bir gecə, gözəl bir bal idi…

Orkestr özü də öz ifasından ləzət ala-ala çalırdı və saraya dəvət olunmuş Sankt-Peterburq zadəganları rəqs edirdi.

… Knyaz Pavel Dmitriyeviç Sisianov I Aleksandra baş əyərək imperatriçə Yelizavettanı rəqsə dəvət etdi:

– Xahiş edirəm, mənə şərəf verəsiniz, əlahəzrət…

Imperatriçə imperatora baxdı və I Aleksandr yüngülcə başını tərpətdi.

Imperatriçə Yelizavetta gözəl bir təbəssümlə gülümsəyərək knyazın dəvətini qəbul etdi.

… Knyaz Sisianov ilə imperatriçə bütün zalın ehtiram və səcdə dolu diqqəti altında rəqs edirdilər.

… Imperatriça:

– Sizi təbrik edirəm, knyaz…– dedi. – Imperator sizə böyük ümidlər bəsləyir…

Knyaz:

– Təşəkkür edirəm, əlahəzrət…– dedi.– Mən o ümidləri doğrultmağa çalışacağam.

– Həqiqətən, qəribə taleyiniz var, knyaz!.. Böyük bir imperiyanın ən səlahiyyətli nümayəndəsi kimi ata-baba yurdunuza gedirsiniz… Yəqin qan da çəkir…

– Qan barədə bir söz deyə bilmərəm, əlahəzrət, ancaq əlahəzrət imperatorun və imperiyanın qarşısındakı borcun məsuliyyətini hiss edirəm.
– Tale nədir? Tale hər bir insanın bu dünyadakı missiyasıdır. Sizin də missiyanız beləymiş, knyaz… Mən də sizə inanıram və siz mənim üçün də… – Imperatriçə sözünü davam etməyə, elə bil, bir az çətinlik çəkdi.– Mənim üçün də… əziz bir adamsız… Deyirlər, Qafqazda sıldırım dağlar çoxdur. Mən istəyirəm ki, siz o dağların arasında, o vəhşi diyarlarda… – Imperatriçə özü öz sözünü yarımçıq kəsdi.– Belə deməklə sizin qəlbinizə toxunmadım?
Knyaz güldü:
– Yox… Siz olan şeyi deyirsiz…
Imperatriçə davam etdi:
– Mən istəyirəm ki, siz o diyarlarda xatırlayasınız ki, uzaq Sankt-Peterburqda mənim simamda bir dostunuz var! Mən bilirəm ki, siz dediyiniz o borcu müqəddəs sayan bir insansız və inanıram ki, həmin borcu layiqincə yerinə yetirəcəksiniz! Məndən bir xahişiniz varmı, knyaz?
– Var.
Imperatriçə maraqla knyaz Pavel Sisianova baxdı:
– Eşidirəm…
– Deyirlər, Gəncə Qafqazın ən gözəl şəhəridir…
Imperatriçə eyni maraqla:
– Ola bilər…– dedi.
– Icazə verin Gəncəni sizin şərəfinizə Yelizavettapol adlandıraq.
Imperatriçə ani bir şaşqınlıqdan sonra gülümsədi:
– Bunun üçün Gəncə imperiyanın bir parçası olmalıdır, knyaz…
– Buna şübhəniz olmasın, əlahəzrət!
– O zaman, elə bilin ki, icazəni aldınız…

**3.**

Şuşa dağlarını duman bürümüşdü…
Və o duman içindəki yaşıl yamacda iki atlı gedirdi…
Ağabəyim Ağa qumral kəhərin belində yanpörtü oturmuşdu, bir az arxada isə ağ atın belində Saday bəy gəlirdi.
Ağabəyim Ağa başını arxaya çevirib:
– Nədi? – soruşdu. – Yenə ağzına su alıbsan?
Saday bəy duman içində boz-yaşıl kölgə kimi güclə sezilən dağlara baxdı, ayaqlarını üzəngiyə basıb, elə bil, başqa nələr də görəcəkmiş kimi, atın belində dikələrək ətrafa boylandı və:
– Vallah, – dedi, – belə vaxtlarda sənnən danışmağa qıymıram… Istəyirəm ki, elə eyzən o dağlara baxasan…
Bu sözlər açıq-aşkar Ağabəyim Ağanın ürəyinə yayıldı və qız:
– Bəsdi, sən Allah…– dedi. – Amma o gözəl sözlərin sevdasını heç cürə gizlədə bilmədi.
Qumral kəhərlə ağ at duman içindəki o yaşıl yamacda bir müddət də eləcə addımladı.

Ağabəyim Ağa bu dəfə başını arxaya çevirmədən – elə bil, sözlərini qarşıdakı dumanlı dağlara deyirdi – bir az da şıltaqlıqla:

– Həmişə deyirsən ki, məni çox istəyirsən… – dedi.– Bəs mənnən çox istədiyin bir şey yoxdu?

Saday bəy cavab vermədi.

Ağabəyim Ağa:

– Nə oldu, qoşunbaşı?– soruşdu.– Düzünü deməkdən qorxursan?

– Mən heç nədən qorxmuram!

– Onda de! Var, ya yox?

Saday bəy:

– Var…– dedi.

Bu dəfə ikisi də susdu.

Bəlkə bu söz, Saday bəyin bu təsdiqi Ağabəyim Ağa üçün gözlənilməz oldu?

Və o sükutu Saday bəy pozdu:

– Qarabağ!– dedi.

Ağabəyim Ağa aşkar bir qısqanclıqla:

– Pah!..– dedi.– Yaman özündən razısan!

– Sən soruşdun, mən də dedim!

– Onda çap, Cıdır düzünə! Görək sənin ağ atın nə deyir, mənim kəhərim nə deyir!?

– Belə dumanda Cıdır düzündə cıdıra çıxmazlar, a xan qızı! Bir də görərsən ki, sıldırımdan qopub Daşaltının dibinə düşübsən!

Ağabəyim Ağa bərkdən gülüb:

– Ay ağ at!..– dedi.– Gör, sənin belindəki bu qoçaq sənin barəndə nə fikirdədi ey!..

Saday bəy:

– Indi ki, belə oldu, onda gəl, görüm, xan qızı!– dedi və irəli çapdı.

Ağabəyim Ağa:

– Baxaq, qoşunbaşı!– dedi və o atlıların ikisi də çapıb Şuşa dağlarının dumanı içində görünməz oldu.

## 4.

Şuşanın Bazar başı şəhərin sakinləri ilə dolu idi…

… Xan carçısı misgər dükanının qənşərində yoğun bir kötüyün üstünə qalxıb gur səslə car çəkirdi:

– Camaat!.. Əlahəzrət hökmdarımız Ibrahimxəlil xan taxt səltənətin ildönümü münasibətilə xalqa əfvi–ümumi əta eləyib! Zindandakı məhbusların azadlığı barədə sərəncam verib! Camaat!..

… Bu xəbər Bazar başında alış-verişlə məşqul olan adamların arasına bir çaxnaşma saldı…

… Xəbəri evə tez çatdırmaq üçün biri dükanı bağladı…

… O biri aldığı arşın malı yarımçıq piştaxtanın üstünə atıb qaçdı…

… Bir başqası atın belinə sıçradı…

… O biri eşşəyi dartdı...

… Və bazar əhli xana dua edirdi:

– Allah xanın ömrünü uzun eləsin!..
– Allah xanı həmişə öz taxt-səltənətində bərqərar eləsin!
– Allah Pənah xana rəhmət eləsin!..

## 5.

Dağlar arası əyri-üyrü uzanıb gedən dolanbac Molla Nəsrəddin yolu ilə üzüyuxarı – Şuşa qalasına doğru karvan qalxırdı və o karvan dəvələrinin aram-aram atdıqları addımlar, elə bil, o Şuşa dağlarının təmkininin davamı idi…

Qala divarının qarşısında oynaşan bir dəstə uşaq aşağıdan qalxan o karvanı görüb çığır-bağır saldı:

– Karvan gəlir!..
– Karvana bax!..
– Bizimkilər deyil!..
– Tehran karvanıdı!..
– Irandan gəlir!..

## 6.

Ibrahim xan Şuşa iqamətgahında Axund Mirmöhsün ağa ilə bərabər nargilə çəkirdi və hiss olunurdu ki, xan fikirli, qayğılıdır.

Xan nargilədən dərin bir qüllab vurub:

– Bir qara qəpiklik zəmanə deyil, Mirmöhsün ağa…– dedi.

Axund Mirmöhsün ağa gülümsədi:

– Zəmanə nə vaxt yaxşı olub ki?..

Bu vaxt qapıçı içəri girdi.

Xan açıq-aşkar bir nigarançılıqla:

– Nə xəbərlə gəlmisən?– soruşdu.

Qapıçı:

– Karvan yerbəyer olundu. Dəvələr…

Xan onun sözünü kəsdi:

– Bunları bildik, sonra?

Qapıçı əlindəki iki bürmə kağızın ikisini də irəli uzatdı:

– Biri hədiyyələrin siyahısıdı...

Xan təəccüblə:

– Nə hədiyyələr? – soruşdu.– Fətəli şah mənə hədiyyə göndərib?

Qapıçı:

– Bəli.– dedi.– Bu da Fətəli şahdan sizə namədir...

Xan maraqla qapıçının əlindəki kağıza baxdı.

– Ver ağaya.

Qapıçı hər iki kağızı Axund Mirmöhsün ağaya verdi.

Xan:

– Karvanla gələnlərə yaxşı qulluq edin,– dedi.– Gedə bilərsən.– Və qapıçı eşiyə çıxan kimi, üzünü Axunda tutdu:– Naməni oxu, Mirmöhsün ağa, görək, nə məsələdi?

Mirmöhsün ağa namə bükməsini aça-aça:

– Allah qoysa, xeyir olar…– dedi.
Ibrahim xan, elə bil, Axund Mirmöhsün ağaya yox, zəmanəyə çımxırdı:
– Mən bu zəmanədən heç bir xeyir xəbər gözləmirəm!– dedi.
Mirmöhsün ağa naməni oxumağa başladı:
– «Şöhrətli Qarabağ hakimi Ibrahim xana Şahənşahi–Iran, əzəmətli Fətəli şahdan salam. Ibrahim xan, hökmdarımız Ağa Məhəmməd şahın Şuşa şəhərində xaincəsinə qətlə yetirilməsindən sonra, onun cənazəsini hörmətlə Tehrana göndərməyindən xeyli məmnunam. Şöhrətli Qarabağ xanlığı ilə dostluğa söykənən himayədarlıq münasibətini daha da möhkəmləndirmək üçün, sənin – şərəfli Ibrahim xanın kamallı qızı Ağabəyim Ağa ilə izdivac arzusunda olduğumu bildirirəm. Ağabəyim Ağanın əqli, fərasəti mənə məlum olduğundan və o məhz sən Ibrahim xanın qızı olduğundan, onu özümə Baş hərəm etmək fikrindəyəm. Oğlun Əbülfət ağanı da öz sarayıma dəvət edirəm.
Salam-dua ilə Fətəli şah, Şahənşahi–Iran.»
Araya sükut çökdü.
Ibrahim xan nargiləni bir tərəfə itələyib taxtın üstündə dikəldi, bayaqdan bəri qoltuğunu söykədiyi mitəkkələri də kənara çəkdi və Fətəli şahın naməsindəki sonuncu cümləni təkrar etdi:
– «Əbülfət ağanı da öz sarayıma dəvət edirəm…» Ağabəyim Ağa ona bəs eləmir… Əbülfəti də girov istəyir… Mənimlə qohum olur, amma qanımı sormağa hazırdır…
Araya yenə sükut çökdü. Axund Mirmöhsün ağa indicə oxuduğu naməni yavaş–yavaş bürmələdi.
– Nə fikirdəsən?– Bunu Ibrahim xan soruşdu.
Axund:
– Iki nəhəng əjdaha burun-buruna durub, bir-birini divara qısnayıb,– dedi.– Qarabağ Iran üçün də, Rusiya üçün də bir udumluq tikədi…
– Elə də müdrik bir fikir söyləmədin, ağa…– Ibrahim xan əsəblərini cilovlaya bilmədi, döşəkcənin üstündəki iri kəhraba təsbehi götürüb ayağa qaldı və Axund Mirmöhsün ağa da qalxıb yüngülcə baş əydi.
– Mən olanını təkrar etdim, xan sağ olsun… Sizin həmişəki sözlərinizdi ki, ehtiyatlı olmaq lazımdı…– Bu sözləri də Mirmöhsün ağa dedi.
– Bəli, ehtiyatlı olmaq lazımdı, amma bu ehtiyat bizi hara aparıb çıxaracaq?.. Əlbəttə, Rusiya kimi bir məmləkət üçün, Iran kimi bir səltənət üçün balaca Qarabağ bir udumluq tikədi… Amma bəzən tikə, əjdahanın da boğazında qalır… Hə?
– Nə deyim, xan sağ olsun?.. – Axund çiyinlərini çəkdi.
Ibrahim xan pəncərənin qabağına keçdi, əllərini arxasında çarpazlayıb təsbehin iri daşlarını oynada-oynada uzaqdan aydın görünən Topxana meşəsinə baxdı:
– Nə qədər çalışdım mən? – dedi.– Nə qədər dil tökdüm ki, gəlin birləşək, yumruq kimi bir olaq, vahid bir Azərbaycan dövləti yaradaq, yoxsa bizi bir-bir udacaqlar?! Sən ki, bunun şahidisən, Mirmöhsün ağa!.. «Düzdü» – dedilər, amma nə oldu? Cavad xan bir tərəfə çəkdi, Kəlbəli xan bir tərəfə çəkdi, Hüseynqulu xan bir tərəfə, Məhəmməd xan bir tərəfə, mənim kürəkənim Səlim xan da bir tərəfə… Mən heç özümü də təmizə çıxarıb onlardan ayırmıram… Bir-birimizlə çəkişmək, bir-birimizə badalaq gəlmək, hakimiyyət uğrunda bir-birimizə zülm etmək, bax, ağa, budu sən deyən o tikəni rahat-hülqum edən! – Ibrahim xan gözlərini pəncərədən

çəkib vəzirə baxdı.– Mən də təzə bir söz demirəm, deyinirəm… Naməyə nə cavab verək?

– Biz Iranla açıq düşmənçilik edə bilmərik…

– Mən Ağabəyim Ağanı qurban verməliyəm?!– Ibrahim xanın gözlərində bir qəzəb qığılcımı çaxdı, amma Axund Mirmöhsün ağa təmkinini pozmadı.

– Dünyadı, xan sağ olsun… Hərənin bir taleyi var… Qurani–şərif də izdivacı vacib sayıb…

– Ay ağa, sənin cəddinə qurban olum, bəsdi, qurtar mənə məktəb dərsi keçməyi… – deyə Ibrahim xan hirsləndi.– Izdivac vacibdi deyə, mən, gözümün işığını, Ağabəyim Ağanı həmişəlik yad bir məmləkətə göndərməliyəm? Allahın hər verən günü şah sarayında təkliyini, gücsüzlüyünü, acizliyini hiss edəcək!.. Mən qızı belə bir qəribçiliyə məhkum etməliyəm?! Əbülfət kimi bir cavanı Tehrana girov göndərməliyəm?!

– Əbülfət ağa, onsuz da, Iran təmayüllüdü…

– Nə olsun? Cavandı, çox şeyi başa düşmür… Bu, onun lələsi Molla Cəfərqulunun tərbiyyəsinin nəticəsidi ki, təqsiri də mənim özümdədi, nəzarətdə saxlamamışam. Indi nə olsun? Hə? Əbülfəti girov göndərim Tehrana ki, Fətəli şah kefi istəyəndə onun başını bədənindən üzsün?!

Axund Mirmöhsün ağa cavab vermədi.

Ibrahim xan yenə gözlərini pəncərədən Topxana meşəsinə zillədi.

– Susursan, Mirmöhsün ağa, çünki yaxşı bilirsən ki, mənim başqa çarəm yoxdu…

Mimrmöhsün ağa:

– Hökmdarlıq ancaq kənardan baxan üçün şirin şeydi…– dedi.

Ibrahim xan eləcə pəncərədən baxa-baxa:

– Bəs, Rusiya bu izdivaca nə deyəcək? Boğazımızdan yapışmayacaq ki, bir tərəfdən deyirsən, bizimlə danışıqlara meyillisən, amma o tərəfdən də Iranla qohum olursan?

– Deyəcək, əlbəttə… Amma mən başqa bir çarə görmürəm… Bir də ki, Fətəli şah özü də türkdü. Biz bu izdivacdan, bu qohumluqdan istifadə edib, Qarabağın toxunmazlığını təmin edə bilərik, Azərbaycanı vahid bir dövlətə çevirməkdə Fətəli şahın əzəmətinə, Iranın qüdrətinə söykənə bilərik. Nə üçün Fətəli şah istəməsin ki, Iranla Rusiya arasında bir müsəlman dövləti olsun? Və lazım olduqda Rusiyanın həmlələrinə Iran özü yox, məhz bu dövlət cavab vermək məcburiyyətində qalsın? Xüsusən də ki, bu dövlət də Fətəlinin öz dədə-baba kökündən olacaq…

– Axund, bəyəm Ağa Məhəmməd şah öz türkümüz deyildi? Bəyəm Nadir türk deyildi? Şah Abbas türk deyildi? O biriləri türk deyildi? Nə oldu? Bəyəm o boyda Osmanlı türk deyildi, səfəvilər də türk deyildi ki, bir-birini qırdılar? Bəs o qırğından kim qazandı? Mirmöhsun ağa, Iranın başında kim olursa-olsun, bu məmləkətin bir dövlət kimi qədim tarixi var, böyük dövlət ənənələri var və Azərbaycanın müstəqilliyi onların dövlətçiliyi üçün bir təhlükədir.

– Ağabəyim Ağanın zəkasına hamı bələddi, xan sağ olsun. Onun Fətəli şaha təsiri ola bilər…

Ibrahim xan dərindən köks ötürdü:

– Eh!.. Ağabəyim Ağa o boyda səltənətin maraqlarına üstün gələcək?..– Sonra eləcə pəncərədən baxa-baxa dedi.– Bilirsən ürəyimdən nə keçir, Mirmöhsün ağa? Allah-tala bir gün, bircə gün məni bütün qayğılardan azad edəydi və mən, bax, o

Topxana meşəsində həmin günü təkcə, Mirmöhsün ağa, eşidirsən, təkcə və tamam qayğısız gəzib-dolaşaydım…

**7.**

O gözəl tirmənin naxışları, elə bil, Qarabağ dağlarının rəngindən, ətrindən xəbər verirdi...

… Tuba xanım bir-iki qaravaşı ilə döşəkçənin üstündə oturub o tirmənin naxışlarını toxuyurdu…

… Ibrahim xan iti addımlarla iqamətgahın üst qatına qalxdı və qapını açıb Tuba xanımın otağına girdi.

Qaravaşlar dərhal ayağa qalxıb təzim etdilər və otaqdan çıxdılar.

Ibrahim xan səbrini tamam itirmişdi:

– Sən də vaxt tapmısan tirmə toxumağa? Nə oldu?

Tuba xanım tirməni kənara qoyub:

– Bu izdivac çətin olacaq, Ibrahim…– dedi.

– Mənim baxtıma asan şey yazılmayıb! Nə deyir?

– Nə deyəcək? Bəyəm, sən bilmirsən?

– Hədiyyələrə nə dedi?

– Heç gözünün ucuyla da baxmadı. Ibrahim, bu qız başqalarına bənzəmir… Onun ürəyi sınsa, ömrü boyu düzəlməyəcək…

Ibrahim xan özündən çıxdı:

– Sənin ürəyin yoxdu? Mənim ürəyim yoxdu? Kimdi indi ürəyi sayan? Kimdi ürəyi hesaba alan?

– Mən sənə demişəm də, onun meyli Saday bəyədi…

Ibrahim xan daha da hirsləndi:

– Qoşunbaşı Saday bəy bir əlindəki qılıncla Iranın başını kəsəcək, o biri əlindəki qılıncla da Rusiyanın başını üzəcək!? Hə?! Tərəkəməoğlu Saday bəy lap Teymurləng olsun, üç min qoşun ilə Qarabağı rusdan necə qorusun?! Fətəli şahdan necə qorusun?!

Tuba xanım:

– Deməli, Ağabəyim Ağanı zorla Tehrana göndərəcəksən?

Araya sükut çökdü.

Və o sükutdan sonra Ibrahim xanın cavabı belə oldu:

– Sən elə bilirsən mənim ürəyim daşdandı?

Tuba xanım:

– Yox, mən elə bilmirəm…– dedi.

Ibrahim xan:

– Ağabəyimlə özüm danışacağam,– deyib otaqdan çıxdı.

**8.**

Bir nəfər Şuşanın sal daşdan salınmış və gecənin qaranlığında tamam kimsəsizləmiş küçəsi ilə tələsik addımlarla addımlayırdı.

O, küçəni burulub xəfif ay işığında qaraltısı aydın seçilən köhnə Alban kilsəsinin xarabalığına tərəf getdi və kilsənin girəcəyində qəfildən qaranlıqdan çıxan bir adam onun qarşısını kəsdi:

– Kimsən?
– Dənizdən dənizə gedirəm.
– Keç.
Və o bir nəfər kilsənin qapısından içəri girmək istəyəndə, qarşısını kəsən adam onu tanıdı:
– Vanya yüzbaşı, sənsən?
Vanya yüzbaşı:
– Ara, mən bəxti qaradan başqa hansı səfeh olacaq, gecənin yarısı isti yorğan-döşəyə girmək əvəzinə, düşsün Şuşanın bu buz kimi soyuq daş küçələrinə? Hə, matağını?– deyə şikayət etdi və içəri girə-girə:– Bu zülmətdə yıxılıb qabırğamı sındırmasam yaxşıdı…– dedi. – Qaranlıqda ehtiyatla irəliləyərək üç-dörd daş pilləkən aşağı düşdü və köhnə taxtalarının arasından adda-budda işıq süzülən qapını itələdi.
Qapı cırıltıyla açıldı.
Hər tərəfi daş mağaraya bənzəyən bu zirzəmidə zəif şam işığında altı-yeddi nəfər daş üstündə dövrələmə oturub, gicgahından tutmuş ta çənəsinəcən uzanan çapıq yeri o zəif şam işığında da aydın görünən bir nəfərə diqqətlə qulaq asırdılar və görünür, elə söhbət də ciddi olduğu üçün Vanya yüzbaşı içəri girəndə, içəridəkilərin bəzisi onu təkcə başlarının işarəsi ilə salamladı, bəziləri də hörmət əlaməti olaraq ayağa qalxmaq istədi, amma Vanya yüzbaşı əlinin işarəsi ilə onları yerindən qalxmağa qoymadı.
Üzü çapıq adam deyirdi:
– Bu gün Allahın yüz illərdən sonra bizə həqiqətən yazığı gəlib, millətimiz üçün ən əlverişli şərait yaradıb. Biz bu şəraitdən istifadə etməyi bacarmalıyıq. Əgər biz bu şəraitdən də istifadə edə bilməsək, o zaman bizdən sonrakı nəsillər də heç vaxt Ermənistan dövlətini yarada bilməyəcəklər.
Vanya yüzbaşı pıçıltıyla yanındakından soruşdu:
– Artyun paşanın Istanbuldan göndərdiyi nümayəndə budu?
– Hə, Vanya dayı…
– Mesrop Hamparsumyan?
– Bəli...
Mesrop Hamparsumyan çıxışına davam edirdi:
– Rus ayısı Şimaldan gəlir, özü də bu dəfə, Yekatrinanın vaxtında olduğu kimi, onun geri çəkilmək fikri yoxdu. Gördünüz, Kartli–Kaxetiya çarlığı necə məcbur oldu ki, Rusiya ilə birləşməsi barədə manifest elan etsin? Tiflis indi Rusiyanın bir quberniyasıdır, knyaz Sisianov da oturub orada və hakimi-mütləq kimi quberniyanı idarə edir. Ovanes Melik-Paşayev Sankt-Peterburqdan xəbər göndərib ki, imperator I Aleksandr fikrində qətidir: Rusiya Cənubi Qafqazı nəyin bahasına olursa-olsun, ram etməlidir. Iran ayağa qalxıb, Rusiyanı Cənubi Qafqaza buraxmaq istəmir, Azərbaycan xanlıqlarında da, Kartli-Kaxetiya çarlığında da öz hakimiyyətini bərpa etmək istəyir. Fətəli şah fanatik paniranistdir. Onda belə bir maniya var ki, Iranı yenidən nəhəng və qüdrətli dövlətə çevirəcək. Yəqin ki, cənab Aşot Karapetyan mənim sözlərimi təsdiq edər, çünki cənab Karapetyanın da, Tehran sarayına yaxın olan başqa erməni qardaşlarımızın da, bu, manikal ideyaları Fətəli şahın başına yeritməkdə böyük xidmətləri var. Belədir, ya yox, cənab Karapetyan?
Aşot Karapetyan təmkinlə başını tərpədərək:

– Fətəli şah nəyin bahasına olursa-olsun, rusları bu yerlərə buraxmaq istəmir,– dedi.– Buna heç kimin şübhəsi olmasın!

Mesrop Hamparsumyan:

– Təşəkkür edirəm, cənab Karapetyan,– dedi.– Azərbaycan xanlıqları bir-biri ilə çəkişir, bir-biri ilə yola getmirlər. Gürcüstan şahzadəsi Aleksandr Tehranda müsəlmanlığı qəbul edib, qoşun toplayıb Tiflisdə general Sisianovun üstünə getmək istəyir. Osmanlı imperiyası diqqətlə bu hadisələri izləyir. Napoleon Avropada Rusiya ilə müttəfiq olmaq istəyir, ancaq əl altından Iranı Cənubi Qafqaz uğrunda Rusiya ilə müharibəyə şirnikləndirir. Bizim üçün bundan əlverişli vəziyyət bir də nə zaman olacaq, cənablar? Cənubi Qafqazın münbit torpaqlarından gözəl bir yeri biz harada və nə zaman tapacağıq?

Bir müddət heç kim dinmədi.

– Mən sizinlə tamamilə razıyam, cənab Hamparsumyan!– deyə Aşot Karapetyan sükutu pozdu.– Biz sürətlə Cənubi Qafqazda, xüsusən Irəvan, Qarabağ, Naxçıvan və Gəncə xanlıqlarında məskunlaşmalıyıq. Baxın, Iranda biz nə vəziyyətdəyik? Tarix bizi nə kökə salıb? Marağadan tutmuş, Mazandarana, Həmədanadək hərə bir tərəfə səpələnib. Bir az orda, bir az burda, bir az da o tərəfdə… Bunun axırı nə olacaq? Belə davam etsə, pərən-pərən düşmüş bir millət nə edə bilər? Əriyib gedəcək… Millətimiz, tariximiz məhv olacaq… Gələcəkdə kimsə, hardasa oxuyacaq ki, hə, haçansa belə bir millət var imiş… Cənablar, biz mütləq müəyyən ərazilərdə toplum halında olmalıyıq.

Mesrop Hamparsumyan:

– Bu çox ciddi məsələdir, cənablar!– dedi.– Üzr istəyirəm müdaxilə etdiyim üçün, cənab Karapetyan. Bizim millətin Cənubi Qafqazda məskunlaşması həm Iranın xeyrinədir, həm də, cənablar, Rusiya bunu istəyir. Iki düşmən bir məsələdə – bizimçün tarixi əhəmiyyəti olan bir məsələdə eyni mövqedədir. Biz, Allahın bizə bəxş elədiyi bu şəraitdən maksimum istifadə etməliyik! Bağışlayın, cənab Karapetyan, buyurun.

Aşot Karapetyan sözünə davam etdi:

– Fətəli şah bizim həmvətənlərimizi Qarabağda və Irəvan xanlığında məskunlaşdırmağa söz verib. Biz müsəlmanların arasındakı qarışıqlıqdan, rus ayısının isti sular həsrətindən istifadə etməliyik. Biz bu torpaqlarda məskunlaşıb öz dövlətçiliyimizi bərpa etməliyik. Xəzərdən Qara dənizəcən Böyük Ermənistanın bünövrəsi burada qoyulmalıdır.

Mesrop Hamparsumyan bir qürur hissi ilə:

– Cənab Karapetyan!– dedi.– Sizin bu sözləriniz bu gün kiməsə xam xəyal kimi görünə bilər. Ancaq bu sözlər gələcək həqiqətin ifadəsidir! Çünki hər şey bizim özümüzdən, bizim bacarığımızdan, bizim xalqımıza sevgimizdən, tariximizə məhəbbətimizdən və ehtiramımızdan asılıdır. Hərgah bu sevgi, bu məhəbbət, bu ehtiram həmişə bizimlə olacaqsa, o zaman erməni xalqının taleyi bu qədər acı olmayacaq. Baxın, bu gün Osmanlı ordusunda on bir erməni paşa var! On bir paşa! Bilirsiz, bu nə deməkdir? Bir-iki nəsil sonra bu rəqəm ikiqat artacaq! Osmanlı padşahlığı get-gedə zəifləyir… Druzlar Suriyaya da, Fələstinə də vəlvələ salıb… Ərəblər Ərəbistan səhralarının indi tam ağasıdır… Məmlük bəyləri Misirdə fironluq edir… Epirdə, Yunanıstanın şimalında bizim suilot qardaşlarımız üsyan qaldırır… Osmanlı daha buna dözmək halında deyil, cənablar, Osmanlı davam gətirə

bilməyəcək, Sultan Səlimin «Nizami-cədid"i də onların dadına yetməyəcək. Artyun paşa bu fikirdədir ki, biz hələ üzə çıxmamalıyıq, həmişəki kimi öz işimizi görməliyik. Qoy Osmanlı zəifləsin, qoy müsəlmanlar bir-birini qırsın, qoy türklər özləri özlərinə qənim kəsilsin!.. Qoy, Rusiya öz ordusuyla öz sözünü desin!.. Qoy, Avropa hörümçək kimi, öz intriqalarını hörsün!.. Bütün bu hadisələrdə Allah bizimlədir! Cənablar, uzağı əlli-altmış ildən sonra biz öz sözümüzü deyəcəyik. Artyun paşa inanır ki, Böyük Ermənistanın yaranması prosesi elə bu əsrdə – X1X yüzildə başlayacaq! Sadəcə olaraq, biz situasiyanı nəzarətə götürməyi və bundan effektli istifadə etməyi bacarmalıyıq. O zaman tarix sübut edəcək ki, sərhədləri dənizdən dənizə qədər uzanacaq Ermənistan dövləti bizim xam xəyallarımızın bəhrəsi deyil!

– Cənablar! Cənablar! Bir az realist olun! Siz düz yolda deyilsiniz! Bu yolun sonunda millətimizi bədbəxtçiliyə apara bilərsiniz! Bu yol qan gölməçələrindən keçir, cənablar! Doğrudanmı siz bunu görmürsünüz? Biz başqalarına xəyanətlə öz millətimizi xoşbəxtliyə apara bilmərik, cənablar! – Bu sözlər köhnə kilsədəki o gecə yığıncağında çox qəfil və çox da yad səsləndi və bu sözləri deyən adam həyəcanını gizlədə bilməyib ayağa qalxdı. – Ayılın, cənablar, ayılın!

Aşot Karapetyan:

– Siz kimin qanının təəsübünü çəkirsiniz, cənab Petros Dəlləkyan?– soruşdu.– Türklərin? Siz bizi kimlərə xəyanətdə suçlayırsınız? Türklərə?

Petros Dəlləkyan:

– Yox!– dedi.

– Bəs kimə?

– Ona! – Dəlləkyan barmağını yuxarı qaldırıb bir də təkrar etdi. – Ona!

Zirzəmiyə narahat bir sükut çökdü və bu sükutu Vanya yüzbaşı pozdu:

– Ara, Petros ağa, sənin bu gecə vaxtı, bu soyuqda burda nə işin var? Ara, niyə isti yorğan-döşəyində yatmırsan? Türklərin ürək dostusan, get dostluğunu elə də! Istəyirsən, get, lap özünə sünnət elə! – Vanya yüzbaşı ləzzətlə güldü.

Petros Dəlləkyan:

– Siz tərbiyəsiz adamsız, Vanya yuzbaşı!– dedi.

Vanya yüzbaşı eləcə ləzzətlə gülə-gülə:

– Ara, məzhəb haqqı düz deyirəm!– dedi.

Mesrop Hamparsumyan maraqla Vanya yüzbaşıya baxdı və yanında oturandan yavaşca soruşdu:

– Vanya yüzbaşı budu?

– Bəli.

– Mən belə adamlarla bir yerdə qala bilmərəm! – Bu sözləri də barmağı ilə Vanya yüzbaşını göstərərək Petros Dəlləkyan deyib, iti addımlarla mağaradan çıxdı.

Mesrop Hamparsumyan onun ardınca baxa-baxa:

– Bizim millətimizin bədbəxtliyi ondadır ki, aramızda beləlləri də var…– dedi.– Ancaq türklər bizim analarımızı, bacılarımızı öz hərəmxanalarına yığanda, heç onu,– Hamparsumyan barmağını yuxarı qaldırdı, – fikirləşmirlər! Bizi eşşək kimi işlədib, özümüzü də adam yerinə qoymayanda, gülüb bizi ələ salanda heç ondan qorxmurlar!.. Bizim petros dəlləkyanlarımızın belə hümanizmi, yatanda, türklərin heç yuxusuna da girmir!..

Vanya yüzbaşı bərkdən deyindi:

– Ara, bura lap buzxanadı!..

Bu dəfə də hamı Vanya yüzbaşıya baxdı.

– Ara, bizim canımız bu xaraba Alban kilsəsinin zirzəmisindən nə vaxt qurtaracaq?

Aşot Karapetyan dedi:

– O zaman ki, Vanya yüzbaşı, biz bu Alban kilsəsini öz kilsəmiz edəcəyik və katalikos özü gəlib burada bizim balalarımıza xeyir-dua verəcək!

Vanya yüzbaşı:

– Vax!. – dedi. – Ara, Aşot ağa, siz buranı elədiz erməni kilsəsi, mən dedim olmaz? Ha? Mesrop ağa, sən allah, de görüm, Artyun paşanın canı-başı salamatdımı?

Mesrop Hamparsumyan məclisin gedişatından açıq-aydın bir narazılıqla:

– Yaxşıdı…– dedi.

– Sən məzhəb, Mesrop ağa, məndən – Vanya yüzbaşıdan ona çoxlu salam de! Biz onunla köhnə dostuq!

Hamparsumyan:

– Bilirəm…– dedi.

– Ara, görürəm, sən hər şeyi bilirsən… Ha–a? Türklər demişkən, maşallah olsun!.. Artyun paşaya mənim adımdan deyərsən ki, buralarda hər şey qaydasındadı, heç nədən narahat olmasın.– Vanya yüzbaşı əlini arxasına aparıb belini dikəltdi. – Ağalar! Fətəli şah Ibrahim xanın qızı Ağabəyim Ağaya elçi düşüb. Oğlu Əbülfəti də girov tələb edir. Xanın əlacı yoxdu, razılıq verəcək. Biz bu vəziyyətdən ağılla, bacarıqla istifadə etməliyik. Sisianovu başa salmaq lazımdı ki, Ibrahim xan Rusiya əleyhinə Iran ilə gizli sövdalaşma aparır, Qarabağı Iran himayəsinə salmaq istəyir, ona görə də onunla qohum olur. Ağalar! Ibrahim xan ağıllı, tədbirli, hiyləgər bir hakimdi. Məzhəb haqqı, adam heç inana bilmir ki, türkdən belə ağıllı adam çıxsın! Nə qədər ki, o sağdı, biz millətimiz naminə Qarabağda istədiyimizi edə bilməyəcəyik. Nüfuzlu adamdı, zəhmli adamdı, dünya görüb, onunla zarafat eləmək olmaz. Azərbaycanın bütün xanlıqları onunla hesablaşır. Nə qədər ki, o sağdı, Qarabağ xanlıq olaraq qalacaq. Biz çalışmalıyıq ki, Qarabağ Rusiyanın bir əyalətinə çevrilsin. Bizdən başqa bütün Qafqazda bu türklərin, bu müsəlmanların arasında rusların kimi var ki, ona arxalansınlar? Heç kimi. Ona görə də biz rusların özündən də yaxşıca istifadə etməliyik. Qoy, bizi axmaq hesab eləsinlər, qoy, elə bilsinlər ki, bizim əlimizlə türklərin arasında öz işlərini görürlər, amma biz, öz işimizi görək. Onda tarix görəcək ki, axmaq kim imiş!.. Ara, məzhəb haqqı, bura buzxanadı. Mən də uzun danışdım… Haykanuş xalanız təkdi isti yorğan-döşəkdə, məni gözləyir, mən getdim…– Vanya yüzbaşı bu sözləri deyə-deyə ayağa qalxdı.– Ağalar, yeni görüşümüzəcən!

Mesrop Hamparsumyan:

– Vanya dayı,– dedi.– Mən Petros Dəlləkyanın sözlərindən nigaran qaldım… Ondan gözüm su içmir…

– Ara, Petros ağadı da… Sən Artyun paşaya de ki, heç nədən narahat olmasın…– Vanya yüzbaşı yenə ləzzətlə güldü.– Petros ağanı mən özüm sünnət edərəm…

Və Vanya yüzbaşı zirzəmidən çıxdı, ehtiyatla addımlaya-addımlaya pilləkanları qalxdı və soyuqdan çuxasının içində büzüşərək köhnə kilsə xarabalığından

uzaqlaşmaq istəyəndə, bayaq qaranlıq içindən çıxan adam yenə birdən-birə zühur elədi:

– Sağ olun, Vanya yüzbaşı…

Vanya yüzbaşı:

– Ara,– dedi.– Məzhəb haqqı sən burada sətəlcam olmasan, yaxşıdı.– Sonra əlini cibinə salıb bir sikkə çıxardı və ona uzatdı.– Ala, bu soyuqdan sabaha salamat çıxsan, get, Qəssab Məşədi Abışdan uşaqlarına bir girvənkə ət al, yesinlər…

Adam sikkəni götürüb:

– Allah səni bizim başımızın üstündən əskik eləməsin, Vanya dayı!– dedi.

Vanya yüzbaşı bir-iki addım da atıb başını geri çevirdi:

– Amma, – dedi, – türklərin bozbaşından bişirərsiz, – dedi.– Bu havanınkı yağlı türk bozbaşdı!

Vanya yüzbaşı qaranlıqda gözdən itdi.

## 9.

Ibrahim xanın kiçik uşaqları – Abbasqulu ağa, Səltənət bəyim, Hacı Hacan ağa, Əli ağa və başqa uşaqlar bağçadakı yelləncəklərdə oynaşırdı və dünyanın əbləh işlərindən, əlbəttə, xəbəri olmayan bu uşaqların hay-küyü bütün bağçanı başına götürmüşdü.

… Ağabəyim Ağa bir kənardakı kiçik mizin arxasında oturub nəsə – güman ki, şer – yazırdı və burası da bağçanı bürümüş o gün işığı kimi aydınca görünürdü ki, uşaqların o qayğısız çığır-bağırı, o gözəl haray-həşiri ilə Ağabəyim Ağanın o dəmdəki hissləri, fikirləri arasında çox həzin bir təzad var.

… 9 yaşlı Gövhər ağa bir az kənarda dayanmışdı və uzaqdan bacısının yazı yazmasına tamaşa edirdi.

Ağabəyim Ağa qıza tərəf çönüb:

– Sən niyə gedib onlarla oynamırsan?– soruşdu.

Gövhər ağa sidq-ürəkdən gələn bir təəccüblə:

– Bacı,– dedi,– mən bəyəm uşağam?

Ağabəyim Ağa güldü və elə bu zaman Ibrahim xan ağacların arasından çıxıb onlara yaxınlaşdı, Gövhər ağaya:

– Sən get,– dedi.

Qız atasının sərt sifətinə baxıb başa düşdü ki, mübahisə yeri deyil və narazılıqla başını aşağı salıb oradan uzaqlaşdı.

Ağabəyim Ağa tələsik mizin üstündəki kağızları yığışdırıb ayağa qalxdı.

Ibrahim xan əlinin işarəsi ilə onu saxladı:

– Indi gedirəm,– dedi.– Bir dəqiqəliyə gəlmişəm.

Araya sükut çökdü.

– Anan mənə söylədi ki, sən Fətəli şahın zövcəsi olmaq istəmirsən…– Xan sükutu pozdu.– Tehrana getmək istəmirsən… Səni başa düşməmək üçün, gərək eşşək olasan…– Bu sözləri yavaşdan və təmkinlə deyən Ibarahim xan birdən özünü saxlaya bilməyb bağırdı:– Mən eşşək deyiləm! Eşidirsən? Eşşək deyiləm mən!..

Uşaqlar xanın bağırtısını eşidib tələsik qaçıb getdilər və Ibrahim xan da, elə bil, o uşaqların gözü ilə kənardan özünə baxdı və yenə özünü ələ aldı, təmkinlə:.

– Sən kəs ürəyini, doğra, at bizim hamımızı öz ürəyindən!.. Nə qədər çətin olsa da, nə qədər qanı axsa da, kəsib atmalısan. Bu, səndən, məndən asılı olan bir iş deyil. Sənin bəxtin onda qara oldu ki, bu alçaq dünyaya xan qızı kimi təşrif buyurdun. Sən Qarabağı fikirləş, xanlığı fikirləş. Saday bəy kimi igidlər təkcə Qarabağda deyil, Qaradağın da Saday bəyi var, Şəkidə də, Bakıda da, Gəncədə də, Təbrizdə də, Xoyda, Marağada, Ərdəbildə də, Irəvanda, Naxçıvanda da igidlər var, amma nə olsun? Onlar yumruq kimi bir qüvvə deyillər, tək-təkdirlər. Hərə öz dərdi-səri ilə məşquldu! Hərə öz xanını qoruyur!.. Bizi istəməyənlərin əlində onları eləcə tək-tək dənləməyə nə var ki! Mən Baba xanın elçilərini geri qaytaracağam? Yaxşı, qaytardım! Sonra nə olacaq? Qarabağın başına hansı müsibətlər gələcək? Bizim xan nəslimizin axırı nə olacaq? Ayrılıq çətin işdir, qürbət müsibətdir, ürəyin istəyini boğmaq məşəqqətdir, bəli, belədir! Qoy, belə olsun! Qaytaraq şahın elçilərini! Onda bəs Qarabağ nə olsun, xan qızı? Qarabağa kim yiyə çıxsın, Ağabəyim Ağa!?

Ibrahim xan iti addımlarla uzaqlaşdı.

## 10.

### 5 mart 1803–cü il. Paris. Birinci konsulun iş otağı.

Birinci konsul Napoleon Bonapart divanda, Rusiyanın Fransadakı səfiri onunla üzbəüz kresloda, xarici işlər naziri Taleyran isə yandakı kresloda oturmuşdular.

Napoleon çox mehriban danışırdı:

– Sizdən gizlətmirəm, cənab səfir və istəyirəm ki, sözlərimin səmimiliyinə inanasınız: mən Aleksandra qardaş münasibəti bəsləyirəm. Xahiş edirəm, ona, elə belə də çatdırasınız. Avropanın şərqində Rusiya imperiyası nə qədər qüdrətli olarsa, bir o qədər Fransanın xeyrinədir. Bir tərəfdən ingilislər, bir tərəfdən də Avstriya hər vasitə ilə Rusiya ilə Fransa arasında ixtilaf yaratmağa çalışırlar, çünki bu onların maraqlarına cavab verir. Avropanı bu qoca, bu mühafizəkar imperiyaların iddiasından qurtarmaq lazımdır! Biz – Fransa və Rusiya – biz bunu etməsək, kim edəcək? Mən, qardaşım Aleksandr ilə harda deyirsə və nə zaman deyirsə danışıqlara hazıram. Mən Rusiya ilə gizli, ya açıq müttəfiqlik müqaviləsi bğağlamağa hazıram. Bizim Rusiya ilə bölüşə bilməyəcəyimiz bir şey yoxdur. Ingilislər də, Avstriya–Macarıstan da bunu yaxşı bilir və bizim birləşəcəyimizdən qorxur. Mən Aleksandra belə bir birlik və əbədi dostluq təklif edirəm. Rusiyanın maraqları – bizim maraqlarımızdır!

Napoleon ayağa qalxdı. Səfir və Taleyran da ayağa qalxdılar. Səfir təzim edərək:

– Zat-aliləri, – dedi. – Məni qəbul etdiyinizə, eləcə də açıq və səmimi söhbətinizə görə sizə dərin təşəkkür və minnətdarlığımı bildirirəm. Mən sizin dedliklərinizin hamısını əlahəzrət imperator I Aleksandra çatdıracağam və bu missiyanı özüm üçün şərəf hesab edirəm. Zat-alinizin mehribanlığından su-istifadə edib qiymətli vaxtınızı aldığım üçün üzr istəyirəm. Icazənizlə sizi tərk edim.

Napoleon:

– Sağ olun, cənab səfir,– dedi.– Mən sizə çox ümid bəsləyirəm.

Səfir ikinci dəfə təzim edərək otaqdan çıxdı.

Napoleon onun ardınca baxa-baxa:

– Söhbətimiz pis alınmadı…– dedi.

Taleyran yüngülcə təzim edərək:
– Zat-aliləri, siz danışıqlar mizinin arxasında da döyüş meydanındakı general Bonapartsınız…
Napoleon gülümsədi:
– Məni üzümə çox tərifləməyin, Taleyran,– dedi və diqqətlə xarici işlər nazirinin gözlərinin içinə baxdı.– Məni arxamca tərifləyin…
Taleyran gözlərini Napoleonun nəzərləri altından çəkdi və yenə yüngülcə təzim edərək getmək istədi:
– Icazənizlə…
– Dayanın, Taleyran! – Napoleon onu saxladı və əllərini arxasında çarpazlayıb otaqda var-gəl etməyə başladı. – Dayanın…
Napoleon otaqda var-gəl etdikcə, Taleyran nigarançılıq dolu nəzərlərlə ona baxırdı.
Nəhayət, Napoleon eləcə var-gəl edə-edə və Taleyrana baxmayaraq dilləndi:
– Fətəli şaha mənim adımdan məktub hazırlayın.
– Fətəli şaha? – deyə Taleyran təəccüblə soruşdu.
– Bəli!
– Nə məzmunda?
– O, Xəzər dənizini rusların üzünə bağlasın. Rusiya Cənubi Qafqazı götürsə, bununla kifayətləməyəcək, Iranın şimal bölgələrini də ələ almaq istəyəcək. Fransa Iran ilə Rusiya əleyhinə gizli müqavilə bağlamağı təklif edir. Iran Rusiya ilə müharibəyə başlasa, biz hər vasitə ilə Fətəli şaha kömək etməyə hazırıq. Məzmun aydındır?
Taleyran cavab vermədi.
Napoleon hirslə:
– Taleyran, – dedi.– siz istəmirsiz ki, mən güclü olum! Mən bunu bilirəm, Taleyran! Çünki siz Fransanı yox, özünüzü düşünürsünüz! Siz zəif hökmdarın yanında qüdrətli nazir olmaq istəyirsiniz! – Napoleon daha da sürətlə var-gəl etməyə başladı.– Mən niyə sizə dözürəm, Taleyran? Necə bilirsiz?
Taleyran:
– Mən başqa şey barədə düşünürəm, zat-aliləri…– dedi.
– Hansı başqa şeylər barədə? Hə?
– Üzr istəyirəm, zat-aliləri, mən…– Taleyran özünü saxladı və sözünün ardını demədi.
Napoleon bir anlıq ayaq saxlayıb ona baxdı:
– Cəsarət etmirsiz deməyə?!
Taleyran cəsarət etdi:
– Mən siyasi əxlaq barədə düşünürəm, zat-aliləri…
– Nə?– Napoleon heyrətlə xarici işlər nazirinə baxdı.– Siyasi əxlaq barədə düşünürsüz? – Və sürətlə addımlayaraq düz Taleyranın qarşısında dayanıb gözlərini altdan yuxarı onun sifətinə zillədi.– Sizin siyasi əxlaqdan danışmağa haqqınız çatır?!
Taleyran təzim edib:
– Icazənizlə…– dedi və çevrilib axsaya-axsaya qapıya tərəf getdi.
Napoleon onun ardınca:
– Məktubu gözləyirəm, Taleyran!– dedi.
Taleyran otaqdan çıxdı.

## 11.

Ağ atın dəli gözləri, elə bil, yeri, göyü görmürdü…

Saday bəy sıldırım qayaların təpəsi ilə ağ atı çap ki, çapasan – çapırdı.

Və Saday bəy atın belində dodaqlarını sıxıb, gözlərini kip qapamışdı və dünyanı görmək istəmirdi…

## 12.

Xan sarayının qadınlara məxsus hissəsində qız–gəlin qaynaşırdı.

Ağabəyim Ağa böyük güzgünün qarşısında oturmuşdu və kənizlər xan qızını bəzəyirdilər.

Tuba xanım Ağabəyim Ağanın yanında oturmuşdu və qızının əlini əlinə alıb oxşayırdı.

– Elə ki, çətin vaxtların oldu, elə ki, ürəyin qısıldı, məni yadına sal, qızım, məni gətir gözlərinin qabağına. – Tuba xanım deyirdi.– Mən Avar hakimi Ümmə xanın bacısı kimi həyatımda birinci dəfə Dağıstandan çıxıb Qarabağa, xan atana zövcə gələndə, səndən kiçik idim… Indi görürsən, maşallah, hər şey qaydasındadı…– Uzaq günlərin xatirəsi Tuba xanımın gözlərinə işartı gətirdi, qadını gülümsətdü. – Bu sözləri ki, indi mən sənə deyirəm, Ağabəyim, bu sözləri beləcə, o vaxt, məni Qarabağa yola salanda rəhmətlik anam Çiçəkbanu mənə deyirdi… Çiçəkbanu, sənin nənən, bilirsən, çərkəz xanı Sabutay xanın qızı idi, çərkəz ellərindən Dağıstana gəlmişdi… Allah qoysa, heç bilməyəcəksən ki, vaxt necə keçdi, sən də qızını uzaq ellərə yola salanda, ona bu sözləri deyəcəksən… Yaxşıdı, pisdi, amma xanzadə, şahzadə xanımların taleyinə belə yazılıb…

## 13.

Dağlar arasından dolanan Molla Nəsrəddin yolu ilə Şuşadan arana doğru üzüaşağı bir karvan gedirdi…

… Saday bəy qabağını kəsən ağac budaqlarını, kol-kosu əlləri ilə o tərəf-bu tərəfə yara-yara irəliləyirdi…

… Ağabəyim Ağa iki kənizi ilə bərabər faytonda oturmuşdu. Əbülfət ağa at belində faytonun yanınca gedirdi.

Ağabəyim Ağa başını qaldırıb Şuşa dağlarına baxdı və:

– Əbülfət, – dedi.– Görəsən biz bir də bu yerlərə qayıdacağıq?

Əbülfət ağa gülümsəyib:

– Əlbəttə!..– dedi.

Ağabəyim Ağa eləcə Şuşa dağlarına baxa-baxa:

– Sən qayıda bilərsən, bəs mən?– soruşdu.

Əbülfət ağa:

– Kim bilir, bacı? – dedi.– Iran qüdrətli məmləkətdi… Bəlkə sən bu yerlərin şahbanusu kimi haçansa təzədən bu yerlərə baş çəkdin?!

Ağabəyim Ağa:

– Yox, Əbülfət, istəmirəm...– pıçıldadı. – Istəmirəm... Bu yerlərin şahbanusu olmaq istəmirəm... Bu yerlərin şahbanusu olmasın, Əbülfət...
Guya ki, dünyanın işləri Əbülfət ağadan asılı idi...
... Bu dəm Saday bəy isə dağın başında dayanıb get-gedə yolu burulub gözdən itən karvanın ardınca baxırdı...

## 14.

## 9 oktyabr 1803–cü il. Şuşa. Xan sarayı.

Ibrahim xan otağın qapısı qarşısında dayanıb qonaqlarını qarşılayırdı. Mirmöhsün ağa da onun yanında idi.
Xidmətçi bərkdən elan etdi:
– Naxçıvan xanı əlahəzrət Kəlbəli xan!
Kəlbəli xan içəri girdi, Ibrahim xanla qucaqlaşdılar, Axund Mirmöhsün ağa ilə əl tutuşdular.
Xidmətçi yenə də bərkdən elan etdi:
– Irəvan xanı əlahəzrət Məhəmməd xan!
Məhəmməd xan da içəri daxil oldu və o da Ibrahim xanla qucaqlaşdı, Axund Mirmöhsün ağa ilə əl tutuşdu.
Xidmətçi dişarı çıxdı.
Ibrahim xan:
– Qarabağa təşrif buyurmağınız məni çox şad edib, qardaşlar, – dedi.– Dünən xəbər çatdı ki, gəlirsiniz. Xoş gəlib, səfa gətiribsiniz. Bütün Qarabağ sizin öz doğma el-obanızdı. Buyurun, əyləşin.
Qonaqlar taxtlara sərilmiş döşəkcələrin üstündə əyləşdilər. Ibrahim xan da onlarla üzbəüz əyləşdi. Axund Mirmöhsün ağa bir az kənarda oturdu.
Ibrahim xan:
– Necəsiniz?– soruşdu.– Nə var, nə yox? Çoxdandı görüşmürük...
Kəlbəli xan:
– Necəliyimiz, güman edirəm ki, cənabınıza yaxşı məlumdu,– dedi və bir başa mətləbə keçdi.– Məhəmməd xan qardaşımızla qərar verdik ki, səninlə məsləhətləşməyə gələk, Ibrahim xan. Cavad xana da sifariş göndərmişik ki, münasib bilsə, məşvərət üçün təcili bura gəlsin. Sizin, bir ağsaqqal kimi, qapınızın həmişə bizim üzümüzə açıq olduğunu biz yaxşı bilirik, Ibrahim xan.
Ibrahim xan:
– Təşəkkür edirəm, – dedi.
Kəlbəli xan:
– Məsələ vacib, zaman məhduddur, – deyə sözünə davam etdi.– Padşah Aleksandrın böyük generalı Sisianov daha gəlib Tiflisdə əyləşib.
Məhəmməd xan əsəbi halda dilləndi:
– O, bizim Irəvan xanlığından da, Naxçıvan xanlığından da tələb edir ki, rus padşahına tabe olaq!..
Ibrahim xan:
– Mən bunu iki gün bundan qabaq eşitmişəm,–dedi.– Bəs siz nə fikirdəsiniz?

– Naxçıvan xanlığı heç bir padşaha tabe olmaq istəmir. Ancaq təhlükə çox ciddidir,– Kəlbəli xan dedi.
Məhəmməd xan:
– Irəvan xanlığı da heç bir padşaha tabe olmaq istəmir,– dedi.– Ibrahim xan, nə siz, nə də biz heç vaxt xaçpərəst tayfasına düşmən münasibət göstərməmişik. Yekatrinanın vaxtında onun böyük generalı Qafqaza gələndə, sən, Ibrahim xan, hörmətli elçilərlə generala hədiyyələr göndərdin. Öz ixlasını bildirdin. Mən də Osmanlıdan, Irandan axışıb Irəvana gələn ermənilərin heç birini rədd etməmişəm. Nə olsun ki, xaçpərəstdirlər? Göydə Allah birdir! Lakin indi xanlıq istiqlaliyyətimizi itirə bilərik…
Axund Mirmöhsün ağa yavaşdan ösgürdü.
Kəlbəli xan:
– Axund Mirmöhsün ağa mötəbərin deyəsən sözü var, – dedi.
Axund Mirmöhsün ağa:
– Müsaiddirsə?– soruşdu.
Məhəmməd xan:
– Buyursunlar,– dedi.– Biz bilirik ki, Axund ağa Ibrahim xan qardaşımızın ən yaxın və məhrəm, ən sədaqətli adamıdır. Ağanın sözləri bizimçün də qiymətlidir.
Ibrahim xan da başının işarəsi ilə razılığını bildirdi.
Axund Mirmöhsün ağa yenə bir-iki dəfə astaca öskürüb:
– Mütəşəkkirəm,– dedi.– Ibrahim xan neçə dəfə Azərbaycan xanlarına təklif etdi ki, gəlin, şərtləri işləyək, xanlıqları birləşdirib vahid Azərbaycan dövləti yaradaq, hətta onu da buyurdu ki, biz də Nadir şah Əfşarın Muğanda çağırdığı kimi bir qurultay çağırıb bu məsələni orada həll edək. Amma əqil-səlimlə edilmiş bu təklifə qol qoyulmadı. Yoxsa ki, indi güclü bir orduya malik olardınız. Peyğəmbər əleyhissəlam yüzlərcə yerə bölünmüş ərəb qəbilələrini birləşdirməsəydi, Islam dünyası o qədər vüsətli qələbələrə nail ola bilməzdi.
Məhəmməd xan:
– Cənab Mirmöhsün ağa, – dedi.– Sizin sözlərinizdə həqiqət var, ancaq indi təqsirkar axtarmaq vaxtı deyil. Rus generalı başımsızın üstünü alıb, tabeçiliyimizi tələb edir.
Kəlbəli xan:
– Ibrahim xan,– dedi.– Sən Fətəli şahla qohum olmusan. Oğlun Əbülfət ağa da hal-hazırda onun sarayında yüksək mənsəbdədir. Deyirlər, Fətəli şah qızınız Ağabəyim Ağanın əqil-fərasətinə valeh olub, hətta dövlət tədbirlərini də onunla məsləhətləşir. Əgər Fətəli şah xanlıqlarımızı saxlamaq şərtilə bizə kömək edərsə, biz də Sisianovun təklifini rədd edərik. Mən rus padşahının cəngindən qurtarmağın başqa bir yolunu görmürəm.
Bu zaman qapı açıldı və xidmətçi elə eşikdəncə elan etdi:
– Gəncə xanı əlahəzrət Cavad xan!
Və Cavad xan özünə xas olan cəldliklə içəri daxil oldu.
Xanlar ayağa qalxdı, Cavad xan əvvəlcə Ibrahim xanla, sonra Kəlbəli və Məhəmməd xanla qucaqlaşdı, Axund Mirmöhsün ağa ilə əl tutuşdu.
Ibrahim xan əli ilə yer göstərdi:
– Buyurun.
Xanlar döşəkcələrin üstündə əyləşdi və Ibrahim xan Cavad xana müraciətlə:

– «Necəsiniz» soruşmuram, xan cənabları. Xəbər mənə çatıb. General Sisianov Gəncə qalasının təcili təslim olmasını səndən tələb edir.

Cavad xan acıqla:

– Bəli, tələb edir… – dedi.– Bu, rus padşahlarının həmin siyasətidi ki, davam edir. Yekatrinanın əmri ilə general Zubov Qafqaza yeriyib Dərbəndi mühasirə eləyəndə, mən sizə dedim ki, təcili qoşunlarımızı birləşdirib Dərbəndin köməyinə gedək. Heç kəsdən səs çıxmadı. – Cavad xan bir an nəfəsini dərdi və Ibrahim xana baxıb təkrar etdi.– Heç birinizdən səs çıxmadı.

Cavad xan susdu, amma açıq-aydın hiss olunurdu ki, bu ehtiraslı adam özünü güclə saxlayır, içi doludu.

Və bunu, əlbəttə, Ibrahim xan da hiss etdi, yüngülcə gülümsəyərək:

– Buyurun, davam edin…– dedi.

Cavad xan sözünə davam etdi:

– Zubov Dərbəndi alandan sonra, mənim qardaşım, ağsaqqalımız Ibrahim xan ona hörmətli elçilərlə qiymətli hədiyyələr göndərib rus padşahına ixlasını bəyan etdi. O hədiyyələrin hesabına, əlli dənə top əldə etmək olardı. Indi də budu, Sisianov ağa təşrif buyurub… Qardaşımız Ibrahim xanın Zubova o cürə ixlası, o hədiyyələri rus padşahının qəyyumçuluğunu qəbul eləmək kimi bir şey idi, bu da Ağa Məhəmməd şaha fürsət yaratdı ki, Qarabağa gəlsin, Şuşa kimi bir qalanı alsın. Nə oldu? Yekatrina kömək əlini uzatdı Ibrahim xan qardaşımıza? Yox. Qardaşımız da məcbur oldu xanlığı buraxıb Balakənə getsin. Ağa Məhəmməd qətlə yetiriləndən sonra, ağsaqqalımızın qardaşı oğlu Məhəmməd bəy burada nə fəsadlar törətdi?! Allah vəzir Molla Pənaha rəhmət eləsin, onun da, oğlunun da başını üzdürdü Cıdır düzündə. Amma Yekatrina Molla Pənaha bir əsa hədiyyə etmişdi… Nə isə!.. Allaha min şükür ki, Axund Mirmöhsün ağanın tədbirləri və qoşunbaşı Saday bəyin sədaqətinin və igidliyinin nəticəsində ağsaqqalımız Ibrahim xan yenə Qarabağ taxtına qayıda bildi. Bütün bunlar ki, bu yaxınların söhbətidir, nə üçün bunlar yaddan çıxır?

Araya ağır bir sükut çökdü və o sükutu yenə Cavad xan özü pozdu:

– Məni məzur tutun, ağalar! Mən qızışıb bəzən lüzümsüz sözlər də deyirəm. Ancaq ağalar,– Cavad xan barmağını yuxarı qaldırdı,– o başımızın üstündəkinin dərgahına and olsun ki, bunların hamısı sizə, o cümlədən əziz qardaşım və ağsaqqalımız Ibrahim xana məhəbbətimin ifadəsidir. Əlbəttə, hər birimizin səhvi var və burası da həqiqətdi ki, indi oturub bu səhvlər barədə mübahisəyə başlasaq, çox uzun çəkər. Vaxt isə gözləmir. Gəlin, bir dəqiqə belə itirmədən, nə döyüş qüvvələrimiz varsa, birləşdirib Sisianova cavab verək. Mən sizi inandırıram ki, rusun qoşununun köməyi gəlib çıxana qədər biz Sisianovu Dərbənddən də o tərəfə qovub, Azərbaycanın sərhədlərindən xeyli uzaqlaşdıra bilərik.

Yenə araya ağır sükut çökdü və bu dəfə o sükutu Ibrahim xan pozdu:

– Qardaşım Cavad xan mənə ağır ittihamlar verir… Ancaq, ağalar, gəlin, ədalətlə danışaq. Biz, hər cürə silahı, böyük qoşunu, böyük sərvəti olan iki dövlətin arasındayıq. Bu dövlətlərin ikisinin də kürreyi-ərzin xəritəsi miqyasında maraqları var. Mən istəyirdim, çalışırdım ki, millətimiz qırılmasın, xanlığımız viran qalmasın… Mən indi də istəyirəm ki, hər şeyi danışıqlarla, sülhlə, tədbir və təmkin ilə qaydasına qoyaq. Ona görə də, indi biz bu iki dövlətdən birinə iltiza etməliyik. Çox fikirləşəndən sonra mən bu qərara gəlmişəm ki, biz rus padşahıyla daha tez dil tapıb dost ola bilərik.

Cavad xan heç cürə gizlədə bilmədiyi bir acıqla:
– Nəyə görə?– soruşdu.
Ibrahim xan:
– Ona görə ki, – dedi,– bütün Azərbaycan torpağına sahib olmaq Iran şahlığının çoxdankı arzusudur, son dövrlərin tarixi boyu bu istək gah yerinə yetir, gah da əldən çıxır… Azərbaycan xanlıqları rus padşahına iltiza etsə, düşünürəm ki, bir dövlət kimi daha tez istiqlaliyyət ala bilərik…
Cavad xan özünü saxlaya bilmədi və:
– Ağsaqqal,– dedi,– Iran padşahlığının dediyin o arzusu ki, var ha, yəni o arzu, o istək Rusiya padşahlığı üçün bu qədər uzaqdır?!
Kəlbəli xan:
– Iran şahının özü də türkdü, – dedi. – Bizim adət-ənənələrimiz, dinimiz birdi. Elə güman edirəm ki, biz Iranla, xüsusən Baba xanla daha tez dil tapa bilərik.
Məhəmməd xan başının hərəkəti ilə Kəlbəli xanın sözlərini təsdiq etdi:
– Biz, demək olar ki, bir torpaqda yaşayırıq. Gediş-gəlişimiz var, söz deməyə imkan tapacağıq. Rus padşahlığının paytaxtı ilə bizim aramızda üç min verstə qədər məsafə var. Dinimiz ayrı, dilimiz ayrı…
Cavad xan qızğın halda:
– Ağalar,– dedi,– mənə qulaq asın! Əgər siz öz xanlıqlarınızın müstəqilliyi, gələcək birləşmiş milli istiqlaliyyət haqqında düşünürsünüzsə, bu, xam xəyaldır! Gəlib torpağımıza kök salan, qalalarımıza hakim olan heç bir dövlət bizi saya salmaz, təzədən bizə istiqlaliyyət verməz! Ona görə də mənim fikrim qətidir: nə rus padşahı, nə də Iran şahı! Ibrahim xan, bağışla, ancaq deyəcəyəm. Hərgah sənin Rusiyaya meylinin arxasında o fikir gizlənirsə ki, Rusiya sənə toxunmayacaq, Fətəli şahla da qohum olduğun üçün, Iran şahlığı sənə toxunmayacaq, səhv edirsən, qardaşım! Çox böyük səhv edirsən!
Ibrahim xan sərt hərəkətlə ayağa qalxdı:
– Siz uzaq yoldan gəlib yorulmusunuz, qardaşlarım. Buyurun, bir az istirahət eləyin, sonra söhbətimizi davam etdirərik.

## 15.

Axşam düşürdü.
Və axşamın o düşhadüşündə Şuşa dağları, elə bil, mürgü döyürdü və bu yerlərin sakitliyi də, elə bil, əzəli və əbədi bir sakitlik idi. Hətta xanəndənin uzaqdan gələn səsi də, elə bil, elə bu əzəli və əbədi sakitliyin bir hissəciyiydi.
Xanəndə oxuyurdu:

Gördüm onu mən, söylədim, ey yar, sənə qurban,
Bəlkə yuxudur mən görürəm, sən mənə mehman?
Öpdüm yanağından, qızarıb oldu al-əlvan,
Mən yarıma, yarım da mənim dərdimə dərman.
Dərdim çoxalıb, dərd dedi, yarım bizə getdi,
Əfsus ki, yarım gecə gəldi, gecə getdi,
Heç bilmədim, ömrüm necə gəldi, necə getdi…

Otağının pəncərəsindən xanəndənin səsinə qulaq asan Tuba xanım:
– Ağabəyimin sözləridi…– dedi.

## 16.

Ibrahim xan iti addımlarla sarayın dəhlizi ilə gedirdi. Axund Mirmöhsün ağa onun ardınca addımlayırdı.

Ibrahim xan gedə-gedə deyirdi:

– Eşitdin də, Mirmöhsün ağa, eşitdin, Cavad xanın tənələrini? Eşitdin, məni necə aşkar məzəmmət edirdi? Biz iki divin pusqusunda dayanıb içinə düşdüyümüz bu tilsimi qan tökməklə sındıra bilmərik. Bizim nicat yolumuz qılıncda deyil, tədbirdədir! Mən nə üçün ürəyimin bir parçasını kəsib Tehrana göndərdim? Mən nə üçün o vaxt rus generalı Zubova qiymətli hədiyyələr göndərib rus padşahına öz ixlasımı bəyan etdim? Nə edəcək Cavad xan? Hə?! Qoşun verin, deyir. Özünü divə yem eləyəcək, vəssalam! Cavan-cavan oğullarını itirmiş analar da yerə, göyə lənət oxuyacq!

Axund Mirmöhsün ağa:

– Təki gələcək nəsillər bizə lənət oxumasın!..– dedi.

Ibrahim xan başını çevirib yanpörtü Axund Mirmöhsün ağaya baxdı, nəsə demək istədi, amma demədi, sonra qapını açıb otağa girdi.

Xanlar əyləşib onları gözləyirdi və Ibrahim xan içəri girən kimi, yenə ayağa qalxdılar.

Ibrahim xan:

– Əziyyət çəkməyin, buyurun, əyləşin,– dedi, özü də döşəkcədə oturdu.– Mən qardaşım Cavad xanın bayaq söylədiyi ittihamlara cavab vermək istəmirəm, ona görə yox ki, onları qəbul edirəm, ona görə ki, artıq burada deyildiyi kimi, mübahisəyə girişmək zamanı deyil, vaxt dayanıb bizi gözləmir və bir də, onsuz da ki, tarix hər şeyi yerbəyer edəcək. Siz düz deyirsiniz, ağalar, vəziyyət mürəkkəbdir və getdikcə daha da ağırlaşır. Biz Ağa Məhəmməd şahın yaratdığı dəhşətli günlərdən sonra, yenə fəlakətlərə düçar ola bilərik. Indicə aldığım məlumata görə, qızılbaş qoşunu da Naxçıvan, Irəvan və Qarabağ sərhədlərinə doğru irəliləməkdədir.– Hiss olunurdu ki, Ibrahim xan əsəblərini güclə sakitləşdirir.– Qardaşım Cavad xan, söz sizin idi. Buyurun, hazırkı vəziyyətdən çıxmaq üçün siz nə təklif edirsiniz?

Cavad xan dedi:

– Əgər siz və eləcə də, heç olmasa, Şəki, Şirvan, Bakı xanları – hər bir xanlıqdan mənə iki min-üç min nəfər atlı versəniz, ha eləyib, Sisianova əlavə kömək gəlib çatınca, mən onu aşağı Qafqazdan qovub çıxarardım.

Ibrahim xan:

– Bəs sonra?– soruşdu.– Sonra nə olacaq? Aleksandr padşah o saat öz qoşununun aqibəti ilə barışacaq və susub oturacaq?

Cavad xan aşkar bir qəzəblə:

– Bilmirəm, – dedi.– Rus padşahı susacaq, ya nə edəcək?! Lakin bütün dünya görəcək ki, biz də varıq, biz də bir qüvvəyik, bizimlə də hesablaşmaq lazımdır!

Ibrahim xan:

– Qardaşım, bunlar hamısı sözdür!– dedi.

Kəlbəli xan:

– Bəs, sərhəddimizə gəlib çatan qızılbaş qoşunu ilə neyləyəcəyik?– soruşdu.

Məhəmməd xan Ibrahim xana baxdı:

– Mən belə məlum edirəm ki, Ibrahim xan tamamilə rusa meyillidi. Ancaq mən, məsələ gəlib bu nöqtəyə çatsa, ağalar, bəyan edirəm, Iranı tutacağam.

Ibrahim xan:

– Qardaşlar,– dedi,– mən rus padşahlığının himayəsi haqqında danışanda, Azərbaycanın öz istiqlaliyyətindən əl çəkib, sözsüz rusa tabe olması fikrindən çox uzağam. Mən Aleksandrla səmimi dost olmaq fikrindəyəm.

Cavad xan əvvəlki ötkəmliyi ilə:

– Cənab Ibrahim xan!– dedi.– Rus generalları Azərbaycanı işğal edəndən sonra, rus padşahı səninlə dostluq mükaliməsinə girməz! Siz özünüz özünüzü aldadırsız!

Ibrahim xan da get-gedə gözgörəti sərtləşirdi:

– Mən uşaq deyiləm, Cavad xan! O vaxt general Zubovla da rus taxt-tacı ilə belə bir dostluq barədə danışdım. O, mənim fikirlərimi nəinki bəyənmişdi, hətta alqışlamışdı!

Axund Mirmöhsün ağa yavaşdan öskürdü və Ibrahim xan ona baxıb bir az narazılıqla:

– Sözün var?– soruşdu.

Axund həmişəki kimi aramla:

– Üzr istəyirəm ki, siz xan əlahəzrətlərinin məşvərətinə müdaxilə edirəm, amma bu gün bu məşvərətdən millətin taleyi asılıdır. Mən uzaq şimalda yaşayan rus xalqı haqqında fəna bir söz deyə bilmərəm. Çünki bütün millətləri bir olan Allah yaradıb. Amma rus padşahının Qafqaza və eləcə də Azərbaycana ağır toplarla, yeni əsləhə ilə silahlanmış qoşunla gəlməsi məgər dostluqdan xəbər verir? Zubov da, Sisianov da ilk növbədə bizim ata-babalarımızın tikdirdikləri qalaların açarlarını tələb edirlər, orada qoşunlarını yerləşdirmək istəyirlər. Belə bir dostluğa inanmaq olar? Üzr istəyirəm, əlahəzrətlər… Bəlkə də başımdan böyük danışdım…

Ibrahim xan tərs-tərs Axund Mirmöhsün ağaya baxdı, amma yenə bir söz demədi.

Kəlbəli xan:

– Axund ağa düz buyurur…– dedi.

Məhəmməd xan da:

– Mən də Axund ağanın sözlərini doğru hesab edirəm…– dedi.

Cavad xan:

– Yox, ağalar!– dedi.– Mən Ibrahim xan, sənə də, xan cənabları, sizlərə də axırıncı dəfə təklif edirəm: təcili surətdə hazır atlılarımızı birləşdirib Sisianovu qovmağa razılıq verirsinizmi? Artıq dərəcədə təveqqe edirəm, son sözünüzü deyəsiniz!

Ibrahim xan:

– Mən general Sisianovla görüşüb danışmamış heç bir qərara gələ bilmərəm,– dedi.

Cavad xan Kəlbəli xana və Məhəmməd xana baxdı.

Onlar bir söz demədi.

Cavad xan cəld hərəkətlə ayağa qalxdı:

– Ibrahim xan! Mən görürəm ki, məsələnin nə qədər ciddi olduğu nə sizi, nə də bu qardaşlarımızı mənim qədər narahat etmir. Ona görə də mən məclisinizi tərk edirəm və sizi xəbərdar edirəm ki, mən son nəfəsimə qədər rus padşahının qoşunu ilə vuruşacağam. Mən namusumuzu, torpağımızı axırıncı güllənə qədər müdafiə edəcəyəm!

Və Cavad xan sürətlə otaqdan çıxdı.

## 17.

### 1 dekabr 1803-cü il. Tiflis. Sərdar iqamətgahı.

Tiflisə quşbaşı qar yağırdı.

Üstü qarla dolu ağacların əhatəsində, hər tərəfini qar basmış o bina, o qarlı baxça, elə bil, dünyanın ən sakit, ən rahat bir guşəsi idi.

Və o binadakı kabinetində knyaz Sisianov general Portnyakinlə üz-üzə dayanmışdı.

– General Portnyakin! Mən sizə 11 topu olan piyada batalyonu verirəm! Üç eskadron, əlavə olaraq da iki kazak yüzlüyü verirəm! Eşidirsinizmi? Iki kazak yüzlüyü! Və bir əsgər kimi sizdən soruşuram: Cavad xanı məğlub edəcəksinizmi?

General Portnyakin:

– Zat-aliləri!– dedi.– Cavad xanı məğlub etmək üçün, onu öldürmək lazımdır!

Knyaz qışqırdı:

– Mən sizdən nə lazım olduğunu soruşmuram! Mən sizdən soruşuram ki, Cavad xanı məğlub edəcəksiniz, ya yox?! Mən sizdən Gəncəni tələb edirəm! Gəncənin adı xəritədən silinməlidir! Gəncənin adı yaddaşlardan da silinməlidir! Yaddaşlarda Gəncə yox, Yelizavettapol qalmalıdır! Həmişəlik, general, eşidirsinizmi, minilliklər boyu!.. Biz Cavad xana elə divan tutmalıyıq ki, bu yerlərin bütün türk tayfasına dərs olsun! Bütün bu yekəbaş müsəlman ağalarına dərs olsun!

## 18.

Göydə uçuşan qara qarğaların qarıltısı get–gedə uzaqlaşdı və bir-birinə dəyən qılıncların, atılan güllələrin, fınxıran atların, hücum edən, nalə çəkən əsgərlərin səsi bütün aləmi başına götürdü.

… Gəncə yaxınlığındakı Quluqobu deyilən çöllükdə Cavad xanın atlıları ilə rus qoşunu arasında ölüm-dirim davası gedirdi: süngüyə keçən kim, güllə atan kim, gülləyə tuş gələn kim, atdan yıxan kim, yıxılan kim, qılıncla biçən kim, biçilən kim…

… Piyada rus zabiti bağırırdı:

– Vperyod!.. Smert nevernım!

Və piyada rus qoşunları irəlilədikcə Cavad xanın atlıları onları qılıncdan keçirirdi.

… Topçu rus zabiti bağırırdı:

– Oqon!..

Və hər dəfə rus topu atəş açdıqca Cavad xanın bir neçə atlısı yerə sərilirdi.

… Cavad xanın oğlu Hüseynqulu ağa çapa-çapa bir neçə nəfərlə at belində uca bir çinar ağacının altında dayanmış atasının qabağına çatdı:

– Xan ata,– Hüseynqulu ağa qışqırdı.– Topların qabağında dayanmaq olmur! Ehtiyat atlıları göndər!

Cavad xan:

– Yox,– dedi.– Bu gün bəsdi! Qalaya çəkiləcəyik!

Hüseynqulu ağa yenə çapıb özünü döyüş meydanına çatdırdı və bağıra-bağıra:
– Qalaya!..– dedi.– Hamı qalaya!.. Qalaya!.. Xanın əmridi!.. Qalaya!..
… Və Cavad xanın atlıları döyüş meydanından çıxıb Gəncə qalasına tərəf çapmağa başladı.
… Topçu rus zabiti bağırırdı:
– Oqon po nevernım!
Toplar geriyə çapan atlılara atırdı.
– Oqon!
Toplar atırdı…
… General Portnyakin topun, tüfəngin səsi səngimiş döyüş meydanını gəzirdi.
Elə bil ki, yer üzündə qarğa-quzğun qalmamışdı, hamısı Quluqobuya uçub gəlmişdi.
Döyüş meydanı inildəyirdi:
– Su…
– Pomoqite…
– Ölürəm…
– Vodu…
General Portnyakin döyüş meydanını dolaşa-dolaşa dəhşət içində pıçıldayırdı:
– Boje!.. Boje!.. Çto mı natvorili?! Prosti nas, qospodi!.. Prosti!..
General Portnyakin pıçıldaya-pıçıldaya xaç çevirirdi…

**19.**

Xidmətçi Ibrahim xanın otağına girib:
– Sizin çağrışınızla Vanya yüzbaşı əmrə müntəzirdir, xan sağ olsun,– dedi.
Bardaş qurub taxcadakı döşəkcənin üstündə oturmuş Ibrahim xan qarşısındakı kağız-kuğuzu kənara çəkdi:
– Gəlsin.
Vanya yüzbaşı içəri girdi və kök bədəninə yaraşmayan bir cəldliklə Ibrahim xana yaxınlaşıb əlindən öpdü:
– Maşallah, nəmxuda bədnəzərdən, əlahəzrət, gözümə yaxşı dəydiniz! Çox nigaran idim! Tfu! Tfu! – Vanya yüzbaşı əyilib barmağı ilə döşəmənin taxtasını döyəclədi.– Yaxşısız! Mənim gözüm yoxdu, məzhəb haqqı, ancaq bədnəzərdən uzaq!..
Ibrahim xan:
– Otur, görüm,– dedi.
Vanya yüzbaşı:
– O–o–o!..– dedi.– Mən qələt eləyərəm atabaatamla, əlahəzrətin qarşısında oturaram!
Ibrahim xan diqqətlə Vanya yüzbaşının gözlərinin içinə baxıb sərt:
– Otur!– dedi.
– Baş üstə!– Vanya yüzbaşı Ibrahim xanın qarşısında, elə taxta döşəmənincə üstündə çöməlib oturdu.
– Nə var, nə yox, Vanya yüzbaşı? Deyirsən ki, nigaran idin? Nədi ki, camaat nə deyir?

– Camaat nə deyəcək, xan sağ olsun? Camaat sizin qəhrəman atanız Pənah xana rəhmət oxuyur, siz əlahəzrətə də uzun ömür arzulayır.
– Bəs sən niyə nigaran idin?
– Bəs necə nigaran olmayım? Mən nigaran olmayım, bəs kim nigaran olsun? Siz əlahəzrət mənə torpaq verdiz? Verdiz! Məni, mən Banazurlu Vanyanı Vanya yüzbaşı etdiz? Etdiz! Dünya da ki, xarab dünya, bəs mən nigaran olmayım ki, əlahəzrət bu xarab dünyada sıxılır, ya yox? Ruslar ordan pırtlayır, qızılbaşlar burdan zühur eləyir, Əbülfət ağa da ki, deyirlər…– Vanya yüzbaşı sözünü yarımçıq kəsib susdu.
– Nə deyirlər? Əbülfət xan nə?
Vanya yüzbaşı cavab verməyə çətinlik çəkirdi.
Ibrahim xan qəzəbləndi:
– Mən səni bura ağzına su alıb oturmağa çağırmışam?!
Vanya yüzbaşı yerindən qalxmaq istədi.
Ibrahim xan əlinin hərəkəti ilə onu saxladı:
– Danış, görüm!
– Xan sağ olsun, sizin bizə elədiyinizi kim eləyib? Heç kim! Qarabağın Dumu kimi, Tuğ kimi, Xankəndi, Hadrut, Daşaltı kimi səfalı yerlərində bizə torpaq ayırdız, ev-eşik tikdik, kəndlər saldıq…
– Bunlar məlumdu, Vanya yüzbaşı, mətləbdən danış! Nə deyirlər Əbülfət ağa barədə?
– Elə onu deyirəm ki, xan sağ olsun, mən nə bilirəm, gərək sizə deyəm. Borcumdu… Camaat deyir ki, Əbülfət ağa, Allah onun canını sağ eləsin, həmişə kefi kök, damağı da çağ olsun, camaat deyir ki, Əbülfət ağa Fətəli şahla çox yaxınlaşıb…
– Yəni?..
– Yəni siz əlahəzrətin rusa meylindən narazıdı…
Araya sükut çökdü. Nəhayət, Ibrahim xan:
– Yaxşı…– dedi və ayağa qalxdı.
Vanya yüzbaşı da vücuduna yaraşmayan bir cəldliklə ayağa sıçradı.
Ibrahim xan:
– Mən səni başqa məsələ üçün çağırmışam…– dedi.– Bizim bu Axund Mirmöhsün ağa barədə nə danışırlar? Doğrusu, son vaxtlar gözüm ondan su içmir…
– Axund Mirmöhsün ağa?– Vanya yüzbaşı təkrar etdi.– Baş üstə, nə lazımdı, öyrənərəm… Əlahəzrət izn versə, mürəxxəs olaram.
– Deyəsən tələsirsən?
– Sizin sarayınızdan, qohum-əqrabanızdan uzaq, əlahəzrət, ölü yerinə getməliyəm.
– Kimdi rəhmətə gedən?
– Əşşi, bizim bir Petros ağa var idi… Petros Dəlləkyan… Dünən gecə lampanı yandırıb kitab oxuyurmuş yazıq, pəncərədən güllə ilə vurublar…
Ibrahim xanın yadına düşdü:
– Hə, səhər mənə dedilər… Guya, düşmənçilikdi… Balam, o Petros ki, gecə-gündüz kitab yazan, kitab oxuyan sakit bir adam idi, onunla kimin nə düşmənçiliyi?
Vanya yüzbaşı:
– Eh, xan sağ olsun, dünya, avara dünyadı…– dedi.

## 20.

**29 dekabr 1803-cü il. Tiflis. Sərdar iqamətgahı.**

Knyaz Sisianov hərbi məclis çağırmışdı və hisslərini cilovlaya bilməyib həyəcanla danışırdı:

– Cavad xan imperiyanın düşmənidir! O sağ qaldıqca, biz nüfuzdan düşürük! Öz şəxsində bütün ətraf xanlara nümunə göstərir ki, təkbaşına rus ordusu ilə müharibə aparır. Bunun axırı yaxşı olmayacaq, general Portnyakin! Mən sizə on bir topu olan batalyon vermişəm! Üç eskadron vermişəm! Iki kazak yüzlüyü vermişəm! Indi o iki yüzlükdən neçə nəfər qalıb? Cəmi on yeddi nəfər, general, on yeddi nəfər!

General Portnyakin:

– Zat-aliləri,– dedi,– Cavad xan özü üçün əlverişli taktika seçib. Gəncə qalası yeraltı bir labirintdir. Cavad xan gözlənilməz səmtlərdə qaladan çıxır, bir müddət vuruşur, vaxt yetişəndə tamam başqa bir səmtdən təzədən Gəncə qalasına qayıdır.

Sisianov:

– Buna dözmək daha mümkün deyil!– dedi.– Mən Gəncə qalasına təcili… və amansız hücuma başlayıram! Bütün qüvvələri səfərbər edirəm! Gəncə erməniləri bizə sifariş göndərməkdən, bizi hücuma çağırmaqdan beziblər! Biz Qafqazda məskunlaşmış erməniləri özümüzdən narazı sala bilmərik! Onlar bu vəhşi diyarda, bu cavad xanlar arasında bizim yeganə müttəfiqlərimizdir! Hücum! Amansız hücum!

General Portnyakin:

– Gəncə qalası çox möhkəmdir, zat-aliləri,– dedi.– Mən artıq sizə məruzə etdim. Gəncə başdan-başa lağımlardır, yeraltı yollardır. Oranı almaq asan olmayacaq!

Knyaz Sisianov:

– Kim asan yol axtarır, kənara çəkilsin, general!– dedi.– Sabah sübh tezdən Gəncəyə hücuma başlayırıq!

Polkovnik Eristavi:

– Zat-aliləri, mən təklif edirəm… hətta… hətta xahiş edirəm ki, Cavad xana sonuncu dəfə məktub göndərəsiniz.

Sisianov:

– Mən bu Asiya yekəxanasına nə qədər məktub göndərə bilərəm?– soruşdu.

– O məktubların tonu çox sərt olur…

– Mən Cavad xana məhəbbət məktubu yazmalıyam? Hə, polkovnik Eristavi?

– Cavad xan, hər halda, hökmdardır… Qacar kimi bir nəsildən çıxıb…

General Portnyakin:

– Mən də polkovnikin təklifinə tərəfdaram, zat-aliləri…– dedi.

Sisianov:

– Yaxşı!– dedi.– Mən sonuncu dəfə ona məktub göndərirəm ki, Gəncə qalasını təslim etsin. Sonuncu dəfə! Təslim şərtlərini qəbul etmək üçün ona iki gün vaxt verirəm! – Knyaz get-gedə daha artıq əsəbiləşirdi.– Gəncə böyük Rusiya imperiyasının tərkib hissəsidir, bir əyalətidir, başqa yer deyil!

## 21.

Cıdır düzündə gözəl bir gün çıxmışdı və gözəl də bir sakitlik var idi.

Ibrahim xan at belində aramla addımlayırdı, bir az arxadan isə iyirmi-iyirmi beş atlı gəlirdi.

Uzaqdan onlara tərəf çapan bir atlı göründü.

Xanın atlıları əvvəlcə narahat oldu, sonra yəqin ki, atlını atından tanıdılar.

Kimsə:

– Saday bəydi…– dedi.

Və Saday bəy ağ atı çapıb atlılara çatdı.

Atlılardan biri – bizim tanıdığımız xidmətçi irəli çıxıb Ibrahim xana yaxınlaşdı:

– Əlahəzrət, qoşunbaşı Saday bəy hüzurunuza buyurmaq istəyir.

Ibrahim xan:

– Gəlsin,– dedi.

Xidmətçi geri qayıtdı, sonra Saday bəy ağ atı irəli sürüb baş əydi və Ibrahim xanla qoşa addımladı.

Ibrahim xan:

– Nə olub, qoşunbaşı?– soruşdu.– Çox amansız çapırdın…

–Xan sağ olsun, rusların böyük generalı Sisianov Gəncə qapısının açarını, Cavad xanın da rus padşahına tabe olmasını tələb edib. Iki gün möhlət verib.

Ibrahim xan bir müddət heç nə demədi, sonra soruşdu:

– Bəs sən nə deyirsən?

– Biz nə isə etməliyik, xan…

– Nə?

– Biz Cavad xanı rus divinin qabağında tək qoya bilmərik!

– Onunla birlikdə o divə yem olmalıyıq biz? Hə?! – Ibrahim xan qəzəblə qoşunbaşının üstünə çımxırdı.– Sən iki min atlı ilə rus toplarının qabağında nə edəcəksən? Yaxşı, beş gün qarşılarını kəsdin, bir ay qarşılarını kəsdin, sonra? Sonra nə olacaq?– Ibrahim xan susdu, sonra nisbətən sakit halda:– Saday,– dedi.– mən qoşunu mənasız qırğına göndərə bilmərəm, başa düş…

Saday bəy sərt hərəkətlə cilovu çəkdi və ağ at fınxırıb kişnəyərək şahə qalxdı. Saday bəy:

– Xan!– qışqırdı.– Qoşunbaşı Saday bəyi yaddan çıxarın!

Arxadakı atlılar narahatlıqla dərhal irəli çapdılar və Ibrahim xanla Saday bəyi əhatəyə aldılar.

Ibrahim xan:

– Sən fərarilik edirsən?– qışqırdı.

Saday bəy:

– Qoy bunun adı fərarilik olsun! Mən könüllülərlə Cavad bəyə köməyə gedirəm,– dedi.

Ibrahim xan eyni qızğınlıqla:

– Sən ölümə gedirsən!– qışqırdı.

– Olsun, xan! Əlvida!..

Və Saday bəy ağ atı çapanda Ibrahim xan onun ardınca yana-yana, sidq-ürəkdən pıçıldadı:

– Axmaq… Axmaq uşaq…

Saday bəy  çapıb dağlara tərəf uzaqlaşdı və Cıdır düzündən çıxanda bir də ağ atı şahə qaldırıb var gücü ilə bağırdı:
– Əlvida, xan qızı!..
Dağlardan başqa bu sözləri eşidən olmadı…

## 22.

## 30 dekabr 1803-cü il. Gəncə.

Ay işığında Cavad xan başda olmaqla bir dəstə adam Gəncə qalasının bürclərini gəzirdi.
Cavad xan soruşdu:
– Kərbəlayı Sadıq, nə deyirsən? Qala rus toplarına dözəcəkmi?
Yaşlı bir adam olan Kərbəlayı Sadıq:
– Xan sağ olsun,– dedi.– Bütün təmir işləri sona yetib. Bütün lazımi tədbirləri görmüşük. Lağımlar da, yeraltı keçidlər də hazırdır.
Cavad xan:
– Söhbət iyirmi dörd rus topundan gedir, Kərbəlayı Sadıq!– dedi.– Rusun iyirmi dörd topu müqabilində mənim ümidim o lağımlara, o yeraltı yollaradır ki, qəflətən onların üstünə həmlə edək, tez də geri qayıda bilək.
– Buyruğunuza rəğmən, hər şeyi etmişik, xan sağ olsun. Inşallah, hər şey uğurlu olar!
Ətrafdakı adamlar da cani-dildən xeyir dilədi:
– Inşallah!..
– Inşallah-amin!..
– Inşallah!..

## 23.

## 31 dekabr 1803-cü il. Tiflis. Sərdar iqamətgahı.

Knyaz Sisianov iş otağında böyük yazı mizinin arxasında oturub işləyirdi.
Yavər içəri girdi:
– Zat-aliləri, Aşot Karapetyan adlı bu adam yenə sizin qəbulunuza gəlməyi təkid edir.
– Dünən dedim ki, göndərin, polkovnik Koryagin onu qəbul etsin. Mənim vaxtım yoxdur, kapitan! Bir də ki, Pavel Mixayloviç ermənilərin dilini yaxşı bilir…
Yavər:
– Üzr istəyirəm, zat-aliləri,– dedi.– Getmir. Üç gündür ki, şəxsən sizinlə görüşməyə çalışır. Deyir ki, xüsusi olaraq bu görüş üçün Tehrandan qeyri-leqal Tiflisə gəlmişəm. Deyir ki, son dərəcə əhəmiyyətli məsələdir.
Knyaz Sisianov qarşısındakı kağızları könülsüz halda kənara itələyib:
– Yaxşı, buraxın, gəlsin,– dedi.
Yavər çıxdı və bir neçə andan sonra Aşot Karapetyan otağa daxil oldu.
– Zat-aliləri, nəhayət ki, məni qəbul etdiyiniz üçün təşəkkürümü bildirirəm.

– Oturun, cənab Karapetyan. Xahiş edirəm, bir başa mətləbə keçəsiniz. Mənim vaxtım çox azdır.

– Mənim də vaxtım azdır, zat-aliləri.– Karapetyan əlini syurtukunun yaxasından içəri saldı və bir dəstə kağız çıxardı.– Mən bunları şəxsən sizə təqdim etmək üçün üç gündür gözləyirəm.

Knyaz Sisianov açıq sezilən bir rişxəndlə o bir dəstə kağıza baxdı:

– Bunlar nədir? Yenə erməni qardaşlarınızın cürbəcür xahişnamələridir?

Aşot Karapetyan başını dik tutub:

– Xeyir, knyaz!– dedi.

– Bəs nədir?

Aşot Karapetyan sözləri bir-bir dəqiq tələffüz edərək:

– Bunlar Gəncə qalasının bütün lağımlarının, oradakı yeraltı yolların, gizli kəhrizlərin, gizli ərzaq və silah anbarlarının xəritəsidir, – dedi.– Bunu Gəncədə yaşayan erməni qardaşlarımız bizə çatdırıb.

Knyaz Sisianov bir anın içində bütün vücudunu bürümüş həyəcanı gizlətməyə çalışaraq, kağızları alıb mizin üstünə qoydu və soruşdu:

– Bəs nə üçün onlar bunu mənim özümə çatdırmayıblar?

– Onlar Cavad xanla müttəfiqliyə söz veriblər. Cavad xandan ehtiyat edirlər, Tiflisə gələ bilmirlər.

– Onlar Cavad xandan qorxur, ancaq siz Fətəli şahdan qorxmursunuz?

– Söhbət millətin taleyindən gedəndə, onlar da qorxmur, biz də qorxmuruq, zat-aliləri. Biz bilirik ki, arxamızda Rusiyanın ikibaşlı qartalı dayanıb!

– Siz şiri-xurşid haqqında da bu sözləri deyirsiz?

– Lazım olanda, bəlkə də deyirik. Lazım olduğu üçün deyirik.

– Mən nə bilim ki, siz indi də ikibaşlı qartal haqqında bu sözləri lazım olduğu üçün demirsiz?

– Bunu tarix sizə göstərəcək, zat-aliləri.

Knyaz Sisianov güldü:

– Mənim tarixi gözləməyə vaxtım yoxdu, cənab Karapetyan!..

– Ona görə də, sübut sizin mizinizin üstündədir, knyaz!

## 24.

### 1804-cü il yanvarın 2-dən 3-nə keçən gecə. Gəncə qalası.

Gəncə uğrunda vuruş gedirdi.

… Gəncə qalasını mühasirəyə almış rus qoşunları toplardan qala divarlarını atəşə tutmuşdu.

… Gəncəlilər qalanın bürclərindən tüfənglə əsgərləri nişan alıb atırdı, yapıncıları əyinlərindən çıxarıb neftə bulayırdı və od vurub qaladan əsgərlərin başına yağdırırdı.

… Bir-neçə zabitin əhatəsində atın belində oturmuş general Sisianov durbinlə Gəncə qalasına baxırdı.

… Rus topçu zabitinin bağırtısı o ah-nalənin, o gurultunun, haray-həşirin içində güclə eşidilirdi:

– Oqon!.. Oqon!..

… Cavad xan tez-tez barıdan dişarı baxırdı, sürətlə addımlayaraq bürcdən-bürcə keçirdi, adamlarından tüfəngi dartıb alıb sinəsinə sıxırdı, barıdan boylanıb nişan alırdı, atırdı:

– Düşmən ayağı Gəncəyə dəyməyəcək!– deyirdi. – Haydı, igidlərim!..– deyirdi.– Qeyrət vaxtıdı!..

… Bu vaxt Kərbəlayı Sadıq təngnəfəs qalanın yuxarısına qalxdı:

– Xan!.. Xan!..– qışqırdı.– Ruslar yeraltı yollarla, lağımlarla şəhərə girir!

Cavad xan:

– Bizi satıblar!..– bağırdı.– Içimizdən satıblar bizi!..

… Əsgərlər qala divarlarının ətrafında yeraltı yolların, lağımların üstünü açırdı və zabitlərin:

– Vperyod!..– qışqırıqları altında şəhərə girirdi.

… Hüseynqulu ağa bürclərdən birinin aşağısında qılıncını sağa-sola işlədib, qalanın üstünə çıxmaq istəyən soldatları irəli buraxmırdı.

… Şəhərin qalaətrafı küçələrində qılıncların, süngülərin, güllələrin savaşı gedirdi.

… Cavad xan əlinə qılınc alıb qalanın üstündə soldatlarla vuruşurdu.

… General Sisianov durbinlə Gəncə qalasına baxırdı.

… Bu vaxt Saday bəy başda olmaqla bir dəstə atlı çapıb özünü yetirdi və ruslara hücum çəkdi.

… Rus topçu zabiti:

– Oqon!..– qışqırdı.

Toplar qala divarlarını uçururdu.

… Vuruşa-vuruşa qalaya doğru irəliləmək istəyən Saday bəyin dəstəsi güllənin, mərmilərin qarşısında get–gedə seyrəlirdi.

… Cavad xan:

– Hüseynqulu hardadır?– qışqırdı.

– Sol bürcdə vuruşur!– dedilər.– Hüseynqulu ağa möhkəm dayanıb!– dedilər.

… Kərbəlayı Sadıq haray qopardı:

– Rus bütün lağımların, keçidlərin ağzını açır!.. Hamısının yerini bilirlər!..

… General Sisianov qışqırdı:

– Gəncədən bir adam da çıxa bilməsin!

… Rus zabitinin tüfəngin titəyini basması ilə sinəsindən vurulmuş ağ atın kişnəyib şahə qalxması və yerə sərilməsi bir oldu.

Saday bəy gözləri bərəli yerə sərilmiş ağ atın altından çıxıb ayağa sıçradı və yerə düşmüş qılıncını götürüb indicə tüfəng atan zabitin üstünə cumdu.

Zabitin ikinci gülləsi Saday bəyin sinəsini deşdi və Saday bəy bir an dayandı, sonra səndələyib üzüqoylu zabitin ayaqlarının altında yerə sərildi.

Zabit ayağı ilə Saday bəyin başını kənara itələdi:

– Axmaq müsəlman,– dedi.– Qılıncla tüfəngin üstünə gəlir.

… Qan-tər içində vuruşan Cavad xan Kərbəlayi Sadığı gördü. Kərbəlayi Sadığın da əlində qılınc var idi.

Cavad xan acı bir heyrətlə:

– Kərbəlayı Sadıq, sən də vuruşursan?– soruşdu.

Kərbəlayı Sadıq:

– Bu bürcün memarı mənəm,– dedi.– Rus mənim meyidimin üstündən keçib bu bürcü ala bilər!

… Hüseynqulu ağa qılıncı növbəti dəfə başının üstünə qaldıranda qarşıdakı soldatın süngüsü onun sinəsini deşdi. Hüseynqulu ağa bir an yerində dondu. Soldat süngünü daha da dərinə soxub, geri dartdı. Hüseynqulu ağa arxası üstə yıxıldı, gözləri göyə zilləndi, dodaqlarının kənarından qan süzüldü və oğlan pıçıldadı:

– Atam sizdən mənim intiqamımı alacaq…

… General Sisianov:

– Toplar ara verməsin!..– qışqırdı.

… Soldat Kərbəlayı Sadığın qılınc həmləsini tüfənginin süngüsü ilə dəf etdi və bir göz qırpımında süngünü altdan yuxarı kişinin boğazına soxdu.

Kərbəlayı Sadıq yıxıldı və soldat onun üstündən addımlayıb:

– Starıy çort!..– dedi və Kərbəlayı Sadığın boğazından qan axan donmuş sifətinə tüpürdü.

… Və əlində qılınc irəli atılmaq istəyən Cavad xan güllə ilə sinəsindən vuruldu, qılınc əlindən düşdü və xan son nəfəsində:

– Bayrağı ver!.. Bayrağı ver!..– qışqırdı. – Bayraqdarın uzatdığı bayrağın dəstəyindən tutub kürəyi bürcün divarını sıyıra-sıyıra yerə çökdü.– Hüseynqulu sizdən mənim intiqamımı alacaq…– pıçıldadı və Cavad xanın da gözləri dondu.

… Ruslar artıq Gəncə qalasına doluşmuşdu.

Gəncə qalası alındı.

## 25.

## 3 yanvar 1804-cü il. Tiflis. Sərdar iqamətgahı.

Sübh tezdən knyaz Sisianov başda olmaqla bir dəstə rus hərbçisi Tiflisin hələ yuxudan oyanmamış boş küçələri ilə iqamətgaha doğru çapırdı.

Atlılar iqamətgahın həyətinə girdi və Sisianov atın belindən yerə sıçrayıb:

– Şampan!..– qışqırdı.– Şampan!..

… Xidmətçilər qədəhlərə şampan süzdü.

Knyaz Sisianov qədəhini yuxarı qaldırıb:

– Cənablar!– dedi.– Bunu qaldıraq yeni və əbədi rus şəhəri Yelizavettapolun şərəfinə!– Və qədəhi sonuncu damlasınacan başına çəkdi.– Nəhayət ki, Gəncəni,– bir an ara verib güldü,– keçmiş Gəncəni aldıq! Cavad xan da, oğlu Hüseynqulu ağa da it kimi gəbərdi!

General Portnyakin indicə içib boşaltdığı qədəhi xidmətçinin uzatdığı sininin üstünə qoyub:

– Zat-aliləri, onlar qəhrəman kimi həlak oldu!– dedi.– Düşmən olsalar da, biz igidliyin qiymətini verməyi bacarmalıyıq!..

Knyaz Sisianov sərt bir ötkəmliklə:

– Onlar it kimi gəbərdi, general!– dedi. – Gəncə bizim olmalıydı, bizim də oldu! Qarabağ da bizim olacaq! İrəvan xanlığı da, Bakı xanlığı da, o biriləri də bizim olacaq! Bütün Gürcüstan da artıq bizimdir!

Knyazın ötkəmliyi general Portnyakinin açıq-aşkar xoşuna gəlmədi və o:

– Bizim?– soruşdu.

Knyaz:

– Bəli, bizim!– dedi.

General Portnyakin içəridən axıb gələn və bu dəm heç gizlətməyə də cəhd etmədiyi bir rus kini və kinayəsi ilə:

– Siz kimsiz ki?– soruşdu.– Gürcü knyazı Sisişvili, yoxsa rus generalı Sisianov?

Knyaz Sisianov düz generalın qarşısına gəldi və onun gözlərinin içinə baxa-baxa:

– Mən rus əsilli general Portnyakinin komandiriyəm!– dedi.– Bildiz, general, mən kiməm?

General Portnyakin susdu.

Knyaz Sisianov:

– Və bunu heç vaxt yadınızdan çıxarmayın! Hətta çoxlu şampan içəndə də!

## İKİNCİ HİSSƏ

### 1.

Ibrahim xan bağçada kiçik uşaqları – Abbasqulu ağa, Gövhər ağa, Hacı Hacan ağa, Səltənətbəyim, Əli ağa ilə oynayırdı.

Abbasqulu ağa:

– Kəndli ilə öküzü oynayaq!– qışqırdı.– Kəndli ilə öküzü!..

Ibrahim xan:

– Yaxşı…– dedi.– Mən kəndli!

Gövhər ağa:

– Mən də öküz!..– qışqırdı.

Ibrahim xan güldü:

– Ay qız,– dedi, – sənnən öküz olar?! Qız nədi, öküz nədi?!

Abbasqulu ağa:

– Öküz mənəm!– dedi.

Ibrahim xan:

– Yaxşı, mən oldum kəndli!– deyib, səsini dəyişdi və Abbasqulu ağaya müraciətlə kəndlinin sözlərini söylədi:

Sarı öküz, sənnən budu diləyim,
Bir günlüyü tamam gərək əkəsən…
Istəmirəm axşamadək çəkəsən,
El töhmətin üstümüzə tökəsən…

Abbasqulu ağa baş barmaqlarını buynuz kimi gicgahından qaldıraraq səsini dəyişib öküzün sözlərini söylədi:

Sən havaxtda mənim gördün işimi?
Qoymayırsan dinc saxlayım başımı…
Qoyundan, keçidən ver yoldaşımı,
Gör, mən onlar ilə necə çəkərəm!..

Uşaqlar da haray-həşirlə oyunu qızışdırırdı…

### 2.

Tehranda şah sarayının qadınlara məxsus hissəsində, kiçik bir baxçada o gözəl fəvvarənin şırıltısı çay şırıltısına bənzəyirdi, amma çay deyildi və kim bilir, o fəvvarəniin kənarında oturub gözlərini uzaq bir nöqtəyə zilləmiş Ağabəyim Ağa suyun o səsinə qulaq asa-asa bəlkə elə bu barədə fikirləşirdi?

Xacə baxçaya daxil olub:

– Gəl, ağa,– dedi.

Əbülfət ağa xacənin ardınca bağçaya girdi:

– Məni nə münasibətilə çağırmısan, Ağabəyim?– soruşdu.

Xacə susəpəni əlinə alıb bağçadakı gülləri sulamaq istədi.

Ağabəyim Ağa qardaşının sualına cavab verməzdən əvvəl:

– Gülləri mən sulamışam, xacə,– dedi.– Sən gedə bilərsən.

Xacə tərəddüd etdi:

– Şahbanu…

Ağabəyim Ağa səsini bir az da ucaldıb təkrar etdi:
– Sən gedə bilərsən!– dedi.
Xacənin uzaq Qarabağdan gəlmiş bu bacı ilə qardaşı bağçada tək qoymaqdan başqa çarəsi qalmadı.
Yalnız xacə bağçadan çıxdıqdan sonra Ağabəyim Ağa soruşdu:
– Deyirlər, Qarabağa gedirsən?
Əbülfət ağa:
– Hə,– dedi.– Onsuz da gəlib sənlə xudahafizləşəcəkdim.
– Elə bil, gözlərini məndən gizlətmək istəyirsən?
– Niyə?
– Səbəbini sən bilməlisən…
– Mənim ürəyim tər-təmizdi, Ağabəyim.
– Bəs, deyirlər, Qarabağa beş yüz seçmə atlı ilə gedirsən?
– Bəli. Şahımız ilə məsləhətləşdik və belə qərara gəldik.
Ağabəyim Ağa qardaşının sözünü təkrar etdi:
– «Şahımızla…"– Sonra dedi:– Deməli, xan atamızın üstünə qoşun çəkirsən?
– Xeyr, mən xan atamızın üstünə qoşun çəkmirəm. Mən istəmirəm ki, o özünü də, bütün Qarabağı da məhv etsin. Xan atamız kafirlərlə danışığa başlayıb. Iran kimi bir müsəlman dövlətinə arxa çevirib, dinsiz kafirlərlə bir olmaq istəyir. Belə müsəlmanlıq olmaz. Islam hümməti belə bir iş tutmamalıdı! Allah bunu bizə bağışlamaz və bütün millətimizi zəlil eləyər!
– Sən millətin dərdini çəkirsən?
– Bəs, mən millətin dərdini çəkməsəm, kim çəkməlidi?! Gördün, Allah Cavad xana necə cəza verdi? Öz müsəlman qardaşlarıyla – qızılbaş ordusuyla birləşib kafirləri torpağımızdan qovmaq əvəzinə, bu boyda Fətəli şahımıza arxa çevirdi, təkbaşına kafirlərlə vuruşdu, axırı da o cürə pis qurtardı!.. Saday bəy də o cürə…– Əbülfət ağa bir an susdu, sonra davam etdi.– Xan atamız Cavad xandan da o tərəfə gedir, kafirlə danışığa başlayır. Bu şeytan tilsimidi, mən bu tilsimi qırmağa gedirəm.
Ağabəyim Ağa dodaqları əsə-əsə:
– Əbülfət…– pıçıldadı.– Əbülfət…– Və birdən-birə çılğınlıqla dedi:– Sən millətin dərdini çəkirsən, yoxsa Qarabağ taxtının dərdini?– Sonra da bərkdən qışqırdı.– Get!.. Get!.. Mən heç kimi görmək istəmirəm!..
Və Ağabəyim Ağa ürəyinin dərinindən axıb gələn bir hönkürtü ilə ağladı.

**3.**

Xidmətçi içəri girib dedi:
– Vanya yüzbaşı hüzurunuza təşrifinə izn istəyir.
Mitəkkəyə söykənərək döşəkcənin üstündə yanpörtü oturub kağızlara baxan Ibrahim xan dikəlib:
– Gəlsin,– dedi.
Vanya yüzbaşı içəri girən kimi, yenə ağır vücuduna yaraşmayan bir cəldliklə irəli yeriyib Ibrahim xanın əlindən öpdü, amma bu dəfə xan ona oturmaq təklif etmədi.
– Nə var, Vanya yüzbaşı, nə xəbərlə gəlmisən?
– Nə xəbər yoxdu ki, xan? Dünya qaynar qazandı, içindəki də pıqqapıq qaynayır. Allah sizin canınızı sağ eləsin, bizə göstərdiyiniz iltifat…

Ibrahim xan onun sözünü kəsdi:
– Mətləbə keç, yüzbaşı. Mənim vaxtım yoxdu.
– Vaxt neyləsin? Bu vurhavura vaxt tab gətirər. O, sizsiniz ki, əlahəzrət, bu qədər işin öhdəsindən…
– Dedim, mətləbə keç, kişi! Vaxtımı alma!
– Fətəli şahın əlli minlik qoşunu gəlib Naxçıvan və Irəvan xanlıqlarının lap sərhəddinə dirənib. Bunu bilirsiz. Deyirlər, bu gün, sabah sərhəddi keçəcək…
– Sonra?
– Məzhəb haqqı, sonrasını deməyə cəsarətim çatmır…
Ibrahim xan yenə nəsə bəd bir xəbər hiss edib ayağa qalxdı və hirslə:
– Mütrüblük eləmə, kişi!– dedi.– Səndə nəvaxt cəsarət olub ki, indi də çatışmasın?.. De, görüm, nə xəbərdi?
– Oğlunuz Əbülfət ağanın başçılığı ilə şahın beş yüz seçmə atlısı Qarabağa gəlməyə hazırlıq görür…
– Nə? Nə dedin?!– Ibrahim xan özündən çıxıb, Vanya yüzbaşının yaxasından yapışdı: – Sən hardan bilirsən bunu?
– Əlahəzrət, indiyədək olub ki, mənim gətirdiyim xəbərlər yalan çıxsın?
Ibrahim xan əlini yüzbaşının yaxasından çəkdi.
Vanya yüzbaşı:
– Xan sağ olsun, Əbülfət ağa qoşunla Qarabulağı keçib Tuğ kəndinə üz tutacaq.
Ibrahim xan:
– Əgər bu söhbət olubsa, Tehran sarayının bağlı qapıları arxasında olub, – dedi.– Bunu sən hardan öyrənmisən?
– Saraylarda da divarın qulağı olur…
– Yaxşı, gedə bilərsən…
Vanya yüzbaşı yerindən tərpənmədi.
Ibrahim xan tərs-tərs yüzbaşıya baxıb:
– Nədi, yenə bayquş xəbəri var?– soruşdu.
– Mənə tapşırığınız var idi, xan…
Ibrahim xanın, elə bil, fikri özündə deyildi:
– Nə tapşırıq?
– Axund Mirmöhsün ağa barədə…
– Hə, nə oldu?
– Oturub-durub Əbülfət ağanı tərifləyir…
Ibrahim xan bu dəfə tamam özündən çıxdı və bağıra-bağıra Vanya yüzbaşını yaxasından yapışıb qapıya tərəf itələdi:
– Nə olsun? Bəyəm Əbülfət ağanı tərifləmək olmaz?! Yaxşı eləyir, tərifləyir!.. Erməni dığası!.. Rədd ol!.. Rədd ol buradan!..

**4.**

Mayor Lisaneviç, daha iki rus zabiti və onları müşayiət edən yerli bəy atların belində Xankəndindən Şuşaya doğru qalxırdı.
… Yaşıl bir yamacdan keçəndə, mayor Lisaneviç, görünür, daha özünü saxlaya bilmədi, atı alt tərəfi sıldırım qayalıq olan yamacın lap kənarına sürdü və orada sinə dolusu bir nəfəs alıb ətrafa baxdı.
Bütün ətraf Şuşa dağları idi.

Sonra mayor boylanıb aşağıdakı dərin uçurumlu yarğana baxdı və yenə sinə dolusu nəfəs aldı:

– Qafqazda şeytani bir gözəllik var…– dedi.– Bunu sözlə ifadə etmək mümkün deyil… Bunu rus şairləri yazacaqlar…

Rus zabitlərindən biri arxadan qışqırdı:

– Ehtiyatlı olun, cənab mayor! Uçuruma düşə bilərsiz!..

Mayor Lisaneviç:

– Uçurumdan qorxan adamın Qafqazda nə işi var?!– dedi və elə o uçurumun başındaca atını şahə qaldırdı, sonra sürətlə geriyə çapıb, Şuşaya qalxan yola çıxdı və eləcə çapa-çapa da yoxuş yuxarı getdi.

**5.**

Aşot Karapetyanın mindiyi fayton Tehranın küçələri ilə gedirdi.

Fayton böyük bir binanın darvazası ağzında dayandı. Aşot Karapetyan faytondan düşüb, darvazanın qarşısındakı gözətçiyə:

– Ağayi-Pirqulu xan məni gözləyir!– dedi.

… Aşot Karapetyan içəri girəndə Pirqulu xan döşəkcədə bardaşqurma oturub, qarşısındakı gödək mizin üstünə yığılmış bir qalaq kağıza baxırdı və Karapetyanı görən kimi:

– Nə oldu, ağayi-Karapetyan, təzə siyahıları gətirdin?–soruşdu.

– Gətirmişəm, ağayi-Pirqulu xan. – Aşot Karapetyan əlindəki kağızları Pirqulu xana uzatdı və yalnız bundan sonra:– Salam–əleyküm,– dedi.

– Əleykümə-salam. Vallah, ağayi-Karapetyan, indi salam verib, salam almağa da macal qalmayıb, – dedi.– Hamısı bir yerdə neçə erməni ailəsi oldu?

– 750 erməni ailəsi Mağara tərəfdəndir, 342 ailə Şirazdandır, 433 ailə Həmədandan, 126 ailə də Tehranın özündəndir. Hamısı da könüllü razılıq vermiş ailələrdir, ağayi-Pirqulu xan. Əvvəl sizə verdiyim siyahı ilə birlikdə düz 6582 erməni ailəsi edir.– Aşot Karapetyan bir daha təkrar etdi.– 6582 ailə!

– Bu birinci mərhələdi ha, baba!..

– Bəli, ağayi-Pirqulu xan. Yeni siyahılar hazırlanmaq üzrədir.

Priqulu xan:

– Xeyli xub! Xeyli xub, ağayi-Karapetyan,– dedi.– Qibleyi-aləm çox tələsdirir!..

**6.**

Axund Mirmöhsün ağa içəri daxil olanda Ibrahim xan pəncərənin qarşısında dayanmışdı.

Ibrahim xan ona sarı çönmədən:

– Axund, – dedi,– mən təfərrüatına varmıram, amma bu gündən sənin ayağın mənim sarayıma dəyməyəcək! Sən Şuşaya da gəlməyəcəksən! Sən arana düşəcəksən, bundan sonra Qarabulağın Saracıq obasında yaşayacaqsan! Sən o obadan bir addım da kənara ayaq atmayacaqsan! – Xan gözlərini pəncərədən ayırıb sərt hərəkətlə başını çevirdi və Axund Mirmöhsün ağaya baxdı.– Get və Allahına şükür et ki, sənin başın Molla Pənahın başı kimi, bədənindən üzülmür. Mən bu barədə artıq danışmaq istəmirəm!.. Get və ibadət et, bəlkə günahlarını yuya bildin!

Axund Mirmöhsün ağa:
– Mən, onsuz da, hər gün ibadətlə məşqulam…– dedi.– Hər bir insanın günahı var. Göndərdiyin sürgündə də, inşallah, ibadətlə məşqul olacağam. Ancaq…
Ibrahim xan:
– Nə ancaq? Nə ancaq?– deyə onun sözünü kəsdi.
Axund Mirmöhsün ağa:
– Ancaq siz kimlə qalacaqsız, əlahəzrət?– dedi və otaqdan çıxdı.

**7.**

Xan sarayının həyəti qaynayırdı. Bir tərəfdə kabab bişirdi, bir tərəfdə ocağın üstündə böyük qazan qaynayırdı, bir tərəfdə hind quşu, toyuq, turac yonulurdu…
Xanəndənin zilə çəkdiyi «Qarabağ şikəstəsi"nin səsi həyətə yayılmışdı:

Əzizinəm, Qarabağ,
Şəki, Şirvan, Qarabağ…
Tehran cənnət də olsa,
Yaddan çıxmaz Qarabağ…

Toyuq yolan arvadlardan biri:
– Allah Ağabəyim Ağanın ömrünü uzun eləsin, gör də, gör, nə sözlər yazıb?! Gör, o bədbəxt, nə çəkir də, qürbətdə!..– dedi və doluxsundu.
O biri arvad:
– Az-z-z, sənin niyə gözün dolur? – dedi.– Xanımlar şah saraylarında kefə baxır, sən də burda zırıldayırsan?
Doluxsunmuş arvad:
– Allah elə kefi kəssin!– dedi və qolu ilə gözünü sildi.
… Qonaq otağında salınmış süfrənin arxasında isə bir–neçə əsabəsi ilə Ibrahim xan, mayor Lisaneviç, onunla birlikdə gələn rus zabitləri əyləşmişdi.
Süfrənin üstünə cürbəcür meyvələr, yeməklər, şərbət, ayran düzülmüşdü.
Danışığı mayoru müşayiət edən azərbaycanlı bəy tərcümə edirdi.
Ibrahim xan:
– Mayor cənabları,– dedi, – mən sizin haqqınızda xoş sözlər eşitmişəm. Sizi görməyimə çox şadam. Mən eşidəndə ki, zat-aliləri cənab Sisianov öz şəxsi nümayəndəsi kimi, mənimlə ilkin danışıqlar üçün cənabınızı göndərir, xeyli məmnun oldum.
Mayor Lisaneviç razılıqla:
– Əlahəzrət imperator Aleksandrın təbəələri, o cümlədən mən də sizin haqqınızda çox eşitmişik və Qarabağın müdrik bir hakimi kimi sizə böyük hörmətimiz var. Sisianov cənabları mənə şərəf verərək tapşırıb ki, əlahəzrət imperatorun şəxsi hədiyyəsini sizə təqdim edim.
Mayor Lisaneviç və onunla gəlmiş rus zabitləri ayağa qalxdılar. Zabitlərdən biri kənardakı mizin üstündən o hədiyyəni götürüb mayora verdi və mayor ehtiyatla hədiyyəni açdı.
Bu – imperator I Aleksandrın qiymətli çərçivə içində böyük portreti idi.
Ibrahim xan bir an o portretə baxdı, sonra ayağa qalxdı, dərhal əyanlar da ayağa qalxdı və Ibrahim xan dedi:

– Bu qiymətli ərməğan həmişə mənimlə və mənim nəslimlə bir yerdə olacaq.– Portreti mayordan alıb bir də baxdı, sonra yanında dayanmış əyana verdi.

Əyan portreti aparıb divar dibindəki yorğan-döşək dolabının üstündə dikəltdi və o an, elə bil, I Aleksandr Şuşada, Qarabağ xanının sarayındakı bu məclisi cismən diqqətlə izləyirdi.

… Xidmətçilər qonaq otağına girib-çıxırdı, təzə-təzə yeməklər gətirirdilər, boşalmış qabları aparırdılar və məclis əhli yeyə-yeyə söhbət edirdi.

Mayor Lisaneviç:

– Hörmətli xan,– dedi,– mən əminəm ki, sizinlə danışıqlarımızın axırı müsbət qurtaracaq, ancaq bundan asılı olmayaraq, xahiş edirəm ki, bir cəhət həmişə sizin xatirənizdə olsun: harada olmağımdan asılı olmayaraq, mənim simamda sizin həqiqi dostunuz var! Bu sözləri sizə mən deyirəm, rus zabiti Lisaneviç!

Ibrahim xan həqiqətən məmnun idi:

– Bu sözlər mənim üçün çox qiymətlidir, cənab mayor! Çox sağ olun!

– Mənim missiyamın məqsədi sizə məlumdur, xan həzrətləri. Söhbət Qarabağ xanlığının böyük Rusiya imperiyasının təbəəliyinə keçməyindən gedir. Bu məsələdə sizin proqressiv mövqeyiniz şəxsən əlahəzrət imperatorun özünə də məlumdur. Zataliləri cənab Sisianov bu barədə əlahəzrət imeratora ətraflı məlumat vermişdir.

– Mən Rusiya ilə dostluq etmək və həmişə ona sadiq qalmaq vədini vermişəm, cənab mayor. Biz vədinə xilaf çıxan adamlar deyilik…

– Biz bunu bilirik, xan həzrətləri. Böyük Rusiya imperiyasının sizə bəslədiyi hörməti siz özünüz də, sizin gələcək nəsilləriniz də əyani şəkildə görəcəksiniz. Siz – dostsunuz! Ancaq…

– Elə bil nəsə deməyə çətinlik çəkirsiniz…

– Fətəli xan sizin oğlunuz Əbülfət ağanı beş yüz atlı ilə Qarabağa göndərib…

– Bilirəm… Mən bu məsələ ilə məşğulam. Mən onun atasıyam, o mənim atam deyil. Mənim dediyim olmalıdır, onun dediyi yox.

– Əlbəttə, belə olmalıdır… Görünür, Əbülfət ağa bizi bəhanə edib Qarabağın xanlıq taxtına çıxmaq istəyir…

Ibrahim xan bir az əsəbi təkrar etdi:

– Mən bu məsələ ilə məşğulam, cənab mayor. Lazım olsa, özüm onun qarşısına çıxacağam.

– Mən yalnız onu deyə bilərəm ki, hörmətli cənab xan, Rusiya heç zaman sizi darda qoymayacaq, sizə xəyanət etməyəcək. Siz və sizin gələcək nəsliniz Rusiya təbəəliyində əbədi olaraq Qarabağ xanlığına rəhbərlik edəcəksiniz. Sizin heç bir hakim hüququnuz məhdudlaşmayacaq. Nə qədər Rusiya olacaq, o qədər də Qarabağ xanlığı olacaq. Nə qədər Qarabağ olacaq, o qədər də Ibrahim xan və onun nəsli Qarabağda xanlıq edəcək!

Ibrahim xan gülümsəyərək barmağı ilə göyü göstərdi:

– Ancaq hər şey bizdən asılı deyil, cənab mayor. Allah da var!

Mayor Lisaneviç:

– Biz Allaha kömək etməliyik!– dedi.

Ibrahim xan diqqətlə mayor Lisaneviçin gözlərinin içinə baxdı:

– Biz Allaha kömək etməliyik?

Mayor Lisaneviç:

– Əlbəttə!– dedi.– Biz bütün yaxşı işlərdə Allaha kömək etməliyik!

Ibrahim xan bir-neçə an susdu, sonra dedi:

– Mən dünya görmüşəm, cənab mayor… Sizin gözlərinizdən görürəm ki, həqiqətən alicənab və xeyirxah adamsınız.

– Təşəkkür edirəm, xan həzrətləri. Siz bunu birgə fəaliyyətimizdə də görəcəksiniz!

**8.**

Şuşa bazarında şıdırğı alış-veriş gedirdi.

… Bir nəfər müştəri:

– Məşədi Abış, mənə yarım girvənkə döyməlik ət ver,– dedi.

Qəssab Məşədi Abış əlində tutduğu bıçağın bir həmləsi ilə dükanın qabağında qarmaqdan asılmış qoç budundan bir tikə ət kəsib ona uzatdı:

– Al.

Adam:

– Bəs tərəzidə çəkmirsən?– soruşdu.

Qəssab Məşədi Abış az qala heyrətlə:

– Ba–a–a!..– dedi.– Mənə inanmırsan?– Sonra əti tərəzinin gözünə qoydu.– Düz yarım girvənkədi, ya yox?

– Bravo!.. Bravo!..– Bu sözləri də mayor Lisaneviç dedi.

Mayor Lisaneviç rus zabitləri ilə birlikdə şəhəri gəzə-gəzə Şuşa bazarına gəlmişdi. Onlara Vanya yüzbaşı bələdçilik edirdi.

Vanya yüzbaşı:

– Bəli!.. Bəli!..– deyə,– elə bil, bir bıçaq vurmaqla əti qram dəqiqliyi ilə kəsən Qəssab Məşədi Abış yox, elə Vanya yüzbaşının özü idi – mayorun «bravo"larını təsdiq etdi, sonra da fəxrlə: – Sağ ol, Məşədi Abış, ara, əlin var olsun!– dedi. – Sonra qonaqları bazarın o biri başına tərəf çəkdi.– Gəlin, gəlin, hələ sizi nalbənd Muxtarın yanına aparım bir!.. Ara, usta odu e!..

**9.**

**10 iyun 1804-cü il. Tehran. Şah sarayı.**

Fətəli şah məşvərət çağırmışdı.

Uzun mizin üstündə Qafqazın xəritəsi açılmışdı və Fətəli şah da, əsabələri də mizin arxasında dayanmışdı.

Fətəli şah dedi:

– Mən daha dözə bilmərəm. Mən gözlədikcə, kafir ruslar bizim şimalımızda möhkəmlənirlər. Rusiya Şimali Qafqazla kifayətlənmir, Cənubi Qafqazı da götürür! – Şah sağ əlinin barmaqlarının beşini də xəritəyə dirədi.– Ingiltərə Rusiyanın əleyhinə bizimlə müqavilə bağladı, ancaq heç bir iş görmədi. Bizi kafir rusların əleyhinə qızışdırırlar, ancaq özləri Napoleonun əleyhinə Rusiya ilə saziş bağlayırlar. Çünki ingilislərin özləri də elə ruslar kimi kafirdir. Mən taxt-tacımızın varisi Abbas Mirzənin sərkərdəliyi ilə əlli minlik ordumuzu Cənubi Qafqaza göndərirəm.

Abbas Mirzə baş əydi:

– Bə-çeşm, qibleyi-aləm! Mənə şərəf verdiniz!

Fətəli şah Pirqulu xana müraciət etdi:
– Ağayi-Pirverdi xan, ermənilərin yığılması bitdimi?
Pirverdi xan:
– Bəli, qibleyi-aləm!– dedi.– Yeddi minə yaxın erməni ailəsi yığmışıq. Əmrinizə müntəzirdir!
– Yeddi minə yaxın, yəni, nə deməkdir?
– Düz 6582 erməni ailəsidir, qibleyi–aləm.
Fətəli şah:
– Çox gözəl! – dedi. – Biz Azərbaycan xanlıqlarını zəiflətmək üçün, mütləq ermənilərdən istifadə etməliyik. Mənim əmrimlə əhli-əyalı ilə ağayi-Pirverdi xanın dediyi qədər erməni yığılıb. Onlar Abbas Mirzənin arxasınca gedəcək. Bu, birinci mərhələdi, inşallah, Allahın köməkliyi ilə bu işi gərək davam etdirək. Qoşunlarımızın Cənubi Qafqazda, xüsusən Azərbaycanda və xüsusən də Irəvan və Qarabağ xanlıqlarında fəth etdiyi torpaqlarda Iran ermənilərini məskun edəcəyik. Belə edəndə, gələcəkdə də o tərəflərdə bizim üçün xətircamlıq olacaq. O yerlərin türkləri isə Irana gətirilməlidir, onları burada səpələmək lazımdı. Bu işi səliqə-səhmanla yerinə yetirməliyik. Ağayi-Pirverdi xan, bu işi sizə həvalə edirəm və ümidvaram ki, sizdən narazı qalmayacağam.
Pirverdi xan:
– Canımla, başımla, qibleyi-aləm!– dedi.– Heç bir şübhəniz olmasın!
Şah davam etdi:
– Abbas Mirzə ilk növbədə Qarabağı ram etməlidir! Özüm də əsas qüvvələrlə, Allah qoysa, ora gedəcəyəm. Qarabağ səfəri rəhmətlik əmim Ağa Məhəmməd şaha düşmədi, bizə düşər, inşallah!.. Firəngistanın səfiri ağayi-Fransua Sebastiani ilə söhbətim olub. Napoleon məktub yazıb mənə qardaşlıq təklif edir. Osmanlıdan, bizdən, bir də özündən ibarət böyük bir ittifaq arzusundadır… Belə bir ittifaq haqqında hələ ki, bir şey deyə bilmərəm… Osmanlı ilə ittifaq?.. Bilmirəm… Bilmirəm, belə bir ittifaqdan bir şey çıxar, ya yox?.. Ancaq Napoleona məktub göndərib Firəngistan ilə saziş imzalamaq fikrindəyəm. Kafirlərlə, kafirlərin özlərinin hiylə dili ilə danışmaq gərək!..

**10.**

Ibrahim xanın gözləri uzaqlara baxırdı və elə bil, o, qarşısında əmrə müntəzir dayanmış Vanya yüzbaşını heç görmürdü.
Ibrahim xan:
– Mən bu işi başqa heç kimə etibar edə bilmərəm,– dedi.– Sən təcrübəli adamsan, bu işi ehtiyatla və gizlin görməlisən.
– Xan sağ olsun, başını cəlladın dəhrəsinin altına qoy de, qoyaram, uf da eləmərəm!
Ibrahim xan:
– Başın hələ ki, mənə lazımdı… Hələ ki!..– dedi və bu sözlər açıq-aşkar ikibaşlı səsləndi.
Vanya yüzbaşı bu sözlərdəki gizli hədəni, gizli xəbərdarlığı hiss etdi və:
– Xan, tapşırığınızı verin!– dedi.

– Sən Əbülfət ağanın yanına getməlisən… Belə bir məqamda oğul ilə atanın savaşını tarix bizə bağışlamaz, Vanya yüzbaşı!.. Onunla məxfi görüşmək istəyirəm. Bunu gərək nə Baba xan, nə də ruslar bilsin. Bu, tamam pünhan bir görüş olmalıdı…
– Nə vaxt yola düşməliyəm?
– Elə bu gecə.

## 11.

Fətəli şah və Ağabəyim Ağa üstünə cürbəcür meyvələrlə dolu qab qoyulmuş kiçik mizin arxasında üzbəüz oturmuşdular.
Ağabəyim Ağa:
– Ibrahim xan sənin qaynatandır,– dedi.– Onun yurdunu kor qoymaq olarmı?
– Bir Allah şahiddir ki, mənim onunla heç bir qərəzim yoxdur! Ancaq onun əməlləri Iranın əleyhinə çevriləndə, mən buna dözə bilmərəm! Sən mənim üçün çox əzizsən, Banu! Bunu bütün Iranda bilməyən yoxdu. Mən öz canımı sənə qurban edə bilərəm, ancaq Iranın maraqları mənim üçün öz canımdan artıqdır!
– Ibrahim xan Qarabağı qorumaq istəyir. O hər vasitə ilə çalışır ki, Azərbaycan vahid bir dövlət olsun. Axı, sən də azəri türküsən…
– Bəli, mən azəri türküyəm. Ancaq mən Şahənşaham! Iran kimi bir məmləkətin başında duran adamam! Mənim bu məmləkət qarşısında məsuliyyətim var! Iranın yarısından çoxu azəri türküdü. Indi mən nə etməliyəm, deməliyəm ki, gedin, şimaldakı xanlarla birləşin, ayrıca bir Azərbaycan dövləti yaradın? Belə şey ola bilməz, Banu! Mən imkan verə bilmərəm ki, azəri xanlıqları ikişaf etsin, böyüsün, sonra da birləşib məmləkətimizi parçalasın, vahid bir dövlət olsun! Biz heç zaman belə şeylə barışa bilmərik. Indi də, yüz illərdən sonra da! Mənim möhtərəm qaynatam isə xam xəyallara düşüb ruslarla dil tapmaq istəyir. Ruslarla ha!.. Bu təkcə Irana yox, bütün Islama xəyanətdir!– Fətəli şah ayağa qalxdı.– Mənim işlərim çoxdu, Banu.– Və otaqdan çıxdı.

## 12.

Sakit bir qaranlıq içində çathaçat yanan ocağın işığı Əbülfət ağanın da, Vanya yüzbaşının da sifətinə düşmüşdü və onlardan bir az aralıdakı çadırın qapısı ağzında dayanmış iki silahlı yavər də aydınca görünürdü.
Əbülfət ağa:
– Sən tək başına, gecənin yarısı bu Dizaxa necə gəlib çıxmısan, ay Vanya yüzbaşı?– soruşdu.
– Əbülfət ağa, indiyədək olub ki, xan atan mənə iş buyura, mən də onu etməyim? Nəyimdi? Bir canımdı, bir də Haykanuş xalandı, vəssalam!.. Bu fani dünyada yaşadığımı, yaşamışam. Nədən qorxacağam? O boyda şəxs mənə iş tapşırıb!
Əbülfət ağa bir müddət susdu, sonra:
– Xan necədir?– soruşdu.
– Maşallah! Yaxşıdı! Allah bədnəzərdən saxlasın!– Vanya yüzbaşı dedi.
Yenə sükut çökdü və əlindəki çubuqla ocağı qurdalayan Əbülfət ağa bir müddətdən sonra o sükutu pozdu.
– Eşidirəm səni?

Vanya yüzbaşı ehtiyatla o tərəf-bu tərəfə baxdı, çadırın qabağındakı yavərlərə sarı boylandı və səsini yavaşıdıb:

– Xan səninlə məxfi görüşmək istəyir,– dedi.

Əbülfət ağa:

– Nə üçün məxfi?– soruşdu.– Mən Fətəli şahdan xəbərsiz onunla necə görüşə bilərəm?

– Vallah, nə deyim, Əbülfət ağa? Atadı… Ürək dözmür də…

– Ürəkdən-zaddan keçib daha, Vanya yüzbaşı!..

– Allah bu dünyanın üzünü qara eləsin!.. Yəqin xanın öyüdü-nəsihəti var…

– Nə öyüd-nəsihət? Fətəli şahın mənə etibar elədiyi qızılbaş atlılarını başsız buraxıb, gedib, rusun ayağına düşməliyəm?

– Nə deyim, vallah… Mən bu fani dünyada az yaşamamışam, ancaq, Əbülfət ağa, məzhəb haqqı, ömrümdə bu gecəki kimi çətin söhbətim olmayıb… Sən bir tikə vaxtından mənim gözümün qabağında böyümüsən… Ibrahim xanın da buyruğu mənimçün qanundu! Ancaq mən nə edim? Vallah, Axund Mirmöhsün ağaya da çox hayıfım gəldi…

– Mirmöhsün ağaya? O ki, mömin bir adamdı, ona nə oldu?

– Xanın qəzəbinə düçar oldu.

– Niyə?

Vanya yüzbaşı ayağa qalxmaq istədi.

– Mən xanın ismarıcını sənə yetirdim, Əbülfət ağa, məni dara çəkmə…

Əbülfət ağa hirslə:

– Mən atamın oğluyam ha, Vanya yüzbaşı!.. – dedi.– Məni cin atına mindirmə. Otur!..

– Baş üstə.

– Axunda nə olub?

– Əlahəzrət Axundu arana, Qarabulağın Saracıq obasına sürgün etdi, orada ev dustağıdı…

– Niyə axı?

– Əbülfət ağa, sən Həzrət Abbas, məni məhşər ayağına çəkmə…

Əbülfət ağa səsini qaldırıb yüzbaşının üzünə çımxırdı:

– Vanya yüzbaşı!..

Vanya yüzbaşı əlacı kəsilmiş, köks ötürdü və:

– Axund Mirmöhsün ağa səni müdafiə edirdi…– dedi.

Əbülfət ağa ayağa qalxdı:

– Bir sözlə, bu iki daşın arasında atam ehtiyat edir ki, mən gəlib onun yerində oturaram, hə?

– Nə deyim, vallah… Mən o kişinin çörəyini yeyirəm…

Əbülfət ağa:

– Olsun!– dedi.– Qoy olsun! Bir halda ki, belədi, mən nə üçün Qarabağ taxtında əyləşməyim?! Hə, yüzbaşı, nə üçün?!

## 13.

… Dizax yaxınlığında ata ilə oğulun savaşı gedirdi.

Hər iki tərəfin atlıları bir-birinə aman vermirdi.

Aydın görünürdü ki, Qarabağ atlıları qızılbaş sərbazlara üstün gəlir.
… Ibrahim xan at belində irəlidəki döyüş meydanına nəzarət edirdi.
Xan yavərinə:
– Çap, Əmiraslan bəyə çatdır ki, Əbülfət ağaya bir şey olmasın!– qışqırdı.
Yavər döyüş meydanına çapdı.
… Qarabağ atlıları qızılbaşları qovurdu və çatanda da qılıncdan keçirirdi.
… Əmiraslan bəy:
– Qovun bu namərdləri!– qışqırırdı.– Qovun!
Yavər çapa-çapa ona yetişdi:
– Xan əmr etdi ki, Əbülfət ağaya əl dəyməyəsiz! Ona gərək xəsarət toxunmasın!
Əmiraslan bəy:
– Onsuz da, Əbülfət ağa arvad kimi qaçıb getdi!..– deyə qışqırdı.

## 14.

## 14 may 1805-ci il. Gəncə yaxınlığındakı Kürək çayının sahili. Çadır.

Nəhayət ki, Ibrahim xanla knyaz Sisianovun görüşü baş tutmuşdu.
Knyazdan və xandan başqa, onları müşayiət edən əsabələr, o cümlədən polkovnik Eristavi, mayor Lisaneviç, Əmiraslan bəy və başqaları da çadırda idi.
Söhbət ayaq üstündə gedirdi və söhbəti polkovnik Eristavi tərcümə edirdi.
Knyaz Sisianov:
– Cənab Ibrahim xan!– dedi.– Sizin böyük Rusiya imperiyasına olan ixlasınız əlahəzrət imperatoru xeyli məmnun etmişdir. Sizin müharibəsiz, qan tökmədən Rusiya təbəəliyini qəbul etmənizi biz həmişə yüksək qiymətləndirəcəyik. Əlahəzrət imperator I Aleksandr mənə böyük iltifat göstərərək tapşırıb ki, onun adından sizə təşəkkürümüzü bildirim. Siz Dizaxda oğlunuz Əbülfət xanın 500 atlısının – seçmə qızılbaş atlılarının qarşısına qəhrəmanlıqla çıxdınız. Onu qaçmağa məcbur etdiniz. Bilirəm, Qafqazda məni tamamilə soyuqqanlı bir varlıq kimi qələmə verirlər, ancaq mən atanın oğulun qabağına getməyinin hansı iztirablar gətirdiyini başa düşürəm… Buna görə də əlahəzrət imperator sizə inanır. Siz başqa xanlar kimi bir söz deyib, başqa iş görmürsünüz.
Ibrahim xan:
– Mənim üçün ən əsas Qarabağın əmin-amanlığıdır,– dedi.
– Əlbəttə! Əmin-amanlıq bizim üçün də əsas şərtdir. Cəllad belə, öz istəyinə qalsa, baş kəsməz! Bizim imzalayacağımız bu müqavilənin də amacı məhz əmin-amanlıqdır. Sənədin türkcəsi ilə mayor Lisaneviç sizi tanış edib.
Mayor:
– Elədir, cənab Baş komandan!– dedi.
Ibrahim xan da başını tərpədib təsdiq etdi.
Knyaz Sisianov davam etdi:
– Müqaviləyə əsasən Qarabağ xanı, onun varisləri, xanlığın bütün əhalisi Rusiya təbəəliyinə qəbul olunur. Eyni zamanda, sizin Qarabağdakı xanlıq hüququnuz bütün zamanlar üçün təsdiq olunur. Əslində, bu, iki dövlət arasında dostluq və qardaşlıq

müqaviləsidir. Rusiya həmişə sizə dayaq olacaq. Iran da, Osmanlı padşahlığı da bundan sonra sizi tək görməyəcək, sizin torpağınızı tapdaq altına salmayacaq. Buna görə də siz…

Ibrahim xan knyazın sözünü kəsdi:

– Buna görə də mən Rusiya xəzinəsinə hər il səkkiz min çervon ödəməliyəm…

Xanın sözlərində açıqca bir tənə hiss olunsa da, knyaz Sisianov gülümsədi:

– Bu sizin üçün elə də böyük bir məbləğ deyil, hörmətli xan…

– Ancaq biz dostluqdan, qardaşlıqdan danışırdıq…

Knyaz qaşlarını çatdı və soyuq bir səslə:

– Təzədən danışıqlara başlamalıyıq?– soruşdu.

Ibrahim xan:

– Yox…– dedi.– Bunun bir mənası yoxdur. Mən öz mövqeyimi müəyyənləşdirmişəm… Artıq geriyə yol yoxdur.

Knyaz Sisianov:

– Bravo!.. Bravo!..– dedi.– Ibrahim xan, siz əsil siyasət adamısız, həqiqətin gözünə dik baxa bilirsiniz!– Sonra əlinin işarəsi ilə çadırın yuxarı başında qoyulmuş mizi göstərdi.– Indi isə, buyurun!

Onlar mizə yaxınlaşdılar. Müqavilənin mətni mizin üstündə idi.

Knyaz Sisianov Ibrahim xanı mizin arxasındakı kürsüyə dəvət etdi:

– Buyurun, cənab Ibrahim xan!

Ibrahim xan mizin arxasına keçdi, kürsüdə oturmayıb, əyilərək, müqaviləyə tələsik imza atdı.

Sonra knyaz Sisianov mizin arxasına keçdi, kürsüdə əyləşdi və müqaviləni imzalamazdan əvvəl:

– Cənablar!– dedi.– Bu, tarixi bir məqamdır! Bu gün – 1805-ci ilin 14 may günü həmişəlik qoca tarixin yaddaşında qalacaq. Böyük Rusiya immperiyasının Qarabağ xanlığı ilə bağladığı Kürək müqaviləsini gələcək nəsillər də daima xatırlayacaq!

Və knyaz Sisianov, elə bil, hər anın möhlətini uzatmaq istəyirdi – aramla müqaviləni imzaladı, sonra ayağa qalxıb əlini Ibrahim xana uzatdı:

– Təbrik edirəm!– dedi.

Onlar əl tutuşdular.

Knyaz Sisianov əlində qovluq tutmuş rus zabitinə başı ilə işarə etdi və dedi:

– Indi isə, cənab Ibrahim xan, böyük məmnuniyyətlə bildirirəm ki, əlahəzrət imperator I Aleksandrın Fərmanı ilə sizə general rütbəsi verilir.

Rus zabiti irəli çıxıb qovluğu uzatdı və knyaz Fərmanı polkovnik Eristavidən alıb Ibrahim xana təqdim etdi.

Ibrahim xan:

– Təşəkkür edirəm, zat-aliləri…– dedi.– Xahiş edirəm mənim minnətdarlığımı əlahəzrət imperatora çatdırasınız.

Knyaz:

– Mütləq!– dedi.– Mütləq çatdıracağam, cənab Ibrahim xan! Arxayın ola bilərsiniz! – Sisianovun kefi açıq-aşkar kökəlmişdi və o, polkovnik Eristaviyə işarə eldərək,– hörmətli Ibrahim xan, bizim tərcüməçi dostumuzun türkcəsi necədir?– soruşdu.

Ibrahim xan:

– Əladır!– dedi.

Knyaz Sisianov qürurla:
– Görürsünüz,– dedi.– Bu, sizə və sizin xalqınıza bizim hörmətimizin ifadəsidir. Rus polkovniki sizin dilinizi bu cür öyrənib!
Bütün bu sözləri tərcümə edən polkovnik Eristavi tərifdən özünü bir az naqolay hiss etdi və:
– Fransız dili Avropada nədirsə, zat-aliləri, türk dili də bütün Qafqazda odur!– dedi.
Görünür, polkovnikin bu sözləri knyazın o qədər də xoşuna gəlmədi və o yenə siyasətə qayıtdı:
– Razılaşdığımız kimi, mən Şuşaya qarnizon göndərməliyəm. Düzdü, qarnizonun komandirini hələ təyin etməmişəm, ancaq güman edirəm ki, bu gün-sabah bu məsələ həllini tapacaq.
Ibrahim xan mayor Lisaneviçə baxdı və dedi:
– Zat-aliləri, mən xahiş edirəm Şuşaya mayor Lisaneviçi təyin edəsiniz.
Knyaz Sisianov:
– O-o-o!.. Siz adam tanıyansınız, cənab Ibrahim xan!– deyib güldü.– Siz deyən olsun! Qoy, mayor Lisaneviç orada öz generalından muğayat olsun!

**15.**

Axşam düşürdü və göz işlədikcə uzanan dümdüz çöllük yavaş-yavaş qaranlıq içində itirdi.
Irəlidə bir kareta, arxasıyca bir dəstə atlı Kürək görüşündən sonra Tiflisə tərəf çapırdı.
Knyaz Sisianov karetada tək gedirdi.
Sonra knyaz karetanın pəncərəsindən at belində onu müşayiət edən yavərə dedi:
– Mayor Lisaneviçi çağırın.
Yavər dərhal atın ağzını çevirib, arxadan gələn atlılara tərəf çapdı və mayorla birlikdə geri qayıtdı.
Mayor Lisaneviç kareta ilə yanaşı gedirdi.
Knyaz Sisianov dedi:
– Mən sizi yaxşı tanıyıram, mayor, bilirəm ki, məsuliyyəti hiss edirsiniz!
Mayor:
– Təşəkkür edirəm, zat-aliləri!– dedi.
– Şuşa qarnizonunun komandiri, əslində, Şuşanın və bütün Qarabağın sahibi olmalıdır. Ibrahim xan mənim heç xoşuma gəlmədi. Elə bil, yatıb, indi yuxudan oyanıb… Mən ondan hər şey gözləyirəm… Gördünüz, müqaviləyə imzanı necə atdı? Heç olmasa, nəzakət xətrinə də, oturmadı. Generallıq fərmanını necə qarşıladı? Elə bil, ona generallıq rütbəsi verilmirdi, ölüm hökmü oxunurdu… Rusiya imperiyasının generallığını öz şəninə sığışdırmır, axmaq qoca… Siz çox diqqətli və ehtiyatlı olmalısınız!
Mayor:
– Zat-aliləri,– dedi.– Mənim üçün anamız Rusiyaya şərəflə xidmət etməkdən müqəddəs bir şey yoxdur!
– Mən bu xanların heç birinə ianmıram. Naxçıvan hakimi Kəlbəli xan, Irəvan hakimi Məhəmməd xan bizimlə əhdnaməni pozub, indi Abbas Mirzəyə kömək

edirlər. Düzdü, Ibrahim xanın nümunəsi yaxşı oldu, Şəki xanı da indi bizimlə müqaviləyə imza atır, ancaq mən onlara da inanmıram! Inanmıram, mayor, inanmıram! Siz də inanmayın və lazım gələndə amansız olmağı bacarın!

… Kareta da, atlılar da uzaqlaşıb axşamın ala-toranında gözdən itdi…

## 16.

Axşam düşürdü və yavaş-yavaş Şuşa dağlarının ancaq qaraltısı görünürdü…

Bir dəstə atlı Şuşa qalasına tərəf qalxırdı.

Irəlidə at belində Ibrahim xan Əmiraslan bəylə qoşa addımlayırdı.

Bir az arxada bir dəstə atlı gəlirdi.

Ibrahim xan Əmiraslan bəyə baxdı və soruşdu:

– Nə fikirləşirsən, qoşunbaşı?

Əmiraslan bəy cavab vermədi.

Ibrahim xan bir də təkrar etdi:

– Nə fikirləşirsən? De!

Əmirsalan bəy yenə bir müddət susub, sonra dedi:

– Görəsən, səhv etmirik ki, xan?

Ibrahim xan gözlərini qarşı dağlara zillədi və handan-hana:

– Bilmirəm…– dedi.

## 17.

Qarnizon dağ yolu ilə Şuşaya tərəf qalxırdı.

Başı qarlı Şuşa dağları o ucalıqdan, elə bil, qarnizona baxırdı.

At belində irəlidə gedən mayor Lisaneviç yanındakı zabitə:

– Baxın, necə əzəmətli dağlardı!..– dedi.– Elə bil, bu dağlar bizi salamlayır!.. Elə bil, bu dağlar bizi çoxdan gözləyirdi…

## 18.

### 12 iyun 1805-ci il. Araz sahili. Abbas Mirzənin çadırı.

Iran qoşununun sərkərdələri Abbas Mirzənin çadırına yığışmışdı.

Abbas Mirzə:

– Pirqulu xan!– dedi.– Sən qəhrəmanlıq göstərib, rəşadətli qoşunlarımızla Əsgəran qalasını ram etdin! Mən şərəfli bir tapşırığı yerinə yetirərək şah babamızın hədiyyəsini sənə təqdim edirəm!

Abbas Mirzə qulamın gətirdiyi böyük xəncərin daş-qaşlı dəstəyindən tutub, eləcə də daş-qaşlı qınından sivirdi və:

– Qoy bu qılınc həmişə sənə yar olsun!– dedi.

Pirqulu xan qılıncı vəliəhddən aldı, sıyırıb ülgücündən öpüb gözünün üstünə tutdu, sonra qıllıncı qınına soxub dedi:

– Mən şah babamızın böyük iltifatla verdiyi bu hədiyyəni alıb hüzurunuzda bir daha bidirirəm ki, son nəfəsimə qədər canımla, qanımla anamız səltənəti-Irana

xidmət edəcəyəm! Qibleyi-aləm əmin olsun ki, onun əmri mənim üçün Quran ayəsi kimi bir şeydir!

Abbas Mirzə:

– Indi isə erməniləri Əsgəranda yerləşdirmək lazımdır!– dedi.

**19.**

Ibrahim xan hirsli gözləri ilə baxırdı.

Onun gözlərinin qarası böyümüşdü, az qalırdı hədəqəsindən çıxsın.

Ibrahim xan güzgüdə özü özünə baxırdı.

Və Ibrahim xan qarası böyüyüb, az qala, hədəqəsindən çıxacaq o gözləri ilə gözlərinə baxa-baxa:

– Indi sən kimsən?– soruşdu.–Yalançı rus generalı, yoxsa Qarabağın yalançı xanı?

**20.**

Əsgəranın küçələrində aləm bir-birinə qarışmışdı.

Qızılbaş sərbazları azərbaycanlı ailələri evlərindən çıxarıb, at və eşşək arabalarında özləri ilə gətirdikləri erməni ailələrini həmin evlərdə yerləşdirirdilər. Azərbaycanlı ailələr isə boşalmış arabalara doldurulurdu.

... Əsgəranın küçələrini çığır-bağır bürümüşdü... Uşağını çağıran kim, atasını-anasını səsləyən kim, söyən kim, döyən kim, qarğış eləyən, əlacsızlıqdan başına-gözünə döyən kim...

– Ay zalımlar, ev-eşiyimizi burda qoyub hara aparırsız bizi?

– Bəs heyvanlar?

– Ay aman!..

– Ata!..

– Ay insafsızlar, heç olmasa, qoyun evin kişisi gəlsin!

– Çıxın! Oturun arabalara!– Qızılbaş sərbazları ağına-bozuna baxmadan ev-eşik sahiblərini qamçılaya-qamçılaya, yaxasından yapışıb itələyə-itələyə, qolundan tutub sürükləyə-sürükləyə arabalara doldururdu.

... Ağız deyəni qulaq eşitmirdi. Uşaqların çığırtısı, arvadların ah-naləsi, qarğışı, kişilərin söyüşü bir-birinə qarışmışdı.

... Sərbazlardan biri əlindəki qamçını havada oynada-oynada?

– Haydı, çıxın!– qışqırırdı.– Haydı, arabalara!..

Yaşlı bir kişi:

– Sən türksən?– soruşdu.

Sərbaz:

– Bə nəyəm, baba?– dedi.– Əlbəttə, türkəm!..

– Bəs, sən necə türksən ki, bizi evimizdən, elimizdən-obamızdan qoparıb Irana sürürsən? – kişi soruşdu.

– Pirqulu xanın əmridi, baba!– sərbaz dedi.

– Pirqulu xan da türkdü?

– Əlbəttə, baba! Bə nədi? Abbas Mirzə də türkdü! Qibleyi-aləmin özü də türkdü!

Kişi sərbazın üzünə bir lomba tüpürdü:

– Tüpürüm sizin kimi türklərə!
Sərbaz kişinin belinə bir qamçı çəkdi:
– Həpənd oğlu, həpənd!
Bir qamçı da… Bir qamçı da…

**21.**

Güllə səsinin gəlməyi ilə göydə boşqabın çiling-çiling sınmağı bir oldu.
Göyə atılan daha bir boşqab vurulub çiling-çiling oldu.
Sonra üçüncü boşqab…
Mayor Lisaneviç qarşısındakı mizə düzülmüş tapancaları bir-bir götürüb zabitin göyə tulladığı boşqabları vura-vura Cıdır düzündə nişan atırdı.
Mayor daha bir-neçə boşqab vurub, tapancanı mizin üstünə atdı və:
– Bəsdir, poruçik!– deyib, yaxındakı qayanın başına tərəf addımladı, qarşıda – yarğanın qarşı tərəfindəki Topxana meşəsinə baxdı, sonra yarğanın dibində qıjıltıyla axan Daşaltı çayına baxdı.– Mən heç vaxt heç kimə paxıllıq etməmişəm,– dedi.– Ancaq indi şairlərə paxıllıq edirəm, poruçik!

**22.**

Cənubi Qafqazın xəritəsində cürbəcür xətlər çəkilmiş, işarələr qoyulmuşdu.
… Fətəli şah hündür qamətini əyib diqqətlə mizin üstündə açılmış xəritəyə baxırdı.
Xidmətçi qapını açıb:
– Qibleyi-aləm,–dedi.–Ağayi-Əbülfət ağa hüzurunuza buyurmağa gəlib.
Fətəli şah qamətini düzəltmədən başını qaldırıb qəzəb və kinayə dolu gözləri ilə xidmətçiyə baxdı:
– Bizi aləmdə xar eləyən fərsiz qayınım nə istəyr? Özünü də biabır elədi, bacısının da adına xəcalət gətirdi.. Rədd olsun!
Xidmətçi baş əyib otaqdan çıxdı.
Fətəli şah yenə diqqətini toplayıb xəritəyə baxdı.

**23.**

Dörd-beş rus soldatının, deyəsən, kefi kök idi, gözəl bir rus mahnısı oxuya-oxuya Şuşanın küçələrini gəzirdilər.
… Və onlar eləcə gəlib bazara çıxdılar.
… Şuşa bazarında əvvəlki alış-veriş, əvvəlki səs-küy, əvvəlki ovqat yox idi.
Şuşa bazarı, elə bil, sınıxmışdı.
… Qəssab Məşədi Abışın da müştərisi yox idi.
Soldatlar gəlib onun dükanının qabağında dayanıb, qarmaqdan asılı düzülmüş təzə-tər ətlərə baxdılar və soldatlardan biri əlini uzadıb:
– Myaso xoçu!– dedi.
Qəssab Məşədi Abış:
– Köpək uşağı!– dedi.– Ermənilərin arağını dümləyib yenə gəliblər!
Soldat:

– Çto on qovorit?– soruşdu.
O birisi:
– A çert yeqo znayet?– dedi, sonra: – Day nam myaso!– qışqırdı.
Qəssab Məşədi Abış dükanın yuxarıdan açılıb-örtülən qapısını soldatların burnunun ucundan aşağı salıb dükanı bağladı.
Soldat:
– Day nam myaso, svoloç!– bağırdı və çiynindəki tüfəngi çıxarıb dükanın qapısına atmaq istədi.
O biri soldat:
– Ne nado! – deyə ona imkan vermədi.– Çort s nim! Poşli!..
… Və soldatlar yenə o gözəl rus mahnısını oxuya-oxuya, keflə Şuşanın küçələrini gəzirdi…

## 24.

Vanya yüzbaşı Şuşa qarnizonunun yerləşdiyi binaya gələndə rus gözətçilər onu tanıyıb heç nə soruşmadılar:
– Proxodite.
Yüzbaşı içəri girdi və onu görən rus zabiti:
– Yenə nə olub, Vanya yüzbaşı?– soruşdu.
Vanya yüzbaşı şikayət etdi:
– Ara, nə olacaq? Ara, mən söküldüm daha! Məzhəb haqqı, mən lümlüt olmuşam! Hardadı cənab mayor?
– Öz kabinetində!
Vanya yüzbaşı arakəsmə ilə gedib qapılardan birini açdı.
Mayor Lisaneviç iş masasının arxasında əyləşmişdi və Vanya yüzbaşını görən kimi, ayağa qalxıb gülümsədi:
– Xoş gəlmisiz, cənab yüzbaşı!
– Sağ olun…
– Necəsiz?
– Çox pisəm!
Mayor təəccüb etdi:
– Niyə?
Vanya yüzbaşı:
– Siz Ibrahim xanla müqavilə bağladız,– dedi.– Belədi?
– Bəli.
– Orada birinci yazdız ki, Ibrahim xan bütün dövlətlərlə əlaqəsini qəti kəsib, tamam dünya miqyasında təkcə rus dövlətinə tabe olsun. Belədi?
– Belədi.
– Indi Ibrahim xan kiminlə hansı əlaqəni kəsib-kəsməyib, bilmirəm. Bu sizin işinizdi! Ikinci, yazdız ki, xan qonşu ölkələrlə, ancaq rus sərdarının icazəsi ilə münasibət saxlaya bilər. Onların məktublarına ancaq rus sərdarının icazəsi ilə cavab verə bilər. Indi Ibrahim xan gündə Ağabəyim Ağa ilə məktublaşır-məktublaşmır, bilmirəm. Bu sizin işinizdi. Üçüncü, yazdız ki, Qarabağda olan rus qoşunu üçün xan ucuz qiymətə buğda almalıdı. Belədi?
Mayor Lisaneviç səbr və açıq-aydın hiss olunan bir maraqla qulaq asa-asa yenə:

– Bəli, elədir!– dedi.
– Ara, təkcə ucuz qiymətə buğdayla 500 əsgər saxlayarlar?! Ara, vallah-billah, mən söküldüm! Araq ver, donuz ver, yağ ver, pendir ver!..
Mayor güldü:
– Nə olar? Siz bizim varlı dostumuzsuz!
– Ara, hansı türkün həyatinə girsən, məndən on dəfə varlıdı!
– Özünüzü kasıb göstərməyin, cənab yüzbaşı! Darıxmayın!
– Ara, darıxmayım, bəs nə edim? Kimdi Qarabağın sahibi? Türklərdi, ruslardı?
– Türklərin gözəl bir atalar misalı var.
Vanya yüzbaşı:
– Türklərin bütün atalar misalı gözəldi,– dedi.– Hansını deyirsiz?
– Xəstə tələsər, armud vaxtında dəyər.
Vanya yüzbaşı yenə şikayət etdi:
– Ara, bu armud bəs nə zaman dəyəcək? Bizim ömrümüz çatacaq buna?

**25.**

Əmiraslan bəy Xan sarayının həyatində onlara tərəf gələndə Ibrahim xan Gövhər ağanı yelləncəkdə yelləyirdi.
Gövhər ağa:
– Bərk itələ!– dedi.– Bərk yellə!
Ibrahim xan Əmiraslan bəyi görüb:
– Bəsdi,– dedi.– Düş, qaç.
Gövhər ağa da Əmiraslan bəyi gördü və başa düşdü ki, getmək lazımdı, yelləncəkdən düşüb, könülsüz-könülsüz uzaqlaşdı.
Ibrahim xan qızın ardınca baxdı, sonra Əmiraslan bəydən soruşdu:
– Nədi? Neçə vaxtdı görürəm, özünə yer tapa bilmirsən.– Bir az hirsli təkrar etdi:– Nədi?
Əmiraslan bəy:
– Xan sağ olsun, üzr istəyirəm ki, cəsarət edib sizdən izn istəyirəm.
– Nə izn?
– Izn verin, mən bir günün içində o rus qarnizonunu dağıdıb, onları Qarabağdan qovum! O 500 soldata sizdən bircə gün vaxt istəyirəm, bacarmasam, vurdurun boynumu!
– Sonra?
– Sonra da Allah kərimdi!
Ibrahim xan yanıb-töküldü:
– A kişilər!– dedi.– Ay mənim qardaşlarım! Ay bəylər! Ay qəhrəmanlar! Təkcə Allaha ümidin axırını Cavad xan göstərmədi sizə? Nə üçün sizin gözünüz bu qədər bağlıdı? Bu qədər avamlıq olmaz axı!.. Nə üçün siz elə bilirsiz ki, mən bu torpağı sizdən az istəyirəm?! Nə üçün siz elə bilirsiz ki, mənim ruslardan sizdən az zəhləm gedir?! Sən qovdun qarnizonu, başa düşdüm! Bəs, Sisianov gəlib bütün bu eli-obanı topa tutanda nə edəcəksiz?! Nə elədi səndən əvvəlki qoşunbaşı? Saday bəy ki, bütün Qarabağ igidləri onun başına and içirdi! Nə elədi? Getdi Cavad bəyə kömək eləməyə, üç nəfər-beş nəfər əsgər öldürdü, özünü də məhv elədi!
Ibrahim xan susdu və araya sükut çökdü.

Handan-hana Əmiraslan bəy soruşdu:
– Bəs biz nə etməliyik, xan sağ olsun? Əsgərlər analarımızın, bacılarımızın gözü qabağında erməni arağı içib, keflənib qışqırmalıdı, bizi də vecinə almamalıdı?
Ibrahim xan:
– Dözmək lazımdı!– dedi.
Yenə sükut çökdü və bu dəfə sükutu Ibrahim xan özü pozdu:
– Mən məlumat almışam ki, Abbas Mirzə rusların üstünə böyük hücuma hazırlaşır. Səbr elə… Görək, nə olur?..

## 26.

## 9 iyul 1805-ci il. Şahbulaq. Abbas Mirzənin qərargahı.

Abbas Mirzə hərbi məşvərət çağırmışdı.
– Kafir polkovnik Koryagin qaçdı, gördünüz ki? Şahbulağ kimi bir qalanı rəşadətli ordumuza təslim edib qaçdı. Ağayi-Pirqulu xan onları qıra-qıra təqib etdi. Indi Muxrat qəsrində gizləniblər, Koryagin kömək gözləyir. Ancaq onlara kömək gələnə qədər biz Muxratı da almalıyıq, sonra, bax, buradan,– Abbas Mirzə xəritədə Qazaxı göstərdi,– Qazaxdan böyük hücuma keçməliyik. Buradan başlayıb Dərbəndə kimi kafirləri qovmalıyıq. Qoşunlarımız kafir rusları qovduqca, xanlıqları da, Gürcüstanı da birdəfəlik məmləkətimizə birləşdirməliyik. Bəsdir, xanların nazı ilə oynadıq! Qibleyi-aləmin uca hakimiyyəti bu yerlərdə həmişəlik bərpa olunmalıdı!

## 27.

## 27 iyul 1805-ci il. Qazax yaxınlığındakı Zəyəm kəndinin ətrafı.

… Iran qoşunları ilə rus qoşunları arasında şiddətli döyüş gedirdi.
… Topçular, piyadalar, süvarilər – hamısı bir-birinə qarışmışdı.
… Toplar atılır, atlar şahə qalxır, qılınclar toqquşurdu.
… Hər iki tərəf ölürdü və öldürürdü.
… Rus zabitlərinin əhatəsində dayanmış general Portnyakin göstərişlər verirdi.
… At belində ora-bura vurnuxan Pirqulu xan əlinin işarəsi ilə Iran süvarilərini döyüş meydanına göndərirdi:
– Haydı, igidlərim!.. Allah bizimlədi!..
… Iranlı süvarinin qılıncı piyada soldatın başını yarıya böldü:
– Al, kafir it oğlu!.. – Sonra əyilib qılıncı o biri soldatın qarnından üzüyuxarı çəkdi: – Bu da sənin payın!..
… Soldat süngünü Iran sərbazının qarnına soxdu:
– Tufu, bezbojnik! – deyib onun cəsədinə tüpürdü.
… Hər iki tərəfdən atılan top mərmiləri döyüş meydanında partladıqca, süvarilər də, atları da, piyadalar da qırılırdı.
… Və bu vaxt general Portnyakin yerində səndələdi.
Qışqırıq qopdu:
– Qenerala ranili!

General Portnyakinin ətrafındakı zabitlər onu qucaqlarına alıb yerə uzatdılar.
Generalın mundirinin yaxası qana bulaşmışdı.
Zabitlərdən biri onun mundirinin yaxasını açmaq istəyirdi.
General gözlərini açıb:
– Lazım deyil, polkovnik Koryagin…– dedi.– Bu ölümcül yaradı…– Sonra polkovnikin qollarına söykənib bir az dikəldi və xırıldaya-xırıldaya: – Mən Rusiyada ölmək istəyirəm!..– dedi və xırıldayan səsini bir az da ucalda bildi.– Eşidirsiz?.. Mən anamız Rusiyada ölmək istəyirəm!.. Rusiyada…– Və generalın başı sinəsinə düşdü.
Polkovnik Koryagin general Portnyakini ehtiyatla yerə uzatdı və onun gözlərini qapayıb ayağa qalxdı, bir müddət generala baxdı, sonra qılıncını sivirib irəli cumdu:
– Vperyod!.. Za matuşku Rossiyu, za imperatora, vperyod!..
… Ruslar hücuma keçmişdi…

**28.**

Abbas Mirzə at belində və bir neçə atlının əhatəsində düşərgənin qarşısında dayanmışdı.
Yağış yağmağa başlamışdı, amma Abbas Mirzə də, o biri atlılar da qətiyyən bunun fərqində deyildi.
Gözlərini uzağa dikmiş Abbas Mirzə fikirli və qayğılı idi.
Bu vaxt onlara tərəf çapan bir atlı göründü.
Bu atlı Pirqulu xan idi.
Pirqulu xan çapıb Abbas Mirzənin qabağına gəldi və həyəcanla:
– Naibüssəltənə! Naibüssəltənə! Evimiz yıxıldı!– qışqırdı.– Kafirlər hücuma keçib. Bizimkilər qaçır. Gəldim ki, cənabınızı xəbərdar edim, sizi xilas edək, Naibüssəltənə! Amanın bir günüdü! Sizə xətər toxunmasın!
Abbas Mirzə:
– Pədər-süxtə!–qışqırdı və bir göz qırpımında yəhərin kənarından qamçısını çəkib Pirqulu xanı sifətindən qamçıladı.– Pədər-süxtə! Məni xilas edənə bax! It oğlu, it! Zənən kimi qaçıb gəlib ki, Naibüssəltənəni xəbərdar etsin!.. It oğlu, it!..
Abbas Mirzə Pirqulu xanı dəlicəsinə qamçılayırdı…

**29.**

**28 yanvar 1806-cı il. Tiflis. Sərdar iqamətgahı.**

Knyaz Sisianov müşavirə çağırmışdı.
– General Zavalişin donamanı Lənkərandan Bakı yaxınlığına aparıb. Dünən səhər tezdən sahilə desant çıxarıb və Bakının iki kilometrliyində… Polkovnik Eristavi, o yerin adı necədir?
Polkovnik Eristavi:
– Naxırbulaq. O yerin adı Naxırbulaqdır, zat-aliləri,– dedi.
Knyaz Sisianov sözünə davam etdi:
– Hə, general Zavalişin desant çıxararaq o yerdə düşərgə qurub. Bizim Tehrandakı dostlarımız xəbər verirlər ki, Bakı xanı Hüseynqulu xan Fətəli şahdan kömək istəyib. Şah urmiyalı Əsgər xana tapşırıb ki, qoşunla Bakı xanlığına köməyə

getsin. Məlumata görə, Qubalı Şeyxəli xan da Bakı xanına kömək edəcəyinə söz verib. Biz bütün bunlara imkan verə bilmərik. Əlahəzrət imperator Bakı xanlığı ilə birdəfəlik qurtarmağı tələb edir. Biz bu dəfə ya güclə Bakını almalıyıq, ya da qoşunların gücünü və mövqeyini göstərməklə ultimatum vasitəsilə Qarabağ kimi Bakıya da girməliyik. Mən artilleriyanı da götürüb bu gün Bakıya yola düşürəm. Biz Naxırbulaqda general Zavalişinin desantı ilə birləşməliyik. Sonra isə ultimatum verib məsələni həll etməliyik. Cənablar, mənə yaxşı yol diləyin! Ürəyimə damıb ki, mənim bu səfərim ən uğurlu səfərlərimdən biri olacaq!.. Güman edirəm ki, on beş, uzağı iyirmi gündən sonra burada yenə görüşəcəyik.

### 30.

### 8 fevral 1806-cı il. Bakının ətrafı.

Knyaz Sisianov ilə polkovnik Eristavi at belində astadan çapa-çapa yanaşı gedirdi.

Knyaz Sisianov:

– Bu gün mənim həyatımda ən xoşbəxt günlərdən biridir, polkovnik,– dedi və güldü.– Görünür, Allah belə buyurub ki, mənim gələcəkdə yazacağım memuarlarda bu cür xoşbəxt günlərimin səhifələri çox olsun… Bakı da Rusiya təbəəliyini qəbul etdi. Bakı da bizim oldu! Indi baxarsız, polkovnik, Hüseynqulu xan it kimi qabağımızda sülənəcək! Nə qədər aldatdı bizi?! Nə qədər bizə yalançı vədlər verdi?! Indi güc görüb, qorxusundan muma dönüb! Sukin sın! Bunların hamısı it tayfasıdı!

Polkovnik Eristavi:

– Dönə-dönə üzr istəyirəm, zat-aliləri! Ancaq onlarla belə rəftar etmək olmaz…

Knyaz Sisianovun həmin gün kefi, görünür, həqiqətən kök idi və o yenə güldü:

– Əzizim Eristavi!.. Siz yalnız mənim yavərim deyilsiniz, eyni zamanda, mənim dostumsunuz! Deyəsən, sizin babalarınızın Qafqaz qanı hərdən içinizdə bu yerlərin təəssübkeşliyini etmək istəyir…

– Bəs sizin?

– Sizə doğrusunu deyim, polkovnik? Patetikadan kənar həqiqəti? Yox, heç zaman!.. Eşidirsiniz? Heç zaman! Və mən bununla fəxr edirəm, polkovnik! Mən fəxr edirəm ki, mənim içimdə vəhşi Qafqazdan heç bir əsər-əlamət qalmayıb!..

… Və elə bu vaxt Hüseynqulu xan bir dəstə atlı ilə Bakının Qoşa Qala Qapısı ağzında onları gözləyirdi.

Hüseynqulu xan:

– Allah kafirlərin böyük generalı bu məlunla mənim ilk görüşümü xalqımız üçün xeyirli etsin! – dedi.– Bunların bəlası millətimizin başının üstündən iraq olsun!

Xan ilə yanaşı dayanmış Ibrahim bəy:

– Kafirlər bizim xalqımıza necə xeyir gətirə bilərlər, əmioğlu? – soruşdu.– Bunların bəlası millətimizin başının üstündən necə iraq ola bilər ki, sən onlara itaətini bildirirsən? Indi də Bakının açarını ona təqdim etməyə hazırlaşırsan?!

– Bəs nə edim? Başımızın üstünü almış bu bəladan millətimizi necə qurtarım? Fətəli şahdan kömək istədim, Şeyxəli xan o tərəfdən kömək vəd etdi, nə oldu? Kafir topuyla, tüfəngiylə gəlib oturub qulağımızın dibində! Gəmiləri də dəryadan bizə baxır! Bu div boyda bir kafir məmləkəti ilə mən hansı dildə danışım, hə?

– Cavad xanın danışdığı dildə.

– Bəs, o dilin axırı nə oldu? Ibrahim xan müdrik adamdı, nə qədər dedi, Cavad xan rəhmətlik qulaq asmadı, özü də qurban getdi, şir kimi oğlunu da qurban verdi! Bəs, Gəncə nə oldu? Tarmar oldu Gəncə! Yoxdur Gəncə! Yeli… Yelizavetta… Yelizavettapol var! Tfu!.. – Hüseynqulu xan atın belindən yerə tüpürdü. – It uşağının sözləri də dilimə yatmır!.. Heç adını da deyə bilmirəm!.. Indi sən istəyirsən ki, Bakı da Aleksandrapol olsun? Yaxşı, bəsdir, əmi – oğlu!.. Vallah, cavan olmasaydın, cəzalandırardım səni.–Sonra Hüseynqulu xan acıqla əlavə etdi.–Ancaq sən də hər dəfə cavanlığına salma!

Uzaqdan atlılar göründü.

Ibrahim bəy:

– Cəmisi iki nəfərdi…– dedi.

Hüseynqulu xan tənə ilə:

– Görürsən?– dedi.– Bunun mənası odu ki, mənim arxamda div boyda nəhəng bir məmləkət durur.

– Yox, bunun mənası odur ki, mən sizi adam hesab etmirəm!..

Hüseynqulu xan bu dəfə əməlli-başlı hirsləndi:

– Bəsdir, Ibrahim bəy! Qurtar bu uşaq-muşaq söhbətini! Özün də atdan düş, get, onları qarşıla, hörmət-izzətlə hüzurumuza gətir. Mən o gələndən sonra atdan düşəcəyəm.

Ibrahim bəy atdan düşüb o iki atlıya tərəf getdi.

… Knyaz Sisianov atın belindən yerə sıçradı və ətrafa baxıb:

– Gəncənin çinarlarından, Qarabağın meşələrindən sonra, o dağlardan sonra buralar çox misgin görünür, polkovnik…

Polkovnik Eristavi də atdan düşdü və:

– Ancaq Qafqazda belə misginlik, bəzən, aldadıcı olur, zat-aliləri… – dedi.

Knyaz Sisianov yenə güldü:

– Siz belə müdrik kəlamlar söyləməkdənsə, məşhur Bakı qalasının qoca divarlarına baxın… – dedi və əlavə etdi: – Bakı kimindirsə, Xəzər də onundur!

Ibrahim bəy onlara yaxınlaşdı.

Knyaz Sisianov onu başdan ayağa süzüb:

– Sən kimsən?– soruşdu.

Polkovnik Eristavi sualı tərcümə etdi.

Ibrahim bəy:

– Mən Hüseynqulu xanın əmisi oğlu Ibrahim bəyəm.

Polkovnik Eristavi tərcümə etdi.

– Bəy?– Knyaz Sisianov gülümsədi.– Bundan sonra kimin bəy olub, olmadığını biz müəyyən edəcəyik!

Polkovnik Eristavi bu sözləri tərcümə etmək istəmədi:

– Knyaz…

Ibrahim bəy də, elə bil, nəsə hiss etdi və:

– O nə deyir?– soruşdu.

Eristavi:

– Heç… Sənə aid deyil…– dedi.

Knyaz Sisianov narazılıqla:

– Siz mənim sözlərimi tərcümə edirsiz, yoxsa özünüz bu adamla söhbət edirsiz?– dedi. – Sonra atlılara tərəf baxıb:– Hüseynqulu bəy o boz atın belindəkidi?– soruşdu.

Eristavi tərcümə etdi.

Ibrahim bəy:

– Bəli,– dedi.

Və bu zaman knyaz Sisianov gülümsədi:

– Qorxusundan başına o qədər atlı yığıb?

Polkovnik Eristavi:

– Zat-aliləri, bu sizə hörmət əlamətidi…

Knyaz əsəbiləşdi:

– Həddinizi aşmayın, polkovnik!– dedi.– Mən sizinlə söhbət etmirəm. Dediklərimi bu adama tərcümə edin!

Ibrahim bəyin görkəmi, dik duruşu, baxışı, gözlərinin ifadəsi açıq-aşkar knyaz Sisianovun xoşuna gəlmirdi.

Ibrahim bəy yenə:

– O nə dedi?– soruşdu.

Eristavi tərcümə etdi.

Ibrahim bəy bu dəfə də:

– Bəs, siz necə, heç kimdən qorxmursuz ki, görüşə ancaq tərcüməçi ilə gəlmisiz?– soruşdu.

Knyaz sözləri xüsusi olaraq aramla tələffüz etdi ki, Eristavi olduğu kimi tərcümə etsin:

– Mən kimdən qorxacağam? – Sisianov Ibrahim bəyin qarşısına gəldi.– Səndən?– Sonra lap yaxınlaşıb gözlərini cavan oğlanın düz gözlərinin içinə zillədi.– Mən heç kimdən, birinci növbədə də səndən qorxmuram!

Ibrahim bəy:

– Nahaq yerə!– dedi və bu sözləri deməyi ilə belindən asılmış xəncəri qınından sıyırıb knyaz Sisianovun ürəyinə soxmağı bir oldu.

Bir anın içində heyrətdən gözləri bərəlmiş knyaz bir söz deməyə macal tapmadı və üzü üstə torpağa sərildi.

Polkovnik Eristavi:

– Knyaz!– qışqırdı və özünü Sisianovun üstünə atdı.

…At belində dayandığı yerdən bütün bunları görən Hüseynqulu xan:

– Sən neylədin, ay köpək oğlu?!–qışqırdı.–Bizi bəlaya saldın!..

## 31.

Axşamçağı yüngül bir külək əsirdi və Xəzərin sularını yüngülcə bir dalğa kimi də sahilə çıxarıb, geri qaytarırdı…

Bakıya axşam düşmüşdü.

Hüseynqulu xan Xan sarayında yaxın ətrafını bir yerə cəm etmişdi.

– Bu əclaf oğlu, əclaf Ibrahim bəy bizi zibilin içinə soxub! Fikirləşdikcə, dəhşət məni basır! – Bir neçə anlıq sükutdan sonra Hüseynqulu xan sözünə davam etdi:– Elə bilirəm ki, Ibrahim bəyi tutub qəfəsə salmaq lazımdı. Molla Fərəculla başda olmaqla bizim ağsaqqallar mənim oğlanlarımla bilikdə Sisianov gorbagorun nəşini götürüb hörmət-izzət ilə ruslara qaytarmalıdı. Necə ki, Ağa Məhəmməd şah Şuşada

qətlə yetiriləndən sonra, Ibrahim xan onun cəsədini böyük hörmət-ehtiramla Tehrana göndərdi. Biz də elə etməliyik. Ibrahim bəyi də qəfəsin içində ruslara təslim etməliyik…– Yenə bir neçə anlıq sükutdan sonra, üzünü ağsaqqala tutdu.– Nə deyirsən, Molla Fərəculla?

Molla Fərəculla:

– Çox ağır məqamdı…–dedi.–Amma bir çıxış yolu tapmalıyıq... Hüseynqulu xan, sən mənim gözlərimin qabağında böyümüsən. Bakı taxtı uğrunda apardığın bütün mübarizələrdə mən sənin yanında olmuşam. Indi də, Allah qoysa, sənin yanında olacağam… Ona görə də, mən fikrimi deyirəm, amma mənim fikrim tamam fərqlidi. Rus bizimlə daha heç vaxt barışmaz və heç vaxt da bizi bağışlamaz. Onun böyük generalını biz öldürmüşük. Özü də davada öldürməmişik, təkcanına danışığa gələndə öldürmüşük. Indi nə qədər boğazımızı yırtsaq ki, and-aman etsək ki, biz onu öldürmək istəmirdik, kim bizə inanacaq? Heç kim! Rus ilə bizimki ömür-billah qurtardı! O biri tərəfdən, Ibrahim bəyi ruslara təslim etsən, millət ayağa qalxacaq. Bu saat Bakı camaatı toy-bayram içindədi ki, rusun böyük generalı öldürülüb. Ibrahim bəy bu saat qəhrəmandı, onu ruslara təslim etsən, Bakı camaatının qabağında dura biməyəcəksən…– Molla Fərəculla susdu.

Hüseynqulu xan:

– Bəs, sən nə təklif edirsən? – soruşdu.

Molla Fərəculla:

– Rusların təbəəliyini qəbul etdiyin üçün, Fətəli şah səndən çox incikdi. Onunla barışmaq və ona sığınmaq lazımdı…– dedi.

– Mən bu iki daşın arasında Fətəli şahla necə barışım ki, ruslarla xosunlaşmağa başlamışdım?..

– Ibrahim xanın adını çəkdin… O Ağa Məhəmməd şahın nəşini Irana qaytardı. Sən də belə bir iş gör…

Hüseynqulu xan darıxdı:

– Molla Fərəculla, mən səni başa düşmürəm. De, görək, fikrin nədi?

– Sən də Sisianovun başını Fətəli şaha hədiyyə göndər!

Molla Fərəcullanın bu sözləri çox gözlənilməz səsləndi və bunu, elə bil, özü də hiss edib:

– Onsuz da, rus ilə bizimki qurtardı! – dedi.– Nə qədər ki, sən Hüseynqulu xan varsan, nə edirsən, et, rus sənin ən qəddar düşmənin olacaq! Belə olan təqdirdə axıracan getmək lazımdı. Divin biri getdi, o birisindən yapışaq!

Hüseynqulu xan Molla Fərəcullaya baxıb əvvəlcə bir söz demədi, sonra qarşısında oturanları bir-bir gözdən keçirib:

– Nə deyirsiniz?– soruşdu.

Heç kim cavab vermədi.

Hüseynqulu xan:

– Allah baiskarın cəzasını versin!– dedi və dərindən köks ötürdü:– Molla Fərəculla ağsaqqalın dediyi olsun!

Məclis iştirakçıları razılıq əlaməti olaraq başlarını tərpətdilər.

Hüseynqulu xan ayağa qalxdı:

– Cəllad Ibadullaya deyin, işini səliqəli görsün!

**32.**

Nöyüt lampası yanan yarıqaranlıq otaqda qollarını çırmalamış iki nəfər knyaz Sisianovun mundirinin paqonlarından yapışıb, onun, yoğun və uzun taxta parçalarından düzəldilmiş taxtın üstündə uzadılmış meyitini irəli çəkdi, çənəsini yuxarı qaldırdı, mundirinin yaxasını aşağı dartdı.

Knyaz Sisianovun boynu tamam açıq idi.

Və o taxtın başında dayanmış cəllad Ibadulla iki əli ilə dəstəyindən yapışdığı böyük, enli dəhrəni yuxarı qaldırdı və var gücü ilə zərbə endirdi.

**33.**

Ay işığında uzaqdan Şuşa qalasının qaraltısı görünürdü.

Və Şuşa qalasına qalxan yolda üç atlı gedirdi.

Əmiraslan bəy yoldan çıxıb atı kənara sürdü və çevrilib, arxadan gələn iki nəfərə:

– Buradan sürün…– dedi.– O tərəfdə ruslar durur…

… Və Əmiraslan bəy beləcə bələdçilik edə-edə ay işığında o iki atlını Şuşa qalasına tərəf aparırdı.

**34.**

Otaqdakı şam işığında dörd nəfər əyləşmişdi: Ibrahim xan, Əmiraslan bəy və Şuşa qalasına qalxan o iki atlı.

Ibrahim xan o iki nəfərə baxa-baxa deyirdi:

– Naibüssəltənə ismarıc göndərəndə ki, mənimlə danışmaq istəyir, çox məmnun oldum. Qibleyi-aləm mənim kürəkənim deyil, oğlumdur!.. Naibüssəltənəyə də mən həmişə qardaşım kimi baxmışam. Mənim ruslara olan iltifatımın yeganə səbəbi məcburiyyət və köməksizliyim olmuşdur. Əmiraslan bəyə də mən tapşırdım ki, siz elçilərə şəxsən bələdçilik edib qalaya qaldırsın.

Elçilərdən biri:

– Təşəkkürümüzü bildiririk, ağayi-Ibrahim xan,– dedi.– Abbas Mirzə Naibüssəltənə bizə belə bir buyruq verib ki, vəziyyətdən siz cənablarını agah edək və kafirlərin əleyhinə bəradərliyimizi bərpa edək.

Ibrahim xan:

– Buyurun, ağalar,– dedi.

– Naibüssəltənənin rəşadətli qoşunları, bu yerlərdəki müsəlman qardaşlarımıza cani-dildən yardım göstərə bilmək üçün, bildiyiniz kimi, indi aran Qarabağın və Şirvanın torpaqlarında yerləşib. Gürcü şahzadəsi Aleksandr bəradərimiz 14 minlik ordusu ilə Gəncənin 65 verstliyində düşərgə salıb və Allah qoysa, Naibüssəltənənin qoşunları ilə bahəm kafirləri həm Gürcüstandan, həm də Şəkidən, Qarabağdan, Şirvandan, Bakıdan tutmuş ta Dərbəndəcən, inşaallah, qovub, dədələrimizin, babalarımızın yurdundan bir dəfəlik çıxarmaq əzmindədir. Firəngistanın padşahı Napoleon qibleyi-aləmə rusların əleyhinə yardım vəd edib və deyirlər ki, Napoleon padşah vədinə əməl edən şəxsdir. Naibüssəltənənin fikri və istəyi belədir ki, xan cənabınız bir həmlə ilə Şuşanı ruslardan təmizləsin və atlıları ilə arana enib Naibüssəltənənin rəşadətli qoşunlarına birləşsin və müştərək kafirlərin axırına çıxaq.

Əmiraslan bəy özünü saxlaya bilməyib:

– Sisianovun qətlindən sonra mayorun əsgərləri lap quduzlaşıb,– dedi.– Yoldan ötəni saxlayıb, yoxlayırlar, elə bil, dədələrinin obasıdı.

Elçilərdən ikincisi:

– Bilirik, baba,– dedi.– Bunları burda saxlayırsız, xanlığı var-yoxdan çıxarır, bir az yerlərini möhkəmlədəndən sonra gör nə olacaq də!.. Ağayi-Ibrahim xan, biz geri qayıtmalıyıq. Naibüssəltənə cənabınızın cavabını gözləyir.

– Naibüssəltənəyə mənim salam və ehtiramlarımı yetirməyinizi rica edirəm, ağayi-elçilər. Əmin olsun ki, mən əlimdən gələni əsirgəməyəcəyəm. Ancaq özümüzü səfərbər etmək üçün bir müddət rüsxət versin. Naibüssəltənə bizim arxalandığımız dağdır. Bir müddət rüsxət, ağalar, rüsxət!.. Rüsxət istəyirəm… Sonra, Allah qoysa, əlimizdən gələni edəcəyik! Naibüssəltənənin buna heç şübhəsi olmasın!.. Ruslar tək sizin üçün kafir deyillər ki, ağalar, bizim üçün də kafirdirlər də!.. Indi isə yola çıxmazdan əvvəl bir az dincəlin, nahar edin. Yenə Əmiraslan bəy özü sizi yola salacaq.

Ibrahim xan ayağa qalxdı. Elçilər də ayağa qalxdı və baş əyib otaqdan çıxdılar. Əmiraslan bəy də dişarı çıxmaq istəyəndə xan onu əylədi:

– Sən qal.

Əmiraslan bəy ayaq saxladı. Xan ona baxıb:

– Sən nə fikirləşirsən?– soruşdu.

Əmiraslan bəy:

– Əlahəzrət,– dedi.– Mən siyasətə müdaxilə edən adam deyiləm. Mənimki qılıncdır və sizin əmrinizdir. Ancaq elçilər çox pərt qalxdılar, xan sağ olsun. Soldatlar da həddini aşıb, qudurublar. Sisianovun qətlindən sonra heç kimlə hesablaşmırlar, azğınlaşıblar. Ermənilər də bir tərəfdən yavaş-yavaş onlarla dilbir olmağa başlayıb... Vanya yüzbaşı günün günorta çağı heç nədən çəkinmir, gedib, girir rusların qərargahına…

Ibrahim xan gülümsədi:

– Vanya yüzbaşı nədi ki, nə də eləyə bilsin? Indi biz bu həngamədə Vanya yüzbaşının dərdini çəkəcəyik?

– Bilmirəm, xan sağ olsun! Ancaq əmr versəniz, mən elə bu gecə hücum çəkib, onları didərgin salaram!

– Qulaq as, qoşunbaşı, qızışma! Saday bəy bədbəxt oğlu, qızışdı, axırını gördük!.. Elçilər hər şeyi demədilər axı! Ruslar Ağdamda 4000 sərbazı darmadağın elədi. Abbas Mirzə qorxur və bizim əlimizlə öz mövqeyini möhkəmlətmək istəyir. Mən rusları buradan qovum, ruslar da Iran qoşununa qalib gəlsin, onda Qarabağın günü nə olacaq? Gözləmək lazımdı… 500 əsgərin öhdəsindən gəlmək asandı, amma biz rus əjdahası ilə kəllə-kəlləyə gələ bilmərik!.. Gözləyək, görək, divlərin boğuşması nə ilə qurtaracaq, onda da qərarımızı verərik.

Əmiraslan bəy:

– Üzr istəyirəm, xan həzrətləri,– dedi.– Onda gec olmayacaq ki?..

Ibrahim xan yüngülcə gülümsəyib:

– Islanmışın yağışdan nə qorxusu?– dedi. – Sonra da əlavə etdi: – Səhər tezdən üç-dörd günlük Xankəndinə gedib dincələrəm, görək sonrası nə olur. Sən də bizimlə gedəcəksən. Bu elçiləri isə ehtiyatla yola sal ki, rusların xəbəri olmasın!

**35.**

Elə həmin gecə Vanya yüzbaşının pəncərəsi həyəcanla döyüldü.
Vanya yüzbaşı yatağında qurcalanıb:
– Ara, kimdi yenə bu gecə vaxtı?– soruşdu və qalxıb çarpayıda oturdu.
Kimsə yavaş və həyəcanlı səslə pəncərədən onu səslədi:
– Vanya dayı!.. Vanya dayı!..
Vanya yüzbaşı:
– Zəhrimar, Vanya dayı! Çor, Vanya dayı!– deyib çarpayıdan düşdü.
Əri ilə eyni çarpayıda yatmış Haykanuş arvad da oyanıb çarpayıda dikəldi:
– Vallah,– dedi,– bunlar sənin axırına çıxacaqlar! Əyninə bir şey sal, soyuq olar sənə! Qov onları, qayıt, gəl, gir yerinə!
Vanya yüzbaşı:
– Hara qovum o yetimləri, ay arvad, hara? Yerləri-yurdları var ki, bu bədbəxtlərin?.. Eh, ay Haykanuş, deyirsən də…– deyə deyinə-deyinə pəncərənin qabağına gəldi və şüşənin bir tayını açıb, əvvəlcə: – Ara, soyuğa bax, e!..– dedi. – Sonra pəncərədən boylandı.– Hə?
Pəncərəni döyən adam yüzbaşının qulağına tələm-tələsik nəsə pıçıldamağa başladı.
Haykanuş arvad çarpayıdan düşüb ərinin çiyninə adyal saldı.
Vanya yüzbaşı çiynindəki adyalı özünə bürüyə-bürüyə adama:
– Yaxşı, matağını,–dedi.– Get, soyuqdu, sətəlcam olarsan!– Və pəncərənin tayını bağladı.
Haykanuş arvad:
– A kişi, vallah, sən özün özünə qəsd edirsən!– dedi.– Hamını fikirləşirsən, özündən başqa! Gəl, gəl, gir yerinə!
– Yox, mən daha yata bilmərəm. Gedirəm çay dəmləyim. Sənə də gətirim?
– Yenə nə bəd xəbər verdilər sənə, hə?– Haykanuş arvad da çiyninə adyal salıb, otağın küncündə zəif işıqla yanan şamı əlinə aldı və ərinin ardınca o biri otağa keçdi.– Bunlar nə vaxt əl çəkəcəklər səndən?
Vanya yüzbaşı gülümsədi:
– Onlar məndən yox, mən onlardan əl çəkə bilmirəm e, ay arvad, mən!..– Maşanı götürüb əyildi və samovarın közünü qurdaladı.– Mən öz millətimə arxa çevirə bilmərəm, Haykanuş!..
– Bilmirəm, vallah, nə deyim?.. Səndən çox nigaran qalıram… Sənin indi daha o cavan vaxtların deyil!
Vanya yüzbaşı gülümsədi:
– Nədi, deyirsən day qocalmışam?
– Deyirəm ki, özünə yazığın gəlmir, heç olmasa, mənə yazığın gəlsin!.. Neynəyəcəyəm sənsiz mən?.. Gecə bilmirsən, gündüz bilmirsən… Belə olmaz axı… Elə bilirsən sənin qədrini biləcəklər?..
– Kim kimin qədrini bilir ki?.. Bu axmaq dünyada insanın bir qəpiklik qiyməti var ki?!. Eh, deyirsən də… – Vanya yüzbaşı soyuqdan bədənini silkələyib adyalın içində büzüşdü.– Nə isə… Təki millətə bir gün ağlayaq…
Haykanuş ərinin qoluna qısıldı:
– Vallah, özünü məhv edəcəksən…– deyə pıçıldadı.

– Bu dünya kimi tutub saxlayıb özündə? Isgəndəri saxlayıb? Tiqranı saxlayıb? Vanyanı da saxlamayacaq… Bizim bu bədbəxt millət, ay arvad, haçansa bir gün görməlidi, ya yox?.. Yüz illərlə guşənişin yaşamaq elə bizim boyumuza biçilib? – Sonra samovarın lüləsindən közü üfürməyə başladı.– Bunun közü lap sönüb ki…

Haykanuş arvad:

– Sən çəkil,– dedi.– Indi özüm od salaram…

**36.**

Vanya yüzbaşı həyəcanla mayor Lisaneviçin iş otağının qapısını açdı və içəri girib salamsız-kəlamsız dedi:

– Cənab mayor, sizin xəbəriniz var ki, bu gecə Abbas Mirzənin iki nəfər elçisi Şuşa qalasına gəlib və Ibrahim xanla görüşüb?

Mayor Lisaneviç:

– Ola bilməz!– dedi və yazı masasının arxasından qalxdı. – Mənim adamlarım gecə-gündüz qalanı qoruyurlar!

– Sizin adamlarınız mənim adamlarım kimi bu dağların hər qarışına bələd deyil, mayor! Gecə Abbas Mirzənin iki elçisi Əmiraslan bəyin bələdçiliyi ilə Şuşaya gəlib, Ibrahim xanla gizli danışıqlar aparıblar! Bəlkə siz istəyirsiniz ki, mərhum knyaz Sisianov kimi, bu türk xanları sizin də başınızı kəssinlər?! Hə? Amma mən istəyirəm ki, Allah məni çağıranda, öz isti yorğan-döşəyimdə, öz əcəlimlə onun hüzuruna gedim!

Mayor Lisaneviç:

– Mən heç vaxt Ibrahim xana inanmamışam! – dedi.– Bu adamın gözlərindən hiylə yağır!

Vanya yüzbaşı sakitləşmək bilmirdi:

– Nə olsun ki, inanmırsız?.. Inanmırsız, ancaq heç nə də etmirsiz! Abbas Mirzə öz sərbazları ilə Şuşanın əlli-altmış verstliyindədi. Ibrahim xanın quldurları gecə üstünüzə hücum çəksə, hara qaçacaqsınız? Elə bilirsiz, bu 500 ac soldatla Qarabağ quldurlarının öhdəsindən gəlmək asandı? Siz hələ bu türk tayfasını tanımırsız!.. – Vanya yüzbaşı əlini baldırına çırpdı.– Məzhəb haqqı, mən mat qalıram! Ara, Rusiya boyda bir zırpı məmləkət, üzr istəyirəm, bu qədər sadəlövh ola bilər?! Ibrahim xan özü də bu gün bütün ailəsini götürüb, gedib Xankəndinə.

– Xankəndinə gedib?

– Bəli. Sizin bundan da xəbəriniz yoxdu? Soldatlarınızın araq içməkdən başı ayılır ki?!

Mayor Lisaneviç yüzbaşının son sözlərinə fikir vermədi.

– Nə üçün gedib?

– Bunu ondan soruşmaq lazımdır!

Mayor Lisaneviç həyəcan içində otaqda var-gəl etməyə başladı və:

– Ailəsi ilə bir yerdə…– deyə, elə bil, özü özü ilə danışmağa başladı.– Nəsə oyun oynayır… Şübhəsiz oyun oynayır, özünü də, ailəsini də təhlükəsiz yerə çəkir… Mən Tiflisə təcili çapar göndərməliyəm.

Vanya yüzbaşı:

– Qorxuram ki, gec ola,– dedi.– Siz özünüzün, soldatlarınızın başını qorumasaz, heç kim sizin başınızı qorumayacaq, mayor!

## 37.

## 15 iyun 1806-cı il. Şuşa yaxınlığındakı Xankəndi. Xanın yay iqamətgahı.

Cırcıramaların səsi hər tərəfə yayılmışdı və bir tərəfdən də qurbağaların qurultusu o yay gecəsində dünyanın gözəl bir xətircamlığından xəbər verirdi…

… Ibrahim xan ev libasında iqamətgahın həyətində oturub qızıl nargilə çəkirdi.

10 yaşlı Gövhər ağa başını onun dizinin üstünə qoymuşdu.

Tuba xanım iqamətgahdan çıxıb:

– Yatdı?– soruşdu.

Ibrahim xan:

– Hə…– dedi və gülümsədi.– Danışdı, danışdı, axırda yatdı…

– Aparım içəri.

– Yox, qoy, bir az yuxulasın yanımda…

Tuba xanım gəlib ərinin yanında oturdu.

– Ibrahim…

– Nədi?

– Bu işlərin axırı necə olacaq?..

Ibrahim xan yenə gülümsədi:

– Yaxşı olacaq…

Və elə bu dəm qəfildən açılan güllə səsləri, at kişnərtisi, hay-küy aləmi bürüdü:

– Strelyay!..

– Rubi ix!..

– Qırdılar bizi!..

– Ruslar gəlib!..

… Mayor Lisaneviç başda olmaqla atlı soldatlar iqamətgaha hücum etmişdi.

Rus soldatları qışqırırdı:

– Rubi vsex! Vsex etix svoloçey!

… Iqamətgahda yuxudan durmuş uşaqlar – Abbasqulu ağa, Səltənət bəyim, Hacı Hacan ağa, Əli ağa, qadınlar, nökər və kənizlər qışqıra-qışqıra bir-birinə qarışmışdı.

… Tuba xanım:

– Uşaqlar!..– Qışqırıb iqamətgaha qaçdı.

Gövhər ağa yuxudan kal durub, qorxudan titrəyə-titrəyə atasının böyrünə qısıldı.

Ibrahim xan:

– Qorxma, qızım, qorxma!..– deyirdi.

…Soldatlar atla iqamətgahın içinə girdi.

… Qılıncı başının üstünə qaldırmış Mayor Lisaneviç:

– Nikomu net poşadı!– qışqırdı.– Nikomu!

…Soldatlar qarşılarına çıxanı – uşağı, qadını, qocanı at belindən qılıncdan keçirirdi.

… Ibrahim xan Gövhər ağanı qucağına götürüb qalxmaq istədi, amma macal tapmadı, elə həmin an da onun üstünə çapan soldatın gülləsi xanı sinəsindən vurdu.

Ibrahim xan bir əli ilə Gövhər ağanı, o biri əli ilə qanı axan sinəsini tutub oturdu.

Ikinci gülləni atmaq istəyən soldat özü vurulub atdan aşdı və əli tüfəngli Əmiraslan bəy Ibrahim xanın üstünə atıldı.

– Dur, xan, dur!.. Tez elə!..

Ibrahim xan:

– Əmiraslan bəy!.. Mənlə işin olmasın…

Əmiraslan bəy:

– Qalx, xan!..– deyə təkid etdi.– Səni buradan çıxaracağam!..

Ibrahim xan:

– Mənimki qurtardı…– dedi və Gövhər ağanı bəyə tərəf itələdi.– Bunu qaçırt!..

– Mən səni burada belə qoya bilmərəm, xan!..

Ibrahim xan yenə Gövhəri göstərib, tamam taqətsiz halda:

– Tez qucağına al onu, apar!.. Tez…

Əmiraslan bəy Ibrahim xanın sinəsindən fışqırıb axan qana baxıb, tərəddüd etdi.

Nəfəsi darıxan Ibrahim xan:

– Apar, dedim… Tez elə…– deyə pıçıldadı.

Əmiraslan bəy yenə xanın qanlı köksünə baxdı, sonra qərar verərək Gövhər ağanı qamarlayıb özünü qaranlığa verdi.

… At belində yataq otağına girmiş soldat bir küncə qısılmış Abbasqulu ağanı qılıncdan keçirdi.

… Ağ gecə köynəyi qana bulaşmış Səltənət bəyimin dəhşətdən böyümüş gözləri eləcə donub qalmışdı.

… Soldatlar süngünü dəhşətdən qışqıra-qışqıra ağlayan Hacı Hacan ağanın boğazına soxdu.

… Əli ağa uzun ağ gecə köynəyinin ətəkləri ayaqlarına dolaşa-dolaşa qaçırdı və rus soldatının gülləsi onun kürəyini qana boyadı.

… Mayor Lisaneviç çaparaq Ibrahim xanın qarşısında dayandı.

Xan altdan yuxarı mayora baxdı və güclə gülümsədi:

– Allaha kömək edirsiz, mayor?

Mayor Lisaneviç ayaqlarını üzəngiyə basıb dikəldi və var gücü ilə Ibrahim xanı qılıncdan keçirdi:

– Staraya lisa!..

… I Aleksandr dodaqlarındakı yüngül təbəssümlə eləcə portretdən baxırdı…

Vaxtı ilə knyaz Sisianovun imperatorun öz adından Ibrahim xana hədiyyə etdiyi portret – I Aleksandrın portreti divardan asılmışdı.

Bütün bədəni uçunan Tuba xanım otaqda yerə çökdü, hər iki əli ilə də baldırlarına vura-vura qarşısındakı şəkilə baxıb, xırıltılı səslə qışqırdı:

– Allah bu zülmü yerdə qoymayacaq! Allah bu müsibəti sənin də nəslinə qimət edəcək!– Qışqırmaqdan Tuba xanımın boğazının damarları şişib az qalırdı partlasın.– Allah…

Soldatın qılıncı Tuba xanımı sözlərini yarımçıq kəsdi və bu qadını həmişəlik susdurdu.

## 38.

**23 fevral 1806-cı il. Sankt–Peterburq. Qış sarayı.**

Imperator I Aleksandr iş otağında yazı mizinin arxasında oturmuşdu.

Daxili işlər naziri ayaq üstə onun qarşısında dayanıb məruzə edirdi.

Nazir:

– Qarabağ xanı ilə birlikdə qətlə yetirilənlərin siyahısı…– dedi və susdu.

Imperator əmr etdi:

– Oxuyun!

Nazir iki əlilə də tutduğu qovluğu bir az da gözlərinə yaxınlaşdırıb siyahını oxumağa başladı:

– Ibrahim xan… Tuba xanım – arvadı… Abbasqulu ağa – oğlu, 12 yaşında… Səltənət bəyim – qızı, 9 yaşında… – nazirin əlləri gözgörəti titrəyirdi.– Hacı Hacan ağa – oğlu, 8 yaşında… Əli ağa – oğlu, 6 yaşında…

Imperator:

– Kifayətdir!– dedi və mizin arxasından qalxıb otaqda gəzişməyə başladı.– Hamısı neçə nəfərdir.

Nazir:

– Xidmətçilərlə bir yerdə 21 nəfər, əlahəzrət…

Imperator var-gəl edə-edə əsəbi halda:

– Kimdir mayor Lisaneviç?– soruşdu.

Daxili işlər naziri cavab vermək istədi:

– Mayor Lisaneviç Qarabağda Şuşa qarnizonunun…

Imperator onun sözlərini yarımçıq kəsdi və:

– Heç kim!– deyə özü öz sualına cavab verdi.– Heç kim! Mayor Lisaneviç heç kimdir! Sıfırdır! Sıfır!.. Allah bu qırğının cəzasını Romanovlara verəcək!..

## E P İL O Q

Xacə əlində şam tutub sarayın qaranlıq arakəsmələri ilə irəlidə addımlayırdı.

Ağabəyim Ağa onun ardınca gedirdi.

Xacə qapılardan birinin qabağında ayaq saxladı və qapının ağzında dayanmış keşikçiyə:

– Qibleyi-aləmin razılığı var,– dedi.

Keşikçi kənara çəkildi.

Xacə, onun ardınca da Ağabəyim Ağa otağa girdi.

Yalnız xacənin əlindəki şamın zəif şöləsi ilə işıqlanan otağın ortasında, girdə mizin üstündə qırmızı ipək örtük salınmış qabarıq bir şey var idi.

Xacə o biri əlini uzadıb örtüyü qaldırdı.

Bu – qızıl məcməyinin içində knyaz Sisianovun başı idi.

Ağabəyim Ağa şamı xacədən alıb knyazın başına yaxınlaşdırdı.

Və indi baş şam işığında aydın görünürdü.

Ağabəyim Ağa bir müddət başa baxdı.

Sonra Ağabəyim Ağa şamı xacəyə qaytarıb otaqdan birinci çıxdı…

**E k r a n d a   y a z ı l d ı:**

Ağabəyim Ağa Azərbaycan və fars dillərində şerlər yazaraq Şərqdə məşhur oldu, ömrünün sonlarında tərki–dünya bir həyat sürərək əri Fətəli şahdan üç il əvvəl – 1831-ci ildə Iranın Qum şəhərində vəfat etdi.

Əbülfət ağa Abbas Mirzənin başçılığı ilə Iran qoşunlarının Cənubi Qafqaza bir neçə hücumunda iştirak etsə də, bir daha Qarabağa qayıda bilmədi və 1839–cu ildə 73 yaşında Iranda vəfat etdi.

Mayor Lisaneviç podpolkovnik rütbəsində istefaya çıxdı və birdən-birə Qafqazın gözəl və sirli təbiəti haqqında şerlər yazmağa başladı, amma bu şerlər heç kimin diqqətini cəlb etmədi, buna baxmayaraq, uzun ömür sürüb 91 yaşında Sankt-Peterburqda vəfat edən Lisaneviç, ömrünün sonuna kimi Qafaqaz haqqında şerlər yazdı.

Polkovnik Qaryagin 1809-cu ildə aran Qarabağdakı Qarabulaq döyüşündə həlak oldu və Qarabulaq şəhəri onun şərəfinə uzun müddət Qaryagin adını daşıdı.

Pirqulu xan 4 avqust 1805-ci ildə Fətəli şahın əmri ilə edam edildi.

Vanya yüzbaşı əlahəzrət imperator I Aleksandrdan nəsildən nəsilə keçmək şərti ilə «Məlik» rütbəsi aldı və 1811-ci ildə 71 yaşında Şuşada, sətəlcəmdən vəfat etdi.

Aşot Karapetyan bir neçə müşayiətçi ilə bərabər, növbəti dəfə Araz çayını keçib Şimali Azərbaycana gəlmək istərkən sərhəddə quldurlar tərəfindən qarət edilərək qətlə yetirildi.

Gövhər ağa böyüyərək xeyriyyəçi kimi məşhur oldu, Qarabağda öz hesabına məscidlər tikdirdi, məktəb və xəstəxanalar açdırdı, körpülər saldırdı və 1867-ci ildə Şuşada vəfat etdi.

Əmiraslan bəy başına dəstə toplayıb Şuşa dağlarında ruslara qarşı qaçaqçılıq həyatı yaşadı, tez-tez və hər dəfə də gözlənilməz basqınlar edərək bir çox rus soldatını, zabitlərini qətlə yetirdi, çar hökuməti onun başına 500 çervon qiymət qoydu və yaxın ətrafının xəyanəti nəticəsində ələ keçən Əmiraslan bəyi ruslar 1816-cı ildə Gorusda dar ağacından asdılar.

Ibrahim bəy knyaz Sisianovu qətlə yetirdikdən sonra bir müddət Abşeron yarımadasında gizləndi, Rusiya Bakını ələ keçirdikdən sonra Irana qaçdı və heç kim onun sonunun nə ilə qurtardığını bilmədi.

Polkovnik Eristavi knyaz Sisianovun qətlindən sonra istefaya çıxdı və 1813-cü ildə Sankt-Peterburqda rus zabiti ilə dueldə həlak oldu.

Ibrahim xandan sonra Qarabağın xanı onun oğlu Mehdiqulu xan oldu və 1822-ci ildə Rusiya Kürəkçay müqaviləsini pozaraq Qarabağ xanlığını ləğv etdi.

Cənubi Qafqaz uğrunda davamlı müharibələrdən Rusiya qalib çıxdı. 1828-ci il fevralın 10-da Rusiya ilə Iran arasında Türkmənçay müqaviləsi imzalandı və həmin müqaviləyə Iran tərəfdən Abbas Mirzə imza atdı. Rusiya Cənubi Qafqazı, o cümlədən Şimali Azərbaycanı işğal etdi, bütün xanlıqlar ləğv olunaraq, Rusiyanın əyalətinə çevrildi. 90 ildən sonra – 1918-ci ildə Azərbaycan Respublikası öz müstəqilliyini elan etdi, ancaq iki il keçmiş – 1920-i ildə rus-bolşevik ordusu tərəfindən yenidən işğal olundu və yalnız 1990-cı ildə öz müstəqilliyini bərpa etdi.

Gəncənin adı yalnız XX əsrin sonlarında – 1989-cu ildə özünə qaytarıldı. 2005-ci ildə Gəncədə, Cavad xanın qəbri üzərində məqbərə ucaldıldı.

**S O N**

***6 – 19 yanvar 2005.***
***Istanbul.***

## MÜNDƏRİCAT

**POVESTLƏR**

Bir görüşün tarixçəsi ………………………………………………. 4
Toyuğun diri qalması……………………………………………. 74
Dolça ……………………………………………………………. 99
Bayraqdar ……………………………………………………….. 150

**KİNOPOVESTLƏR**

Ox kimi bıçaq …………………………………………………… 189
Aman ovçu, vurma məni…………………………………………. 245
Hökmdarın taleyi…………………………………………………. 301

ELÇİN
(ƏFƏNDİYEV ELÇİN İLYAS oğlu)

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

*(10 cilddə)*
2-ci cild


NƏŞRİYYAT REDAKTORU *Akif Dənzizadə,*

RƏSSAMI *Ilqar Tofiqoğlu,*

BƏDİİ REDAKTORU *Ilham Niftəliyev,*

TEXNİKİ REDAKTORU *Denis Izuf,*

KORREKTORLAR *Rəfiqə Qəmbərqızı, Fəridə Ələsgərli, Gülarə Qədirova,*

OPERATORLAR *Aygün Əmirli, Elnurə Abuşeva, Ramilə Əliyeva,*

ÇAPA MƏSUL *Sərraf Mürsəlov, Anar Abdullayev, Azər Yunusov.*

*Çapa imzalanmış 10.09.2005,*
*formatı 60x90 1/16,*
*32,75 ç.v.*
*ofset kağızı ¹1, tayms qarnituru,*
*sifariş 01/02,*
*sayı 1000.*

*Kitab*
***«ÇİNAR-ÇAP»***
*nəşriyyatında nəşrə hazırlanmış*
*və*
*ofset üsulu ilə çap olunmuşdur.*
*Tel.: 4989555, 4937255, 4902757*